*Bu kitabı həyatdan nakam köçmüş oğlum Fəxri Əliyarovun əziz xatirəsinə həsr edirəm.*
İltifat Əliyarlı



ƏLİYAROV FƏXRİ İLTİFAT oğlu 15 mart 1979-cu ildə Beyləqan rayonunun Birinci Şahsevən kəndində doğulmuş, 1996-cı ildə Bakı şəhəri 30 saylı məktəbi bitirmiş, elə həmin il Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının əyani şöbəsinə daxil olmuşdu. Akademiyanı bitirdikdən sonra 2000-2009-cu illərdə təyinatla Bakı Şəhər Baş Polis İdarəsinin Səbail Rayon Polis İdarəsi 8-ci Polis Bölməsində sahə inspektoru, Sumqayıt Şəhər Polis İdarəsində 3-cü Polis Bölməsinin əməliyyat müvəkkili, Quba Rayon Polis Şöbəsində əməliyyat müvəkkili vəzifələrində xidmət etmiş, polis kapitanı rütbəsinə layiq görülmüşdü.

... Sonra xəstələnmiş... və öz ərizəsilə könüllü şəkildə Daxili İşlər Orqanlarından xaric olunmuşdu... Axırıncı iş yeri Bakı şəhərində "Respublika" bankında Təhlükəsizlik Xidməti Departamenti direktorunun müavini vəzifəsi idi. Ömrünün son üç ilində Bakı, Moskva, Ankara və İstanbul şəhərlərində müalicə almasına baxmayaraq, 10 iyul 2011-ci ildə 32 yaşında dünyasını vaxtsız dəyişmişdir. Aişə adlı kiçik yaşlı qız övladı yadigar qalmışdır...

İLTİFAT ŞAHSEVƏN (ƏLİYARLI)

# AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN DAXİLİ İŞLƏR NAZİRLƏRİ VƏ SİLAHDAŞLARI

## (İSTİQLAL FƏDAİLƏRİ)
## (1918-20)

- 19412 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı – Mütərcim – 2017

Redaktor: **Zülfüqar Şahsevənli**

Elmi redaktor: **Şikar Qasımov**
*tarix elmləri doktoru, professor*

Məsləhətçilər: **Yəhya Əliyev**
*Ankara Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının akademiki, Avropa (Hannover) Universitetinin hüquq və tarix üzrə doktoru, professor, istefada olan polis polkovniki*

**Tahir Behbudov**
*tarix üzrə fəlsəfə doktoru, dosent, istefada olan polis polkovniki*

Rəyçilər: **Əzizə Nəzərli**
*tarix üzrə fəlsəfə doktoru*

**Bəhram Məmmədli**
*tarix üzrə fəlsəfə doktoru*

**Ənvər Çingizoğlu**
*genealogiya üzrə tədqiqatçı, etnoqraf, jurnalist, AzTV-nin əməkdaşı*

**İltifat Şahsevən (Əliyarlı). Azərbaycan Cümhuriyyətinin daxili işlər nazirləri və silahdaşları (İstiqlal fədailəri) (1918-20-ci illər).** – Bakı. Mütərcim, 2017. 476 s.

*Kitab xalqımızın dövlətçilik tarixində özünəməxsus yer tutan Birinci Respublika - Azərbaycan Cümhuriyyəti (Respublikası) (tarixi ədəbiyyatda Qafqaz Azərbaycanı Respublikası, Azərbaycan Respublikası, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan Demokratik Respublikası da adlanır) dövründə milli istiqlalımızın keşikçiləri olmuş, ölkədə qayda-qanunun, hüquq mühitinin formalaşmasında, ictimai asayişin bərqərar edilməsində və cinayətkarlıqla mübarizəsində müstəsna xidmətlər göstərmiş daxili işlər nazirləri, onların silahdaşları və məsləkdaşlarının, habelə bu yöndə fəaliyyət göstərmiş digər şəxsiyyətlərin həyat və fəaliyyətindən bəhs edir. Kitabda Cümhuriyyətimizin daxili işlər nazirlərinin həyata keçirdikləri islahatlar, yeniliklər, kadr təyinatları və ictimai asayişin, vətəndaşların hüquq və azadlıqlarının, şəxsi həyatının qorunması, əmlak toxunulmazlığının təmin edilməsi, həmçinin cinayətkarlıqla mübarizə sahəsində gördükləri tədbirlər və s. öz əksini tapmışdır. Oxucular burada daxili işlər nazirləri vəzifəsində çalışmış və fərqli xarakterlərə malik şəxsiyyətlər, 1918-20-ci illərdəki mürəkkəb ictimai-siyasi proseslər fonunda gördükləri işlər, bu işlərin müsbət və mənfi tərəfləri, fərdi həyatları və insani keyfiyyətləri, habelə onların aqibətləri ilə tanış ola bilərlər.*

*Kitabdan Azərbaycan Respublikası Daxili İşlər Orqanlarının əməkdaşları, DİN-in tədris müəssisələrinin müdavimləri, hüquq və tarix fakültəsinin tələbələri, o cümlədən geniş oxucu kütləsi bəhrələnə bilər*

Azərbaycan Respublikasının müəlliflik hüququ haqqında qanunla qorunur (Bax: Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu, 5 iyul 1996-cı il, nömrə 115-I). Kitabın istifadəsi ilə bağlı bütün müstəsna hüquqlar müəllifə məxsusdur. Kitabı müəllifin və nəşriyyatın yazılı icazəsi olmadan bütövlükdə və yaxud hissə-hissə dərc etdirmək qadağandır.

Ş $\frac{0505040000}{026}$ 176-17

© İ. Şahsevən (Əliyarlı), 2017

# MÜNDƏRİCAT

Redaktordan .......... 5

Ön söz .......... 7

**Birinci fəsil**
Azərbaycan Cümhuriyyətinin daxili işlər nazirləri .......... 10

**İkinci fəsil**
Azərbaycan Cümhuriyyəti daxili işlər nazirlərinin silahdaşları .......... 262

Nəticə .......... 433

Xronologiya .......... 435

Kitabda işlənən əcnəbi (Şərq və Avropa) mənşəli sözlərin izahı və şərhlər .......... 436

İstifadə olunmuş mənbələrin, ədəbiyyatın təsnifatı və siyahısı .......... 457

Müəllif haqqında .......... 474

## REDAKTORDAN

XX əsr inqilabları, qanlı müharibələri, kütləvi repressiyaları, dramatik hadisələri ilə milyonlarla insanların, bütöv nəsillərin, xalqların taleyinə, ömrünə-gününə, yaddaşına qara-qırmızı hərflərlə yazıldı. Bu təzadlı rəng tandemi, bağrıbadaş, qolboyun qan və zülmət xofu insanların az qala genetik xəstəliyinə çevrildi.

Qırmızı qan, qara dərd, kədər ələm rəngidi. Xalqımız bu qanın, zülmətin, kədərin son ucunda, əsrin bu başında işığa, aydınlığa, azadlığa, müstəqilliyə qovuşdu. Qovuşdu... amma bir gözü gülsə də, bir gözü qan ağladı.

Azərbaycanın müstəqilliyində, azadlığında böyük oğulların, tarixi şəxsiyyətlərin rolu, xidməti danılmazdı. Dan ulduzu kimi xalqı, milləti öz dalınca aparan, onu yaman yellərdən qoruyan belə oğullarımızın neçəsi düşmən gülləsinin, məkrli oyunların, xəyanətlərin qurbanı oldu.

Böyüklərin faciəsi böyük olur. İllər uzunu imperiya maşınının süzgəcdən keçirdiyi, düşünülmüş şəkildə unutdurmağa, qaralamağa çalışdığı böyük şəxsiyyətlərimizi xalqımıza zaman-zaman əyri güzgüdə göstərməyə çalışdılar. Amma hər şeydən ucada dayanan əlahəzrət vaxt, zaman "yağı yağ, ayranı ayranlıq etdi". Bu yerdə Məmməd Arazın qızıl mismara bənzər misraları necə də yerinə düşür:

*Zaman gözlüyünü gözünə taxsa,*
*Yerlər də yerində oturacaqdır.*

Bəli, müdrik zaman gözlüyünü gözünə taxdı və biz gördük ki, XX əsrin əvvəllərində Azərbaycan Cümhuriyyətini yaradan, onu qısa müddətdə dünyaya tanıdan qüdrətli dövlət xadimlərimiz, diplomatlarımız, hərbçilərimiz, sərkərdələrimiz olub.

Azərbaycan dövlətçiliyinin 2 ilə yaxın gecə-gündüz keşiyini çəkən, uğrunda canından keçən qüdrətli oğullarımızın ömür yolundan bəhs edən bu kitab həm də xalqımızın şərəfli tarixidir, əziz oxucu!

Tanınmış tarixçi alim İltifat Əliyarlının "Azərbaycan Cümhuriyyətinin Daxili İşlər Nazirləri və silahdaşları" ensiklopedik məlumat kitabını mən son illərin unikal nəşrlərindən biri adlandırardım.

Hər bir vətən övladının stolüstü kitabı olmağa layiq bu möhtəşəm kitab həm də yaddaş məhkəməsi, yaddaş ağrısı, harayıdır.

Böyük zəhmətin, axtarışların, yuxusuz gecələrin məhsulu olan bu kitabın hər birimizə xitabən bir "Özünə qayıt! Sən özünə qayıdanda güclü, qüdrətli, yenilməz olursan!" harayı var.

*Bu haray həm də dünənin*
*Başım cəllad əlində,*
*Dilim səni haraylar.*
*Nidası ,harayıdır...*
*Haraya qoşul!*

*Zülfüqar Şahsevənli*



## ÖN SÖZ

*Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır... XX əsr bizim xalqımız üçün faciəli olubdur. Bunu dürüst qeydə almaq, bütün baş verənləri necə olubsa, o cür yazmaq lazımdır. Bütün bunlar bizim xalqın özünü dərk etməsi, həm də müasir siyasətimiz üçün vacibdir.*

**HEYDƏR ƏLİYEV**

Belə bir deyim var: "Əgər xalq öz keçmişini xatırlamırsa, həmin xalqın istiqbalı da olmayacaq". Bu, doğrudan da belədir. Azad istiqlala, müstəqil dövlətə, dövlətçiliyə can atmayan millət və xalq yəqinki, yoxdur. Müstəqil dövləti, sərbəst dili olmayan millət və xalq "ölüdür".

Müstəqil dövlət xalqın milli sərvətidir. Bu mənada müstəqil dövlətimizi göz bəbəyi kimi qorumalı, onun tərəqqi etməsi, zənginləşməsi və qüdrətlənməsi üçün töhfəmizi verməliyik. Eyni zamanda, öz milli dövlətçiliyimiz tarixini də yaxşı bilməli, tədqiq edib öyrənməli, yazılmayan, öyrənilməyən səhifələrini obyektiv şəkildə qələmə almalı, təbliğ etməli və gələcək nəsillərə ötürməliyik. Bu mənada XX əsrin başlanğıcında öz əzmli mübarizəsilə "xalqlar həbsxanası" sayılan çar Rusiyasının əsarət boyunduruğundan qurtularaq, müstəqil dövlətini- Şərqdə ilk parlamentli demokratik respublikanı-Azərbaycan Cümhuriyyətini yaradan xalqımızın görkəmli ictimai-siyasi xadimləri M.Ə.Rəsulzadə, F.Xoyski, N.Yusifbəyli, Ə.M.Topçubaşov, H.Ağayev, M.Y.Cəfərov, B.Cavanşir, M.H.Hacınski, X.Xasməmmədov, M.Vəkilov, M.S.Ağabəyzadə, Ş.Rüstəmbəyli, A.Aşurov, A.Səfikürdski, M.Axıcanov, X.Sultanov, İ.Ziyadxanlı və başqaları əsl milli istiqlal fədailəri, müstəqil dövlətimizin qurucuları və qoruyucuları olmuşlar.

Xalqımızın müstəqil dövlətçiliyi tarixində Birinci Respublika kimi səciyyələndirilən Azərbaycan Cümhuriyyəti (28 may 1918-27

aprel 1920-ci il), (İkinci Respublika - Azərbaycan SSR (28 aprel 1920-ci il - 17 oktyabr 1991-ci il; Üçüncü Respublika - Müasir Azərbaycan Respublikası (18 oktyabr 1991-ci ildən - əbədidir...) iki ilə yaxın, 23 ay, cəmi 721 gün mövcud olmuşdur. Azərbaycan Cümhuriyyətinin yaradıcılarından biri, görkəmli ictimai-siyasi xadim M.Ə. Rəsulzadə Birinci Respublika – Azərbaycan Cümhuriyyətinə həsr etdiyi "Əsrimizin Səyavuşu" əsərində yazırdı: "Hər şeydən əvvəl, Azərbaycan Cümhuriyyətinin əsas idarəsi bütün vətəndaşlarının bərabər hüquqla yaşaması üzərində qurulmuşdur. Burada hər insanın möhtərəm şəxs, Azərbaycan vətəndaşı olduğu üçün hüququ qorunurdu... Burada heç bir sinif digər sinifə hakim deyildi... Burada hələ Avropada tətbiq olunmayan həqiqi bir xalq Cümhuriyyəti qurulmuşdu".

Adlarını sadaladığımız görkəmli ictimai-siyasi xadimlər, habelə onların silahdaşları olan digər şəxsiyyətlər arasında o zamankı mürəkkəb şəraitdə hər cür çətin məhrumiyyətlərə sinə gərərək, hətta bəzən öz həyatlarını labüd təhlükə qarşısında qoyub, milli müstəqil dövlətimizin təşəkkülü, möhkəmlənməsi və uzunömürlü olması naminə var qüvvələrini sərf etmişlər. Onlardan bəziləri daxili işlər naziri, bəziləri daxili işlər nazirinin müavini, general-qubernator, qubernator, qəza rəisi, polis pristavı və s. məsul vəzifələrdə xidmət göstərmiş, bir çoxları bu müqəddəs amal yğrunda özlərini fəda etmişlər...

Fəqət, görkəmli ictimai-siyasi xadimlərimiz kimi tanıdığımız bir sıra şəxslərin daxili işlər naziri, nazir müavini, general-qubernator, qubernator, polismeyster qəza rəisi, polis pristavı və s. vəzifələrində xidməti, fəaliyyəti və gördükləri işlər barədə fikrimcə, geniş oxucu kütlələrinin xəbəri azdır. Belə ki, Birinci Respublika – Azərbaycan Cümhuriyyəti dövründə 7 nəfər daxili işlər naziri, 4 nəfər isə nazir müavini vəzifəsində fəaliyyət göstərmişdir. Nazirlərdən 6 nəfəri mülki (sivil), 1 nəfəri isə hərbi rütbəli (general), nazir müavinlərindən biri hərbi rütbəli (general), 3 nəfəri isə mülki rütbəli olmuşdur. Daxili işlər nazirlərinin, həmçinin onların müavinləri Mehdi bəy Hacınskinin, Əliyar bəy Haşımbəyovun, İbrahim bəy Heydərovun, Şəfi bəy Rüstəmbəylinin ("Aran") keşməkeşli həyatı və fəaliyyəti, hətta acı aqibətləri belə gənc nəslimiz, bütövlükdə xalqımız üçün



daimi örnəkdir. Bu cür şəxslər barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Azərbaycan tarixində xidmətləri olmuş şəxslərin xatirəsinə həmişə hörmətlə yanaşmalıyıq, onları həmişə ehtiramla yad etməliyik".

Ötən əsrin əvvəllərində yaranıb qısa zaman kəsiyində mövcud olmasına baxmayaraq, 3 minillik dövlətçilik tariximizdə özünəməxsus yer tutan və həmin müddətdə önəmli işlər görən Azərbaycan Cümhuriyyətinin daxili işlər nazirləri olarkən də, xalqımıza xidmətlər göstərməklə silinməz izlər qoymuş F.Xoyski, N.Yusifbəyli, M.H. Hacınski, X. Xasməmmədov, B. Cavanşir, M.Vəkilov, M.S. Ağabəyzadə, onların silahdaşları - daxili işlər nazirinin müavini vəzifəsində çalışmış Mehdi bəy Hacınski, Əliyar bəy Haşımbəyov (general-mayor), İbrahim bəy Heydərov, Şəfi bəy Rüstəmbəyli, general-qubernator Murad Gəray bəy Tlexas (general-mayor), İbrahim ağa Vəkilov (general-mayor), Xosrov bəy Sultanov (general-mayor), qubernator Müseyib bəy Axıcanov, Xudadat bəy Rəfibəyli, Əmir bəy Nərimanbəyov, Rəşid bəy Axundzadə , Nağı bəy Əlizadə, Cavad bəy Məlik-Yeqanov, Bəhram xan Naxçıvanski, Quda Qudiyev, Teymur bəy Məlik-Aslanov, Məhəmməd Kovxa, Məhəmməd bəy Şahmalıyev və başqaları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yuxarıda söylədiyi o qəbil şəxslərdəndir. Təqdim etdiyimiz bu kitabda məhz həmin şəxslərin həyat və fəaliyyətindən bəhs olunur.

*Müəllif*

# BİRİNCİ FƏSİL

## *AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN DAXİLİ İŞLƏR NAZİRLƏRİ*

### FƏTƏLİ XAN XOYSKİ
### (1875 – 1920)



Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, böyük istiqlal fədaisi, Birinci Azərbaycan Respublikasının – Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının ilk sədri, müstəqil Azərbaycan Respublikasının ilk daxili işlər naziri.

Fətəli xan İsgəndər xan oğlu Xoyski 1875-ci il dekabrın 7-də (Yuliyan təqvimi ilə 1875-ci il noyabrın 25-də) Nuxa (Şəki) şəhərində əsilzadə ailəsində anadan olmuşdu. Əsli Güney (Cənubi) Azərbaycanın Xoy şəhərindən idi. Buna görə də Xoyski soyadını daşımışdır. Xoyskilər nəslindən görkəmli sərkərdələr, dövlət xadimləri və ziyalılar çıxmışdır.

Mərhum akademik Ziya Bünyadov (1923-97) yazmışdır ki, Xoyskilər nəslinin adı Dünbülü Batman Qılıncdır. Fətəli xanın ulu babası Cəfərqulu xan Dünbülü Batmanqılınc Xoyda ömür sürən, nəsil şəcərəsi əslən Şiraz xənadanına gedib çıxan Dünbulü sülaləsinin



başçısı idi. 1747-ci il iyunun 19-da öz yaxınları tərəfindən Nadir şah Əfşarın (Avşar) (1688-1747) öldürülməsindən sonra Xoy əyalətinin əsilli-nəsilli sülaləsi olan Xoyskilərin nümayəndələri xan olublar. İlk Xoy xanı Şahbaz xan 1747-ci ildən 1763-cü llədək hakimiyyətdə olub. Onu qohumu Əhməd xan Xoyski əvəz edib və 23 il (1763-86) xanlığı idarə edib. O, xanlığı Xoyski adı ilə 1763-cü ildən idarə etməyə başlayıb. 1786-cı ilin fevralında saray çevrilişi nəticəsində Əhməd xanın öldürülməsindən sonra qohumu, Xoyun nüfuzlu əyanlarından Cəfərqulu xan Xoyski hakimiyyətə keçmiş və xanlığı 1797-ci ilə qədər idarə etmişdi... O, 1804-13-cü illər birinci Rusiya-İran müharibəsi zamanı, 1804-cü ildə Nuxaya (indiki Şəki 1968-ci ilədək belə adlanmışdır) köçüb və Rusiyanın təbəəliyini qəbul edib, onun xidmətinə keçib. Rusiya qoşunları tərkibində xidmətlərinə görə Cəfərqulu xan imperator I Aleksandr (1801-1925) bahalı brilyantla bəzədilmiş qızıl medal və qızıl ləléklə təltif olunmuşdu. 1806-cı ilin oktyabrında Şəki xanı Səlim xanın üsyanı yatırıldıqdan sonra, həmin il dekabrın 22-də Cəfərqulu xan Şəki xanı elan edilmiş, ona general-leytenant rütbəsi verilmişdi. O, bu münasibətlə Tiflisə çağırılmış, Şəki xanı təsdiq olunması elan edilmiş, ona almaz qələm, Ali Fəxri Fərman və dövlət gerbi təqdim olunmuşdu. Cəfərqulu xan Xoyski dövlətə sədaqətlə qulluq edəcəyi haqqında and içmişdi... Tezliklə o, Birinci dərəcəli "Müqəddəs Anna" ordeni ilə də təltif edilmişdi.

Cəfərqulu xan 1814-cü ilədək hakimiyyətdə olub. 1814-cü il avqustun 22-də (Yuliyan təqvimi ilə) ağır xəstələnmiş Cəfərqulu xan vəfat edib. 1814-cü il sentyabrın 3-dən (təzə stillə) oğlu İsmayıl xan hakimiyyətə keçib. Çarın fərmanı ilə ona general-leytenant rütbəsi verilib. Beləliklə, Xoyskilər Xoyda olduğu kimi, Şəkidə də xanlığı davam etdiriblər. Belə ki, İsmayıl xan 1814-cü il sentyabrın 3-dən (Yuliyan təqvimi ilə avqustun 22-dən) 1819-cu il avqustun 5-dək (Yuliyan təqvimi ilə 24 iyul 1819-cu ilədək) Şəki xanı olub. İsmayıl xan Cəfərqulu xan Xoyskinin ikinci oğlu idi, Şərəf Nisə bəyimdən doğulmuşdu (onun 3 arvadı vardı). (Cəfərqulu xanın birinci oğlu Əhməd xan Tehranda girov kimi yaşayırdı...). Car I Aleksandarın fərmanı ilə İsmayıl xana 1815-ci ildə general-mayor rütbəsi verilmişdi...1819-cu ilin iyulunda qızdırma xəstəliyindən

vəfat edən İsmayıl xan Şəkinin axırıncı xanı olmuşdur (Şəki xanlığı çarın fərmanı ilə 1819-cu ildə ləğv edilmiş və Rusiyanın tərkibinə qatılmışdı)...

Fətəli xanın atası İsgəndər xan (25 may 1820, Gəncə - 16 iyul 1894, Gəncə) Kəlbalı xan Xoyskinin (1785 - 29 iyul 1834) Cəfərqulu xanın kiçik qızı Sara bəyim Xoyskidən olan övlad idi. İsgəndər xan çar ordusunda 40 il qüsursuz xidmətdən sonra 16 dekabr 1889-cu ildə ona general-leytenant rütbəsi verilmiş və təqaüdə yola salınmışdı. İsgəndər xan 16 iyul 1894-cü ildə Gəncədə vəfat etmiş və oradakı Səbizkar qəbristanlığında dəfn edilmişdi... Onun Nuxada və Gəncədə iki böyük evi (malikanəsi də) vardı... Beləliklə, Fətəli xan hərbçi ailəsində böyüyüb - başa çatmışdı. İsgəndər xanın 6 övladı - 5 oğlu, 1 qızı vardı. Fətəli xan ailədə 4-cü uşaq idi. O, İsgəndər xanın övrəti Hacı Molla Zeynal qızı Şəhrəbanu xanımdan olan oğluydu. Birinci təhsilini Gəncə klassik gimnaziyasında almışdı. 1897-ci ildə Moskva Universitetinin hüquq fakültəsinə daxil olaraq 1901-ci ildə oranı 1-ci dərəcəli diplomla bitirmiş, ilk öncə Gəncədə, sonra isə Suxumi, Batumi və Kutaisi dairə məhkəmələrində müxtəlif vəzifələrdə çalışmışdı. Fətəli xan 1907-ci ildə Yekaterinadar (indiki Krasnodar; 1920-ci ilədək Yekaterinadar adlanırdı) dairə məhkəməsində prokuror köməkçisi təyin edilmişdi

1907-ci ildə F. Xoyski Yelizavetpol (Gəncə) quberniyasından Rusiyanın II Dövlət Dumasına kadetlər partiysından (Konstitusiyalı burjua-demokratik partiyası) deputat seçilmişdi. Cəmi 103 gün ömrü olmuş II Dövlət Dumasında F. Xoyski Azərbaycandan yeganə təmsilçi idi. III Dövlət Dumasında isə F. Xoyski ilə bərabər Xəlil bəy Xasməmmədov (25 oktyabr 1873, Gəncə -1947, İstanbul), İsmayıl Zeynalabdin oğlu Tağıyev (1865, Bakı – 1930, Bakı; 1907-ci ildə İkinci Dumaya deputat seçilib, ancaq getməyib. Partiya mənsubiyyəti üzrə bitərəf olub. İsmayıl milyonçu Hacı Zeynalabdin Tağıyevin dayısı qızı Zeynəbdən olan oğlu idi...), Məhəmməd ağa Məmməd Tağı Sultan oğlu Şahtaxtinski (1846, Naxçıvan, Şahtaxtı kəndi -12 dekabr 1931, Bakı), Mustafa Hacı Musa oğlu Mahmudov (Mahmudi) (1878, Göyçay qəzasının Kürdəmir kəndi - 20 dekabr 1937, Bakı; otuzuncu illərdə repressiyaya məruz qalıb, 1937-ci ilin noyabrında həbs olunub və həmin il dekabrın 20-də güllələnib) və



Zeynal Eynal oğlu Zeynalov (1876, Əmircan kəndi, Bakı - 1935, Bakı) da millət vəkili missiyasını daşıyırdılar. Bunların içərisində ilk azərbaycanlı professor olan... M. Şahtaxtinskini xüsusi qeyd etməliyik...

Kadetlər partiyasının üzvü olmasına baxmayaraq, Müsəlman fraksiyasına daxil olan Fətəli xan 1907-ci il fevralın 20-də açılan Sankt-Peterburqun məşhur Tavrida sarayında Rusiya Dumasındakı cəsarətli çıxışlarında çar hökumətinin Zaqafqaziyada, o cümlədən Azərbaycanda yeritdiyi müstəmləkəçilik və milli ayrı-seçkilik siyasətini tənqid atəşinə tuturdu. O, Rusiyanın müstəmləkə xalqlarına məhəlli (milli-mədəni) muxtariyyət verilməsini tələb edirdi. F. Xoyski 1917-ci ilin martınadək Gəncə və Bakı dairə məhkəmələrində iş kəsmək üzrə andlı müvəkkil vəzifəsini də icra etmişdi.

Bundan sonra, partiya mənsubiyyəti üzrə bitərəfliyini bəyan edən F. Xoyski 1917-ci ilin martında yaradılmış Zaqafqaziya Müsəlmanları Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilmişdi. "Müsavat" firqəsinin ("müsavat" ərəbcə "bərabərlik", "firqə" "partiya" deməkdir) 1917-ci il oktyabrın 26-31-də Bakıda keçirilən I qurultayında iştirak edən F. Xoyski demişdi: – "Mən müxtəlif səbəblərə görə heç bir firqəyə girməmişəm, amma hamısı ilə çalışmışam. Ona görə də hər bir firqənin fəaliyyətini bir tərəfinə təhqiq edə bilmişəm..." F. Xoyski "Müsavat" partiyasının I qurultayında irəli sürülən "Azərbaycana Muxtariyyət!" şüarının qızğın tərəfdarıydı.

Fətəli xan Zaqafqaziya Komissarlığının maarif naziri, həm də Zaqafaqziya Mərkəzi İcraiyyə Komitəsinin sədri olmuşdu. Millətinin mənafeyini hər şeydən üstün tutan, onu müqəddəs hesab edən F. Xoyski Zaqafqaziya Müsəlmanları İcraiyyə Komitəsinin sədri kimi böyük nüfuza malik idi ("millət" anlayışını və sözünü Azərbaycanda ilk dəfə görkəmli drmaturq Mirzə Fətəli Axundov (Axundzadə) (1812-70) işlətmişdir).

1918-ci il fevralın 10-da Tiflisdə Zaqafqaziya Seymi yaradılmış, ilk açılışı fevralın 23-də olmuş, həmin il mayın 26-da isə süqut etmişdi. F. Xoyskinin Zaqafqaziya Seyminin üzvü, 1918-ci il aprelin 20-də yaradılan A.İ. Çxengelinin başçılıq etdiyi Zaqafqaziya Federativ Respublikasının ədliyyə naziri olması heç də təsadüfi deyildi...

F. Xoyski hələ Zaqafqaziya Komissarlığı hökumətində çalışarkən Azərbaycanda ibtidai və ali məktəblərin açılmasına cəhd göstərmişdi. Tiflis şəhərində Zaqafqaziya Darülfününün (Universitetinin) təsis məsələsi qaldırılanda Fətəli xan demişdi: - "... Nə üçün Tiflisdə? Axı, burada həm Ali Texniki Məktəb, həm də Gürcüstan Universiteti var. Yaxşı olmazmı ki, bu Darülfünün hər bir şəraiti olan Bakıda təsis edilsin...". Qeyd etmək lazımdır ki, sonralar - Azərbaycan Demokratik Respublikasının Baş naziri (rəisi-Vüzarə) olanda Bakı Darülfününün (indiki BDU) təsis edilməsinin (1 sentyabr 1919-cu il) təşəbbüsçüsü məhz F. Xoyski olmuşdu.

F. Xoyski hələ Zaqafqaziya Komissarlığında (17 noyabr 1917 - 14 fevral 1918) nazir olarkən 1917-ci ilin noyabrında Azərbaycan Ordusunun yaradılması haqqında da məsələ qaldırmışdı. Çünki o, nizami ordu yaradılmasını milli müstəqilliyə aparan yolda ən vacib və ciddi addım hesab edirdi. Komissarlığın sədri E.P. Geqeçkori (1891-1954) 1917-ci il noyabrın 15-də Fətəli xana qaldırdığı məsələ ilə əlaqədar rəsmi münasibətini bildirmiş, Zaqafqaziya Müsəlman kol (nizami) ordusunu təşkil etmək haqqında" 7 bənddən ibarət qətnaməni 11 dekabr 1917-ci ildə imzalamış, onun həyata keçirilməsini Fətəli xanın özünə həvalə etmişdi.

1918-ci il Mayın 28-də Tiflisdə sabiq Qafqaz canişini Qrandükün oturduğu sarayda Zaqafqaziya Seymində 4 partiyanı təmsil edən 44 nəfər azərbaycanlını birləşdirən Azərbaycan Milli Şurası axşam saat $20^{10}$ dəqiqədə adbaad səsvermə yolu ilə Şərqdə yeni respublikanın – Azərbaycan Cümhuriyyətinin (Azərbaycan Demokratik Respublikasının) yarandığını elan edən "İstiqlal Bəyannaməsi"ni qəbul etdi. Milli Şura 24 səslə Azərbaycanın "İstiqlal Bəyannaməsi"ni qəbul etmiş, 2 nəfər - Sultan Məcid Qənizadə (Qəniyev) (1866-1938) və Cəfər Axundov (1878-1931) bitərəf qalmışdı... (Sultan Məcid Hacı Murtuzəli oğlu Qənizadə (Qəniyev). Görkəmli maarif xadimi, yazıçı, tərcüməçi, filoloq alim. 1886-cı ilin aprelində Şamaxıda anadan olmuşdu. 30-cu illərdə repressiyaya məruz qalıb, 26 iyul 1937-ci ildə həbs edilib, 23 mart 1938-ci ildə 72 yaşında güllələnib... Cəfər Axund Hacı Şeyx Həsən oğlu Axundov. 1878-ci ildə Nehrəm kəndində dünyaya gəlib. 1931ci ildə Gəncədə 53 yşında vəfat edib və Səbizkar qəbristanlığında, atasının sərdabəsində dəfn olunub).



1918-ci il Mayın "28-də axşam, 1 saatlıq fasilədən sonra Azərbaycan Milli Şurası tərəfindən ilk müvəqqəti hökumət təsis olundu. Hökumətin təşkili məhz F. Xoyskiyə həvalə edildi. Özü bitərəf olan Fətəli xan 4 partiyanı təmsil edən birinci koalisiyalı müvəqqəti hökumət kabinetini 9 nəfərdən ibarət təşkil etdi. F. Xoyski milli hökumətin əsas qurucusu idi. Milli Şura Heyəti - Vükalə rəisi - Nazirlər Şurasının sədri olmaqla bərabər, daxili işlər naziri vəzifəsini də üzərinə götürmüşdü. Ali təhsilli hüquqşünas olan F.Xoyski **1918-ci il Mayın 28-də** təsis olunan müstəqil Azərbaycan Respublikasının ilk daxili işlər naziri (mülki) olmuşdu.

1918-ci il mayın 30-da Azərbaycan Cümhuriyyətinin yarandığını elan edən 6 maddədən ibarət **"İstiqlal Bəyannaməsi"** məhz Azərbaycan Cümhuriyyətinin Nazirlər Şurasının ilk sədri F.Xoyskinin imzası ilə radioteleqrafla dünya ölkələrinin paytaxtlarına və dövlət başçılarına göndərilmişdi... Bütün türk mənşəli dövlətlər əsasən dini təməl üzərində qurulduğu halda, Azərbaycan Cümhuriyyəti dünyəvi təməl üzərində təşəkkül tapmışdı. Sonralar- 1918-ci il dekabrın 7-də Azərbycan Parlamentinin təsis iclasında çıxış edən ilk milli hökumətimizin başçısı F. Xoyski bu tarixi hadisəni belə qiymətləndirmişdi: "Bu gün öylə böyük və mübarək gündür ki, bunu biz azərbaycanlılar yuxumuzda da görə bilməzdik".

F. Xoyski Azərbaycan Cümhuriyyətinin 5 hökumət kabinetinin ilk üçündə Nazirlər Şurasının sədri olmuşdu. Birinci kabinetdə hökumət başçısı kimi eyni zamanda daxili işlər naziri vəzifəsini icra etməyi də öz üzərinə götürməsi o dövrdəki çox mürəkkəb ictimai - siyasi şəraitdə bu Nazirliyin yerinə yetirməli olacağı çətin funksiyalarla əlaqədar idi. Həmin vəzifələrin real həyata keçirilməsinin öhdəsindən bir təcrübəli hüquqşünas kimi yalnız F.Xoyski, peşəkar siyasi - ictimai xadim gələ bilərdi. Çünki, Fətəli xan çar Rusiyasının və Osmanlı Türkiyəsinin DİN (polis) və hərbi sistemlərinə, onların təkamülü və fəaliyyətinin tarixi təcrübəsinə bələd olan şəxsiyyət idi. İlk dövrdə olduqca vacib olan Azərbaycan Cümhuriyyəti və Osmanlı Türkiyəsi arasında "Dostluq haqqında" 1918-ci il iyunun 4-də bağlanan müqavilə də məhz F. Xoyskinin təşəbbüsü ilə həyata keçmişdi.

Həmin müqavilənin 4-cü bəndinə əsasən Azərbaycan Cümhuriyyətini tanıyan Osmanlı hökuməti "qayda-qanunu və ölkənin təhlükəsizliyini təmin etmək üçün ehtiyac olduğu təqdirdə F. Xoyskinin Azərbaycan hökumətinə silahlı qüvvə ilə yardım etmək öhdəliyi"ni yerinə yetirmişdi. Bunu Azərbaycan Cümhuriyyətinin Stepan Şaumyanın (1878-ci ildə Tiflisdə anadan olmuşdu) başçılıq etdiyi Bakı Xalq Komisarları Soveti (XKS) (25 aprel - 31 iyul 1918-ci il), "Sentrokaspi" Diktaturası (1 avqust 1918 - 14 sentyabr 1918-ci il) və digər düşmənləri ilə mübarizədə canını fəda etmiş qardaş türk əsgər və zabitlərinin Azərbaycan ərazisində indi də qalmaqda olan məzarları sübut edir. Qeyd etmək də yerinə düşərki, təkcə 1918-ci ilin yayı və payızında Azərbaycanın müstəqilliyi və qazanılmış müstəqilliyinin qorunub-saxlanması və möhkəmləndirilməsi uğrunda gedən mübarizədə, aparılan qanlı döyüşlərdə tam olmayan məlumata görə Türkiyə hərbi hissələrinin **1130 əsgər və zabiti şəhid olmuşdur...**

Baş nazir, eyni zamanda daxili işlər naziri və həm də hüquqşünas kimi çar Rusiyasının və Osmanlı Türkiyəsinin polis və hərbi sisteminə, fəaliyyət təcrübəsinə bələd olan F. Xoyskinin rəhbərliyi ilə Milli Ordu və polis quruculuğunda ilk vaxtlar keçmiş Müsəlman Korpusunda yeganə nizami qüvvə kimi Birinci atlı "tatar" alayının 600 nəfərlik qüvvəsindən və Qafqaz Müsəlman (İslam) Ordusunun əsgərlərindən istifadə olunmuşdu... (tərkibi I Dünya Müharibəsində iştirak etmiş azərbaycanlılardan ibarət "Tatar alayı"nın tərxis olunmuş zabitlərindən və əsgərlərindən, həmçinin milli təəssübkeşli könüllülərdən ibarət dəstələrdən olan bu qüvvəyə "dikiy" ("vəhşi") diviziya da deyilirdi. Bu diviziyanın döyüşçüləri Azərbaycan Cümhuriyyəti dövründə şərəflə xidmət göstərmişdilər (Əslində, bunu millətçi ruslar vaxtılə müsəlman döyüşçülərinə həqarətlə demişdilər... Halbuki, "Vəhşi diviziya" 1914-17-ci illərdə çara sədaqətlə xidmət etmişdi...).

F. Xoyskinin yaratdığı Azərbaycan Cümhuriyyətinin Birinci Müvəqqəti Milli Hökuməti Tiflisdə cəmi 20 gün fəaliyyət göstərmişdi... F. Xoyski hökuməti başqa ölkənin (Gürcüstanın) ərazisində fəaliyyət göstərdiyi üçün DİN-in və onun orqanlarının təşkili işi hələ zəif getmişdi... Belə şəraitdə nə mükəmməl struktur, nə də ki,



nizami hissələrin yaradılması ləng gedən prosesiydi... Qeyd etmək lazımdır ki, o zaman F. Xoyskinin Baş nazir və eyni zamanda daxili işlər naziri vəzifələrini öz üzərinə götürməsi Qərbi Avropa modeli idi. Özü də F. Xoyski artıq yuxarıda qeyd edildiyi kimi, mülki (sivil) nazir idi. Hökumət başçısının eyni zamanda daxili işlər naziri vəzifəsini ifa etməyi öz üzərinə götürməsi o zamankı çox mürəkkəb dövrdə bu Nazirliyin olduqca məsuliyyətli qurum sayılması və onun üzərinə düşən vacib vəzifələrlə əlaqədar idi. Azərbaycan Cümhuriyyətinin elan olunduğu vaxt ölkənin ərazisində əsl anarxiya hökm sürürdü. F. Xoyski söyləyirdi ki, bir kənddən, o biri kəndə getmək belə təhlükəliydi. Belə bir zamanda gənc Azərbaycan Cümhuriyyəti Hökumətinin ilk tədbirlərindən biri ölkədə anarxiyaya son qoymaq və ciddi qayda-qanun, nizam-intizam yaratmaqdan ibarət idi. Bu işdə yeni yaradılmış Daxili İşlər Nazirliyi (DİN) və ona tabe olan polis orqanlarının rolu çox önəmli idi...

Tiflisdə rəsmən bir müstəqil nazirlik kimi 1918-ci il mayın 28-də təsis edilən F. Xoyskinin nazir olduğu DİN-də ertəsi günü, yəni mayın 29-da digər yeni yaranan nazirliklər kimi fəliyyətə başlamış, onun srukturları və orqanlarının ilkin təşkili getmiş, vəzifələri müəyyənləşmişdi. Bu vəzifələr əsasən xüsusilə ilk dövrlərdə öz tətbiqi-təcrübi əhəmiyyətini saxlayan çar Rusiyası DİN-in (1840-1917) polis-jandarm sisteminin tarixi təcrübəsinin və ənənəsinin həyata keçirdiyi əsas funksiyaların demək olarki, eyni idi. Bu funksiyalar yerli xüsusiyyətlərdə nəzərə alınmaqla daxili işlər naziri F.Xoyskinin rəhbərliyi altında hazırlanmış Azərbaycan Cümhuriyyəti DİN-in ilk Əsasnaməsində öz əksini tapmışdı".

Ölkədə daxili sabitliyi və hüquq normalarına riayət olunmasını təmin etmək, milliyətindən və dinindən asılı olmayaraq, bütün vətəndaşların həyatını, əmlakını və hüquqlarını qorumaq, cinayətkarlıqla mübarizə aparmaq, milli ordu, təhlükəsizlik qüvvələri ilə birgə ərazi bütövlüyümüzə təcavüzə cəsarət göstərə biləcək hər hansı qüvvəyə qarşı mübarizə etmək DİN-in ilk və başlıca funksiyaları idi. Pasport, Viza və Qeydiyyat işləri, VVAQ və nikah məsələləri, hərbi təlim görmüş adamlardan ibarət kadr ehtiyatı hazırlamaq, Azərbaycan Ordusu sıralarına yeni çağrışçıların toplanması, hərbi çağırışdan boyun qaçıranlar və fərarilikə mübarizə, torpaqlarımızı qoruyacaq

İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

sərhəd qüvvələrinin yaradılmasında iştirak, siyasi partiyalara, fəhlə partiyalarına, milli komitələrə və ictimai təşkilatlara, mədən-zavod komissiyalarına, həbsxanalara, mətbuata, poçt-teleqrafa və digər rabitəyə, dəmiryoluna və avtomobil nəqliyyatına, neft sənayesinə, yol-tikinti və təsərrüfat, sanitariya və abadlıq işlərinə. ticarət obyektlərinə nəzarət etmək, dini təşkilatları və cəmiyyətləri qeydə almaq, milli ədavət törədilməsinin qarşısını almaq, həmçinin bütün siyasi, hüquqi normativ aktların və sənədlərin yaradılmasında iştirak etmək və s. DİN-in əlavə və dolayı vəzifələri sırasına daxil idi.

... Gürcüstanın münasibətinin soyuqlaşmağa başlaması və öz ərazisini tərk etməyi tələb etməsi üzündən Azərbaycan Milli Şurası və Azərbaycan Müvəqqəti Hökuməti 1918-ci il iyunun 16-da Tiflisdən Gəncəyə köçdü. Hökumətin iqamətgahı Fətəli xanın Gəncədəki ata evi seçildi... (Sonra hökumət Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının indiki binasına köçmüşdü). Ertəsi gün, iyunun 17-də axşam yenə F. Xoyskinin başçılıq etdiyi 2-ci hökumət kabineti yaradıldı. İkinci hökumət kabineti 12 nazirlikdən təşkil edilmişdi. Nazirlərdən 6 nəfəri 1-ci hökumət kabinetinin üzvü, digər 6 nəfəri isə yeni nazir seçilən şəxslər idi.

F. Xoyski həm ikinci (17 iyun 1918 - dekabr 1918-ci il) və üçüncü (26 dekabr 1918-ci il - 14 mart 1919-cu il) hökumət kabinetləri dövründə və sonrakı fəaliyyətində də çox böyük işlər görmüş, onların təşkilatçısı, həyata keçiricisi olmuşdu. F. Xoyskinin rəhbərliyi altında Azərbaycan Cümhuriyyətinin dövlət dili türk dili elan (27 iyun 1918-ci il) edilmişdi. Gəncədə gizirlər (praporşiklər) məktəbi (iyun 1918-ci il, üçrəngli, aypara və səkkiz guşəli Milli Bayrağımız qəbul (9 noyabr 1918-ci il) edilmişdi. Azərbaycan milli müstəqil polisi təsis (2 iyul 1918-ci il) olunmuşdu. 114 ildən sonra Yelizavetpol şəhəri və quberniyasının adı dəyişdirilərək Gəncənin tarixi adı özünə (30 avqust 1918-ci il) qaytarılmışdı və s.

Yeri gəlmişkən, Gəncə sözünün mənşəyi barədə müxtəlif ehtimallar mövcuddur. Bir fikir belədir ki, "Gəncə" sözü farsca (Pəhləvi dilində) "xəzinə", "dəfinə" saxlanan yer" deməkdir. Ərəblər Gəncəni "Cənzə" adlandırmışlar (həmin mənada). Ermənilər "Qandzak" deyirdilər. Gürcülər "Qanqza" adlandırırdılar. Bəzi mənbələr yazır ki, Gəncə azəri sözü olub,"açıq yer", "gen (Gəncə)



yer" deməkdir; Gəncə sözünü tayfa adı ilə əlaqələndirənlər də var... Gəncənin salındığı tarix dəqiq deyil... Gəncə Bərdədən sonra ikinci şəhər hesab olunurdu. Şimali Azərbaycan ərazisini ərəblər vaxtılə "Arran" adlandırırdılar. Paytaxtı Bərdə idi. Mərhum görkəmli arxeoloq, tarix elmləri namizədi İsaq Cəfərzadənin (14 avqust 1895, Gəncə - 5 yanvar 1982, Bakı) fikrincə, Gəncə V əsrdə salınmışdı... Orta əsrlərdə Gəncə müxtəlif feodal dövlətlərinin paytaxtı idi... O cümlədən Gəncə Bəylərbəyliyinin (16-cı əsr) və Gəncə xanlığının (1747-1804) paytaxtı olmuşdu. Gəncə xanlığı 1813-cü ildən Yelizavetpol dairəsi adlanmışdı. 1840-cı il aprelin 10-da çar Rusiyasının Qafqazda həyata keçirdiyi inzibati islahatlar zamanı Yelizavetpol qəzası yaradılmışdı (qəza - mahal, rayona bərabər inzibati ərazi vahidi). Qəza 4 məntəqədən - Qazax, Şəmşəddil, Yelizavetpol və Ayrum məntəqələrindən ibarət idi.

Şəmşəddil 18-ci əsrin ortalarında (1747) yaranmış sultanlıq idi. Ərazisi 4200 verst (1 verst 1067 kv.- m.-ə bərabərdir), əhalisi qızılbaş türk tayfalarından olan zülqədərlərdən ibarətdi. Mərkəzi Öksüzlü (Tovuz ərazisində) obasıydı. Şəmşəddil sultanlığına Zülqədərovlar başçılıq edirdilər. Zülqədərovlar əsasən Xılxına kəndində yaşayırdılar. Şəmşəddil Sultanlığı zaman-zaman Gəncə xanlığına və Kartli Çarlığına tabe olsada, daim müstəqillik uğrunda çarpışmışdı... Tarixdə Şəmsəddin Sultanlığı (mahalı) da adlandırılan Şəmşəddil Sultanlığı 1801-ci ildə Rusiyanın tərkibinə qatılmışdı... Şəmşəddilin ilk sultanı Sultan Allahverdi Zülqədər olub. O, 1747-61-ci illərdə sultanlıq etmişdi. Şəmsəddilin ən qüdrətli sultanı Nəsib sultan olmuşdur (1797-1819). Lakin onu azərbaycanlıların qəddar düşməni, rus general-leytenantı, knyaz Valerian Madatov (1782-1829) (əslində Madatyan; Madatov Qarabağ mahalının Dizaq məlikliyinin Tuğ kəndində (indiki Martuni - Xocavənd ərazisindədir) anadan olmuşdu ; V. Madatyan Qarabağda həm də at oğrusu kimi də tanınırdı...) müstəqilliyə can atdığı üçün yanına çağırıb həbs etdirmiş, oradan Tiflisə apartdırmışdı. Tiflisdən isə əvvəlcə Kazana, daha sonra isə Xarkov şəhərinə sürgün etdirmişdi. Nəsib sultan 1819-cu il mayın 11-də öldürülmüşdü... Şəmşəddil (Şəmsəddin) hazırda Ermənistanın ərazisində - Berd rayonunun tərkibindədir...

...1867-ci il dekabrın 9-da çar hökumətinin qərarı ilə mərkəzi Yelizavetpol olan Yelizavetpol quberniyası yaradılmışdı (quberniya vilayətə bərabər inzibati ərazi idarəetmə vahididir). Onun tərkibinə Yevlax, Ərəş, Nuxa, Qazax, Cavanşir, Karyagin, Zəngəzur və Şuşa qəzaları daxil idi. 1869-cu ildə Gəncə Yelizavetpol quberniyasının paytaxtı edilmişdi. Yelizavetpol quberniyasını 1872-ci ilədək hərbi qubernator idarə edirdi. Sonuncu tarixdən isə qubernator idarə etməyə başlamışdı. Quberniya idarəçiliyinə qubernator, onun müavini, qəza müfəttişləri, tərcüməçilər, xüsusi işlər məmuru və s. daxil idi. Quberniyanın inzibati polis aparatı və bütün hökumət idarələri və mülki hakimiyyət qubernatorun nəzarətində idi... 1804-1918-ci illərdə Gəncə Yelizavetpol adlanırdı. Bu, Gəncənin Rusiya qoşunları tərəfindən 1804-cü il yanvarın 3-də zəbt olunması və 18 il hakimiyyətlik etmiş axırıncı Gəncə xanı Ziyadoğlu Cavad xan Qacarın (1786-1804) döyüş meydanında qəhrəmancasına həlak olmasından sonra çarın verdiyi fərmanı ilə əlaqədar idi. Belə ki, çar I Aleksandrın 2 (bəzi ədəbiyyatlarda 3) mart 1804-cü il tarixli fərmanı ilə Gəncə adı ləğv olunmuş və Gəncənin alınması münasibətilə arvadı Yelizavetanın şərəfinə Yelizavetpol adlandırılmışdı. Bu, Gəncəni işğal edən Qafqazdakı rus qoşunlarının baş komandanı, gürcü əsilli general-mayor, knyaz Pavel Dmitriyeviç Sisianovun (əslində Sisianişvili) (20 sentyabr 1754, Moskva - 8 fevral 1806, Bakı) təklifi ilə olmuşdu. Çarın fərmanı Gəncə Cümə Məscidində oxunmuşdu. Hətta həmin vaxtdan "Gəncə" sözünü işlədən adamlardan 1 manat cərimə alınırdı...

**Qeyd:** *2006-cı ildən YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın birinci xanımı, millət vəkili Mehriban xanım Əliyevanın dəstəyilə "Cavad xan adına Tarix və Mədəniyyət Fondu" yaradılıb fəaliyyət göstərir. Fondun prezidenti Gəncənin başı müsibətlər çəkmiş məşhur Ziyadxanlılar nəslinin davamçılarından olan Valid Ziyadlıdır. Fond hər il yanvar ayının 4-də Cavad xanın və oğlu Hüseynqulu xanın rus istilaçıları ilə döyüşdə qəhrəmancasına şəhid olduqları gün anım (xatirə) tədbirləri keçirir...*



Beləliklə, Azərbaycan Cümhuriyyəti dövründə məhz F.Xoyski hökumətinin 30 avqust 1918-ci il tarixli qərarı ilə Yelizavetpol adı ləğv edilmiş və Gəncənin tarixi adı bərpa olunmuşdu...

Sovet dönəmində Gəncə qəzası və adı 1929-cu il aprelin 8-dək saxlanmışdı. 1929-cu ildən qəza adı ləğv olumuş və rayon adlanmışdı. 1935-ci ilin fevralından Gəncə Kirovabad adlanmağa başlamışdı. Bu, vaxtı ilə AK(b)P MK-nın 1-ci katibi (24 iyul 1921 – 20 yanvar 1925) olmuş, Azərbaycana rəhbərlik etmiş, İ.V.Stalinin (1879-1953) (**Haşiyə** : İosif Vissorianoviç Cuqaşvili. Ləqəbi Stalin. Stalin "stal"-"polad kimi möhkəm", "köhnə bakılı", "Koba"; 21 dekabr 1879, Gürcüstan, Tiflis quberniyası, Qori şəhəri - 5 mart 1953, Moskva) Cari dövrü mətbuatda belə fərziyə öz əksini tapmışdır ki, İ. Stalinin əsl atası məşhur rus səyyahı, çar II Aleksandrın nəvəsi hesab edilən, general Nikolay Mixayloviç Prjevalskidir (12 aprel 1839, Smolensk vilayətinin Komborqvo kəndi) İ. Stalinin atası adlanan İosif Tiflis Quberniyasının Qori şəhərində çəkməçi idi. Gəncliyindən əyyaşlıq edirmiş. Tez də dünyasını dəyişmişdi... Anası Yekaterina Geladze isə ağıllı və işgüzar bir qadın olmuşdur. N. Prjevalski 1878-ci ildə Qafqaza səyahəti zamanı Qoridə yaşayan dostu, knyaz Maminoşvilinin qonağı olarkən orada təsərrüfat işlərinə kömək edən Yekaterina ilə tanış olmuşdu. Bu 22 yaşlı qız gürcü knyazının uzaq qohumu idi və ona təssərüfat işlərində qulluq göstəririrdi. Nikolayla Yekaterina ilk baxışdan bir-birilərini bəyənmişdilər... Onların bir neçə görüşlərindən sonra Yekaterina hamilə qalmışdı. Və 9 aydan sonra İosif doğulmuşdu... N. Prjevalski Qoridən getsədə, tez-tez Yekaterinaya pul göndərirmiş. Bunu 1880- 81-ci illərdə onun poçtla Yekaterinaya göndərdiyi pul baratlarının çekləri də sübut edirdi... Beləliklə,1879-cu ilin dekabrında dünyaya göz açmış, "Stalin" ləqəbiylə gələcəkdə dünyanın ən nəhəng dövlətlərindən birinə - SSRİ-yə uzun illər başçılıq etmiş və tarixə "xalqlar atası" adı ilə düşmüş İosif Cuqaşvilinin rus çarı III Aleksandrın Smolenskdə yaşayan kəbinsiz arvadı Yelena Alekseyevna Karetnikovadan doğulmuş N. Prjevalskinin oğlu olduğu fərziyə edilir. İ. Stalinin isə bir nəvə kimi çar Rusiyasının monarxiya taxt-tacına varislik iddasının da mövcudluğu aşkara çıxır...) ən yaxın, sevimli silahdaşların-

dan biri olan Sergey Mironoviç Kirovun (Kostrikovun) (23 mart 1886, Moskvaətrafı Urjum şəhəri - 1 dekabr 1934, Leninqrad) adı ilə bağlıydı. S.M. Kirov 1 dekabr 1934-cü ildə Leninqrad (indiki Sankt-Peterburq) Vilayət Partiya Komitəsinin 1-ci katibi vəsifəsində işlərkən ÜİK (b) P Tarix İnstitutunun Tarix-Partiya Komissiyasının təlimatçısı Leonid Nikolayev tərəfindən onun kabinetinin yanında arxadan boynuna vurduğu güllə nəticəsində öldürülmüşdü. İ. Stalinin göstərişilə onun şərəfinə Gəncənin adı Kirovabad (22 fevral 1935-ci il) adlandırılmışdı. Yalnız 54 ildən sonra, (30 dekabr 1989-cu il) "Kirovabad" adı ləğv edilmiş və Gəncənin tarixi adı bərpa olunmuşdur...

Azərbaycan Cümhuriyyəti dövründə F. Xoyski hökumətinin 30 avqust 1918-ci il tarixli qərarı ilə daha bir tarixi həqiqət öz yerini tapmış, "Karyagin qəzası" ləğv edilmiş və Cəbrayıl qəzasının həqiqi adı özünə qaytarılmışdı... Cəbrayıl adlı tarixi şəxsin orta əsrlərdə yaşaması bəlliydi... Cəbrayıllı tayfası haqqında məlumatlara isə general-mayor A. Bakıxanovun (1794-1846) və Mirzə Həsən əfəndinin əsərlərində rast gəlinir...

**Qeyd**: *Abbasqulu Bakıxanov (ədəbi ləqəbi "Qüdsi"-"Müqəddəs") Bakı xanı II Mirzə Məhəmməd xanın böyük oğlu idi. Anası Safiya xanım gürcü qızıydı... A. Bakıxanov 3 iyun 1794-cü ildə Bakıdan 16 km, şimalda yerləşən Əmirhacıyan kəndində anadan olmuşdu. Tiflisdə rus ordusunda dilmanc - tərcüman işləmiş, Rusiyanın İranla və Türkiyə ilə sülh danışıqlarında yaxından iştirak etmiş, bir sıra Rusiya, İran və Türkiyə orden və medallarıyla təltif olunmuşdu. A . Bakıxanov 1832-ci il martın 9-da podpolkovnik, 10 ildən sonra 1842-ci ildə polkovnik almış, bundan sonra isə general-mayor rütbəsinə yüksəlmişdi. İmperator I Nikolay (1825-55) A. Bakıxanovu şəxsən tanıyırdı. A. Bakıxanov 1846-cı il dekabrın ortalarında Məkkədən (Səudiyyə Ərəbistanı) qayıdarkən "Vadiyi-Fatimə" adlanan yerdə 52 yaşında ikən vəfat etmişdi... A. Bakıxanovun general-mayor olması haqqında onun həmmüasiri general-mayor Ağalar xana yazdığı 2 məktub da bunu sübut edir. Həmin məktubların sonunda o imzasından əvvəl "general Bakıxanov" sözlərini yazmışdır. Bu məktubları dilçi tədqiqatçı alim, professor Musa Adilov vaxtilə Salman Mümtaz adına Əlyazmalar*



*İnsitutunda saxlanılan Əlabbas Müznibin (1883-1938) arxivindən üzə çıxararaq qəzetdə dərc etdirmişdir... (Əlabbas Mütəllibzadə Müznib... Görkəmli ədəbiyyatşünas - filoloq tədqiqatçı, yazıçı-jurnalist, istiqlal şairi... 1883-cü ildə Bakıda anadan olmuşdu... Otuzuncu illərdə repressiyaya məruz qalaraq həbs olunmuş, 1938-ci ildə Vladiqafqazda 55 yaşında ikən güllələnmişdir. Əsgərzadə Salman Məşədi Məhəmmədəmin oğlu ("Mümtaz"). (1884, Şəki - 1941, Şəki). Görkəmli, yorulmaz filoloq - tədqiqatçı. Azərbaycan SSR EA Ədəbiyyat və Dilçilik İnstitunun elmi işçisi olmuşdur).*

Ağdaş qəzasına şəhər statusunun verilməsi (30 avqust 1918-ci il), Bakının erməni-daşnak qüvvələrindən azad edilməsi (15 sentyabr 1918-ci il), Azərbaycan Məclisi Məbusanının (Parlamentinin) açılması (7 dekabr 1918-ci il) və "plüralizm"in ("coxpartiyalılığın") bərqərar olduğu parlament sisteminin yaradılması, Azərbaycan Cümhuriyyətinin pul və poçt markalarının buraxılması, ana dilində məktəb və seminariyaların təsis olunması Azərbaycanın beynəlxalq aləmdə tanınması və xarici əlaqələrin aparılmasında və digər mütərəqqi işlərdə F. Xoyski əvəzsiz xidmətlər göstərmişdi. Dahi Üzeyir bəy Hacıbəyli (18 sentyabr 1885, Şuşa qəzasının Ağcabədi kəndi - 23 noyabr 1948, Bakı) F. Xoyskinin və onun başçılıq etdiyi hökumətin xüsusilə 1918-ci ildəki ilkin mürəkkəb və çətin dövrdəki fəaliyyətinə yüksək qiymət vermişdi... Böyük Məhəmməd Əmin Rəsulzadə (31 yanvar 1884, Bakı, Novxanı kəndi - 6 mart 1955, Ankara) F. Xoyski hökumətini müdafiə edərək bildirmişdi ki, hökumət "bu az müddətdə, nə mümkünsə etmişdir".

...Gəncəyə köçəndən sonra F. Xoyski yaranmış yeni əlverişli şəraitdə əməli olaraq, 2 iyul 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin ilk müstəqil milli polisini təsis etmişdi. Bu zaman sosial baza da vardı. Belə ki, vaxtı ilə Bakıda və Azərbaycanın digər yerlərində xidmət edən sabiq polis və burjua milisi əməkdaşları Gəncəyə toplaşmışdılar. F. Xoyski hökuməti həmin qüvvələrdən istifadə etməklə ilk milli-müstəqil polis orqanlarının yaradılması zamanı həm də qeyri millətlərin sədaqətli olan nümayəndələrindən istifadə etmişdi. Bununla əlaqədar Fətəli xanın başçılıq etdiyi Azərbaycan Hökuməti "Hökumət müəssisələri və idarələrinin öz vəzifələrini tərk etmiş qulluqçuları haqqında" 178 nömrəli qərar vermişdi.

Qərara uyğun olaraq məhz F.Xoyskinin və daxili işlər naziri Behbud xan Cavanşirin (1877-1921) rəhbərliyi altında 1918-ci il iyulun 2-dən etibarən Gəncə quberniyasına daxil olan, əhalisi 1 milyon 64 min 647 nəfər təşkil edən, 9 qəzada (Gəncə, Zəngəzur, Cəbrayıl, Cavanşir, Qazax, Şuşa, Cavad, Nuxa və Ərəş qəzalarında) müstəqil Azərbaycan polisinin yaradılmasına başlanmışdı...

F. Xoyskinin Baş nazir və eyni zamanda daxili işlər naziri olduğu dövrdə Bakı XKS-in hərbi qüvvələri ilə Azərbaycan Cümhuriyyətinin qüvvələri arasında müharibə (Bakı XKS S. Şaumyanın başçılıq etdiyi sovet hakimiyyəti idi. Tarixdə "Bakı Kommunası" kimi də tanınır. Cəmi 97 gün mövcud olmuş Bakı XKS 1918-ci il aprelin 25-də yaranmış və həmin il iyulun 31-də süqut etmişdi. Əhalisinin sayı 83 min 150 nəfər olan Bakı quberniyası, həmçinin Şamaxı, Quba, Cavad qəzaları, Göyçay qəzasının bir hissəsi, Dağıstan Vilayəti Bakı XKS-in hakimiyyəti altında idi...1859-60-cı illərdə çar hökuməti yeni inzibati ərazi islahatları keçirmişdi. Həmin islahatlar zamanı Quba qəzası Bakı şəhəri ilə birləşdirilmiş, Şamaxı quberniyası Bakı quberniyası adlandırılmışdı. Tarixdə "Badkubə", "Badkuyə", yəni "küləkli yer" mənasını daşıyan Bakı şəhəri 1859-cu ildən yeni yaradılan Bakı quberniyasının paytaxtı olmuş və paytaxt Şamaxıdan Bakıya köçürülmüşdü. Bu, Şamaxıda tez-tez zəlzələnin baş verməsi ilə əlaqədar idi).

Bakı XKS-in Xalq Daxili İşlər Komissarlığının (xalq daxili işlər komissarı Alyoşa (Prokofi) Caparidze (15 yanvar 1880, Gürcüstan (Kutaisi, Şardometi kəndi - 20 sentyabr 1918, Türkmənistan, Ağcaqum çölü) və digər inzibati qüvvələri də onun hərbi qüvvələri ilə bərabər (xalq hərbi komissarı erməni Qriqori Korqanov idi (əslində Korqanyan) (1886, Tiflis - 1918, Türkmənistan; Ağcaqumda ingilislər tərəfindən güllələnib) Azərbaycan Cümhuriyyətinin Milli Ordusuna və bizə kömək edən türk Qafqaz İslam Ordusuna qarşı qanlı döyüşlər aparmışdı. Azərbaycanın o vaxtkı paytaxtı Gəncədə məskunlaşan F. Xoyskinin hökuməti Bakını S. Şaumyanın rəhbərlik etdiyi bolşevik - daşnak qüvvələrindən bacardıqca tez azad etmək istəyirdi. 1918-ci il iyunun ikinci yarısından etibarən Qafqaz İslam Ordusunun və Azərbaycan Cümhuriyyəti hərbi birləşmələrinin Bakıya doğru birgə hücumaları daha da intensiv xarakter



almışdı. Çilligilli Nuru paşanın (1889-1949) komandan olduğu Qafqaz İslam Ordusunun hərbi hissələri Gəncəyə 1918-ci il iyun ayının 5-dən daxil olmağa başlamışdı. Nuru paşa özü isə Gəncəyə iyunun 8-dən 9-na keçən gecə gəlib çıxmışdı...

*Haşiyə*: "Nuru" ərəbcə işığa aid olan" deməkdir. Faruq Mustafa Nuru paşa 1889-cu ildə İstanbulda, əslən Rumelidən olan hərbçi Hacı Tofiq Əhməd paşanın ailəsində dünyaya gəlmişdi. Faruq (bəzi ədbiyyatda Fəriq də yazılır) Nuru paşanın doğum tarixi 1881-ci il göstərilir... Məsələn, tanınmış jurnalist, hərb tariximizin tədqiqatçı Şəmistan Nəzirli Nuru paşanın 1889-cu ildə doğulduğunu yazmışdır. Biz ona əsaslanmışıq... Nuru paşa 29 yaşında general-leytenant kimi ali hərbi rütbəyə layiq görülmüş bir sərkərdə idi. O, xidmətlərinə görə hələ 1916-cı il iyulun 29-da Almaniya imperatorluğunun "Dəmir səlib" medalı, Osmanlı sultanı tərəfindən "Altın-Ləyaqət (22 noyabr 1916), "Altın–İmtiyaz" medalları, "Osmani" ordeni (6 fevral 1918) və "Məcidiyyə" ordeni (qılıncla birlikdə) (6 avqust 1918),"Üçüncü dərəcəli fəxri əsgər" fərqlənmə nişanına layiq görülmüş, ona növbədənkənar general-leytenant hərbi rütbəsi verilmişdi... Sarıqamış (Türkiyə ərazisindədir) döyüşündə (I Dünya Müharibəsində Osmanlı və Rusiya qoşunları arasında baş vermişdir. 1914-cü ilin dekabrı - 1915-ci ilin yanvarında olmuş bu savaş Ənvər paşanın hazırladığı plan üzrə davam etsədə, rüsların qələbəsi ilə başa çatmışdı. Bu döyüşdə rus qoşunlarına general Vorontsov komandanlıq etmişdi...) könüllü olaraq 12-ci diviziyaya uğurlu komandanlıq etməsinə görə 15260 saylı "İstiqlal" medalı ilə (16 yanvar 1929) və s.-lə təltif olunmuşdu. Qardaşı, Türkiyənin hərbi naziri Ənvər paşanın (1881-1922) əmrilə Azərbaycana kömək məqsədilə 1918-ci il aprelin 8-də Mosuldan (İraq) yola düşmüş, həmin il mayın 25-dən Qafqaz İslam Ordusu yaratmağa başlamış, 300 nəfər qoşunla Cəbrayıl səmti ilə Göyçaya, oradan da iyunun əvvəlində Gəncəyə gələrək Azərbaycanın xilası missiyasını yerinə yetirmişdi... Bu zaman, 1918-ci il iyunun 7-dən Osmanlı ordusunun 56 və 106-cı piyada alaylarının təmsil olunduğu 65 zabit və 2475 əsgərdən ibarət əsas diviziya qüvvələri general Vehib paşanın (Yanya) (1877-1940) əmri ilə Qazaxdan Gəncəyə hərəkət etməkdə idilər. 1918-ci il 30

oktyabr tarixli Mondros (Mudros) sazişinə görə Türk ordusu Bakını tərk etdikdə belə, Nuru paşa mübarizəni davam etdirmək üçün Dağıstana getmiş, orada müəyyən hazırlıq aparmağa başlamışdı. 1920-ci il 27 nisan (aprel) işğalından sonra Qarabağa gələrək iyun ayında Tərtər, Ağdam və Bərdədə, habelə Zaqatalada sovet hakimiyyətinə qarşı silahlı çıxışlar təşkil və ona rəhbərlik etmişdi. Lakin Nuru paşa Türkiyəyə qayıdarkən Batumda Mürsəl paşa ilə birlikdə həbs olunmuş və ingilislərin nəzarətində saxlanmışdı... Onu sabiq dostları - Behbud xan Cavanşir, Nağı bəy Şeyxzamanlı və başqaları plan hazırlayıb qaçırmağa müvəffəq olmuşdular. Bu işə general Xəlil paşa da cəlb edilmişdi. Nuru paşa 1923-cü il oktyabrın 4-də təqaüdə çıxmışdı. O, İstanbulda sənaye sahəsində çalışmış, şəhərin yaxınlığındakı poladəritmə - dəmir tökmə zavoduna rəhbərlik etmişdi. II Dünya Müharibəsi zamanında onun rəhbərlik etdiyi zavod Türkiyə ordusu üçün minaqayırma və əl qumbarası istehsalı ilə məşğul olmuşdu... Nuru paşa 1949-cu il martın 2-də İstanbulda özünün həminki zavodunda naməlum səbəblərdən baş vermiş partlayış nəticəsində həlak olmuşdu. Bu zaman onun 60 yaşı vardı.

Yeri gəlmişkən, Türkiyənin görkəmli hərbi xadimi, general-leytenant Ənvər paşa (əsl adı İsmayıl Ənvərdir) (1881-1922) Nuru paşanın qardaşıdır. O, əvvəl Almaniyada Türkiyənin hərbi attaşesi işləmiş və imperator II Vilhelimlə (27 yanvar 1859 - 4 iyun 1941; 1888-1918-ci illərdə Almaniyanın imperatoru olmuşdur) şəxsi dostluq etmiş, sonra Türkiyənin hərbi naziri vəzifəsinə yüksəlmişdi. Ənvər paşa Nuru paşanın ögey qardaşı idi. O, həyatdan çox tez ayrılmışdı. Ənvər paşa 22 noyabr 1881-ci ildə Türkiyənin Çilligil bölgəsində anadan olmuş, 4 avqust 1922-ci ildə Orta Asiyada basmaçıların dəstəsinin başında "qızıl ordu"ya qarşı vuruşmada, Çegen adlı yerdə Tacikstanda 41 yaşında həlak olmuşdu... Döyüşdən sonra 11-ci ordu döyüşçüləri 28 cəsədi saymışdılar. Onların arasında üstündə gəzdirdiyi kiçik "Quran" da tapılan Ənvər paşa da vardı... 30-cu illərin ortalarınadək yerli əhali Ənvər paşanın məzarını "Həzrəti şah" ("müqəddəs şah") adı ilə ziyarət edirdi. Ənvər paşa Hitlerin (20 aprel 1889 - 30 aprel 1945) (Əsl adı Adolf Şiklqruberdir) qibtə etdiyi... bir şəxs olmuşdur. Yetmiş dörd il sonra, 1996-



cı il avqustun 4-də onun yandırılmış cəsədinin külü həmin vaxt Tacikistana səfər etmiş Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirələ (1924-2015) təqdim edilmişdi .

1918-ci il iyunun 26-da Azərbaycan Hökumətinin qərarına əsasən Milli Ordumuz təsis olunmuşdu. General Nuru paşa və digər türk hərbçilərinin də bu işdə köməyi şəksiz idi. Belə ki, general-leytenant Əli ağa Şıxlinskinin (1875 - 1943) komandir olduğu Müsəlman Korpusu Azərbaycan Korpusu adlandırılmışdı . General Ə. Şıxlinski Azərbaycan Korpusunun komandiri vəzifəsində saxlanmışdı. Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü Azərbaycan Prezidentinin 1992-ci il 18 sentyabr tarixli fərmanı ilə əvvəllər hər il 9 oktyabr tarixində qeyd olunurdu. Lakin o tarixi həqiqəti heç də dəqiq əks etdirmirdi. Odur ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il 22 may tarixli fərmanı ilə 9 oktyabr tarixli həmin fərman qüvvədən düşmüş və 1918-ci il 26 İyunda Gəncədə Azərbaycan Korpusunun yarandığı gün əsl tarixi gün kimi qəbul olunmuşdur. Hazırda hər ilin bu günü Azərbaycan Silahlı Qüvvələri işçilərinin peşə bayramı günü kimi təntənəli surətdə qeyd olunur.

...1918-ci il iyulun 31-də Bakı XKS süqut emiş və hakimiyyət əvəzində ingilis generalı L.Ç. Denstervilin (general-mayor Lionel Çarlz Denstervil 9 noyabr 1865-ci ildə anadan olmuş,1946-cı ildə vəfat etmişdi) Bakıdakı 1500 nəfərlik hərbi kontingentinə arxalanan daşnak-menşevik və eserlərin "Sentrokaspi Diktarurası" ("Mərkəzi Xəzər hakimiyyəti") deyilən, cəmi 44 gün (1 avqust - 14 sentyabr 1918-ci il) hökm sürmüş koalisyon bir "hökumət"in əlinə keçmişdi... Qanlı döyüşlərdən sonra Bakı 1918-ci il sentyabrın 15-də AXC-nin birləşmiş hərbi hissələri, tum general (general-leytenant) Mürsəl paşanın (aralıq - dekabr) 1881, Ərzrum, Türkiyə -2 şubat (fevral) 1945, İstanbul. Bakının alınmasındakı xidmətlərinə görə ona "Bakı Mürsəl paşa" ləqəbidə verilmişdi. "Bakı" adını özünə fəxrlə soyadı götürmüş Mürsəl paşa 64 yaşında İstanbulda vəfat etmiş və orada dəfn olunmuşdu. 1988-ci ilin noyabrında onun nəşi Ankaradakı dövlət qəbristanlığına köçürülmüşdür...) komandir olduğu ("mürsəl" ərəbcə "göndərilmiş", "yollanılmış" deməkdir) 5-ci Qafqaz diviziyası və general-leytenent Nuru paşanın komandan ol-

duğu Qafqaz İslam Ordusu tərəfindən azad olunmuş, ertəsi günü F. Xoyski hökuməti Gəncədən Bakıya köçmüşdü. Bakı 1918-ci il sentyabrın 14-dən 15-nə keçən gecə saat 3-də başlanan qəti hücum əməliyyatı nəticəsində bazar günü, səhər saat 9-a işləmiş azad edilmişdi. Bu zaman Azərbaycan Cümhuriyyətinin əhalisi 4 milyon, ərazisi isə 100 min kv. kilometr idi. Bakının azad olunması haqqında ilk xəbər Danimarka konsulluğu vasitəsilə bütün dünyaya yayılmışdı. Bakı azad edildikdən sonra türk yarbayı (podpolkovnik) Mehmet Fəthi Bakının müvəqqəti qubernatoru təyin edilmiş, şəhərdə tam asayiş bərqərar olunmuşdu. Bu işdə onun böyük köməkçisi (müavini), pokovnik Əli bəy Zizikskinində (1878-1928) rolu qeyd olunmalıdır...

1918-ci il sentaybrın 16-da Türkiyənin hərbi naziri Ənvər paşa Bakının xilası ilə əlaqədar Şərq Ordular qrupunun komandanı Xəlil paşaya (1882-1957) təbrik teleqramı göndərmişdi. Xəlil paşa (Xəlil Kut) Azərbaycanın müstəqilliyində, Bakının daşnak-bolşevik və menşevilk-eser tör-töküntülərindən, habelə ingilislərdən xilasında mühüm rol oynamış Osmanlı zabitlərindən biri idi. Xəlil paşa Türkiyənin Mosuldakı 6-cı ordusunun, sonralar Şərq Ordular Qrupunun komandanı olmuşdu. Azərbaycanda yaradılmış Qafqaz İslam Ordusunun təminat və təchizat işlərinə başçılıq edirdi. Bir müddət türk millətçilərinin qeyri-rəsmi nümayəndəsi kimi Moskvada fəaliyyət göstərmişdi... Lakin Bakının 1920-ci il aprelin 27-də 11-ci ordu tərəfindən işğalında bolşeviklərə "inanan" Xəlil paşanın günahları Türkiyədə yeri gələndə indi də etiraf və tənqid edilir...

Bu şad xəbəri Qafqaz Müsəlman Ordudunun komandanı, general-leytenant Nuru paşa hələ Gəncədə olan Nazirlər Şurasının sədri F. Xoyskiyə teleqram göndərməklə çatdırmışdı. Teleqramda deyilirdi:

"Allahın köməyi ilə Bakı şəhəri 15 (9) 34-də, saat 9-un başlanğıcında bizim qoşunlar tərəfindən alındı".

F. Xoyski Nuru paşaya göndərdiyi təcili cavab teleqramında Azərbaycan xalqı və hökuməti adından məhəbbət və minnətdarlığını belə izhar etmişdi:

"*Qafqaz Müsəlman Ordusunun komandanı Nuru Paşaya!*

*Xoşbəxtəm ki, xalqın adından Siz əlahəzrətlərinə, xeyirxah*



*türk oğullarına və Azərbaycan paytaxtını düşməndən azad edən inanılmış cəsur əsgərlərə təşəkkürümüzü çatdırıram*".

Nasirlər Şurasının sədri Fətəli xan".

Bakının azad edilməsi qurbanlar hesabına başa gəlmişdi... 1918-ci il noyabrın 10-da, bazar günü Azərbaycan hökuməti başda Nuru paşa olmaqla Mudros sazişinin Osmanlı Türkiyəsinə aid hissəsinin (11-ci maddə) əməli yerinə yetirilməsinin icrası olaraq türk generallarının şərəfinə vida ziyafəti təşkil etmişdi.

***Qeyd:*** *Mudros sazişi. Əslində, Mondros barışığı. 1918-ci il oktyabrın 30-da Aralıq dənizində Saqqız (Lemnos) adasındakı Mondros limanında Antanta dövlətləri ilə Osmanlı dövləti arasında imzalanıb. Sazişi Antanta tərəfindən ingilis admiralı Somerset Artur Qoş Kaltorp (23 dekabr 1864-27 iyul 1937) və Türkiyənin Baş Qərargah rəisi, orbay (ordu generalı) Hüseyn Rauf bəy (27 temmuz (iyul) 1881, İstanbul - 16 temmuz),1964 İstanbul) imzalamışdı.*

Ziyafətdə 400 nəfər tanınmış ziyalı və siyasi xadim, neft sənayeçilərinin nümayəndələri, Azərbaycan Ordusunun rəhbərləri iştirak edirdilər. Ziyafətdə ilk çıxış edən və alovlu nitq söyləyən Azərbaycan hökumətinin başçısı F. Xoyski demişdi: "... Azərbaycanın çöllərində bizim türk qardaşlarımızın qanı bizim türklərin qanı ilə bir-birinə qarışdı... Azərbaycanın hürriyyəti uğrunda tökülmüş qanlar Osmanlı və Azərbaycan türkləri arasında yaxınlaşmanın və qırılmaz əlaqələrin möhkəm təminatıdır". Fətəli xan daha sonra bildirmişdi: ..."Bizim də yaşamaq, azad yaşamaq haqqımız var. Nə zirehli maşın, hidroplan, kanonerka, tikanlı məftil, mina və digər texniki qurğular, nə ingilislər və onların əlaltıları, nə də ümumiyyətlə, hər hansı bir qüvvə tarixin təbii gedişini dayandıra bildi, onların əlli minlik orduya və texnikaya malik olmasına baxmayaraq, kiçik qüvvənin həmləsinə tab gətirməyib Bakını tərk etmələri öz rifahı və səadətini başqasının fəlakəti və bədbəxtliyi üzərində qurmağa çalışanlar üçün ibrət dərsi olmalıdır".

Ziyafətdə Osmanlı imperiyası və türk Qafqaz komandanlığı adından vida çıxışı edən general Nuru paşa onun rəhbərlik etdiyi ordunun Azərbaycan üçün nə edibsə, bundan sonrada etməyə hazır olduğunu bidirərək, axırda demişdi: "... Qardaş Azərbaycan türkünün mənafeyi hər bir türk üçün müqəddəsdir... Əgər Azərbaycanın

azadlığı yolunda yeni qurbanlar lazım olarsa, ona da hazırıq". Yeri gəlmişkən, artıq yuxarıda deyildiyi kimi, Gəncədən üzü bəri Azərbaycan qəzalarının və Bakının düşmən qüvvələrindən azad edilməsi uğrunda bolşevik-erməni daşnak qoşunlarına qarşı savaşlarda şəhid olmuş **qardaş Türkiyə Ordusunun 1130 nəfər əsgər və zabiti Bakıda Dağüstü parkda dəfn olunmuşdur**, Azərbaycan milli hərbi qüvvələrinin verdiyi şəhidlər isə bundan 3-4 dəfə çox idi...

Lakin türklər daha Azərbaycanda qala bilməzdilər. Belə ki, I Dünya Müharibəsində məğlub olmuş Osmanlı Türkiyəsinin hərbi qüvvələrinin Mudros sazişinə əsasən Azərbaycandan çıxarılmasını müttəfiqlər - Antanta ölkələri (İngiltərə, Fransa və ABŞ) təkidlə tələb edərək, 1918-ci ilin noyabrında Bakıya öz hərbi kontingentini göndərmişdilər.

Türkiyə Ordusu Azərbaycanı tərk edəndən sonra, Böyük Britaniyanın İrandakı ekspedisiya korpusunun komandanı, general Vilyam (Uilyam) Monthomeri Tomson olmaqla müttəfiqləri təmsil edən ingilis qoşunları Ənzəli limanından "Kryuger", "Tula", "Evelina", ümumiyyətlə, 17 hərbi dəniz gəmilərində (həmin gəmilərdə 39 piyada briqadasının ingilis - fransız-amerikan hərbi kontingentindən ibarət 1000 nəfəri və 800 hindli əsgəri, habelə polisi, müttəfiq dövlətlərin - İngiltərə, Fransa və ABŞ-ın nümayəndəliyi vardı) 1918-ci il noyabrın 17-də Bakıya yan almış və şəhərə daxil olmuşdular. Onlar bundan əvvəl Bakıda yerləşmiş ingilis generalı L.Ç. Denstervili (1865-1946) və qoşunlarını "əvəz" etmişdilər. İngilislər bunu "açar" əməliyyatı adlandırırdılar... Həmin əməliyyat 1919-cu ilin avqustun sonlarına qədər davam etmişdi...

**Haşiyə**: General Lionel Çarlz Denstervil 1918-ci il sentyabrın 15-də Bakını tərk edib İranın Ənzəli (1925-ci ilədək Ənzəli adlanıb. 1925-ci il dekabrın 12-də Qacarlar sülaləsini (1796-1925) fars Pəhləvilər sülaləsi (1925-78) əvəz edəndə şəhərə Pəhləvi adı verilmişdi. 1978-ci il 13 fevral inqilabından sonra İran Müvəqqəti İnqilabi Hökumətinin qərarı ilə Pəhləvi adı götürülmüş və Gilan vilayətində qədim liman şəhəri olan Ənzəli yenidən öz tarixi adını bərpa etmişdir. Yeri gəlmişkən, Qacarlar azərbaycanlı (türk) olsalar da, həmişə Tehranda şah taxtında otururdular. Tehran şəhəri 9-cu əsrdən İranın paytaxtı olan Rey şəhərinin



yaxınlığında yerləşirdi. Tehran 1785-ci ildən İranın paytaxtıdır...) L.Ç. Denstervil Ənzəli limanına çatandan 3 gün sonra Böyük Britaniya hökuməti onu vəzifədən kənarlaşdırıb iqamətgahı İranda yerləşən yeni yaradılmış müttəfiqlər ordusuna komandan general V.M.Tomsonu təyin etmiş və tezliklə o, Bakıya göndərilmişdi.

V.Tomson Bakıya daxil olarkən özünün qarşılanma mərasimindəki çıxışında demişdi: " Biz buraya Türkiyə ilə imzaladığımız müqavilə əsasında gəlmişik və biz ərazinizi qoruyan Osmanlı ordusunu əvəz edəcəyik. Nə indi, nə də gələcəkdə sizin daxili işlərinizə müdaxilə etmək fikrində deyilik". Lakin F. Xoyski və Azərbaycan Hökumətinin üzvləri V.Tomsonun hələ Bakıya daxil olmazdan əvvəl sifariş verib bir neçə yeri, o cümlədən hökumətin oturduğu "Metropol" mehmanxanasını ("Metropol" mehmanxanası əvvəllər başqa bir şəxsə məxsus idi. Hərrac zamanı onu milyonçu Hacı Hacıağa almışdı. Mehmanxana cəmi 38 nömrədən ibarət idi. Altında mağazalar yerləşirdi. Hər nömrənin qiyməti sutkada 1 manat 50 qəpikdən 5 manatadək olurdu. General Ç. Denstervil Bakıda olduğu dövrdə ingilis qoşunlarının hərbi qərargahı "Metropol" mehmanxanasında yerləşmişdi. "Metropol" indiki AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyidir. Muzey dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illiyi münasibətilə Azərbaycan SSR XKS-in "Daimi sərgi Ev-muzeyinin təşkili haqqında" 1 noyabr 1939-cu il tarixli 4972 nömrəli sərəncamı ilə yaradılmışdı. Lakin II Dünya Müharibəsi başlandığı üçün onun açılışı yalnız 1945-ci il mayın 14-də keçirilmiş, muzey həm də Azərbaycan Ədəbiyyatı Muzeyinə çevrilmişdi) ingilis əsgərləri üçün boşaltmaq haqqında verdiyi əmrlərdən məyus olmuşdular...V.Tomson Bakıya daxil olandan sonra hələ Azərbaycan hökumətini tanımaq istəmədiyi kimi, onun Silahlı Qüvvələrinə də etibar etmirdi. Qeyd etmək lazımdır ki, Azərbaycan hökumətinin 1918-ci il 23 oktyabr tarixli iclasında Hərbi Nazirlik yaradılması qərara alınmışdı. Qərar Nazirlər Şurası tərəfindən 1918-ci il noyabrın 1-də imzalanmışdı. Qərara əsasən Nazirlər Şurasının sədri F. Xoyski ilk vaxt hərbi nazir vəzifəsini də üzərinə götürmüşdü, onun müavini isə tam artilleriya generalı S. Mehmandarov təyin edilmişdi. Odur ki,

V.Tomsonun tələbi ilə 1918-ci il noyabrın 22-də Azərbaycan Cümhuriyyətinin Hərbi Nazirliyi Bakıdan Gəncəyə köçmüş və Bakıya yenidən bir də 1919-cu il aprelin 5-də qayıtmışdı.

İngilislərin bu cür tələbləri Azərbaycan DİN-ə və polisinə də aid idi. Belə ki, onlar Azərbaycan polisinin Bakıda ingilis hərbi polisinə cinayətkarlıqla mübarizədə və əmin-amanlığı qorumaqda yaxşı fəaliyyət göstərən nümayəndələrinə zahirən "səmimi" sözlər deməyi əsirgəmirdilər. Məs.,1919-cu il yanvarın 10-da Bakının general-qubernatoru V.Tomsonun əmri ilə Bakı Polismeysterliyinin Xəfiyyə hissəsinin (bu struktur hələ çar Rusiyası dövründə, 2 noyabr 1906-cı ildə yaradılmışdı) rəisi Həsən bəy Fətəlibəyova (1886-1920) uğurlu fəaliyyətinə görə təşəkkür elan edilmiş və o, bir həftədən sonra Bakıdakı müttəfiq dövlətlərin Müvəqqəti Polis Komissarlığının razılığı ilə Bakı Şəhər Polismeysterliyinin Xəfiyyə polisinin rəisi vəzifəsinə təyin olunmuşdu...

***Haşiyə:*** Həsən bəy Əhməd bəy oğlu Fətəlibəyov 18 dekabr 1886-cı ildə vaxtı ilə axırıncı Qarabağ xanı Sarıcalı-Cavanşir, general-mayor Mehdiqulu xanın (1807 - 1822) mülku olmuş Ağdamın Ətyeməzli kəndində əsilzadə ailəsində anadan olmuşdu. Qori Seminariyasını 1916-cı il martın 5-də bitirmişdi. Buna qədər, 1914-cü ildə Qori şəhərinin pristavı işləmiş və yaxşı xidmətinə görə həmin il iyunun 1-də "Müqəddəs Vladimir" ordeninin 4-cü dərəcəsinə layiq görülmüşdü. 1917-ci il oktyabrın 29-da Tatar (Azərbaycan – İ.Ş.) Süvari Alayının ehtiyat bölməsinə könüllü daxil olmuşdu. Həmin il noyabrın 23-də və dekabrın 5-də Müsəlman Korpusuna əsgər yığmaq üçün Borçalı qəzasına ezam olunmuşdu. 1918-ci il yanvarın 4-də ona uryadnik rütbəsi verilmişdi. Həmin tarixdən də Müsəlman Korpusunun komandiri, general-leytenant Ə. Şıxlınskinin əmrilə oboz (araba hərbi karvanı) komandiri təyin edilmişdi. H. Fətəlibəyov ailə vəziyyəti ilə əlaqədar 1919-cu il yanvarın 4-də hərbi xidmətdən tərxis olunmuşdu... Sonra Bakı Polismeysterliyində məmur kimi qulluq göstərməyə başlamışdı... H. Fətəlibəyov Bakı Polismeysterliyinin Xəfiyyə Polisinin rəisi vəzifəsindən sonra Azərbaycan Cümhuriyyətinin Əks - İnqilabla Mübarizə Təşkilatının rəis müavini vəzifəsinə də təyin edilmişdi... Lakin onun gələcək aqibəti çox faciəli olmuşdu. H. Fətəlibəyovun acı aqibəti haqqında bu bəllidir ki, sovet hakimiyyəti qurulduqdan sonra Bakıda, yaxud Tiflisdə müəmmalı şəkildə qətlə yetirilmiş və evi yandırılmışdır... H. Fətəlibəyov 12 aprel 1896-cı il təvəllüdlü Ədilə xanımla yaşam qurmuşdu. Onların 4 dekabr 1913-cü ildə Bakıda anadan olmuş Leyla adlı qızları, 2 mart 1915-ci ildə doğulmuş Ənvər adlı oğulları vardı. Ənvər II Dünya Müharibəsində həlak olmuşdu... Leyla isə Moskva şəhərində yaşamış, orada ərə getmiş və bir qız övladı dünyaya gəlmişdi...

H. Fətəlibəyovun ingilislər tərəfindən vəzifə pilləsində irəli çəkilməsi ingilislərin zahiri qayğısı idi. Faktlar sübut edir ki, ingilislər hər halda ikiüzlü siyasət yeridirdilər. Onlar Azərbaycan Cümhuriyyətinin daxili işlərinə qarışır (halbuki, bunun əksini söz vermişdilər), onun hakimiyyət orqanlarını, o cümlədən Daxili İşlər Nazirliyini "nəzarətdə" saxlamağa can atırdılar. Məs.,1919-cu il yanvarın 28-də ingilis hərbi polis komissarı, polkovnik F.P. Kokkerel Azərbaycanın daxili işlər naziri Xəlil bəy Xasməmmədovdan tələb etmişdi ki, polis işçilərinin təyin olunmasını şəxsən onunla razılaşdırsın və "polis rütbəli heyətdə" və ya təyinatlarda hər cür dəyişikliklər onun Xüsusi Dəftərxanasından keçsin. Bu Dəftərxana 19 noyabr 1918-ci ildə yaradılmışdı və Molokan (indiki Xaqani) küçəsində, Molokan bağı ilə üzbəüz binada yerləşirdi. F.P. Kökkerel özü isə "Metropol" mehmanxanasındakı otaqlardan birində otururdu.

Daxili işlər naziri X. Xasməmədov da bu haqda Azərbaycan Cümhuriyytəi Nazirlər Şurasının sədri F. Xoyskiyə aşağıdakı məzmunda məlumat vermişdi: "Müttəfiq dövlətlərin polis komissarı bütün Bakı rayonu polisinin rəhbəri təyin edilmiş və polisin bütün üzvləri ona tabe olunmuşdur. Bu komissarın sərəncamı və əmrləri tez-tez Azərbaycan Cümhuriyyəti hakimiyyət orqanlarının sərəncam və əmirlərini ləğv etsə də, polis məmurları tərəfindən qeyd-şərtsiz icra olunur. İşlərə müdaxilə o həddə çatıb ki, hətta polis komissarı tələb edir: - polisin şəxsi heyətindəki dəyişikliklər və təyinatlar yalnız onun Xüsusi Dəftərxanası vasitəsilə aparılsın".

Noyabr 1918-ci il - aprel 1919-cu il. Mir Ağadı bəy Talışxanov Bakı şəhərinin polismeysteri vəzifəsində işləmişdir. O, həmçinin Azərbaycan Cümhuriyyəti DİN-in Lənkəran qəzasında xüsusi

tapşırıqlar üzrə məmuru olmuşdur... M. Talışxanov sonralar general-mayor rütbəsinə yüksəlmişdi...

**1918-ci il sentyabrın 15-də** Qafqaz İslam Ordusu və Azərbaycan Silahlı Qüvvələri Bakıya varid olub onu azad etdikdən sonra Nuru paşa "İsmailiyyə" binası ilə üzbəüz ikimərtəbəli binada yerləşib hələ Gəncədən Bakıya gəlməmiş F. Xoyski hökumətini gözləməyə başlamışdı. Mürsəl paşa da "İsmailliyə" ilə üzbəüz küçədə vaxtilə İran şahı Müzəfərəddin şah Qacarın (25 mart 1853, Təbriz -7 yanvar 1907, Tehran ) qaldığı mülkdə yerləşmişdi.(Müzəffərəddin şah azərbaycanlı idi, Azərbaycanın hakimi , taxt-tacın varisi olmuş, 1896-1907-ci illərdə İranda şahlıq etmişdi). Ertəsi gün, sentyabrın 16-da F. Xoyskinin başçılıq etdiyi Azərbaycan Hökuməti xüsusi qatarla Bakıya köçmüşdü. Əksər nazirlər və F. Xoyskinin iş otağı əvvəlcə "Metropol" mehmanxanasında yerləşmişdi. F. Xoyski özü "Metropol" mehmanxanasındakı 31 nömrəli otaqda hər gün saat 12-dən 14-dək vətəndaşları qəbul edirdi. (Azərbaycan Hökuməti sonra buradan Seyid Mir Tağı Mirbabayev meydanına ("indiki "Azneft" dairəsi) köçmüşdü. F. Xoyski hökumətinin yerləşdiyi milyonçu və məşhur xanəndə S. Mirbabayevin (1867-1953) evi (Azərbaycan Dövlət Neft Şirkətinin indiki binası) əvvəllər erməni milyonçusu Aramyanın idi. Aramyan kazinoda uduzub müflisləşəndə milyonçu Seyid Mirbabayev (həm də məşhur xanəndə idi ) onu almışdı...

18 dekabr 1918-ci il. Bakıdakı müttəfiq dövlətlərin Müvəqqəti Polis Komissarlığı yanında türk və müsəlman (azərbaycanlı) əhaliyə qarşı hücum faktlarının müəyyən edilməsi ilə məşğul olan ayrıca Nəzarət Komissıyası yaradılmışdı...

21 dekabr 1918-ci il. Bakıdakı müttəfiq dövlətlərin Müvəqqəti Polis Komisarlığı tərəfindən Azərbaycan Hökumətinə qarşı çıxan ekstremist əhval-ruhiyyəli qüvvələrə qarşı kütləvi həbslər keçirilmişdi ...

...1918-ci il dekabrın 25-də Nazirlər Kabinetinin qərarı ilə Hərbi Nazirliyin tərkibində müəyyən dəyişikliklər aparılmışdı. Nazirlər Şurasının sədri F. Xoyski hərbi nazir vəzifəsini buraxmışdı. Onun müavini, tam artilleriya generalı S. Mehmandarov hərbi nazir təyin edilmişdi. Bundan 4 gün sonra - dekabrın 29-da general-



leytenant Ə. Şıxlinski hərbi nazir S. Mehmandarovun müavini vəzifəsinə təyin olunmuşdu.

Bu arada general V. Tomson müstəqil Azərbaycan Hökumətinin mövcudluğunu tanıdğını bildirmiş, lakin "hər şeyi yerində yoxlayıb buna münasib də qərar verərik",- demişdi...1918-ci il dekabrın 2-də verdiyi bəyanatda o, artıq elan etmişdi: "Xan Xoyskinin sədrliyi ilə yaradılmış koalisyon hökumət Azərbaycanda yeganə qanuni hakimiyyətdir". 1918-ci il dekabrın 29-da general V. Tomson Bakıdakı müttəfiq dövlətlərin və komandanlığın adından F. Xoyskinin başçılıq etdiyi Azərbaycan Hökumətini qəti surətdə rəsmən tanımışdı.

F. Xoyski o zaman böyük hörmətə malik olan, neft sənayesində öz fəaliyyəti ilə ad çıxarmış Behbud xan Cavanşiri (1877-1921) daxili işlər naziri təyin etmiş, həmçinin peşəkar hərbçi, general-mayor Məhəmməd Sadıq bəy Ağabəyzadəni (1865-1944) vitse-ministr kimi (nazir hüququnda) milli-müstəqil polisimizin təşkilinə cəlb etmişdi. Yeri gəlmişkən, Azərbaycan Respublikası DİN-də qərb modelli vitse-ministr institutu F. Xoyski hökuməti tərəfindən ilk dəfə Şərqdə məhz Azərbaycanda tətbiq olunmuşdu...

1918-ci il noyabrın 16-da Azərbaycan Milli Şurası öz iclasını keçirərək hazırkı fövqəladə vəziyyətdə ölkədə Müəssislər Məclisinin çağırılmasının qeyri-mümkünlüyü barədə qərar qəbul edib, əvəzində özünü parlamentə çevirməyi lazım bildi. Həmin il noyabrın 19-da isə "Azərbaycan Parlamentinin yaradılması haqqında qanun" qəbul etdi. Parlamentin açılışı dekabrın 3-də olmalıydı. Lakin müəyyən "obyektiv səbəblər"... üzündən onun açılması 1918-ci il dekabrın 7-də mümkün oldu. 1918-ci il dekabrın 7-də milyonçu Musa Nağıyevin (1842-1919) xəstə oğlu Ağa İsmayılın şərəfinə istedadlı polyak memarı İ. K. Ploşkoya (1867-1931) tikdirdiyi "İsmailiyyə" binasında bazar günü saat 2-də Azərbaycan Parlamentinin təntənəli surətdə açılışı olmuşdu.

**Qeyd:** *Milyonçu Ağa Musa Nağıyev Hacı Zeynalabdin Tağıyevin yaxın dostu idi. Ondan sonra milyonçular sırasında ikinci yerdə dururdu. A. M. Nağıyev 1842-ci ildə Bakının Biləcəri kəndində anadan olmuş, 1919-cu ilin martın 18-də 77 yaşında dünyasını dəyişmişdi. Məşhur neft milyonçusu idi. Düz 20 il Bakı Şəhər Du-*

*masının qlasnısı (içlasçısı) olmuşdu. Onun azərbaycanlı Ümmülsəlma adlı və Yelizaveta Qriqoriyevna adlı iki arvadı vardı. Ümmülsəlmadan olan oğlu İsmayıl bərk vərəm xəstəliyinə tutulmuşdu. İsveçrəyə müalicəyə göndərilsədə, bir xeyiri olmamışdı. 1902-ci ildə 27 yaşında vərəm xəstəliyindən dünyasını vaxtsız dəyişmiş oğlu Ağa İsmayılın xatirəsinə "Qapan dibi - "Şeytanbazar" deyilən boş sahədə sonralar "İsmailiyyə" kimi məşhurlaşmış bina tikdirmişdi. AMEA-nın indiki Rəyasət Heyətinin yerləşdiyi həmin binanın layihəsini 1908-ci ildə polyak memarı İ. K. Ploşko hazırlamışdı. Ploşko binanı tikməmişdən əvvəl İtaliyanın Venetsiya şəhərinə getmiş, oranın arxitekturası ilə tanış olmuşdu. İ. K. Ploşko Venetsiya arxitekturası üslubunda həmin binanı 5 ilə, 1913-cü ildə tikib qurtarmışdı. Binanın hörgüçüləri o dövrün mahir bənnaları - usta Hənifə, Hacı Abbas, Hacı Xeyrulla və başqaları idi... Ümumiyyətlə, Ağa Musa Nağıyev 98 bina tikdirmişdi. Onlardan biri də sovet dövründə Bakıda "Semaşko" adı ilə məşhurlaşmış xəstəxananın binasıdır. Bina hazırda onun adını daşıyır. Binaya Ağa Musa Nağıyevin adı Azərbaycanın müstəqillik qazanmasından sonra, 1992-ci ildə verilmişdir.*

**Haşiyə:** İosif (Yozef) Kasparoviç Ploşko. XİX əsrin sonunda və XX əsrin əvvəllərindəki məşhur polyak memar-mühəndisi idi. 1867-ci ildə Polşada doğulmuşdu. Əvvəlcə Peterburq Bədaə Akademiyasında, sonra I Nikolay adına Peterburq Mülki Mühəndislər İnstitutunda oxumuşdu... 1895-ci ildə institutu bitirdikdən sonra 2 il Kiyevdə işləmişdi. 1997-ci ildə Bakıda yaşayan. bir müddət milyonçu H. Z. Tağıyevin şəxsi memarı olan İ. Qaslavskinin (1865-1904) dəvətilə Bakıya gəlmişdi. Yerli milyonçuların (H. Z. Tağıyevin, A. M. Nağıyevin, Murtuza Muxtarovun, Nuru Əmiraslanovun və b.) sifarişlərini yerinə yetirən İ. K. Ploşko Avropa klassik - Venetsiya və fransız qotik üslubunda gözəl binalar inşa edirdi. Milyonçu Murtuza Muxtarovun şəxsi memarı kimi çalışan gənc və istedadlı İ. K. Ploşkonun o vaxt Nikolayev küçəsi 10-da yerləşən ünvanda tikdiyi "İsmailliyə" binası buna parlaq misaldır. O, bu binanı 1908-ci ildə layihələndirmişdi... Bakının baş memarı da işləmiş İ. Ploşko 30 ilə yaxın Azərbaycanda çalışdıqdan sonra 1925-ci ildə



Varşavaya, bir müddətdən sonra isə Parisə köçmüşdü. Ömrünün sonunu da Parisdə başa vuran böyük memar İ. K. Ploşko 1931-ci ildə orada 64 yaşında vəfat etmişdi...

... İosif Vikentiyeviç Qaslavski də milliyyətcə polyak idi. 1865-ci ildə Polşanın paytaxtı Varşava şəhəri yaxınlığında zadəgan ailəsində doğulmuşdu. 1890-cı ildə I Nikolay adına Peterburq Mülki Mühəndislər İnstitunu bitirib Rusiya DİN-in Texniki İnşaat Komitəsində işləmişdi. Bir ildən sonra, 1892-ci ildə Bakı şəhərinin baş memarı təyin edilmişdi. Bu işdə keçmiş bakılı, Sankt-Peterburqda yaşayan, milliyyətcə alman olan, məşhur arxitektor Robert Robertoviç Marfeld (20 oktyabr 1852, Kronştadt - 1921, Sankt-Peterburq) əsas rol oynamışdı. Milyonçu H.Z.Tağıyevin şəxsi memarı kimi də sayılan İ. Qaslavski onun evini (1893-1902) (hazırkı AMEA-nın Milli Azərbaycan Tarix Muzeyini), R. R. Marfeldin layihəsi üzrə Aleksandr Nevski Kilsəsini ("Qızıllı kilsə") (1898) (hazırda Fəvvarələr bağı ilə üzbəüzdədir), Bakı Şəhər Dumasının binasını (1899-1900) və s. möhtəşəm tikililər inşa etmişdi. İ. Qaslavski yeganə Bakı memarı idi ki, çox qısa, lakin mənalı yaradıcılıq fəaliyyətinə görə "Qafqaz Rasstrellisi" fəxri adını almışdı. İ. Qaslavski 1904-cü il yanvarın 30-da Bakı şəhərində vaxtsız, cəmi 39 yaşında vəfat etmişdi...

... Parlamentin üstündə üçrəngli milli Bayrağımız dalğalanırdı. Ərəb dilində iri hərflərlə "İstiqlal" sözü yazılmışdı. Deputatlar hələ gündüz saat 1-dən gəlib yerlərində oturub səbirsizliklə iclasın açılmasını gözləyirdilər. Mərkəzdə müsavatçılar oturmuşdular. Parlamentdə üç fraksiya və digər qruplar təmsil olunurdu. Parlamentin birinci iclasını Azərbaycan Milli Şurasının sədri, "Müsavat" fraksiyasının da sədri M. Ə. Rəsulzadə açmışdı. Saat beşə qədər davam etmiş iclasda F. Xoyski başçılıq etdiyi Azərbaycan Hökumətinin yarımillik hesabatındakı məruzəsində ölkədəki vəziyyət, görülən işlər, o cümlədən polisin təşkili və fəaliyyəti ilə bağlı belə söyləmişdi: "... Fəaliyyətimizin bu ötən altı ayı ərzində mümkün olan hər şeyi etdik ki, ölkəni anarxiya və xaos vəziyyətindən çıxaraq, biz qayda qanunu bərpa etdik, polisi təsis etdik... Hökumət idarə eyləmişdir, siz görürsünüzki, çox şeylər təzə təşkil olunubdur... Daxildə hərc-mərclikdən başqa bir şey yox idi. Hətta polis də yox

idi. Ona görə hamıdan artıq polis işinə diqqət etdik. İndi Allaha şükür olsun ki, Azərbaycanın hər yerində lazımı qədər olmasa da, xalqın malını, canını müdafiə edəcək polis təşkilatımız var. Bu xüsusda çox sözlər ola bilər...". Qeyd etmək lazımdır ki, Parlamentin açılışından sonra F. Xoyskinin başçısı olduğu Azərbaycan Hökumətinin qərarı ilə binanın yerləşdiyi küçənin adı–"Nikolayev" dəyişdirilib, "Parlaman" küçəsi qoyulmuşdu...

1918-ci il dekabrın 26-da F. Xoyski 3-cü hökumət kabinetinin proqramı və tərkibi barədə Parlamentdə çıxış etmişdi. Müzakirələrdən sonra Parlament F. Xoyski hökumətinə yenidən etimad göstərmişdi. Bu hökumətdə F. Xoyski Baş nazir portfeli ilə yanaşı, xarici işlər naziri vəzifəsini də tutmuşdu. Üçüncü hökumət kabinetində X. Xasməmmədov (1873-1947) daxili işlər naziri, N.Yusifbəyli (1881-1920) maarif və dini etiqad naziri, M. H. Hacınski (1875-1931) dövlət nəzarəti naziri vəzifələrini tutmuşdular. Müttəfiq qoşunların Bakıdakı komandanı V.Tomsonun təkidi ilə F. Xoyskinin üçüncü koalisyon hökumətində 3 yer ruslara, 2 nazir vəzifəsi isə ermənilərə ayrılmışdı. Lakni ermənilər onlara təklif olunan nazir yerlərindən imtina etmişdilər...

F. Xoyski N.Yusifbəylinin başçısı olduğu dördüncü (14 mart 1919 – 22 dekabr 1919-cu il) və beşinci (24 dekabr 1919-cu il - 30 mart 1920-ci il) hökumət kabinetlərində xarici işlər naziri vəzifəsini tutmuşdu. Azərbaycan Cümhuriyyətinin beynəlxalq (millətlərarası) aləmdə və əcnəbi dövlətlər tərəfindən tanınmasında, müstəqil xarici siyasət aparılmasında F. Xoyskinin rolu az olmamışdı... Hələ 1918-ci il dekabrın 2-də müttəfiq dövlətlərin hərbi missiyasının başçısı general V. Tomson Bakıda ikən F. Xoyskinin başçılığı ilə yaradılmış koalisyon hökumətini Azərbaycanda yeganə qanuni hökumət kimi tanıyaraq, Fətəli xanı bacarıqlı adamlardan biri hesab etdiyini və baş nazirə dərin rəğbət bəslədiyini bildirmişdi... 1919-cu il yanvarın 22-də Bakıya gəlmiş Balkanda və Qafqazda olan ingilis qoşunlarının baş komandanı general Corc Henri Milton da (tarixi ədəbiyyatda "Corc Miln" kimi də adlandırılır) ertəsi günü Azərbaycanın baş naziri F. Xoyski ilə görüşündə elan etmişdi ki, Böyük Britaniya hökuməti Azərbaycan hökumətini bu ölkənin ərazisində yeganə qanuni hökumət kimi tanıyır. Müttəfiq qoşunların komandanlığı yenidən yaradılmış Azərbaycan dövlətinin daxili işlərinə qarışmayacaq və ona hər cür kömək göstərəcək. Azərbaycan Milli Şurasının və Cümhuriyyətinin rəhbəri M. Ə. Rəsulzadə yaxın dostu və məsləkdaşı Fətəli xanı müstəqil Azərbaycanın təşəkkülündə mühüm rol oynamış şəxsiyyətlərdən biri adlandırmışdı. Beləliklə, Azərbaycanda ilk demokratik dövlət quruculuğu prosesində və dövlət idarəçiliyi strukturlarının formalaşdırılmasında F. Xoyskinin böyük rolu olduğu aydındır.



F. Xoyski canından artıq sevdiyi xalqına, Vətəninə axıradək sadiq qalmışdı. Başlanğıc həmişə çətin olur... Aşikardırdır ki, milli istiqlaliyyətimizin qazanılmasında, dövlət müstəqilliyimizin bərpa edilməsində və qorunmasında F. Xoyskinin xidmətləri böyükdür. O cümlədən, müstəqil DİN-in təsis edilməsində, milli, müstəqil polis orqanlarımızın təşəkkülü və inkişaf etdirilməsində də müstəsna xidmətlər göstərmişdir. Təəssüf ki, xalqımızın bu görkəmli oğlunun aqibəti faciə ilə sona yetmiş, o, erməni terrorunun qurbanı olmuşdur...

1920-ci il aprelin 27-də Bakının 11-ci "qırmızı" ordu tərəfindən işğalından bir gün sonra Azərbaycanda sovet hakimiyyəti elan olundu. Bolşeviklərin Azərbaycan Cümhuriyyətinin siyasi xadimlərinə toxunmayacaqlarına dair verdikləri vədlərin həqiqiliyinə əmin olmayan Fətəli xan təqibdən və "qırmızı terrordan" yaxa qurtarmaq üçün ailəsi ilə birlikdə zirehli qatarla Tiflisə gedib orada yaşayırdı. Lakin düşmənlər, ilk növbədə erməni - daşnaklar onu "unuda" bilmir, izləyir və fiziki cəhətdən məhv etmək üçün fürsət gözləyirdilər.

Budur, Fətəli xanın qətlə yetirildiyi həmin müdhiş 1920-ci il 19 iyun günü... Həmin gün Fətəli xan öz yaxın silahdaşı, Azərbaycan Cümhuriyyətinin rəhbər vəzifələrində, o cümlədən ədliyyə və daxili işlər naziri vəzifələrində çalışmış Xəlil bəy Xasməmmədovla birlikdə Tiflisdəki İrəvan meydanından (indiki Patiaşvili adına Opera və Balet Teatrının yanı) söhbət edə-edə keçərkən qəfil atılan atəşlərə düçar olmuşdu... Fətəli xan ağır yaralanaraq, səndirləyib yıxılmış, Xəlil bəy də yaralanmışdı. Ancaq tapançasını çıxarıb əks-cavab olaraq terrorçulardan birini yaralamış və onun dalınca yüyürmüşdü. Amma terrorçular axşamın qaranlığında aradan çıxmışdılar...

Xəlil bəy terrorçunun atdığı qəfil güllə ilə boyun nahiyəsindən ağır yaralansa da, yenidən özünü Fətəli xana yetirmişdi. Fətəli

xan güllə səsinə yığışan insanlarla əhatə olunmuşdu. Xəlil bəy ona yetişəndə fəqət, Fətəli xan gözlərini əbədilik yummuşdu. Xəlil bəy hönkür-hönkür ağlayırdı... Beləliklə, F. Xoyski 45 yaşında erməni terrorçularının əli ilə həyatdan vaxtsız köçmüşdür. Tarixi ədəbiyyatların verdiyi məlumatlara görə, F. Xoyskini Türkiyənin Ərzrum şəhərindən gəlmiş muzdlu erməni terrorçuları Aram Erkanyan və Mişaq Qriqoryan (bəzi ədəbiyyatda Kirokasyan da yazılır) arxadan atdıqları güllə ilə qətlə yetirmişlər... Xəlil bəyin cavab atəşi il yaraladığı terrorçi M. Qriqoryan idi. Bu qanlı hadisə barədə məlumatları sonralar erməni daşnakları 1986-cı ildə Parisdə tarixi terrorizmə aid həsr etdikləri kitabda yazmışlar... (**Qeyd:** *Aram Erkanyan Ermənistanın Milli Qəhrəmanıdır*).

Erməni terrorçuları tərəfindən F. Xoyskinin qətlə yetirilməsi Zaqafqaziya regionunun bütün demokratik qüvvələrinin qəzəbinə səbəb olmuşdu."Qruziya" (Gürcüstan) qəzeti F. Xoyskinin qətlinin dördüncü günü, 23 iyun 1920-ci il tarixli nömrəsində onun haqqında nekroloq dərc etmişdi.

Dövrü mətbuatda F. Xoyskinin faciəli qətli ilə bağlı başqa bir fərziyə də öz əksini tapmışdır. Həmin fərziyəni Fətəli xanın qızı Tamara xanım söyləmişdir.

Vaxtı ilə Rusiya imperiyasında tanınmış hüquqşünaslardan biri olan F. Xoyski doğma dilində çox da səlis danışa bilmirdi və ictimai yerlərdə əsasən rus dilində danışırdı... Fətəli xanın rus dilində daha çox danışmağa üstünlük verməsi bununla əlaqədar idi ki, atası general-leytenant İsgəndər xan Xoyski çar Rusiyasının ordusunda xidmət etmişdi və rus ordusundakı həmin xidmət, həmçinin böyüdüyü ailə mühiti Fətəli xana təsirsiz keçməmişdi.

Tamara xanımın söyləməsi barədə yazan Zəkəriyyə Şirvani bildirir ki, F. Xoyski Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1920-ci il aprelin 30-da ADR-in liderlərindən biri, Parlamentin sədr müavini olmuş, görkəmli demokrat Həsən bəy Ağayevlə (1875, Gəncə - 19 iyul 1920, Tiflis; Fətəli xanın qətlindən düz bir ay sonra erməni muzdlu qatili tərəfindən öldürülmüşdü) birlikdə qatarla gecə Tiflisə gəlmişdi. F. Xoyskinin qətli isə heç də 1920-ci il iyunun 19-da deyil, həmin il iyunun 7-də baş vermişdir. Özü də, onun yanında Xəlil bəy yox, məhz Həsən bəy Ağayev olmuşdur... Tamara xanım bununla əlaqədar bildirib ki, gürcü həkim, professor Nikolay Kipişidze Fətəli xanın ölümünün bəzi təfərrüatları barədə ona aşağıdakı məlumatları vermişdir:

– "Fətəli xan və Həsən bəy 1920-ci il iyunun 7-də "Soley" sinqmatroqrafında axırıncı kinoseansından çıxaraq, Veri enişindən Mixaylovskaya küçəsinə tərəf enəndə naməlum bir terrorçu arxadan onların kürəyinə bir neçə dəfə atəş açmışdı. Mixaylovskaya xəstəxanasına çatdırılan F. Xoyski və H. Ağayevə ilk tibbi yardım göstərən məhz mən idim. Ancaq Xoyski çoxlu qan itirdiyinə görə səhərə yaxın keçindi. H. Ağayev isə sağalıb Türkiyəyə gedib. Onlara atəş açanın kim olduğu isə aşkar edilməmişdir".

F. Xoyskinin nəsli, özünün ailə üzvlərindən bəziləri və onların aqibətləri haqqında məlumat verməyimiz də bizcə, yerinə düşər. Fətəli xan milliyyətcə rus olan Yevgeniya Vasilyevna ilə ailə qurmuşdu. Qohumlarının Ceyran adlandırdıqları həmin qadından Fətəli xanın üç övladı vardı: qızı Tamara, oğlanları Murad və Ənvər. Böyük oğlu Murad 1910-cu ildə Gəncədə anadan olmuşdu... Bakıda Nəqliyyat İdarəsində işləyirdi. Onun birinci arvadı Aleksandra Bezzubovadan (sonra ayrılmışdılar) Ənvər adlı oğlu vardı. Ənvər 1938-90-cı illərdə yaşamışdı... Murad ikinci dəfə Nina Qalkina (1928) ilə evlənmişdi. Ondan bir qızı dünyaya gəlmişdi. Adını Tamara (1950) qoymuşdu. Murad 1973-cü ildə vəfat etmişdi. Onun oğlu Ənvərin törəmələri Ukraynada, qızı Tamara xanımın ailəsi isə Bakıda yaşamışlar... Fətəli xanın digər oğlu Ənvər də (Ənvər ərəb sözüdür, "çox işıqlı", "çox parlaq" deməkdir) 1914-cü ildə Gəncədə anadan olmuşdu... 1935-ci ildə, 30-cu illərin repressiya dövründə təqiblərə məruz qalmış və dünyasını vaxtsız dəyişmişdi... Fətəli xanın hər iki oğlu həyatdan köçənə qədər atalarının soy adını iftixarla daşımışdılar. Qızı Tamara 1902-ci ildə Gəncədə doğulmuşdu. 1921-ci ildə Azərbaycan SSR-in görkəmli dövlət xadimlərindən biri olan Mirzə Davud Hüseynova (1894, Bakı - 1938; otuzuncu illərdə siyasi səbəblərə görə repressiya olunmuş və 1938-ci ildə güllələnmişdi) ərə getmiş və onun soyadını qəbul etmişdi. Uşaqları olmamışdı. Tamara xanım Xoyski 1990-cı ildə 88 yaşında vəfat etmişdir.

Fətəli xanın üç qardaşı və bir bacısı vardı. İsgəndər xanın Şəhrəbanu xanımdan olan bacıları Tubu bəyim 1837-ci ildə anadan olmuş və 1871-ci il noyabrın 10-da cəmi 34 yaşında dünyasını dəyişmişdi... Fətəli xanın böyük, ögey qardaşı Cahangir xan Xoyski İsgəndər xanın Səadət bəyimdən olan övladı idi. O, 9 sentyabr 1849-cu ildə doğulmuş və 1920-ci ildə 71 yaşında vəfat etmişdi... Cahangir xan Titulyar məsləhətçi idi... Cahangir xanın kiçik oğlu Teymur xan Xoyski 1891-ci il noyabrın 27-də Gəncədə anadan olmuşdu. Gəncə klassik gimnaziyasını və 1915-ci ildə Tiflis hərbi məktəbini bitirmişdi. I Dünya Müharibəsində iştirak etmiş, artilleriya kapitanı rütbəsi almışdı. Azərbaycan Cümhuriyyəti dövründə Milli Ordumuzda xidmət göstərmişdi. Cavanşir alayında 1-ci batalyonun komandiri idi. Gəncə üsyanında (24 may - 4 iyun 1920-ci il) bolşeviklərə qarşı savaşmışdı. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1920-ci ilin iyununda həbs edilərək ailəsilə birlikdə Sibirə sürgün olunmuşdu...

Fətəli xanın Cahangirdən sonrakı, özündən böyük ikinci qardaşı Hüseynqulu xan Xoyski (22 sentyabr 1869, Gəncə - 7 dekabr 1955, İstanbul) xalqımızın istiqlaliyyəti uğrunda axıradək mücadilə aparmış şəxsiyyətlərdən biri olmuşdur... F. Xoyskinin bir qardaşı da (ögey) Səadət xanımdan olmuş Abbasqulu xan idi. O, 1878-ci il avqustun 8-də Gəncədə anadan olmuş, 1889-cu ildə vaxtsız, cəmi 11 yaşında həyatdan köçmüşdü.

F. Xoyskinin Şəhrəbanu xanımdan olmuş sonbeşik qardaşı Rüstəm xan Xoyski də (1888, Gəncə - 1939, Moskva) Azərbaycan milli istiqlal hərəkatının fəal iştirakçılarından biriydi. O, 1888-ci il noyabrın 15-də Gəncədə doğulmuşdu... İxtisasca hüquqşünas idi. Peterburq Universitetini (1913) bitirmişdi. Rüstəm xan Xoyski 1918-ci ilə qədər hüquq-mühafizə orqanlarında xidmət göstərmişdi. Azərbaycan Cümhuriyyəti dövründə qardaşı F. Xoyskinin başçılıq etdiyi 1-ci və 2-ci hökumət kabinetlərində İşlər İdarəsinin müdiri işləmişdi. N.Yusifbəylinin başçılıq etdiyi 5-ci hökumət kabinetində himayə naziri vəzifələrində çalışmışdı (O, Nikolayev (indiki İstiqlaliyyət) küçəsi 25-də otururdu, xidməti telefonu 57-19; mənzil telefonu 9-01 idi). R. Xoyski Azərbaycanda sovet hakimiyyəti dövründə lazımlı, hazır savadlı bir kadr kimi Azərbaycan SSR Ali



İqtisad Şurası Rəyasət Heyətinin katibi, kooperativ hüququ üzrə hüquqşünas vəzifələrində işləmişdi. Lakin Xoyskilər nəslinə mənsub şəxs kimi Azərbaycan SSR-in xüsusi xidmət orqanları tərəfindən təqiblərə məruz qaldığından, Moskvaya köçməyə məcbur olmuş, 1939-cu ildə orada vəfat etmiş və Novodeviçye monastrının qəbristanlığında, qaynı - mühəndis İ. İ. Yutkeviçin yanında dəfn olunmuşdur. Bu zaman Rüstəm xan Xoyskinin cəmi 51 yaşı vardı. Uşağı olmayıb.

F. Xoyski Tiflisdə Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundovun (1812, Nuxa (Şəki) - 1878, Tiflis) və görkəmli Azərbaycan şairi Mirzə Şəfi Vazehin (1792, Gəncə - 1852, Tiflis) qəbirləri yanında dəfn olunmuşdur. Yeri behiştlik olsun!

F. Xoyskinin xatirəsi xalqımız tərəfindən əziz tutulur və əbədiləşdirilmişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev F. Xoyskinin Azərbaycan dövlətçiliyi tarixindəki fəaliyyətini yüksək qiymətləndirmişdir. 1995-ci il dekabrın 18-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Fətəli xan Xoyskinin anadan olmasının 120 illiyinin qeyd edilməsi haqqında" sərəncam imzalamışdı. Həmin sərəncamla F. Xoyskinin anadan olmasının 120 illiyinin təntənəli surətdə qeyd olunması üçün geniş tərkibdə təşkilat komitəsi yaradılmışdı.

Məhz ümummilli liderin diqqəti və qayğısı nəticəsində 1996-cı il martın 9-da Tbilisidə Nəbatat bağında Fətəli xanın uyuduğu qəbirüstü abidəsinin yenidən görülmüş abadlıq işlərindən sonra açılışı olmuş, məzarı üzərində xatirə abidəsi ucaldılmışdır. Açılışda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Gürcüstan Respublikasının Prezidenti Eduard Şevardnadze (1928-2014) iştirak etmişdilər. Abidənin açılış mərasimində H. Əliyev görkəmli tarixi şəxsiyyət olan F. Xoyskinin həyat və fəaliyyəti barədə geniş nitq söyləmiş, onu yüksək qiymətləndirmişdi...

Gəncədə Fətəli xanın adına küçə vardır. Vaxtilə orada yaşadığı binaya 1992-ci il mayın 28-də xatirə baralyefi vurulmuşdur. Fətəli xanın yaşadığı malikanə Gəncədə filarmoniya tikilməsi ilə əlaqədar İkinci Dünya Müharibəsindən sonra sökülüb dağıdıldığından onun baralyefini Azərbaycan Cümhuriyyətinin digər görkəmli xadimi Adil xan Ziyadxanlının (Ziyadxanovun) (1877-1965) salamat

qalmış şəxsi mülkünün divarına vurmuşlar (İndiki Gəncə İcra hakimiyyətinin yeri isə vaxtı ilə Adil xanın qardaşı, Azərbaycan Cümhuriyyətinin görkəmli ictimai-siyasi xadimlərindən biri İsmayıl xan Ziyadxanlınm (Ziyadxanovun) (1867 -1920) mülkü olmuşdur).

F. Xoyskinin adına Bakıda prospekt vardır. Vaxtilə Bakıda yaşadığı binaya (Filarmoniya ilə üzbəüz bina. Keçmiş Nikolayev (İndiki İstiqlaliyyət) küçəsi, ev 21) xatirə lövhəsi vurulmuşdur. 1995-ci ildə Fətəli xan Xoyskinin anadan olmasının 120 illiyi münasibətilə poçt markası buraxılmışdır.

## BEHBUD XAN CAVANŞİR
## (1877-1921)



Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimi. Azərbaycan Cümhuriyyəti dövründə F. Xoyskinin 2-ci hökumət kabineti zamanı (17 iyun – 7 dekabr 1918-ci il) daxili işlər naziri olmuşdur.

Qarabağ xanı İbrahim Xəlil xanın 7-ci oğlu Məmmədqasım ağanın oğlu Paşa ağanın ikinci oğlu, Azad ağanın (1845-ci ildə Şuşada anadan olmuşdu) 4 oğlundan böyük oğlu Behbud ağa Cavanşir 1877-ci ildə Şuşa şəhərində nəsil şəcərəsi əsilnəcabətə söykənən ailədə dünyaya gəlmişdi. O, Şərqin qüdrətli sərkərdəsi və hökmdarı, Qırxlı – Avşar (Əfşar) Nadir şahın (1688-1747) öldürülməsindən (19 iyun 1747) sonra müstəqillik qazanmış, paytaxtı Pənahabad (indiki Şuşa) olan Qarabağ xanlığının (1747-1822) əsasını qoymuş məşhur Sarıcalı-Cavanşirlər və Otuzikilər tayfasının başçısı Pənahəli xan Sarıcalı-Bəhmənli Cavanşirin (1693-1763) nəticəsi idi.



***Haşiyə***: Pənahəli xan İbrahim ağa oğlu Sarıcalı-Bəhmənli Cavanşir. Cavanşir elinin Bəhmənli qolunun Sarıcalı boyundan idi. 1693-cü ildə anadan olmuşdu. 1747- 61-ci illərdə Qarabağ xanı olmuşdur. 1763-cü ildə İranın Şiraz şəhərində 70 yaşında vəfat etmişdir...Vəsiyyətinə əsasən nəşi Qarabağa gətirilərək, özünün əzəli, dədə-baba yurdu olan Ağdamda - indiki İmarət - Qərvənd qəbristanlığında - abidə-məqbərə kompleksində dəfn olunmuşdur. Tədqiqatçılar hesab edirlər ki, Bəhmənli eli qədim zamanda Türküstandan Azərbaycana gəlmişdir. Ağ hunların törəmələrindəndirlər. Bəhmənli Cavanşir elinin böyük bir oymağıdır. (“Bəhmən” fars sözüdür, mənası “ağıllı”, ”zəkalı”, ”bilikli”, ”tədbirli” deməkdir). Sarıcalıların babası Sarıca Əlinin anası Bəhmənli qızıdır.

Qarabağın axırıncı, 3-cü xanı Mehdiquluxan Sarıcalı-Bəhmənli Cavanşir (1772-1845) olmuşdur. 1806 - 22-ci illərdə xanlıq etmiş Mehdiqulu xana çar I Aleksandrın (1801-25) fərmanı ilə 1805-ci 14 may Kürəkçay müqaviləsindən sonra general-mayor rütbəsi verilmişdi... Mehdiqulu xan Pənahəli xanın oğlu İbrahim Xəlil xan Sarıcalı-Bəhmənli Cavanşirin (1732, Şuşa qalası - 14 iyun 1806 Xankəndi) ikinci oğludur. 1772-ci ildə Şuşada anadan olmuş, 1845-ci ildə Ağcabədidə (ovda olarkən atdan yıxılmışdı) 73 yaşında vəfat etmiş, Ağdamda İmarət-Qərvənddə atasının yanında dəfn olunmuşdur. Mehdiqulu xanın anası Xurşidbanu bəyim II Şahverdi xan Ziyadoğlu - Qacarın qızıydı. (**Haşiyə** : ”Qacar” sözü türk ulusunun adı ilə bağlıdır...”. Qacarlar İran və Azərbaycanda orta əsrlərdə hökmranlıq edən Cəlairilər türk sülaləsinin (1336-1432) bir qoludur. Onlar 7 qızılbaş elinin biri idi. “Qacar” sözü Qacar adlı bir oymaq başçısının adından yaranıb. Ehtimal olunur ki, qacarları da Anadoludan (Şərqi Türkiyə) gətirən də elə bu bəy - Qacar olub... Qacar sözünün ilkin mənası “qasar-torpaq”dır. Qacar toponimi türk - Azərbaycan mənşəli tayfalardan birinin adıdır. Vaxtılə cəlair türklərindən törəyən qacarlar əvvəlcə Kiçik Asiyada və Suriyada, sonra isə Ön Asiyada məskunlaşmışdılar... Qacarlar xanədanı İranda son sülalədir. Onlar 1796-1925-ci illərdə İran taxt-tacında şahlıq etmişlər. Qacar şahları həmişə özlərini türk hesab etmiş, türkcə addlandırmış və öz əcdadlarının İrana böyük monqol sərkərdəsi

Çingiz xanın (Temuçin) nəvəsi Hülakü xanla (Elxanilər-Hülakülər dövlətinin banisi Hülakü xan (1217-65); 1256-65-ci illərdə hökmranlıq etmişdir) gəldiklərini söyləmişlər. Mehdiqulu xanın qızı, məşhur şairə Xurşud banu Natəvan (15 avqust 1832, Şuşa - 2 oktyabr 1897, Şuşa; 65 yaşında vəfat etmişdir), həmçinin onun həyatdan vaxtsız (17 yaşında) köçmüş oğlu Mirabbas da həmin məqbərə də torpağa tapşırılmışdır...).

Tanınmış tədqiqatçı Ənvər Çingizoğlu (Fərəcov) apardığı araşdırmalar nəticəsində belə hesab edirki, Behbud xan bütün Qarabağda adlandırılan kimi "Behbud xan"la yanaşı həmdə Behbud ağa"dır... Beləliklə, Behbud ağa da (tarixi ədəbiyyatda "Behbud bəy" də yazırlar ) məqbuldur. Bununla belə, fikrimizcə, xan nəslindəndirsə, xan oğlunun əvvəlcə elə xan kimi yazılması daha düzgündür.

Behbud xan 1890-cı ildə alman dili təmayüllü Tiflis realnı məktəbinə daxil olmuş, oranı müvəffəqiyyətlə bitirmişdi. (**Qeyd:** *Həmin məktəbdə Behbud xan 1878-ci ildə anadan olmuş, Tiflis mağazalarından birinin xidmətçisinin oğlu Stepan Şaumyanla 8 il bir sinifdə oxumuşdu. Erməni dilini öyrənməkdə ona S. Şaumyan kömək etmişdi. Sonralar Behbud xan da S. Şaumyanı dəfələrlə işə düzəltmiş, sürgünlərdən və qazamatlardan qurtarmışdı. Məsələn, 1908-ci ildə Behbud xan S. Şaumyanı "Xalq evi"nin müdiri təyin etdirmişdi. Buna baxmayaraq, o, S. Saumyanla heç də eyni yolla getməmişdi. Onları biri-birindən çox şey - zümrə mövqeyi, həyat idealları, siyasi baxışları və s. ayırırdı... (Bu haqda bax: Двинская Михадзе. Шаумян. Moskva, 1968, səh. 13, 108).*

...1898-ci ildə Tiflis ədadiyə (orta) məktəbinin buraxılış mərasimində Qafqaz Tiflis Dairəsinin himayədarı Yanovski, "Qafqaz" qəzetinin redaktoru Vasil Величко və digər rəsmi qonaqlar da iştirak edirdilər. Behbud xan 1902-ci ildə Almaniyaya gedib dünyada ilk ali texniki məktəb olan Frayberq Dağ - Mədən Akademiyasına girmişdi. O, burada mükəmməl təhsil almış və Akademiyanı fərqlənmə diplomu ilə bitirib mühəndis ixtisasına yiyələnmişdi (həmin vaxt S. Şaumyan da orada – Berlin Universitetində fəlsəfə fakultəsinin dövlət hüquq bölməsində oxuyurdu və Behbud xanla onun münasibətləri hələ "isti" idi).



Behbud xan Cavanşir ("Behbud" farsca "sağalma", "yaxşılaşma", "sağlam", "vücudu möhkəm" deməkdir) 1903-cü ildə həmin Akademiyanı yüksək ixtisaslı neft mühəndisi kimi bitirib Almaniyadan Vətənə dönən ilk azərbaycanlı məzundur. Alman dilini təmiz bilən (B. Cavanşir poliqlotçu idi. Üümumiyyətlə, 6 dil - ingilis, alman, fransız, rus, gürcü və erməni dillərini sərbəst bilirdi) Behbud xan ingilis dilini öyrənmək üçün İngiltərəyə gedib London şəhərindəki 1 illik təkmilləşdirmə kurslarında da oxumuşdu. Qərbi Avropadakı həyatı və təhsili onun bir siyasi-ictimai xadim kimi formalaşmasına müsbət təsir göstərmişdi. 1907-ci ildə Vətənə qayıdan B. Cavanşir Bakıda kapitalist S. M. Şibayevin (Sidir Martınoviç Şibayev 1817-ci ildə Rusiyada anadan olmuş, 1888-ci ildə 71 yaşında vəfat etmişdi.1878-ci ildə Bakıda sulfat turşusu zavodunun əsasını qoymuşdu. Sonra məşhur neft milyonçusuna çevrilmişdi) neft sənayesində əvvəlcə mühəndis, sonra da baş mühəndis vəzifələrində çalışmışdı. B. Cavanşirin neft sahibkarları arasında böyük hörməti və nüfuzu vardı. Onu iftixarla "injiner Cavanşir" kimi çağırırdılar.

1907-ci il avqustun 28-də Cavanşir qəzasının (mərkəzi Tərtər idi) rəisi Rusiya daxili işlər nazirinə yazdığı raportunda "Xeyriyyə Cəmiyyəti" adı altında gizli fəaliyyət göstərən "antidövlət" "DİFAİ" Komitəsinin rəhbərləri - qarabağlı Qarabəy Qarabəyov (1873-1953), Məhəmməd Həsən Hacınski, İsa bəy Aşurbəyli (1881-1938), Behbud bəy Cavanşir və Niftalı bəy (*əslində Lütvəli bəy Zülqədərov*) (1881-1920) kimi adları çəkilən ziyalıların vaxtaşırı Behbud xanın Azad Qaraqoyunlu kəndindəki evində yığılışmasından xəbər verirdi...

"DİFAİ" ("Fədai") müsəlman firqəsi idi. Onu 1905-ci ildə şuşalı Əhməd bəy Ağaoğlu (Əhməd bəy Mirzə Həsən oğlu Ağaoğlu, 1863, Şuşa - 1939, İstanbul) Qara bəy Qarabəyli (doktor Qara bəy İsmayıl ağa oğlu Qarabəyli (14 yanvar 1873,Yelizavetpol (Gəncə) quberniyası, Yuxarı Ayıblı kəndi - sentyabr 1953, Səmərqənd, Özbəkistan) birgə yaratmışdı. B. Cavanşir də həmin təşkilata daxil olmuş və MK-nın üzvü seçilmişdi.

Behbud xan Cavanşir vaxtilə Almaniyadan gətirərək öz torpaq sahələrində əkdirdiyi yumşaq buğda növlərini və uşaqlıq dostu Əlfinin fermer təsərrüfatlarında bəslətdirdiyi qara-ala cinsli buzovları

Qarabağ iqliminə uyğunlaşdırmışdı. Qarabağda bu günə qədər "Behbudun çörəyi", "Əlfinin qatığı" sözləri yaddaşlarda hələ də yaşayır... O vaxt Qarabağda yolların abadlaşdırılması da buraya ilk avtomobilləri gətirmiş Behbud xanın adı ilə bağlıdır...

... Bakının neft müəssisələrində baş mühəndis və firma direktoru vəzifələrində çalışmış B. Cavanşir doğma xalqının maariflənməsi yolunda da var qüvvəsini sərf edirdi. B. Cavanşir "Müsəlman Xeyriyyə Cəmiyyətinin" rəhbərlərindən biri idi. O, "Nicat" Cəmiyyətinin və "Rus Texniki Cəmiyyəti"nin üzvü seçilmişdi. Texniki cəmiyyətlərin elmi əsərlərində B. Cavanşirin xeyli məqaləsi dərc olunmuşdu...

1917-ci ildə Rusiyada 300 il hökmranlıq etmiş Romanovlar sülaləsinin (1613-1917) süqutu ilə nəticələnmiş Fevral burjua-demokratik inqilabından sonra yaranmış mürəkkəb ictimai-siyasi şəraitdə çoxsahəli və geniş fəaliyyət göstərən Behbud xan xalqına kömək məqsədilə əlindən gələni edirdi. Onun nüfuzu böyük idi. Behbud xan 1917-ci il martın 22-də Bakıda yaradılan Milli Müsəlman Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin tərkibinə seçilmişdi. Həmin vaxt B. Cavanşir hələ bitərəf olub heç bir siyasi partiyanın üzvü deyildi...1918-ci il mart soyqırımı zamanı S. Şaumyanın hərəkətlərindən qəzəblənərək onu pisləyən Behbud xan azərbaycanlıların qırılmasının qabağını almağa çalışanlardan biri olmuşdu. O, milli münaqişələrin nizama salınması üzrə yaradılan Barışıq Komitəsinin üzvü idi...

Bakının neft sənayeçiləri hələ çarizm dövründən neft səhmlərinə malik olan Behbud xanı yaxşı tanıyır və hörmətini saxlayırdılar. O, hətta dəfələrlə Neft Sənayeçiləri Qurultayı İcraiyyə Komitəsinin sədri seçilmişdi. Həmin vaxtlar neft mədənlərini mühafizə edən Bakı şəhər Qradonaçalnikliyi və şəhər Polismeysterliyinin digər əməkdaşlarının məvacibi məhz Behbud xanın köməyi ilə neftdən gələn gəlirin 3 faizi hesabına neftxudalar tərəfindən ödənilirdi. B. Cavanşir polis xidmətinə və polis əməkdaşlarının qayğılarına bələd olan şəxsiydi. Behbud xan böyük neft aksiyalarına və sərmayələrinə də malik idi. Odur ki, 1918-ci ilin iyununda Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri təyin olunması heç də təsadüfi deyildi.



1918-ci il iyunun 16-da Azərbaycan Cümhuriyyətinin Birinci Milli Hökuməti Tiflisdən Gəncəyə köçmüşdü. Ertəsi günü - iyunun 17-də Gəncə qubernatorunun binasında keçirilən iclasda F. Xoyskinin 2-ci hökumət kabineti təşkil olunmuşdu. İkinci kökumət kabinetində 13 nazirlik vardı. Birinci hökumət kabinetində Baş nazir və eyni zamanda daxili işlər naziri vəzifəsini də tutan F. Xoyski bu dəfə həmin vəzifəni bitərəf Behbud xan Cavanşirə tərk etmişdi.

1918-ci il iyunun 23-də hökumət ölkədə yaranmış vəziyyətlə əlaqədar olaraq Azərbaycan ərazisində hərbi vəziyyət elan etdi. Nuru paşanın komandanlığı altında yeni yaradılan Qafqaz İslam Ordusunun 5-ci türk diviziyası (komandiri Mürsəl paşa idi) və Əliağa Şıxlinskinin komandir olduğu Müsəlman Milli Korpusu əsasında təşkil edilmişdi. Hökumət tərəfindən tapşırılmışdı ki, hərbi vəziyyətə uyğun olaraq DİN-in rəhbərliyi altında fəaliyyət proqramı hazırlansın. Daxili işlər naziri B. Cavanşirin rəhbərliyi ilə belə bir proqram tezliklə hazırlanmışdı.

***Haşiyə***: Əli ağa Sıxlinski. Görkəmli Azərbaycan sərkərdəsi. Azərbaycan Ordusunun qurucularından biri. 23 aprel 1865-ci ildə Gəncə quberniyasının Qazax qəzasının Qazaxlı kəndində məşhur mülkədar Hacı İsmayıl ağa Alqazax ağa Şıxlınskinin ailəsində dünyaya gəlmişdi. Anası "Fədai" təxəllüsü ilə tanınan məşhur Mirzə Məhəmməd Qayıbzadənin (Qayıbovun) qızı Şah-Yəmən xanım böyük şairimiz Molla Vəli Vidadinin (1707, Qazax -1802, Şəmkir, 102 yaş) qızı idi... Ə. Şıxlınski general-leytenant rütbəsinə malik idi. Həmin rütbə Ə. Şıxlinskiyə hələ 1917-ci ildə çar tərəfindən verilmişdi. Çar ordusunda xidmətində və döyüşlərdəki fövqəladə məharətinə görə onu "rus artilleriyasının Allahı" adlandırmışlar... Ə. Şıxlınski 1943-cü il avqustun 18-də Bakıda, C. Cabbarlı küçəsindəki 14 nömrəli evdə, 20 saylı mənzilində koordioskleroz xəstəliyindən 78 yaşında vəfat etmişdir. Ə. Şıxlınski həm də alim-tədqiqatçı idi. Onun yazdığı hərbi lüğət xüsusilə qiymətlidir. O, həm də ilk hərbi memuarımızın müəllifidir. 1942-ci ildə qələmə aldığı "Xatirələrim" adlı memuar kitabı çox dəyərlidir. Kitab 1944-cü il aprelin 9-da nəşr olunmuşdur (1984-cü ildə "Azərnəşr" həmin kitabı təkrar nəşr etmişdir).(Yeri gəlmişkən, Əli ağa Şıxlınskinin həyat

yoldaşı Nigar xanım Qayıbova - Şıxlınskaya (10 oktyabr 1871, Tiflis - 12 avqust 1931, Bakı) nüfuzlu Mirzə Hüseyn əfəndi Qayıbzadənin (1870-1931) qızı idi. Nigar xanım Azərbaycanın ilk hərbi şəfqət (tibb) bacısı olmuşdur (Nigar xanımın ilk əri milliyyətcə acar olan müsəlman Dərviş bəy Məhəmməd bəy oğlu Polavandov idi). Nigar xanım Əli ağa bəydən 12 il qabaq, Bakıda 60 yaşında dünyasını dəyişmişdi). Gəncədə yerləşən Müsəlman (İslam) Ordusuna 18 minədək adam daxil idi. Bunun 6 min nəfəri türk nizami ordusundan, 12 minə qədəri isə hərbi təlim görməmiş, əslində, xalq qoşunu təsiri bağışlayan Azərbaycan hərbi hissələrindən ibarət idi.

F. Xoyskinin 1918-ci ilin iyununda Gəncədə təşkil etdiyi 2-ci hökumət kabineti dövründə (17 iyun - 7 dekabr 1918-ci il) daxili işlər naziri (sivil, hərbidən fərqli olaraq qeyri-hərbi, mülki nazir) kimi milli, müstəqil polis orqanlarının təsis olunması, formalaşması və əməli inkişafı məhz Behbud xan Cavanşirin adı ilə bağlıdır. Bir nazir kimi onun təqdimatı ilə Azərbaycan Hökuməti 1918-ci il iyulun 2-də Yelizavetpol (Gəncə) quberniyasının 9 qəzasında azərbaycanlı kadrların üstünlük təşkil etməsilə müstəqil, ilk milli polis orqanlarının təsis edilməsi barədə qərar qəbul etmişdi (**Qeyd:** *Hazırda qüvvədə olan* ***"2 İyul Polis Günü"*** *həmin qərar əsasında rəsmi status almışdır. Ölkəmizdə 2 İyul Polis Günü Azərbaycan Respublikasının Prezidenti, ümummilli lider Heydər Əliyevin 24 may 1998-ci il tarixli fərmanı ilə qəbul olunmuşdur. Bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 6 iyun tarixli 830 nömrəli fərmanının 5-ci bəndi qüvvədən düşmüşdür*).

B. Cavanşir müstəqil Azərbaycan polisinin yaradılmasında və fəaliyyətində Rusiya imperiyasının normativ aktlarına hüquqi baza kimi söykənməyin tərəfdarı idi. Təsadüfi deyildi ki, Azərbaycan Cümhuriyyəti DİN-in şəhər və qəza polis strukturlarında general-qubernator, qubernator, qradonaçalnik, polismeyster, qəza rəisi, pristav, qorodovoy və s. vəzifələr əvvəllər olduğu kimi saxlanmışdı. Həmin vəzifələrdə işləyən təcrübəli kadrlardan Azərbaycan Cümhuriyyətinə sadiq olanlar yenidən öz vəzifələrinə təsdiq edilirdilər. Belələrindən biri Rusiyada 1917-ci il Oktyabr çevrilişindən sonra Yelizavetpol (Gəncə) şəhər polisinin pristavı Əyyub bəy Məşədi bəy oğlu Rəfibəyli



(Rəfibəyov) (1890-1979) idi (Pristav polismeysterə tabe olan polis rəisi idi. Rusiyada pristavlıq 1868-ci ildə təsis olunmuşdu...). Azərbaycan Cümhuriyyəti qurulduqda, peşəkar polis kadrlarına ehtiyacı nəzərə alan daxili işlər naziri B. Cavanşir 1918-ci ilin iyununda Ə. Rəfibəylini yenidən Gəncə şəhər polisinin pristavı təyin etmişdi.

B. Cavanşir ilk müstəqil milli polis orqnlarımızın maddi bazasının yaxşılaşdırılması üçün çox iş görürdü. Artıq yuxarıda deyildiyi kimi, Azərbaycan DİN-in də xüsusilə ilk vaxtlar peşəkar kadrlara böyük ehtiyacı vardı. Daxili işlər naziri B. Cavanşir belə peşəkar kadırları polis orqanlarına cəlb etməyə çalışır, onları tələb olunan yerlərə təyin edirdi. Belə kadrlardan biri peşəkar hərbçi, albay (polkovnik) İbrahim ağa Vəkilov (1853-1934) idi

B. Cavanşirin daxili işlər naziri olduğu dövr - 1918-ci ilin ortaları müstəqil Azərbaycan polisinin yaranması, təkmilləşməsi və tədrici inkişaf dövrü idi... 1918-ci il iyunun 24-də Azərbaycan Hökuməti "Hökumət müəssislərinin öz vəzifələrini tərk etmiş qulluqçuları haqqında "178 nömrəli qərar verdi. Qərarda bütün nazirliklərə, o cümlədən DİN-ə tabe olan idarələr üzrə hökumət məlumatı hazırlamaq tapşırılır, çarizm və onun devrilməsinədən sonrakı dövrlərdə Azərbaycanın hökumət müəssisələrində xidmət edən, yaxud işdə sayılan, lakin hazırda öz vəzifələrini tərk edərək işə çıxmayan qulluqçulara, o cümlədən polis və milis orqanlarındakı əməkdaşlara iyul ayının 1-dən işə çıxmaq təklif olunur, eyni zamanda, həmin qərar üzrə yeni yaradılacaq milli polis orqanlarının şəxsi heyətinə daha çox azərbaycanlıların qəbul edilməsi nəzərdə tutulurdu.

Qərarda Gəncə quberniyası (əhalisi 1 milyon 64 min 647 nəfər təşkil edən Gəncə quberniyasının tərkibinə o zaman Gəncə, Zəngəzur, Cəbrayıl, Cavanşir, Qazax, Şuşa, Cavad, Nuxa və Ərəş qəzaları daxil idi) və Azərbaycan Cümhuriyyətinin nəzarətində olan digər ərazilərdəki müəssisələrin xidmətdə sayılan, ancaq öz vəzifələrini tərk etmiş hökumət qulluqçularına onların iyulun 1-dən işə çıxmayacaqları təqdirdə, tutduqları vəzifələrindən azad olunacaqları barədə xəbərdarlıq edilirdi. Daxili işlər naziri Behbud xanın təşəbbüsü və təqdimatı üzrə Azərbaycan Hökuməti 24 iyun 1918-ci ildə Gəncə şəhər milisinin şəhər özünüidarəsinin sərəncamından alınaraq yerli ümumi inzibati hakimiyyətin tabeçiliyinə keçməsi haqqında qərar

çıxarmışdı. Hökumətin 25 iyun 1918-ci il tarixli digər qərarına əsasən Azərbaycan ərazisindəki bütün dəmir yolunun mühafizəsi də özünüidarə hakimiyyətindən alınaraq B. Cavanşirin rəhbərlik etdiyi DİN-ə tabe edilmişdi.

Azərbaycan Hökumətinin 27 iyun 1918-ci il tarixli yeni qərarına əsasən isə Göyçay qəza milisinə iyun ayı üçün 35 min rubl kredit ayrılmlışdı. Həmin gün türk dili (Azərbaycan dili) dövlət dili kimi qəbul olunmuş, bütün dövlət idarələrində, məhkəmə və inzibati orqanlara (DİN, polis, təhlükəsizlik və ədliyyə və s.) bu dilin, həmçinin hökumət müəsisələrində həmin dili bilənlər hazırlanadək rus dilinin də işlədilməsinə ixtiyar verilmişdi. 6 iyul 1918-c il tarixli başqa bir qərarla daxili işlər, maliyyə və ərzaq nazirliklərinə tapşırılmışdı ki, qaçqınlar tərəfindən yiyəsiz buraxılmış əkinlərin qeydə alınması, imkan olan yerlərdə məhsul yığımının təşkili və bu sahələri mühafizə edən (polis nəzərdə tutulur) adamlara veriləcək mükafatların verilməsi üçün müvafiq komissiya yaratsınlar. Hökumət 7 iyul 1918-ci il tarixli digər qərarında DİN-ə tapşırmışdı ki, yerlərdəki bütün milli komitələri buraxaraq Azərbaycan Cümhuriyyətinin hakimiyyət strukturlarını yaratsın. Hökumət 1918-ci il iyulun 12-də DİN-ə həvalə etmişdi ki, sərhədlərin mühafizəsi və ərzaq məhsullarının qaçaqmalçılar tərəfindən aparılmasının qarşısının alınması üçün Qazax qəzasının Salahlı və Şıxlı kəndlərində, eləcə də, Poylu (Saloğlu) (Ağstafa) dəmiryol stansiyasında məntəqələr açsın.

B. Cavanşirin nazirliyi dövründə müstəqil Azərbaycan milli polisinin (müasir Azərbaycan polisi onun varisidir) yaradılması önəmli tarixi hadisə idi. Belə ki, 1918-ci il 24 iyun tarixli 178 nömrəli qərarının əməli həyata keçirilməsi məqsədilə Azərbaycan Hökuməti öz iclasında daxili işlər naziri Behbud xanın təqdimatı və məruzəsi üzrə 1918-ci il iyulun 2-də ayrıca bir qərar verdi. Qərara əsasən Yelizavetpol (Gəncə) quberniyası polisinin yeni ştatları təsdiq olundu və əmək haqqı da əvvəlki dövrlərlə müqayisədə artırıldı. Qərara görə quberniyanın şəhər və qəzalarında pristavlar (polis rəisləri), onların böyük və kiçik köməkçiləri, sahə və polis pristavlıqarı, polis, habelə milis əməkdaşları və milis nəfərləri təsis olunub yeni əsaslarla fəaliyyət göstərməyə başladılar. Yeni ştat tarifi üzrə Yelizavetpol (Gəncə) şəhər polisinin ştatları əvvəl polismeyster, böyük və kiçik



köməkçilərindən, 36 nəfər polis, 80 piyada milis və 20 süvari milis nəfərlərindən ibarət idi.

Göründüyu kimi, B.Cavanşirin nazir olduğu Azərbaycan Cümhuriyyəti DİN həm polis və həm də milis formalarından istifadə edirdi ki, bu da o dövrün mövcud inzibati orqanlarının təşkili və təcrübəsinin ənənəsi ilə bağlı idi. Gəncə polisinin rəisi işləmiş, Gəncə qubeniyasında ilk polis orqanlarının təşkilində böyük nüfuz sahibi olan podpolkovnik İsmayıl xan Ziyadxanlının (1867, Gəncə - 1920, Bakı) aqibəti təəssüfki, faciəli olmuşdur...

Azərbaycan Cümhuriyyətinin ilkin formalaşma mərhələsində mühüm şərt daxili sabitliyin bərqərar olması və hüquqi normalara riayət olunmasının təmin edilməsi idi. İlk müstəqil, demokratik dövlətimiz də, onun Daxili İşlər Nazirliyi də təşəkkül tapmaqda olan dövlət həyatının məhz bu sahələrinə xüsusi diqqət yetirirdi. Belə ki, ölkədə anarxiyanın və xaosun hökm sürdüyü şəraitdə əhalinin müəyyən hissəsinin cinayətkar təmayülü daha geniş miqyasları əhatə edə bilərdi. Odur ki, Azərbaycan hökuməti cinayətkar ünsürləri təcrid etməklə qısa bir zamanda dövlət icra aparatının fəaliyyətini bütün gücü ilə bərpa edə bilmişdi. Məhz həmin mərhələdə B. Cavanşirin rəhbərlik etdiyi DİN bir ali inzibati icraedici qurum kimi formalaşmaqda və öz fəaliyyətində yeni mərhələyə qədəm qoymaqda idi. Bu mərhələdə DİN-in qarşısında duran başlıca vəzifələrdən biri də idarə orqanlarını milliləşdirmək, hərbi təlim görmüş adamlardan ibarət kadr ehtiyatı hazırlamaq idi (Milli Ordu rəhbərliyi ilə bir yerdə).

B. Cavanşirin daxili işlər naziri olduğu dövrdə Azərbaycan Cümhuriyyəti Hökumətinin sərəncamları üzrə DİN, onun mərkəzi aparatları və yerli orqnları tədricən olkədə bir ali inzibati icraedici hakimiyyət vahidi kimi əhəmiyyətini get-gedə gücləndirirdi. Bunu hökumətin 1918-ci il iyunun 30-da şəhər özünüidarəçiliyi işində DİN-in və polisin səlahiyyətlərinin daha da artırılması və genişləndirilməsinə dair qəbul etdiyi yeni tədbirlərin həyata keçirilməsindən də görmək olardı. Belə ki, Azərbaycan Hökumətinin 1918-ci il 30 iyun tarixli sərəncamında deyilirdi: "... Daxili İşlər Nazirliyi şəhərlərdə mövcud özünüidarə sisteminin bərpası üçün tədbirlər görsün, Ağdaş, Salyan, Bərdə, Qazax qəzalarında və digər yerlərdə özünüidarə sistemi yoxdursa, ayda 300 manat maaşla rəis ştatı yaradılsın.

Rəisə icazə verilsin ki, əgər ehtiyac varsa, bir nəfər işlər müdiri və bir gözətçi işə götürsün".

Daxili işlər naziri B. Cavanşirin başçılıq etdiyi mərkəzi icraedici-inzibati təşkilat - DİN, onun yuxarı və aşağı orqanları tədricən, zaman-zaman təkamül yolu keçməklə yeni-yeni struktur dəyişikliklərinə məruz qalır, təkmilləşirdi. 1918-ci il iyulun 15-də Azərbaycan hökumətinin qərarı və daxili işlər naziri B. Cavanşirin müvafiq əmri ilə DİN-in nəzdində birbaşa hökumətə tabe olan Fövqəladə Təhqiqat Komissyası (FTK) təsis olunmuşdu. Komissiyaya Gəncədən olan nüfuzlu bir şəxs - Ələkbər bəy Xasməmmədov sədr təyin edilmişdi.

**Haşiyə**: Ələkbər bəy Hacıbaba bəy oğlu Xasməmmədov (1893-1925) Gəncədə doğulmuşdu. Azərbaycan Cümhuriyyətinin görkəmli xadimi, ilk ədliyyə, həmçinin daxili işlər naziri və s. vəzifələrdə işləmiş Xəlil bəy Xasməmmədovun qardaşı idi. Xasməmmədovlar 4 qardaş idilər: Xəlil bəy, Ələsgər bəy, Ələkbər bəy və Nağı bəy. Qardaşlardan Nağı bəydən başqa üçü də hüquqşünas olmuşdur. Ələkbər bəy özü 1893-cü ildə Moskva Universitetini bitirmişdi. Bütün Gəncəbasarda çox nüfuzlu şəxs olan Ələkbər bəy Gəncə şəhərinin başçısı, Azərbaycan hökumətinin ermənilərin 1918-ci ildə azərbaycanlılara və digər müsəlmanlara qarşı törətdikləri soyqırım hərəkətlərini təhqiq edən Fövqəladə Təhqiqat Komissiyasının sədri olub, hər yeri gəzib, faktlar toplamışdı. Ələkbər bəyin qardaşı Nağı bəyin İstanbulda yaşayan nəvəsi Toğrul bəy Cuvarlı ("Tori") söyləyir ki, bolşeviklər hakimiyyətə gələndə bir neçə il Ələkbər bəyə toxunmayıblar. Lakin 1925-ci ildə sovet hakimiyyət orqanları tərəfindən həbs olunaraq, keçmişinə görə güllələnmişdir...

Fövqəladə Təhqiqat Komissiyasına həmin ilin martında ermənilər tərəfindən Bakıda və digər yerlərdə törədilmiş soyqrımı hadisələrinin, Zəngəzur (keçmiş Sünik) və Qarabağda azərbaycanlılara və müsəlmanlara qarşı ermənilərin törətdikləri cinayətləri, sadizm hərəkətlərini (başın dərisinin soyulması, qarının deşilməsi, gözlərin çıxarılması, qulağın və digər əzaların, bədən üzvlərinin kəsilməsi, meyitlərin üzərində təhqiramiz əməliyyatların aparılması, onların yandırılması və s.) təhqiq etmək həvalə olunmuşdu. Sonralar - 21 mart 1919-cu ildə FTK-nın səlahiyyətləri genişləndirilmiş, ona məhkəmə-istintaq hakimiyyəti statusu verilmişdi. FTK 20 ay ərzində 3500 səhifədən ibarət 36 cildlik geniş material toplamışdı. Azərbaycan Cümhuriyyəti Hökumətinin 31 avqust 1918-ci il tarixli qərarı ilə həmin məsələ ilə bilavasitə məşğul olan daha bir qurum - DİN-in Xüsusi İstintaq Komissiyası da təsis edilmişdi... Komissiya qısa vaxtda bütövlükdə quberniyada törədilən cinayətlərə dair külli miqdarda istintaq materialları toplamışdı. 1918-ci il avqustun 11-də Azərbaycan Hökuməti və DİN vətəndaşların Milli Orduya çağırışı ilə əlaqədar yeni bir sərəncam vermişdi. Sərəncamda deyilirdi: " Çağırış yaşı 19 yaş həddində müəyyən edilsin:

a) Milli Ordu sıralarına İslam etiqadından olan bütün Azərbaycan vətəndaşları çağırılır;

b) Hərbi mükəlləfiyyətdən boyun qaçıranlar müharibə şəraitinin qanunlarıyla cəzalandırılır;

v) Əsgərliyə "Yelizavetpol çağırışı" "Azərbaycan çağırışı" adlandırılsın və yığışan hərbi hissələr daxili işlər nazirinə tabe edilsin.

14 sentyabr 1918-ci il. Azərbaycan Cümhuriyyəti Hökuməti qərara alır: "Azərbaycan Nazirlər Şurasının sədrinə, daxili işlər nazirinə və xalq maarifi nazirinə tapşırılsın ki, Parlamentə seçkilərin keçirilməsi (19 noyabr 1918-ci il) planının işlənib hazırlanması üçün müvafiq komissiya yaratsınlar.

B. Cavanşirin rəhbərliyi ilə DİN Azərbaycan Hökumətinin əldə rəhbər tutduğu aşağıdakı demokratik prinsipləri əməli həyata keçirirdi. Bu, Azərbaycan Hökumətinin 18 sentyabr 1918-ci il tarixli sərəncam - bəyanatında da öz əksini tapmışdı. Orada ölkə əhalisinə müraciətlə bildirilirdi:

*"Ölkənin paytaxtı Bakı şəhərində yerləşən Azərbaycan hökuməti əhalinin nəzərinə çatdırır ki, hökumət milliyyətindən, dinindən asılı olmayaraq, respublikada yaşayan bütün vətəndaşlara eyni münasibət bəsləyəcək, onların həyatını, mülkiyyətini və hüquqlarını eyni tərzdə qoruyacaq.*

*Quldurlar, qatillər və ümumiyyətlə, ictimai sabitliyi və asayişi pozan şəxslər hərbi vəziyyət qanunlarına uyğun olaraq lazım gəlsə, ölüm hökmü ilə cəzalandırılacaqlar.*

*Əhaliyə məlum olsunki, cəsur və qalib türk ordusuna tapşırılıb ki, əsgərlər hər hansı qatil və soyğunçuları yerindəcə güllələsinlər.*

*Zira hökumət imkan verməyəcək ki, paytaxtın dinc sakinlərinin həyat və əmlakına qəsd edilsin.*

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri
Fətəli xan Xoyski".

Göründüyü kimi, cinayətkarlıqla mübarizə sahəsində DİN-in qarşısına qoyulan əsas vəzifələr bü dövlət əhəmiyyətli aktda özünün aydın əksini tapmışdır.

Polis kadrlarının hazırlanması ən ümdə bir vəzifə kimi B. Cavanşiri daim düşündürürdü. Məhz onun təqdimatıyla 1918-ci ilin payızında (oktyabrın sonu - noyabrın əvvəli) Bakıda İçərişəhərdə polis məmurları (qorodovoylar) hazırlayan məktəb açılmış və fəaliyyətə başlamışdı. Podpolkovnik Şükür bəy Yüzbaşınski onun rəisi təyin edilmişdi...

Azərbaycan Cümhuriyyətinin dövlətçilik əsasları əleyhinə yönəlmiş hər bir hərəkətə qarşı Behbud xan çox barışmaz idi. Onun Bakı Qradonaçalnikliyinə icra üçün ünvanladığı 23 oktyabr 1918-ci il tarixli əmri ilə milli dövlətçiliyimiz əleyhinə kampaniya aparan bütün bolşevik mətbuatı bağlanmışdı. Məsələn, daxili işlər naziri B. Cavanşirin 1918-ci il 10 dekabr tarixli əmri ilə Azərbaycan dövlətçiliyi əleyhinə "Znamya Truda" qəzetində İvan Kornişin və İ. Melik-Babaxanovun saxta məlumatlarla dolu məktubunu dərc etdirdiyi üçün qəzetin redaktoru Lev Umanski 3.000 manat cərimə olunmuş və ona xəbərdarlıq edilmişdi ki, cəriməni vaxtında ödəsin, bir də belə hərəkətlərə yol verməsin. Əks təqdirdə, o, 2 ay həbs cəzasına məhkum olunacaqdır. Qeyd etmək lazımdır ki, mətbuat senzurası ilə əlaqədar olan bütün məlumatları və informasiyaları qəzetlər mütəmadi olaraq DİN-in Dəftərxanasına göndərir, bunlar haqqındada nazir B. Cavanşirə gündəlik məruzə edilirdi.

Daxili işlər naziri B. Cavanşirlə o zaman buraxılan və əsas rəsmi dövlət orqanı olan "Azərbaycan" qəzetinin 1 noyabr 1918-ci il tarixli nömrəsində müsahibə dərc edilmişdi. Orada bildirilirdi: "...Tutulan cinayətkarlar arasında bütün siniflərin və silklərin, zümrələrin nümayəndələri, hətta mollalarda var. Bununla belə, hər kəs layiqli cəzasını alacaqdır. Artıq cinayətkar aləmin demək olar ki, 90 faizi hüquq-mühafizə orqanlarının əlindədir. Adam öldürən bir neçə bəy də tutulub. Bu bəylər aqrar məsələdəki qanunsuzluqlara



görə yox, adi qatil kimi cəzalandırılacaqlar. Hərbi vəziyyət elan edilənədək baş verən cinayətlər mülki qaydada, hərbi vəziyyət zamanı törədilənlər isə hərbi məhkəmə vasitəsilə araşdırılacaq". Bu fikirlərin bizcə, əlavə şərhə ehtiyacı yoxdur...

Azərbaycan Hökuməti 1918-ci il sentyabrın 16-da Gəncədən xüsusi zirehli qatarla Qafqaz İslam Ordusu və Azərbaycan Cümhuriyyətinin birləşmiş qoşunları tərəfindən azad edilmiş Bakıya köçdükdən sonra DİN-in fəaliyyəti və münasibətlərinin dairəsi əhəmiyyətli dərəcədə dəyişmiş, genişlənmiş və eyni zamanda çətinləşmişdi. Azərbaycan Hökuməti Bakıya daxil olduqdan sonra, ermənilərə qarşı milli qırğın törədilməsinin qarşısını almışdı ki, bunda da daxili işlər naziri Behbud xanın rolu az deyildi... Odur ki, Azərbaycan Hökuməti o vaxtkı durumunda maliyyə imkanlarının elə də yüksək olmamasına baxmayaraq, bacardığı qədər DİN-in mərkəzi və yerli orqanlarının təşkilati və strukturca inkişafı, təkmilləşməsi üçün maliyyə-büdcə xərclərini artırırdı. O vaxt şübhəsiz ki, bu işdə daxili işlər naziri B. Cavanşirin şəxsi nüfuzu və qətiyyəti az rol oynamırdı... Behbud xan yeni maliyyə vəsaitlərinə nail olunması, yeni strukturların təsis olunması üçün stimul yaradırdı.

B. Cavanşir islahatçı, yenilikçi nazir idi. 1918-ci il avqustun 22-də B. Cavanşir xarici pasportların verilməsi səlahiyyətinin qubernatorlara həvalə edilməsi haqqında əmr vermişdi.

B. Cavanşirə daxili işlər naziri işlədiyi dövrdə həyata keçirdiyi islahatlarda vitse-nazir, general-mayor Məhəmməd Sadıq bəy Ağabəyzadə (1865-1944) və müavini Mehdi bəy Hacınski (1879-1941) yaxından kömək edirdilər. Onların səyləri ilə 1918-ci ilin payızında Bakıda İçəri Şəhərdə qorodovoylar hazırlayan məktəb açılmışdı. Məktəbin rəisi podpalkovnik Şükür bəy Yüzbaşınski idi. Məktəbdə 1200 nəfər polis məmurunun hazırlanması nəzərdə tutulmuşdu. Bunu 1918-ci il oktyabrın 26-da Gəncədəki gizir məktəbinin ilk buraxılış mərasimindəki çıxışında daxili işlə naziri B. Cavanşirin müavini M. Hacınski söyləmişdi.

Qeyd etmək lazımdır ki, Gəncədəki gizir məktəbini 1918-ci ilin iyununda türk generalı Nuru paşa (1889-1949) yaratmışdı. Onun təşkilində general-leytenant Ə. Şıxlınski və polkovnik Süleyman bəy Əfəndiyev mühüm rol oynamışdılar. Məktəbin müda-

vimləri Azərbaycan Ordusunun təşkilinə cəlb olunmuşdular. Həmin vaxt ölkə ərazisində daxili asayişi cəmi 1500 nəfər əsgər, Bakıda isə 500 nəfər polis qoruyurdu .

1918-ci il oktyabrın 6-da Azərbaycan hökumətinin tərkibində kabinədaxili dəyişikliklərdən sonra bitərəf B. Cavanşir daxili işlər naziri olmaqla bərabər, həm də ticarət və sənaye naziri vəzifəsini yerinə yetirirdi. Bu vəzifədə o, yerli sənayenin inkişaf etdirilməsinə, Azərbaycan Cümhuriyyətinin xarici ölkələrlə əlaqələrinin yaradılmasına da ciddi təşəbbüslər göstərmişdi...

1918-ci ilin oktyabrında siyasi cəhətdən səbatsız şəxslər kimi həbs edilmiş, Rusiyanın müxtəlif quberniyalarından Azərbaycana gəlib bolşevik təbliğatı aparan A. Lukev, B. Baxmutov, İ.Yurçenko, M. Bıstriçev, S. Baykov, M. Jurin və A. Podstanski DİN-in polis üzrə inspektorunun yoxlamasından sonra həbsdən azad edilmiş və respublikanın hüdudlarından çıxarılmışdılar. Həmin il noyabrın 15-də isə DİN-in əmri ilə siyasi dustaqlar Z. N. Dosser, M. N. Mandelştam (Lyadov) və F. Aqapov da azad edilib, onların bir daha Azərbaycana qayıtmaması şərti ilə noyabrın 17-də Poylu (Ağstafa) stansiyasından öz yerlərinə yola salınmışdılar. Bu haqda DİN-in Məhkəmə-İnzibati Şöbəsinin rəisi nazir B. Cavanşirə məruzə etmişdi.

Təyinat. 12 oktyabr 1918-ci il. Bakı qubernatorunun təqdimatı və daxili işlər naziri B. Cavanşirin 78 nömrəli əmri ilə Lütvəli bəy Zülqədərov (1881-1920) Şamaxı qəzasının müvəqqəti rəisi təyin edilmişdi...

Azərbaycan Cümhuriyyətinin Daxili İşlər Nazirlyinə ölkədə asayişin qorunması və cinayətkarlıqla, o cümlədən fərariliklə mübarizədə Milli Ordumuzda kömək edirdi. Bunu Azərbaycan Cümhuriyyəti hərbi nazirinin müavini, tam artilleriya generalı Səməd bəy (Səməd ağa) Mehmandarovun (16 oktyabr 1856, Lənkəran - 12 fevral 1931, Bakı) 1918-ci il 15 noyabr tarixli əmrindən görmək olardı. Əmrdə deyilirdi: "Azərbaycan Ordusu heç bir işğalçı məqsədlə yaradılmayıb. O, dövlət sərhəddini, dövlətin daxili hüquq qaydalarını qorumaq, soyğunçu bandit çıxışlarının qarşısını almaq üçün yaradılmış və formalaşmaqdadır".



Azərbaycan Cümhuriyyətinin Hərbi Nazirliyi Azərbaycan Hökumətinin qərarı ilə 1918-ci il oktyabrın 23-də təsis edilmiş və Nazirlər Şurası noyabrın 1-də onun yaranmasını rəsmən təsdiq etmişdi. Hərbi nazir portfeli əvvəlcə Nazirlər Şurasının sədrinə həvalə olunmuşdu. Ona müavin isə tam artilleriya generalı S. Mehmandarov təyin eilmişdi. Hərbi Nazirlik yaradıldıqdan 4 gün sonra 3 yeni hərbi məktəbin açılması üçün Nazirliyin sərəncamına 50 min manat pul ayrılmış, eyini zamanda, Gəncədə hələ iyun ayından fəaliyyət göstərən gizir məktəbi Bakıya köçürülmüşdü. S. Mehmandarov Azərbaycan Cümhuriyyətinin hərbi naziri vəzifəsinə 1918-ci il dekabrın 25-də təyin olunmuşdu...

***Haşiyə***: Əslən qarabağlı olan Səməd bəy Sadıq bəy oğlu Mehmandarov 1856-cı il oktyabrın 16-da Lənkəranda varlı zadəgan ailəsində anadan olmuşdu. Qırx altı il çar ordusunda xidmət etmiş və 1917-ci il mayın 28-də tam artilleriya generalı rütbəsində istefaya çıxmışdı. S. Mehmandarov həmin rütbəyə 1915-ci il martın 22-də layiq görülmüşdü. Sonuncu vəzifəsi Qafqaz Ordusunun korpus komandiri idi. İlk müstəqil dövlətimiz olan Birinci Respublika - Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra bir təcrübəli hərbçi milli kadr kimi kənarda qala bilməyən S. Mehmandarov Milli Ordumuzun təşəkkülündə və inkişaf etdirilməsində, müstəqil dövlətimizin daxili və xarici düşmənlərinə qarşı var qüvvəsini sərf etmişdi. O, Lənkəran Şəhər Dumasının və əhalisinin istəyi ilə 1919-cu il oktyabrın 15-də Azərbaycan Cümhiriyyətinin Parlamentinə üzv seçilmişdi. Səməd bəy Azərbaycan Cümhuriyyətinin 40 minlik nizami ordusunu yaratmağa müvəffəq olmuş ilk hərbi nazirimiz, milli generallarımızın ağsaqqalı idi.

Yeri gəlmişkən, ilk milli generalınız Süleyman bəy Əlisüleyman oğlu Əfəndiyev (5 oktyabr 1864, Ağdam - 21 fevral 1919-cu il Gəncə) olmuşdur. O, ilk təhsilini Gəncədə almışdı. 1885-ci ildə Yelizavetqrad Süvari Hərbi Məktəbini bitirmiş, çar ordusunda xidmətə başlamışdı. 1912-ci ildə polkovnik rütbəsinə layiq görüləndə Qafqaz ordusunda polis-keşikçi dəstəsinin təftiş-işləri üzrə baş nəzarətçisi idi. Nümunəvi xidmətinə görə "Müqəddəs Anna" ordeninin 2-ci və 3-cü, "Müqəddəs Stanislav" və "Müqəddəs Vladimir" ordenləri-

nin 3-cü dərəcələri ilə təltif edilmişdi. 1917-ci ilin iyulunda Zaqafqaziya Komissarlığı tərəfindən Gəncəyə ezam olunmuş, burada öz vəzifəsini yerinə yetirməklə bərabər, Gəncə Müsəlman Milli Komitəsinin köməyi ilə şəhərdə hərbi kurslar açmış və 150 nəfər azərbaycanlı gənci həmin kurslara cəlb etmişdi. S. Əfəndiyev dərs dediyi kursantlar ilə birlikdə gecələr Gəncədə asayişi qorumuşdu. 1918-ci ildə Müsəlman Korpusu təşkil edilməyə başlayanda, S. Əfəndiyev korpusun 2-ci nişançı diviziyasının 5-ci nişançı alayının komandiri təyin olunmuş, bir müddət sonra isə korpus komandiri Ə.Şıxlınskinin əmri ilə diviziya komandirinin vəzifələrini icra etmişdi. S. Əfəndiyevin 5-ci alayı 1918-ci ilin yanvarında Şamxorda Qafqaz (türk) cəbhəsindən qatarlarla geri qayıdarkən özlərini azğıncasına aparan rus əsgərlərinin tərksilah edilməsində fəal rol oynamışdı. 1918-ci ilin iyununda Gəncədə Əlahiddə Azərbaycan Korpusu formalaşdırıldaıqda Süleyman bəy Qazaxda yerləşən 1-ci piyada alayının komandiri təsdiq edilmişdi. 1918-ci ilin noyabrında S. Əfəndiyev 2-ci Qarabağ Süvari Alayının komandiri idi. 1919-cu ilin dekabrında S. Əfəndiyev Hərbi Nazirlikdə tapşırıq generalı vəzifəsinə təyin olunmuşdu. 1918-ci ilin dekabrın 29-da isə Hərbi Nazirliyin iclasında S. Mehmandarovun təqdimatı əsasında S. Əfəndiyevə Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının 3 yanvar 1919-cu il tarixli qərarı və hərbi nazir S. Mehmandarovun əmri ilə polkovnik Süleyman bəy Əfəndiyevə general-mayor hərbi rütbəsi verilmişdi. Polkovnik S. Əfəndiyev Azərbaycan Cümhuriyyəti Ordusunda bu rütbəyə layiq görülmüş ilk milli hərbçi kadrımızdır. 1919-cu il yanvarın 1-dən Birinci Piyada Azərbaycan Diviziyasının komandiri olan S. Əfəndiyev həyatdan vaxtsız getmiş, ömrünün yetkin vaxtında, cəmi 55 yaşında tif (bəzi ədəbiyyatda yatalaq göstərilir) xəstəliyindən vəfat etmişdi. Bu milli, ali peşəkar hərbçi kadrımızı Gəncə şəhərində yox, onun artıq dul qalmış həyat yoldaşının arzusu ilə Qazax qəzasında dəfn etmək qərara alınmışdı...

... Sovet hökuməti qurulduqda qocaman sərkərdə S. Mehmandarov və onun müavini, "rus artilleriyasının Allahı" adlandırılan, topçu general-leytenantı Ə. Şıxlinskiyə Azərbaycan Respublikasının Baş naziri N.Yusifbəylinin 29 nömrəli sərəncamı ilə 1919-cu il iyunun 28-də nizami Azərbaycan Ordusunun təşkilində göstərdiyi



xidmətlərə görə Ə. Şıxlinskiyə tam artilleriya generalı hərbi rütbəsi verilmişdi. Ə. Şıxlinski S. Mehmandarov və Hüseyn xan Naxçıvanskidən (1863-1919) sonra tam general rütbəsinə layiq görülmüş üçüncü azərbaycanlı hərbi döyüş sərkərdəsidir.

**Haşiyə :** *Hüseyn xan 28 iyul 1863-cü ildə əsilzadə ailədə - rus ordusunun general-mayoru Kəlbalı xan (1883) Naxçıvanskinin ailəsində anadan olmuşdu. General-mayor Hüseyn xan Naxçıvanski məşhur, döyüşkənliyi ilə ad çıxarmış Kəngərli tayfasından çıxmışdı. İlkin təhsilini Naxçıvan şəhərində almış, rus dilini mükkəmməl mənimsədikdən sonra Peterburqdakı İmperator Paj Ordusu Məktəbinə daxil olmuşdu... I Dünya Müharibəsində (1914-18) Şimal-Qərb Cəbhəsinə komandanlıq etmişdi. 1916-cı ildə Qafqaz Cəbhəsinin Georgiyevski Duması üzvləri arasında idi. O, 1916-cı il yanvarın 23-də çar tərəfindən İ Dünya Müharibəsində göstərdiyi misilsiz xidmətlərinə və sərkərdəlik məharətinə görə tam süvari qoşun generalı rütbəsinə, həmçinin bir sıra orden və medallara, o cümlədən 1-ci dərəcəli "Müqəddəs Anna", 3-cü və 4-cü dərəcəli "Müqəddəs Georgi" və "Ağ qartal" ordenlərinə, Avstriya, Bolqarıstan, İran və Rumıniyanın ordenlərinə layiq görülmüşdü. Azərbaycan Ordusunun milli atıcı diviziyasının komandiri, general Cəmşid Cəfərqulu xan oğlu Naxçıvanski (9 avqust 1895, Naxçıvan - 26 avqust 1938, İran) onun yaxın qohumu idi. C. Naxçıvanski 30-cu illərdə repressiyaya məruz qalmış və İranda 1938-ci ildə Rza şah tərəfindən güllələnmişdi... (Rza şah Pəhləvi (1878-1944) 1944-cü ildə CAR-ın paytaxtı İohannesburqda 66 yaşında vəfat etmişdi). H. Naxçıvanski 1919-cu ilin yanvarında Petroqraddakı "iğtişaşlar" zamanı bolşeviklər tərəfindən böyük knyazlarla birlikdə girov götürülmüş və Petropavlovsk qalasında 56 yaşında güllələnmişdi. H.Naxçıvanski Aleksandr Nevski qəbristanlığında dəfn edilmişdir. General H. Naxçıvanskinin övladları və nəvələri indi ABŞ-da və Fransada yaşayır, onun soyadını fəxrlə daşıyırlar...*

Peşəkar kadrlara ehtiacı olan Azərbaycan SSR XKS-in sədri N. Nərimanovun təşəbbüsü ilə sovet ordusnun formalaşmasında Azərbaycan Cümhuriyyətinin milli hərbçi kadrlarından istifadə olunmuşdu. Yüksək rütbəli və vəzifəli erməni bolşeviklər S. Mehmandarovu alçaltmaq üçün ondan Bakının küçələrini süpürməyi

tələb edirdilər... 1920-ci il avqustun 1-də N. Nərimanov Moskvaya V. İ. Leninə müraciət edərək, S. Mehmandarov və Ə. Şıxlinskini əvəzsiz hərbi mütəxəssislər kimi qiymətləndirb, onların Moskvada Qərargahda işləmələrinə nail olmuş, sonra da Azərbaycanda hərbi hissələrin formalaşdırılması üçün yenidən Bakıya qayıtmalarına icazə ala bilmişdi... Lakin faktlar sübut edir ki, V. Lenin başda olmaqla RSFSR hökuməti Azərbaycanın müstəqilliyini istəmir, burada daha artıq ruslaşdırma siyasətinə üstünlük verərək, N. Nərimanovun azərbaycanlı kadrları vəzifələrə təyin etmək və ya irəli çəkmək fəaliyyətinə mane olurdu. V. Lenin 1920-ci il mayın 28-də Bakıya C. M. Kirova (Kostrikov) və Q. Orconikidzeyə göndərdiyi teleqramda bildirmişdi: "Nərimanova geniş səlahiyyət verməyin, ona tamamilə etibar etmək olmaz. O, axıradək bizim deyil".

S. Mehmandarov 1929-cu ilədək Bakıdaki Qırmızı Komandirlər Məktəbində dərs demişdi... Sonuncu ildən 1000 manat təqaüd kəsilməklə istefaya çıxmışdı . S. Mehmandarov istefaya çıxdıqdan 2 il sonra, 1931-ci il fevralın 12-də 75 yaşında Bakıda vəfat etmişdi... Səməd bəy hələ 1903-cü ildə Peterburqda olarkən jitomirli Yelizaveta Nikolayevna Teslavla ailə qurmuşdu. Onun Pir bəy (İqor) adlı oğlu vardı. Lakin ailəsi S. Mehmandarovun keçmişinə görə təqib olunurdu. Belə ki, hələ 1930-cu ildə onlar Xalq Daxili İşlər Komissarlığı (XDİK) tərəfindən əvvəlcə Sankt-Peterburqa, 1937-ci ildə isə Volqaboyuna (Volqa tarixdə İdil çayı, Xəzər çayı da adlanır), Saratov şəhərinə sürgün edilmişdilər... Sürgün yerində ana-bala çox əzablara düçar qalmışdılar... İqor Səməd bəyin yeganə övladı idi. Yazıçı - jurnalist Şəmistan Nəzirli 1986-cı ildə Bakıda, onunla söhbət aparmışdı... İqor Mehmandarov 1989-cu ildə Bakıda vəfat etmişdi. Səməd bəy vəfat edəndə Çəmbərəkənd qəbristanlığında (keçmiş Dağüstü park, indiki Şəhidlər Xiyabanı) dəfn olunmuşdu... 1939-cu ildə Dağüstü parkda S. M. Kirova heykəl qoyulanda, qəbristanlıq dağıdılmışdı. Həmin vaxt S. Mehmandarovun arvadı və oğlu İqor sürgündə idilər. Odur ki, onun qəbrini başqa yerə köçürən olmamışdı və Səməd bəyin qəbri yerlə-yeksan edilərək, itib-batmışdır. Bu haqda Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Hərbi-Elmi Mərkəzinin sabiq baş elmi işçisi, hazırda istefada olan polkovnik-leytenant Şəmistan Nəzirli 1997-ci ildə Bakıda "Hərbi" nəşriyyatda buraxdırdığı "Tam artilleriya generalı Səməd bəy Mehmandarov" adlı monoqrafiyasında yazmışdır (səh.69). Yeri gəlmişkən, S. Mehmandarov 1918-31-ci illərdə Bakıda "Kommunist" (indiki "İstiqlaliyyət") küçəsində, hazırkı Əlyazmalar İnstitutu ilə üzbəüz, keçmişdə üstündə aptek olan binada yaşayıb. 1994-cü il noyabrın 5-də Müdafiə Nazirliyinin yardımı ilə onun yaşadığı ünvanda xatirə lövhəsinin açılışı olmuş və barelyefi vurulmuşdur...

...1918-ci ilin noyabr-dekabr aylarında B. Cavanşir faktiki sənaye və ticarət naziri vəzifəsini yerinə yetirdiyi üçün vitse-nazir, general-mayor M. S. Ağabəyzadə (Ağabəyov) daxili işlər naziri vəzifəsini daşımışdı... B. Cavanşir əslində, 1918-ci il dekabrın 21-dək daxili işlər naziri vəzifəsində qalır və DIN-lə əlaqədar həyata keçirilən tədbirlərdə daxili işlər naziri hüququnda iştirak edirdi. 1918-ci ilin payızında I Dünya Müharibəsində məğlub olmuş Türkiyə müttəfiqi Almaniya ilə birlikdə həmin il oktyabrın 30-da Mudrosda bağlanmış sazişin ağır şərtlərini qəbul etmiş və Bakını tərk etməli idi. Mudros sazişinə uyğun olaraq 1918-ci il noyabrın 17-də səhər saat 10-da hindli əsgərlərdən ibarət ingilis qoşunları Bakıya daxil olarkən Azərbaycan Hökuməti tərəfindən Bakı limanında general V.Tomsonun şərəfinə rəsmi qarşılanma və qəbul təşkil olunmuşdu. Rəsmi qəbul mərasimində daxili işlər naziri kimi B. Cavanşir iştirak etmişdi.

General-mayor V.Tomsonun komandanlığı ilə Bakıya daxil olan ingilis qoşun kontingentinin sayı 2 min nəfər idiki, onun tərkibində hərbi polis hissələri də vardı. Bakıya daxil olan V.Tomson özünü müttəfiq dövlətlərin (ANTANTA) qoşunlarının komandanı, onların təmsilçisi və Bakının general-qubernatoru elan etmişdi. O, Bakıya daxil olduğu gün, 17 noyabr 1918-ci il tarixdən, gündüz saat 12-dən etibarən Bakıda hərbi vəziyyət elan etmişdi. General V.Tomson hələ 1911-ci ildə İranda Böyük Britaniya hökuməti tərəfindən yaradılmış Xüsusi Müstəmləkə Poisinin şefi idi. 1918-ci il sentyabrın 15-də daşnaklardan A. Arakelyan və S. Melik-Yolçiyan, eserlərdən A.Velunts və A. Umanski, menşeviklərdən Q. Ayollo və M. Sadovski, Tyuşkinin başçılıq etdiyi, əsasən ingilislərə arxalanmaqla cəmi 44 gün hökm sürən "Sentrokaspi" Diktaturası hökuməti iflasa uğrayan kimi ermənilər "hərbi" nazirləri - general

Yakov Baqratuni başda olmaqla Ənzəliyə qaçmışdılar. Ermənilər vaxtilə - 1918-ci il avqustun 17-də general L. Ç. Denstervil (1865-1946) başda olmaqla 1000 nəfərlik Britaniya qoşunları Bakıya daxil olan zaman türklərin Gəncədən Bakıya doğru irəlilədiyini bildiklərindən ingilislərin gəlişinə nə qədər sevinmişdilərsə, indi bir oqədər də məyus olmuşdular. Belə ki, L. Ç. Denstervil ordusunun ("Densterfors") Ənzəliyə çatmasından 3 gün sonra rəsmi şəkildə buraxılmış, yeni yaradılmış Şimali İran ordusuna V.Tomson komandan təyin edilmişdi. Dərhal Bakını tərk edən general L. Denstervil oraya çatandan 3 gün sonra vəzifədən kənarlaşdırılmış, V.Tomson həmkarının əvəzinə İranda müttəfiq dövlətlərin yeni yaradılmış qoşunlarının komandanı təyin edilərək, Bakıya göndərilmişdi. V.Tomson Bakıya gəlməmişdən qabaq, hələ Ənzəlidə olarkən bəyan etmişdi ki, o, Bakının general-qubernatoru olacaq və ingilislər şəhərin polisinə rəhbərlik edəcəklər...

General V.Tomson elə gəldiyi gün - 1918-ci il noyabrın 17-də polkovnik F. P. Kökkereli (o, V. Tomsondan sonra İranda Böyük Britaniya Xüsusi Müstəmləkə Polisinin şefi vəzifəsində çalışırdı) Bakıda yaradıldığı elan edilən müttəfiq dövlətlərin Xüsusi Polis Komissarlığının başçısı təyin etmişdi. Bu haqda əmr iki gün sonra noyabrın 19-da dərc olunmuşdu. Düz 10 gün sonra, 1918-ci il noyabrın 29-da Bakıda müttəfiq dövlərlərin Müvəqqəti Polis Komissarlığı təşkil edilmişdi. Bu zaman Azərbaycan Cümhuriyyətinin sərəncamında cəmi 1500 nəfərlik nizami ordu və 500 nəfər polis vardı. İngilislərin Bakıya daxil olmasından sonra daxili işlər naziri B. Cavanşir və vitse-nazir M. S. Ağabəyzadə bütün DİN sistemini nə qədər mərkəzləşdirməyə çalışsalar da, ingilis faktoru ilə hesablaşmaq lazım gəlirdi. Odur ki, 1918-ci il noyabrın 17-dən 1919-cu ilin martın 30-dək olan dövr Azərbaycan polisinin idarəçiliyində ikili tabeçilik kimi səciyyələnir. Qeyd etmək lazımdır ki, 1918-ci ilin noyabrından, yəni ingilislərin Bakıya daxil olmasından 1919-cu ilin avqustun 24-dək, yəni ingilislərin Bakını tərk etməsinədək (ingilislər Bakıdan gedərkən Azərbaycan Hökumətinə 26 milyon pul borclu qalmışdılar...) olan dövrdə onların hərəkətləri heçdə işğalçı xarakter daşımamışdı. Əvvələ, ingilislərin region xalqları arasında milli qırğınları aradan qaldırmaq siyasətinin özü təqdirəlayiq fakt idi. İkincisi, ingilislərin verdikləri gəmilərdən Azərbaycan Cümhuriyyəti Xəzər Donanması yaradarkən istifadə etmişdi. Bu çətin keçid dövründə ingilislər Azərbaycan hökumətinə müəyyən məsələlərdə məsləhətçi olmuşdular. Bu kimi müsbət cəhətlər Azərbaycan Nazirlər Şurasının sədri N.Yusifbəylinin 1919-cu ilin avqustunda "Metropol" mehmanxanasında ingilislərin Bakıdan getməsi münasibətilə general-mayor Q. N. Kori və digər yüksək rütbəli şəxslərin şərəfinə verilən ziyafətdəki çıxışında səslənmişdi (1919-cu il aprelin 24-də general V.Tomson öz səlahiyyətlərini Bakdakı müttəfiq qoşunların yeni komandanı general Q. Koriyə, Kori isə həmin il iyunun 11-də Cənubi Qafqazda müttəfiq qoşunların yeni komandanı D. Şatelvorta tərk etmişdi)...

... İngilislər Bakıya daxil olandan sonra ermənilər hay-küy qaldıraraq güya onların hüquqlarının pozulduğu barədə general V.Tomsona şikayət etmiş və Azərbaycan Hökumətinin milliyyətindən asılı olmayaraq, bütün vətəndaşları qoruyacağı barədəki bəyanatını "diplomatik bir piryom" adlandırmışdılar. 1918-ci il noyabrın 23-də general V.Tomson Erməni Milli Şurasının nümayəndə heyətini qəbul edərkən Bakı erməniləri ona 11 səhifəlik "məlumat" təqdim etmişdilər. Bu məlumatda yepiskop Baqrat adlı birisi saxtakarcasına bildirirdi ki, güya həmin il sentyabrın 15-17-də Bakıya daxil olanda türk və Azərbaycan ordusu 20 min ermənini qətlə yetirmişdir... Lakin cənab Baqrat "Bakıdakı azərbaycanlılara qarşı 1918-ci ilin məşhur mart soyqırımı barədə məlumat veməyi" nədənsə "unutmuşdu". Baqrat Bakıda və Azərbaycanda ermənilərin əvvəlki imtiyazlarını bərpa etmək üçün general Tomsona aşağıdakı 4 təklifi irəli sürmüşdü:

1. Üç min erməni məhbusunu azad etmək;
2. Soyuqlar düşənə qədər İrana və Krasnovodskiyə (indiki Türkmənbaşı) getmiş erməniləri Bakıya qaytarmaq;
3. Azərbaycan Hökuməti və türk komandanlığı tərəfindən müsadirə edilmiş əmlakı ermənilərə qaytarmaq;
4. Bakıdan kənarda yaşayan ermənilərin "təhlükəsizliyini" təmin etmək.

Bundan əlavə, Bakıdakı Erməni Milli Şurası Yelizavetpol quberniyasının dağlıq hissəsi olan Qarabağa ermənilərin iddiasını da general Tomsona təqdim etmişdi. Lakin Tomson bu məsələlərdə ermə-

nilәri müdafiә etmәmiş... vә bununla da onları başa salmışdı ki, Azәrbaycan Hökumәti Azәrbaycan әrazisindә yeganә qanuni ali hakimiyyәtdir. Daxili işәr naziri B. Cavanşir isә bәyan emişdi ki, tutulan ermәni mәhbuslarının sayı 3 min deyil, әslindә, 1 min nәfәrdir, onlar mart soyqırımını törәtdiklәrinә görә hәlә әvvәldәn hәbs edilmişlәr vә әgәr istintaq günahsız olduqlarını sübuta yetirsә, buraxılacaqlar.

Partiya mәnsubiyyәti üzrә әvvәl "Müsavat" partiyasında olmuş Behbud xan sonra "siyasi sәbәblәrә" görә onun tәrkibindәn çıxmış vә bitәrәf qalaraq 1918-ci il dekabrın 7-dә açılan Azәrbaycan Parlamentinә üzv seçilmiş, orada müstәqil millәt vәkili kimi fәaliyyәt göstәrmişdi. Hәmin vaxt F. Xoyski hökumәti istefaya getdiyi üçün B. Cavanşir dә tutduğu vәzifәdәn çıxmışdı. Lakin o, Parlamentdәki fәaliyyәtini davam etdirirdi. Behbud xan xarici ölkәlәrlә ticarәt әlaqәlәri yaratmaq üçün sәylәr göstәrirdi. Bu mәqsәdlә mәhz onun yaxından kömәyi ilә 1919-cu il iyulun 18-dә Bakıda "Dәyanәt" adlı kommersiya şirkәti yaradılmışdı...1919-20-ci illәrdә Bakıda keçirilәn "Azәrbaycan gecәlәri" adlı xeyriyyә konsertlәrinin, habelә digәr xeyriyyә işlәrinin tәşkili dә B. Cavanşirin nüfuzlu vә nәcib, xeyirxah niyyәtli bir şәxsiyyәt olduğundan xәbәr verirdi. Böyük Aksionerlәr Cәmiyyәtinә malik olan Behbud xan öz varidatını müstәqil milli burjua-demokratik dövlәtimizin yaşaması, möhkәmlәnmәsi vә inkişaf etdirilmәsi yolunda әsirgәmәmişdi...

27 aprel 1920-ci il. Gündüz saat 12-dә Ağa Hüseyn Kazımovun (1892, Bakı - 1937; otuzuncu illәrdә repressiya edilib güllәlәnmişdir) vә Hәmid Sultanovun (26 may 1889, Gәncә quberniyası, Qazax qәzası, Şınıx-Ayrum kәndi - 1938; otuzuncu illәrdә repressiya edilәrәk Bakıda hәbs olunub, 1938-ci il yanvarın 20-dәn 21-nә keçәn gecә güllәlәnmişdir) başçılığı ilә bolşeviklәrin nümayәndә heyәti hakimiyyәtin onlara verilmәsi haqqında ultimatumu Azәrbaycan Parlamentinә vә Hökumәtinә tәqdim etmişdi. Ultimatumun cavabını vә hakimiyyәtin verilәcәyi xәbәrini azәrbaycanlı bolşeviklәr Behbud xanın mәnzilindә oturub sәbirsizliklә, intizarla tez-tez pәncәrәdәn bayıra boylanmaqla gözlәyirdilәr...

Azәrbaycanda sovet hakimiyyәti qurulduqdan sonra peşәkar mühәndis - mütәxәssis kimi tanınan vә yaxşı xarici әlaqәlәri olan Behbud xana toxunmamışdılar. O, әvvәlcә bir müddәt başında



A. P. Serebrovskinin (1884-1938) durduğu "Aznef"dә çalışmışdı (A. P. Serebrovski 1920-26-cı illәrdә "Azneft" İdarәsinin sәdri (rәisi) olmuşdu. N. Nәrimanov onu ürәk ağrısı vә istehza ilә "yeni çar" adlandırırdı. A. Serebrovski otuzuncu illәrdә repressiya olunmuş vә 1938-ci ildә güllәlәnmişdi...). Sonra Bakıda neft sәnayesi sahәsindә işlәmiş B. Cavanşir Zaqafqaziya Xarici Ticarәtinin müvәkkili vәzifәsinә tәyin edilmişdi. Azәrbaycan XKS-in sәdri N. Nәrimanovun (2 aprel 1870, Tiflis - 23 mart 1925, Moskva) B. Cavanşirә böyük etimadı vardı. Mövcud ehtimal belәdir ki, N. Nәrimanov zәhәrlәnәrәk aradan götürülmüşdü. Vaxtı ilә V. Lenin "öz yaxın adamlarına" demişdi ki, Nәrimanova inanmaq olmaz, ona geniş әl-qol açmasına imkan vermәyin. A. Mikoyan vә digәr yüksәk vәzifә tutan ermәni (daşnak) bolşeviklәr N. Nәrimanovun Bakıdan uzaqlaşdırılıb Moskvaya aparılmasına vә belәliklә, onun tәcrid edilmәsinә nail olmuşdular... Moskvada SSRİ MİK-in sәdri olan N. Nәrimanov 1925-ci il martın 23-dә vәfat etmiş vә "Qızıl Meydan"da, Kremlin divarları yanında dәfn olunmuşdur). Nәrimanov Behbud xanı әvvәllәrdәn tanıyırdı vә ondan bir peşәkar mütәxәssis kimi vә möhkәm xarici әlaqәlәrindәn istifadә etmәk qәrarına gәlmişdi. 1920-ci ilin axırında gәnc Azәrbaycan Sovet Sosialist Respublikası üçün zәruri müasir neft-mәdәn avadanlığı almaq mәqsәdilә Almaniyaya Behbud xanı da mәhz N. Nәrimanov göndәrmişdi.

Almaniyaya gedәrkәn İstanbulda görkәmli әdib Yusif Vәzir Çәmәnzәminli (17 sentyabr 1887, Şuşa - 3 yanvar 1943, Nijni-Novqorod) ilә görüşәn Behbud xan ona Azәrbaycana qayıtmaqda kömәk edәcәyinә söz vermişdi. Lakin Yusif Vәzirә kömәk etmәk B. Cavanşirә nәsib olmamışdı...(**HAŞİYӘ**: Vәzirov Yusif Mir Baba oğlu. Otuz iki yaşlı Y. V. Çәmәnzәminli 1919-cu ildә N. Yusifbәylinin tәklifi ilә İstanbula Azәrbaycan Cümhuriyyәtinin sәfiri göndәrilmişdi. Onun kömәkçisi I Dünya Müharibәsindә ilk azәrbaycanlı hәrbçi tәyyarәçimiz olan Fәrrux ağa Qayıbovun (1891-1916) qohumu Cahangir bәy Qayıbov (1882-1938) idi. Azәrbaycanda sovet hakimiyyәti qurulduqdan sonra onlar tutulacaqlarından ehtiyatlanaraq İstanbuldan Vәtәnә qayıda bilmirdilәr...). Çünki, Azәrbaycan SSR XKS-in sәdri N. Nәrimanovun tapşırığı ilә Cәnubi Qafqaz Xarici Ticarәt Şurasının nümayәndәsi sifәtilә Almaniyaya

yola düşən Behbud xanın özünün aqibəti faciə ilə qurtarmışdı... O da Fətəli xan Xoyski, Həsən bəy Ağayev kimi erməni terrorunun qurbanı olmuşdu... Bu hadisə tarixi ədəbiyyatda və dövrü mətbuatda öz əksini aşağıdakı kimi tapmışdır:

– 1921-ci ilin iyulunda Behbud xan həyat yoldaşı, milliyyətcə rus olan Tamara xanım, qardaşları Surxay ağa və Cəmşüd ağa (tarixi ədəbiyyatda Cümşüd ağa da yazılır) ilə birlikdə İstanbula yola düşərək, o vaxt Malta adasında sürgündə olan, əslən qarabağlı görkəmli ictimai-siyasi xadim, professor Əhməd bəy Ağaoğlunun (1863-1939) evində qonaq qalmışdı. Bu haqda Ə. Ağaoğlunun qızı Sürəyya Ağaoğlü (1903-89) "Ailəm və təhsil illərim" addlı xatirələr kitabında yazmışdır...

– Əhməd bəy Ağaoğlu Sitarə xanım Vəzirova ilə ailə qurmuşdu. Onun 7 övladı - Vəzir bəy, Bəşir bəy, Əbdürrəhman bəy və Səməd bəy adlı oğulları, Sürəyya xanım, Tezə (Tezer) xanım və Gültəkin xanım adlı qızları vardı. O vaxtlar İstanbul Universitetinin hüquq fakultəsinin hələ tələbəsi olan Sürəyya Ağaoğlu 1903-cü ildə Şuşa şəhərində anadan olmuşdu... Sürəyya xanım Türkiyənin ilk vəkillərindən olmuş və orada böyük nüfuz qazanmışdı... Məşhur istiqlal mübarizi, atası Ə. Ağaoğlunun soyadını layiqincə doğrultmuş Sürəyya xanım 1989-cu il dekabrın 29-da İstanbulda 86 yaşında vəfat etmişdir .

– Sürəyya xanım yuxarıda adını çəkdiyimiz "Ailəm və təhsil illərim" adlı xatirələr kitabında yazırdı: "Atam Maltadan qayıtdıqdan sonra erməni "dostlarından" bir nəfər professor bizə gələrək onun ermənilərin "qara siyahı"sında olduğunu, atamı sevən "dostu" kimi onu xəbərdar etməyi özünə borc bildiyini və buna görə də sayıq hərəkət etmək lazım gəldiyini söylədi... Azərbaycanın sabiq daxili işlər naziri B. Cavanşirin də "qara siyahı"da olması xəbərini almışdıq. Elə bu arada Behbud xan xanımı və iki qardaşı ilə Parisə getmək üçün (oradan da Almaniyaya gedəcəkdilər) İstanbula gəlmişdi. Özü vəziyyətə tez uyğunlaşan adam idi və bizim Şahzadə bağındakı evimizdə 5 gün gizli yaşadı. Ancaq rus əsilli xanımı bu cür "həbs" həyatına dözə bilməyəcəyini söylədiyindən evimizi tərk edib "Pere Palas" mehmanxanasına yerləşdilər. Ertəsi gün səhər tezdən anam Sitarə xanım ilə "Pere Palas" mehmanxanasına gələrkən



Behbud xanın bir erməni tərəfindən həmin otelin qarşısında vurulduğunu eşitdik". Sitarə xanım Behbud xanı xəbərdar etmişdi ki, otelə getməyin... Qırx 48 saat keçməmişdi ki, Behbud xanı vurmuşdular...

"Pere Palas" İstanbulun tam mərkəzində - Bəyoğluda yerləşirdi. Bu hadisə 1921-ci il iyulun 17-də gecə saat 23 radələrində "Pere Palas" otelinin o zamankı İtaliya səfirliyinə baxan qanadı qarşısında baş vermişdi. Ə. Ağaoğlunun oğlu Səməd bəy Ağaoğlu (1909-82) 1957-ci ildə nəşr etdirdiyi "Babamın arkadaşları" kitabında yazır ki, B. Cavanşirin qətlə yetirilməsi hadisəsi 1921-ci il yanvarın axırında və ya fevralın əvvəlində baş vermişdir... Lakin daha dəqiq faktlar sübut edir ki, bu tarix yanlışdır...

***HAŞİYƏ***: Ə. Ağaoğlunun dördüncü - kiçik oğli Səməd bəy Ağaoğlu 1909-cu il aprelin 23-də Bakı şəhərində anadan olmuşdu... Hələ körpə ikən ailələri Türkiyəyə mühacirət etmişdi... 1930-cu ildə Ankara Universitetinin hüquq fakultəsini bitirmişdi... O, məsul dövlət vəzifələrində, o cümlədən Türkiyənin İqtisad Nazirliyində, Ticarət Nazirliyində müdir və s. vəzifələrdə çalışmışdı. 1946-cı ildən siyasətə qatılmış, Türkiyədə Demokratik Partiyanın qurucularından biri olmuşdu. 1950-ci ildə Türkiyədə ilk dəfə keçirilən çoxpartiyalı seçkilərdə Demokratik Partiya qalib gəlmiş və partiyanın lideri Adnan Menderesin (1899 – 1961) baş nazir olduğu hökumət qurulmuşdu (Ali Adnan Ertəkin Menderes 1899-cu ildə Çakırbəyli Aydın bölgəsində anadan olmuş, 1961-ci il sentyabrın 17-də Bursa adasında 72 yaşında vəfat etmişdir...). Səməd bəy həmin hökumətdə Baş nazirin müavini, əmək naziri, sənaye naziri vəzifələrində işləmişdi. Səməd bəy Manisadan düz 10 il, 1950-60-cı illərdə Türkiyə Böyük Millət Məclisinin deputatı olmuşdu. 1960-cı ildə çevriliş nəticəsində Menderes hökuməti yıxılanda, onun digər üzvləri ilə birlikdə S. Ağaoğluda həbs edilmişdi. O, məhkəmədə ömürlük həbs cəzası almışdı. Lakin 1965-ci ildə amnistiyaya düşərək azad edilmişdi. Azad olunduqdan sonra atası kimi yazmaqla məşğul olmuş, o cümlədən memuarlar da yazmışdır... Onun "Atamdan xatirələr", "Babamın arkadaşları", "Dostum Menderes", "Sovet Rusiya imperatorluğu",

"Demokratik Partiyanın doğuluşu və yüksəliş nədənləri" və i.a. kitabları maraqla qarşılanmışdı. Səməd bəy 1982-ci ildə İstanbulda 73 yaşında vəfat etmişdir. Onun Nəriman xanım Babaoğlundan Təktaş bəy və Mustafa Kamal bəy adlı iki oğlu vardı. Təktaş bəy 1934-cü ildə İstanbulda doğulmuşdu. O, Oksford Universitetində təhsil almışdı... Kommunist əqidəli olduğundan öncə Türk İşçi Partiyasında, sonra Türkiyə Sosialist İşçi Partiyasında fəaliyyət göstərmiş, iki dəfə (1973 və 1975) həbsdə yatmışdı... "Geçək" adl qəzetin baş redaktoru olmuş, 1980-89-cu illərdə xaricdə yaşamış, geri döndükdən sonra Sosialist Birlik Partiyasının liderlərindən birinə çevrilmişdi... Təktaş bəy də atası Səməd bəy kimi yazarlıqla məşğul olmuşdu. Onun "Ölümdən həyata" və s. ünvanlı kitabları işıq üzü görmüşdür.

Bəzi dövrü mətbutda B. Cavanşirin qətlə yetirilməsinin tarixi 18 mart, 18 iyul göstərilir. (Məsələn, bax: "Panorama" qəzeti, 16 oktyabr 1997-ci il və s.). Fikrimizcə, bunların hamısı dəqiq deyil. Daha tutarlı mənbələr və ədəbiyyatlar sübut edir ki, 17 iyul 1921-ci il tarixi daha dəqiqdir. Bunu həmin dövrün türkiyəli jurnalisti Murad Çulcu (bəzi ədəbiyyatlarda Gülçü yazılır) "Erməni intiriqalarının pərdə arxası. Torlakyan davası" kitabında yazıb... Həmin kitabdan:

...17 iyul 1921-ci il. Behbud xan həyat yoldaşı Tamara xanım, qardaşları Cəmşid ağa və Surxay ağayla axşam saat $23^{00}$-da "Təpəbaşı" Ailə Kazinosunun İtaliya səfirliyinə baxan qapısından çıxaraq "Pere Palas" otelinə yönələrkən arxadan qaçaraq gələn, şapkasını gözünün üstünə qədər endirmiş cılız, kəsik bığlı, əyri burunlu birisinin "mauzer" markalı silahdan açdığı atəşlə ağır yaralanmışdır. Üç dəfə dalbadal açılan atəşdən sonra yaralı Behbud xan erməni qatilinin üstünə gedərkən üzü üstə yerə yıxılıb. Növbəti güllə Tamara xanımla birgə qatilin silah tutan əlindən yapışmış 20 yaşlı qardaşı Cəmşid (M. Çulcu Cümşüd yazır) ağanın sol yanağını sıyırıb. Bu zaman Qalatasaray Mərkəzi Karakolunun polis məmuru Əli əfəndi fit çala-çala hadisə yerinə yetişir və Behbud xanın qardaşları Surxay ağa və Cəmşüd ağanın köməyi ilə erməni terrorçusu Misaq Torlaqyanı qandallayır... Qatil əslən Trabzon ermənisi, "Daşnaksütyun" partiyasının (1890) üzvü, erməni özünümüdafiə alayının keçmiş döyüşçüsü M.Torlaqyan erməni siyasi terrorunun Azərbaycan Cümhuriyyətinin liderlərini fiziki cəhətdən məhv etməyi nəzərdə tutan "qara siyahı" üzrə növbəti tapşırığı xaincəsinə və vəhşiliklə yerinə yetirən tip idi. Bu haqda bəhs edən türk hüquqşünası və ictimai xadimi Sürəyya Ağaoğlunun "Bir ömür belə keçdi" adlı kitabından anlaşılır ki, hələ 1919-cu ildə ermənilər Azərbaycanın milli ruhlu bütün görkəmli siyasi xadimlərini və ziyalılarını məhv etməyi nəzərdə tutan "qara siyahı" hazırlamışdılar...

Tanınmış türk diplomatı və publisisti, doktor Rza Nur 1926-cı ildə yazırdı ki, Azərbaycan Cümuriyyətinin digər bir lideri, Baş nazir N.Yusifbəylinin də öldürülməsi daşnak terrorçularının adı ilə bağlıdır: "Beləcə, qeyrətli azəri liderlərini ermənilər birər - birər öldürürdülər. Bu öldürülənlər Cavanşirlə birlikdə 6 nəfər oldu. Sonra daxili işlər naziri Tələt paşa (1874-1921) da daxil olmaqla (İttihad və Tərəqqi Partiyasının üzvü, Türkiyənin daxili işlər, hərbi naziri və Baş naziri vəzifələrində işləmiş Mehmet Tələt paşa (1874, Şərqi Rum Eli, Kırçaali bölgəsi (indi Bolqarıstanda), Xasköy kəndi -15 mart 1921, Berlin). 1918-ci ildə siyasi məğlubiyyətdən sonra dövlət postunu itirmiş və Almaniyaya mühacirət edərək, orada "Əli Salih bəy" adı ilə yaşayırdı... Qırx yeddi yaşlı Tələt paşa 1921-ci il martın 15-də Almaniyanın Berlin şəhərində "Daşnaksütyun" terrorçu təşkilatının üzvü Soqomon Tehliryan tərəfindən güllə ilə xaincəsinə qətlə yetirilmişdi... Almaniya məhkəməsi qatilə bəraət vermişdi...) Türkiyə liderlərindən də bir oqədər öldürdülər ki, sonuncusu Camal paşadır (Kor general- polkovnik Mehmed Nəsib əfəndinin oğludur. 16 may 1872-ci ildə Lesbos adasında, Midilli deyilən yerdə anadan olmuşdu. 1922-ci il iyul ayının 21-də Tiflisdə, 50 yaşında erməni terrorçuları Petros Ter-Poqosyan və Artaşes Gevorkyan tərəfindən qətlə yetirlimişdir). "Rza Nur daha sonra özünün "Moskva-Sakariya xatirələri" kitabında "Bir azəri vətənpərvəri: "Böyük Şəhid Behbud Cavanşir" bölümündə yazırdı: "Behbud Cavanşirlə tanış oldum. Gənc, gözəl, fövqəladə zəkalı və məlumatlı bir şəxsdir. Vaxtı ilə Almaniyada mühəndislik təhsili alıb. Bolşeviklərin əleyhinə olanlardandır... Ruslardan əvvəlki milli Azərbaycan Respublikasında nazir imiş. Ruslar gələn kimi onu da həbs etmişdilər. Lakin neft mədənlərini kimsə dürüst işlədə bilməmişdi. Cavan-

şiri həbsdən çıxarıb ora göndərməyə məcbur olmuşdular. Oda işi yoluna qoymuş. Bu adam çox türkçü və vətənpərvərdir".

... Ağır yaralı halda xəstəxanaya çatdırılan Behbud xan 35 dəqiqədən sonra daha heç bir tibbi yardıma ehtiyac olmadan dünyasını dəyişmişdi. Bu zaman onun cəmi 44 yaşı vardı (Behbud xana rus inqilabı və digər hərc-mərclik illərində də sui-qəsdlər olmuşdu..., lakin o öz həyatını soyuqqanlıqla qoruya bilmişdi. Bu dəfə isə ehtiyatı əldən vermişdi...). Ölməmişdən qabaq: "Cənablar, pəncərəni açın, hava çatışmır, mən ağırlaşıram! Mənim şəxsi düşmənim yoxdur. Məni ermənilər vura bilər", - son kəlmələrini söyləmişdi.

Behbud xan ölümündən 3 gün sonra, 20 iyul 1921-ci ildə İstanbulda Beşiktaşdakı Yəhya əfəndi dərgahında (qəbiristanlığında) dəfn olunmuşdur. "Bəzi qüvvələr"in müqavimətinə baxmayaraq, dəfn mərasimi kütləvi nümayişə çevrilmişdi (onlar Behbud xanın orada dəfn olunmasının əleyhinə idilər)...

Sitarə xanımın xahişi ilə İstanbulun tanınmış vəkillərindən Haydar Rifat bəy (1887-1942) məhkəmədə iddiaçı tərəfin – Cavanşirlər ailəsinin mənafeyini müdafiə etməyi öz üzərinə götürmüşdü. Behbud xanın vəkili Rifat Haydar bəy onun qətlini törədənlərin cəzalandırılacaqlarını bəyan etmişdi. Cinayət işinə ingilis hərbi məhkəməsində baxılması tapşırılmışdı. Həmin vaxt terrorçu M.Torlakyan məhz ingilis hərbçilərinin qərargahının yerləşdiyi "Kroker" otelində (indiki İstanbul Sənaye Odasının binası) saxlanılırdı. "Daşnaksütyun" partiyasının üzvü M.Torlaqyan hələ 1918-ci ildə Azərbaycanda törədilən mart soyqırımında xüsusi fəallıq göstərmişdi... Məhkəmədə M. Torlaqyanı ermənilərdən 3 vəkil müdafiə edirdi. Məhkəmənin stenoqramını yazan jurnalist Murad Çulcu (Gülçü) bu məhkəmənin "əsrin məhkəməsi" kimi məşhur olduğunu yazırdı... Məhkəməyə 40-a yaxın şahid cəlb olunmuşdu. Məhkəmədə həmçinin Azərbaycan Parlamentinin sabiq üzvlərü, daxili işlər nazirinin sabiq müavini, "Azərbaycan" qəzetinin müxbiri kimi Şəfi bəy Rüstəmbəyli ("Aran") və siyasi mühacir Həmdi Qara Ağazadə ittiham şahidləri qismində çıxış edərək Behbud xanı müdafiə etmişdilər. Ziba xanım adlı bir soydaşımız da öz çıxışı ilə erməni terrorçularını ifşa edən tarixi faktları sübut olaraq göstərmişdi. Məhkəməni aparan birinci



prokuror M.Torlaqyan üçün ölüm cəzası istəmişdi. Odur ki, onu 24 saat müddətində Türkiyədən uzqlaşmağa məcbur etmişdilər... Yeni təyin edilən prokurorun "səyi" nəticəsində 1922-ci il yanvar ayının 4-də ingilis hərbi məhkəməsinin hökmü ilə qatilə bəraət qazandırılmış və məhkəmə prosesində M.Torlaqyanı az qala "milli qəhrəman" kimi qələmə verən ermənilər onu vəkili Hasuryanla birlikdə əvvəlcə Yunanıstana, oradanda isə Amerikaya "qaçırmışdılar"... (Bunu pərdələmək üçün üstəlik, ağqvardiyaçıların havadarı olan Dubinski-Mixadze də belə yazmışdır ki, güya İstanbluda Behbud xanı M.Torlaqyan deyil, rus ağqvardiyaçıları qətlə yetirmişlər...).

Behbud xanın kiçik qardaşları Cəmşüd ağa (1901-88) və Surxay ağa (1904-85) ömürlük Türkiyədə qalmışdılar. Lakin onlar Azərbaycan SSR XKS-in sədri N. Nərimanovun diqqətindən kənarda deyildilər. Məhz N. Nərimanovun qayğısı və himayəsi sayəsində Cəmşüd və Surxay ali təhsil ala bilmişdilər. Azərbaycan SSR XKS-in sədri N. Nərimanov onların hər ikisinin Almaniyada təhsillərini davam etdirmələri üçün təqaüd ayırmışdı. Yenə də, N. Nərimanovun təşəbbüsü ilə Azərbaycan Hökuməti özünün 12 dekabr 1921-ci il tarixli iclasında B. Cavanşirin ailəsinə maddi yardım göstərmək haqqında qərar qəbul etmişdi.

Behbud xanın özündən kiçik üçüncü qardaşı Cəmşüd ağa Cavanşir 1901-ci ildə Cavanşir qəzasının Qaraqoyunlu kəndində Azad ağanın ailəsində dünyaya gəlmişdi (bu kənd Qarabağ xanı Pənahəli xanın nəticəsi Azad ağanın mülkü olduğu üçün bəzi ədəbiyyatlarda onu Azad Qaraqoyunlu da yazırlar). Sonra qardaşı Behbud ağanın yanına Bakıya köçmüşdü... Behbud xanın qətlə yetirilməsindən sonra İstanbulda qalan Cəmşid ağa türkiyəli məhkəmə vəkili, artıq yuxarıda adı çəkilən həmin Haydar Rifata sığınmış və onun kiçik qızı Hamiyet xanımla evlənmişdi. Onların izdivacından əmələ gələn oğlan uşağına əmisi, Azərbaycan milli istiqlalının fədailərindən biri, Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri B. Cavanşirin adını qoymuşdu. Cəmşüd ağanın Hamiyet xanımdan bir qızı da dünyaya gəlmişdi. Cəmşid ağanın oğlu Behbud ağa Cavanşir 1926-cı ildə İstanbulda anadan olmuşdu. Ali tibb təhsili almışdı. Türkiyənin tibb üzrə tanınmış professoru, həm də məşhur idmançısı olmuşdu. O, uzun illər tennis üzrə Türkiyə çempionu adını saxlamış, Türkiyənin

turizm və alpinizm klubuna rəhbərlik etmişdi. Onun adına Türkiyədə indi də hər il “Cavanşir kuboku” adlı tennis yarışı keçirilir. Professor Behbud ağa Cavanşir 1999-cu ildə İstanbulda 73 yaşında vəfat etmişdir....

Qardaşoğlu Behbud ağa sonrakı xatirələrinin birində yazırdı ki, atam bir ara Azərbaycanda qalan Rəşid (1900-37) əmimin qızları Zəminə və Bəturəni repressiya qurbanlarına çevrilməmələri üçün “vasitə” tapıb... SSRİ konşuluğuna müraciət etməklə turist kimi SSRİ-yə - Sibirə gedərək, orada qohumlarını tapmış, min bir əziyyətdən sonra icazə alaraq onları Türkiyəyə gətirməyə nail olmuşdu... (Sonralar onlar yenidən Bakıya qayıdıb burada yaşamış və işləmişlər...). Behbud xanın özündən sonrakı ikinci qardaşı Rəşid ağa Cavanşir 1900-cü ildə Cavanşir qəzasının Qaraqoyunlu kəndində Azad ağanın ailəsində dünyaya gəlmişdi... Behbud xanın qətlindən sonra qardaşları Cəmşid ağa və Surxay ağanın təkidinə baxmayaraq, İstanbula getməyib Bakıda qalmışdı. “Azərittifaq”da mühasib işləyirdi. Lakin xan nəslinə mənsubluğu ucbatından 1937-ci ildə repressiyaya uğramışdı... Rəşid ağa Sənubər xanım Şamil ağa qızı Cəmillinskaya (1906-81) ilə ailə qurmuşdu. Onun Azad ağa adlı oğlu, Zəminə bəyim və Bəturə bəyim adlı qızı vardı. Azad ağa 1931-ci ildə Bakıda doğulmuşdu və cəmi 10 il yaşamış, 1941-ci ildə həyatdan köçmüşdü... Rəşid ağanın birinci qızı Zəminə bəyim 1933-cü il fevralın 18-də Bakı şəhərində doğulmuş, Azərbaycan Dövlət Universitetinin (İndiki BDU) filologiya fakultəsini bitirmişdi. Uzun illər “Gənclik” nəşriyyatında redaktor işləmişdir. Zəminə bəyim tanınmış şair Rasim Kərimli (1932-97) ilə ailə qurmuşdu... Bakıda yaşayırdı... Rəşid ağanın ikinci qızı Bəturə bəyim (1936-96) 1936-cı il noyabrın 10-da Bakı şəhərində anadan olmuşdu. Azərbaycan Tibb İnstitutunda (indiki Azərbaycan Tibb Universiteti) təhsil almışdı. Bakıdakı 20 nömrəli poliklinikada çalışmışdı. Bəturə xanım 1996-cı il fevralın 12-də 60 yaşında vəfat etmişdir... Bəturə xanım Qasım Əliyevlə (1928-97) ailə qurmuşdu. Üç oğlu qalmışdır...

Behbud xanın sonbüşik qardaşı Surxay ağa 1904-cü ildə Cavanşir qəzasının Qaraqoyunlu kəndində dünyaya göz açmışdı... Sonra qardaşının - Behbud xanın yanına köçmüşdü. 1921-ci ildə onunla İstanbula getmişdi. Behbud xanın qətlindən sonra oda qardaşı Cəmşüd ağa ilə birlikdə İstanbulda qalmış və orada yaşayıb işləmişdi. İxtisasca mühəndis - elektrik idi. Surxay ağanın övladları haqqında bilgilər yoxdur...



B. Cavanşirin həyat yoldaşı Tamara xanım onun ölümündən sonra Moskvaya getmiş və ömrünün axırınadək orada tənha yaşamışdı (Tamara xanım söyləmişdi ki, Türkiyədə Behbud xanın xatirəsi əziz tutulurdu və onun ölümündən təəssüflənirdilər. Onlardan biri Nuru paşa idi. Tamara xanım söyləyirdi ki, 1918-ci il sentyabrın 15-də Bakı azad olunduqdan bir neçə gün sonra Nuru paşa onların evinə qonaq gəlmişdi...). Xan nəslindən olduğu üçün repressiya illərində Sibirə sürgün edilmiş Behbud xanın bacısı oğlu Əkbər Cavanşir 1948-ci ildə sürgündən qayıdarkən yolüstü Moskvada Tamara xanımın qonağı olarkən ondan: “ Nə əcəb ailə qurmamısınız ? - deyə soruşmuşdu. Tamara xanım ona belə cavab vermişdi: ”Behbud xan kimi bir kişi tapmaq mümkünsüzdür”.

## MƏHƏMMƏD SADIQ BƏY AĞABƏYZADƏ (AĞABƏYOV) (1865-1944)



Azərbaycanın görkəmli hərbçisi və dövlət xadimi. 1918-20-ci illərdə Azərbaycan Cümhuriyyəti dövründə Daxili İşlər Nazirliyinin rəhbərlərindən, milli-müstəqil polisimizin yaradıcılarından biri olmuşdur. General-mayor. Nazir hüquqlu vitse-ministr (nazir)... Şərqşünas alim, professor...

Məhəmməd Sadıq bəy Hacı İsmayıl bəy oğlu Ağabəyzadə (Ağabəyov) 1865-ci il martın 15-də Bakı quberniyasının Göyçay qəzasının mərkəzi Göyçay şəhərində dindar ailədə anadan olmuşdu. O, Salyandakı məşhur Ağabəyovlar nəslindən idi... İlk

təhsilini Bakı real məktəbini qurtarmaqla (1882) alıb sonra Peterburqdakı Konstantinovsk piyada hərbi və artilleriya məktəbini də əla qiymətlərlə bitirmişdi. Odur ki, 1886-cı ildə Sankt-Peterburqdakı ("Sankt-Peterburq" "Müqəddəs Pyotr şəhəri" deməkdir. 1703-cü ildə qüdrətli Rusiya çarı I Pyotr (1682-1725) tərəfindən salınmışdır) Mixaylovski artilleriya məktəbinin 3-cü kursuna daxil olmuşdu. Oranı da əla qiymətlərlə bitirmişdi. Qafqazda qulluq edərkən Tiflisdə Baş Qərargahın, 1886-99-cu illərdə həm də Peterburqda Xarici İşlər Nazirliyinin Şərq dilləri kursunu qiyabi yolla başa vurmuşdu.

1886-cı ildən kiçik rütbəli hərbçi zabit kimi xidmətdə sayılan M. S. Ağabəyzadə əvvəlcə Qafqaz artilleriya hərbi hissəsində, 1899-cu ildən 1913-cü ilədək Türküstan (Orta Asiya) və Zakaspi hərbi dairələrində qulluq etmişdi... 1913-cü ildə general-mayor rütbəsində təqaüdə çıxaraq Göyçay şəhərində yaşayırdı... Bu zaman onun 48 yaşı vardı.

1914-cü ilin iyulunda I Dünya Müharibəsi başlandı və bununla əlaqədar bütün hərbçi kadrlar səfərbərliyə alınırdı. Onların içərisində Məhəmməd Sadıq bəy də vardı... Çar Rusiyası ordusunda qulluq edərkən göstərdiyi əla xidmətlərə görə M. S. Ağabəyzadə artıq yuxarıda deyildiyi kimi general-mayor ali hərbi rütbəsinə, bir sıra orden və medallara, o cümlədən, Rusiya imperiyasının yüksək təltiflərindən biri olan 2-ci dərəcəli "Müqəddəs Anna" ordeninə layiq görülmüşdü. 1917-ci il oktyabrın 27-də Rusiyada çevrilişin baş verməsi nəticəsində axırıncı çar II Nikolay Romanovun (1894-1917) hakimiyyəti yıxıldı. Onun əvəzinə hakimiyyətə gələn sovet hökuməti Rusiyanın I Dünya Müharibəsindən çıxdığını elan etdikdən sonra həmin müharibədə iştirak etmiş, ordudan tərxis olunmuş general M. S.Ağabəyzadə yenidən döğulduğu Göyçaya qayıtmışdı.

1918-ci ilin may ayında Azərbaycanın tarixində çox mühüm və yeni mərhələ olan bir hadisə baş verdi. Bu tarixi hadisə həmin il Mayın 28-də ilk milli - müstəqil dövlətimiz – Azərbaycan Cümhuriyyətinin yaranması idi. Bundan hədsiz sevinən general M. S. Ağabəyzadə diqqətdən kənarda qalmamışdı. M. S. Ağabəyzadə bir peşəkar hərbçi general kimi ona olunan təklifi ürəkdən qəbul edərək, müstəqil dövlətimizə xidmət etməyə razılıq vermişdi...



Tarixi mənbələr və sənədlər göstərir ki, bu vətənpərvər şəxsiyyət 1918-20-ci illərdə Azərbaycan Cümhuriyyətinin Hərbi Nazirliyində hərbi nazirin müavini, hərbi nazir əvəzi, daxili işlər nazirinə bərabər statusda isə nazir əvəzi vəzifələrində çalışmış və Azərbaycanda, xüsusilə, Gəncə və Bakı quberniyalarının polis orqanlarında islahatlar apararaq, milli polis məktəbinin, habelə hərbi işin təşkilində müstəsna xidmətlər göstərmişdir...

Belə ki, M. S. Ağabəyzadə 1918-ci ilin oktyabrınadək əvvəlcə Azərbaycan Cümhuriyyətinin hərbi naziri əvəzi vəzifəsində çalışmış, sonuncu tarixdən isə zəruriyyət olduğundan Daxili İşlər Nazirliyinə işləməyə dəvət olunmuşdu... General-mayor M .S. Ağabəyzadə Azərbaycan Hökumətinin qərarı ilə 1918-ci il oktyabrın 23-dən DİN-nin vitse-naziri vəzifəsinə təyin edilmiş və bu vəzifədə təqaüdə çıxanadək, yəni 1920-ci il yanvarın 23-dək intensiv fəaliyyət göstərmişdi... O, Azərbaycan Cümhuriyyəti DİN-nin boş təqvim günlərində hökumətin qərarı ilə daxili işlər naziri vəzifəsini daşımışdı və bir tədqiqatçı kimi hesab edirəm ki, onu məhz daxili işləri naziri hesab etmək olar. Çünki, S. M. Ağabəyzadə ilə əlaqədar olan sənədlərdə, habelə hökumətin reyestr jurnalında (dövlət qərarlarının siyahsı yazılmış dəftər) onunla əlaqədar çıxardığı qərarda (23 yanvar 1920-ci il), o cümlədən şəxsi işində Sadıq bəyə heç vaxt nazir müavini kimi deyil, ancaq "cənab nazir!", - deyə müraciət edilmişdir...

1918-ci il noyabrın 1-dən 1918-ci il dekabrın 26-dək, 1919-cu il martın 14-dən 1919-cu il aprelin 16-dək və s. Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri vəzifəsini daşımış vitse-nazir M. S. Ağabəyzadə çox intizamlı, tabeliyində olanlara qarşı da olduqca tələbkar idi. Bunu onun yazdığı raportlardan da sezmək olardı... Sadıq bəyin Gəncə quberniyasının polis zabitlərinin geyim forması ilə təmin edilməsi, Göyçay və Cavad qəzalarında, Bakı quberniyasında təftiş (yoxlamalar) aparılması barədə əmrlərinin məzmunu da bunu sübut edir.

21 dekabr 1918-ci il. "*Daxili işlər naziri əvəzi general-mayor Ağabəyova.*

*Nazirlər Kabinetinin yeni tərkibinin toplanması ilə əlaqədar Əlahəzrətlərinizdən xahiş edirəm ki, yeni daxili işlər naziri Xəlil bəy*

*Xasməmmədov gələnə qədər keçmiş daxili işlər naziri Bəhbud xan Cavanşirdən işləri təhvil götürəsiniz".*

Nazirlər Şurasının sədri Fətəli xan Xoyski.

1918-ci il noyabrın 17-dən 1919-cu il martın 30-dək olan dövr Azərbaycan polisinin tarixində milli polis orqanlarımıza və əməkdaşlarına ikili rəhbərlik və idarəçilik mexanizminin tətbiqi ilə səciyyələnir. Bu, Bakıda ingilis general-qubernatorluğu (sonralar, 1919-cu ilin aprelində ləğv olunmuşdu) polisinin mövcudluğu ilə əlaqədar idi. Belə ki, I Dünya Müharibəsində (1914-18-ci illər) qalib gələn Antanta ölkələri – İngiltərə, Fransa və ABŞ müttəfiq dövlətlər qismində Mudros sazişinin (30 oktyabr 1918-ci il) 11-ci maddəsinə əsasən Bakıya V.Tomson başda olmaqla hərbi kontingent göndərmişdilər. Bakıda polkovnik F. Kökkerelin başçılıq etdiyi müttəfiq dövlətlərin Polis Komissarlığı yaradılmışdı. Həmin dövrdə müttəfiq dövlətlərin Polis Komisarlığının stukturu aşağıdakı kimi idi:

- General-qubernator, Bakı şəhərində müttəfiq dövlətlərin qoşunlarının komandanı, Bakı şəhərində müttəfiq qoşunların Qərargahı, Bakı şəhərində müttəfiq dövlətlərin Polis Komissarlığı, Polis Komissarlığının Xüsusi Dəftərxanası, Bakı Polismetsterliyi və Balaxanı-Sabunçu Polismeysterliyi.

Müttəfiq dövlətlərin Bakıdakı Polis Komissarlığının mövcudluğu dövründə Azərbaycan Respublikası DİN-nin strukturu belə idi:

-Nazir, vitse-nazir, nazir müavini, Dəftərxana direktoru, vitse-direktor, Baş Şöbə (Baş Şöbə 5 şöbədən ibarət idi: İnşaat Şöbəsi, Hüquq Şöbəsi, Xüsusi Dəftərxana, Polis İnspeksiyası (Müfəttişliyi) və Redaktor Şöbəsi). Qəza və şəhər polismeysterlikləri və polismeysterlər general-qubernatorluqlara, general-qubernatorluqlar (Bakı, Gəncə, Qarabağ, Qazax, Zaqatala, Lənkəran, Naxçıvan, Abşeron) və onların başçıları birbaşa DİN-nin Baş Şöbəsinə tabe idilər və vaxtaşırı hesabat verirdilər. Müttəfiq dövlətlərin Bakıdakı Polis Komissarlığı ləğv edildikdən (1919-cu il martın 30-da) sonra Bakıda polisin strukturu belə idi:

- Azərbaycan Respublikası DİN-ə birbaşa tabe olan Bakı rayonunun Möhkəmləndirilmiş general-qubernatoru (15 fevral 1905-ci ildə yaradılmışdı), inzibati-polis aparatına başçılıq edən Bakı şəhərinin qubernatoru, DİN-ə birbaşa tabe olan Bakı Şəhər Qradonaçalnikliyi (Rusiya Hökumət Şurasının 28 oktyabr və 2 noyabr 1906-cı il tarixli qərarları üzrə yaradılmışdı), ona tabe olan Bakı Polismeysterliyi (Rusiya Hökumət Şurasının 28 oktyabr və 2 noyabr 1906-cı il tarixli qərarı ilə yaradılmışdı), Bakı Xəfiyyə Polisi Şöbəsi (1908-ci il iyulun 6-da yaradılmışdı. Xəfiyyə polisi siyasi xəfiyyə xidmətindən və cinayəkarlıqla mübarizə xidmətindən ibarət idi). 1912-ci ildə Bakı Jandarm İdarəsi nəzdində yeni əsaslarla Bakı Xəfiyyə Polisi Şöbəsi. Çarın 9 dekabr 1867-ci il tarixli fərmanı ilə Bakı Quberniya Jandarm İdarəsi (siyasi polis), 1879-cu ildə isə Yelizavetpol (Gəncə) Quberniya Jandarm İdarəsi yaradılmışdı). Rusiyada 1917-ci ildə fevral inqilabından sonra ləğv edilmişdi). Bakı Polismeysterliyi 10 sahə polis pristavlığına və Liman sahə polis pristavlığına, Balaxanı-Sabunçu Polismeysterliyi (Rusiya Hökumət Şurasının 28 oktyabr və 2 noyabr 1906-cı il tarixli qərarları ilə yaradılmışdı) isə 7 sahə polis pristavlığına bölünürdü. Bakı Polismeysterliyinin yanında Ehtiyat Polisi vardı (1905-ci ildə yaradılmışdı).

2 yanvar 1919-cu il. *"Cənab daxili işlər naziri əvəzi general-mayor Ağabəyova.*

*Əlahəzrətlərinizə təklif edirəm ki, Parlament Komissiyası ilə birgə Sizə həvalə edilmiş iş üzrə Ağdam kəndinə gedəsiniz".*

Daxili İşlər naziri
Xəlil bəy Xasməmmədov.

1919-cu il yanvarın 11-də Bakıda Sanitar Büro Mərkəzi yaradılmışdı. Onun rəhbəri ingilis həkimi idi. Həmin Büroya Azərbaycan Respublikası DİN-nin, Səhiyyə Nazirliyinin, Bakı Şəhər İdarəsinin, Neft Sənayeçiləri İttifaqının və Bakı Mərkəzi Evinin nümayəndələri də daxil olmuşdular...

Qeyd etmək lazımdır ki, Azərbaycan Cümhuriyyəti dövründə polis orqanlarında həmkarlar ittifaqları fəaliyyət göstərmirdilər. Çünki, bu qurumlar bolşeviklərin, eser-menşeviklərin təsiri altında idilər...

...Cinayətkarlıqla mübarizənin metodları və formaları müxtəlif idi. Mübarizə əsasən üç istiqamətdə: kriminal, siyasi və transmilli (ölkədən xaric) cinayətkarlığa qarşı aparılırdı. Bu mübarizədə ingilis polisi ilə əməkdaşlıq da mövcud idi...

1 fevral 1919-cu il. Əmr nömrə 37.
*"Gəncə quberniyasından qayıdan general-mayor Ağabəyov öz vəzifəsinin icrasına başlasın".*

Daxili işlər naziri
Xəlil bəy Xasməmmədov.

1919-cu il fevralın 6-da Azərbaycan Parlamentinin növbəti iclası keçirilmişdi. İclas ölkənin o zamankı çətin vəziyyətində genişlənən möhtəkirliyə qarşı mübarizənin gücləndirilməsi zəruriliyini qeyd edərək, DİN-ə ərzaq məhsullarının gündəlik daşındığı Biləcəri stansiyasından keçən vaqonlara xüsusi nəzarət etməyi həvalə etmişdi.

1919-cu il martın 14-də X. Xasməmədov daxili işlər naziri vəzifəsindən istefa verdiyi üçün Bakıdakı müttəfiq qoşunların Polis Komissarlığı bütün işləri milli polisimizin nümayəndəsinə təhvil verməli idi. Bu şəxs o zaman vitse-ministr olan general-mayor M. Ağabəyzadə olmuşdu. Hərçənd, Azərbaycan hökuməti elə həmin vaxt onu diplomatik işə keçirmək ərəfəsində idi...

21 mart 1919-cu il. General V.Tomson və ingilis baş polis komissarı F. P. Kökkerelin təklifi ilə daşnakların 1918-ci ildə xalqımıza qarşı törətdiyi soyqırımlarını və etnik təmizləmə üzrə hələ 1918-ci il iyulun 15-də yaradılmış Fövqəladə Təhqiqat (sonralar İstintaq) Komissiyasının işi Azərbaycan Cümhuriyyəti DİN-in 4-cü Şöbəsinə həvalə edilmişdi. Həmin şöbənin rəisi Sonazır Taprov idi.

21-30 mart 1919-cu il. Qarabağda Azərbaycan Hökumətinə qarşı çıxan erməni daşnakların dəstələri (onlara İrəvandan gizli gəlmiş Dro (Drostamat) Kanayan və Dəli Qazar) başçılıq edirdilər) Əsgəran (Əsgəran sonralar DQMV-nin ayrıca inzibati ərazi vahidi kimi gəaliyyət göstərmiş, 1930-cu ildə müstəqil rayona çevrilmiş, 1978-ci ilədək Stepanakert rayonu adlandırılmışdı...) yaxınlığında general-mayor Həbib bəy Səlimovun (1881-1920) komandanlıq etdiyi Milli Silahlı Qüvvələrimiz tərəfindən darmadağın edilmişdi. Həmin qüvvələrin tərkibində düşmənə qarşı DİN-nin srutukru olan Xosrov bəy Sultanovun (1879-1947) rəhbərlik etdiyi Qarabağ General-Qubernatorluğunun şəxsi heyəti və DİN-in digər bölükləri də vuruşmuşdular...

30 mart 1919-cu il. Bakıda müttəfiq dövlətlərin Müvəqqəti Polis Komissarlığı öz fəaliyyətini dayandırmış, onun rəisi, polis baş komissarı, polkovnik F. Kökkerel səlahiyyətlərini tərk edərək, yenidən şefi olduğu Xüsusi Müstəmləkə Polisinə başçılıq etmək üçün İrana yola düşmüşdü...



30 mart 1919-cu il. General–mayor M. Ağazadə tərəfindən "Vəzifəli şəxslərin cinayətlərinin təhqiqatı və təhqiqatların səviyyəsinin yaxşılaşdırılması haqqında" təmimnamə (əmr) verilmişdi.

1919-cu il aprelin 5-də Azərbaycan Hökuməti DİN-ə, şəxsən vitse-ministr M. S. Ağabəyzadəyə sərəncam vermişdi ki, Bakı şəhərində təhlükəsizliyi və sakitliyi bərpa etsin. Bu, şəhərə Azərbaycan Ordusunun 1 batalyon piyada, 400 nəfər süvari və 1 batareya hissəsinin gətirilməsi ilə əlaqədar idi. Hərbi hissə qüvvələrinin şəhərə gətirilməsi polisin vəzifəsini çətinləşdirmişdi. Çünki hərbi nazir, tam artilleriya generalı S. Mehmandarov Azərbaycan Nazirlər Şurasının sədri N.Yusifbəyliyə yazdığı raportda bildirmişdi: "... Mən Bakı hərbi qarnizonunda bolşevizm əhval-ruhiyyəsinin genişlənən təsirindən qorxuram".

Qeyd etmək lazımdır ki, Azərbaycanda müttəfiq qoşunların komandanı, general V.Tomson hələ 1918-ci il dekabrın 18-də Şimali Qafqaz xalqlarına müraciətində bəyan etmişdi: "... bolşevizmi məhv etmək bizim ümumi işimizdir. Müttəfiqlər bolşevizmin düşmənidirlər".

Azərbaycan Cümhuriyyəti DİN öz fəaliyyəti ilə müstəqil dövlətimizin demokratik mahiyyəytini təmsil edirdi. Məsələn, Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri vəzifəsini ifa edən general-mayor M. Ağabəyzadənin 28 aprel 1919-cu il tarixli əmrində vətəndaşlara müraciətlə deyilirdi: "... Arzu edən hər kəs, o cümlədən, siyasətlə məşğul olanlar Azərbaycanın hüdudlarından heç bir əlavə vizaya ehtiyac olmadan kənara gedə bilərlər. Bu cür imtiyaz o zamankı siyasi partiyalara və ictimai təşkilatlara da şamil olunur...".

28 aprel 1919-cu il.

*"Cənab daxili işlər naziri əvəzi general-mayor Ağabəyova. Əlahəzrətlərinizdən xahiş edirəm ki, Bakı quberniyasının qəzalarını təftiş edəsiniz. Təftişi Göyçay qəzasından başlamaq məqsədəuyğundur. Təftiş zamanı səhlənkarlıqda təqsirli bilinən vəzifəli şəxsləri işdən azd etmək üçün Sizə geniş səlahiyyətlər verirəm".*

Daxili işlər naziri
Nəsib bəy Yusifbəyli.

8 may 1919-cu il.

Daxili işlər naziri əvəzi, general-mayor M. S. Ağabəyzadə Göyçay və Cavad (Mərkəzi Salyan idi) qəzalarının, Bakı quberniyasının yoxlanması üzrə əmrin yetirilməsi barədə sərəncam vermişdir.

14 may 1919-cu il.

Daxili işlər nazirinə raport.

*"Əlahəzrətlərinizin nəzərinə çatdırıram ki, 8 may xidməti ezamiyyətindən qayıdıb xidməti vəzifəmə başladım"*.

Daxili işlər naziri əvəzi
general-mayor Ağabəyov.

20 may 1919-cu il.

*"Cənab daxili işlər naziri əvəzi general-mayor Ağabəyova. 28 aprel tarixli 2977 saylı sərəncamıma əlavə olaraq əvvəl verdiyim səlahiyyətlər saxlanılmaqla Əlahəzrətlərinizdən Bakı quberniyasının təftiş edilməsini xahiş edirəm. Sizin istəyinizlə Dəftərxanamın şöbə rəhbərlərindən birini və xüsusi tapşırıqlar üçün bir məmuru özünüzlə götürməyinizi təklf edirəm. Xərclər üçün Sizə 100 minlik kreditdən 8 min rubl veriləcək"*.

Daxili işlər naziri
Nəsib bəy Yusifbəyli.

1 iyul 1919-cu il.

Gəncə general-qubernatoruna :

- *"Sizin nəzərinizə çatdırırıq ki, Daxili İşlər Nazirliyinin hər bir zabiti xüsusi formada və çində olmalıdır"*.

Daxili işlər naziri əvəzi
general-mayor Ağabəyov.

30 sentyabr 1919-cu il.

Daxili işlər naziri əvəzi general-mayor M. S. Ağabəyzadə "Zabit heyətinin paltarla təmin edilməsi haqqında" Gəncə qubernatoru Xudadat bəy Rəfibəyliyə və "Hərbi iş, hərbi forma, paqonlar barədə" Azərbaycan Respublikasının hərbi naziri, tam artilleriya generalı S. Mehmandarova məktub göndərmişdir.

1 oktyabr 1919-cu il.

Cənab daxili işlər naziri əvəzi Ağabəyova.



*"Əlahəzrətlərinizə təklif edirəm ki, Amerika xidmətinin generalı cənab Harbortu müşayiət etmək üçün Batuma yola düşəsiniz"*.

Daxili işlər naziri
N. Yusifbəyli.

23 oktyabr 1919-cu il.

Cənab daxili işlər nazirinə.

*"Sizin təkliflərə əsasən Amerika xidmətinin generalı cənab Harbortu qarşılamış, müşayiət etmiş və vəzifəmin icrasına başlamışam"*.

Daxili işlər naziri əvəzi
general-mayor Ağabəyov.

Daxili İşlər Nazirliyinə vits-ministr vəzifəsinə təyin olunduğu ilk gündən Sadıq bəy təşkilat-səfərbərlik məsələləri, polisin bütün strukturlarının maddi-texniki təchizatı ilə məşğul olmağa başlamışdı. Onun ilk təkliflərindən biri Azərbaycan DİN üçün dövlər büdcəsindən ayrılan maliyyə vəsaitinin artrılması barədə idi.

Təyinat. 2 sentyabr 1919-cu il. Daxili işlər naziri əvəzi - vitse-nazir, general-mayor M. S. Ağabəyzadənin əmri ilə ixtisasca hüquqşünas olan Əmir bəy Nəriman bəy oğlu Nərimanbəyov Bakının qubernatoru, Əmir xan Cahangir xan oğlu Xöysaki (1881-1954) isə onun böyük köməkçisi (müavini – İ.Ş.) vəzifələrinə təyin edilmişdi.

1919-cu ilin payızında Bakı quberniyasının təftiş edilməsi haqqında məxfi məlumatları dinlədikdən sonra nazir əvəzi (vitse-ministr) general-mayor M. S. Ağabəyzadə icarəyə verilən dövlət torpaqlarının xüsusi möhtəkirlərin əlinə düşdüyünü, bu cür adamların kənd təsərrüfatı ilə heç bir ümumi əlaqəsi olmadığını DİN-in adından bəyan etmiş və həmin torpaqların ilk növbədə azərbaycanlı kəndlilərə verilməsi təklifini irəli sürmüşdü.

Məhəmməd Sadıq bəyin yaxından iştirakı ilə DİN-in yeni ştatları təsdiq edilmiş, əməkdaşların maaşları artırılmışdı. Belə ki, Azərbaycan Cümhuriyyəti Hökuməti 1919-cu il 20 mart tarixli iclasında DİN-in ştatlarının təsdiqi məsələsinə baxmış və onu geniş müzakirə etmişdi. Bu məsələ ilə çıxış edən hökumətin Büdcə-Maliyyə Komissiyasının sədri Musa bəy Hacı Məmmədhüseyn oğlu Rəfibəyli (Rəfiyev) (Gəncə 1888 - Təbriz 1938) bildirmişdi:

- "1917-ci il Fevral inqilabından sonra baş verən dəyişikliklər ilk növbədə Daxili İşlər Nazirliyinə toxunub. Zaqafqaziya Komissarlığı və sonrakı dövrlərdə də bir sıra dəyişikliklər olub, ancaq DİN-in ştatları indiyədək qanunveicilik qaydasında təsdiq edilməyib ki, bu da onun öz işini normal davam etdirməsinə mane olur. Bakıda əvvəllər qubernatorun, qradonaçalnikin və quberniya İdarəsinin dəftərxanaları ayrı-ayrılıqda mövcud idi. Sonra bu dəftərxanalar bir dəftərxanada birləşdirildi. Qubernator və qradonaçalnik əvvəllər hərəsi bir köməkçiyə malik idilər. İndi Qradonaçalnikdə köməkçinin əvəzinə qubernatorun kiçik köməkçisi vəzifəsi təsis olunur və onun üzərinə gələcəkgə polisə rəhbərlik işi həvalə edilir. Dəftərxananın yanında quberniya İdarəsinin 3 məsləhətçisi, Arxitektura Şöbəsinin rəisi, 1 katib, 2 köməkçi, 1 mühafizə inspektoru, 11 gözətçi və kuryerlər olacaq. Beləliklə, Qradonaçalnikliyin yanında xüsusi tapşırıqlar üzrə 4 məmurun əvəzinə 2 nəfər, 8 kargüzar əvəzinə 4-6 kargüzar köməkçisi əvəzinə 3 və 30 dəftərxana məmuru əvəzinə 20-si qalacaq.

İş həcminin böyüməsi ilə əlaqədar olaraq, polismeysterin ikinci köməkçisi vəzifəsi təsis olunur. Əvvəllərdə bu vəzifəni pristavlardan biri icra edirdi ki, bu da onun birbaşa öz vəzifəsini icra etməsini çətinləşdirirdi. Şəxsi heyət 320 nəfər artırılır. Bunlardan 225 nəfəri piyada və 95-i süvari qorodovoydur. Bakı qəza rəisi vəzifəsi də ləğv edilir və bu qəzanın bütün ərazisi Balaxanı-Sabunçu Polismeysterliyinə birləşdirilir, orada 1 köməkçi olacaqdır. Qorodovoyların sayı da artırılır, 150-dən 200-ə çatdırılır. Bir sıra qəzalarda bu zəruri deyildi, çünki onları mühafizə polisinin zabitləri əvəz edirdi. İndi bu vəzifə də ləğv edilir.

Cavad qəzası (Mərkəzi Salyan idi) (indiki Salyan, Neftçala, Şirvan, Biləsuvar, Sabirabad, Saatlı, İmişli, Beyləqan əraziləri) və Göyçay qəzalarında 2 yeni sahə pristavlığı təsis olunur. Sahə pristavlıqları yanında pristav köməkçisi vəzifəsi də təsis edilir. Bir sıra şəhərlərdə, məsələn, Quba, Salyan və Lənkəranda indiyə kimi cəmi 1 pristav var. İndi yeni layihə üzrə 2-ci pristav vəzifəsi də təsis olunur. Bakı Cinayət–Xəfiyyə Şöbəsi nəzarətçilərinin sayı 10 nəfərdən 15 nəfərə qaldırılır. Agentlərin sayı isə, əksinə, 50 nəfərdən 30 nəfərədək endirilir. Şuşa qəzasının iri Ağdam kəndində pristav vəzifələri təsis edilir".

M. Rəfibəyli sonra sözünə davam edərək, demişdi: " Keçmiş Zaqatala Dairəsi ləğv edilir və quberniya yaradılır. Orada inzibati idarəçiik qubernatordan, onun 1 köməkçisindən, 1 məsləhətçidən, xüsusi tapşırıqlar üzrə 1 köməkçidən, 1 mühəndisdən, 2 kargüzardan, 6 dəftərxana qulluqçusundan, 6 kuryerdən, 6 sahə pristavından və onların 6 köməkçisindən, 6 dəftərxana məmurundan və 6 gözətçidən ibarət olaraq təşkil edilir. Qaxda əvvəllər mövcud olan kənd starşinaları qalır. Zaqatala şəhərinin özündə pristav və 2 nəzarətçi, 15 qorodovoy və 2 kuryer var. Şəriət məhkəməsi də var ki, bu da məhkəmənin sədrindən, 6 üzvdən, 1 kargüzardan, 3 dəftərxana məmurundan və 2 kuryerdən ibarətdir. Quberniyada 1 gözətçi inspektoru, 20 böyük gözətçi və 15 kiçik gözətçi heyəti var (gözətçilər yəni, polis strajnikləri - çar Rusiyası dövründə 19-cu əsrin 90-cı illərində Azərbaycan ərazisində qaçaqçılıq və kəndli hərəkatı genişlənən zaman onunla mübarizə, habelə inqilabı hərəkatı yatırtmaq üçün ayrıca polis komandası - polis strajası (strajnikləri) yaradılmışdı. Polis strajası 1899-cu il avqustun 1-dən fəaliyyətə başlamışdı. Polis strajnkləri uryadniklərə tabe idilər. Srajniklər 1918-20-ci illərdə əsasən Azərbaycanın sərhədlərini qoruyan polis qüvvəsi idi). Hesab olunur ki, Azərbaycan kimi çoxda böyuk olmayan ölkədə qubernatorların vəzifələrinə... ehtiyac yoxdur. Onların ləğvi vasitəçiliyi aradan götürər və Daxili İşləır Nazirliyinin xalqa daha yaxın olmasını asanlaşdırar...

Əmək haqlarının artırılmasına da ehtiyac var. Çünki əməkdaşların maaşı digər nazirliklərlə (məsələn, maliyyə, ədliyyə və s.) müqayisədə çox aşağıdır. Buna görə, DİN qulluqçularının maaşları yeni ştat üzrə 16 dərəcəyə bölünməklə aşağıdakı kimi olacaqdır :

1-ci dərəcə. Bakı qubernatorunun əmək haqqı ayda 3. 600 manat, digər qəzaların qubernatorlrı üçün 3. 000 manat;

2-ci dərəcə. Bakı vitse-qubernatorunun maaşı ayda 2. 700 manat, digər yerlərdə 2. 500 manat;

3-cü dərəcə. Bakı qubernatorunun kiçik köməkçisinin maaşı-ayda 2. 500 manat;

4-cü dərəcə. Bakı polismeysterinin maaşı ayda 2. 300 manat;

5-ci dərəcə. Bakı polismeysterinin böyük köməkçisinin və Xəfiyyə Şöbəsi rəisinin maaşı ayda 1800 manat;

6-cı dərəcə. Qulluqçular – Bakıda 1600, Bakıdan kənarda 1500 manat;

7-ci dərəcə. Qulluqçular –Bakıda 1500, Bakıdan kənar 1400 manat;

8-ci dərəcə. Qulluqçular - Bakıda 1400, Bakıdan kənar 1200 manat;

9-cu dərəcə. Qulluqçular - Bakıda 1300, Bakıdan kənar 1200 manat;

10-cu dərəcə. Qulluqçular - Bakıda 1200, Bakıdan kənar 1100 manat;

11-ci dərəcə. Qulluqçular - Bakıda 110, Bakıdan kənar 1000 manat;

12-ci dərəcə. Qulluqçular - Bakıda 1000, Bakıdan kənar 800 manat;

13-cü dərəcə. Qulluqçular – Bakıda 900, Bakıdan kənar 800 manat;

14-cü dərəcə. Qulluqçular – Bakıda 800, Bakıdan kənar 700 manat;

15-ci dərəcə. Qqulluqçular – Bakıda 550, Bakıdan kənar 600 manat;

16-cı dərəcə. Qulluqçular – Bakıda 550, Bakıdan kənar 500 manat.

M. Rəfibəylinin məruzəsindən dərhal sonra Parlamentdə "Daşnaksütyun" fraksiyasının təmsilçisi Arşak Malxazyan söz alaraq DİN-in müzakirəyə çıxarılmış yeni ştatlarının təsdiq edilməsinin iclasın gündəliyinə salınmasına etirazını bildirmişdi ki, güya bunun hələ vaxtı çatmayıb. Güya bu Parlamentin Əsasnaməsinin 86, 87 və 103-cü maddələrinə ziddir və s. Zatən, burada bir erməni qısqanclığı vardı ...

General-mayor M. S. Ağabəyzadə kabinet adamı deyildi. O, tez-tez yerlərə gedir, ərazi polis orqanlarının təftişində (... M. S. Ağabəyzadə həm də Parlament tərəfindən yaradılmış hərbi hissələri yoxlayan komissiyanın sədri idi) iştirak edir və onlara əməli köməklik göstərirdi. Ümumiyyətlə, general-mayor M. S. Ağabəyzadənin 1918-



20-ci illərdə gənc, müstəqil respublikamızın polis orqanlarının təşəkkülü və inkişaf etdirilməsində müstəsna xidmətləri olmuşdur.

O zamankı çətin və mürəkkəb vəziyyətdə ölkədə sabitliyi qoruya, dövlətçiliyə sədaqətli, cinayətkarlıqla uğurla mübarizə apara biləcək polis orqanları üçün ixtisaslı kadrların hazırlanması Məhəmməd Sadıq bəyi çox düşündürürdü. General Məhəmməd Sadıq bəy islahatçı, yenilikçi idi. Məhz onun təşkilatçılığı ilə hələ 1918-ci ilin payızında Bakıda İçəri şəhərdə qorodovoylar hazırlayan məktəb açılıb fəaliyyət göstərməyə başlamışdı...

1918-ci il noyabrın 15-də daxili işlər naziri vəzifəsini ifa edən M. S. Ağabəyzadə əmr vermişdi ki, Rusiyanın müxtəlif quberniyalarından Azərbaycana gəlib milli hökumətimizə qarşı əks-təbliğat aparmaqla məşğul olmaq üstündə polis tərəfindən həbs olunmuş siyasi dustaqlar – Z. N. Dosser, M. N. Mandelştamm (Lyadov) və F. Aqapov (milliyyətcə erməni idi) həbsdən azad edilib, onların bir daha Azərbaycana qayıtmayacağı şərti ilə noyabrın 17-də Poylu (Ağstafa) stansiyasından öz yerlərinə yola salınsınlar. Əmr icra olunmuş və DİN-in Məhkəmə-İnzibati Şöbəsi bu haqda Məhəmməd Sadıq bəyə ayrıca məruzə hazırlamışdı...

Artıq yuxarıda qeyd olunduğu kimi, 1918-ci il noyabrın 17-dən 1919-cu il martın 30-dək Azərbaycan ərazisində polis orqanlarının idarəçiliyində ikili tabeçilik sistemu vardı. Bu, Bakıda yerləşən müttəfiq qoşin komandılığı və onların Bakıda yaratdığı Müvəqqəti Polis Komissarlığına tabeçiliklə əlaqədar idi. Belə ki, Azərbaycan polisi Respublika DİN-lə bərabər Bakının general-qubernatoru V.Tomsona və Müvəqqəti Polis Komissarlığının rəisi, polkovnik F. Kokkerelə də hesabat verirdi...Vitse-nazir, general mayor M. S. Ağabəyzadə yazırdı ki, Müvəqqəti Polis Komissarlığının, şəxsən komissar F. Kökkerelin əmr və göstərişlərindən birini yerinə yetirmədikdə, o, telefonda zəng edib hətta Azərbaycan Cümhuriyyətinin daxili işlər nazirini həbs edəcəyi ilə hədələmişdi.

1919-cu il martın 29-da müttəfiq qoşunların Bakıdakı Polis Komissarlığı öz fəaliyyətinə xitam vermiş, komissar, polkovnik F. Kokkerel öz səlahiyyətlərini bitirərək İrana getmiş və orada yaradılan Xüsusi Müstəmləkə Polisinin şefi vəzifəsinə təyin edilib fəaliyyətini davam etdirməyə başlamışdı. Müvəqqəti Polis Komissar-

lığının ləğv edilməsi Bakı şəhərində vəziyyətin müsbət təmayüldə dəyişməsinə təsir göstərmiş, ümumilikdə, bütün Azərbaycan polisinə tam nəzarət Azərbaycan Cümhuriyyəti DİN-in səlahiyyətinə keçmişdi. Hərçənd, yuxarıda göstərilən dövrdə Azərbaycan və ingilis polisi arasında əməkdaşlıq təcrübəsi də vardı...

Peşəkar hərbçi general Məhəmməd Sadıq bəy Milli Ordumuzla sıx əlaqədə fəaliyyət göstərir, Azərbaycan Ordusunun formalaşmasında səylərini əsirgəmirdi. O, ordudan fərarilik edənlərə, Milli Silahlı Qüvvələrimizdə pozuntu törədənlərə qarşı xüsusilə amansız idi. Məhəmməd Sadıq bəy Milli Ordumuzda yaranan belə vəziyyətlərə qarşı qəti tədbirlər görürdü. Bunu 1918-ci ilin noyabrında Azərbaycan Respublikasının hərbi naziri, tam artilleriya generalı Səməd bəy Mehmandarovun ("səməd" ərəb sözüdür, "əbədi", "daimi", "əbədiyaşar", "əbədi mövcud olan" deməkdir. Səməd Allahın 99 gözəl adından biridir) daxili işlər nazirinə ünvanladığı aşağıdakı müraciət də sübut edir. (Həmin vaxt M. S. Ağabəyzadə hökumətin qərarı ilə rəsmən daxili işlər naziri vəzifəsində sayılan B. Cavanşirin əvəzinə daxili işlər vəzifəsini daşıyırdı. B. Cavanşir isə yaranmış zərurətlə əlaqədar olaraq, ancaq sənaye və ticarət naziri vəzifəsini aparırdı). Məktub - müraciətdə deyilirdi:

- Zati-Aliləri Azərbaycan Respublikasının Daxili İşlər
Naziri Cənablarına!
Noyabr, 1918-ci il.

*Hərbi xidmətə yeni çağırılmış əsgərlər arasında, hələ türk komandanlığı vaxtından başlanmış fərarilik indi də davam edir.*

*Əvvəllər buna əsaslı səbəblər var idi: - məsələn, pis qida, geyim və ayaqqabının verilməməsi, ən başlıcası isə, türk rəisləri gənc əsgərləri amansızcasına döyürdülər. İnd Silahlı Qüvvələrə komandanlıq mənə taqşırıldığı bir vaxtda, hərbi hissələrdə xidmət şəraiti əhəmiyyətli dərəcədə dəyişilmişdir, qida yaxşılaşmış, geyim və ayaqqabı verilir, döyülməyə gəldikdə isə, türk komandanlığı vaxtında tətbiq olunan döymələrin qanun qarşısında bütün möhkəmliyi ilə məsuliyyət daşımaq qorxusu altında gələcəkdə təkrar olunmaması barədə ciddi sərəncam verilmişdir və buna hissə komandirləri nəzarət edirlər. Lakin bütün bunlara baxmayaraq, yuxarıda qeyd et-*



*diyimiz kimi, fərarilik davam edir. Mənim aydınlaşdırdığıma görə, bunun başlıca səbəbləri aşağıdakılardır:*

*- Birincisi, türk hərbi rəislərinin orduya yeni əsgərləri qeyri-düzgün və qeyri-bərabər qəbul etməsidir. Onlar çəkinmədən, açıq surətdə rəhbərlik tərəfindən yeni əsgərləri qəbul etmək üçün verilən təlimatlara məhəl qoymur, orduya öz istədikləri kimi, xüsusilə, pul verib qurtula bilməyənləri yığırdılar. Heç bir varlı, tacir oğlu hərbi xidmətə çağırılmamışdır. Hərbi hissələrdə bəy uşaqları da yoxdur. Onlardan bəzisi praporşiklər məktəbində oxuyurlar, buraya isə öz arzuları ilə daxil olmuşlar.*

*İkincisi, beləliklə, hərbi mükəlləfiyyətin bütün ağırlığı kasıbların çoxluğuna görə kənd cavanlarının üzərinə düşmüşdü, vəzifəli şəxsləri çağırışçıların siyahısını tərtb edərkən buraya çox kiçik yaşlıları, ya da artıq yaşı keçmişləri salırdılar ki, bu da hərbi idarələr tərəfindən yeni əsgərlərin çağırışı zamanı müəyyən edilmişdir.*

*Üçüncüsü, çağırışçıların siyahılarının düzgün tərtib edilməsinə nəzarət etməyə borclu şəhər və qəza polis məmurları bu vəzifə borclarına başdansovdu yanaşmış və bu cəhətdən cinayət işlətmişlər. Fərarilik, Quberniya İdarəsi tərəfindən bir neçə dəfə xatırladılmasına baxmayaraq, polis məmurları tərəfindən təqib edilmir. Bunun nəticəsində fərarilər açıqca küçədə görünür, evlərində sakitcə yaşayırlar. Onların sırasına Yelizavetpol (Gəncə) quberniyasından xidmətə çağırılmış, türk hökumət orqanları tərəfindən hərbi hissələrdən buraxılanları da daxil etmək lazımdır. Onlar könüllü olaraq hərbi rəislərin qəbuluna gəlmək istəmirlər. Nəhayət, məndə olan məlumatlara görə, polis keşikçi dəstələrində və qorodovoyluqda xidmətdə çoxlu çağırış yaşlı gənclər var ki, bunlar isə buraya yalnız üzərlərinə düşən hərbi mükəlləfiyyətləri yerinə yetirməkdən boyun qaçırmaq məqsədilə daxil olmuşlar. Bundan başqa, polis xidmətində hətta fərarilər də vardır.*

*Bütün bu təəssüf ediləcək hallar çağırışçılara ziyanlı təsir göstərir, onlar hərbi rəislərin, kəndin vəzifəli şəxslərinin və polis məmurlarının qanunsuz hərəkətlərindən qəzəblənir və fərariliyin təqib olunmadığını gördüklərindən xidmətdən qaçırlar. Hissələrdə məişətin yaxşılaşdırılması üçün görülən tədbirlər fərarilik axınının qarşısını ala bilmir.*

*Yuxarıda qeyd etdiklərimi bildirməklə, Zati-aliləri, Sizdən xidmətə yeni əsgərlərin çağırışı zamanı buraxılan bütün nöqsanların aradan qaldırılması üçün, fərarilərin tutulub saxlanılmasında polis məmurlarının qəti tədbirlər görülməsini onların üzərinə qoyan, bu xidməti borcundan boyun qaçıranları məhkəməyə vermək kimi təsir vasitələrindən istifadə etməyə imkan verən təcili sərəncam verməniz xahiş edirəm. Əvvəllər tərtib olunmuş siyahıların, onlarda səhvlər aşkar edildiyinə görə, yenidən tərtib olunması vacibdir və yeni - yoxlama çağırış zamanı qeyri - bərabər qəbula, siniflər və əhalinin maddi cəhətdən vəziyyəti arasında fərq qoyulmasına yol vermək olmaz.*

*Yaranmış vəziyyətin aradan qaldırılması üçün əgər təcili tədbirlər görülməzsə, hərbi hissələrin komplektləşdirilməsini qeyri-müəyyən vaxtadək ləngidə bilər ki, bu da tezliklə öz ordusunun yaranması ehtiyacında olan, təşviqat xarakterli çıxışlarla daxili sabitliyin qərəzli şəxslər tərəfindən pozulduğu, quldur dəstələrinin yarandığı bir ölkəyə böyük bədbəxtliklər gətirə bilər.*

*Sizdən sonrakı sərəncamınız haqda məni xəbərdar etməniz xahiş edirəm.*

Tam artilleriya generalı
Səməd bəy Mehmandarov.

***Haşiyə:*** Müraciəti özünün 1997-ci ildə nəşr etdirdiyi "Tam artilleriya generalı Səməd bəy Mehmandarov" adlı kitabına daxil etmiş hörmətli qələm dostumuz, hərb tariximizin yorulmaz tədqiqatçısı, istefada olan polkovnik-leytenant Şəmistan Nəzirlı yazırki, bu məktub daxili işlər naziri Məhəmməd Həsən Haçınskiyə göndərilmişdir (bax: səh.77). Lakin sayğılı həmkarımız görünür, bir qədər dəqiqzsizliyə yol vermişdir. Belə ki, məktubun göndərildiyi vaxt (noyabr 1918-ci il) Azərbaycan Respublikasının daxili işlər naziri M. H. Hacınski deyildi, o, ölkənin xarici işlər naziri idi. M. H. Hacınski Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri vəzifəsində 1919-cu il dekabrın 24-dən 1920-ci il fevralın 15-dək işləmişdir. Məktubun göndərildiyi vaxt artıq yuxarıda göstərdiyimiz kimi, Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri vəzifəsini, vitse-ministr, general - mayor M. S. Ağabəyzadə daşıyırdı və məktub da məhz ona ünvanlanmışdı...



... 1919-cu ilin iyununda general M. S.Ağabəyzadə ilə hərbi nazir S. Mehmandarov arasında "ixtilaf" yaranmışdı. Bu, S. Mehmandarovun Azərbaycan Cümhuriyyətii Dövlət Müdafiə Komitəsinin (DMK) sədri və Azərbaycan hökumətinin başçısı N.Yusifbəyliyə yazdığı məktubla əlaqədar idi. Məktubda deyilirdi: "Hərbi Əks-Kəşfiyyat İdarəsinin vəzifəsi ölkənin daxilində hərbi casuslara qarşı mübarizə aparmaqdan ibarətdir. Bolşevizmlə mübarizə ümumxalq işidir. Təkcə hərbi hissələrlə bu vəzifənin öhdəsindən gəlmək mümkün deyildir. Rus ordusunun dairə qərargahlarının əks-kəşfiyyatlarının təcrübəsi göstərir ki, hətta böyük miqdarda pul vəsaiti ayrılsa belə, hərbi müəsisələrdə axtarış işini apara bilən xüsusi təcrübəli icraçılar və işçilər olmadan bu incə və mürəkkəb işi qaydaya salmaq mümkün deyildir. Buna görə də, bolşevizmlə mübarizə aparmaq üçün Bakı Axtarış Polisini buna cəlb etməyi məqsədəmüvafiq hesab edirəm".

S. Mehmandarov bu işdə birgə fəaliyyət göstərə biləcək təhlükəsizlik orqanlarının sxemini də təqdim etmişdi. Həmin sxem belə idi:

- Azərbaycan Cümhuriyyəti DMK. Onun Əks-Kəşfiyyat İdarəsi. DMK-ya tabe olan DİN-in Əks - Kəşfiyyat orqanı (Şöbəsi);
- DMK-nın Kəşfiyyat İdarəsi. Ona tabe olan strukturlar - Hərbi Nazirlik, Səfirlik;
- Xarici İşlər Nazirliyi. Onun strukturları – Hərbi Attaşe, Sərhəd Xidməti, Sərhədyanı ərazilər.

Bu sxem üstündə M. S. Ağabəyzadə ilə S. Mehmandarov arasında fikir ayrılığı yaranmışdı. Belə ki, Məhəmməd Sadıq bəy gizli (siyasi) polisin yaradılmasını zəruri hesab etmirdi (**QEYD**: Orta əsrlərdə, Ərəb Xilafəti dövründə (750-1258) "şurta" adlanan gizli siyasi polis var idi. Onun rəisi "Sahib-əs-Şurta adlanırdı. Bu, Məhəmməd Sadıq bəyə məlum idi). DMK-nın sədri və hökumət başçısı N.Yusifbəyli həmin məsələyə münasibətdə S. Mehmandarovu müdafiə etmişdi. O, gəncəli Nağı bəy Şeyxzamanlıya (1883-1967) müraciət edib bildirmişdi: "... Biz əksinqilabla mübarizə üçün təşkilat yaratdıq. Səni bu təşkilatın rəisi təyin etmək istəyirəm". Nağı bəy cavabında bildirmişdi: o razıdır, ancaq bir şərtlə ki, heç kəs mənim işimə müdaxilə etməyəcək. Nəsib bəy də öz növbəsində

demişdi ki, bu təşkilat Daxili İşlər Nazirliyinə deyil, Baş nazirə tabe olacaq ".

Azərbaycan Respublikasının Milli Dövlət Arxivində M. S. Ağabəyzadənin imzaladığı polisin təşkili və fəaliyyətinə dair 10-dan artıq sənəd: əmrlər və raportlar vardır. Həmin sənədlərdən bəlli olur ki, general-mayor M. S. Ağabəyzadə həqiqətən daxili işlər nazirinə bərabər vəzifəni icra etmişdir (mənbələrdə və rəsmi sənədlərdə onun barəsində "müavin" sözü işlədilmir), ona "cənab daxili işlər naziri", - deyə müraciət olunmuşdur... Azərbaycan Respublikasının "Dövlət qərarları" (reyestr) jurnalından:

"- Eşidildi: - Daxili işlər nazirinin təqaüdə çıxması barədə.

- Qərar: - Daxili işlər naziri yoldaş general-mayor Sadıq bəy Ağabəyzadənin təqaüdə çıxması qəbul edilsin.

23 yanvar 1920-ci il".

... General-mayor M. S. Ağabəyzadə Azərbaycan Parlamenti və Hökumətinin tapşırığı ilə 1919-cu il oktyabrın 4 - 10 arasında Batumidə (Gürcüstan) ezamiyyətdə olmuş, ABŞ prezidenti Vudro Vilsonun elçisi, general Ceyms Harbortu (21 mart 1866 - 20 avqust 1947) qarşılamış, Azərbaycana müşayiət və mühafizə etmişdi. Bu fakt ilk müstəqil milli dövlətimizin hələ o vaxt Amerika ilə mövcud olmuş əlaqələrindən xəbər verir... C. Harbort general Məhəmməd Sadıq bəyin müşayiəti ilə Bakıya gəlmiş, məşhur milyonçu mesenat Hacı Zeynalabdin Tağıyevin (1823-1924) evində gecələmişdi. ("hacı" ərəb sözüdür, hər hansı şəxsin adının əvvəlində deyilir. "Hacı" Səudiyyə Ərəbistanında müqəddəs Məkkə şəhərindəki Kəbəni ziyarət edən müsəlmanlara verilən dini addır. Həmin adı öz xeyriyyəçilik və savabkeş əməlləri ilə doğruldan Hacı Zeynalabdin Tağıyev 1823-cü il yanvarın 25-də Bakıda İçərişəhərdə anadan olmuş, 1924-cü il sentyabrın 1-də Mərdəkandakı mülkündə 101 yaşında vəfat etmişdir).

...General C.Harbortun şərəfinə yüksək səviyyəli mərasim düzəldilmişdi. Azərbaycan Parlamenti üzvlərinin də iştirak etdiyi mərasimdə general C. Harbort qısa müddətdə ünsiyyətdə olduğu general-mayor M. S. Ağabəyzadənin sağlığına şəxsən badə qaldırmış və demişdi: "... Məni təəccübləndirir ki, Azərbaycan Daxili İşlər Nazirliyində belə bir yüksək səviyyəli şəxsiyyət vardır... ".



General-mayor M. S. Ağabəyzadə Azərbaycan milli müstəqil polisimizin təşəkkülü və inkişafında, onun hüquqi bazasının, normativ qanunvericilik aktlarının hazırlanmasında mühüm xidmət göstərmişdir. M. S. Ağabəyzadə tərəfindən hazırlanmış və fəaliyyət üçün qəbul edilmiş "Polis idarələrinin təşkili haqqında", "Polis Departamenti haqqında", " Ümumi, qəza və şəhər polisi haqqında" və s. kimi normativ sənədlər bu qəbildəndir. M. S. Ağabəyzadənin hazırladığı Azərbaycan Cümhuriyyəti polisində islahatlar konsepsiyası xüsusilə əhəmiyyətli olmuşdu. Bu konsepsiya üzrə polis orqanlarında islahatların həyata keçirilməsi 3 mərhələdə nəzərdə tutulmuşdu. Birinci mərhələ 1918-ci ilin iyulundan həmin ilin dekabrınadək olan dövrü əhatə edirdi. Buraya daxil idi:

- polisin milliləşdirilməsi;
- daxili işlər orqanları üçün kadrların hazırlanması;
- polis orqanlarının bütün strukturlarının yenidən qurulması.

İkinci mərhələyə aşağıdakılar daxil idi:

- polis təşkilinin daxildən planayuğun surətdə gücləndirilməsi;
- Bakı polisinin qatı cinayətkarlıqla, habelə siyasi və transmilli (ölkədənkənar) cinayətkarlıqla mübarizədə müttəfiq dövlətlərin müvəqqəti Polis Komissarlığı ilə əməkdaşlığı və birgə əlaqəli fəaliyyəti;
- Ayrı - ayrı polis məmurlarının vəzifə cinayətləri və sui-istifadə, həmçinin inzibati pozuntu halları ilə mübarizənin səmərəliliyinin artırılması, bu işin təkmilləşdirilməsi.

Üçüncü mərhələ aşağıdakıları əhatə edirdi:

- bütün polis qüvvələrinin respublika DİN-in əlində mərkəzləşdirilməsi;
- Bakı və Balaxanı-Sabunçu polisinin respublika DİN-ə tabeçiliyinin başa çatdırılması;
- ölkədə qanunçuluğun və ictimai asayişin gücləndirilməsi;
- vətəndaşların şəxsi təhlükəsizliyinin və əmlakının qorunmasının təmin edilməsinin gücləndirilməsi ; vəzifə cinayətləri ilə mübarizənin artırılması;
- yerlərdə polis işinin (xidmətinin) təşkili və inkişaf etdirilməsində qubernatorlara və qəza rəislərinə ən geniş səlahiyyətlərin verilməsi.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşeviklərin təzyiqlərindən yaxa qurtarmaq üçün M. S. Ağabəyzadə 1920-ci il noyabrın 22-də İstanbula gedib orada bir müddət görkəmli mütəfəkkir, tərcüməçi, jurnalist, ədib, həkim və rəssam olan Əli bəy Hüseynzadənin ("Turan") (1864, Salyan - 1940, İstanbul) yanında yaşamışdı. Əli bəy onun əmisi oğlu idi. Özünün övladı olmadığından Əli bəyin övladlarına xüsusi məhəbbətlə yanaşırdı... Məhəmməd Sadıq bəyin taleyi uğurlu olmayıb... M. S. Ağabəyzadənin həyat və fəaliyyətinin elmi tədqiqatçısı, filologiya üzrə fəlsəfə doktoru Gülər Abdullabəyova yazır ki, Məhəmməd Sadıq bəy hələ Türkmənistanda xidmət edərkən, orada Aişə adlı bir özbək qızı ilə ailə həyatı qurmuşdu. Lakin Aişə cavankən rəhmətə getmişdi...

Məhəmməd Sadıq bəy 1921-ci ilin əvvəlində İstanbuldan Parisə getmək istəyərkən maneələrlə rastlaşmışdı. Fransaya Yunanıstandan keçərək getmək lazım idi. Onun Fransaya getmək cəhdi Türkiyə - Yunanıstan müharibəsi dövrünə təsadüf etdiyindən, sərhədi keçərkən yunan əsgərləri sənədlərini və ali məktəbi bitirməsini təsdiq edən diplomunu əlindən almışdılar. Əlində heç bir rəsmi sənədi olmayan Məhəmməd Sadıq bəy Fransada çox acınacaqlı həyat tərzi keçirmişdi... Bu haqda Məhəmməd Sadıq bəyin Əli bəyə yazdığı məktublardan və Əli bəyin ona ünvanladığı 2 cavab məktubundan bəlli olur (Ümumiyyətlə, Sadıx bəyin Əli bəyə və digər şəxslərə yazdığı 31 məktub Salman Mümtaz adına Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində hifz olunur). Bu məktublarda general-mayor M. S. Ağabəyzadənin sırf hərbçi olmaqdan savayı, həm də yüksək mədəniyyət və elm sahibliyi aydınlaşır...

Azərbaycan İstiqlal Muzeyində (keçmiş V. Lenin adına muzey) Sadıq bəyin həyatının mühacirətdə keçirdiyi hissəsinin qayğıları və düşüncələri öz əksini tapmışdır... Bunlar insanın ən ağır şəraitdə belə bəşər övladına nümunə ola biləcək həyat yolunun keşməkeşləridir... Diqqətə, hörmətə və təqdirə layiq, həmdə örnək olan həmin ömrün bəzi anlarını Sizlərə təqdim etməyi də özümə borc bilirəm.

1921-ci ildən Parisdə yaşayan M. S. Ağabəyzadə orada ilk öncə öz həmvətənləri ilə əlaqə yaratmaq istəyirdi. Lakin keçirdikləri sarsıntılar, düşdükləri yeni şərait, vəziyyətlərinin qeyri-müəyyənliyi, inamsızlıq, qorxu hissi əksər mühacirləri pərakəndə salaraq



onları tənhalığa düçar etmişdi. Odur ki, onları tapıb ünsiyyət bağlamaq da çətin idi...Vətəndən uzaqda çox darıxan, günbə-gün özünə iş tapmaq ümidilə yaşayan Sadıq bəy bir-birinə bənzər yalqız günlərinin acı dəqiqələrində yaşadığı evin yaxınlığındakı "Lamartin" bağçasına gedir, skamyada oturur, uşaqların şən oyunlarına baxaraq fikrə dalır, qayğısız uşaqlıq anlarını xatırlayırdı...

... Sadıq, oğlum, çaya getmə ha, batarsan... Yox, anacan, mən burada nar bağında olacam. Gör, bir nar ağacları nə gözəl çiçəkləyib... Payız xəzəlinin xışıltısı onu fikirlərindən ayırır. Xəzan ətrafı təbiətin bütün rənglərinə boyamışdı. Havada insanın içinə yayılan gözəl bir təmizlik var idi... Bəli, Paris onun bənzərsiz Bulon meşəsi ilə çox gözəldir, fəqət, qulaqlarıma nə üçünsə hər an öz çinarlarımızın pıçıltısı gəlir... Vətən... Adını çəkməyə qorxduğum Vətən..., başı bəlalı Vətən... Görəsən, Ankarada vəziyyət necədir? Qəzetlər yazır ki, yunanlar Ankaraya yaxınlaşırlar... Bakıda da aclıqdır... İşə düzələ bilsəydim. Belə getsə, vəziyyətim çox pis olacaq...

...Yenə həmin bağça, həmin skamya. Havalarda çox soyuqdur. Uşaqlarda həmişəki kimi bağçada oynayırlar. Onlar necə də şən və qayğısızdırlar. Bu qızcığazın saçları necə də Aişə xanımın saçlarına bənzəyir... Nə yazıq ki, bizim övladımız olmadı... Onun da belə saçları ola bilərdi... Görəsən, qardaşlarım nə edir? Onlar üçün lap burnumun ucu göynəyir. Sən demə, insan darıxanda burnunun ucu həqiqətən göynəyir... Onları, heç olmasa, ölüm ayağında görə bilsəydim... Pulum da qurtarmaq üzrədir. İşə düzəlməsəm, gərək, yaşayışı ucuz olan başqa şəhərə köçüm... Ah, nələr olur bu həyatda... Allah insanlara sözünə görə deyil, əməllərinə görə qiymət verir. Nə zamansa hər şey düzəlməlidir... Onda hamımız - Əli bəy, qardaşlarımız, uşaqlarımız köhnə vaxtlardakı kimi Göyçaya gedərik... Görəsən, çinarlarımız indi nə boydadır?... Cəfər bəy də öldü. Heyif, onun kimi təvazökar və yaxşı adamdan. Əgər insan ölüm haqqında hər zaman düşünsə idi, həyat daha gözəl olardı, bu qədər məkr, bu qədər cinayət olmazdı...

...Artıq qışdır. İşə düzəlmək haqqında bütün ümidlərim boşa çıxdı. Bəlkə, Almaniyaya gedim?... Orada yaşamaq nisbətən ucuzdur. Maddi imkanım tamamilə əriyir. Axır ki, nə isə etməliyəm. Görəsən, Vətənə nə vaxt qayıda bilərəm?... İnsan taleyinin qəribəliyinə bax...

Vətənə ən yüksək amalla xidmət arzusu ilə yaşayan anda, onu tərk etmək məcburiyyəti qarşısında qalasan... Görəsən, bu vəziyyət nə qədər davam edəcək?... Bu gecə yuxuda yenə uşaqlıq çağlarımı gördüm... Ürəyim yaman ağrıyır...Vətən, həsrətin necə də içimi göynədir.

Qürbət elə getdim, geri dönülməz. Kimlər ölüb, kimlər qalıb, bilinməz. Ölsəm, qürbət eldə, gözüm yumulmaz. Atam, anam, ağlayanım yox mənim...

...1922-ci ilin yazında Sadıq bəy vaxtilə Şərq Dilləri İnstitutunda təhsil aldığı zaman həmkarı olmuş baron Novenin Nitsanın (Fransa) yaxınlığında yaşadığını öyrənib ona məktub yazdı və bir işə düzülməsinə köməklik göstərməsini xahiş etdi. Baron Noven rus ordusunun polkovniki olmuşdu... Fransız, ingilis, alman və fars dillərini mükəmməl bilirdi. 1900-cü ildə o, Bakıda qubernatorun yanında xidmət etmiş və burada olduğu müddətdə İslama dərindən inanaraq, müsəlmanlığı qəbul etmişdi. Rusiya qanunları ilə o zaman dinini dəyişən adamlar cəzaya məruz qalırdı. Buna baxmayaraq, baron Noven bu işi tutmuşdu. Onun dinini dəyişməsi haqqında rəhbərliyə xəbər çatsada, bu hadisənin ağlasığmaz olduğu üçün ona əhəmiyyət verməmişdir. Baron Noven özünə "Mənsur Nikolay-Muktusu oğlu" adını götürmüş və şəriət qanunlarına ciddi riayət edərək müsəlman kəsməyən əti yeməzdi. O, müsəlmanları, xüsusilə, türkləri çox sevir, özünü onların təbəəsi hesab edirdi. Sadıq bəy baron Novenin onu lütfükarlıqla Nitsaya dəvətindən ürəklənərək 1922-ci ilin baharında oraya yola düşmüşdü. Bir müddət baron Novenin yanında qalan Sadıx bəy, ev sahibinin qonaqpərvərliyinə baxmayaraq, başqa evə köçmüşdü...

...Yenə Ramazan bayramı gəldi. Keçən il bu vaxt mən İstanbulda Əli bəyin ailəsilə birlikdə idim. Ondan bir il öncə isə... Ah, bu tənhalıq məni necə də üzür... Görəsən, Bakıda bu il Ramazan bayramını necə keçirirlər? Nə yaxşı ki, Nitsaya gəldim. Almaniyada da bahaçlıqdır, yaşamaq dözülməz olub. Burada isə puluma xeyli qənaət edə bilərəm, hələ bəlkə də iş tapa bilərəm. Görəsən, qardaşlarımdan İstanbula gələn olacaqmı? Görəsən, bu mümkündürmü? Görəsən, Bakı ilə məktublaşa bilərəmmi?... Bu, təhlükəli olmazmı?

...10 sentyabr 1922-ci il. Bu gün nə gözəl gündür. Türk ordusunun misilsiz hərbi möcüzəsi - azğın düşməni doğma torpaqlardan qovub çıxarması məni nə qədər sevindirir. Bu sevincimi bölüşmək üçün bir adam da tapa bilmirəm. Kaş ki, doğma xalqımın bu misilsiz qələbəsi günü İstanbulda olardım və var səsimlə : " Yaşasın ,Türkün əsgəri!", - deyərək bağırardım. Allaha çox şükür! Dörd ilin nigarançılığına, həyəcanına axır ki, son qoyuldu. Türkiyənin adı və şərəfi nəinki müsəlman aləminə, bütün dünyaya yayıldı. Nə gözəl bir qələbə!

... Bu gün Lozanna (İsveçrə) konfransı açılır. Allahım, Sən türklərin tam qələbəyə nail olmasına kömək ol!... Əli bəyin şerləri böyük hadisılərdən xəbər verərək məni ruhlandırır. Nə yaxşı ki, mənim tənha, işsiz, üzücü həyatımda Əli bəyin məktubları var... İstanbul... Dünyanın gözü İstanbul... Kaş ki, mən də indi Əli bəy kimi sənin dar küçələrini dolaşardım... O il Əli bəyin evində mənim üçün ayrılmış aşağıdakı otaqda hər gün axşam yeməyindən sonra böyüklü-kiçikli manqalın ətrafında toplaşıb isti kofe içərdik, böyük söhbətlər edərdik. Əhdiyə xanım, Səadət xanım, Məmməd Səlim, Səidə, Əndəlib xanım, Feyzavər xanım... Nə gözəl günlər idi o günlər... Əli bəy yazır ki, uşaqlar məni tez-tez xatırlayırlar. Görəsən, onlar yenə də düşünürlər ki, mən onların "atasıyam?"... Mən də sizi xatırlayıram, əzizlərim... O zaman kim bilərdiki, mən qürbətdə bu qədər acılı-ağrılı, tənha günlər keçirəcəm. Torpağına qurban olum, Vətən!... Hər şeyin bir ölçüsü var, amma, görünür, Vətən həsrətinin ölçüsü yox imiş. Yenə də anamın ılıq nəfəsini hiss etdim... Deyəsən, yavaş-yavaş ağlımı itirirəm... İşsizlik məni lap üzür. Günbəgün maddi imkanlarım tükənir... Bəlkə, Əli bəy mənə İstanbulda bir iş tapar...

...Bu gün mənim doğum günümün 58-ci ilidir. Nitsada artıq qar ərimək üzrədir. Budaqların başında əmələ gələn yaşıl tumurcuqlar, havadakı oyanan torpağın ətri mənə Azərbaycanı xatırladır... Görəsən, gözlərimi yumsam, özümü ani də olsa orada hiss edə bilərəmmi? Yox... Hanı təndirin iyi? Bu vaxtlar anam Novruza hazırlıq görərdi. Şəkərbura, paxlava üçün qoz-fındıq təmizlənər, hər şey sahmana salınardı. Biz də əl-ayağa dolaşardıq... Qablarda səməninin zərif cücərtiləri baş qaldırar, tonqallar qalanardı. Olmuşmuydu bu günlər?... Bu ixtiyar çağımda tənhalıq, işsizlik, ehtiyac nə qədər ağır gəlir... Görəsən, Əli bəyin məktubu niyə gecikir?... Əgər aksiyalarımdan bir şey alınmasa!... Bu barədə tələsmək lazımdır, bir həftə-

dən, bir aydan sonraya qoymaq olmaz... Bu iş alınmazsa, mənim həyatım daha dəhşətli olacaq...

... Bu gün Əli bəyə 12 bənd sualdan ibarət məktub yazdım. Onların yarısına cavab vermiş olursa, Azərbaycandakı vəziyyətdən məlumatım olacaq. İçimdəki həyəcanla bacara bilmirəm. Bir yandan da yuxumun pozulması, iştahamın itməsi... Təkcə xəstəlik olmasın, ölüm haqdır. Allah məni xəstəlikdən qorusun, çünki mənim vəziyyətimdə bu, böyük bədbəxylik olardı. Əli bəy mənə İstanbulda heç olmasa, lap əhəmiyyətsiz, az məvacibli bir iş tapa bilsəydi... Məhəmməd Əmin Rəsulzadənin mənə "Azərbaycan tarixi" kitabını göndərməsi dünyanın hər hansi bir yerində olsaq da, bizim ürəklərimizin bir döyünməsini, Azərbaycan haqqında düşündüklərimizin eyni olması və həsrətimizin nə qədər dərindən çəkilməsini bir daha göstərdi.

... Ramazan. Əli bəydən aldığım təbrik məktubu mənim kimsəsizlik və qəriblik hisslərimi bir az yumşaltdı. Görəsən, insanın xoşbəxt olması üçün nə lazımdır?... Yuxularımın qaçdığı, əsəblərimin gərildiyi, həyəcanımın dolub-daşdığı bir zamanda xoşbəxtlik haqqında düşünməyə ixtiyarım varmı? Vətəni tərk edib, yaxınlarını, doğmaları görməyən adam və hətta son ümidini - onlarla məktublaşmaq ümidini itirmiş bir adam xoşbəxtlik haqqında düşünə bilərmi? Nə qədər dözülməz vəziyyətdir... Mən nə üçün yaşayıram?... Kim üçün? ... Tənhalıq və boşluqdan başqa ətrafımda heç nə yoxdur. Heç kimə lazım olmayan mənim bu cür mənasız həyatım heç özümə də gərək deyil...

Görəsən, azərbaycanlılardan daha kimləri qətlə yetiriblər?

... Əli bəydən məktub almasaydım, Qurban bayramını tamamilə unutmuşdu. Yad bir ölkədə tənha yaşayan adam üçün bu cür unutqanlıq təəccüblü deyil. Nostalaji xəstəliyi ilə artıq hər keçən gün yeni gələn günə bənzəyir. Ehtiyatlarım bitmək üzrədir. Markaların qiyməti sıfıra enir. Özümü qısmaqdan təngə gəlmişəm. Bahardan gec olmayaraq, bir iş tapmasam, çıxılmaz vəziyyətə düşəcəyəm. Burada iş tapmaq ağlasığmazdır. Yeganə ümid yerim Türkiyədir. Uzun zaman əzablı günlər görmüş sevimli Türkiyəmizin nəhayət ki, tufanlardan çıxaraq sülhə qovuşması və yeni həyata başlaması nə qədər sevindirici haldır.



... Əlli doqquz yaşında tələbə ola biləcəyim heç ağlıma gəlməzdi. Altı ay keçməsinə baxmayaraq, mən indi fransız dilində rus dilindəki kimi səhvsiz yazıram. Türk, rus və fransız dillərindən dərs verdiyim elana cavab verən olsa, bu acınacaqlı vəziyyətdən canımı qurtararam...

Beləcə, yaşamışdı general-mayor M. S. Ağabəyzadə. Cəsarət, ağıl, qətiyyət tələb edən hadisələrlə dolu həyatı ona ən sıxıntılı anlarda ruhdan düşməyə imkan verməmişdi. Ümidlərini itirə-itirə yaşayan Məhəmməd Sadıq bəy ən çətin dəqiqələrində belə Allaha inamını itirməyib. Bəndələrinin köməyinə isə hər zaman çatan qüdrətli Allah ona həyat ümidini qaytarır.

Əziyyətlərinin həddinin son məqamında Məhəmməd Sadıq bəy bir məktub alır .

Azərbaycanda yaşadığı zaman Sadıq bəyi yaxından tanıyan Lvov Şərq Dilləri İnstitunun müdiri, şərqşünas Ziqmunt Smoqorjevski 1926-cı ilin axırında onu Şərq dillərindən dərs demək üçün Polşaya Lvov Universitetinə dəvət edir (indi Ukraynanın olan Lvov şəhəri o vaxt Polşanın tərkibində idi ) ...

... Mərhəmətli Allahım! Səndən çox razıyam! Lvov Universitetində türk və fars dillərində mühazirə oxumağım məni məmnun edir. Aldığım məvacib sadə yaşayışım üçün bəsdir. İmkan olsa, gələn il yay tətilində Türkiyəyə də gedə bilərəm. Doğma dilim üçün nə qədər darıxmışam. Nə yaxşı ki, dərslərdə türk mətnlərini tərcümə edirik, yoxsa, adam özünü dünyadan lap təcrid olunmuş hiss edər. Gərək, Əli bəyə deyəm ki, məktublarını türkcə yazsın...

M. S. Ağabəyzadə ensiklopedik biliyə malik görkəmli mütəfəkkir idi, şərqşünas-alim, professor, orientoloq (türk, fars və ərəb dili mütəxəssisi), həmçinin poliqlotçu (çox dil bilən) idi. Ona fenomen şəxs də demək olardı. O, Parisin, Varşavanın görkəmli ali məktəblərində, həmçinin 15 il Lvov Universitetində dərs deyib. Onun Şərq fəlsəfəsinə və dilçiliyinə dair qiymətli elmi əsərləri qalmışdır. Bu əsərlərdən bəzilərinin əlyazmaları Varşavada və Aşqabaddadır. Məhəmməd Sadıq bəy " Qurani Kərim "in rus dilinə tərcümə edilməsinin də təşəbbüsçülərindən olmuşdur. "Quranda" rus dili nəşrinə yazılmış ön sözdə Məhəmməd Sadıq bəyin əməyi xüsusi vurğulanır. Onun "Quranın" tərcüməsilə bağlılığı barədə şərqşü-

nas alim Nəriman Qasımoğlu yazır: "Böyük ruh sahibi olan insanlar həmişə xalqın yaddaşında əbədi yaşayırlar. "Quran "ın rus dilində 5 cildlik tərcüməsilə məşğul olan alimlər qocaman şərqşünas Məhəmməd Sadıq bəyin tövsiyələrindən bəhrələnərək müqəddəs kitabı rus dilinə çevirmişdilər".

Beləliklə, professor M. S. Ağabəyzadənin həyatının son dövrləri Qərbi Ukraynada keçmişdi. O, 1927-ci ildən Lvov Universitetinin professoru vəzifəsində çalışırdı... Artıq yuxarıdakı mətndən bəlli olur ki, Məhəmməd Sadıq bəyi həmin Universitetə Lvov Universitetinin polyak professoru Ziqmund Smoqjevski dəvət etmişdi. Ərəb, fars, türk dillərini mükəmməl bilən Məhəmməd Sadıq bəy Şərq dilləri tarixindən, ədəbiyyatından və mədəniyyətindən mühazirələr oxuduğu, həmçinin İslam paleoqrafiyasını, epiqrafiyasını və kalliqrafiyasını tədris etdiyi onun arxivdəki şəxsi işindən aydın olur. Məhəmməd Sadıq bəy rus dilində "Türkmən ləhcəsi" (1904-cü il), polyak dilində "Türk dili" (1931), "Fars dili" (1934) və "Ərəb dilinin qrammatikası" (1934) kimi sanballı əsərlərini yazaraq nəşr etdirmişdi. O, "Özbək dilinin qrammatikası"nı da yazmışdı. Hələ 1904-cü ildə yazıb nəşr etdirdiyi "Türkmən dilinin qrammatikası" kitabına görə Buxara əmiri Seyid Alim xan onu qızıl medalla təltif etmişdi.

... 1939-cu ilin sentyabrınadək Lvov şəhəri Polşanın tərkibində idi. Həmin ildən sonra şəhər Ukraynanın tərkibinə keçmişdi. Lvov şəhərində dərs deyən bir sıra müəllimlər Polşaya getmişdilər. Ancaq Məhəmməd Sadıq bəy sovet təbəəliyini və vətəndaşlığını qəbul edərək Ukraynada qalmışdı. O, ömrünün sonunadək Lvov Universitetində işləmişdi. Bu Universitetdə bir sıra görkəmli şərqşünasların yetişməsində Məhəmməd Sadıq bəyin əvəzsiz xidmətləri vardı. Məşhur polyak şərqşünasları Teofil Voladarski, Olqa Bak, Y. Poloyiyuk, Tadeuş Levitski və başqaları görkəmli həmyerlimizin yetirmələri idilər...

1944-cü ildə Lvov şəhəri faşistlər tərəfindən işğal olunanda şəhərin alman komendantı tək-tənha yaşayan professor Məhəmməd Sadıq bəyin mənzilini öz qərargahına çevirmişdi. Alman generalı olan komendant ziyalı şəxs idi və Məhəmməd Sadıq bəyin zəngin kitabxanasını ələ keçirmişdi. Bundan sonra yarıqaranlıq, nəmli zirzəmiyə köçən Məhəmməd Sadıq bəyin zəifləmiş vücudu pisləşmiş və xəstəliyi daha da şiddətlənmişdi. Səhhəti getdikcə ağırlaşan



həmyerlimiz ölümqabağı sevimli tələbəsi polyak Tadeuş Levitskiyə belə vəsiyyət etmişdi: " Əgər qardaşlarım (Məhəmməd Sadıq bəyin iki qardaşı və bir bacısı vardı. Qardaşlarının adı Həzrət bəy və Rəhim bəy, bacısının adı Badam xanım idi) gəlib çıxmasalar, onda nəyim varsa, sənə qoyub gedirəm. Mənə uzun müddətli sədaqətli xidmətinə görə pani Severina Vilkoşinskayaya 300 zlot (Polşanın pul vahididir), Teodozi Krulyovaya 100 zlot, Olqa Voşçaka - mənim şagirdimə bir kitab və istədiyi üçün val verərsiniz".

Beləliklə, xalqımızın iftixarı, görkəmli şərqşünas alim, professor, sərkərdə, milli polisimizin banisi (bu fikri onun haqqında ilk dəfə rəhmətlik akademik Ziya Bünyadov 1994-cü ildə DİN-in Polis Akademiyasının müəllimi, polis polkovniki Tahir Behbudovla söhbəti zamanı demişdi) general-mayor M. S. Ağabəyzadə 1944-cü il noyabrın 9-da 79 yaşında qürbətdə - Lvov şəhərində köməksiz və miskin bir şəkildə vəfat etmişdi. Onun layiqli və sadiq tələbəsi Tadeuş Levitski (1914-1954) Lvovdakı katolik qəbiristanlığında gecə gizlicə müsəlman adətilə ( üzü Kəbəyə tərəf) dəfn etmişdi... O, müəlliminin məzarı üstündə üzərində ay-ulduz həkk olunmuş başdaşı düzəltdirmişdi... M. S. Ağabəyzadə Lvovun Liçakovski qəbiristanlığında uyuyur...

General-mayor M. S. Ağabəyzadənin fotoşəkillərinin əldə edilməsində mənə köməklik etdiklərinə görə, ilk növbədə onun əmisi oğlu Əli bəy Hüseynzadənin Bakıda yaşayan nəvəsi Cəmilə xanıma və bu işdə köməyini əsirgəməmiş Azərbaycan Respublikası Milli Dövlət Arxivinin S. Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru, əməkdar incəsənət xadimi, mərhum Maarif Teymura (1946-2016) minnətdaram.

... Fikrimcə, Məhəmməd Sadıq bəyin xatirəsi kifayət qədər əbədiləşdirilməyib. Belə ki, yalnız Göyçayda bir vaxtlar yaşadığı evin qarşısına kiçik xatirə lövhəsi vurulmuşdur ki, bunu da Məhəmməd Sadıq bəyin həyat və fəaliyyətinə aid " İki ömür yaşayan adam" adlı kitab yazmış, həmin kitabın əsasındakı senari üzrə "Çinarlı şəhərin generalları" adlanan ikiseriyalı sənədli film çəkdirməyə nail olmuş (filmi rejissor-operator Taleh İsmayılov çəkmişdir) mərhum yazıçı-dramaturq Əli Səmədlinin (1930-2006) şəxsi vəsaiti hesabına hasilə gəlmişdir.

M. S. Ağabəyzadə şərqşünaslıq məktəbinin banisidir. Lvov şəhərində M. S. Ağabəyzadənin adına küçə var. Lvov Dövlət Universitetinin foyesində görkəmli alimlərin sırasında M. S. Ağabəyzadənin də portreti asılmışdır... Onun tələbələrindən biri Y. Polotiyuk Lvov Dövlət Universitetinin Şərqşünaslıq fakultəsinin kafedra müdiridir. O, Şərq ölkələrinin paleoqrafiyası, epiqrafiyası və islami dünyagörüşündən oxuduğu mühazirələrin təsiri altında "Qurani-Kərimi" öz dilinə tərcümə etmiş, sonra isə İslam dinini qəbul edərək özünə "Mirzə Müzəffər" adını götürmüşdür...

Ancaq xalqımızın bu görkəmli oğlunun həyat və fəaliyyəti daha ətraflı öyrənilməli və respublika DİN tərəfindən də onun adının əbədiləşdirilməsi üçün addımlar atılmalıdır. Çünki, son illər başqa xətlərlə Məhəmməd Sadıq bəyin həyat və fəaliyyətinin təbliği məqsədilə bir sıra təşəbbüslər edilmiş və tədbirlər həyata keçirilmişdir. M. S. Ağabəyzadənin həyat və fəaliyyətinin tədqiqi ilə məşğul olan alimlər və tədqiqatçılar, habelə maraqlanan şəxslər xalqımızın bu intelektual təfəkkürlü böyük şəxsiyyətinin daha artıq tanınması üçün cəhdlər göstərmişlər. Məsələn, 2005-ci il mart ayının 14-də, doğum günündən bir gün əvvəl, AMEA-nın akademik Ziya Bünyadov (21 dekabr 1923, Astara - 21 fevral 1997, Bakı; naməlum "qüvvə" tərəfindən qətlə yetirilmişdir...) adına Şərqşünaslıq İnstitutunda M. S. Ağabəyzadənin anadan olmasının 140-cı ildönümünə həsr olunmuş elmi sessiya keçirilmişdi. AMEA-nın Şərqşünaslıq İnstitutunun, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan - Polşa Elmi-Mədəni Cəmiyyətinin birgə təşəbbüsü ilə keçirilən sessiyada dünya şərqşünaslıq elminə böyük töhfələr vermiş, ensiklopedik bir şəxsiyyət olan ("Məhəmməd Sadıq bəy Ağabəyzadənin elmi fəaliyyəti". Məruzəçi-filologiya elmləri namizədi, Azərbaycan-Polşa Elmi-Mədəni Cəmiyyətinin sədri Gülər xanım Abdullabəyova; "Məhəmməd Sadıq bəy Ağabəyzadənin həyat yolu". Məruzəçi-yazıçı-dramaturq Əli Səmədli; "Azərbaycan Demokratik Respublikası dövründə Məhəmməd Sadıq bəy Ağabəyzadənin Daxili İşlər Nazirliyindəki fəaliyyəti". Məruzəçi - polis polkovniki, tarix üzrə fəlsəfə doktoru Tahir Behbudov; "Məhəmməd Sadıq bəy Ağabəyzadənin Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu sahəsindəki fəaliyyəti". Məruzəçi - tarix üzrə fəlsəfə doktoru İltifat Əliyarlı və s.) mövzularda məruzələr dinlənilmiş və müzakirələr aparılmışdı. Sessiyada Polşanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Marçin Novrat da iştirak edirdi... Onun çıxışı maraqla qarşılanmışdı...



Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Elmi-Tədqiqat İdarəsinin əməkdaşı, hərb tariximizin araşdırıcısı, tanınmış jurnalist, polkovnik-leytenant Ş. Nəzirli hələ 1995-ci ildə nəşr etdirdiyi "Cümhuriyyət generalları" kitabında general-mayor M. S. Ağabəyzadənin bioqrafiyası barədə bir qədər məlumat vermişdi. Lakin Məhəmməd Sadıq bəy haqqında daha geniş elmi araşdırmalar aparıb dissertasiya işi müdafiə etmiş AMEA-nın Z. Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan-Polşa Elmi-Mədəni Cəmiyyətinin sədri Gülər Abdullabəyova xüsusi qeyd olunmalıdır. Əgər o olmasaydı, hələ də M. S. Ağabəyzadə haqqında uzun illər boyu məlumatımız qədərincə olmayacaqdı. Elmi işi ilə əlaqədar Polşaya gedən və təsadüfən arxivdə Məhəmməd Sadıq bəyə məxsus sənədlərə rast gələn Gülər xanım Bakıya döndükdən sonra, bu barədə akademik Z. Bünyadova danışmışdı. Beləliklə, rəhmətlik Ziya müəllimin xeyir-duası ilə o, görkəmli şərqşünas Məhəmməd Sadıq bəyin həyat və yaradıcılığını araşdırmağa başlamışdı...

2005-ci il noyabrın 9-da general M. S. Ağabəyzadənin xatirəsinə həsr olunmuş daha bir tədbir keçirilmişdi. Bu dəfə tədbirin keçirilməsinin təşəbbüsçüsü Azərbaycan Kinematoqrafçılar İttifaqının İdarə Heyəti və "Обозреватель" qəzeti idi. Tədbir Məhəmməd Sadıq bəyin vəfatının 71-ci ildönümünə həsr edilmiş bir xatirə, anım mərasimi idi. Mərasimdə Ukraynanın Azərbaycandakı səfirliyinin nümayəndəsi Boqdan Budyak, Ukrayna və Polşa diasporunun ölkəmizdəki təmsilçisi Vitali Rudenko, Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyinin nümayəndəsi Ramiz Abutalıbov və digər maraqlı təmsilçilər iştirak edirdilər. Tədbirə həmçinin bu sətirlərin müəllifi də qatılmışdı.

Tədbiri giriş sözü ilə açan "Обозреватель" həftəlik informasiya-analitik qəzetinin baş direktoru Gülnarə Məmmədzadə (hazırda "РИА-НОВОСТИ" Agentliyinin baş direktorudur) açaraq onun məqsəd və məramlarına toxunmuşdu. Canlı dialoq və qarşılıqlı fikir

mübadiləsi şəraitində dəyirmi masa arxasında çıxış edənlər: - Məhəmməd Sadıq bəyin həyat və fəaliyyətinin tədqiqatçısı, yazıçı-dramaturq Əli Səmədli (2006-cı ildə dünyasını dəyişmişdir. Allah rəhmət eləsin!), Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin katibi Abbas Əliyev (dünyasını dəyişmişdir, Allah rəhmət eləsin!), kinorejissor Firəngiz Qurbanova, DİN-in Polis Akademiyasının dosenti, tarix üzrə fəlsəfə doktoru, polis polkovniki Tahir Behbudov, DİN-in Mətbuat Xidmətinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru İltifat Əliyarlı, habelə Ramiz Abıtalıbov xalqımızın general oğlunun xatirəsinin əbədiləşdirilməsinə dair bir sıra təkliflər səsləndirmişdilər. General M. S. Ağabəyzadənin adına Polis Akademiyasında təqaüd təsis edilməsi, adının Bakıdakı küçələrdən birinə verilməsi və vaxtı ilə Azərbaycan Cümhiriyyəti DİN-dəki fəaliyyəti dövründə Bakıda yaşadığı binaya xatirə lövhəsinin vurulması, ev muzeyinin yaradılması və s. həmin qəbil təkliflərdən idi. Tədbirdə iştirak edən Məhəmməd Sadıq bəyin qohumu Cəmilə xanım Hüseynzadə, onun oğlu İsmayıl xatirə-tədbirin təşkilatşılarına və iştirakçılarına minnətdarlıqlarını bildirmişdilər. Tədbirin sonunda general-mayor M. S. Ağabəyzadənin haqqında ayrıca bədii film çəkilməsi və bununla əlaqədar müvafiq təşkilatlara müraciət edilməsi qərara alınmışdı...

## XƏLİL BƏY XASMƏMMƏDOV
## ("Gurgövən") (1873 – 1947 (1945)

Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimi. Azərbaycan Cümhuriyyəti dövründə F. Xoyskinin başçılıq etdiyi 3-cü hökumət kabineti dövründə (26 dekabr 1918-ci il – 14 mart 1919-cu il...) daxili işlər naziri olmuşdur.

Xəlil bəy Hacıbaba bəy oğlu Xasməmmədov 1873-cü il oktyabrın 25-də Gəncədə əsilzadə ailədə anadan olmuşdu. Atası Hacıbababa bəy Gəncəbasarın nüfuzlu şəxslərindən sayılırdı. Xəlil bəy ixtisasca peşəkar hüquqşünas idi. 1906-cı il fevralın 20-də Yelizavetpol qəzasından Rusiyanın III Dövlət Dumasına (1907-12) deputat seçilmiş, F. Xoyski və digər deputatlarla birlikdə xalqımızın





mənafeyini orada müdafiə etmişdi. X. Xasməmmədov III Dumada hüquq komissiyasının üzvü idi. Xəlil bəy sonralar Zaqafqaziya Seyminin də üzvü seçilmişdi. O, "Müsavat" partiyasının fəal üzvü və rəhbərlərindən biri olmuşdu...

X. Xasməmmədov 1918-ci il mayın 28-də Azərbaycan Cümhuriyyətinin təsis iclasında Milli Şuranın üzvü kimi Azərbaycanın istiqlaliyyəti ilə bağlı məruzə edərək, onun müstəqil respublika elan edilməsinin zəruriliyini əsaslandırmışdı... X.Xasməmmədov F.Xoyskinin sədr olduğu birinci hökumət kabinetində (28 may - 17 iyun 1918-ci il) ədliyyə naziri olmuşdu. F.Xoyskinin başçılığı ilə Gəncədə yaradılıb fəaliyyət göstərmiş 2-ci hökumət kabineti zamanı (17 iyun – 12 dekabr 1918-ci il) "Müsavat"ı təmsil edən X.Xasməmmədov portfelsiz (mülki) nazir postunu tutmuşdu. Bitərəf F.Xoyskinin rəhbərlik etdiyi ikinci hökumətin mövcudluğu dövründə, 1918-ci il oktyabrın 6-da aparılan kabinədaxili dəyişikliklərdən sonra X.Xasməmmədov yollar naziri təyin edilmişdi.

1918-ci il sentayabrın 6-da Türkiyədə yeni hakimiyyətə gəlmiş Sultan Əbdül Məcidin (1839-1861) ("məcid" ərəbcə "əzəmətli", "görkəmli" deməkdir) oğlu axırıncı (8-ci) Osmanlı padşahı Sultan VI Vahiddin Mehmed (2 fevral 1861, İstanbul - 15 may 1926, İstanbul) İstanbula təşrif buyurmuş Azərbaycan nümayəndə heyətini qəbul etmişdi. Onları Türkiyənin hərbi naziri Ənvər paşa (1881-1922) qarşılayıb sultana təqdim etmişdi. Bu görüş müstəqil Azərbaycan Cümhuriyyətinin beynəlxalq aləmə vəsiqə qazanmasında və onun tanınmasında müsbət rol oynamış və sürətləndirici təsir göstərmişdi. Həmin gün Sultan VI Mehmed tərəfindən qəbul edilən 3 nəfərdən ibarət nümayəndə heyətində M.Ə.Rəsulzadə, A.Səfikürdski ilə bir sırada X.Xasməmmədov da vardı .

F.Xoyskinin yenidən sədr olduğu 3-cü hökumət kabinetində (26 dekabr 1918-ci il - 14 mart 1919-cu il) müsavatçı X.Xasməm-

mədov o zaman ən çətin və həm də çox mühüm vəzifə sayılan daxili işlər naziri vəzifəsində çalışmışdı. O, bu vəzifədə 26 dekabr 1918-ci ildən 14 mart 1919-cu ilədək işləmişdi. Xəlil bəy nazir işlədiyi dövrdə müstəqil Azərbaycan polisinin möhkəmləndirilməsində və inkişafında böyük xidmətlər göstərmişdi. Ona bu işdə vitse-nazir, general-mayor M.S. Ağabəyzadə xüsusilə yaxından köməklik etmişdi...

X.Xasməmmədovun nazirliyi dövründə onun əmri ilə 14 fevral 1919-cu ildə baş verən cinayətləri təhqiq etmək və xidməti vəzifəsindən sui-istifadəyə qarşı mübarizə aparmaq məqsədilə DİN-in Təftiş İstintaq Komissiyası yaradılmışdı. Onun təklifi və təqdimatı ilə Azərbaycan Parlamenti 18 fevral 1919-cu il tarixli iclasında "Parlamenti Mühafizə Polisi Dəstəsinin təşkili haqqında" qanun layihəsinə baxmışdı. (Parlamenti Mühafizə Dəstəsi sonra alaya çevrilmişdi). Bunun zəruri olduğunu Parlamentin üzvü, Sosialistlər fraksiyasından deputat Qasım bəy Camalbəyov (1881-1938) sonralar yazırdı ki, Azərbaycan Məclisi-Məbusanının (Azərbaycan Parlamentinin) açıldığı gün onun Nikolayev (indiki İstiqlaliyyət) küçəsində yerləşən binasını azərbaycanlılar yox, hər iki tərəfdən ingilis əsgərləri zirehli maşının müşayiəti ilə qoruyurdular və diqqətli yoxlama keçirməklə bir nəfər belə kənar adamı ora buraxmırdılar. Odur ki, Azərbaycan Parlamentinin 18 fevral 1919-cu il tarixli həmin iclasında 4 maddədən ibarət qanun layihəsi qəbul edilərək, 200 nəfərlik polis dəstəsi yaradılmışdı. Onun təsis edilməsində Parlamentin üzvü, Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, ixtisasca hakim olan Qarabəy Qarabəyovun (27 sentyabr 1873-1953, Səmərqənd, Özbəkistan, 80 yaş) səmərəli təklifləri xüsusilə bəyənilmişdi.

M.Ə.Rəsulzadənin təklifi ilə yeni yaradılan polis qurumu "Parlamenti Mühafizə Dəstəsi" adlandırılmışdı (Sənədlərdə "Parlamentin Qoruyucu Bölüyü" də yazılmışdır...). Yeni yaranan "Polis Mühafizə Dəstəsi"nin rəisi vəzifəsinə podpolkovnik Nağı bəy Əliyev (Əlizadə) (1897-1920), onun köməkçisi (müavini) vəzifəsinə isə rotmistr Haşımbəyov təyin olunmuşdu. Altı nəfərdən ibarət ştat vahidi üzrə təsis olunmuş Parlamenti Mühafizə Polisi əməkdaşlarının – zabit və digər komanda heyətinin vəzifə dərəcələri üzrə aylıq məvacibi aşagıdakı kimi idi:

1. Rəis podpolkovnik Nağı bəy Əliyev - 4.500 rubl. 2. Onun köməkçisi, rotmistr Haşımbəyov - 3.800 rubl. 3.İki yüzlük polis dəstəsinin (bölüyün) komandiri Kərim bəy Cövdətov - 3.600 rubl. 4. Parlamenti Mühafizə Polisi Dəstəsi rəisinin adyutantı -3.600 rubl. 5. Kargüzar–registrator. Məmməd bəy Fərzəlibəyov-1.110 rubl. 6. Reminqtenistika (makinaçı, katibə və s. dəftərxana-yazı işlərini yerinə yetirən) Q.Baqdasarova-1387 rubl 50 qəpik (**Qeyd**: *bu statistik faktları arxivdən araşdırma zamanı Bakı Avrasiya Universitetinin professoru Ə. Tahirzadə aşkar edib mənə təqdim etmişdir...).* Parlamenti Mühafizə Polisinin 200 nəfərindən 192 nəfər sıravi polis əməkdaşının hər biri 200 rubl, onlardan bir rütbə yuxarı olan 8 nəfər feldfebelin hər biri isə 250 rubl alırdı... Ümumiyyətlə, bu yeni milli polis növünün təşkilinə hökumətin qərarı ilə ildə dövlət xəzinəsindən 2.200.000 manat pul ayrılırdı... "Parlamenti Mühafizə Dəstəsi" Parlamentin Rəyasət Heyətinə tabe olub, onun tərəfindən də formalaşdırılır və vaxtaşırı da ona hesabatlar verirdi. Lakin o, bəzi məsələlərdə... Azərbaycan Cümhuriyyəti DİN-ə tabe idi və zəruri hallarda onun tədbirlərinə də cəlb oluna bilirdi...

... X. Xasməmədovun başçılıq etdiyi Daxili İşlər Nazirliyi öz fəaliyyətində Milli Ordu ilə qarşılıqlı fəaliyyət göstərirdi. Bunu Azərbaycan Cümhuriyyətinin hərbi naziri, tam artillriya generalı S. Mehmandarovun 1918-ci ilin dekabrında daxili işlər naziri X. Xasməmmədova göndərdiyi məlumatlardan da bilmək olardı...

X.Xasməmmədovun nazirliyi zamanı DİN-in məlumatına görə, 1 yanvar 1919-cu ildə Azərbaycan müstəqil polisinin sayı rəsmən 9661 nəfərə çatmışdı... Həmin vaxtdan əvvəllər ləğv edilmiş Bakı Qradonaçalnikliyinin fəaliyyəti də bərpa olunmuşdu. Bu qurum birbaşa Azərbaycan DİN-ə tabe idi...

3-5 yanvar 1919-cu il. Bakıdakı Böyük Britaniya Müvəqqəti Polis Komissarlığı və Azərbaycan Cümhuriyyəti DİN-in birgə əməliyyatları nəticəsində milli hökumətimizə qarşı yönəlmiş İrandakı sabiq rus ordusunun generalı, ermənipərəst L.Biçeraxovun qəsdinin üstü açılmışdı... (Biçeraxov Lazar Fyodroviç. 1882-ci ildə Sankt-

Peterburqda anadan olmuş, 22 iyun 1952-ci ildə Qərbi Almaniyanın Dormştadt şəhərində ölmüşdür...)...

6 yanvar 1919-cu il. Bakıdakı Böyük Britaniya Müvəqqəti Polis Komissarlığı tərəfindən Azərbaycan Cümhuriyyəti və müttəfiq qoşunların komandanlığı əleyhinə təbliğatla məşğul olan sağ və sol eserlərin, həmçinin menşeviklərin liderləri həbs edilərək İrana və Hindistana "sürgün" edilmişdilər.

10 yanvar 1919-cu il. Bakının general-qubernatoru V. Tomsonun əmri ilə Bakı Polismeysterliyinin Xəfiyyə hissəsinin rəisi Həsən bəy Fətəlibəyova uğurlu fəaliyyətinə görə təşəkkür elan olunmuşdu...

13-15 yanvar 1919-cu il. Azərbaycan Hökumətinin qərarı ilə mərkəzi Şuşa şəhəri olmaqla birbaşa DİN-ə tabe olan Müvəqqəti Qarabağ General-Qubernatorluğu yaradılmış, görkəmli ictimai-siyasi xadim Xosrov bəy Paşa bəy oğlu Sultanov general-qubernator təyin edilmişdi. Qeyd etmək lazımdır ki, Azərbaycan Cümhuriyyəti elan edildikdən sonra Cənubi Qafqazda sülh və əmin-amanlıq yaratmaq məqsədilə Azərbaycan Hökuməti hələ 1918-ci il mayın 29-da hətta İrəvanı məcburi olaraq ermənilərə güzəştə getmişdi (**Haşiyə :** İrəvan Zəngi çayının sahilində yerləşir. Əsası 16-cı əsrin əvvəlində Səfəvi I Şah İsmayılın (17 iyul 1487, Ərdəbil – 23 may 1524, Sərab, 37 yaş ) tapşırığı ilə onun qızılbaş əmirlərindən biri - vəzir Rəvanqulu tərəfindən 510-517-ci illərdə tikilmiş və onun adıyla "Rəvanqulu" adlanmışdır. Lakin xalq arasında qalanın adı zaman-zaman tədricən "İrəvanqulu" kimi deyilməyə başlanmışdı... İrəvan 1747-1828-ci illərdə İrəvan xanlığının, 1828-ci ilin martından Ermənistan Vilayətinin və 1850-ci ildən İrəvan quberniyasının, 1918 – ci il mayın 29-dan 1920-ci il noyabrın 28-dək daşnak Ermənistan Respublikasının, 1920-ci il noyabrın 29-dan Ermənistan SSR-in paytaxtı olmuşdu. Ermənistan SSR Ali Sovetinin qərarı ilə 1936-cı ildə "İrəvan" adı dəyişdirilib "Yerevan" adlandırılmışdır...). Lakin ermənilər bundan şirnikərək, Qarabağı da almaq üçün fəallıqlarını azaltmadılar. Odur ki, Qarabağ General-Qubernatorluğunun təşkili zəruri addım idi.

***Haşiyə***: "Qarabağ" sözü 7-ci əsrdən başlayaraq, öz əksini mənbələrdə tapır... Lakin 12-ci əsrdən daha tez-tez adı çəkilir... Qarabağ adı "qara" və "bağ" sözlərindən ibarətir. "Qara" "böyük", "bağ" "meyvə ağacı əkilmiş sahə" deməksdir. "Qarabağ" sözü tayfa adından törənmiş etnotponimdir. "Qara" həm də rəng anlamındadır. 16-cı əsrdə Qarabağ Azəbaycanın dörd bəylərbəyiliyindən biri idi. 18-ci əsrdə, 1747-ci ildə əsası Pənahəli xan Sarıcalı Cavanşir tərəfindən qoyulmuş Qarabağ xanlığı Azərbaycanın ən güclü və aparıcı feodal xanlıqlarından biriydi. 1805-ci il 14 may tarixli Kürəkçay müqaviləsindən sonra Qarabağ xanlığı Rusiyanın tərkibinə keçmişdi... 1822-ci il noyabrın 21-də Qarabağ xanlığı ləğv edilmiş və Rusiyanın tərkibində Qarabağ əyalətinə çevrilmişdi. 1840-cı il aprelin 10-da Qarabağ əyaləti ləğv olunaraq əvəzində Şuşa qəzası yaradılmış (Şuşa qəzası sovet dövründə bir qəza kimi 1921-ci ildə ləğv edilmişdi...) və Kasapi vilayətinin tərkibində olmuşdu. Mərkəzi Şuşa olan Qarabağ çar hökumətinin inzibati islahatlar haqqında verdiyi 9 dekabr 1867-ci il tarixli fərmanına əsasən 1868-ci il yanvarın 1-dən təsis edilmiş Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil idi...

... 15 yanvar 1919-cu il. Azərbaycan Hökumətinin qərarı ilə Bakı şəhəri və rayonlarının mühafizəsini gücləndirmək məqsədilə birbaşa DİN-ə tabe olan Abşeron Yarmadası Xüsusi General-Qubernatorluğu yaradılmışdı...

***Statistika***. Azərbaycan Cümhuriyyəti DİN-in məlumatına görə Bakıdakı müttəfiq dövlətlərin qoşunlarının hərbi kontingentinin sayı 5 min nəfərə çatmışdı ki, bunun da 2 min nəfəri hərbi polisdən ibarət idi. Məlumatda bildirilirdi ki, hərbi polis müvəqqəti olaraq mülki-inzibati polisin funksiyalarınıda yerinə yetirirdi.

18 yanvar 1919-cu il. Bakıdakı müttəfiq dövlətlərin Müvəqqəti Polis Komissarlığının razılığı və təşəbbüsü ilə Bakı Polismeysterliyinin yeni ştatlar üzrə Xəfiyyə Polisi təsis olunmuşdu. Bu vaxtadək Polismeysterliyin Xəfiyyə hissəsinin rəisi olan Həsən bəy Fətəlibəyov Bakı Xəfiyyə Polisinin rəisi vəzifəsinə təyin edilmişdi...

...Həmin vaxt Azərbaycan Hökumətinin qərarı və daxili işlər naziri X. Xasməmmədovun əmri ilə mərkəzi Şuşa şəhəri olan, tərkibinə Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarının daxil olduğu Qarabağ Ggeneral-Qubernatorluğu təsis edilmişdi. Gəncə quberniyasından ayrılaraq 1919-cu il yanvarın 13-də təsis edilən

Qarabağın general-qubernatoru vəzifəsinə həmin il yanvarın 29-dan Xosrov bəy Sultanov (1879-1947) təyin edilmiş, general-qubernator vəzifəsinin faktiki icrasına isə 12 gün sonra - fevralın 12 dən başlamışdı... Onun köməkçiləri (müavinləri -İ.Ş.) Hüseyn bəy Mahmudbəyov və Qriqori Kələntərov, məsləhətçiləri Xosrov bəy Folatov (səhvdir, əslində Poladovdur)(1860-1918), İbrahim bəy Poladov, Levon Vartapetyan və Akop Balasanyan idilər. General Tomsonun başçılıq etdiyi Bakıdakı müttəfiq dövlətlərin komandanlığı Qarabağ General-Qubernatorluğunu rəsmən yalnız 1919-cu il aprelin 3-də tanımışdı... Həmin dövrdən də başlayaraq, Azərbaycan Hökuməti Bakıda İngiltərə general-qubernatorluğunun ləğv edilməsi uğrunda fəaliyyətini artırmışdı...

Azərbaycan Hökumətinin 15 yanvar 1919-cu il tarixli iclasında müzakirələr zamanı Qarabağın general-qubernatoru vəzifəsinə namizəd də təklif olunmuşdu. Daxili işlər naziri X. Xəsməmmədov tərəfindən irəli sürülmüş namizəd Bakının polismeysteri və qradonaçalnki vəzifəsində çalışmış Quda Əliyeviç Qudiyev (bəzi mənbədə Puda, Qud yazılır. Lakin əslində Qudadır)(1880-1920) Daxili İşlər Nazirliyi Q.Qudiyevi təcrübəli, müxtəlif hərbi xidmətin pillələrini bir-bir keçmiş məmur kimi müsbət xarakerizə edərək, namizədliyini müdafiə edirdi. Lakin Q.Qudiyevin yeganə və həmdə əsas çatışmayan cəhəti Azərbaycan dilini bilməməsiydi. Üstəlik, o, Qarabağ bölgəsinə də çox yaxından bələd deyildi. Çünki, Q. Qudiyev Dağıstanın Ter Vilayətinin Nazran dairəsində anadan olmuşdu, milliyyətcə isə inquş idi (bu faktı ilk dəfə dövriyyəyə BDU-nun professoru İsmayıl Musyev daxill etmişdir).

28 fevral 1919-cu il. Azərbaycan hökumətinin qərarı ilə erməni-daşnakların hücumlarını mütəşəkkil surətdə dəf etmək və bölgədə qayda-qanunu yaxşılaşdırmaq məqsədilə paytaxtı Naxçıvan olan Cənub-Qərbi Azərbaycan General-Qubernatorluğu yaradılmış, Bəhram xan Naxçıvanski general-qubernator vəzifəsinə təyin edilmişdi. B. Naxçıvanski bu vəzifədə 1919-cu il martın 16-dək xidmət etmişdi. Sonuncu tarixdən onu həmin vaxtadək Zaqatalanın qubernatoru Zaqatala quberniyası 1918-ci il iyunun 28-də yaradılmışdı) vəzifəsində çalışan, general-mayor Əliyar bəy Haşımbəyov (1856-1920) əvəz etmişdi...



Mənbələr və sənədlər göstərir ki, Azərbaycan Cümhuriyyətinin 3-cü hökumət kabineti zamanı daxili işlər naziri işləmiş X. Xasməmmədov çox fəaliyyətli, yorulmaz və barışmaz şəxsiyyət olmuşdur. Xəlil bəy qanunun aliliyini ilk növbədə rəhbər tutur və bunu tabeliyində olanlardanda tələb edirdi. Onun ölkədə ictimai təhlükəsizliyin təmin edilməsində və cinayətkarlıqla mübarizə sahəsində tutduğu sərt mövqe və tələbləri hamı bilir və qəbul edirdi. Azərbaycan Parlamentinin 1919-cu il 4 fevral tarixli geniş iclasında çıxış edən daxili işlər naziri X. Xasməmmədov demişdi:

- "...Qanunlarımız dəqiq, həm möhkəm və həm də yerinə yetirilən olmalıdır. Onlar dəqiq olmayan yerlərdə qanunsuz fəaliyyət üçün imkan yaranır. Bu, əhalinin taxıl yığımındakı iştirakına da aiddir". Xəlil bəy Parlamentdəki həmin çıxışında Quba, Göyçay, Gəncə və daha bəzi başqa yerlərdə taxıl ehtiyatının saxlanılması ilə yanaşı, mövcud olan oğurluq faktları və onlarla mübarizə yollarından da bəhs etmişdi. Nazir Qazax qəzasında polisin istintaq orqanlarının dövlət əmlakının mənimsənilmə faktlarını üzə çıxardığını bildirmiş, həmçinin Ağstafa stansiyası vasitəsilə qonşu Gürcüstan və Ermənistana daşınıb 1 pudunun 20 manata satıldığı ("pud" fars sözü, ölçü vahididir; bir pud 16 kq-dır) neft alverindən bəhs edib bununla mübarizə üçün bütün tədbirlərin artıq görüldüyünü nəzərə çatdırmışdı...

Təyinat. Daxili işlər naziri X. Xasməmmədovun təqdimatı, Azərbaycan Nazirlər Şurasının 5 fevral 1919-cu il tarixli qərarı ilə bu vaxtadək Azərbaycan Hökumətinin İşlər İdarəsinin müdiri vəzifəsində işləyən Rəşid bəy Axund Əbdüssalam oğlu Axundzadə (1880-1940) irəli çəkilərək 1919-ci il yanvar ayının 1-dən sayılmaqla Bakı şəhərinin qubenatoru təyin edilmişdi. R. Axundzadə bu vəzifədə 1919-cu il avqustun 25-dək işləmişdi. Rəşid bəy Axundzadəyədək həmin vəzifəni Azərbaycan Parlamentinin üzvü Müseyib bəy Axıcanov (1892-1920) icra edirdi...

10 fevral 1919-cu il. Bakının yeni qubernatoru təyin olunmuş R. Axundzadənin yanında Bakı və Balaxanı Sabunçu Polismeysterliyi əməkdaşlarının müşavirəsi keçirilmişdi. Müşavirədə polis işçilərinin paltarla təmin edilməsi, nizam-intizamın daha da möhkəmləndirilməsi və s. barədə məsələlər müzakirə olunmuşdu.

10 fevral 1919-cu il. Azərbaycan Hökuməti tərəfindən "Bakını cinayətkarlardan və heç bir məşğuliyyəti olmayan ünsürlərdən təmizləmək haqqında" Daxili İşlər Nazirliyinə sərəncam verilmişdi. Sərəncam dövrü mətbuatda dərc olunmuşdu.

Parlamentin 1919-cu il 6 fevral tarixli növbəti iclasında respublikanın o zamankı çətin durumunda ziyan vuran möhtəkirliklə mübarizə məsələsi də müzakirə edilmişdi. Parlament hələ 1918-ci ilin dekabrında bahalığa bais olan möhtəkirliklə bərabər rüşvətxorları da məsuliyyətə cəlb etməyi nəzərdə tutan qanun layihəsinin təsdiq edildiyini bir daha qeyd edərək, möhtəkirliklə mübarizənin gücləndirilməsini, ərzaq məhsullarının gündəlik daşındığı Biləcəri stansiyasından keçən vaqonlara xüsusi nəzarət etməyi X. Xasməmmədovun rəhbəri olduğu DİN-ə həvalə emişdi.

Azərbaycan Hökumətinin 1919-cu il 10 fevral tarixli qərarı ilə DİN-ə Bakıdan cinayətkarları və heç bir məşğuliyyəti olmayan ünsürləri və şəxsləri təmizləmək əmri verilmişdi. Bununla bərabər, qeyd etmək lazımdır ki, polis müntəzəm olaraq işsiz və tüfeyli həyat keçirən şəxsləri toplayır və onlarla proflaktiki söhbətlər də aparırdı...

Milli-müstəqil dövlətimiz əleyhinə fəalyyət göstərən qüvvələrə qarşı barışmaz mübarizəni Xəlil bəy ən önəmli vəzifə kimi diqqətdə saxlayır və əməli tədbirlər görürdü... O, bununla əlaqədar qəzalara da göndərilmiş bütün DİN sistemi üzrə xüsusi əmr də imzalamışdı. 1919-cu il fevralın 23-25-də Gəncə qubernatoru İbrahim ağa Vəkilovun daxili işlər naziri X. Xasməmmədova göndərdiyi raportlarda bildirilirdi ki, Nuxa qəzasında (o zaman Nuxa qəzası Gəncə quberniyasının tərkibində idi) Azərbaycan Hökumətinə qarşı qarışıqlıq törətməyə çalışan, xüsusu məqsədlər güdən türk çavuşu İsmayılın dəstəsi darmadağın edilmiş, dəstənin 39 nəfər üzvü tutulmuş və silahları müsadirə olunmuşdur. Tutulan 39 nəfərdən 21-i hərbçi fərari, 18-isə Nuxanın Bideiz kəndinin yoldan çıxarılmış sakinləri idi. Raportda daha sonra bildirilirdi ki, Paziqzid kəndində də ictimai asayişi pozanlar da tutulmuşlar. Buradakı günahkarlar yerli gənclərin hərbi xidmətə getməmələri üçün təbliğat aparan şəxslər idi. Onların işi Gəncə Dairə Prokurorluğuna verilmişdir. Təəssüki, İsmayıl adlı həmin türk çavuşu 9 nəfər tərəfdarı ilə qaçıb Dağıstan dağlarında gizlənə bilmişdi...



... Gəncə şəhərində, onun ətrafında daim çıxışlar baş verir, tətillər, nümayişlər keçirilirdi. Bu çlxışaların əksəriyyəti mövcud hakimiyyəti yıxmağa çalışan və sovet Rusiyasından idarə edilən bolşevik qüvvələri tərəfindən təşkil olunurdu. Onların əksəriyyəti erməni ünsürlər idi. Osepyan, Murovyan kimi fitnəkarlar Gəncə şəhəri və onun ətraf rayonlarında Azərbaycan Cümhuriyyətinə qarşı hər cür fitnə-fəsadlar törədirdilər. Gəncə qubernatoru İbrahim ağa Vəkilov tərəfindən bu çıxışlar yatırılır, onlar tərəfdən irəli sürülən uydurma tələblər çox zaman cavabsız buraxılırdı.

1919-cu ilin fevral ayında Gəncə qubernaroru İ.Vəkilov Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri X. Xasməmmədova göndərdiyi yeni teleqramda şəhərin rabitə işçilərinin tətili barədə məlumat verirdi. Bu tətili də bolşeviklər təşkil etmişdi...

11 mart 1919-cu il. Bakıdakı Böyük Britaniya Müvəqqəti Polis Komissarlığı və Azərbaycan Cümhuriyyəti DİN-in qüvvələri milli hökumətimizə qarşı siyasi məqsədlərlə çıxış edən şəxsləri həbs edərək Ənzəliyə, Tehrana və Krasnovodskiyə (indiki Türkmənbaşı, Türkmənistan)" göndərmişdilər".

14 mart 1919-cu il. Daxili işlər naziri X. Xasməmmədov istefa haqqında ərizə vermiş, bununla əlaqədar Azərbaycan Hökuməti vitse-nazir, general-mayor M. S. Ağabəyzadəyə daxili işlər naziri vəzifəsini ifa etmək barədə sərəncam vermişdi. Lakin X. Xasməmmədov hələ mart ayının sonunadək bu vəzifədə qalırdı... 1919-cu il aprelin 16-dan Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri vəzifəsini eyni zamanda baş nazir olan N. Yusifbəyli aparmağa başlamışdı...

1919-cu ilin martı. Gəncənin general-qubernatoru İ.Vəkilov Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri X. Xasməmmədova raportunda ona müraciətlə bildirirdi: "Cavanşir qəza rəisi və Ağdam pristavı teleqram göndəriblər ki, ermənilər hücum ediblər. Əsas hücum Əskəranadır. Şuşa şəhərinin yolunun qarşısını kəsiblər. Hələlik, yalnız Əskəranda şiddətli döyüşlər gedir. Bu barədə bilməyiniz və göstərişləriniz üçün məlimat verirəm. Yeni Bayazid erməniləri Şişqaya kəndinə doğru yeriyib ucdantutma bütün əhalini qırıblar. Gədəbəyə yaralılar gətirilib. Hazırda Cil kəndində döyüş gedir. Azərbaycanlıların və müsəlmanların vəziyyəti mürəkkəbdir.

Kömək gözləyirlər. Bu barədə bilməyiniz və müvafiq sərəncam verməniz üçün məlumat gözləyirəm".

... Bakıdan. Daxili işlər naziri Xəlil bəy Xasməmmədovdan. Təcili teleqram.

... 1894-1899-cu illər arasında anadan olmuş gənclərin hərbi mükəlləfiyyətə cəlb olunması haqqında əmr".

Azərbaycan Ordusunun formalaşması üçün çox vacib olan bu əmr İ.Vəkilov tərəfindən mütəşəkkil surətdə yerinə yetirilmişdi...

Gəncə qubernatoru İ.Vəkilov 1919-cu ill martında daxili işlər naziri X. Xasməmədova göndərdiyi raportda bildirirdi ki, Gəncə qəzasında daşnak irticasının və xarici müdaxiləçilərin törətdiyi "fitnə-fəsadlar" aşkar edilmişdir. Yerli bolşeviklərlə birləşən ermənilər azərbaycanlılar və müsəlmanlar arasında qırğın törətmək istərkən yaxalanmışlar. Onların başçısı qolçomaq Cümşüd Voskanov həbs edilmişdir...

...1919-cu ilin martında Novruz Bayramı münasibəti ilə Milli Ordunun paradı keçirilmişdi. Respublika hərbi naziri, tam artillerya generеı S. Mehmandarov, bir qrup Parlament üzvü (onların içərisində X. Xasməmmədov da vardı) paradda iştirak etmək üçün Gəncəyə gəlmişdilər. Gəncə qarnizonundakı səliqə-sahmana və nümunəvi qayda-qanuna görə hərbi nazir S. Mehmandarov DİN-in vəzifə daşıyan yüksək rütbəli məmuru - qubernator, polkovnik İ.Vəkilova səmimi təşəkkürünü bildirmişdi. Bununla bərabər, daxili işlər naziri X. Xasməmmədovun verdiyi təqdimatlar və Azərbaycan Hökumətinin 1919-cu il 30 mart tarixli qərarı ilə uzun illər nümunəvi xidmətinə görə İbrahim ağa Paşa oğlu Vəkilova general-mayor alı hərbi rütbəsi, onun müavini Hüseynqulu xan Xoyskiyə isə polkovnik rütbəsi verilmişdi.

... X. Xasməmmədov Azərbaycan Ordusunun komplektləşdirilməsinə yönəldilmiş tədbirin: 1894-99-cu illər arasında anadan olmuş gənclərin hərbi mükəlləfiyyətin yerinə yetirilməsinə cəlb olunması haqqında qərarın mütəşəkkil qaydada icra edilməsi üçün qubernatorlara xüsusi əmr göndərmişdi. Lakin Azərbaycan Ordusunda bolşeviklərin dövətçiliyimiz əleyhinə apardıqları qızğın təbliğat, respublikanın bütün ərazisində yaratdıqları gərginlik onu bərk narahat edirdi. Azərbaycan Cümhuriyyətinin hərbi naziri, tam artilleriya generalı S.



Mehmandorovun 1919-cu ilin martında bu haqda ona göndərdiyi 418 nömrəli məxvi məlumat həmin narahtçılığı dahada artırmışdı...

Hərbi nazir S. Mehmandarovun daxili işlər naziri X. Xasməmmədova verdiyi gizli məlumatda bildirilirdi: "... "Hümmət" müsəlman bolşevik təşkilatı gəncləri əsgərlikdən qaçmağa təhrik etmək məqsədilə hərbi komissiya yaratmışdır. İndi Azərbaycanın bütün ərazisində həm xalq, həm də əsgərlər arasında təbliğat aparılır. Təbliğatçılar xalqı uşaqlarını əsgərliyə verməməyə, əsgərləri isə ordudan qaçmağa təhrik edirlər. Xüsusilə, Qazax qəzasında bu təbliğat güclü aparılır. Belə təbliğatın nəticəsi olduqca ciddidir. Gəncə qubernatorunun dediyinə görə, bütün Qazax uşaqlarını əsgərliyə verməkdən imtina edir". S. Mehmandarov axırda bolşeviklər barədə ciddi tədbir görməyi xahiş etmişdi...

Qocaman generaldan aldığı məlumatdan sonra Xəlil bəy orduda fəal təbliğat aparılmasını təşkil edən bolşeviklərin N. Nərimanov, M. D. Hüseynov, Ə. H. Qarayev, Əhmədov, Sanıyev (**Haşiyə :** Yazıçı, bolşevik Hacı Kərim Sanılı (1878, Qazax qəzası, Çaylı-Kəsəmən kəndi - 1937; H. Sanılı Azərbaycan Parlamentində "Sosialistlər fraksiyası"nın nümayəndəsi idi. Qazax qəzasının general-qubernatoru da olmuşdu... Otuzuncu illərdə repressiyaya məruz qalmış, 4 dəfə həbs edilmiş, 16 sentyabr 1937-ci ildə həbsxanada dünyasını dəyişmişdi...) və başqalarının olduqlarını müəyyənləşdirmiş, Azərbaycan Hökumətinin rəhbərliyinə bu haqda məruzə etmişdi. Hökumət rəhbərliyi isə bu cür "bolşevikləşmiş" adamlara qarşı qəti və kəskin mübarizə aparmağı DİN-ə, şəxsən daxili işlər naziri X. Xasməmmədova tapşırmışdı. Odur ki, daxili işlər naziri kimi Xəlil bəy xüsusi qərar qəbul etmiş və buna müvafiq əmr vermişdi. Həmin əmrdə deyilirdi:

- Şuşa şəhərinin müvəqqəti general-qubernatoruna.

N. Nərimanovun həbs edilməsi barədə.

Müvəqqəti general-qubernator Xosrov bəy Sultanova:

"Hərbi nazirin aldığı casusluq məlumatlarına görə, bolşevik Nərimanov Bakıya gəlib, orada "Hümmət" partiyasının Parlament üzvləri ilə, başlıcası isə Sanıyev və Qarayevlə görüşmüşdür ki, Şuşa və Qazax qəzalarında camaat arasında, habelə imkan daxilində qoşun arasında bolşevizmi yaysın. Hərbi nazir təsdiq edir ki, bu cür

təbliğat nəticəsində hazırda orduya çağırlanların sayı xeyli azalmışdır və qorxur ki, tamam heçə enə bilər.

Məlumat üçün bunu bildirməklə Siz cənablarınızdan xahiş edirəm ki, Nərimanov Sizin general-qubernatorluğunuzda peyda olsa, onun tutulması barədə sərəncam verəsiniz.

Bu barədə Gəncə qubernatoruna da mənim tərəfimdən teleqrafla məlumat verilmişdir.

Daxili işlər naziri: Xasməmmədov".

X. Xasməmmədov daxili işlər naziri işlədiyi dövrdə bir islahatçı kimi Azərbaycan polisinin fəaliyyətinin təşkilinin planauyğun şəkildə gücləndirilməsinin konsepsiyasını irəli sürmüşdü. Onun dövründə Azərbaycan Cümhuriyyəti DİN-in və orqanlarının formalaşmasının ikinci mərhələsi başlanmışdı. Xəlil bəy polis məmurlarının özbaşınalığı və sui-istifadə hallarına qarşı sərt tədbirlər görürdü...

O, qatı, siyasi və transmilli cinayətkarlıqla mübarizədə Bakıdakı müttəfiq dövlətlərin Müvəqqəti Polis Komissarlığı ilə birgə fəaliyyətin və əməkdaşlığın həyata keçirilməsinə çalışırdı. Onun 1918-ci il dekabrın 9-da Bakıdakı müttəfiq dövlətlərin qoşunlarının komandanı, general-mayor U.Tomsona raportunda "Daşnaksütyun" partiyasının fəal üzvləri Stepan Lalayan, Türkiyədə çetebaşı (quldur başçısı), "qulağı kəsik", "qanlı" Andronik Ozanyan Torosi (1865-1927); ermənilər onu "erməni Harribaldisi" kimi qələmə verirdilər), Dro (Drastamat) Kanayan, Qaregin Njde, Tatevos Əmirov, Amazasp və digərlərinin başçılığı ilə erməni "cəza" (bandit) dəstələrinin Azərbaycan ərazisində törətdikləri cinayətkar fəaliyyətindən bəhs edir və onlara qarşı mübarizədə müttəfiqlərin polis qüvvələrinin də cəlb olunmasını, Azərbaycan polisi ilə birgə mübarizəsinin təşkilində kömək göstərilməsini zəruri hesab edirdi.

X. Xasməmmədov Parlamentdəki çıxışlarından birində bildirmişdi ki, hazırda polisdə faktiki mövcud olan digər köməkçi vəzifələri və xidmətləri qanuniləşdirmək lazımdır. Xəlil bəy keçmiş çar Rusiyası DİN-in tipində yaradılmış Azərbaycan polisinin ayrı-ayrı xidmət sahələrinin saxlanılmasının tərəfdarı idi...

... Azərbaycan DİN-in maliyyə durumu heç də ürəkaçan deyildi. Belə ki, 1919-cu ilin yanvarına olan məlumata görə, DİN-ə dövlət büdcəsindən ayrılan maliyyə vəsaiti cəmi 114.634.614 rubl



təşkil edirdiki, buda digər nazirliklərlə müqayisədə ən aşağı məbləğ idi. Məsələn, əgər hökumət 1919-cu ilin dövlət büdcəsində Yollar Nazirliyinə 515.318.578 rubl, Hərbi Nazirliyə 399.454.242 rubl, Maarif Nazirliyinə 103.055.150 rubl, Ticarət Nazirliyinə 51.314.981 rubl, Ədliyyə Nazirliyinə 34.381.059 rubl, hətta Poçt və Teleqraf Nazirliyinə 22.051.524 rubl ayırmışdı. Odur ki, X. Xasməmmədovun təqdimatı və təklifləri əsasında Azərbaycan Hökuməti 1919-cu ilin əvvəlində həmin il üçün Daxili İşlər Nazirliyinin illik büdcə xərclərini artıraraq 20 milyon manat miqdarında müəyyən etmişdi.

X. Xasməmmədovun rəhbərliyi altında DİN xətti ilə həyata keçirilən, keçmişin müsbət təcrübəsi nəzərə alınmaqla və dövrün tələblərinə uyğun yenidən sağlam əsaslarla davam etdirilən zəruri dəyişikliklər idi. Xəlil bəyin əmri ilə əvvəllərdən mövcud olan qorodovoy, pristavlıq və qəza rəisliyi institutları, qubernatorluq və qubemiya inzibati idarəçiliyi, o cümlədən, Bakı və Balaxanı-Sabunçu Polismeysterliyi saxlanmışdı. 1919-cu ilin əvvəllərində DİN-ə tabe olmaqla Bakı Qradonaçalnikliyi də bərpa olunmuşdu. Ümumiyyətlə, bütün ölkədə xalis polis xidmətinə keçilmişdi. Xəfiyyə mühafizə xidmətində də heç bir dəyişiklik edilməmişdi. Bakı Ehtiyat polisi və qorodovoylar məktəbinə qəbul da bərpa olunmuşdu. Abşeron yarımadası hüdudlarını əhatə edən xüsusi general-qubernatorluq yaradılmışdı.

1919-cu il martın 20-də Azərbaycan Cümhuriyyəti Parlamentinin iclasında DİN işçilərinin əmək haqlarının artırılması məsələsi müzakirə olunmuşdu. Bu vaxt Parlamentdə 6 nəfərlə təmsil olunan "Daşnaksütyun" fraksiyasının lideri Arşak Malxazyan ("Daşnaksütyun"dan əlavə Parlamentdə "Erməni fraksiyası" da vardı, lideri Arşak Paronyan idi) söz alıb yeni ştatlar layihəsinin iclasın gündəliyinə salınmasına etirazını bildirərək, bunu belə əsaslandırmışdı ki, güya bu, Parlamentin Əsasnaməsinin 86, 87 və 103-cü maddələrinə ziddir, həm də bunun hələ vaxtı çatmayıb. Bu yerdə Xəlil bəy söz alaraq söyləmişdi:

- Daxili İşlər Nazirlyi tərəfindən Parlamentin iclasına təqdim olunan ştatların təsdiq edilməsi barədə qanun layihəsi üç məqsəd güdür: 1-cisi, qulluqçuların əmək haqqını artırmaq; 2-cisi, bir sıra yerlərdə qulluqçuların sayını çoxaltmaq və 3-cüsü, bir sıra idarələr

və vəzifələr var ki, hazırda faktiki fəaliyyət göstərirlər, onların fəaliyyətini qanunla təsdiq etmək". O, daha sonra demişdi: "Biz bu layihədə Nazirliyin gələcək quruluşunu təqdim etmişik. Bundan əlavə, mütləq ləğvedici komissiya yaratmaq lazımdır ki, o 2 ay ərzində Gəncədə və digər yerlərdə ləğv edilmiş polis strukturlarının sənədlərini nəzərdən keçirib onlara xitam verilməsini başa çatdırsın".

Layihənin təsdiqi növbəti iclasa keçirilmişdi. Azərbaycan Parlamentinin 1919-cu il 3 aprel tarixli növbəti iclasında çıxış edən müsavatçı Ağa Əminov (1888-1921) bununla əlaqədar bildirmişdi: "Daxili İşlər Nazirliyi ən iri təşkilatdır və o, böyük iş aparır. Əlbəttə, onun fəaliyyətindədə çatışmazlıqlar da var. Lakin hesab edirəm ki, biz təqdim olunan bu qanun layihəsini indi qəbul etməliyik". Onun təklifindən sonra Azərbaycan Hökumətinin Büdcə-Maliyyə Komissiyası tərəfindən Daxili İşlər Nazirliyinin yeni ştatları üzrə aşağıdakı yeniliklər bəyan olunmuşdu:

1. Zaqatala şəhərində pristav vəzifəsi polismeyster vəzifəsi ilə əvəz edilir. Zaqatala pristavı Nuxa və Şuşa pristavları ilə eyni miqdarda maaş alacaqdır.

3. 1) Bakı polismeysternin əmək haqqı 2.300, qulluqçuların maaşı isə ayda 1800 manata çatdırılır.

4. Yeni maaşlar bu il yanvarın 1-dən qüvvədə sayılır.

5. Əmək haqlarının qaldırılması haqqında hazırkı qanun hüquq-mühafizə orqanlarında öz xidmətlərini tərk edən şəxslərə şamil edilmir.

6. Atlar üçün yem pulunun miqdarı Bakı və Balaxanı-Sabunçu polismeysterlikəri üzrə ayda 600 manat (ildə 7.200 manat)... müəyyən edilir.

9. Qəza rəislərinin yol pulu ildə 8.400 manat, onların köməkçiləri üçün 4.200 manat, sahə pristavları üçün 3.000 və onların köməkçiləri üçün 1800 manat müəyyən edilir.

...Azərbaycan Parlamentinin 9 aprel 1919-cu il tarixli iclasında Daxili İşlər Nazirliyinin həmin müzakirə edilən 14 maddədən ibarət yeni ştatları 8 nəfər əleyhinə və 44 nəfər lehinə olmaqla qəbul edilmişdi.

N.Yusifbəylinin başçılığı altında təşkil olunub fəaliyyət göstərmiş 4-cü hökumət kabineti dövründə X. Xasməmmədov yenə



qısa müddətdə daxili işlər, Nəsib bəyin rəhbərlik etdiyi axırıncı - 5-ci hökumət kabineti dövründə (24 dekabr 1919-cu il - 30 mart 1920-ci il) isə "Müsavat"ı təmsil etməklə ədliyyə naziri vəzifələrində fəaliyyət göstərmişdi. Ədliyyə naziri vəzifəsində işlərkən də X. Xasməmmədov Azərbaycanda ədliyyə işinin təşkilatçısı idi.

...Azərbaycanda sovet hakimiyyətinin qurulması və milli müstəqil Cümhuriyyətimizin süqutu xəbərini Xəlil bəy İstanbulda eşitmişdi. Çünki o, 1920-ci il aprelin əvvəlində Türkiyəyə səfir təyin olunmuşdu. Buna baxmayaraq, bir çox silahdaşlarının - F. Xoyskinin, H. Ağayevin, M. Vəkilovun, Ş. Rüstəmbəylinin və başqalarının o zaman Tiflisə gələrək orada yaşadıqlarını bilən Xəlil bəy də bu şəhərə gəlmiş, bir müddət orada yaşamışdı. Lakin duyurdu ki, sabiq müsavatçıları təqib edən XI ordunun Xüsusi Şöbəsinin rəisi, cəllad Semyon Pankratovun "qırmızı terrorundan" yaxa qurtara bilməyəcək. Odur ki, 1920-ci il iyunun 19-da Tiflisdə Azərbaycan Hökumətinin sabiq Baş naziri və daxili işlər naziri F. Xoyskinin muzdlu erməni terrorçuları tərəfindən qətlə yetirilməsindən sonra (həmin hadisə zamanı Fətəli xanın yanında olan Xəlil bəy erməni terrorçusu ilə atışmada özü də yaralanmışdı. Xəlil bəy boynuna dəyən həmin gülləni 1946-cı ilə qədər gəzdirmişdi...) daha Tiflisdə qalmayıb Türkiyəyə, İstanbula mühacirət etmiş və ömrünün sonunadək orada yaşamışdı. X. Xasməmmədovun yaşadığı İstanbul şəhərində Azərbaycan Cümhuriyyətinin keçmiş 8 naziri məskunlaşmışdı... Siyasi mühacir həyatında da fəaliyyətini dayandırmayan X. Xasməmmədov daim xalqını unutmurdu. O, sovet hakimiyyəti ilə barışmaz mövqeyində qalmışdı... 1942-ci ilin yazında Almaniyanın Xarici İşlər Nazirliyi xətti ilə Berlinə görüşə dəvət edilmiş tanınmış Qafqaz siyasi mühacirləri arasında X. Xasməmmədov da vardı. 1943-cü il noyabrın 6-da Almaniyanın Berlin şəhərində "Kayserof" şəhərində keçirilən Milli Azərbaycan mühacirlərinin qurultayı keçirilmişdi. Konqresdə o, Rəyasət Heyətinin fəxri üzvü seçilmişdi. Həmin konqresdə "Azərbaycan Milli Birlik Məclisi" yaradılmışdı. "Milli Birlik Məclisi" təşkilatını Amerika Konqresi maliyyələşdirirdi... Təşkilatın Parisdə "Azərbaycan" adlı və "Milli Birlik" adlı jurnalları çıxırdı. 1953-cü ildə isə "Azadlıq" radiosunun Azərbaycan şöbəsi də yaradılmışdı .

X. Xasməmmədov 1947-ci ildə 74 yaşında İstanbulda vəfat etmiş və orada "Fəri köy" məzarlığında dəfn olunmuşdu. İstanbulda azərbaycanlı mühacirlərin ən çox dəfn olunduğu məhz "Fəri köy" qəbristanlığıdır. Bu qəbristanlıqda 20 görkəmli soydaşımız dəfn olunmuşdur. Hamısıda: "Vətən! "Vətən!" ,- deyə-deyə dünyasını dəyişmişlər. X. Xasməmmədovun məzarının üstündə "Gurgörən" soyadı yazılıb. Mərhum jurnalist Xanlar Bayramov (1948 - 2010) hələ 1992-ci ildə İstanbulda olarkən orada yaşayan Nağı bəy Şeyxzamanovun ("Keykur") (**Haşiyə** : Şeyxzamnovların əcdadı dahi şair Şeyx Nizami sayılır...) oğlu Yavuz bəylə və Xəlil bəyin kiçik qardaşı Nağı bəy Xasmədovun oğlu Toğrul Cuvarlı ilə birlikdə "Fəri köy" qəbristanlığına gedib orada uyuyan görkəmli mərhum istiqlal xadimlərimizin məzarlarını ziyarət etmiş və xatirə şəklidə çəkdirmişdir. Toğrul bəy söyləyib ki, əmisi Xəlil bəy İstanbulda özünə "Gurgörən" təxəllüsünü götürmüşdü... Qəbristan rəhbərliyi bildirmişdir ki, qeydiyyat kitabı üzrə Xəlil bəyin məzarı qəbirlər sırasında sayca 22-cidir... Özüdə qəbrinin üzərində vəfat tarixi heçdə tarixi ədəbiyyatlarda və rəsmi jurnallarda göstərildiyi kimi (məsələn, bax: Parlamant-90. Xüsusi buraxılış. Milli Məclis. Bakı, 2008, səh.78 ) 1947-ci il deyil, 1945-ci il yazılmışdır. Deməli, Xəlil bəy bəlkədə 1945-ci ildə fəvat etmiş, ancaq onun bu tarixini qeyri dəqiq olaraq 1947-ci il yazmışlar. Yaxud, əksinədir...

X. Xasməmmədovun xatirəsinin əbədiləşdirilməsi üçün addımlar atılmışdır. 1992-ci il iyunun 22-də Azərbaycan Respublikasının Prezidenti Hüquq Kadırlarının Təkmilləşdirilməsi İnstitutuna Xəlil bəy Xasməmmədovun adının verilməsi haqında sərəncam imzalamışdı... Azərbaycan Respublikası Ədliyyə Nazirliyində X. Xasmədovun adını daşıyan muzey təşkil olunmuşdur. Azərbaycan Respublikasının ikinci şəhəri olan Gəncədə Xəlil bəy Xasməmmədovun adına küçə vardır. Bakıda Bakıxanov qəsəbəsində və Kürdəxanı kəndində də X.Xasməmmədovun adına küçələr vardır.



## NƏSİB BƏY YUSİFBƏYLİ
## (1881-1920)



Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimi N.Yusifbəyli Azərbaycan Cümhuriyyəti dövründə (28 may 1918-ci il – 27 aprel 1920-ci il) iki hökumət kabinetinin başçısı, 4-cü hökumət kabineti zamanı eyni zamanda daxili işlər naziri olmuşdur.

Nəsib bəy Yusif bəy oğlu Yusifbəyli 1881-ci ildə Gəncədə məşhur nəsillərdən birində, ziyalı ailəsində dünyaya gəlmişdi. Atası Yusif bəy (1852-1922) Həşim bəy oğlu şəhərin maarifpərvər, həm də xeyirxah və köməyə ehtiyacı olanlara əl tutan şəxslərindən idi. Həşim bəy Gəncə xanı Cavad xanın vəziri Usub bəyin nəvəsi idi. Yusif bəyin anası Bəsirət xanım isə dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin atası Əbdülhüseynin bibisi idi. Yusif bəyin Gəncə şəhərinin kənarında kərpic zavodu vardı. O, Gəncəyə içməli bulaq suyu - 3 kəhriz çəkdirmişdi. Həmin kəhrizlər 1960-cı ilin əvvəllərinədək dururdu...

Yusif bəyin Hacıkənddəki "Lemşə bulağı" deyilən yerdəki ikimərtəbəli evinə Gəncə şəhərinin və bütün Gəncəbasarın sayılıb-seçilən şəxsləri yığışar, istiqlal, müstəqillik, muxtariyyat haqda söhbətlər edərdilər...Yelizavetpol quberniyasının qubernatoru bundan xəbər tutaraq ermənilərə tapşırıq vermişdiki, həmin evi yandırsınlar və onlarda 1905-ci ilin yanvarında gecə bunu həyata keçirmişdilər...

Nəsib bəy orta təhsilini Gəncə klassik gimnaziyasında aldıqdan sonra 1902-ci ildə Odessa şəhərinə gedib orada "Novorossiysk" Universitetinin hüquq fakültəsinə daxil olmuşdu. Elə Universitetdə Birinci rus inqilabı (1904-05) ərəfsində, 1904-cü ildə gizli siyasi fəaliyyətə başlamışdı. O, Universitetdə yaradılan "Azərbaycan həmyerlilər təşkilatı"nın rəhbərlərindən Nəriman Nəri-

manov (1870-1925), Xosrov bəy Sultanov (1879-1947), M.Axıcanov (1892-1920) və Məhəmməd bəy Şahmalıyev (1870-1924) ilə birlikdə çarizmin müstəmləkə siyasətinə qarşı mübarizə aparırdı.

Tələbələrin inqilabi mübarizəsindən qorxuya düşən çar hökuməti 1907-ci ildə Odessa Universitetini müvəqqəti bağlamışdı. Bu zaman Nəsib bəy Krımın Bağçasaray şəhərinə köçmüş və orada görkəmli ictimai-siyasi xadim İsmayıl bəy Qaspiralının (1851-1914) redaktor olduğu "Tərcüman" qəzetində məqalələrlə çıxış etməyə başlamışdı. O, elə İsmayıl bəyin qızı Şəfiqə Sultan xanımla (1886-1975) ailə həyatı qurmuş və bir müddət bu şəhərdə yaşamışdı. Həmin dövrdə N.Yusifbəyli Bağçasarayda Azərbaycan dramaturqlarının əsərlərini tamaşaya qoymuş və özü də əsas rollarda çıxışlar etmişdi. "Tərcüman" qəzetinin 13 yanvar 1907-ci il tarixli nömrəsində bildirilirdi ki, Bağçasaray teatr həvəskarları tərəfindən Əbdürrəhim bəy Haqverdiyevin (1870, Şuşa - 1933, Bakı) "Dağılan tifaq" faciəsi tamaşaya qoyulmuşdu. Baş rolda - Nəcəf bəy rolunda Nəsib bəy oynamışdı. N.Yusifbəyli həmin illərdə görkəmli Azərbaycan ədəbiyyatşünası Firidun bəy Köçərlinin "Azərbaycan ədəbiyyatı" (Firidun bəy Əhməd bəy oğlu Köçərli 26 yanvar 1863-cü ildə Şuşada doğulmuşdu. Görkəmli ədəbiyyatşünas, maarifçi və pedaqoq idi. Azərbaycan Cümhuriyyəti dövründə Qori Müəllimlər Seminariyasının Gürcüstandan Qazax şəhərinə köçürülməsinin təşəbbüskarı olmuşdu. Qazax Seminariyasının müdiri işləmişdi. Gəncə üsyanında (24 may - 4 iyun 1920-ci il) təqsirli bilinərək, XI ordunun Xüsusi Şöbəsi tərəfindən həbs edilərək, sorğusuz-sualsız vəhşicəsinə güllələnmişdi) və otuz dörd il Zaqafqaziyanın müftisi olmuş, böyük maarifpərvər-ilahiyyatçı, ictimai xadim və filoloq alim Mirzə Hüseyn əfəndi Qayıbzadənin (Qayıbovun) (1826-1917) əsərlərinin Bağçasaray şəhərində çap olunmasına çox çalışsa da, naməlum səbəblərdən istəyinə nail ola bilməmişdi. Bununla belə, Nəsib bəy XX əsr Azərbaycan - Krım ədəbi-mədəni əlaqələrinin əsasını qoyanlardan biri sayılır.

Çar hökuməti orqanlarının güclənən təqiblərindən yaxa qurtarmaq üçün Nəsib bəy Odessada "Novorossiysk" Universitetinin 4-cü kursundan yarımçıq çıxaraq, 1908-ci ildə İstanbula gəlmişdi ("İstanbul" latın - yunan sözü olub, "İstin polis", "şəhərə gedirəm".



"şəhərə girirəm" deməkdir. Bu sözü ilk dəfə XV əsrdə - 1453-cü il mayın 29-da Bizansın paytaxtı Konstantinopolu fəth edərkən Osmanlı İmperiyasının hökmdarı Sultan Muradın oğlu Fateh Sultan II Mehmet (20 mart 1432, İstanbul - 3 may 1481) söyləmişdir. Həmin tarixdən Konstantinopolun adı dəyişdirilərək İstanbul qoyulmuşdur. İstanbul 1453-cü il mayın 29-dan 1923-cü il oktyabrın 13-dək Osmanlı İmperiyasının paytaxtı olmuşdur. Bu şəhər hazırda Türkiyənin ən iri şəhəridir. İstanbulda 20 milyondan çox əhali yaşayır. 1923-cü il oktyabrın 29-dan isə Türkiyənin paytaxtı Ankaradır ("Ankara" sözü e. ə. 7-ci əsrdən bəllidir; yunanca "anqura" sözündəndir, mənası "lövbər salınan", "lövbər atılan yer" deməkdir. Osmanlı Türkiyəsinin ilk paytaxtı isə Bursa şəhəridir...

1908-ci ildə İstanbulda Nəsib bəy "Türk dərnəyi" adlı cəmiyyətin yaradıcılarından biri olmuşdu. Lakin burada da "təzyiqlərə" məruz qaldığından 1909-cu ildə Gəncəyə qayıtmışdı. 1910-17-ci illərdə N.Yusifbəyli xalqının bir qrup maarifpərvər adamları ilə birlikdə fəaliyyətini davam etdirmişdi. O, Azərbaycan dramaturgiyasının banisi M. F. Axundovun anadan olmasının 100 illiyini geniş qeyd etmək təşəbbüslərinə ilk qoşulanlarından biri idi. Nəsib bəy həmin illərdə "Molla Nəsrəddin" satirik jurnalını hücumlardan müdafiə edənlərdən də biri idi. O, Gəncədə yaradılmış "Müsəlman Xeyriyyə Cəmiyyəti"nin, "Müsəlmanlar içində maarif yayan cəmiyyət"in və "Aktyorlar Cəmiyyəti"nin fəaliyyətində yaxından iştirak edirdi. "Azərbaycan ədəbiyyatı tarixi" əsərini də məhz həmin dövrdə yazıb başa çatdırmışdı (bu əsərin əlyazmasının sonrakı taleyi məlum deyil).

1917-ci ilin Fevralında Rusiyada burjua-demokratik inqilabı baş verdikdən sonra, yaranmış tarixi leqal şəraitdə həmin il mart ayının 3-də N.Yusifbəyli tərəfindən Gəncədə "Türk Ədəmi-Mərkəziyyət (Federalist) Firqəsi" yaradılıb fəaliyyətə başlamışdı. Nəsib bəy bu partiyanı keşmiş "Qeyrət" (1905) təşkilatının bazası əsasında yaratmışdı. Partiyanı yaratmaqda ona Gəncədə böyük nüfuz sahibi olan atası Yusif bəy yaxındanköməklik göstərmişdi... Nəsib bəy bu partiyaya xalqını müstəqilliyə çıxara biləcək bir mübariz siyasi orqan kimi baxırdı. O, bu partiyanı vaxtı ilə Gəncə Bələdiyyə İdarəsində çalışdığı zaman (1906-cı il) gizli fəaliyyət

göstərən "Dram Cəmiyyəti" təşkilatının əsasında yaratmışdı. Tezliklə, Gəncədə böyük nüfuz qazanmış bu partiyanın əsas məqsədi federativ əsasda Rusiyanın tərkibində Azərbaycana muxtariyyət verilməsinə nail olmaq idi. Bu cəhətdən onun proqramı Nəsib bəyin məslək dostu və sıx əlaqədə olduğu M. Ə. Rəsulzadənin Bakıda fəaliyyət göstərən "Müsavat" partiyasına yaxın idi. Yeni partiya öz proqramı ilə xalqı tanış etmək üçün Gəncədəki şah Abbas (Səfəvi I şah Abbas Əla Kəbir (1571-1629). 13 fevral 1587-ci ildən 19 yanvar 1629-cu illərdə Səfəvilər dövlətinin şahı olmuşdur) məscidinin həyətində böyük mitinq təşkil etmişdi. Gəncədəki ermənilər buna mane olmaq istəsələr də, mitinq "Yaşasın, Demokratik Respublika!", "Yaşasın, Türk Ədəmi-Mərkəziyyət Partiyası!" şüarları altında uğurla başa çatdırılmışdı.

1917-ci il aprelin 17 - 21-də Bakıda "İsmailliyə"də (indiki AMEA-nın Rəyasət Heyətinin binası") keçirilən Qafqaz müsəlmanlarının qurultayındakı çıxışında N. Yusifbəyli Rusiyanın tərkibində Azərbaycana muxtariyyət verilməsini qəti şəkildə irəli sürmüşdü. Qurultayın əsas məsələsi öz müqəddəratını təyin etmək məsələsi idi. Qurultayda çıxış edən N.Yusifbəyli bildirmişdi ki, müstəqil dövlət yaradılsın. O, öz proqramında Qafqazın, Krımın və qismən Volqaboyunun müsəlmanlar yaşayan hissəsinin yaşıl işarələrlə qeyd olunduğu etnoqrafik xəritəni gözü yaşarmış halda və ehtirasla qurultaya toplaşanlara göstərərək demişdi ki, "Türk ocağı "Müsavat" partiyasının əhali arasında təşkil etdiyi özəkləri birləşdirən qurumdur. Müsəlmanlar Rusiyadan ayrılmaq istəmirlər". O, hamını yaşıl bayraq altına toplaşmağa çağırırdı. Lakin bolşeviklərdən N. Nərimanov, M. Əzizbəyov, H. Sultanov və b.-ı bildirirdilər ki, zəhmətkeş müsəlmanların xilası ancaq qırmızı bolşevik bayrağı ətrafında toplaşmaqdadır. Onlar fəhlə məsələsini həll etməyi tələb etdikdə, Nəsib bəy yenidən tribunaya qalxıb əlindəki Qafqaz etnoqrafik xəritəsini göstərərək: "Siz burada hansı məsələni qaldırırsınız? Əvvəlcə millətin məsələsini həll etməliyik, öz dövlətimiz, özünüidarəmiz olduqdan sonra isə öz evimizdə fəhlə məsələsini də həll edərik".

Qurultayda Nəsib bəy və M. Ə. Rəsulzadə razılığa gəlmişdilər ki, məramları eyni olan hər iki partiya - Gəncədəki "Türk Ədəmi-Mərkəziyyət Firqəsi" və Bakıdakı "Müsəlman Demokratik Müsavat Partiyası" birləşsin. 1917-ci ilin may ayının 1-11-i arasında Moskvada keçirilən Ümumrusiya müsəlmanlarının qurultayında iştirak edən hər iki görkəmli milli istiqlal mücahidi partiyaların vahid bir təşkilatda birləşməsini əməli həyata keçirmişdilər... Bu birləşmə qurultaydan sonra, rəsmən 1917-ci il iyunun 20-də (təzə stillə iyulun 3-də) baş vermiş, hər iki partiya "Müsavat" adı altında birləşmişdi. Nəsib bəy partiyanın Gəncə Şöbəsinin rəhbəri təsdiqlənmişdi. N.Yusifbəyli "Müsavat" partiyasının 500 nəfərin iştirakl ilə 1917-ci il oktyabrın 26-dan 31-dək Bakıda keçirilən I qurultayında yaxından iştirak etmişdi. Bu qurultaydan sonra "Azərbaycana muxtariyyət!" şüarı altında hərəkat xüsusilə qızğın xarakter almışdı.

N. Yusifbəyli Müvəqqəti hökumətin Zaqafqaziya Xüsusi Komitəsindən sonra (Zaqafqaziya Xüsusi Komitəsi fevral-burjua-demokratik inqilabından sonra Rusiyada yaranan knyaz Q. E. Lvovun (2 noyabr 1861, Drezden şəhəri, Almaniya - 8 mart 1921, Paris, Fransa) başçılıq etdiyi Müvəqqəti hökumətin Zaqafqaziyadakı səlahiyyətli icraiyyə orqanı kimi Qafqaz Canişinliyinin (1844-1917) ləğvindən sonra onun əvəzinə 9 mart 1917-ci ildə Tiflisdə yaradılmışdı. Sədri kadet partiyasının üzvü A. Xarlamov idi).1918-ci ilin fevralından Zaqafqaziya Seymi, 1918-ci il aprelin 26-da müstəqil Zaqafqaziya Federativ Respublikası yarananda isə bu hökumətin maarif naziri təyin olunmuş və səmərəli fəaliyyət göstərmişdi... 1918-ci il mayın 26-da gürcü, azərbaycanlı və erməni deputatların daxil olduğu fraksiyalararası çəkişmələrin nəticəsində Zaqafqaziya Seymi süqut etdi. Mayın 27-də Tiflisdə M .Ə. Rəsulzadənin sədrliyi altında xalqımızın müstəqilliyinə nail olmaq üçün Seymin müsəlman fraksiyalarındakı partiyaların üzvlərindən ibarət Azərbaycan Milli Şurası yaranmışdı. N.Yusifbəyli Milli Şura sədrinin iki müavinindən biri (digəri Həsən bəy Ağayev idi) seçilmişdi. 1918-ci il Mayın 28-də Azərbaycan Cümhuriyyəti (Azərbaycan Demokratik Respublikası) yaranmışdı. F. Xoyskinin 1-ci hökumət kabineti zamanı) (28 may - 17 iyun 1918-ci il) "Müsavat"ı təmsil edən N.Yusifbəyli xalq maarif və maliyyə naziri təyin olunmuşdu. F. Xoyskinin sonrakı iki Nazirlər Kabinetində (17 iyun – 7 dekabr 1918-ci il və 26 dekabr 1918-ci il - 14 mart 1919-cu il) o, maarif və dini etiqad naziri kimi fəaliyyət göstərmişdi.

Həmin vəzifələrdə çalışarkən Nəsib bəy ümumi icbari təhsil, ibtidai və orta məktəblərin milliləşdirilməsini, milli azlıqların da öz dillərində oxumaları üçün qanun layihələrinin hazırlanması, mətbuat, söz, vicdan, ittifaqlar və tətillər azadlığına zəmanət verilməsi təkliflərini irəli sürmüşdü. Nəsib bəy Azərbaycan Parlamentindəki çıxışında demişdi: "Cənab Parlament üzvləri, əsas azadlıqlar: söz, mətbuat, yığıncaq, ittifaq və tətillər azadlıqları hər bir mədəni demokratik ölkənin özülünü təşkil edir. Hər şeydən yazmaq və danışmaq olar, harada istəsən yığışmaq olar, lakin bunlara yol yalnız bircə müqəddəs hüquqa – Azərbaycan xalqının müstəqillik hüququna toxunmamaq şərtilə verilir". Nəsib bəy bütün azadlıqlar içərisində vicdan və yaşamaq azadlığını ən müqəddəs azadlıqlar hesab edirdi.

N. Yusifbəyli Azərbaycanda yaşayan milli azlıqların hüquqlarının qorunması, onların dini azadlığının, mədəni-milli xüsusiyyətlərinin mühafizə olunub saxlanmasını, milli ədavətlərin aradan götürülməsi üzərində ayrıca dayanaraq deyirdi: "Hökumətimiz bütün səylərini ona yönəldib ki, Azərbaycan onun ərazisində yaşayan bütün xalqlar və millətlər üçün sevimli Vətənə çevrilsin. Hökumət bütün gücü ilə milli düşmənçiliyin alovlanmasına yol verməyəcək və bu cür halların qarşısını alacaqdır".

N.Yusifbəyli Parlament yığıncağında azad əməyi təmin edə biləcək fəhlə qanunvericiliyinin, habelə kəndlilərə ödənişsiz torpaq verməyi nəzərdə tutan torpaq qanunvericiliyinin hazırlanması, demokratik əsasda yerli özünüidarə orqanlarının qurulmasını irəli sürürdü.

1918-ci il oktyabrın 26-da Gəncədə gizir məktəbi məzunlarının ilk buraxılış mərasimi olmuşdu. Bu məktəb 1918-ci ilin iyununda açılmışdı. Onun açılmasında general-leytenant Əli ağa Şıxlınski və polkovnik Süleyman bəy Əfəndiyev mühüm rol oynamışdılar...Təntənəli buraxılış mərasimində Qafqaz İslam Ordusunun Baş komandanı Faruq Nuru paşanın atası Hacı Əhməd Paşa, Əlahiddə Azərbaycan Korpusunun komandiri, general-leytenant Əli ağa Şıxlinski, 14-cü Çanaqqala diviziyasının komandiri albay Nazim bəy, Gəncə qubernatoru, polkovnik İbrahim ağa Vəkilov, şəhər başçısı Ələkbər bəy Xasməmmədov, həmçinin Bakıdan Azərbaycan hökumətinin rəsmi nümayəndələri - maarif naziri Nəsib bəy Yusifbəyli, maliyyə naziri Musa bəy Rəfiyev (1888-1938), daxili işlər nazirinin müavini Mehdi bəy Hacınski (1879-1941) və digər yüksək səviyyəli qonaqlar iştirak edirdilər.



Gizir məktəbinin buraxılış mərasimində xalq maarif naziri N. Yusifbəylinin çıxışı çox təsirli olmuşdu. O, demişdi: "Balalarım, Azərbaycanın və millətin gələcəyi sizin əlinizdədir. Əgər güclü ordu yarada bilsəniz, deməli, millətin gələcəyi təmin olunacaq. Bu gün gördüklərim məni əmin etdi və bura ezam edən hökumətimizə onu çatdırmaq hüququ verdi ki, ölkənin istiqbalına (gələcəyinə – İ.Ş.) görə sakit ola bilər. Qısa vaxt ərzində əldə etdiyiniz uğurlara çətin ki, ən mədəni və bacarıqlı xalqların oğulları nail ola bilsin". Nəsib bəy sonra Əhməd Paşaya xitabən söyləmişdi:

- "Əlahəzrət! Sizin şanlı oğullarınız Ənvər paşa və Nuru paşa təkcə Azərbaycanın deyil, bütün türk xalqlarının yaddaşında həmişəlik qalacaqlar. Belə qəhrəmanların atası başını uca tuta, xoşbəxt ola bilər. Allah Sizi və Sizin övladlarınızı qorusun". Nəsib bəy axırda hökumət adından bildirmişdi: "Bu gün bütün qonşu millətlərin nümayəndələri Azərbaycan oğullarının bacarığına və istedadına əmin oldular. Belə qüvvəyə malik ölkənin gələcəyi qorxulu deyil".

Mərasimdə DİN-in adından rəsmi şəxs kimi iştirak edən Azərbaycan Cümhuriyyəti daxili işlər nazirinin (o zaman daxili işlər naziri Behbud xan Cavanşir idi) müavini Mehdi bəy Hacınski öz çıxışında bildirmişdi ki, bu günlərdə Bakıda da 1200 nəfərlik belə bir məktəb açılacaq. Əmin olmaq lazımdır ki, onun müdavimləri də bu cür parlaq nailiyyətlər əldə edəcəklər.

***Haşiyə***: Azərbaycanda ilk gizir məktəbi 1918-ci ilin iyununda Gəncədə yaradılıb, ilk dövrlərdə Qafqaz Müsəlman Ordusuna tabeydi. Gizir məktəbində 250-dən çox gənc təhsil alırdı. Onlar kursu gizir kimi başa vurduqdan sonra 6 ay ərzində zabit rütbəsi alırdılar. Məktəbin rəisi zabit-pedaqoq, albay (polkovnik) Atif bəy idi. 1918-ci il oktyabrın 26-da məktəbin ilk buraxılışı zamanı 200 nəfər gənc məktəbi bitirmişdi.

... N. Yusifbəyli 1918-ci ilin noyabrında müttəfiq qoşunların Bakıya gəlməyə hazırlaşan komandanı general Vilyam Tomsonla danışıqlar aparmaq üçün üç nəfərdən ibarət nümayəndə heyətinin başçısı kimi İranın Ənzəli şəhərinə gedib onunla görüşmüşdü.

1919-cu il martın 14-də N. Yusifbəyli Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının sədri, bir qədər sonra - aprel ayından isə həm də daxili işlər naziri kimi fəaliyyətə başlamışdı. Aprel ayının 14-də o, yeni yaratdığı kabinetin üzvlərini Azərbaycan Cümhuriyyəti Parlamentinə təqdim etmişdi. N. Yusifbəyli hökumətdə Nazirlər Şurasının sədri və daxili işlər naziri vəzifələrini tutduğunu bəyan etmişdi. Təxminən bir aydan sonra, 1919-cu il aprelin 16-da Nəsib bəyin Parlamentin iclasında hökumətin Bəyannaməsi haqqında çıxışı çox təsirli olmuş və dəfələrlə alqışlanmışdı. Bakıdakı ingilis komandanlığı nümayəndəliyinin də iştirak etdiyi həmin iclasda N. Yusifbəyli çoxmillətli Parlament üzvlərini və qonaqları Azərbaycanın mövcudluğunun əsas prinsipi olan İstiqlal prinsipindən dönməyəcəyinə əmin edən dəlillər gətirmiş, ərazi bütövlüyümüzün dəyişilməzliyini və müqəddəsliyini diqqətə çatdırmışdı.

N. Yusifbəyli Azərbaycan Parlamentini beynəlxalq miqyasda xalqımızı layiqincə təmsil edən və həqiqi demokratik zəmində qurulmuş bir siyasi forum kimi yüksək qiymətləndirir və vaxtaşırı onun tribunasından öz fikirlərini səsləndirirdi. Azərbaycan Parlamentinin iclaslarında çox partiya, fraksiya və qrupların qızğın siyasi diskussiyalar şəraitinin, fikir plüralizminin formalaşdırılması və təmin edilməsində Nəsib bəyin rolu az olmamışdı...

Azərbaycan Cümhuriyyətinin 4-cü hökumətinin sədri, eyni zamanda daxili işlər naziri vəzifəsini öz üzərinə götürən N. Yusifbəyli (o dövrün mətbuatında və tarixi ədəbiyyatda "Usubbəyov" soyadı kimi də əksini tapıb) Parlamentdə çıxış etdiyi gün, 1919-cu il aprelin 16-da bəyan etdiyi 63 nömrəli əmrdə bildirirdi:

"Bu gündən etibarən Daxili İşlər Nazirliyinə rəhbərliyə başladığımı bütün təşkilata elan edirəm. Ölkədə qanunçuluğun və qaydanın daha da möhkəmləndirilməsini Daxili İşlər Nazirliyinin ən ümdə vəzifəsi kimi qarşıya qoyuram. Hansı milliyyət, partiya, əhali, qrup və ya ayrı-ayrı şəxslər tərəfindən törədilməsinə baxmayaraq, istənilən anarxist çıxışların qarşısı mənim tərəfimdən qəti tədbirlə alınacaq.

Vətəndaşların şəxsi və əmlak təhlükəsizliyinin qorunması üçün ən təsirli tədbirləri görəcəyəm.

Azərbaycanda yaşayan bütün millətlər mənim şəxsimdə özlərinə və qanuni hüquqlarının qorunmasına eyni münasibət görəcəklər.



Mən milli ədavətin heç bir təzahürünə yol verməyəcəyəm və bu zəmində hər cür iğtişaşlar sərəncamımda olan bütün vasitələrlə yatırılacaq. Mən, habelə yerli inzibati rəhbərlik, xüsusilə onun aşağı agentləri arasında, çox təəssüf ki, kök salmış rüşvətxorluq və alverçilik halları ilə mübarizəni öz qarşımda vəzifə kimi qoyuram; mən bu cür təzahürlərə qarşı amansız olacağam və vəzifə cinayətlərinin vaxtında və surətlə təhqiq edilməsi, bunlarda təqsirli olanların ifşa edilməsi və məhkəməyə verilməsi üçün tədbirlər görəcəyəm.

Bu xüsusda mən qəza rəisləri vəzifələrinə namizəd seçməkdə cənab qubernatorlara sərbəstlik verirəm və həmin rəisləri onların təqdimatına görə təsdiq edəcəyəm. Qəza inzibati orqanı agentlərinin aşağı çinləri üçün sərbəst namizəd seçmək xüsusunda eyni ilə bu cür hüquq qəza rəislərinə də verilmişdir. Bu zaman xəbərdarlıq etməyi zəruri sayıram ki, təqdimatlar ilə təyin olunmuş şəxslərin hərəkətləri üçün bütün məsuliyyəti mən cənab qubernatorların üzərinə qoyacağam.

Mən Daxili İşlər Nazirliyinin bütün çinlərindən göstərdiyim məqsədlərə nail olmaq üçün var qüvvə ilə işləyəcəklərini, xidməti borcu vicdanla yerinə yetirəcəklərini gözlətirəm.

Daxili işlər naziri **Nəsib bəy Usubbəyov**".

Məzmunundan göründüyü kimi, bu əmrdə daxili işlər naziri tərəfindən qarşıya qoyulan vəzifələr olduqca aydın və konkret göstərilmişdir.

Azərbaycan Cümhuriyyəti, onun hökuməti, Daxili İşlər Nazirliyi xalqın demokratik azadlıqlarını təmin etmək üçün çox iş görür və buna əks yönəlmiş hər hansı qəsdin qarşısını qətiyyətlə alırdılar. Bu baxımdan Azərbaycan Hökumətinin 1919-cu il 6 may tarixli qərarı çox xarakterikdir. Belə ki, 1919-cu il mayın 5-də Bakıda konkret siyasi məqsədlər güdən iqtisadi tətil başlanmışdı. Hökumət elə səhərisi gün daxili işlər naziri N. Yusifbəylinin Mərkəzi Fəhlə Tətil Komitəsinin tətil etməsinə dair məruzəsini dinləmiş və bunun əsasında aşağıdakı kimi qərar qəbul etmişdi:

1. Fəhlə Konfransının elan etdiyi tətil siyasi tətil sayılsın;
2. Daxili işlər nazirinə fəaliyyəti Azərbaycan Cümhuriyyəti dövlətçiliyinin əsasına qarşı yönəlmiş olduğu hesab etdiyi adamların həbsi, hətta Azərbaycan hüdudlarından çıxarılması tədbirləri də

daxil olmaqla tətilin ləğv edilməsi üzrə tam sərbəst hərəkət etmək hüququ verilsin;

3. Tətil günlərində fəhlələrə məvacib verilməsin;

4. Əmək nazirinə fəhlələrin iqtisadi tələblərinin ədalətli hissələrinin, iş adamları və fəhlələrlə birgə müzakirə etmək və sonra hökumətə məlumat vermək tapşırılsın;

5. Nazir-sədrə fəhlələrə müvafiq müraciət etmək tapşırılsın".

Lakin siyasi məqsədlər güdən, 3 gün tətil edən, buna məhəl qoymadıqları, əksinə, hökumət qarşısında ultimatum irəli sürməyə cəhd göstərdikləri üçün Bakı polismeysteri Rüstəm bəy Mirzəyev (1860-1920) mayın 9-da tətilin təşkillatçıları olan, Rusiyadan idarə edilən bolşeviklərin liderləri - Əli Heydər Qarayevi (1896, Bakı quberniyası, Şamaxı şəhəri - 1938; otuzuncu illərdə repressiya olunmuş və 1938-ci ildə güllələnmişdir), Anastas Mikoyanı (Anastas İvanoviç Mikoyan, 1895, Tiflis quberniyasının Sanain kəndi; indiki Ermənistanın Alaverdi rayonu - 1978, Moskva), Levon Mirzoyanı (1897, Gəncə quberniyasının Şuşa qəzası, Aşan kəndi - 1938; otuzuncu illərdə repressiya olunmuş və 1938-ci ildə güllələnmişdir), İvan Anaşkini (1880, Tambov - 1938; otuzuncu illərdə repressiya olunmuş və güllələnmişdir), A. E. Çurayevi, Kovalı, V.V. Lominadzeni (1897, Gürcüstan-1935; otuzuncu illərdə repressiyaya məruz qalmış, 1935-ci ildə özünü öldürmüşdür), B. Şaboldayevi (sonralar, 1920-ci il martın 30-da Dağıstanda sovet qoşunlarının komandanı təyin edilmişdi) və ümumiyyətlə, 43 nəfəri həbs edib, ciddi polis mühafizəsinin müşayiətilə Bakı Polismeysterliyinə gətirmişdi. Toxunulmazlıq hüququ olan Parlamentin üzvü Ə. H. Qarayevə qanunsuz və icazə verilməmiş mitinq fəaliyyətində bulunduğu ona izah olunmuş və azad edildiyi bildirilmişdi. Sonra digərləri də buraxılmışdı...

Azərbaycan Cümhuriyyəti DİN-in orqanları torpaqlarımızı qoruyacaq sərhəd qüvvələrinin yaradılmasında, torpaqların bölünüb kəndlilərə verilməsində, bu zaman onlara qarşı qanunsuz vergilərin tətbiqinə və sıxışdırılması əleyhinə, Azərbaycan Ordusu sıralarına yeni çağırışçıların toplanmasının təşkilində də fəal iştirak edirdilər. Azərbaycan Cümhuriyyətinin demokratik mahiyyətini öz fəaliyyəti ilə təmsil edən DİN ölkədə demokratik prinsiplərin gözlənilməsini



nizamlayırdı. Azərbaycan DİN-in 28 aprel 1919-cu il tarixli əmri ilə arzu edən hər kəs, o cümlədən, siyasətlə məşğul olanlar ölkənin hüdudlarından heç bir əlavə vizaya ehtiyac olmadan kənara çıxa bilərdilər. Bu cür hüquq o zamankı siyasi partiyalara və ictimai təşkilatlara da şamil edilmişdi...

N. Yusifbəyli bir daxili işlər naziri kimi fəaliyyətə başlayandan sonra ilk tədbirlərindən biri zərurət olaraq DİN-in strukturlarını təcrübəli kadrlarla möhkəmləndirmək, onların idarəçiliyini təkmilləşdirmək idi. Məsələn, N. Yusifbəylinin təklifi və təqdimatı üzrə, Azərbaycan Hökumətinin 6 may 1919-cu il tarixli qərarı ilə xalqımızın milli istiqlaliyyəti, müstəqilliyi uğrunda fəal mübarizlərdən biri, Gəncəbasarın məşhur Rəfibəylilər nəslindən olan Xudadat bəy Rəfibəyli (1877-1920) Gəncə quberniyasının general-qubernatoru vəzifəsinə təyin edilmiş, bu vəzifədə Azərbaycan Cümhuriyyəti süqut edənə kimi qətiyyətlə və yorulmadan fəaliyyət göstərmişdi...

N. Yusifbəyli bir hökumət başçısı və eyni zamanda da daxili işlər naziri kimi dövlət əleyhinə qarşı aparılan bütün təzahürlərin aradan qaldırılmasına çalışırdı. Bu işdə hətta Bakıdakı ingilis polisi ilə əməkdaşlıqdan da istifadə edirdi. Onun göstərişləri ilə 1919-cu ilin mayından oktyabrınadək Bakı polisi müttəfiq qoşunların qərargahının müdafiəsi və ingilis polisnin iştirakı ilə Azərbaycan Hökumətinə qarşı gizli pozuculuq işləri ilə məşğul olan bir qrup görkəmli bolşevik fəalını, o cümlədən, Eminbəyli İbrahim Abdulla oğlunu (1894, Gəncə - 1937; 30-cu illərdə repressiyaya məruz qalıb və güllələnib), Axundov Şirəli Baxşəli oğlunu (1886, Bakı quberniyasının Lənkəran qəzası, Razigirdani kəndi - 1960, Lənkəran şəhər), may ayında Qasımov Mirbəşir Fəttah oğlunu (1879, Cənubi Azərbaycan (İran), Təbriz vilayəti, Daşbulaq kəndi -1949, Bakı), Mirzoyan Levon İsayeviçi (1897-1938), Roqov Nikifor Fyodroviçi (1887, Simbirski quberniyası, Korsunski qəzası, Sudoseve kəndi - fevral 1920-ci ildə dənizdə hərbi gəmidəki Denikin ağqvardiyaçılar tərəfindən saxlanılaraq digər bolşevik yoldaşları ilə birlikdə güllələnmişdir), Hüseynov Rəhim Məmməd Cəfər oğlunu (1891, Gədəbəy - 1937; 30-cu illərdə repressiya olunub və güllələnib), Dadaşov Müseyib Mirzə oğlunu (1896, Bakı qəzasının Balaxanı kəndi - 1967, Bakı), Tağıyev İbrahim Tağı oğlunu (1894, Qazax qəzasının

Öksüzlü kəndi - 1938; 30-cu illərdə repressiya olunub və güllələnib), Konkin İvan Mixayloviçi (1896, Gəncə qəzası, Gədəbəy sahəsi, Slavyanka kəndi-1954, Moskva), Qutin Semyon Aveloviçi (1897, Bakı - 1938; repressiya olunub və 1938-ci ildə güllələnib), Ağa-zadə Kamran Cəfər oğlunu (1891, Cənubi Azərbaycan, Ərdəbil Vilayəti Pərni kəndi-1939; ağır xəstəlikdən sonra vəfat etmişdir), Anaşkin İvan İvanoviçi (1880-1937; 30-cu illərdə repressiya olunmuş və 1937-ci il dekabrın 30-dan 31-nə keçən gecə güllələnmişdi. O, həmin gecə güllələnən 48 nəfərin içərisində sayca 29-cu idi...), iyunda Bünyadzadə Dadaş Xoca oğlunu (1888-1938), Sərdarov Bünyad Mədət oğlunu (1888-1919), sentyabrda Əliyev Haşım Bədəl oğlunu (1892, Bakı-5 sentyabr 1919; öldürülmüşdür...), Musəvi Mir Fəttah Əli oğlunu (1891, Şuşa -5 sentyabr 1919, Bakı; öldürülmüşdür...), Cəbrayılov Məmməd Hüseyn Rüstəm oğlunu (1900-1938) həbs etmiş, müsəlləh dəstə yaradıb müqavimət göstərən "Qatır Məmmədi" (1887, Gəncə quberniyası, Goranboy - Əhmədli kəndi - 18 sentyabr 1919-cu il, Kür sahilindəki Qaraquvax kəndi; Azərbaycan Cümhuriyyəti tərəfindən güllələnmişdir) məhv etmişdi... Kütləvi həbslər ölkənin təhlükəsizliyi üçün narahatçılıq törədənlərə qarşı yönəlmişdi. Üstəlik, Bakıda və bölgələrdə vəziyyəti kəskinləşdirən cinayətkar ünsürlərlə də amansız mübarizə aparılırdı... Beləliklə, görünür ki, Azərbaycan DİN, onun polis orqanları Bakıda və bölgələrdə iki cəbhədə: siyasi məqsədlərlə pozuculuq törədənlərlə və habelə, bilavasitə cinayətkar hadisələrlə məşğul olan sırf kriminal, o cümlədən, transmilli qüvvələrlə mübarizə aparmalı olurdular...

Təyinat. 13 oktyabr 1919-cu il. Daxili işlər naziri N. Yusifbəylinin əmri ilə Əmiraslan xan Cahangir xan oğlu Xoyski (1881-1954) Qazaxın qubernatoru (DİN-in Qazax qəzasında Xüsusi Səlayiyyətli müvəkkili) təyin edilmişdi.

29 oktyabr 1919-cu il. Bakıda Azərbaycan Cümhuriyyəti Ordusunun nümayişi keçirilmişdi. Nümayişi Azərbaycan Cümhuriyyəti Hökumətinin başçısı və daxili işlər naziri N. Yusifbəyli qəbul etmişdi.

N. Yusifbəyli islahatçı idi. Onun nazirliyi dövründə müstəqil Azərbaycan polisinin formalaşmasının üçüncü mərhələsi başlanmışdı. Həmin mərhələdə ölkədə bütün daxili işlər orqanları respublika DİN-in əlində mərkəzləşmişdi. O cümlədən, Bakı və Balaxanı-Sabunçu polisi, habelə Bakı Qradonaçalnikliyinin də qəti olaraq DİN-ə tabeçiliyi başa çatmışdı. 1919-cu ilin iyununda Bakı şəhər polisinin ştatları da artırılmış və buna 5,5 milyon manat pul ayrılmışdı. Ölkə vətəndaşlarının şəxsiyyət və əmlak toxunulmazlığının mühafizəsi güclənmişdi. Azərbaycan ərazisində yaşayan bütün millətlərin hüquqlarının müdafiəsi təmin edilmiş, milli zəmində münaqişələr aradan qaldırılmışdı.Vəzifə cinayətlərilə mübarizə gücləndirilmişdi. Qubernatorlara və qəza rəislərinə yerlərdə polis xidmətinin təşkili üçün ən geniş səlahiyyətlər verilmişdi.

Daxili İşlər Nazirliyi erməni daşnakların törətdikləri fitnəkarlıqları dəf etmək üçün müstəsna tədbirlərə belə əl atmağa məcbur olurdu. Bunu DİN-in Mərkəzi Aparatına yerli orqanların göndərdikləri məlumatlardan bilmək olurdu. Gəncə qubernatorunun 1919-cu ildə daxili işlər naziri N.Yusifbəyliyə göndərdiyi raportunda deyilirdi: "Son illərin hadisələri ilə əlaqədar mənə tapşırılmış ərazidə müsəlmanların vəziyyəti xeyli ağırlaşmışdır. Ermənilər azərbaycanlılar, ruslar və kolonist almanlardan fərqli olaraq öz qaniçən hərəkətlərindən usanmır, kəndləri qarət edir, qadın və uşaqlara işgəncə verirlər. Daşnaqların vəhşiliyinin hüdüdu yoxdur. Orta əsr vəhşiliyi onların törətdikləri dəhşətlər qarşısında sönük görünür".

N. Yusifbəylinin qətiyyətli mövqeyi və hərəkətləri düşmənləri bərk narahat edirdi. Onlar bu görkəmli dövlət xadiminin həyatına qəsd niyətindən belə çəkilnmirdilər. Həmin aktlardan biri bu cür baş vermişdi:

- 7 iyun 1919-cu ildə Ədliyyə Nazirliyinə məhkəmə prokuroru Eristov tərəfindən 3112 nömrəli müraciət daxil olmuşdu. Orada deyilirdi ki, Bakı şəhərində günortaya yaxın Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının sədri N. Yusifbəyli öz mənzilindən (Baryatinski küçəsindəki 6 nömrəli evdən) çıxıb binanın ağzında onu gözləyən xidməti maşına əyləşib və yola düşüb. Bundan 5 dəqiqə keçmiş Nəsib bəyin mənzilinin kəndarında postda dayanmış Azərbaycan Hökumətinin süvari konvoyunun əməkdaşı, Əli Hüseyn Dadaşov yuxarıdan pilləkənlərlə aşağı düşüb həyətdə yerləşən ayaqyoluna getmək istəyərkən, evin girişində görkəmindən erməniyə

oxşayan bir nəfərin dayandığını və əlində nəsə tutduğunu görmüşdü. Ə. Dadaşovun: "Əlindəki nədir?, - sualının cavabında naməlum şəxs cavab verdi ki, bombadır, onu ingilislər satmaq üçün veriblər. Ə. Dadaşov bombanı ona verməsini söylədikdə, naməlum adam bundan imtina etmişdi. Onda Ə. Dadaşov onun qolundan tutmaq istədikdə, o, Dadaşovun əlindən yapışdı. Dadaşov dərhal qorodovoy Mir Qasım Ağa oğlunu çağırdı. Qorodovoyun köməyi ilə naməlum şəxsdən "bomba" alındı və o, Bakı şəhər 5-ci polis sahəsinə gətirildi. Polis sahəsində naməlum adam özünü erməni Aram Budaqov kimi təqdim etdi. Sahənin polis pristavı. Mixail Vakulo: "Səndə bomba haradandır?,- sualını verdikdə, cavabı bu oldu ki, onda heç bir bomba olmayıb və güya küçədən keçərkən konvoyçu süvarilər tərəfindən tutulub. Naməlum adam izah edirdi ki, onu tutduqdan sonra əvvəlcə konvoyun qərargahına, sonra da polis sahəsinə gətiriblər. A. Budaqovun üstünə baxış keçirilərkən, iki vəsiqə aşkarlanmışdı. Aram Arutyun oğlu Budaqovun adına Evlər Komitəsinin sədri tərəfindən verilmiş vəsiqələrdən birində yazılmışdı ki, "vəsiqə verilir ona görə ki, o, 1918-ci ilin sentyabrın 15-də türklərin Bakıya daxil olması zamanı 1-ci qırmızı ehtiyat polkunda sıravi olub". Digər vəsiqədə - Şamaxı Qəza Torpaq Komitəsinin sədri tərəfindən verilmiş 29 aprel 1918-ci il tarixli 43 nömrəli vəsiqədə göstərilirdi ki,"verilir Artyom Saturyan oğlu Budaqova, ondan ötrü ki, o, Kenaxanı kəndinin sakinidir, qaçqındır, himayəsində arvadı Zamban və 23 yaşlı oğlu Aram vardır". Bundan başqa, naməlum şəxsdən türklərin hücumu zamanı zərərçəkənlərə yardım məqsədilə Nəzarət Komissiyasının verdıyi 8 min yarım qiyməti olan çek aşkar edilmişdi.

Məhkəmə istintaqının baş vermiş hadisə üzrə təhqiqat aparılması üçün yaratdığı xüsusi komissiya tərəfindən ibtidai istintaq və A. Budaqovun tutulduğu yerə baxış keçirilmişdi. Lakin bombanın əşyayi-dəlil kimi tədqiqi bu sahədə mütəxəssisin olmaması üzündən ləngimişdi. İyunun 4-dən başlanan istintaq-təhqiqat işləri iyunun 7-də Azərbaycan Məhkəmə Palatasına müraciət olunması qərarı ilə davam etdirilmişdi. İyunun 10-da artıq Azərbaycan Məhkəmə Palatası prokurorunun adına həmin müraciətə əlavə edilmiş ikinci müraciət də daxil olmuşdu.



Azərbaycan Məhkəmə Palatası prokurorunun adına yazılmış müraciətdə bildirilirdi ki, ilkin ibtidai istintaq baxışı və bombanın ekspertizası Lil (Fransa) Universitetinin əməkdaşı - ekspert, təbiət elmləri namizədi Vsevolod Sutulov tərəfindən tədqiq edilmişdir. Bomba Bakı Dövlət Silah-Sursat Zavodunda (Xatisovun mərmi zavodu; sovet dövründə leytenant Şmidt , indiki Səttərxan adına zavod) düzəldilmişdir, əldəqayırmadır, 1915-16-cı illərdə rus ordusunun Qərb cəbhəsində tətbiq olunmuşdur. Ekspertlər qrupu tərəfindən şəhərin kənarında qranatın təcrübədə atılarkən yoxlanması istənilən nəticəni verməmişdir. Qrup belə qənaətə gəlmişdir ki, qranat yararsızdır, belə ki, zapal kapsulu çatışmır. Bu, əlavə təhqiqatdan sonra həmin zavodda onun hazırlanmasında iştirak edən fəhlə İvan Subotrenko tərəfindən də təsdiq edilmişdir. O, özünü günahkar bilmir. Axırıncı sorğu-sualda ümumiyyətlə, bildirmişdir ki, ona yaxınlaşan müsəlman konvoy əməkdaşı sənədlərimi tələb edib biləndəki erməniyəm, məni dərhal konvoyun qərargahına gətirib və o, döyüş qranatı barədə suala rədd cavabı verib. Hazırkı vaxtda Aram Budaqov Bakı Mərkəzi Həbsxanasındadır (1 nömrəli Bayıl Həbsxanası). 1920-ci il aprelin 27-də Bakı Şəhər Dairə Məhkəməsində A. Budaqova bəraət hökmü çıxarılmış və prokuror Pastuxova apellyasiya şikayəti verilmişdi.

Nəsib bəy 1919-cu il iyunun 11-də ölkədə elan edilmiş "Hərbi vəziyyət tətbiq olunması haqqında" qanunverici sənədin müəllifi idi. Həmin aktla hərbi vəziyyət dövründə DİN-in yerlərdəki səlahiyyətli nümayəndələri olan general-qubernatorlara, qubernatorlara, qəza rəislərinə, polismeysterlərə, pristavlara geniş hüquqlar verildiyi və onların əmr və göstərişlərinin mütləq qaydada yerinə yetirilməsi tələb edilirdi. Azərbaycan Cümhuriyyətinin Dövlət Müdafiə Komitəsinin (DMK) sədri olan N. Yusifbəyli (DMK milyonçu, məşhur xanəndə Seyid Mir Babayevin evində - indiki "Azneft" – Dövlət Neft Şirkətinin binasında yerləşirdi) bu yüksək vəzifəni tutmasına baxmayaraq, heç də hərbi diktaturaya can atmırdı. O, demokratik dəyərlərə əsaslanan polis tədbirlərinin həyata keçirilməsinin tərəfdarı kimi çıxış edirdi. Bunu Bakıda yerləşən müttəfiq dövlətlərin hərbi kontingentinin yüksək rütbəli zabitləri, o cümlədən ingilis

generalı D. Şatelvort və digərləri də qiymətləndirir, Nəsib bəyə dərin hörmətlə yanaşırdılar.

N.Yusifbəyli ictimai asayişin təmin edilməsində hər kəsə, xüsusilə, müstəqil dövlətimizin əleyhinə fəaliyyət göstərən qüvvələrə qarşı çox barışmaz və sərt mövqedə idi. Bunu ondan görmək olardı ki, Nəsib bəyin əmri ilə Azərbaycan Cümhuriyyəti əleyhinə təbliğat və fəaliyyətlə məşğul olan 40 nəfər bolşevik həbs edilmişdi. Onların içərisində görkəmli kommunustlardən M. B. Qasımov, B. Sərdarov, İ. Anaşkin, L. Mirzoyan, R. Hüseynov, İ. Konkin, F. Qubanov, "Qatır Məmməd", M. Dadaşov, N. Roqov, M. F. Musəvi, İ. Qutin və başqaları vardı. Onlara ciddi xəbərdarlıq olunduqdan sonra həbsdən buraxılmışdılar...

N.Yusifbəylinin nazir olduğu dövrdə DİN-in Müvəqqəti Xüsusi Səlahiyyətli Müvəkkillər İnstitutunun fəaliyyəti daha da səmərəli olmuş, bu qurumun yerlərdə inzibati hakimiyyət orqanları üzərində nəzarəti yüksəlmişdi. Həmin dövrdən də DİN nəzdində Bakı şəhərində Dəmir Yol Polisi Şöbəsi yaranmışdı. N.Yusifbəylinin əmri ilə 1919-cu il iyunun 11-də DİN-in İctimai Təhlükəsizlik Şöbəsi yaradılmışdı.

Azərbaycan Cümhuriyyətinin polisi cinayətkarlıq və onun ayrı-ayrı növləri ilə mübarizə apardıqda aşkar edilən residivist cinayətkarlar içərisində milliyyətcə erməni olanların da az olmadığı məlum olurdu. Demək olar ki, hər ay Bakıda qəlp (saxta) pul kəsən karxanalar və gizli sexlər aşkar edirdi. Bayılda 6 kişi qəlp pul kəsdikləri yerdə - cinayət başında yaxalanmışdılar. Onlardan iki litoqraf daşı, birindən isə Kerenskinin (22 aprel 1881, Simbirsk-11 iyun 1970, Nyu-York) (eser Aleksandr Fyodroviç Kerenski, Rusiyanın hökumət başçısı) əksi olan 3 milyon qədərində hazırlanmış 40 manatlıq saxta pul tutulmuşdu. Məlum olmuşdu ki, əslində, canilər 40 nəfərdən ibarətdir, aralarında bir dəstə Bakı əyanı da vardır. Başqa bir yerdə saxta 25 manatlıq kəsən "sex" aşkar edilmişdi. Həbs edilən saxta pul kəsənlərin içərisində ermənilər də vardı...

Daxili İşlər Nazirliyi müəyyən etmişdi ki, Azərbaycandakı Ermənistan Respublikasının T. A. Bekzadyanın rəhbərlik etdiyi Diplomatik Missiyasının (Nümayəndəliyinin) özü belə milli mənafeyimizə zidd fəaliyyət göstərən şəxslərlə əlaqədardır. Belə ki, Bakı Polismeysterliyinin əldə etdyi məlumat əsasında 1919-cu il iyunun 11-də Suraxanı küçəsi, 279 nömrəli evdə aparılan axtarış zamanı oradakı anbardan 1 ədəd teleqraf, 3 ədəd səhra telefon aparatı, 5 qutu (75 ədəd) tüfəng patronu və səhra telefon aparatı üçün ləvazimat aşkar edib götürmüşdü. Axtarışda Bakı polismeysteri, rotmistr Puda Qudiyev (1880-1920) (əslində, Quda Qudiyevdir...), onun böyük köməkçisi Zalsman və DİN-in Əks-Kəşfiyyat İdarəsinin (əslində, Əks-inqilabla Mübarizə Təşkilatının) agenti iştirak edirdilər.

***Haşiyə***: Azərbaycan müstəqillik qazandıqdan sonra onu daxili və xarici təhlükədən qoruya biləcək xüsusi xidmət orqanlarının yaranması zərurəti meydana çıxmışdı. Hərbi nazir S. Mehmandarovun 29 mart 1919-cu il tarixli 156 nömrəli əmrindən bəlli olur ki, Azərbaycan Nazirlər Şurasının sədri F. Xoyskinin hələ 28 avqust 1918-ci il 7 nömrəli sərəncamı ilə yenicə yaranmış Əks-Kəşfiyyat Hissəsinin rəisi vəzifəsi müvəqqəti olaraq poruçik Ağalarova tapşırılmışdı. O zaman - 1918-ci il noyabrın 15-də Azərbaycan Ordusunun Ümumi Qərargahı təsis olunanda 8 şöbədən biri General-Kvartirmeysterlik idi. General-Kvartirmeyster Şöbəsi qoşun hissələrində yerləşmə, əməliyyat və səfərbərlik, kəşfiyyat və əks-kəşfiyyat, həmçinin rabitə xidmətinin təşkili işlərini həyata keçirirdi. 1919-cu il martın birinci yarsınadək General-Kvartirmeysterlik Şöbəsinin rəisi vəzifəsini müvəqqəti Vasili Nikolayeviç Sokolov yerinə yetirmişdi. 1919-cu il martın 19-da Azərbaycan Ordusunun Baş Qərargahında Baş İdarə yarandıqda bu vəzifəyə İstehkamçılar Hərbi Məktəbinin rəisi, polkovnik Vasili Dmitriyeviç Karqalateli təyin edilmişdi. V. Karqalateli sonralar, müvəqqəti hərbi nazir olmuş tam artilleriya generalı Əli ağa Şıxlinski ilə yaxın münasibətlərdə idi və onun 167 nömrəli əmri ilə 1920-ci il martın 20-də general-mayor rütbəsinə layiq görülmüşdü. Kəşfiyyat və əks-kəşfiyyat sektoru da məhz General-Kvartirmeysterlik Şöbəsinin tərkibində əsas stuktur hissələri kimi fəaliyyət göstərməkdə idi. Əks-kəşfiyyat hissəsi 28 avqust 1918-ci ildə General-Kvartirmeyerlik Şöbəsi ilə birlikdə yaranmışdı. Beləliklə, görünür ki, ilk xüsisi xidmət orqanlarımız artıq 1919-cu ilədək mövcud olmuşdur. Lakin onların yaranmasını rəsmən, yuridik cəhətdən 1919-cu ilə aid etmək

lazımdır. Belə ki, 1919-cu il yanvarın 10-da Hərbi Nazirliyin yanında Müvəqqəti Hərbi Şura yaradılmışdı. Bu Şuranın tərkibinə General-Kvartirmeyster Şöbəsinin rəisi də daxil idi.

1919-cu il martın 26-da Hərbi Nazirliyin Baş Qərargah (Ərkani-Hərb) təsis edilmişdi. Hərbi nazir S.Mehmandarovun dəvətilə Baş Qərgahın rəisi vəzifəsinə Krımdan milliyyətcə tatar olan general-leytenant Məmməd bəy Sulkeviç (1865-1920) təyin edilmişdi. İki gün sonra, 1919-cu il martın 28-də Baş Qərargahın Baş İdarəsi yaradılmışdı. Bu İdarənin tərkibinə General-Kvartirmeyster Şöbəsi daxil edilmişdi. Şöbə 4 xidmətdən ibarət idi. Üçüncü Şöbə Kəşfiyyat və Əks-Kəşfiyyat Xidməti adlanırdı. Onun başlıca vəzifəsi düşmənlər haqqında informasiya toplamaq, sərhəddən xaricdə hərbi agentura yaratmaq, ölkənin daxilində casusluqla mübarizə aparmaq idi. Lakin ilk dövrdə kadrlar çatışmırdı. Şöbənin cəmi 28 əməkdaşı vardı. Beləliklə, 1919-cu il martın 26-28-də Azərbaycanın ilk xüsusi xidmət orqanları təşəkkül tapmışdı. Həmin günlərdən biri - ilk milli təhlükəsizlik orqanının yarandığı martın 28-i günü hazırda Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidməti (ondan qabaqkı Milli Təhlükəsizlik Nazirliyi (MTN) (1 noyabr 1991-ci ildə yaradılmışdı) işçilərinin peşə bayramı kimi hər il qeyd olunur. Həmin gün ümummilli liderimiz, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin təşəbbüsü və 23 mart 1997-ci il tarixli fərmanı ilə təsis olunmuşdur.

Təyinat. Daxili işlər naziri N. Yusifbəylinin 29 aprel 1919-cu il tarixli 67 nömrəli əmri ilə milliyyətcə inquş olan rotmistr Quda Əliyeviç Qudiyev (1880-1920) Bakı şəhərinin polismeysteri vəzifəsinə təyin edilmişdi.

...1919-cu ilin mayında şimaldan Azərbaycan üçün təhlükə və təhdidlər artmışdı. Azərbaycan Cümhuriyyətinin Baş naziri və eyni zamanda daxili işlər naziri N.Yusifbəylinin bununla əlaqədar 1919-cu il mayın 28-də Azərbaycan vətəndaşlarına müraciətində deyilirdi: " Təhlükə və hədələr hələ keçməmişdir. Qara buludlar bizim üzərimizə hərəkət edir. Əgər ölkənin daxilində qayda yaradılarsa, bizim sakitliyimiz təmin olunacaq, biz bizim istiqlaliyyətimizi təhlükə altına alan qüvvələrə qarşı cavab verməyə çalışacağıq, onda sakit və azad yaşaya bilərik".



Nəsib bəyin bu müraciəti əhalini sayıqlığa səsləmiş, düşmən qüvvələrlə mübarizədə səfərbəredici amil rolunu oynamışdı. Doğrudan da, 1919-cu ilin yazı-yayında Bakıda xüsusilə Denikin zabitlərinin rus əhalisi arasındakı Azərbaycan Ordusu əleyhinə təbliğatı olduqca güclənmişdi. Denikin ordusunun casuslar şəbəkəsi Bakını bürümüşdü. Hətta gizli silah bazası yaratmışdılar. Azərbaycanın gənc xüsusi xidmət orqanları həmin bazanı Krasnovodsk (İndiki S.Vurğun küçəsi) və Balaxanı (indiki Füzuli) küçələrinin kəsişdiyi yerdəki evlərdən birinin zirzəmisində aşkarlayıb müsadirə etmişdilər... Onlar Denikin ordusunun Baş Qərargahının Bakıda gizli fəaliyyət göstərən kəşfiyyat şöbəsinin rəisi Çernışovu da həbs etmişdilər... Qeyd etmək lazımdır ki, hərbi nazir S. Mehmandarov Baş nazir N. Yusifbəyliyə yazdığı məruzədə bolşevizimlə, denikinçilərlə, "erməni cildində" bulunan biçeraxovçulara və s. düşmən qüvvələrə qarşı mübarizə işində hələ təcrübəli kadrlar sarıdan korluq çəkən xüsusi xidmət orqanlarımıza yerli şəraitin xüsusiyyətlərini yaxşı bilən Bakı Axtarış Polisi əməkdaşlarının da cəlb olunmasını məqsədəuyğun hesab etmişdi.

Belə şəraitdə sədri N.Yusifbəylinin olduğu fövqəladə ali səlahiyyətlərə malik orqanın - Azərbaycan Dövlət Müdafiə Komitəsinin (DMK) 11 iyun 1919-cu il tarixli qərarı ilə Əks-İnqilabla Mübarizə Təşkilatı yaranmışdı. Onun təsis olunması məhz Azərbaycanı hədələyən xarici və daxili əks qüvvələrə qarşı mübarizə zərurətindən irəli gəlmişdi. Əks-inqilabla Mübarizə Təşkilatının sədri əslən Gəncədən olan, müsavatçı Məmmədbağır Saleh bəy oğlu Şeyxzamanlı (Şeyxzamanov) (1880, Gəncə - 1920, Bakı), müavini isə "Hümmət" müsəlman bolşevik təşkilatının üzvü Mirfəttah Musəvi (1891-1919) təyin edilmişdi. Əks-İnqilabla Mübarizə Təşkilatı yarandığı ay onun cəmi 17 əməkdaşı (3 baş agent, 14 agent) çalışırdı. Ümumiyyətlə, mövcudluğu dövründə (11 iyun 1919 - 6 mart 1920-ci il) bu təşkilatda 100-dən artıq agent çalışmışdı. 1919-cu il avqustun 20-də Məmmədbağır Şeyxzamanlı öz xahişi ilə istefa vermiş və əvəzinə qardaşı Nağı bəy Şeyxzamanlı (Şeyxzamanov) (1883-1967) təyin edilmişdi.

1919-cu il sentyabrın 13-də Bakı Möhkəmləndirilmiş Hərbi Müdafiə Rayonu ilə Bakı General-Qubernatorluğu birləşmişdi. Həmin il oktyabrın 26-da Əks-İnqilabla Mübarizə Təşkilatı Bakı Möh-

kəmləndirilmiş Hərbi Müdafiə Rayonu və Bakı General-Qubernatorluğunun tabeçiliyinə verilmişdi. O vaxt Bakının general-qubernatoru milliyyətcə çərkəz olan general-mayor Murad Gəray bəy Tlexas (1874-1920) idi. Məhz M. Tlexas həmin qurumun başçısı təyin edilmişdi. Bu qurum və general M. Tlexas birbaşa Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə tabe idi. 1920-ci il martın 6-da Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə "istənilən səmərəni" verməmdiyindən DİN-in Əks-İnqilabla Mübarizə Təşkilatı (Tarixi ədəbiyyatda DİN-in Əks-Kəşfiyyat İdarəsi adlandırılır) ləğv edilmişdi. Bu haqda Nazirlər Şurasının həmin tarixli iclasında daxili işlər naziri Mustafa bəy Vəkilov informasiya vermişdi (**Qeyd**: *hadisələrin sonrakı gedişi göstərmişdi ki, Əks-İnqilabla Mübarizə Təşkilatının ləğv edilməsi ozamankı şəraitdə bir qədər tələsik qərar idi və mənfi nəticələrə səbəb olmuşdu... Onun mövcudluğu hələ zəruri idi...)*.

... Artıq yuxarıda qeyd olunduğu kimi, Azərbaycan Cümhuriyyətinin ilk xüsusi orqanının rəhbəri Məmmədbağır Şeyxzamanlı sovet hakimiyyəti elan olunduqdan sonra bolşeviklər tərəfindən həbs olunaraq, 1920-ci il mayın 29-da güllələnmişdi... M. F. Fəttah Musəvi vəzifədə ikən hələ 5 sentyabr 1919-cu ildə öldürülmüş... və yerinə Mahmud bəy Səfikürdski (1898-1977) təyin olunmuşdu.

...7-ci sahə polis pristavı Volski axtarış aparılan evin sahibi A. Qriqoryantsı dindirərkən o bildirmişdi ki, həmin şeylər 1 ay bundan qabaq burada yerləşmiş Ermənistan Diplomatik Missiyasına məxsusdur... Axtarışla bağlı protokol tərtib olunmuşdu. Ermənistan Diplomatik Missiyasının nümayəndəsi Efiancians bunu təkzib edərək protest vermişdi. Lakin başqa real bir fakt onun protestini faş etmişdi.

Belə ki, 1919-cu il iyunun 13-də Bakı Polismeysterliyi tərəfindən Parapet bağındakı (keçmişdə bu bağa "Quru bağ" deyirdilər. Sovet dövründə K. Marks adına bağ adlanırdı. İndi Fəvvarələr bağıdır) müqəddəs Qriqori erməni kilsəsinin zirzəmisindəki anbardan xeyli silah, o cümlədən pulemyot, patronlar, hərbi ləvazımat, xəstəxana avadanlığı və əsgər paltarları gizlədildiyi aşkar edilmiş və protokollaşdırılmışdı. Həmin şeylərdən bir qismi arabalarda "başqa yerə" aparılarkən polis tərəfindən yaxalanmışdı... O zaman rəsmi dövlət qəzeti "Azərbaycan" bu haqda ertəsi günü çıxan 213-cü sayında yazmışdı. Ermənistan Respublikasının Bakıdakı Diplomatik Nümayəndəliyi iyunun 16-da Azərbaycan Cümhuriyyətinin Xarici İşlər Nazirliyinə etiraz məktubu ilə müraciə etmişdi. Məktubda bildirilirdi ki, güya nümayəndəliyin bundan xəbəri yoxdur. Lakin bu, özünü sığortalamaqdan başqa bir şey deyildi. Məsələ burasında idi ki, erməni kilsəsinin altındakı zirzəmidən ("qızıllı kilsə", yaxud Aleksandr Nevski kilsəsi (İndiki Fəvvarələr meydanı ilə üzbəüzdə yerləşir...) axtarış vaxtı həm də ermənilərin Azərbaycana qarşı fəaliyyət göstərən ağqvardiyaçı zabit, "Xəzəryanı hökumət"in başçısı, general L. Biçeraxovla yazışmalarını təsdiq edən sənəd (vərəqə) də tapılmışdı. Vaxtı ilə general V. Tomsonun başçılığı ilə ingilislər Bakıya gələndə "biçeraxovçular" - ruslar və ermənilər sevinmişdilər...

**Qeyd**: *Lazar Biçeraxov Birinci Dünya Müharibəsi zamanı İranda rus qoşunlarının komandanı olmuş və türklərə qarşı da vuruşmuşdu. L. Biçeraxov Azərbaycanı "bölünməz Rusiyanın" tərkib hissəsi kimi bəyan etmişdi. O, hələ 1919-cu ilin yanvarında Azərbaycanda qanuni hakimiyyəti devirmək və forpost üçün "Qafqaz-Xəzər hökuməti" deyilən üzdəniraq, oyuncaq qurum yaratmışdı. "Biçeraxovçular" şəhərdə azğınlıq edirdilər... L.Biçeraxovun Bakıda çevriliş etmək istədiyini Azərbaycan hökuməti 1919-cu il fevralın 28-də müttəfiq qoşunların komandanı V. Tomsona bildirmişdi. V. Tomson L. Biçeraxova 48 saat ərzində Bakını tərk etməyi əmr etmiş və bu əmr yerinə yetirilmişdi...*

Azərbaycan Hökumətinin başçısı və daxili işlər naziri N. Yusifbəyli iyunun 16-da Parlament qarşısındakı çıxışında ermənilərin gizli fəaliyyəti barədə məlumat vermiş və izahat tələb etmişdi. Ermənistan Respublikasının Azərbaycandakı Diplomatik Nümayəndəliyi isə Azərbaycan Hökumətinin sorğusuna cavab olaraq bildirmişdi ki, kilsədən tapılan "şeylər" general Denikinin ağqvardiyaçı ordusu ilə əlaqəsi olan poruçik Arşak Sarkisovun "işi"dir. O, bu əlaqəni Denikinin ordusunda xidmət edən "dostu" S. Balayansla birgə törədib. Odur ki, Ermənistan Diplomatik Missiyası onların hər ikisinin cəzalandırılmasını Azərbaycan Cümhuriyyətinin hərbi naziri S. Mehmandarovdan xahiş edir və bunu "ədalətli sayırdı"...

Azərbaycan DİN-in saxta pul kəsilməsinə qarşı mübarizəsi ilə əlaqədar daha bir fakt üzərində dayanaq. Bakıda İlizar adında bir nəfər şübhəli şəxs qismində polis tərəfindən həbs edilmişdi. Onun

mənzilindəki çarpayının altından 100.000 min manat pul, möhtəkirlik məqsədilə gizlədilmiş çoxlu brilyant üzük tapılmışdı. İlizarın "dostları" da daxil olmaqla 5 nəfərdən ibarət pul möhtəkirliyi ilə məşğul olan qrupdan üst-üstə 22 milyon köhnə Nikolay pulu da aşkar edilərək götürülmüşdü. Bununla yanaşı, Armiyanski (sovet dövründə Qorki) və Kamenistı (sovet dövründə Şors) küçələrinin tinindəki binada qəlp pul hazırlayanlar da yaxalanmışdılar. Merkuri (sovet dövründə "Şaumyan" adlanırdı. Sonra Azərbaycan prospekti olub. İndi Zərifə Əliyeva prospektidir) və Budaqov (indiki Bülbül prospekti) küçələrinin tinində 400.000 manat hökumət pulunu aparan inkasatora əli silahlı cinayətkarlar hücum edərkən polisin yaxınlaşdığını görüb aradan çıxmışdılar. Naberejnı küçəsində (indiki Neftçilər prospekti) gəmi tərsanəsi ilə üzbəüz binada 8 nəfər naməlum şəxs cinayət-axtarış polisi məmurunun libasında və saxta vəsiqə ilə axtarış keçirib, buradan xeyli cavahirat və qızılı qarət edib aparmışdılar. Polis onların izinə düşə bilmiş və bu hadisənin üstünü açmışdı...

Cinayətkarlıqla mübarizədə polis əməkdaşları və məmurları xidmət başında həlak da olurdular. Belə hallarda Azərbaycan Hökuməti DİN-in təqdimatı üzrə onların ailələrinə yardım kəsirdi. Məsələn, N.Yusifbəylinin nazir olduğu dövrdə Daxili İşlər Nazirliyinin 1919-cu ildə Gəncə, Nuxa və digər qəza rəisləri və şəhər polismeysterlikləri ilə yazışmaları nəticəsində həmin ilin yanvarında cinayətkarlarla mübarizədə həlak olmuş Gəncə polisinin qorodovoyu Əli Kərbəlayı Məsim oğlunun və Nuxa həbsxanasının nəzarətçisi Baba Hacı Sadıx oğlunun ailələrinə birdəfəlik təqaüdlər təyin edilmişdi.

Azərbaycan Məhkəmə Palatası prokuroruna Bakı şəhərinin 1-ci sahə polisi rəisi tərəfindən yazılmış raportunda bildirilirdi ki, bu il iyun ayının 19-da, gecə Bayıl küçəsində yaşayan bir varlı şəxsin mənzilinə iki nəfər gəlib özlərini polis kimi təqdim etmişlər. Onlardan biri özünü təhriri (axtarış) polisinin rəisi kimi təqdim edərək, güya pulemyot axtardıqlarını söyləyib və sübut üçün fotoşəkil yapışdırılmış vəsiqə təqdim edib. Lakin axtarışa başlayandan bir az sonra onlar evin xanımını silahla qorxudaraq, kassanı zorla açdırıb, oradan qızıl pulla 2 milyon manatlıq qiymətli əşya və qızıl pul götürüb aparmışlar. Onlar gedərkən tapşırıblar ki, şeylərin və pulun



məsələsini aydın etmək üçün Bakı Polismeysterliyinin Cinayət Polisi İdarəsinə gəlsin.

Fakt üzrə polisin apardığı əməliyyat-axtarış tədbirləri nəticəsində şübhəli şəxs qismində saxlanılan Seyid Baba Mir Dadaş oğlu istintaq zamanı etiraf edib ki, soyğunçuluğu o təşkil edib. İstintaqın gedişində aydın olmuşdu ki, soyğunçuluqda Bağır Nəcəf oğlu, Nəriman Məşədi Rəhim oğlu, Mirəhməd Mirkərim oğlu, İsa Mirzə Yəhya oğlu, Əli Muxtar Piri oğlu, İsgəndər Hacı Dəmir oğlu, İsmayıl Əlixan oğlu, Əli ağa Ağamalı oğlu və Mehdi Ramazanda itirak etmişlər. Hadisə vaxtı polis qorodovoy İsgəndər Hacı Dəmir oğlu mülkün qabağında xidmət şöbəsində "vəzifəsi"ni yerinə yetirirmiş. İsa Mirzə Yəhya oğlu və Mir Əhməd Mirkərim oğlu isə tərsanə qarşısında "gecə gözətçisi" imişlər.

Bakı Polismeysterliyinin Cinayət-Axtarışı Polisinin rəisi soyğunçuluğun təşkilatçısı Seyid Baba Murad Dadaş oğlunun və onun məşuqəsi Yelena Tamaraşvilinin mənzillərində axtarış aparmış, bu zaman oradan çoxlu qiymətli oğurluq əşyalar və qızıl pul aşkar etmişdi. Soyğuna məruz qalan ev sahibi də baxış zamanı şeylərini tanımışdı. Bundan əlavə, Seyid Babanın mənzilindən onun fotoşəkili yapışdırılmış iki saxta vəsiqə tapılmışdı. Vəsiqənin birincisində ona silah daşımağa icazə verildiyi yazılmışdı. İkinci vəsiqəni isə Bakı polismeysterinin müavini 1919-cu ilin martında ona verib. Soyğuna düçar qalmış ev sahibi Seyid Babanın axtarış zamanı özünü məhz həmin vəsiqəylə cinayət üzrə polis rəisi adlandırdığını təsdiq etmişdi. İsmayıl, Əli ağa və Mehdi Ramazandan başqa yuxarıda adları çəkilənlərin hamısı həbsə alınıb. Onların da evlərindən talan etdikləri qiymətli əşya və qızıl pullar tapılıb. Ələ keçən qiymətli əşya və qızıl pullar yiyəsinə qaytarılıb. Bakı şəhərinin 1-ci sahə polisi istintaqı davam edirir...

Bakı Polismeysterliyinin əməkdaşları "Tiflis əsilzadələri" bankını yarmaq istəyən və tapança ilə silahlanmış şəxslərə də mane olmuşdular. Onlar Çəmbərəkəndində (Azərbaycan Respublikası Nazirlər Kabinetinin yerləşdiyi ərazilər) Vəkilov müalicəxanasının (indiki Lermontov küçəsində yerləşən 2 saylı poliklinika) yaxınlığındakı çəpərə alınmış bağçadakı damdan çoxlu tüfəng, patron dolu qutular, bomba və qumbara aşkar edib götürmüşdü. Polis tərəfindən

yük avtomobili dolusu silah tutulmuşdu. Dəniz kənarındakı bir evdən isə silah anbarı aşkar edilmişdi. Buradan 1067 top gülləsi, çoxlu patron dolu qutular, bomba və mərmi müsadirə olunmuşdu.

N.Yusifbəyli Baş nazir və eyni zamanda, daxili işlər naziri olarkən Daxili İşlər Nazirliyinin işlərinə kənar təşkilatların, xüsusilə, hərbi idarələr tərəfindən müdaxilə edilməsinin qarşısını almışdı. N.Yusifbəyli DMK-nın (Azərbaycan Parlamentinin 9 iyun 1919-cu il tarixli qərarı ilə yaradılmış və ona geniş səlahiyyətlər verilmişdi) sədri idi. DMK-nın qərarı ilə respublikada bütün inzibati hakimiyyət yalnız DİN-in əlində cəmləşdirilmişdi. 1919-cu il sentyabrın 16-da DMK-nın qərarı ilə polis məmurlarının qanunçuluğa necə əməl etməsinə nəzarəti həyata keçirmək məqsədilə DİN-in yanında Xüsusi İnzibati İnspeksiyası (Xüsusi Polis Müfəttişliyi) yaradılmışdı. Xüsusi Polis İnspeksiyası Nikolayev (indiki İstiqlaliyyət) küçəsi, 7 nömrəli evdə yerləşirdi. DMK-nın qərarı ilə Azərbaycan milli-demokratik fikir cərəyanının rəhbərlərindən, C. Məmmədquluzadə (1866-1932) ilə birlikdə "Molla Nəsrəddin" jurnalının yaradıcılarından biri, görkəmli yazıçı-jurnalist Ömər Faiq Nemanzadə (1872-1938) Xüsusi Polis İnspeksiyasının baş inspektoru (rəis əvəzi) təyin olunmuşdu.

DMK-nın 16 sentyabr 1919-cu il tarixli qərarı və daxili işlər naziri N. Yusifbəylinin müvafiq əmri ilə DİN-in Xüsusi Polis İnspeksiyasının Əsasnaməsi də qəbul olunmuşdu. Əsasnamə tanışlıq üçün qəzetlərdə dərc edilmişdi.

Əsasnamədə göstərilirdi ki, Xüsusi Polis Müfəttişliyi birbaşa daxili işlər nazirinə tabedir, ondan müvafiq əmrlər alır və yerinə yetirir. Başlıca vəzifəsi qəza və quberniya inzibatçılığının qanunauyğun aparılmasına nəzarət etməkdən savayı, Xüsusi Polis Müfəttişliyi həm də ildə bir dəfə DİN idarələrinin və məsul şəxslərin işinin yoxlanmasını aparmalı idi. Əgər sui-istifadə halları barədə məlumat alınırdısa, onda Müfəttişlik gözlənilməz yoxlama apara bilərdi. Ancaq belə yoxlamaların aparılması üçün mütləq daxili işlər nazirindən razılıq alınmalı idi. Buna baxmayaraq, müfəttişin hər hansı bir məsul şəxsin vəzifəsindən sui-istifadə etməsi barədə məlumatı olurdusa, o, müstəsna hal kimi öz sərəncamı üzrə də yoxlama aparmaq hüququna malik idi.



Müfəttiş vəzifəli şəxslər tərəfindən törədilən vəzifə cinayətlərinin təhqiqatını da aparmaq ixtiyarına malik idi. Belə təhqiqatlar zamanı Müfəttişliyin əməkdaşları Cinayət Məhkəməsinin Nizamnaməsi üzrə onlara verilən bütün hüquqlardan istifadə edə bilərdilər. Müfəttişliyin məmurları əlavə hüquqlar kimi şübhəli olan və ya cinayətin izini itirməyə cəhd göstərən şəxslərin evində axtarış apara, günahkar şəxsin əmlakına da qadağa (həbs) qoya və şübhə doğuran, şəxsi təhqiqat aparılan müddətdə vəzifədən uzaqlaşdıra bilərdilər və s. Müfəttişliyin Əsasnaməsində xüsusi qeyd edilirdi ki, hər hansı bir məsələnin təhqiqatı qubernator və ya ondan yuxarı vəzifəli şəxslərlə bağlıdırsa, yalnız daxili işlər nazirinin icazəsi alındıqdan sonra yoxlama aparıla bilərdi. Yerdə qalanlar isə, müfəttişin səlahiyyətinə aid idi. Müfəttişliyin məmurları tərəfindən keçirilən yoxlamaların və təhqiqatların nəticələri məruzə şəkilində əvvəlcə öz rəislərinə, sonra isə daxili işlər nazirinə çatdırılırdı. Rəhbərlik də buna əsasən cinayətkarlara qarşı cəza və yaxud cərimə tədbiri görürdü.

Azərbaycan Cümhuriyyəti DİN-in yanındakı Xüsusi Polis Müfəttişliyinin ştat cədvəli 25 nəfər, o cümlədən 1 baş inspektor (rəis funksiyasına və hüququna malik idi), 1 nəfər onun köməkçisi, 8 nəfər müfəttiş, 1 nəfər dəftərxana müdiri, 1 nəfər kargüzar və onun köməkçisi, 1 nəfər qeydiyyatçı, 1 nəfər makinaçı, 1 nəfər dəftərxana kuryeri və 8 nəfər müfəttişlərin kuryeri olmaqla təsdiq olunmuşdu. Müfəttişliyin ilk baş inspektoru DMK-nın qərarı və daxili işlər naziri N.Yusifbəylinin müvafiq əmri ilə Ömər Faiq əfəndi Nemanzadə təyin edilmişdi. Onun aylıq vəzifə maaşı 5.000 rubl idi.

Azərbaycan Cümhuriyyəti DMK-nın sədri kimi geniş səlahiyyətlərə malik idi. DİN də öz fəaliyyəti barədə DMK-ya vaxtaşırı hesabat verirdi. DMK Bakıda Sahil küçəsində, milyonçu və həm də məşhur xanəndə olmuş Seyid Mir Babayevin evində (Nikolayev küçəsi (İndiki İstiqlaliyyət küçəsi, 1) yerləşirdi. N.Yuisifbəylinin telefonları: 3-32 xidməti; 83-90 mənzil nömrələri idi) qərarı ilə respublikada bütün inzibati hakimiyyət yalnız bir inzibati ali orqanın – DİN-in əlində cəmləşdirilmişdi. Belə ki, məhz N.Yusifbəylinin təşəbbüsü və təkidi ilə DİN-in işlərinə kənar təşkilatların, xüsusən də hərbi idarələrin müdaxilə edilməsinin qarşısı alınmışdı.

Bundan sonra, DİN-in təsdiq etmədiyi hər hansı sənəd hüquqi cəhətdən qüvvəsiz sayılırdı.

N.Yusifbəylinin daxili işlər naziri işlədiyi dövrdə onun təşəbbüsü ilə Azərbaycan Parlamenti 1919-cu il 27 iyul tarixli iclasında respublikanın sərhədlərini qorumaq üçün "Sərhəd mühafizəsinin təşkili haqqında" Qanun layihəsinə baxmış və 992 nəfərdən ibarət (bunun 332-si atlı, 660 nəfəri isə piyada olmaqla) qurumlar yaradılması qərara alınmışdı. O zaman Azərbaycan Cümhuriyyətinin quru sərhədləri təxminən 1.300, dəniz sərhədləri isə 560 verst idi. Bu əraziləri qorumaq üçün 99 əsas post qoyulması nəzərdə tutulmuşdu. Həmin postlar aşağıdakı kimi idi:

1). Zaqatala quberniyası – 12 post, 102 nəfər gözətçi;

2). Gəncə quberniyası – 28 post, 280 gözətçi;

3). Qarabağ General-Qubernatorluğu – 18 post, 180 gözətçi;

4). Bakı quberniyası (Lənkəran qəzası çıxılmaqla) – 21 post, 210 gözətçi. Həmin sərhəd gözətçi dəstəsinin təşkili üçün 518.000 min manat maliyyə vəsaiti ayrılmışdı.

Bundan əlavə, həmin il İranla sərhəd əraziləri və Cavad qəzasının sərhədlərini (indiki Salyan, Neftçala, Biləsuvar, Şirvan, Sabirabad, Saatlı, İmişli, Beyləqan ərazilərini) qoruyan 200 nəfərlik polis gözətçi dəstəsi yaradılmışdı.

Paytaxtla yanaşı, qəzalarda polis xidmətinin təşkilinə mühüm diqqət yetirilirdi. DİN üzrə məlumatlara görə, 1919-cu ilin avqust-sentyabr aylarında yerlərdə - Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzalarında 17 sahə polis pristavlığı yaradılmışdı. Ərəş, Nuxa və Gəncə qəzalarında 26, Quba, Göyçay, Cavad və Şamaxı qəzalarında isə 22 belə pristavlıq təşkil olunmuşdu. Bu haqda 1919-cu il noyabrın 27-də DMK-nin iclasında ölkədə polis təşkilinin (quruculuğunun) gedişi barədə məruzə edən N. Yusifbəyli məlumat vermişdi. Həmin iclasda Qarabağ General-Qubernatorluğunun sərəncamına polis və milisin təşkili üçün 2 milyon, Gəncə qubenatorluğuna 1 milyon və Lənkəran qəzasına avans olaraq 2 milyon rubl pul ayrılmışdı. Bakı qubernatoruna isə həm də yazılı şəkildə bildirilmişdi ki, Quba qəzasında 200 nəfərdən ibarət daimi xalq milisi yaratsın və o Hərbi İdarənin ixtiyarında olsun. Bakı qubernatorunun üzərinə həmçinin DMK tərəfindən aşağıdakı tələblər də qoyulmuşdu:



1. Milis mütləq çağırış yaşına çatmış şəxslərdən təşkil olunsun;

2. Milis sıralarına götürüləcək şəxsin xarici görünüşünə və əxlaqi keyfiyyətlərinə xüsusi fikir verilməlidir, yəni onların zəhmli görkəmi olmalıdır; onlar oğurluq və soyğunçuluğa meylli olmamalıdırlar.

Respublikanın ümumi mənafeyinin tələblərinə uyğun olaraq zaman-zaman DİN-də mütəmadi təşkilati və struktur dəyişiklikləri aparılırdı. Məsələn, DİN-in təşəbbüsü ilə 1919-cu ilin avqustunda həbsxana işləri onun sərəncamından çıxarılaraq Ədliyyə Nazirliyinin tabeçiliyinə keçirilmişdi. Daxili işlər naziri N.Yusifbəylinin digər bir əmri ilə Gəncə qubemiyası mühafizə polisinin ştatları artırılmışdı.

Ümumiyyətlə, 1919-cu ildə Azərbaycan polisinin ştat vahidi üzrə sayı artırılaraq, 9661 nəfərə çatdırılmışdı ki, bu zaman şəxsi heyətin tərkibi aşağıdakı kimi idi: 1-ci dərəcəli qorodovoylar 498 nəfər, 2-ci dərəcəli qorodovoylar 5089 nəfər, 1-ci dərəcəli keşikçilər (postovoylar) - 242 nəfər, 2-ci dərəcəli keşikçilər 243 nəfər, Bakı quberniyası üzrə 18 1-ci, 1800 2-ci dərəcəli qorodovoy, 100 nəfər 1-ci dərəcəli keşikçilər və 30 nəfər 2-ci dərəcəli keşikçilər - cəmi 2.218 nəfər təşkil edirdi. Bunun 1200 nəfəri ancaq Bakı şəhər polisinin (110 nəfər 1-ci dərəcəli, 1090 nəfər 2-ci dərəcəli qorodovoy) olmaqla payına düşürdü. Balaxanı-Sabunçu Polismeysterliyində 820 nəfər (30 nəfər 1-ci dərəcəli və 790 nəfər 2-ci dərəcəli qorodovoy vardı. Gəncə quberniyasında polis 1954 nəfər idiki, bunun 156 nəfəri 1-ci dərəcəli, 1231 nəfəri 2-ci dərəcəli qorodovoy, 55 nəfəri 1-ci dərəcəli keşikçi və 530 nəfər ikinci dərəcəli keşikçilər, Qarabağ General-Qubematorluğu üzrə 906 nəfər polis vardı. Bunun 22-si 1-ci dərəcəli və 184 nəfəri 2-ci dərəcəli qorodovoy, 67-si 1-ci dərəcəli və 633-ü 2-ci dərəcəli keşikçilər idi. Zaqatala ərazisi üzrə 215 nəfər polis vardı, bunun 3-ü 1-ci dərəcəli və 12-si 2-dərəcəli qorodovoy, 20-si 1-ci dərəcəli və 180 nəfəri 2-ci dərəcəli keşikçilər idi.

1919-20-ci il maliyyə büdcəsinə görə Azərbaycan polis məmurlarının artırılmış aylıq əmək haqqı aşağıdakı kimi idi:

- polismeyster - 3.500, onun böyük köməkçisi 3.200, kiçik köməkçisi - 2.900, dairə pristavı 2.600, baş qorodovoy 1.500, kiçik qorodovoy 1.400 rubl idi. Bir polisin gün ərzindəki pul təminatı 33-40 rubl arasında idi. Bunun 13 rublu 2 girvənkə (1 girvənkə 409,5 qram idi), çörək bazar qiymətilə 2 girvənkə (2 girvənkə çörək 20

rubl təşkil edirdi, ət-1 girvənkə sərf olunurdu. Bir ayda həmin xərclər 990-1200 rubl təşkil edirdi. Bundan başqa, polis əməkdaşlarına çay, qənd və ədviyyat şeyləri də verilirdi.

O dövrdə Azərbaycan Cümhuriyyəti polisinin necə silahlanması da maraqlıdır. 1919-ci ilin oktyabrına olan məlumata görə, Bakı Polismeysterliyinin sərəncamında cəmi 1117, Balaxanı-Sabunçu Polismeysterliyində 319, Quba qəza polisində 26, Cavad (Salyan) polisində 507, Göyçay qəza polisinsdə 105 və Şamaxı qəza polisində 192 ədəd üçxətli rus tüfəngi vardı. Qarabağ General-Qubernatorluğuna daxil olan Zəngəzur, Şuşa, Cavanşir, Cəbrayıl qəzalarında 1000 və 1200 nəfərdən ibarət iki xalq milisi vardı. Onların silahlanması üşün 200 dövlət nişanlı tüfəng, 120 Avstriya və 162 rus üçxətli tüfəngi və 100 ədəd də ongülləli tüfəng ayrılmışdı. Bundan əlavə, 118 ədəd üçxətli tüfəngin, 304 mauzer tipli tüfəngin, 102 berdenka və 130 ədəd "Lebel" tipli silahın uçotu vardı.

Polisin mükəmməl silahlanması cinayətkarlıqla mübarizədə müvəffəqiyyətlərin rəhni idi. 1919-ci ilin sentyabr-oktyabr aylarında Bakı şəhərində 114 müxtəlif cinayət hadisəsi baş vermişdi ki, bunun da 67-nin üstü polis tərəfindən "isti izlər"lə açılmışdı.

Azərbaycan Parlamenti də vaxtaşırı olaraq Daxili İşlər Nazirliyinin hesabatlarını qəbul və müzakirə edir, daxili işlər nazirinin təşəbbüsü və təklifləri üzrə Nazirliyə aid qanun layihələrini hazırlayırdı. Məsələn, N.Yusifbəylinin daxili işlər nazirliyi dövrünə aid DİN-in Parlamentə təqdim etdiyi hesabatda belə bir statistik rəqəm öz əksini tapmışdır ki, 1918-ci ilin dekabrın 7-dən (yəni Azərbaycan Parlamentinin təsis olunub fəaliyyətə başladığı vaxtdan) 1919-cu il dekabrın 25-dək Parlament Daxili İşlər Nazirliyinə, polisə dair 24 qanun layihəsinə baxmış və büna müvafiq qərarlar qəbul etmişdı.

N.Yusifbəylinin "Fərariliklə mübarizəni qüvvətləndirmək haqqında" 23 iyun 1919-cu il tarixli əmri Milli Ordumuzun komplektləşdirilməsinə kömək baxımından çox əhəmiyyətli idi. Həmin əmrə görə, fərariləri gizlədən vəzifəli şəxslər də 10.000 manat məbləğində cərimə olunur və ya 6 aylıq həbs cəzasına məhkum edilirdilər. Hərbi xidmətdən qaçan şəxs geyimi və digər əşyalarıda özü ilə aparırdısa, fərarinin ailəsi və ya kənd icması həmin əşyaların qiymətinin iki misli miqdarında cərimə edilirdilər.



Əmrdə Gəncə qubernatoru, qəza rəisi və Gəncə şəhər polismeysterindən tələb olunurdu ki, əsgərlərin fərarilik edəcəyi hallarda, dərhal onları yaxud valideynlərini tapıb xəbərdar etməklə bir həftə vaxt verilsin. Əks təqdirdə, onlar həbs olunmalı və həm də özləri ilə apardıqları əşyaların qiymətini ödəməlidirlər. Bununla belə, hərbi nazir general S. Mehmandarovun daxili işlər naziri N. Yusifbəyliyə göndərdiyi məlumatlarda həm də bildirilirdi ki, bəzi çağırış yaşlılar hərbi mükəlləfiyyətləri yerinə yetirməmək üçün polisə qəbul olur və beləliklə, gizlənirlər. Bu da yolverilməzdir. Nazir hətta polis xidmətinin özündə də fərariliyin olduğunu göstərirdi. Odur ki, hər iki güc nazirliyi fərariliyə qarşı birgə mübarizədə öz səylərini birləşdirmişdilər.

Əhalini hərbi işlə tanış etmək, ölkədə sabitliyin, ictimai asayişin və nizam-intizaın saxlanması Nəsib bəyi həm DMK-nın sədri və həm də DİN-ə başçılıq edən bir şəxs kimi çöx düşündürürdü. Buna zərurət var idi. Odur ki, DMK-nın 1 iyun 1919-cu il tarixli qərarı və Azərbaycan Parlamentinin razılığı ilə Azərbaycan Cümhuriyyətinin mobil Könüllü Əsgərlər Dəstəsi yaradılmışdı. Bu barədə Bakı şəhərinin komendantı, general-mayor Firidun bəy Vəzirov (1850-1925) 7 sentyabr 1919-ci il tarixli raportunda bildirmişdi. Dəstə əvvəlcə ancaq Bakı şəhərinin 14 rayonunu: Sabunçu, Mərkəzi, Balaxanı, Zabrat, Suraxanı, Xil, Aşağı Bibiheybət, Yuxarı Bibiheybət, Qara şəhər, Ağ şəhər, Z.Tağıyev fabriki, Binəqədi, Maştağa və Nardaran ərazilərini əhatə edirdi. DMK-nın qərarı ilə Könüllü Əsgərlər Dəstəsinin rəisi peşəkar hərbçi, polkovnik Yusif Ziya bəy Talıbzadə (1877-1923) təyin edilmişdi. Hələlik, bilavasitə DMK-ya tabe olan bu yeni qurumu əslində, Azərbaycan Respublikası DİN-in hazırkı Daxili Qoşunlarının sələfi adlandırmaq olar.

1919-cu il iyunun 10-da Azərbaycan DMK-ın sədri və daxili işlər naziri N.Yusifbəylinin əmri ilə Bakı şəhəri və onun rayonlarının ərazisində yaşayan hərbi çağırış yaşına çatmış şəxslər üçün hərbi hazırlıq işinin təşkili başlanmışdı. Bununla əlaqədar könüllü dəstələrin təşkili üzrə komissiya yaradılmışdı. Komissiyaya artıq yuxarıda barəsində bəhs etdiyimiz peşəkar hərbçi, ictimai asayişi mühafizə edən Bakı Təşkilatının Yardım Alayının rəisi Yusif Ziya bəy Talıbzadə sədr təyin edilmişdi. O, 5 min rubl əmək haqqı verilməklə həmin vəzifəyə təyin olunmuşdu. Bu qurum da birbaşa

DMK-ya tabeçiliklə yaradılmışdı. Lakin sonra DİN-in tabeliyində olan mobil (çevik) bir quruma çevrilmişdi. Belə ki, DMK-nın 1920-ci il 27 mart tarixli qərarı ilə Bakı Təşkilatının Yardım Alayının könüllü dəstələri Azərbaycan Cümhuriyyəti DİN-in sərəncamına verilmişdi... Beləliklə, xalqımızın milli istiqlalı və tərəqqisi üçün çox işlər görmüş şəxslərdən biri olan Yusif Ziya Talıbzadəni həm də DİN-in indiki Daxili Qoşunlarının yaradıcısı saymaq olar...

Təyinat. Daxili işlər naziri N.Yusifbəylinin 15 iyun 1919-cu il tarixli əmri ilə Rüstəm bəy Pənahəli bəy oğlu Mirzəyev Bakı şəhərinin polismeysteri vəzifəsinə təyin edilmişdi.

N.Yusifbəylinin başçılıq etdiyi Azərbaycan Hökuməti DİN-in fəaliyyətini daim diqqət mərkəzində saxlayır, onun maliyyə xərclərini səmərəli yöndə nizamlayır, bacardıqca bu quruma daha artıq pul ayırırdı. Bunun nəticəsi idi ki, 1919-cu ilin sonunda DİN-ə ayrılan maliyyə vəsaiti hərbi və ədliyyə nazirliklərinə, habelə dövlət müdafiəsinə ayrılan maliyyə xərclərindən yüksək olmuşdu.

O dövrdə Bakıda yaşayan Tiflis, İran, Dağıstan, Türkmənistan və digər yerlərdən gəlmiş cinayətkar ünsürlər çox idi. Bunu nəzərə alaraq daxili işlər naziri N.Yusifbəyli 28 iyun 1919-cu il tarixli əmr vermişdi. Əmrdə Bakı və Balaxanı-Sabunçu polismeysterlikləri qarşısında aşağıdakı konkret vəzifələr qoyulmuşdu:

- pristav və agentlərin köməyi ilə təcili olaraq, hər evdə yaşayan adamların nə ilə məşğul olduqları müəyyənləşdirilsin;

- çünki bu haqda Azərbaycan Hökumətinin hələ 28 avqust 1918-ci il tarixli sərəncamı vardır. Həmin sərəncamın icrasının davamı olaraq bütün vətəndaşlara müraciət olunaraq bildirilsin ki, xarici pasportların verilməsi qubernatorların səlahiyyətinə daxildir. Çağırışçılara, məhkəmədə və istintaq altında olanlara, həmçinin vergiləri ödəməkdən boyun qaçıranlara xarici pasport verilmir;

- sakinlərin qeydiyyat qaydalarını pozan ev sahibləri, mehmanxana müdirləri protokol tərtib edilməklə məsuliyyətə cəlb edilsinlər;

- məhəllə pristavları yeməkxana, mehmanxana və digər yerlərdə yoxlama aparsınlar. Etibarlı olmayan şəxslərin işlədiyi ticarət müəsisələri dərhal bağlansın, sahibləri isə şəhərdən sürgün edilsin;



- şəhəri bəd niyyətli adamlardan təmizləmək üçün əmr edirəm ki, şəhərdə avaralıq edən, kefdə-damaqda olan, heç bir işlə məşğul olmayan şəxslər aşkar olunub həbs edilsinlər. Bu istiqamətdə müntəzəm fəaliyyət göstərmək üçün Polismeysterlik Cinayət-Axtarış Polisi ilə razılığa gəlsin.

Nazir Usubbəyov".

Azərbaycan Hökuməti respublikanın ərazisində əks fəaliyyət göstərən şəxslərin və qüvvələrin aşkar edilməsini DİN-dən getdikcə daha artıq tələb edirdi. Buna müqabil olaraq, 1919-cu ilin iyulunda Bakının fabrik-zavod rayonlarında (Z.A.Tağıyevin, S.M.Şibayevin, A.İ.Mantaşevin (Aleksandr İvanoviç Mantaşev. 1842-ci ildə Tiflisdə erməni ailəsində anadan olmuşdu. 1907-ci ildə dünyada 835 kilometr uzunluğunda Bakı-Batum neft kəməri onun pulu ilə çəkilmişdi. Həmmüasirləri onu "neft kralı" adlandırırdılar. 1911-ci il aprelin 19-da Sankt-Peterburqda dünyasını dəyişmiş A.Mantaşev Tiflisə gətirilmiş və oradakı Van kilsəsində dəfn edilmişdi...) və başqalarının zavodlarında) Azərbaycan Hökuməti əleyhinə gizli özəklər yaratmış bolşeviklər polis tərəfindən həbs edilmiş, onlara xəbərdarlıq olunduqdan sonra buraxılmışdılar.

Nəsib bəyin dövründə "Azərbaycan vətəndaşlığı haqqında" Qanun (11 avqust 1919-cu il) qəbul edilmişdi. 1919-cu ilin avqustunda isə həbsxana işlərinə nəzarət DİN-in sərəncamından çıxarılıb Ədliyyə Nazirliyinin tabeliyinə keçirilmişdi. Azərbaycanda hərbi vəziyyətin tətbiqi də N.Yusifbəylinin rəhbərlik etdiyi Daxili İşlər Nazirliyinə həvalə olunmuşdu. Nəsib bəy Azərbaycanın Dövlət Müstəqilliyi əleyhinə yönəlmiş hərəkətlərə, siyasi, transmilli, kriminal cinayətkarlığa və cinayətkarlığın digər növlərinə, o cümlədən, sabotajçılığa qarşı mübarizədə amansız və qətiyyətli idi. O, 1919-cu ilin iyulunda Azərbaycan Cümhuriyyətinə tabe olmayan və qiyam qaldırmış "Muğan Sovet Respublikası"nı (25 aprel-25 iyul 1919-cu il) öz sərəncamında olan Milli Silahlı Qüvvələrimizin, o cümlədən, DİN qüvvələrinnin köməyi ilə qəti olaraq süquta uğratmışdı (Milli Ordumuzun qüvvələrinə general-mayor Həbib bəy Səlimov (1881-1920) rəhbərlik etmişdi ...

Nəsib bəy xalqının gələcəyinə böyük ümidlər bəsləyən bir şəxsiyyət, görkəmli siyasi-ictimai xadim idi. O, 1919-cu il mayın 28-də Azərbaycan Parlamentinin növbəti iclasındakı çıxışında demişdi:

- "Azərbaycanın Müstəqilliyi baş vermiş bir faktdır. Mən Sülh Konfransının son sözünü soyuqqanlıqla gözləyirəm. Ağlım kəsmir ki, dünyanın mədəni xalqlarının nümayəndələri Azərbaycan türklərinin arzu və istəklərinə biganə qalsınlar. Əks təqdirdə, məndə bu xalqların mədəni xalqlar olmasına şübhə oyanardı".

Doğrudan da, onun düşündüyü kimi olmuşdu. Paris Konfransının Ali Şurası 1920-ci il yanvarın 11-də İngiltərənin xarici işlər naziri lord Corc Nataniyel Kerzonun (1859-1925) təklifi ilə Azərbaycanın Dövlət Müstəqilliyini de-fakto (faktiki cəhətdən), habelə de-yure (yuridik cəhətdən, rəsmən) tanımışdı...

N.Yusifbəyli xalqının azad və dinc yaşamaqla dünya xalqları içərisində özünəməxsus yer tutduğunu, onun müstəqilliyini təhlükə altına almağa göstərilən hər cür böyük dövlətçilik və millətçilik cəhdlərinə qarşı barışmaz olduğunu dəfələrlə qəti şəkildə bildirmişdi. Bu cəhətdən onun Parlamentin 1919-cu il 22 dekabr tarixli iclasındakı çıxışı bariz nümunədir:

- "Azərbaycan xalqı azad və müstəqil yaşamaq istəyir və o başa düşür ki, bunun üçün güclü qüvvə lazımdır. Təbii ki, bu qüvvə bizə hücum üçün deyil, bizim namusumuzu, ləyaqətimizi, Vətənimizi və İstiqlaliyyətimizi müdafiə etmək üçün lazımdır. Bu cəhətdən Azərbaycanda hərbi mükəlləfiyyət müqəddəs vəzifədir. Ən qiymətli azadlıq, bizim İstiqlaliyyətimizdir və biz onu göz bəbəyi kimi müdafiə edəcəyik". Nəsib bəy həmin zamankı çıxışında qonşu Türkiyə, İran, Rusiya kimi böyük dövlətlərlə bərabərhüquqlu xarici dövlət kimi dostluq və əməkdaşlıq etməyə hazır olduğumuzu bildirmişdi.

Onun Dağlılar Respublikası (indiki Dağıstan) ilə dostluq və müstəqillik haqqındakı çağırışı da maraqlı idi:

- "Cənab Parlament üzvləri, mən deməyi özümə borc bilirəm ki, Dağlılar Respublikası azərbaycanlılar üçün ikinci vətəndir, necə ki, Azərbaycan dağlılar üçün belədir. Sizə məlumdur ki, Denikin ordusu Qafqazı təhdid etməkdədir. Qoy, bizim dağlı qardaşlarımız şübhə etməsinlər, biz həmişə onlarlayıq". N.Yusifbəylinin göstərişi ilə nümayəndəmiz Əlixan Xandəmir 1919-cu ildə Dağlılar Respublikasınm Temirxan Şura şəhərinə gedərək bu respublikaya Azərbaycan hökumətinin kömək olaraq göndərdiyi 10 milyon manat pulu təqdim etmişdi.



Nəsib bəy 1919-cu ildə şimaldan ağqvardiyaçı general Denikinin könüllü ordusunun Dağlılar Respublikasının ərazisinə daxil olduğunu və bununla Azərbaycan sərhədləri üçün də təhlükə yarandığını gördükdə, bu haqda general Denikinin səlahiyyətli nümayəndəsi polkovnik Lazarevə və denikinçilərə himayədarlıq edən ingilislərə öz etirazını Parlamentdə çıxış etməklə bildirmiş və demişdi: "Hər şeydən öncə, bəyan etməyi özümə borc bilirəm ki, deyəm: - Azərbaycanın sərhədlərini yalnız bizim meyitlərimiz üzərindən adlamaqla keçmək olar".

19 iyun 1919-cu il. N.Yusifbəlinin imzası ilə DMK bütün Azərbaycan Respublikası ərazisində hərbi vəziyyət elan etmiş və bunun icrasına nəzarət Daxili İşlər Nazirliyinə həvalə olunmuşdu.

Təyinat. 23 iyun 1919-cu il. Daxili işlər naziri N.Yusifbəyli "Fərariliklə mübarizəni qüvvətləndirmək haqqında" sərəncam imzalamışdı. Onun həmin tarixli 85 nömrəli əmri ilə bu vaxtadək Şamaxı qəzasının müvəqqəti rəisi vəzifəsini daşıyan Lütvəli (Niftəli) bəy Zülqədərov (1881-1920) Göyçay qəzasının rəisi təyin edilmişdi.

27 iyun 1919-cu il. Daxili işlər naziri N.Yusifbəyli Bakıda yaşayan əcnəbilərin yoxlanılması və cinayətkar ünsürlərin müəyyən edilmələri ilə əlaqədar ev dəftərlərinin təftiş edilməsi haqqında bütün polis pristavlarına əmr vermişdi.

Təyinat. İyun 1919-cu il.Azərbaycan Hökumətinin qərarı və daxili işlər naziri N.Yusifbəylinin müvafiq əmri ilə Xəlil bəy Sultanov Azərbaycan Cümhuriyyəti DİN-in Həbsxana Şöbəsinin rəisi vəzifəsinə təyin edilmişdi. Lakin DİN-in Həbsxana Şöbəsi Azərbaycan hökumətinin qərarı ilə həmin ilin avqustunda ləğv edilmiş və həbsxana işlərinə nəzarət səlahiyyəti Ədliyyə Nazirliyinə verilmişdi...

Avqust-sentyabr 1919-cu il. Azərbaycan DİN-in əmri ilə Bakı Şəhər Polismeysterliyi yanında polis qorodovoyları məktəbi təşkil olunmuşdu. Məktəbin daimi heyəti ilk zaman 7 nəfərdən: 1 rəis, 3 təlimatçı, 1 feldfebel və 2 vzvod komandirindən ibarət idi. Məktəbdə 100 nəfər hazırlanması nəzərdə tutulmuşdu...

Təyinat. 30 sentyabr 1919-cu il. Daxili işlər naziri N.Yusifbəylinin 133 nömrəli əmri ilə bu vaxtadək Gəncə polismeysterinin böyük köməkçisi (1-ci müavini - İ.Ş.) vəzifəsində çalışan İsgəndər bəy Məşədi Salman oğlu Qəmbərəliyev (1888-1937) Gəncə şəhərinin müvəqqəti polismeysteri təyin edilmişdi.

Təyinat. 13 oktyabr 1919-cu il. Daxili işlər naziri N.Yusifbəylinin əmri ilə Bakı qubernatoru Əmir bəy Nərimanbəyovun böyük köməkçisi Əmir xan (əsl adı Əmiraslan xan idi) Cahangir xan oğli Xoyski vəzifə xidmətində irəli çəkilərək, Qazax qəzasının qubernatoru (16-cı dərəcəli tariflə 1-ci dərəcə üzrə 3.000 manat əmək haqqı ilə) təyin edilmişdi. Daxili işlər naziri N.Yusifbəylinin 23 oktyabr 1919-cu il tarixli 156 nömrəli digər əmri ilə Cavad qəza rəisinin köməkçisi Rüstəm bəy Heybət bəy oğlu Kərimbəyov vəzifə xidmətində irəli çəkilərək, Lənkəran qəzasının (aylıq əmək haqqı 1-ci dərəcə tarif üzrə 3.000 manat olmaqla) rəisi təyin edilmişdi.

28 oktyabr 1919-cu il. DMK əsgər toplanması, həyətbaşı siyahıyaalma keçirilməsi və partizan dəstələrinin yaradılması sahəsində hakimiyyət orqanlarının fəaliyyətinə və hərəkətlərinə ciddi nəzarət etməyi DİN-in Polis İnspeksiyasına həvalə etmişdi.

3 noyabr 1919-cu il. Azərbaycan Parlamenti tərəfindən "Sərxoşluqla mübarizə haqqında" qanun qəbul edilmiş və onun icrasına nəzarət DİN-ə həvalə olunmuşdu.

Təyinat. Daxili işlər naziri N.Yusifbəylinin 12 noyabr 1919-cu il tarixli 295 nömrəli əmri ilə İsgəndər bəy Məşədi Salman bəy oğlu Qəmbərəliyev Şamxor (Şəmkir) qəzasının rəis əvəzi təyin edilmişdi. Nazir N.Yusifbəyli 1919-cu il noyabrın 15-də Bakı qubernatorunun 14 oktyabr 1919-cu il tarixli 14405 nömrəli təqdimatı üzrə Ədliyyə Nazirliyi Bakı Dairə Məhkəməsinin Balaxanı Sahəsinin müstəntiqi Məmməd bəy Süleymanbəyovun Cavad qəzasının rəisi təyin edilməsi haqqında əmrə qol çəkmişdi. Bununla əlaqədar nazir müavini, general-mayor Əliyar bəy Haşımbəyovun imzası ilə DİN-in adından M. Süleymanbəyovun tutduğu vəzifəsindən azad olunaraq DİN-in sərəncamına keçməsi barədə 8 noyabr 1919-cu il tarixli 10980 nömrəli xahiş məktubu göndərilmişdi.

27 noyabr 1919-cu il. Azərbaycan Cümhuriyyəti DMK və DİN-in birgə qərarı ilə Cavad (mərkəzi Salyan) və Lənkəran qəzalarında qarətlərlə mübarizə və sərhədçi funksiyalarını yerinə yetirmək məqsədilə 400 nəfərlik xüsusi sərhəd gözətçi dəstələri təşkil edilmişdi. Qərara müvafiq olaraq Azərbaycan Respublikasına xaricdən təcavüz olacağı və hərbi əməliyyatlar başlanacağı təqdirdə, həmin dəstələr Hərbi Nazirliyin müvafiq komandanlığının sərəncamına keçməli idi.

Təyinat. 12 dekabr 1919-cu il. Daxili işlər naziri N.Yusifbəylinin 110 nömrəli əmri ilə bu vaxtadək Bakı Mərkəzi Həbsxanasının rəisi olan Ələkbər bəy Bəhrambəyov tutduğu vəzifəsindən azad olunaraq, Cəbrayıl qəzasının rəisi vəzifəsinə təyin edilmişdi. Bu əmr DİN-in 5 yanvar 1920-ci il tarixli 228 nömrəli yeni əmrilə bir daha təsdiqlənmişdi...

17 dekabr 1919-cu il. DİN nümayəndəsinin də iştirakı ilə Bakı Polismeysterliyi pristavlarının geniş müşavirəsi keçirilmişdi.

... N.Yusifbəyli ermənilərin fitnəkarlıqlarına qarşı da tədbirlər görürdü. O, 1919-cu ilin yayında Qarabağda Qaybalı kəndində daşnakların törətdiyi qırğının (bu kənd tam yandırılmış və 600-dək adam öldürülmüşdü) günahkarlarının mütləq cəzalandırılacağını bəyan etdikdə, həmin ilin 7, 10 və 17 iyulda olan Parlamentin iclaslarında gedən müzakirələrdə Komissiya üzvü, deputat Çubaryanın bu hadisə ilə bağlı ermənilərin cinayətlərini ört-basdır etmək cəhdlərini ifşa etmiş, nəinki göstərilən işin, həmçinin Zəngəzur və Şamaxı soyqırımı hadisələrinin də məhz Yerevandan daşnaqların əli ilə təşkil olunduğunu, onların xəyanətkar hərəkətlərinin də cəzasız qalmayacaqlarını bildirmişdi.

...Erməni "Armenakan", "Qnçak" və "Daşnaksütyun" partiyalarının millətçi liderləri Nəsib bəyin Azərbaycan Parlamentində onların fitnəkarlıqlarını və dəhşətli "əməlləri"ni ifşa edən qətiyyətli çıxışlarını yaddan çıxara bilmirdilər.

***Haşiyə:*** "Armenakan" (qısa "Armenak"da yazılır) ermənilərin yaratdıqları ilk millətçi partiya idi. Bu partiya hələ 1895-ci ildə Türkiyənin Van şəhərində M.Portukyan tərəfindən yaradılmışdı. Mkırtıç Portukyan (bəzi ədəbiyyatda Portukalyan da yazılır) varlı erməni bankiriydi. 1885-ci ildə kürəkəni və dostları ilə birlikdə Vanda "Armenakan" adlı millətçi partiyanın əsasını qoy-

muşdu. Partiyanın mədaxilini gizlətdiyinə görə 1921-ci ildə öz "məsləkdaşları" tərəfindən öldürülmüşdü...

"Qnçakyan" (qısaça "Qnçak") ("haray", "zəng", "səs" deməkdir) ilkin olaraq 1887-ci ildə İsveçrənin Cenevrə şəhərində təhsil alan erməni tələbələri L.Nazarbey (A.Nazarbekyan) və qardaşı..., habelə Maro Vardanyan, Qabriel Kafuyans tərəfindən yaradılmışdı. Lakin onun rəsmi baniləri və əsas ideoloqları Ruben Xanazat Xanazatyan ("Nşan Karapetyan") (1862-1929; o, erməni xalqının "tarixi"nə dair iri əsərlərin müəllifidir...) və erməni sələmçi taciri, Türkiyənin maliyyə naziri olmuş Akop paşa Qazaryan (1833-1891), Arkomed (Qarancyan Gevorq Arutunoviç,Stepan Şaumyanın öyrədəni) (1861-1936) sayılır. "Qnçak" partiyası və onun görkəmli üzvləri (A.Nazarbekyan, M.Ambarsumyan, S.Qulyan, A.Zurabyan, P.Sarkisyan və b.) "dənizdən-dənizə (Aralıq dənizindən Qara dəniz və Xəzər dənizinə) "Böyük Ermənistan" dövləti yaratmağı qarşısına məqsəd qoymuşdu.

Nazarbey Lernts (əslində, Avetis Vardanoviç Nazarbekyan (1866-1939). "Qnçak" partiyasının banilərindən və rəhbərlərindən biri idi. Azərbaycanlılara, bütövlükdə türklərə və müsəlmanlara qarşı qəddar düşmənçilik siyasəti yeridənlərdən olmuşdur. Möskvada yüksək vəzifədə çalışan Anastas Mikoyanın vəsatəti ilə 1934-cü ildə SSRİ-yə dəvət edilmişdi..."Qnçak"ın görkəmli xadimlərindən biri Murad-Boyacyan Ambarsumyan (1860-1915) Türkiyədə, Sasun bölgəsində 1883-cü ildə müsəlman qətliamının fəal təşkilatçısı olmuşdu. 1884-cü ildə məhkum edilərək, Trablisə sürgün edilmişdi. 1906-cı ildə qaçmışdı...1908-ci ildə Osmanlı Parlamentinin deputatı olmuşdu. Deputat statusundan istifadə edib erməni "çətəçilər"in (quldur dəstələrinin) Türkiyə hökumətinə qarşı çıxışlarını hazırlamışdı. Salah Qulyan (1861-1928) da "Qnçak"ın görkəmli xadimlərindən biri idi. Əsl adı Stepan Ter-Danilyandır. "Qnçak" və "Yeritasard Hayastan" ("Gənc Ermənistan" ) qəzetlərinin redaktoru olmuşdu. 1908-ci ildə Türkiyə Parlamentinin deputatı seçilmişdi. Dinc müsəlmanların kütləvi qətllərini təşkil etdiyinə görə, qiyabi olaraq dar ağacından asılmağa məhkum edilmişdi, lakin Konstantinopoldan qaça bilmişdi...Zurabyan (1873-1920) (Əsl adı Arşak Gerasimoviç Zurabyandır) "Qnçak"ın liderlərindən biriydi. Petroqrad Soveti İcraiyyə Komitəsinin üzvü olmuşdu."Türkiyə Ermənistanı haqqında " dekretin müəlliflərindən idi. Paramaz Matevos Sarkisyan (1863-1915). "Qnçak" partiyasının görkəmli funksionerlərindən biri, Türkiyədə "erməni "Azadlıq hərəkatı"nın...fəal iştirakçısı olmuşdu. Kütləvi iğtişaşlar təşkil etdiyinə və dinc əhalini qırdığına görə 1915-ci ilin iyununda Konistantinoplda dar ağacından asılmışdı. Şmavon Qabriel Kafan (Kafuyans) (1860-1930). "Qnçak"ın liderlərindən biri idi. İkinci İnternasionalın tərkibinə daxil olmuşdu. "Böyük Ermənistan" ideyasını yaradanlardandı. Türkiyədə Zeytun və Sasun bölgələrindəki "erməni üsyan"nda təşkilatçılardan biriydi. Həmin üsyan zamanı erməni silahlı dəstələrinin əməliyyatları və vəhşilikləri nəticəsində 65 mindən çox əliyalın müsəlman-türk, kürd, habelə yəhudu qırılmışdı...

**Qeyd:** *"Qnçak" partiasının "ən görkəmli" üzvlərindən biri A.Ozanyan (1865-1927) olmuşdur. Türkiyədə sənətkar ailəsində doğulmuşdu. Andronik (tarixi ədəbiyyatda Andranikdə adlandırılır) Torosoviç Ozanyan 1894-cü ildən Türkiyə "istibdadına" qarşı erməni milli azadlıq hərəkatının fəal iştirakçısı idi .Bəzi qadın "jestlərinə" görə "Madmuazel Andronik" adlandırılan Ozanyan hələ 1891-ci ildə "Hnçakyan" partiasına daxil olmuşdu. Əslində, o qadın humanistliyindən çox uzaq olub cəllad "Andronik paşa" adı ilə daha məşhurdu. Çetebaşı Andronik paşa ilk dəfə 1901-ci ildə öz quldur (çete) dəstəsi ilə Muş şəhəri yaxınlığında peyda olmuşdu. Bu haqda Rusiyanın Ərzrumdakı baş konsulu Mayevski yazmışdır... A.Ozanyan 1-ci erməni könüllü dəstəsinin komandiri kimi 1912-ci ildən Balkan müharibələri zamanı Bolqarıstan ordusunun tərkibində Türkiyəyə qarşı vuruşurdu. Birinci Dünya Müharibəsi dövründə o, 1914-cü ilin noyabrında Türkiyəyə qarşı vuruşan Rusiya ordusu tərəfinə keçmişdi. Andronikin dəstəsi həmin andan öz dəstəsiylə general-leytenant Çernozubovun kamandan olduğu rus qoşunlarının tərkibində türklərə qarşı vuruşmuşdu. Odur ki, çar ona general-mayor rütbəsi vermişdi. 1915-ci ilin iyulunda Van gölü bölgəsində gedən hərbi əməliyyatlar zamanı fəallaşmış rus qoşunlarının tərkibində Andronikin başkəsənləri fürsət düşən kimi türk əhalisinə kütləvi divan tutduğu üçün Türkiyə hökuməti bu üzdəniraq "gneralı" qanundankənar elan edərək, həm də ingilislərə*

*və amerikanlara "qulluq" göstərdiyinə görə, onların agenti kimi bəyan etmişdi. Sonralar türklər Andronik paşanı ələ keçirmiş, Türkiyənin "sirrləri"ni ingilis-amerikan kəşfiyyatına satdığı üçün onun qulağını kəsib buraxmışdılar. Görkəmli Rusiya diplomatı və xarici işlər naziri G.V. Çiçerin də Androniki "Antantanın cəsusu" adlandırmışdı. "Qulağı kəsik Andronik" isə qaçıb İrəvana gəlmişdi. O,1918-ci ildən Naxçıvana hücumlar təşkil edirdi. Daşnak Ermənistan Respublikasının xidmətindən yararlanan "general" Andronuk Dronun, Kerinin, Muradın və b. qaniçən erməni silahlı dəstələrinə komandirlik edərək, Azərbaycan Cümhuriyyətinin sərhədlərinə, xüsusilə, Zəngəzura və Qarabağa tez-tez hücumlar təşkil edir, vəhşiliklər törədirdi... Qafqazda sovet hakimiyyəti qurulduqdan və möhkəmləndikdən sonra daha burada qala bilməyən A.Ozanyan tabeliyində qalan 680 nəfərlik başkəsənlər dəstəsinin müşayiəti ilə xaricə keçmişdi... O, Amerikada yaşayırdı. Bəzi memuarları 1921-ci ildə ABŞ-da erməni dilində çapdan çıxan "Erməni ələhiddə zərbə hərbi hissəsi" adlı kitabda toplanmışdır... A.Ozanyan 1926-cı ildə Amerika qəzetlərindən birində "Mən hələ qayıdacağam" adlı müsahibə vermişdi. Ermənistanın "milli qəhrəmanı, Qarribaldisi" adlandırılan Andranik Ozanyan 1962-ci ildə, ABŞ-da 62 yaşında ölmüşdür. 1965-ci ilin fevral ayında İrəvanda Andronik Ozanyanın anadan olmasının 100 illiyi təntənə ilə qeyd edilmişdi. 2000-ci ildə meyidi ABŞ-dan Yerevana gətirilərək, yenidən dəfn edilib...*

"Daşnaksütyun" ("İttifaq" deməkdir) burjua-millətçi partiyası – "Erməni inqilabi ittifaqı" adlanan burjua millətçi partiyası 1890-cı ildə Tiflisdə yaradılmışdı. Onun yaradıcıları və görkəmli xadimləri Xristofor Mikaelyan (1859-1915), Simon Zavaryan, Stefan Zoryan, Vahan Papazyan (1868-1923), Armen Qaro (Pastermasyan Armen Qaro) (1873-1923). Türkiyə ermənisi idi. 1908-1914-cü illərdə Türkiyə Parlamentinin deputatı olmuşdur), Karo Sasuni, Aleksandr Xatisov, Qaregin Njde, Ovanes Kaçaznuni, Vratsyan Simon, Akop Zavriyev, Milkael Varandyan, Knuni Malumyan (1860-1915), Qərib və başqaları bildirirdilər ki, "Daşnaksütyun" Türkiyə ermənilərini Osmanlı zülmündən xilas etmək məqsədilə yaradılmışdır. Onlar erməni "genosidi"nin əsas təşkilatçıları olan "şəxslər"in məhvi barədə qərar qəbul etmişdilər. 1892-ci ildə



İsveçrənin Cenevrə şəhərində 32 nəfərin iştirakı ilə partiyanın 1-ci qurultayı keçirilmişdi. Qurultayda "Daşnaksütyun"un erməni "zinovarlar" adlanan əsgərlərindən ibarət dəstələrin yaradılması barədə qərar qəbul edilmişdi. "Daşnaksütyun"un ideoloqlarından biri Ovanes Kaçaznuni yazırdıki, partiyanın ABŞ, Fransa,Yunanıstan, İran və digər ölkələrdə filialları vardır... Bununla əlaqədar həyata keçiriləcək terror aktları seriyası şərti olaraq "Nemezis" adlandırılmışdır (yunan ilahəsi Nemezidanın adından götürülmüşdür). 1919-cu ilin oktyabrında "Daşnaksütyun" partiyasının İrəvanda keçirilən 9-cu qurultayında Şaan Natalinin təşəbbüsü ilə terror əməliyyatlarına başlamaq barədə qərar qəbul olunmuşdu. "Daşnaksütyun"un iclasında "erməni genosidi"nin (1915-ci il) 650 günahkar şəxsin siyahısına baxılmış və seçim qaydasında onlardan 41 nəfərinin ilk növbədə ləğv edilməsi qərarlaşdırılmışdı.

Stefan Zoryan (1867-1919) (Daha çox "Rostov Zoryan" kimi tanınır) "Daşnaksütyun" pariyasının banilərindən və rəhbərlərindən biri idi. O, 1918-ci illərdə Bakıda, Şamaxıda, Qubada və Azərbaycanın digər şəhərlərində kütləvi qətllərin, vəhşiliklərin və işgəncələrin təşkilatçısı olmuşdur. Aleksandr İvanoviç Xatisov da (1874-1945) "Daşnaksütyun" partiyasının liderlərindən biriydi. Əvvəllər "Kadetlər" partiyasının üzvü olmuşdu. 1910-17-ci illərdə Tiflis şəhərinin bələdiyyə rəisi vəzifəsində işləmişdi. 1918-20-ci illərdə daşnak Ermənistan Respublikasının xarici işlər naziri və Nazirlər Şurasının sədri olmuşdu. Həmin dövrdə Bakıda Xalq Komissarları Soveti yarandıqda S.Şaumyana, Q.Melikyana, T.Əmiryana və A.Mikoyana məsləhətlər vermişdi. Ovanes Kaçaznuni (1868-1937) "Daşnaksütyun" partiyasının görkəmli üzvlərindən idi. Daşnak Ermənistanının (1918-20) ilk baş naziri olmuşdu. Qırmızı ordu Ermənistana gələndə və orada sovet hakimiyyəti qurulanda (29 noyabr 1920-ci il) 52 yaşında öz baxışlarını dəyişdirmiş və keçmiş silahdaşları olan daşnakların siyasətini ifşa etməyə başlamışdı. Simon Vratsyan (1882-1969) "Daşnakstyun" partiyasının qatı ideoloq idi. Daşnak Ermənistan Respublikasının (1918-20) hökumət başçısıydı. 1921-ci ilin yanvar-fevral aylarında Ermənistanda, Zəngəzurda və Qarabağda azərbaycanlıların kütləvi qətliamının təşkilatçısı, həmçinin daşnakların "Vətənin nicatı" Komitəsinin sədri olmuş-

du. Sonra xaricə qaçmış və 1926-cı ildən ABŞ-ın Dövlət Departamentinin Yaxın Şərq üzrə mütəxəssisi işləmişdi...Doktor Akop Zavriyev (1875-1920) (əsl adı Akop Zavaryandır). "Daşnaksütyunun liderlərindən biri, Stepan Şaumyanın yaxın məsləkdaşı olmuşdur. Onunla birlikdə, 1905-ci ilin fevralında Bakıda törədilmiş müsəlmanların qırğınını hazırlayanlardan biri idi. O, Yelizavetpolda (Gəncə), Tiflisdə, İrəvanda və Qarabağda azərbaycanlılara qarşı qırğınların törədilməsini təşkil etmişdi. Ərzrumda (1918-ci il) Rusiya general-qubernatorunun köməkçisi olmuşdu. Həmin vaxt erməni döyüş təşkilatı olan "Milli büro"nun tərkibinə daxil idi. Mikael Varandyan (əslində, Ohanesyan) (1884-1934). "Daşnaksütyun"un ideoloqlarından biriydi. O, vaxtı ilə çara xəfiyyəlik etmiş, "26 Bakı komissarı"nı satan Anastas Mikoyana qarşı ifşaedici sənədlərə malik olmuşdu. İ. Stalinin tapşırığı ilə Parisdə öldürülmüşdü... Qərib (Avetis Aqraniya Qərib) (1866-1948). "Daşnaksütyun" partiyasının rəhbərlərindən biri, həm də şair idi. Erməni Milli Şurasının (1917) və daşnak Ermənistan Respublikası Parlamentinin sədri (1919-cu il) olmuşdu...

"Nemezis"in ilk qurbanlarından biri Osmanlı Türkiyəsinin daxili işlər naziri, 1915-ci ildə qiyama qalxmış ermənilərə qarşı tədbirlər görmüş Tələt Paşa olmuşdu. O, 1921-ci il martın 15-də Almaniyanın Berlin şəhərində erməni terrorçusu, tacir Soqomon Xaçaturoviç Tehliryan (1896-1960) tərəfindən güllələnmişdi..."Nemezis" əməliyyatının ən fəal iştirakçılarından biri Arşavir Şirakyan isə bildirmişdi ki, bizim təşkilatın məhv etmək planı yoxdur. Məqsəd yalnız "kütləvi ölümlərin" günahkarları olan "şəxslər"in cəzalandırılmasını həyata keçirməkdir.

Əməliyyata rəhbərlik üçün məsul orqan (rəhbəri daşnak Ermənistan Respublikasının ABŞ-dakı emissarı Armen Qaro və Xüsusi fond (rəhbəri Şaan Satrailyan idi) təşkil olunmuşdu. Əməliyyata operativ rəhbərliyi və maddi təminatı Şain Natali və Qriqor Merjanov həyata keçirməli idi. Ən vacib informasiyaların toplanmasında əsas rolu Qraç Papazyan oynamalıydı. Əməliyyatda nəzərdə tutulan qətllər aşağıdakı kimi həyata keçirilməli idi: ləğvi nəzərdə tutulan şəxsin (şəxslərin) izlənməsi və təqibi üçün 2-3 və 3-5 nəfərdən ibarət qruplar qətlləri həyata keçirməli idilər.



"Nemezis"in rəhbərləri "Azərbaycan "müsavat" hökuməti"nin bir neçə liderlərinin ləğv edilməsi haqqında da qərar qəbul etmişdi. Onların sırasında F.Xoyski, H.Ağayev, B.Cavanşir, X.Xasməmmədov və başqaları, o cümlədən N.Yusifbəyli də vardı. Erməni millətçi liderlərinin fikrincə, 1918-ci ilin sentyabrın 15-də Bakıdakı "qırğında" güya 20 min erməni öldürülmüşdü və həmin şəxslər "qırğının" təşkilatçıları və günahkarları idilər.

N.Yusifbəylinin daxili işlər nazirliyi dövründə polis işçilərinə qarşı tələblər, qanunçuluğa əməl edilməsinə nəzarət çox ciddi idi. Belə ki, polis xidməti zamanı vəzifəsindən sui-istifadə edənlər, yaxud qanunçuluğu bu və ya digər formada pozanların əməlləri DİN-in Xüsusi Polis Müfəttişliyi tərəfindən təhqiqat aparılmaqla sübut olunur, onlar vəzifədən kənarlaşdırılır və yaxud aşağı işə keçirilirdilər. 1919-cu il ərzində Bakıdan və respublikanın qəzalarından DİN-ə bəzi inzibati orqanların rəhbər işçiləri və ayri-ayrı polis məmurları barədə şikayətlər daxil olmuşdu. Bunların içərisində bəzi qəza rəislərinin özbaşınalıqları və cinayətkarlıqları himayə etmələri faktları da vardı. Bir sıra faktlarda məmurlardan bəzilərinin torpaqları qanunsuz ələ keçirdikləri bildirilirdi. Məsələn, Dəvəçi pristavı qardaşları ilə birlikdə Şəzərli kəndində qnunsuz olaraq torpaqlar tutmuşdu. Qazax qəzasının sakinləri də ağır vergilərin yığılması zamanı qəza inzibati orqanlarının bəzi şəxslərindən şikayətlənirdilər. Daxili işlər nairi N.Yusifbəyli Ərəş qəzasına gələndə orada bir neçə vəzifədən sui-istifadə halları ilə tanış olduqdan sonra qəza rəisini vəzifəsindən çıxarmış, 1-ci sahə polis ptistavını isə həbs elətdirmişdi.

N.Yusifbəyli DİN-in strukturlarını peşəkar kadrlarla möhkəmləndirmək işini ən ümdə vəzifələrindən hesab edir və bütün fəalyyəti boyu bunu həyata keçirirdi. Məsələn, onun 1919-cu il 4 dekabr tarixli əmrinə əsasən vaxtilə çar Rusiyası ordusunda nümunəvi xidmət göstərməklə general-mayor hərbi rütbəsinə layiq görülmüş Murad Gəray bəy Tlexas (1874-1920) Bakının general-qubernatoru vəzifəsinə təyin edilmişdi...

...27 aprel 1920-ci il. Səhər saat 9-dan bütün partiya liderləri Nəsib bəyin mənzilinə toplaşıb 11-ci "qırmızı" ordunun Azərbaycan hüdudlarını keçməsini müzakirə edirlər. Müxtəlif fikirlər irəli sürülür... Şəfi bəy Rüstəmbəyli deyirdi: "...Gəlin, hökuməti Gəncəyə

köçürək və oradan bolşeviklərə qarşı mübarizə aparaq". Onun təklifi qəbul olunmadı. Belə qənaətə gəldilər ki, ən yaxşısı, Bakıda qalıb hakimiyyəti qan tökmədən bolşeviklərə verməkdir. Aprelin 27-də gündüz saat 12-də Parlamentin son iclası oldu. "Sosialistlər", "İttihad" və "Əhrar" partiyalarının liderləri açıq şəkildə hakimiyyətin dinc yolla bolşeviklərə verilməsi təklifini müdafiə etdilər. Hərbi nazir S. Mehmandarov da açıqca bildirdi ki, Bakıda qalan cüzi qüvvə ilə düşmənə müqavimət göstərmək mümkün deyil. Axşam saat 11-də Azərbaycan Parlamentinin sədri Məmməd Yusif Cəfərov və general Vəkilov (İdarə direktoru) hakimiyyətin bolşeviklərə verilməsi aktını imzaladılar.

Mürəkkəb, ziddiyyətli həyat yolu keçmiş, lakin xalqının İstiqlaliyyəti yolunda böyük zəhmətlər çəkmiş N.Yusifbəylinin aqibəti çox təəssüf ki, faciə ilə sona yetmişdir... Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşeviklərin, xüsusilə, Bakını işğal edən 11-ci ordunun Xüsusi Şöbəsinin rəisi, cəllad Semyon Pankratovun qanlı pəncəsindən qurtularaq Gəncəyə gəlmiş, bir müddət orada yaşamış və 1920-ci ilin mayın axırlarında general-mayor, şahzadə Əmir Kazım Məhəmməd Mirzə Qacaqrın (1853-1920), Azərbaycan Ordusunun Birinci Piyada Diviziyasının komandiri general-mayor Cavad bəy Şıxlınski (1874, Qazax qəzası, Şıxlı kəndi - 1959, Türkiyə), Gəncə Alayının komandiri Cahangir bəy Kazımbəyovun (), Sarı Ələkbərin (1885-1961), Gəncənin sabiq polis rəisi, balabağmanlı qaçaq Qənbər Qəni oğlu Bəhmənlinin, samuxlu qaçaq Məmməd Qasımın (1897, Samux-1967, Elaziqi şəhəri, Türkiyə, 69 yaş) başçılığı ilə baş vermiş Gəncə üsyanında iştirak etmişdi... Qeyri-bərabər mübarizədə üsyan 11-ci ordu tərəfindən yatırıldıqdan sonra bir müddət gizlənmək üçün Kürdəmir qəzasına gələn Nəsib bəyi Kür çayının qırağında naməlum şəxslər... xaincəsinə qətlə yetirmişdilər... Bu hadisə 1920-ci il mayın 31-də baş vermişdi... Qatillər Nəsib bəyin meyitini Kür çayına atmışdılar... Bu zaman Nəsib bəyin cəmi 39 yaşı vardı.

N. N.Yusifbəylinin xidmətlərini həmmüasirləri və silahdaşları yüksək qiymətləndirirdilər. M. Ə. Rəsulzadə onun ölüm xəbərindən çox mütəəssirlənərək bildirmişdi: "Azərbaycan ideyasını siyasi bir tələb maddəsi şəkilində formula etmək şərəfi mərhum Nəsibbəyindir".



N.Yusifbəylinin faciəli sonluğu barədə müxtəlif fərziyələr mövcuddur. Son illərin dövri mətbuatında Nəsib bəyin müəmalı ölümü ilə bağlı fərziyələr də öz əksini tapıb, onlardan birinin müəllifi tədqiqatçı alim, filologoya elmləri doktoru, professor Aydın Dadaşovdur. Aydın müəllimin (1952-2017) fikrincə, Nəsib bəy Ceyrançöldəki Quruçay dərəsində qətlə yetirilmişdir... Filologiya üzrə fəlsəfə doktoru Asif Rüstəmli və tanınmış yazıçı-jurnalist Şəmistan Nəzirlinin fikrincə, N.Yusifbəyli 1920-ci il iyunun 19-da Tiflisdə Fətəli xan Xoyski ilə birlikdə qətlə yetirilmişdir və onu arxadan güllə ilə erməni muzdlu qatili Aram Yevkanyan vurmuşdur... Asif müəllim 1995-ci ildə Azərbaycan Milli Dövlət Arxivində araşdırmalar apararkən Gürcüstan hökumətinin Azərbaycan Hökumətinə göndərdiyi rəsmi sənədə rast gəlmişdir. O, həmin sənədin üzünü köçürmüşdür. Orada yazılmışdır: "Tiflisdə, şənbə günü, 1920-ci il iyunun 19-da axşam saat 9-a yaxın Olginski küçəsinin başlanğıcında mauzerdən atılan atəşlə Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli öldürülmüşdür. Qətldə günahlandırılan 8 nəfər şübhəli şəxs Gürcüstan hökuməti tərəfindən saxlanılmışdır".

Mövcud tarixi ədəbiyyatdakı fərziyələrdən birinin müəllifi tədqiqatçı alim, elmlər doktoru Xaləddin İbrahimlidir. O, "Azərbaycanın siyasi mühacirəti" kitabında yazmışdır: "...Azərbaycan Demokratik Respublikasının ikinci Baş naziri Nəsib bəy Yusifbəyli müəmmalı şəkildə yoxa çıxdı. Azərbaycan SSR-in rəhbər vəzifəli şəxslərindən Əliheydər Qarayev ictimaiyyəti aldadaraq, onun 98 milyon manat pulla birlikdə Bakı dəmiryol vağzalında həbs edildiyini bəyan etmişdir. Lakin həqiqətdə baş nazir Kürdəmirdə Azərbaycan Fövqəladə Komissiyasının əməkdaşı tərəfindən xüsusi qəddarlıqla öldürülmüşdür. Nəsib bəyin rus sürücüsü salamat qalaraq aradan çıxıb Türkiyəyə qaça bilmişdi... Sonralar o, hadisəni Nəsib bəy Yusifbəylinin həyat yoldaşı Şəfiqə Sultan xanıma danışaraq, mərhumun cənazəsinin dəfn olunduğu yeri də nişan vermişdi. Gəncə camaatı Nəsib bəyin çöllükdəki məzarını sovet hökumətindən xəbərsiz, xəlvəti Gəncəyə köçürmüşlər".

Fərziyələrdən birinin də müəllifi fililogiya elmləri doktoru, professor Vilayət Quliyevdir (V. Quliyev Azərbaycan Respublikasının sabiq xarici işlər naziridir. Hazırda Azərbaycan Respublikasının

Macarıstandakı fövqəladə və səlahiyyətli səfiridir). Vilayət müəllimin "Yaddaş" rubrikasından "525-ci qəzet"in 31 dekabr 2010-cu il tarixli nömrəsində N.Yusifbəylinin faciəli sonluğuyla bağlı dərc etdirdiyi məqalədən bəzi seçmələri diqqətinizə çatdırırıq. Professor yazmışdır:

- "...Şəfiqə xanım od içində yanan Krımdan Azərbaycana ilk növbədə iki körpəsini xilas etmək üçün gəlmişdi. Bunun xatirinə Nəsib bəylə aralarındakı soyuqluq və anlaşılmazlığı qismən də olsa, unutmağa, keçmiş acıların üzərindən xətt çəkməyə razılıq vermişdi. Amma nisbətən sakit və təmin olunmuş həyat çox da uzun sürməmişdi. Azərbaycan Cümhuriyyətinin süqutu, Nəsib bəyin müəmmalı ölümü, ölkədə gündən-günə genişlənən bolşevik terroru gənc qadını yenidən ciddi təhlükələr, sınaq və çətinliklər qarşısında qoymuşdu. Xüsusilə, Nəsib bəyin faciəli sonluğu ilə bağlı səhih məlumat ala bilməməsi həyatının axırınadək onun sinəsində qövr edən yaraya çevrilmişdi...

Hər halda, Nəsib bəy "məchulluğa" son səfərindən öncə Şəfiqə xanımla görüşə bilmiş, eyni zamanda, ilk fürsət yaranan kimi onu məlumatlandırmışdı. Şəfiqə xanımın xatirələr üçün nəzərdə tutulmuş qeydlərindən birində oxuyuruq: "1920-ci il mayın ilk günlərində təbdili-qiyafət edərək (yəni paltarını dəyişərək) ata minib qərarlaşdırılan səmtə yollanan Nəsib Kürdəmir yaxınlığında yoxa çıxdı. Kürdəmirdən kiçik bir məktubunu aldım. Gətirən məndən, mən də ondan qorxa-qorxa açıb oxudum. Sağ-salamat gəlib Kürdəmirə çatdığını xəbər verir, Kürü keçmək üçün gözlədiyini yazırdı. Ondan sonra nə bir səs, nə də bir nəfəs gəldi...".

"Şəhadəti haqqında bir neçə rəvayət var, – deyə Şəfiqə xanım başqa bir qeydində öyrənə bildiyi ehtimalları sadalamışdı. Biri budur ki, Kür çayı sahilində Əyricə kəndinin sakinləri tərəfindən Bakı milyonçularından zənn edilərək öldürülmüşdür. Bu rəvayəti mənə qarxunlu Əşrəf adlı bir şəxs söyləmişdir... (Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü, Əşrəf bəy "Qarxunlu) Tağıyev (1867-1930) nəzərdə tutulur).

Başqa rəvayətə görə yenə Kür sahilindəki bir kənddə, əvvəlcədən hazırlanmış evdə gecələyirmiş, salla nəhrin (Kür çayı nəzərdə tutulur; "nəhr" ərəb sözüdür, "axar çay" deməkdir) qarşı tərəfinə keçməli imiş. Nəhayət, sal hazırlanmış, gecənin qaranlığında yola çıxmışlar. Amma çayın o biri sahilində dayananlar salı görməmişdilər. Üçüncü rəvayət də cinayətin elə qarxunlu Əşrəfin öz əli ilə törədilmişdir. Amma bunların hamısı sadəcə soz-söhbətdir. Yeganə doğru olan şey yalnız Kürdəmirə sağ-salamat çatması haqqında aldığım o kiçik məktubdur. Başqa bir xəbər də eşitmişəm. Güya böyük qardaşı deyib ki, hətta məzarını da tapıb. Amma həmin məlumatın doğruluğu ilə bağlı şübhələrim çox böyükdür". Şəfiqə xanım bu qeydləri çox gümanki, 50-ci illərdə aparıb. Qeydlərin sonunda Şəfiqə xanım iri hərflərlə: "Sudamısan, Torpaqdamısan, Nəsib?! Ətrafın Nurla Dolsun!", - sözlərini yazmış və uzun onilliklərdən sonra ilk dəfə gənclik illərində sevə-sevə istifadə etdiyi soyadı ilə: "Şəfiqə Qaspıralı - Yusifbəyli" imzasını atmışdı.

Nəhayət, Nəsib bəyin həyatının sonluğu ilə bağlı Şəfiqə xanımın daha bir qeydi. Qeydin mətnində deyilir: "Mərhum Nəsib bəyə talehsiz səfərində yoldaşlıq edən İbrahimli Yusif Bakı ətrafındakı Keşlə kəndindən idi. Yusif əfəndi fəhlə içərisindən çıxmış bir firqə adamı idi. "Müsavat" fırqəsinin Bakı Komitəsinə mənsub olan bu vətəndaş təşkilatçılığı ilə tanınan, fəhlələr arasında sözü keçən zəhmətkeş bir işçi idi". Qeydin üzərində "M. E." insialı yazılmışdı. Bu, çox gümanki, Mehmet Emin (13 may 1869, İstanbul -14 yanvar 1944, İstanbul) bəy idi (V.Q).

1920-ci ilin apreli on minlərlə Azərbaycan milli təəssübkeşi kimi Şəfiqə xanımı da son dərəcə böyük çətinliklər qarşısında qoymuşdu... Qıtlığın, ehtiyacın hökm sürdüyü Bakıda heç bir arxası, güman və istinad yeri olmayan gənc bir qadının özünü, iki övladını dolandırması asan məsələ deyildi. İsmayıl Qaspralının qızı və Nəsib bəy Yusifbəylinin xanımı imiclləri isə onu təhdid edən daha böyük təhlükə idi. Bolşeviklər həm Cümhuriyyət liderlərinə, onların ailə üzvlərinə, yaxınlarına, həm də "burjua millətçilərinə" qarşı geniş miqyaslı mübarizəyə başlamışdılar. Doğrudur, ilk zaman özünün də gözləmədiyi halda yeni sovet rejimi onun bilik və təcrübəsinə ehtiyac duyaraq, Şəfiqə xanıma Xalq Maarif Komissarlığının ana məktəbləri" (çox gümanki məktəbəqədər tərbiyə müəssisələri-V.Q.) şöbəsində təlimatçı təyin olunmuş, eyni zamanda, komissarlığın dərsliklərlə bağlı "tərcümə və nəşr" komissiyasının tərkibində fəaliyyət gös-

tərməyə başlamışdı. Lakin Şəfiqə xanım başa düşürdü ki, bu, müvəqqətidir və hər şey növbəti "təmizləmə" zamanı tez dəyişə bilər.

Şəfiqə xanıma Gəncədən Nəsib bəyin qardaşı bacardığı maddi köməyi göndərirdi. Nəsib bəyin sabiq dostlarından da ara-bir ona köməklik göstərənlər tapılırdı. Onlardan biri vaxtı ilə, Nəsib bəy Yusifbəylinin rəhbərlik etdiyi 5-ci hökumət kabinetində (24 dekabr 1919 - 30 mart 1920-ci il) maarif və dini etiqad naziri vəzifəsini tutmuş, sovet hakimiyyəti qurulduqdan sonra da məsul vəzifələrdə çalışan Həmid bəy Şahtaxtinski (12 mart 1880, Naxçıvan qəzasının Şahtaxtı kəndi -3 fevral 1944, Arxangelsk vilayəti, 64 yaş) olmuşdur.

Şəfiqə xanım Bakıda çox səksəkəli və həyacanlı günlər yaşayırdı. O, özündən daha çox Nəsib bəyin əmanəti olan iki övladının taleyi üçün narahat idi. Günlərin birində həbs olunacağından, uşaqlarının yad şəhərdə tamamilə tənha və başsız qalacaqlarından qorxurdu. Bu, əslində, hər an gözlənilən reallıq idi. Onu və övladlarını bolşeviklər Filarmoniya ilə üzbəüzdəki mənzilindən bayıra atmışdılar... Lakin xeyirxah insanların köməyilə şəhərin kənarında kasıb bir daxmada, çətin şəraitdə yaşayırdılar...

Çıxış yolu gözlənilmədən açılmışdı. Belə ki, Türkiyə Böyük Millət Məclisi (TBMM) Hökumətinin 1920-ci ilin sentyabrında Bakıya təyin olunmuş təmsilçisi Məmduh Şövket Esandal (1884-1952) İsmayıl Qaspralının qızının və şəhid Baş nazir Nəsib bəy Yusifbəylinin xanımının Bakıda iki övladı ilə çətin durumda qaldığını öyrənən kimi onların Türkiyəyə aparılması üçün yollar və vasitələr aramağa başlamışdı. Həmin dövrdə TBMM Hökuməti ilə Sovet Rusiyası arasında imzalanmış Moskva müqaviləsinə (16 mart 1921-ci il) görə türk hərbi əsirləri, habelə müxtəlif vasitələrlə Azərbaycana gələn və Bakıda sovet hakimiyyəti elan olunduqdan sonra geri qayıda bilməyən türk ailələri Türkiyənin Bakı təmsilçiliyindən müvafiq rəsmi sənədlər alaraq, vətənə dönürdülər. Bu iş sovet orqanlarlnln ciddi nəzarətində icra olunurdu. Lakin Məmduh Şövkət (diplomat, yazıçı. 28 mart 1884 - cü ildə Esendalda anadan olmuş, 16 may 1952-ci ildə Ankarada 69 yaşında vəfat etmişdir. Bakıya səfir təyin edilənədək Tehranda (İran) və Kabildə (Əfqanıstan) işləmişdi) Azərbaycan XKS-in sədri N. Nərimanovla məsləhətləşərək, risk etməyi qərara alıb, Şəfiqə xanımla övladlarını müharibənin



Azərbaycana gətirdiyi Türkiyə vətəndaşları kimi qeydiyyata götürtmüşdü. 1922-ci ildə isə onlara türk pasportu verərək Türkiyəyə keçmələrinə və bolşevik təqiblərindən və əzablarından xilas olmalarına yardım göstərmişdi. Şəfiqə xanım, qızı Zöhrə xanım və oğlu Niyazi Bakıdan kiçik bir gəmidə türk hərbçilərilə birlikdə Batuma yola salınmışdı...

**Qeyd:** *N. Nərimanov Bakıya Həştərxandan sovet hakimiyyəti qurulandan 18 gün sonra gəlmişdi. O, Azərbaycan SSR XKS-in sədri işlədiyi dövrdə Türkiyə ilə qardaş bir ölkə kimi həmişə xoş münasibətdə olmuş, Mustafa Kamal Paşa Atattürkə (1881-1938) yaxından kömək etməyə çalışmışdı. Hətta bir dəfə M. Atatürk ondan borc olaraq 1 milyon pul istədikdə, o dərhal onun xahişini yerinə yetirmiş və ona yazmışdı: "Paşam, qardaş qardaşa borc verməz, əl tutar!".*

Gəmi ilə Trabzona çatanda xoş bir təsadüf Şəfiqə xanımgili Şəfi bəy Rüstəmbəyli ilə rastlaşdırmışdı. Şəfi bəy Şəfiqə xanımı və uşaqlarını böyük ehtiramla qarşılayıb, İstanbula gətirmiş və orada məskunlaşmış Qaspıralılara qovuşdurmuşdu. Beləliklə, Şəfiqə xanım övladlarl ilə birlikdə İstanbula gəlmişdi. Bu zaman İstanbulda onun xalası Nigar xanım, qardaşları Heydər bəy və Cövdət Mənsur bəy yaşayırdılar... Şəfiqə xanım İstanbulda "Qırmızı Aypara" Cəmiyyətində işə düzəlmiş və ömrünün sonunadək orada yaşamışdı. Xalası Nigar xanım onu və övladlarını himayəyə götürmüşdü.

Nəsib bəyin qızı Zöhrə xanım Berlin Universitetinin Kənd Təsərrüfatı Fakultəsini bitirmiş, İstanbulda yaşayan görkəmli azərbaycanlı seleksiyaçı alim, kənd təsərrüfatı elmləri doktoru Mirzə bəy Məşədi Yusif oğlu (ləqəbi Göygöl idi) Hacızadə ilə ailə qurmuşdu. Bu ailəlikdən onların 4 övladı dünyaya gəlmişdi. Zöhrə xanım 90-cı illərin əvvəlində İstanbulun Taksim meydanında Almaniya konsulluğu ilə üzbəüz 4 mərtəbəli şəxsi malikanəsində yaşayırdı. 1992-ci ildə onun 90 yaşı tamam olmuşdu...Yorulmaz tədqiqatçı, mərhum jurnalist dostumuz Xanlar Bayramov həmin il İstanbula getmiş, Zöhrə xanımla görüşmüş, söhbət aparmış və həmin görüşdən yadigar şəkil də çəkdirmişdir...

Zöhrə xanım Xanlar müəllimlə söhbətində atası ilə son görüşünü belə xatırlamışdır: "... 1920-ci il aprelin 27-də gecədən xeyli

keçmiş atam Nəsib bəy pərişan halda özünün rus sürücüsü Mitya ilə evə gəlib bildirdi: "Fəna bir zaman başladı. Hər yerdə tuthatut-dur!...". Sonra cibindəki pulun bir hissəsini stolun üstünə qoyaraq, ailəsilə vidalaşdı. "Özünüzü qoruyun!", - deyib, dərhal qapıdan çıxdı, hansı istiqamətdəsə getdi və bu onun son gedişi oldu. O zamandan indiyədək Nəsib bəydən bir kəlmə belə, məlumat ala bilməmişik".

Nəsib bəy Yusifbəyli, ailə üzvləri və nəsli sovet rejiminin ağır repressiya tədbirlərinə məruz qalmışdılar... Atası Yusif bəy uzun sürən xəstəlikdən sonra 1922-ci ildə Gəncədə vəfat etmişdi... Buna ilk növbədə səbəb oğlu Nəsib bəyin qətlə yetirilməsi idi... Anasının adı Cəmilə xanım idi... Oğlunun adı Niyazi bəy, qızı Zöhrə xanım idi. Nəvəsi, Zöhrə xanımın oğlu Selcuk bəy isə vəfat etmişdi... Zöhrə xanımın bircə qızı Şölə xanım isə Almaniyada yaşayır... (Mərhum jurnalist Xanlar Bayramov yazmışdır ki, akademik Cingiz Cuvarlı Nəsib bəy Yusifbəylinin bacısı oğludur...).

Nəsib bəy Yusifbəyli Bakıda hələ keçmiş çar dövründən adlanan Nikolayev (Azərbaycan Cümhiriyyəti dövründə "Parlaman", Azərbaycan SSR dövründə "Kommunust", indiki dövrdə İstiqlaliyyət) küçəsindəki 21-ci binada (Filarmoniya ilə üzbəüz bina) yaşamışdı (F. Xoyski də həmin binada yaşamışdır). Buraya xatirə lövhəsi vurulmuşdur. Bakı şəhərində Nərimanov rayonunda, Gəncə şəhərində görkəmli siyasi və dövlət xadimi N.Yusifbəylinin adını daşıyan küçələr vardır. 1992-ci il mayın 28-də Nəsib bəyin vaxtilə Gəncədə yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur. 2012-ci ilin iyununda N. Yusifbəyliyə həsr olunmuş "Bir qətlin iki qurbanı" adlı sənədli film çəkilmişdir. Filmi gəncəli Elnur Pişnamazzadə çəkmişdir...

## MƏHƏMMƏD HƏSƏN HACINSKİ
## (1876 - 1931)

Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimi. Azərbaycan Cümhuriyyətinin 1 və 2-ci hökumət kabinetlərində xarici işlər və maliyyə naziri, 3-cü kabinetdə dövlət müfəttişi, 5-ci kabinetdə daxili işlər naziri, sonra ticarət, sənaye və ərzaq naziri vəzifələrində işləmişdir.





Məhəmməd Həsən Cəfərqulu oğlu Hacınski 1876-ci il martın 3-də Bakıda xırda tacir ailəsində anadan olmuşdu. Anası ərəb qızı idi. Atası, bakılı xırda tacir Cəfərqulu Hacızadə hələ 1872-ci ilin yazında Misirə ticarət səfərinə getmişdi. Həmin səfər zamanı orada ərəb qızı Fatimə ilə evlənib onu özü ilə Bakıya gətirmişdi ("fatimə" ərəbcə "uşağı süddən ayıran" (qadın) deməkdir). Bir il sonra Cəfərqulunun Zibeydə adlı qızı, üç il sonra- 1876-cı il martın 3-də yeganə oğlu dünyaya gəlmişdi. Cəfərqulu kişi oğluna Həzrəti Məhəmməd Peyğəmbərin (570-632) şərəfinə Məhəmməd adını qoymuşdu ("Məhəmməd" ərəb dilində "Mühamməd" kimi tələffüz olunur. "Məhəmməd" sözünün mənası ərəbcə "bəyənilmiş", "mədh edilmiş", "çox təriflənmiş", "çox öyülmüş", "çox təriflənən", "çox öyülən", "tərifəlayiq" deməkdir). Burada anası, ərəb qızı Fatimə adının Məhəmməd Peyğəmbərin övladının adı olması da görünür, müəyyən rol oynamışdı. Odur ki, tarixi ədəbiyyatların çoxunda Məhəmməd Həsən yox, Məmməd Həsən yazılması, fikrimizcə, sonralar, sovet dövründə işlədilən və yazılan "Mamed" - "Məmməd" söylənməsindən irəli gəlmişdir. Yeri gəlmişkən, xalqımızın böyük oğlu Məhəmməd Əmin Rəsulzadəni də ruslar sənədlərdə Məmməd Əmin kimi yazmışlar. Əslində, Məhəmməd Əmindir. Bunu M. Ə. Rəsulzadənin hazırda Bakıda yaşayan nəvəsi Rəis bəy (doğulub 1946; Əməkdar rəssam) gileylənərək mənə şəxsən söyləmişdir...

... M. H. Hacınski 1887-ci ildə Bakı real məktəbinə daxil olmuşdu. Xüsusilə, dəqiq elmlər üzrə fitri istedada malik olan M. H. Hacınski həmin məktəbi demək olar, əla qiymətlərlə bitirmişdi. O, boş vaxtını həmişə bibisi Minabəyim xanımın evində yerləşən, hələ 1 avqust 1894-cü ildə N. Nərimanovun açdığı kitabxananın qiraətxanasında keçirirdi. M. H. Hacınski 1896-cı ilin sentyabrında Sankt-Peterburqdakı imperator Nikolayın adını daşıyan Texnologiya İnstitutuna qəbul olunmuşdu. İnstitutu bitirən M. H. Ha-

cınski bir neçə ay Moskvada maarifpərvər Azərbaycan milyonçularından Şəmsi Əsədullayevin (1840-1913) neftayırma zavodlarının tikintisində çalışmış, 1902-ci ildə Bakıya qayıdaraq, şəhər Upravasının (Şəhər İdarəsi) Tikinti Şöbəsinin rəisi təyin edilmişdi.

Hacınskilər ailəsi musiqini çox sevirdi. Ailədə yeganə oğul övladı olan Məhəmməd gəncliyində "Pəncərədən daş gəlir" xalq mahnısını xüsusilə sevir və onu ürəkdən oxuyurdu. M. H. Hacınski 1902-ci ilin ortalarında (iyulda) qonşuluqlarındakı molla Tahirin ("Tahir" ərəb sözüdür, "pak", "təmiz" deməkdir) nəvəsi Səadət xanımla ailə qurmuşdu. 1903-cü ilin oktyabrında M. H. Hacınskinin oğlu dünyaya gəlmişdi. Onun adını Dağıstanın və Çeçenistanın imamı, Dəndəhan Şeyx Şamilin (1796, Cümrü kəndi, - 1871, Mədinə, Səudiyyə Ərəbistanı) şərəfinə Şamil qoymuşdular.

M. Hacınskinin ilk övladı, 3 yaşlı Şamil 1906-cı ildə miningit xəstəliyundən çox yaşamamışdı. Onun ardınca dünyaya gəlmiş Mehriban adlı qızları da həyatdan tez köçmüşdü. 1908-ci il iyunun 8-də M. H. Hacınskinin oğlu dünyaya gəlmişdi. Yenə ona Şamil adını qoymuşdular. Bir il sonra M. H. Hacınskinin digər oğlu - Nuşiravan doğulmuşdu. 1913-cü il yanvarın 24-də Muxtar, sonrakı il dekabrın 23-də isə Tofiq dünyaya göz açmışdı. 1918-ci il avqustun 2-də Azərbaycan Cümhuriyyətinin ən gərgin günlərindən birində M. H. Hacınskinin ailəsində yeddinci uşaq – Murad dünyaya gəlmişdi. Ümumiyyətlə, M. H. Hacınskinin 8 övladı olmuşdur.

Peşəkar mühəndis olan M. H. Hacınski Bakıda aparılan tikinti-abadlıq işlərində özünü memar kimi də göstərmişdi. Bu işdə ona memar Fon der Nonnenin (1832-1908) təsiri böyük olmuşdu. M. H. Hacınski müəllifi mülki mühəndis, arxitektor Nikolay Fon der Nonnenin olduğu Bakı şəhərinin baş planını daha da təkmilləşdirmişdi. M H. Hacınskinin "Yelpik" adlanan memarlıq layihəsi 1908-ci ildə Bakı Şəhər Duması tərəfindən bəyənilmiş və təsdiq olunmuşdu.

1909-cu il aprelin 7-də yenidən Şəhər İdarəsinin Tikinti Şöbəsinin rəisi təyin edilən (Şəhər İdarəsi Kələntərov pasajı - Haşımov meydanı (indiki Gənclər meydanı) ilə üzbəüzdə, ikimərtəbəli mülkdə, Qoşa Qala qapısının ağzında yerləşirdi, 1870-ci ildə təsis edilmişdi) M. H. Hacınski həmin il mayın 5-də o zaman Rusiyada ən



uzun sayılan Şollar Su Kəmərinin layihəsinin təsdiqində və çəkilməsində yaxından iştirak etmişdi. Onun layihəsi ilə həmçinin yenə 1909-cu ildən Bakı dənizkənarı parkı (bulvar) (indiki Sahil bulvarı-Milli Park) salınmışdı. Həmin parkın və dənizkənarı hamamın tikintisi M. H. Hacınskinin rəhbərlyiyi altında 1912-ci ildə başa çatdırılmışdı. M. H. Hacınski 1913-cü ildə qısa müddətdə Bakı Şəhər İdarəsinin rəisi olmuş, Şirvanşahlar sarayının qorunması və bərpasına dair təşəbbüslər irəli sürmüşdü. Onun tövsiyəsi üzrə memarlar Zivər bəy Əhmədbəyov (1873-1925) və Ö. Abuyev Şirvanşahlar sarayının bərpa layihəsini hazırlamaq üçün elmi-tədqiqat işlərinə başlamışdılar.

***Haşiyə:*** Zivər bəy Gəray bəy oğlu Əhmədbəyov. İlk azərbaycanlı ali təhsilli memar-rəssamdır. 1873-cü ildə Şamaxıda anadan olub. 1902-ci ildə Peterburq İnşaat Mühəndisləri İnstitutunu bitirmişdi. 1910-cu ildən Bakı şəhərində yaşayıb. 1917-ci ilədək Bakı Quberniya İdarəsində və Bakı Şəhər İdarəsində memar işləyib. Azərbaycan Cümhuriyyəti elan olunandan sonra Bakı şəhərinin baş memarı təyin edilib. Bu vəzifədə 1922-ci ilədək çalışıb. Z. Əhmədbəyov böyük məharətlə Qərbi Avropa və Şərq memarlıq ənənələrini özündə əks etdirən layihələr üzrə çoxlu möhtəşəm binalar inşa edib. Z. Əhmədbəyov 1925-ci il fevralın 16-da Bakıda 52 yaşında vəfat etmişdir. 26 may 2011-ci ildə Bakıda "Nizami" metrostansiyasının qarşısında Z. Əhmədbəyovun heykəli və onun adını daşıyan parkın açılışı olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılış mərasimində iştirak etmişdir. Parkla üzbəüz bina vaxtilə Zivər bəy Əhmədbəyovun layihəsi əsasında inşa edilmişdir...

... Onun bəyənilmiş layihəsinin həyata keçirilməsi ilə əlaqədar Bakı Şəhər Dumasında (M. H. Hacınski 1902-17-ci illərdə Bakı Şəhər Dumasının üzvü olmuş və onun bir çox iclaslarına sədrlik etmişdi) çıxış edən Məhəmməd Həsən Hacınski demişdi: " Bu sadəcə layihə deyil...! Burada fantaziya və gözəllik lazımdır". Qəbul edilmiş layihə əsasında indiki "Azneft" meydanından Kukla Teatrının yanındakı yeraltı keçidə qədər Dənizkənarı bulvarın salınması başlanmışdı. Bulvarın tikintisi 1912-ci ildə başa çatmışdı.

M. H. Hacınski Bakıya çəkilən Şollar Su Kəmərinin (O, bu kəmərin tikintisini aparan ingilis mühəndisi Lindenlə birgə çalışmışdı) və digər tikintilərin də həyata keçirilməsində xeyli əmək sərf etmişdi. 1913-cü ilin aprelində Xaçmaz ərazisində Şollar Su Kəmərinin açılışında Bakı Şəhər Dumasının üzvləri Məşədi Əzizbəyov (18 yanvar 1876, Bakı - 20 sentyabr, 1918, Ağcaqum, Türkmənistan), Ağa Aşurov (1880. Bakı - 1936, Rostov), Ağabala Quliyevlə (1862-ci ildə, Bakıda, Keşlə kəndində anadan olmuşdu; nüfuzlu Bakı varlılarından idi. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra İrana mühacirət edib, elə həmin ildə Təbrizdə dünyasını dəyişib...) yanaşı M. H. Hacınski də iştirak etmişdi.

M. H. Hacınski Bakıdakı çoxlu yoxsul müsəlmanlara və tələbələrə Novruz Bayramı və digər əlamətdar günlərdə maddi köməkliklər də göstərirdi. 1907-ci ildə onun köməkliyi ilə Bakıda müsəlman əhalisinin övladları üçün "İslam" müəllimlər məktəbinin açılması barədə elan verilmişdi.

İstedadlı mühəndis olan M. H. Hacınski Bakı küçələrinin abadlaşdırılması üçün çox çalışırdı. Bakı şəhər Tikinti Şöbəsinin rəisi olan M. H. Hacınskinin redaktəsi altında Bakı küçələrinin abadlaşdırılması haqqında şəhər Upravası 1912-ci ildə ayrıca bir kitab da buraxmışdı. M. H. Hacınski 1913-cü ildə Bakı Şəhər İdarəsinin rəisi təyin edilmişdi. Bakıdakı məşhur Şirvanşahlar sarayının mühafizə olunub saxlanması və bərpa edilməsinin də təşəbbüsçüsü M. H. Hacınski idi.

Bunlarla yanaşı, M. H. Hacınski xalqımızın müstəqilliyə qovuşması uğrunda gedən mübarizədən də kənarda qalmamışdı. O, hələ 1904-cü ildə Bakıda yaradılan "Hümmət" müsəlman təşkilatının təsisçilərindən biri idi. 1904-cü ilin axırlarında RSDFP-nin Bakı Komitəsi yanında yaradılan ilk müsəlman sosial-demokrat təşkilatı kimi "Hümmət"in məqsədi Azərbaycanda, eləcə də, Rusiyanın müxtəlif yerlərində yaşayan müsəlmanları çarizmə qarşı inqilabi hərəkata cəlb etmək, onlar arasında ana dilində təbliğat və təşviqat aparmaq idi. "Hümmət" təşkilatını yaradanlar M. H. Hacınski ilə yanaşı Mir Həsən Mövsümov (1882-1907) və M. Ə. Rəsulzadə (1884-1955) idilər. N.Nərimanov (1870-1925), M. Əzizbəyov (1876-1918), S. M. Əfəndiyev (1887, Bakı quberniyası, Şamaxı şəhəri-1938; 30-ncu illərdə repressiya olunub və güllələnib) kimi görkəmli inqilabçılar da 1905-ci ildən bu təşkilatın üzvləri idilər.

M. H. Hacınski sonradan görkəmli müsavatçı olmuşdu. O, 1911-ci ilin oktyabrında Bakıda gizli yaradılan "Müsavat" partiyasının üzvü, sonralar isə partiyanın Mərkəzi Komitəsinin üzvü seçilmişdi. Nüfuzu getdikcə artan M. H. Hacınski Rusiyada baş verən 1917-ci il Fevral burjua-demokratik inqilabından sonra, martın 22-də Bakıda yaradılan Milli Müsəlman Şurasının İcraiyyə Komitəsinin sədri (M. Ə. Rəsulzadə onun müavini idi) olmuş, həmin ilin aprelində Qafqaz müsəlmanlarının Bakıda, mayda Rusiya müsəlmanlarının Moskvada keçirilən qurultaylarında iştirak etmiş, daha sonra Rusiya Müəssislər Məclisinə Azərbaycandan millət vəkili seçilmişdi. O zaman mühüm rol oynayan Milli Müsəlman Şurasına F. Xoyski, Ə. M. Topçubaşov, Mirzə Əsədullayev (1875-1936), B. Cavanşir, N. N. Nərimanov, M.Ə. Rəsulzadə, M. Vəkilov kimi millətsevərlər daxil idilər.

M. H. Hacınski "Müsavat" partiyasının 1917-ci il oktyabrın 26-31-də Bakıda keçirilən I qurultayında həmin partiyanın Mərkəzi Komitəsinin üzvü seçilmişdi. O, 1917-ci il noyabrın 15-də yaranmış Zaqafqaziya Komissarlığı hökumətində ticarət və sənaye komissarının müavini, Zaqafqaziya Seyminin üzvü, 1918-ci il aprelin 26-də Seym tərəfindən müstəqil Trans Qafqaz hökumətinin tərkibi təsdiq olunanda menşevik lideri A .İ. Çxengelinin təşkil etdiyi hökumət kabinetində (26 aprel - 26 may 1918-ci il) F. Xoyski ədliyyə naziri, N.Yusifbəyli xalq maarif naziri, M. H. Həsən Hacınski isə ticarət və sənaye naziri vəzifələrini tutmuşdular.

M. H. Hacınski Azərbaycan Milli Şurasının Azərbaycanın İstiqlal Bəyannaməsini qəbul edən 24+2 üzvündən biri idi. O, Azərbaycan Cümhuriyyətinin ilk xarici işlər naziri olmuşdur. Müstəqillikdən sonra Osmanlı dövləti ilə 1918-ci ilin yunun 4-də bağlanmış "Dostliq və əməkdaşlıq haqqında" müqaviləni M. Ə. Rəsulzadə ilə birlikdə o imzalamışdı.

1918-ci il Mayın 28-də Şərqdə və bütün müsəlman aləmində ilk parlamentli respublika olan Azərbaycan Cümhuriyyətinin yaranmasında və fəaliyyətində də M. H. Hacınskinin rolu az deyildi. O, 1918-ci il mayın 28-də Tiflisdə bitərəf F. Xoyskinin başçılığı

ilə yaradılan birinci hökumət kabinetində (28 may – 17 iyun 1918-ci il) xarici işlər, yenə F. Xoyskinin rəhbərlik etdiyi ikinci hökumət kabinetində yenidən xarici işlər, həmin hökumətdə 1918-ci il oktyabrın 6-da aparılan kabinədaxili dəyişikliklərdən sonra maliyyə naziri, F. Xoyskinin sədr olduğu Nazirlər Şurasında (26 dekabr 1918-14 mart 1919-cu il) dövlət müfəttişi (16 yanvar 1919-cu ilədək), N.Yusifbəylinin axırıncı, beşinci hökumət kabinetində (24 dekabr 1919 – 30 mart 1920-ci il) daxili işlər naziri , sonra isə ticarət, sənaye və ərzaq naziri olmuşdu.

Hələ Gəncədə ikən Bakını ingilislərdən və "oyuncaq" "Sentrokaspi " hökumətindən azad etmək məsələsi ilə bağlı gedən fikir mübadiləsi zamanı M. H. Hacınski demişdi: " Bakı məsələsi ancaq qüvvədən asılıdır. Əgər Bakı alınmasa, hər şey batdı. Əlvida, Azərbaycan! Hətta alındıqdan sonra belə, biz çoxlu diplomatik çətinliklərlə qarşılaşmalı olacağıq. Bu vəzifəni yerinə yetirmək üçün biz qabaqcadan hazırlamalıyıq...".

M. H. Hacınski 1918-ci il dekabrın 28-də Parlamentin Ağsaqqallar Şurası ilə birlikdə F. Xoyski hökumətinin də iştirakı ilə Avropaya Paris Sülh Konfransına gedəcək və geniş hüquqlara malik 7 nəfərdən ibarət nümayəndə heyətinin tərkibində idi. 1919-cu ilin yanvarında Azərbaycan Cümhuriyyəti Parlamentinin sədri bitərəf Ə. M. Topçubaşovun (1862-1934) rəhbərliyi altında Parisə Sülh Konfransına (sədri Fransanın Baş naziri Jorj Benjamin Klemanso (1841-1929) idi) iştirak etmək üçün yola düşən nümayəndə heyətinin tərkibində M. H. Hacınski Ə. M. Topçubaşovun müavini, zəruri hallarda müvəqqəti sədr hüququna malik idi. Nümayəndə heyətinin səfəri üçün ayrılmış 150 min manat pul vəsaiti də Xarici İşlər Nazirliyinin qərarı ilə M. H. Hacınskiyə verilmişdi. Ümumiyyətlə, Avropa və Amerikaya nümayəndəlik göndərmək üçün Azərbaycan Parlamenti və Hökumətinin qərarı ilə 2,5 milyon manat vəsait ayrılmış və nümayəndəliyin hesabına keçirilmişdi. Sonralar M. H. Hacınski yazırdı: " Deyirdilər Parisdə və ümumilikdə, Qərbi Avropada nəzərdə tutulan iş üçün külli miqdarda maliyyə vəsaiti lazımdır. Və bunsuz orada heç bir iş görmək mümkün deyidir. Maliyyə məsələsində Azərbaycan ən az imkanlı idi. Müqayisə üçün Ermənistan



nümayəndəliyi 10 milyon, Gürcüstan isə 5 milyon manat pul götürmüşdü...".

M. H. Hacınski daxili işlər naziri olduğu dövrdə (24 dekabr 1919-cu il, 18 fevral 1920-ci il) o, DİN-in zamanın tələblərinə uyğun təkmilləşməsi və daha səmərəli fəaliyyət göstərməsinə çalışırdı. 24 dekabr 1919-cu ildə Parlamentdə "İttihad" partiyasının lideri ("İttihadi İslam-Rusiyada müsəlmanlıq" partiyası 1918-ci ilin yanvarında yaranmışdı) doktor Qara bəy Qarabəyovun (1873-1953) təklifi ilə N.Yusifbəylinin hökumət kabinetində daxili işlər naziri vəzifəsinə təyin olunması heç də birmənalı qarşılanmayıb, "bəzilərinin" ürəyincə olmayıb və onların "mənafeyinə" toxunmuşdu...

M. H. Hacınskinin nazirliyi dövründə polis orqanları müstəqil dövlətimizin həyatı üçün mühüm əhəmiyyət kəsb edən neft mədənlərinin qorunmasında və burada oğurluq, təxribat, ziyançılıq törətmək cəhdlərinə qarşı qətiyyətlə mübarizə aparırdı. Lakin nazir M. H. Hacınskinin əmri ilə bu işdə demokratik prinsiplərə, o cümlədən neft mədənlərində çalışan fəhlələr arasında təbliğat, profilaktika ya da üstünlük verilirdı. Məsələn, 1920-ci il yanvarın 14-də Bakı polismeysteri Rüstəm bəy Mirzəyev (1860-1920) neft mədən-zavod fəhlələrini xüsusi müşavirəyə dəvət etmişdi. O, bunun səbəbini açıqlayaraq demişdi: " Mən ona görə bu gün sizləri toplamışam ki, sizinlə birlikdə (müşavirəyə 65 nəfər fəhlə gəlmişdi) fikir mübadiləsi edim. Çünki indiki vaxtda sənaye rayonlarında oğurluq baş verir. Mən sizdən xahiş edirəm ki, bu bəla ilə mübarizə işində bizə kəmək edəsiniz. Sizin üzünüzə mənim qapım həmişə açıqdır".

Təyinat. Azərbaycan Cümhuriyyəti Hökumətinin 6 yanvar 1920-ci il tarixli qərarı ilə milli istiqlalımızın görkəmli xadimlərindən biri - İbrahim bəy İsa bəy oğlu Heydərov (1879-1949) daxili işlər naziri M. H. Hacınskinin müavini vəzifəsinə təyin edilmiş və bu vəzifədə həmin il martın 10-dək çalışmışdı. Daxili işlər naziri M. H. Hacınskinin 24 yanvar 1920-ci il tarixli 805 nömrəli əmri ilə Mustafa bəy Qabul oğlu Qabulov Cavanşir qəzasının rəisi vəzifəsindən azad edilərək, Balaxanı-Sabunçu polismeysteri vəzifəsinə təyin olunmuşdu.

**Qeyd:** *Bu fakt Azərbaycanın istiqlal hərəkatının fəal iştirakçılarından biri - İsa bəy Hacı Mehdiqulu bəy oğlu Aşurbəyovun*

*(Aşurbəylinin) (1881-1938) 30-cu illərdə repressiya qurbanı kimi həbs olunaraq, güllələnməmişdən əvvəl Xalq Daxili İşlər Komissarlığının (XDİK) zirzəmisində müstəntiqə verdiyi ifadələrindən məlum olmuşdur. Qeyd etmək lazımdır ki, fakt haqqında indiyədək tarixünaslığımızda heç bir məlumat getməmişdir. Odur ki, bu faktı ilk dəfə dövriyyəyə Bakı Asiya Universitetinin professoru, Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin üzvü Ədalət Tahirzadənin daxil etdiyini bildirirəm. Buna görə də, xalqımızın istiqlaliyyəti uğrunda çalışmış, Dağıstanda anadan olan azərbaycanlı soydaşımız İbrahim bəy Heydərovun az tanınan, keşməkeşli, lakin örnək ola biləcək maraqlı həyat və mübarizə yolunun əsas mərhələləri və məqamları ilə oxucuları tanış edə bilmək imkanı yaratdığı üçün ona öz təşəkkürümü bildirirəm.*

... Bakı general qubernatorunun məlumatına görə 1920-ci il fevralın əvvəllərində şəhərdə bərk narahatçılıq yaranmışdı. Buna səbəb 11-ci ordunun şimalda ağqvardiyaçı general Denikinin dəstələrini darmadağın edərək Azərbaycan sərhədlərinə yaxınlaşması və bolşeviklərin Bakıda orduda, mülki və ticarət donanmasında, fabrik və zavodlarda, mədənlərdə siyasi iş aparması və xalqı Azərbaycan Cümhuriyyəti Hökumətinə qarşı silahlı üsyana hazırlaması və s. barədə idi. M. H. Hacınskinin başında durduğu Daxili İşlər Nazirliyi və onun yerli orqanları bolşeviklərin dövlət əleyhinə qarşı fəaliyyətinə qarşı mübarizədən kənarda deyildi... Hələ 1919-cu ilin dekabrında "Qaryagin" (əslində Karyagin) qəzası ərazisində (indiki Füzuli rayonu) bolşeviklərin üsyan qaldıracağı xəbəri alınanda, daxili işlər naziri M. H. Hacınski tərəfindən Qarabağ general-qubernatoru Xosrov bəy Sultanova bu təhlükəni aradan qaldırmaq barədə göstəriş verilmişdi... Aşkar olunmuşdu ki, Bakıdan gedib orada Azərbaycan Cümhuriyyəti əleyhinə gizli fəaliyyət göstərən AK (b) P-nin fəal üzvləri, əslən qarabağlılar Məmmədxan Məmmədxanov (1881-1938), Əsəd Qarayev (1884-1938), həmçinin Çingiz İldırım (1890-1938), Səfər Əlizadə qəzada, xüsusən Qoçəhmədli və Qarğabazar kəndlərində yerli camaatı çıxış etməyə hazırlayırlar...

***Haşiyə***: Məmmədxan Məmmədxan oğlu Məmmədxanov. 1881-ci ildə Gəncə quberniyasının Karyagin qəzasının Qoçəhmədli kəndində anadan olmuşdu. Sovet dönəmində məsul partiya



və dövlət orqanlarında xidmət göstərmiş, o cümlədən, Karyagin Qəza İnqilab Komitəsinin 1-ci katibi olmuşdu. 30-cu illərdə repressiya edilərək, həbs olunmuş, 1938-ci il yanvarın 5-dən 6-na keçən gecə 57 yaşında güllələnmişdi; o, həmin gecə güllələnən 47 nəfər içərisində sayca 24-cü idi... Çingiz İldırım oğlu Sultanov 1890-cı il iyul ayının 10-da Yelizavetpol quberniyası, Zəngəzur qəzasının Qubadlı kəndində varlı ailədə anadan olmuşdu. Milliyyətcə kürd idi. Azərbaycan Cümhuriyyəti dövründə Qarabağ general-qubernatoru X. Sultanovun (1879-1947) köməkçisi işləmişdi... Ç. İldırımın iki qardaşı vardı. Cabbar bəy məşhur həkim kimi tanınırdı... Şəmil bəy Sultanov isə Azərbaycan Cümhuriyyəti dövründə qəza rəisi işləmişdi... Azərbaycanda sovet hakimiyyəti "qurulduqdan" sonra ilk hərbi və dəniz komissarı, sonra xalq yollar, poçt və teleqraf komissarı və s. məsul vəzifələrdə çalışmışdı ; 30 - illərdə repressiya olunmuş, 1937-ci ildə həbsə alınmış, bir müddət həbsxanada istintaq olunmuşdu... Ç. İldırım 1938-ci il sentyabrın 25-də Moskvada, Suxanovkada 48 yaşında güllələnmişdir... Hərçənd, Elşad Qoca (İsayev) yazır ki, o, SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının hökmü ilə 1941-ci il iyulun 21-də, 51 yaşında güllələnmişdir. 1950-ci ilin noyabr ayında Azərbaycan Politexnik İnstitutuna Ç. İldırımın adı verilmiş, 1983-cü ildə həmin institutun qabağında bürüncdən büstü qoyulmuşdu. Büstün müəllifləri heykəltaraş Z. A. İsgəndərov və arxitektor A. R. Məmmədov idi. SSRİ dağıldıqdan və Azərbaycan yenidən müstəqillik qazandıqdan sonra Ç. İldırımla bağlı bütün nə varsa, ləğv olunmuşdur... Əsəd Həsən oğlu Qarayev. 1884cü ildə Cəbrayıl qəzasının Qarğabazar kəndində anadan olmuşdu. 30-cu illərdə repressiya olunub, 1938-ci il yanvarın 5-dən 6-na keçən gecə güllələnib; o, həmin gecə güllələnən 47 nəfər içərisində sayca 44-cü idi... Yerli bolşeviklərdən olan Əsəd Qarayev ("əsəd" ərəbcə "şir","aslan" deməkdir) sonralar xatirələrində yazmışdı: " Qəzada "Müsavat" hökumətinin inzibati idarə orqanları içərisində ən nüfuzlu və bizim üçün təhlükəli şəxs Cümşüd bəy Əsgərxanov idi. Qəza pristavı Mahmud bəy Hüseynbəyov və milis komissarı Nacarov da yatmırdılar". Karyagində

bolşeviklərin Azərbaycan Cümhuriyyətinə qarşı üsyan planının həyata keçməsinə DİN-in qurumları yol verməmişdilər...

Lakin Bakıda da bolşeviklər xeyli fəallaşmışdılar. O zaman rəsmi dövlət qəzeti olan "Azərbaycan"da bolşeviklərin milli hökumətimizə qarşı niyyətləri barədə xəbərlər dərc edilirdi. Xüsusilə, təhlükəli cani kimi bolşevik Əli Bayramovun (1889, Bakı quberniyası, Şamaxı qəzası, Lahıc kəndi - 1920 ; Bakıda 1920-ci il martın 23-dən 24-nə keçən gecə öldürülüb və başı kısılib...) axtarıldığı bildirilirdi. DİN tərəfindən vətəndaşlardan xahiş edilirdi ki, Ə. Bayramovun yerini bilən varsa, mütləq polisə xəbər versin. Qəzetdə bolşevik Həbib Cəbiyevin (sentyabr 1899, Bakı - 1938; 30-cu illərdə repressiya olunub, Bakıda həbs edilib və güllələnib...) mənzilində axtarış aparılması və polisin Azərbaycan Hökumətinə qarşı üsyan olacağı barədə yeni sənədlər ələ keçirdiyini təsdiqləyən izahat da verilmişdi.

Bakı Polismeysterliyi Xəfiyyə Polisi Şöbəsinin (rəisi Əbdül Məcid Rebirov idi) əməliyyatçıları Ə. Bayramov və H. Cəbiyevin Azərbaycan Parlamentinin üzvü, buna görə toxunulmazlıq hüququna malik Ə. H. Qarayevin mənzilində gizləndiklərini öyrənib binanı mühasirəyə almışdılar. Bakının 4-cü polis sahəsi pristavının müavini Süleyman bəy Sübhanverdixanov və başqa polis məmurlarının məlumatına görə əməliyyata Bakının general-qubernatoru Murad Gəray bəy Təlexas şəxsən rəhbərlik edirdi. Parlament üzvünün mənzilinə daxil olmağa bu şərtlə icazə verilmişdi ki, polislər yalnız otaqlara və mətbəxə baxa bilərdilər, axtarış aparmaq olmazdı. Ə. Bayramov aradan çıxa bilmişdi... Lakin polis tezliklə öyrəndi ki, o, Salyana getmişdir. Salyan qəzasının rəisi Əli Heydər Yusifov onu çoxdan axtarırdı. (Ə.Yusifov sonra Bakı şəhərinin polismeysteri təyin edilmişdi...).

M. H. Hacınskinin daxili işlər nazirliyi dövrü mürəkkəb ictimai-siyasi hadisələrlə xarakterizə olunurdu. O zaman milli məsələdə çox kəskinləşmişdi. Ermənilərin fitvaları və Dağlıq Qarabağda daşnakların hücumları, xüsusən 1920-ci ilin əvvəlindən şimaldan Rusiyanın sərhədlərimizə təzyiq və tələbləri və s. bu qəbildən idi. Parlamentdə partiya və fraksiyalar arasında fikir ayrılıqları və ixtilaf güclənmiş, hökumət böhranı yaxınlaşmışdı.



... Azərbaycan Parlamentində iki qrup – F. Xoyski və M. H. Hacınski tərəfdarları arasında qızğın mübarizə gedirdi. Əsas ixtilaf ilk növbədə sovet Rusiyasına münasibətlə əlaqədar üzə çıxmışdı. Məsələ isə bunda idi ki, RSFSR-in xalq xarici işlər komissarı G.V.Çiçerin (1872-1936) 1920-ci ilin əvvəlində Azərbaycan Hökumətinə ağqvardiyaçı general Denikinə qarşı hərbi ittifaq bağlamağı təklif etmişdi. Azərbaycan Hökuməti adından xarici işlər nazirimiz F. Xoyski cavabında bildirmişdi: "... Azərbaycan Hökuməti rus xalqının öz daxili həyatını qurmaq uğrunda apardığı mübarizəyə müdaxilə etməyi özünə rəva bilmir". Cavabdan narazı qalan Rusiya hökuməti 11-ci orduya döyüş hazırlığı vəziyyətində Azərbaycanın sərhədlərinə doğru hərəkət etmək əmrini vermişdi...

Bu cür vəziyyətdə F. Xoyski, Ş. Rüstəmbəyli, M. Vəkilov, A. Aşurov və onlara meyl edənlər şimalda Samur körpüsünə çataraq dayanmış XI ordunun hücum edəcəyi təqdirdə, Azərbaycan Cümhuriyyətinin müstəqilliyini qorumaq və axıradək savaşmaq mövqeyində dururdular. M. H. Hacınski isə kompromis variantla çıxış edib, XI ordu komandanlığı ilə danışıqlar aparmaqla onun Bakı üzərinə yürüşünü ləngitmək, nizami Azərbaycan Ordusunu qəzalardan (Qarabağdan, Zəngəzurdan və s. ) təcili Bakıya çağırmaq tərəfdarı idi...

M. H. Hacınski 1920-ci il fevralın 18-də Mustafa bəy Vəkilovun (1896-1965) daxili işlər naziri təyin edilməsi ilə əlaqədar olaraq vəzifəsindən istefa vermiş və həmin gündən ticarət, sənaye və ərzaq naziri vəzifəsini tutmuşdu . 1920-ci il martın 30-da N. Yusifbəylinin hökumət kabineti istefaya çıxdığı üçün M. H. Hacınski də nazir vəzifəsini tərk etmişdi.

Qeyd etmək lazımdır ki, M. H. Hacınski daxili işlər naziri olarkən Bakıdakı ingilis komandanlığının apardığı siyasətə "uyğun" gəlmədiyinə görə Böyük Britaniya hərbi komandanlığı onun əvəzlənməsinə və xüsusilə, M. H. Hacınskinin müavini Ş. Rüstəmbəylinin ("Aran") (1893-1960) onun yerinə təsdiq olunmasına çalışırdılar. Çünki Ş. Rüstəmbəyli daxili işlər naziri M. H. Hacınskinin müavini təyin edildikdən sonra, onun əmrləri ilə polis orqanlarının fəhlə məhəllələrində, müxtəlif klublarda bolşeviklərin təbliğat-təşviqatına görə apardığı həbs əməliyyatlarının sayı artmış və

ümumiyyətlə, kommunistlərə qarşı xüsusilə intensivləşmişdi ki, bu da bolşevikləri sevməyən ingilislərə sərf edirdi.

1920-ci ilin apelində hökumət böhranı yüksək nöqtəsinə çatmışdı. Aprelin 1-də Parlament tərəfindən Azərbaycan Cümhuriyyətinin yeni hökumət kabinetini təşkil etmək məhz M. H. Hacınskiyə tapşırılmışdı. M. H. Hacınski bu məqsədlə Azərbaycan Parlamentinə daxil olan bütün partiya və fraksiyaların rəhbərləri ilə, həmçinin bolşeviklərlə danışıqlıqlar aparmışdı. M. H. Hacınski XI ordu komandanlığı ilə də danışıqlar aparmaq üçün yaradılmış Parlament Komissiyasının başçısı idi.

Lakin kəskin diskussiyalar M. H. Hacınskiyə öz məqsədini həyata keçirməyə imkan verməmiş və o,1920-ci il aprelin 22-də Azərbaycan Parlamentinin sədrini əvəz edən Məmməd Yusif Cəfərova (14 mart 1885, Bakı -15 may 1938, Şağan, Bakı) yeni hökumət kabineti yaratmağın qeyri-mümkünlüyünü bildirərək, həmin andan "Müsavat"dan çıxdığını və bolşeviklər partiyasına üzv olduğunu rəsmi şəkildə bəyan etmişdi. Bu hərəkətinə görə M. Ə. Rəsulzadə sonralar, Türkiyədə mühacirətdə yaşayarkən, onu "satqınlıqda" və "qırmızı işğalçılarla" əməkdaşlıqda günahlandırmışdı.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra M. H. Hacınski xaricə mühacirət etməyərək, Bakıda qalmağı üstün tutmuşdu. Yeni hakimiyyət ona müxtəlif vəzifələr təklif etmişdi. M. H. Hacınski 20-ci illərdə bir sıra məsul təsərrüfat, ticarət və dövlət vəzifələrində çalışmışdı. M. H. Hacınski 1920-22-ci illərdə Azərbaycan SSR Ali Xalq Təsərrüfatı Şurasında mütəxəssis kimi işləmişdi. Bakıda böyük Azərbaycan şairi M. Ə. Sabirin abidəsini qurmaq da ona həvalə olunmuşdu. 1922-ci il mayın 8-də o, Zaqafqaziya Federasiyasının təchizat və xarici ticarət komissarının müavini vəzifəsinə təyin edilmişdi.

1922-ci il mayın 8-də Tiflisə köçən M. H. Hacınskinin ailəsi orada əvvəlcə Maçabeli küçəsində məskunlaşmışdı. Sonra Tiflisdəki Piroqov küçəsinə köçmüşdü. Bu küçədəki 8 nömrəli binanın birinci mərtəbəsində M. H. Hacınskinin ailəsi, ikinci mərtəbəsində isə Zaqafqaziya Diyar Komitəsinin birinci katibi Lavrenti Beriya (1899-1953) və İvan Strua yaşayırdı. İ. Strua vaxtilə Bakıda "Nina" bolşevik mətbəəsində işləmişdi və "Vano" ləqəbilə tanınırdı.



Hər ikisinin M. H. Hacınski ilə yaxınlıqları olmuşdu. Lakin M. H. Hacınskinin ömrünün faciə ilə sona yetməsi məhz birbaşa L. Beriya ilə bağlı idi...

**Qeyd:** *Lavrenti Pavloviç Beriya 29 mart 1899-cu ildə Gürcüstanda, Minqireliyada, Kutaisi qəzasının Merkhxeli kəndində anadan olmuşdu .1919-cu ildə "Hümmət" müsəlman bolşevik təşkilatının təqdimatı ilə Azərbaycan Cümhuriyyətinin Əks-İnqilabla Mübarizə Təşkilatının (11 iyun 1919-cu ildə yaradılmışdı) Senzura Şöbəsinin rəisi vəzifəsində işləmişdi. L. Beriya daha sonra, 1921-ci ildə M. C. Bağırov Azərbaycan Fövqəladə Komissiyasının sədri olanda həmin xüsusi xidmət orqanında Məxfi Şöbənin rəisi, eyni zamanda, FK sədrinin müavini vəzifəsində də işləmişdi. Sonra Zaqafqaziya Partiya Komitəsinin İ katibi olmuşdu. L. Beriya 1938-ci il noyabrın 25-dən 1945-ci il dekabrın 25-dək SSRİ-nin xalq daxili işlər komissarı, 5 mart-26 iyun 1953-cü il də isə xalq dövlət təhlükəsizlik naziri vəzifələrində işləmiş, marşal rütbəsinə yüksəlmişdi. İ. Stalinin ölümündən (5 mart 1953) sonra partiya rəhbərliyini ələ keçirən N. Xruşşov (15 aprel 1894, Kursk vilayəti, Kalinovka kəndi-11 sentyabr 1971, Moskva; 77 yaşında orada vəfat etmişdir) 11 il (13 sentyabr 1953-14 oktyabr 1964-cü illər) SSRİ-nin başçısı-ÜİK(b)P MK-nın və Sov.İKP MK-nın birinci katibi (1952-ci ilin oktyabrından) vəzifələrində işləmişdi. O, hakimiyyətə keçən kimi İ. Stalinin yaxınlarından və ətrafındakılardan qisas almağa və onlara divan tutmağa başlamışdı. Onların içərisində L. Beriya və M. C. Bağırov da vardı. N. Xruşşovun göstərişi ilə ÜİK (b)P MK-nın Siyasi Bürosunun üzvü, marşal L. Beriya Büronun 1953-cü il 26 iyun tarixli iclasının gedişində həbs edilmiş və müəmmalı şəkildə yox çıxmışdı... Tarixi ədəbiyyatda L. Beriyanın 1953-cü il dekabrın 23-də güllələndiyi bildirilir...*

1923-cü ildə Zaqafqaziya Dövlət Plan Komitəsi sədrinin müavini, 1927-cü il oktyabrın 10-dan Zaqafqaziya Xalq Komissarlığının Dövlət Plan Komitəsi sədrinin birinci müavini vəzifələrində çalışarkən M. H. Hacınski həbs edildiyi tarixədək - (3 dekabr 1930-cu il) daim Azərbaycanın mənafeyini önə çəkmişdi. O, Azərbaycanda şəhərlərin abadlaşması barədə bir çox təşəbbüslərin müəllifi idi. Hələ o vaxt Gəncənin və yeni salınacaq Daşkəsənin (Daşkəsən

rayonu 1930-cu ildə təşkil olunmuşdu...1956-cı ilədək Dəstəfur rayonu adlanmışdı. Dəstəfur indi orada kənddir. 1963-cü ilin yanvarın 4-də ləğv edilərək ərazisi Xanlar rayonuna verilmişdi. 1965-ci ildə yanidən müstəqil rayondur...) Azərbaycan sənayesi üçün gələcəkdə böyük əhəmiyyət daşıyacağını yazdığı məqalələrində göstərirdi (M. H. Hacınskinin 20-ci illər mətbuatında Azərbaycanın tikinti quruculuq həyatına dair dərc etdirdiyi çoxlu məqalələri vardı). M. H. Hacınski əvvəllər olduğu kimi Zaqafqaziyanın təchizat komissarının müavini və ticarət komissarı vəzifələrində də xidmət göstərmişdi. Lakin o, repressiya və təqiblərə məruz qalmış, həyatı faciə ilə sona yetmişdi.

Belə ki, L. Beriyanın göstərişilə M . H. Hacınski 1930-cu il dekabrın 3-da gecə yaşadığı Maçabeli (keçmiş Sergiyevski) küçəsindəki 15 nömrəli evində aparılan axtarışdan sonra Zaqafqaziya Dövlət Siyasi İdarəsinjin (DSİ) əməkdaşları tərəfindən həbs edilmişdi. Onun həbs orderinə (233 nömrəli) Tatyan soyadlı erməni qol çəkmişdi. M. H. Hacınskiyə "xalq düşməni" damğası vurmuşdular... Güya o, Zaqafqaziya Dövlət Plan Komitəsində işləyərkən, "əksinqilabi "Azərbaycan Milli Mərkəzi" adlı gizli təşkilat yaratmış, mühacirətdə olan müsavatçılarla əlaqə saxlamış və "proletar dövləti"nə qarşı yönəlmiş digər "cinayətlər törətmişdi". M. H. Hacınskiyə qarşı irəli sürülən əsas ittihamlardan biri onun üzünə duran Ə. Bəylərbəyov adlı bir mühəndisin ifadəsi idi (Ələsgər bəy Bəylərbəyov. 1882, Şuşa -1949, Bakı. Əvvəllər Azərbaycan SSR XKS yanında Şosse və Qrunt Yolları İdarəsinin rəisi olmuşdu. Sonra Bakıda Azər.Su Təsərrüfatında mühəndis işləmişdi. 1937-ci ildə repressiya olunmuş və tutulmuşdu...). Ə. Bəylərbəyov bildirirdi ki, güya 1928-ci ilin payızında Tiflisdən Bakıya gəldiyi zaman M. H. Hacınski Dövlət Plan Komitəsi sədrinin kabinetində İngiltərə və Fransanın maraqları... Ə. Topçubaşovla bağlanmış gizli müqavilədə öz əksini tapmışdır...

M. H. Hacınskinin qızı "Mira" xanım (M. H. Hacınskinin 8 övladı vardı. Beş oğlundan böyüyü Şamil, qızlarından böyüyü Minurə idi ki, ona "Mira" deyirdilər. Şamil istedadlı inşaat mühəndisiydi. Almaniyada təhsil almışdı. Sonralar tikinti sahəsində rəhbər vəzifəyə yüksəlmişdi. "Mira" isə həm də yaxşı pianoçu idi) sonralar bu hadisəni belə xatırlayırdı:

- "Atam tutduğu vəzifəsi ilə əlaqədar Bakıdan Tiflisə köçəndə iş elə gətirmişdi ki, biz L. Beriya ilə bi binada yaşayırdıq. Bizim ailəmiz birinci, onun ailəsi isə ikinci mərtəbədə yaşayırdı. Tiflisdə atamın layihəsi üzrə "Zarya Vostoka" (Zaqafqaziya Federasiyasının orqanı. 1923-37-ci illərdə çıxmışdır) qəzeti üçün bina tikmişdi. Bina L. Beriyanın "xoşuna" gəlməmişdi və o, iclaslardan birində bunu "burjua üslubunda" tikili adlandırıb atamı günahlandırmışdı. Onda atam elə birbaşa qəzetdə L. Beriyaya kəskin cavab yazmışdı. Bununla da, hər şey qurtardı. Vəziyyət dözülməz xarakter aldı. Atam Beriya ilə hətta evin girəcəyində görüşmək belə istəmirdi. Və biz Beriya yaşayan binadan başqa binaya köçdük. L. Beriya ilə münaqişə ailəmiz üçün faciəli nəticəyə gətirib çıxardı. Atamın taleyi bir növ "nişanlanmışdı". 1930-cu ilin sonunda atamı birbaşa evdən götürdülər".

Ərinin nahaqdan həbs olunmasını yəqin bilən Səadət xanım 1928-ci il dekabrın 28-də oğlu Şamillə birlikdə Moskvaya gedərək vaxtı ilə M. H. Hacınski ilə yaxın münasibətdə olmuş, həmin zaman Sov.İKP MK və Siyasi Büronun üzvü olan Serqo Orconikidze (1886-1937) ilə onun Kremldəki mənzilində görüşmüşdü.

***Haşiyə:*** "Serqo" və "Nikolay" onun ləqəbi idi. Əslində, Qriqori Orconikidzedir. O, 24 oktyabr 1886-cı ildə Gürcüstanın Kutaisi şəhərində anadan olmuş, sonralar, 18 fevral 1937-ci ildə Moskvada özünü öldürmüşdü. Q. Orconikidzeni qəddarlıqda "yeni Sisianov" adlandırırdılar... Bəli, onu vaxtilə Qafqaz canişini olmuş, azərbaycanlılara qan uddurmuş, Azərbaycanda müstəmləkəni qılınc gücünə bərqərar etmiş, o cümlədən Gəncənin sonuncu mərd xanı, Ziyadoğlu Qacar nəslindən olan Cavad xanın (1786-1804) ("cavad" ərəb sözüdür, "comərd", "səxavətli" deməkdir) qatili olmuş, rus qoşunlarının komandanı, feldmarşal knyaz Pavel Dmitriyeviç Sisianovla (Sisianişvili) (1754-1806) müqayisə edirdilər...

Q. Orconikidze Səadət xanımı hörmətlə qarşılayıb dinləmiş və sonra bildirmişdi: "Bəzi yoldaşlar məni onun günahgar olmasına inandırmaq istəsələr də, mən inanmıram. Siz evinizə qayıdın. Araşdı-

raraq. Əminəm ki, o, evinə qayıdacaq. "Bu sözlər Səadət xanıma ümid vermişdi... Lakin heç nə alınmamışdı... Hətta Azərbaycan KP MK-nın o vaxtkı birinci katibi Mir Cəfər Bağırov (17 sentyabr 1895, Quba - 27 may 1956, Bakı...) da kömək edə bilməmişdi (M. H. Hacınski hələ Azərbaycan Cümhuriyyəti dövründə daxili işlər naziri işləyəndə, o vaxt L. Beriya və M. C. Bağırov DİN-ə tabe olan Azərbaycan Əks-Kəşfiyat İdarəsində bir yerdə çalışmışdılar). Üstəlik, onların ailələri də çox zaman bir yerdə olardı. M. H . Hacınskinin oğlanları Şamil, Nuşirəvan, Murad, Tofiq uşaqlıqdan M. C. Bağırovun böyük oğlu Cahangirlə (Cahangirə öz aralarında "Volodya - Vladimir də deyirdilər) bir yerdə böyümüş, onunla dostluq etmişdilər...

... Həbsxanada karserdə saxlanılan M. H. Hacınski fasiləsiz dindirmələrdən, əzablardan yorulmuşdu. O, nəhayət, ailəsinə məktub göndərə bilmişdi... Məktubda deyilirdi: " Mənim yazıq yetimlərim, ananızı incitməyin, ona qulluq edin. Mənə heç nə göndərməyin, burada hamısı var. Pianonu satın, ac qalmayın". Bu sözlər 8 fevral 1931-ci ildə yazılmışdı və onun intiharqabağı (ağır həbsxana həyatına və işgəncələrə dözməyərək, ürək xəstəliyinə və vərəmə tutulan M. H. Hacınski o dövrün istintaq sənədlərinə görə "özünü asmaqla" intihar etmişdi...) maddi-sıxıntı içərisində yaşayan ailəsinin gələcək taleyinə yanan bir atanın ruhi vəziyyətini əks etdirirdi. Ölümündən bir gün qabaq yazdığı son məktubunda ailəsi ilə vidalaşan M. H. Hacınski onu qınamamağı xahiş edir və özünün təmiz olduğunu bildirən ata: "Mən sizə heç bir dövlət qoymuram, çünki yoxumdur. Mənim dövlətim elə sizsiniz. Qardaşlarınız, bacınız, qardaşınız üçün dövlətdir".

... 1931-ci il fevralın 9-da M. H. Hacınski artıq həyatda yox idi. Dövlət Siyasi İdarəsinin DSİ divarları arasında nə olmuşdu, heç kəsə bəlli deyildi. Tarixi ədəbiyyatda belə bir məlumat var ki, L. Beriyanın göstərişi ilə həbs olunan M. H. Hacınski 1931-ci il martın 8-də Tiflis həbsxanasında həlak olmuşdur. Hərçənd, onun L. Beriyanın göstərişi ilə öldürüldüyü (boğulub, zəhərlənib və s.) ehtimalı da vardır...

M. H. Hacınskinin meyitini görən olmayıb, onun dəqiq harada basdırıldığı da məlum deyil. Hər halda, Tiflisdə basdırılması ehtimalı üstündür... Tarixi ədəbiyyatda belə bir məlumat vardır ki, 1931-ci il fevralın 9-da "həbsxanada "intihar etmiş" M. H. Hacınskinin şəxsi əşyaları onun həyat yoldaşı Səadət xanıma təqdim olunmuşdu. Göz yaşları içərisində olan Səadət xanım həmin əşyaların qablaşdırıldığı xırda çemodanı götürərək, evə gətirib açdıqda, onun içərisindən mərhum ərinin "güya" həbsxana kamerasında özünü asdığı mələfədən doğranıb hazırladığı kəndir qırıntıları çıxmışdı. M. H. Haçınskinin qızları bunu vay-həşirlə qarşılamışdılar. Qardaşları isə həmin gecə kəndiri aparıb F. Xoyski və H. Ağayevin yanında dəfn edilmiş M. F. Axundovun məzarının ayaq tərəfində basdırmışdılar... Bu, simolik qəbir idi...

M. H. Hacınskinin iki qızı və oğlu anaları ilə birlikdə "xalq düşməni"nin ailəsi kimi 1941-ci ilin qışında Qazaxıstana sürgün olunmuş, Bakıdakı ata evləri əllərindən alınaraq, nələri vardısa hamısı müsadirə edilmişdi. M. H. Hacınski haqqında kiçik bir arayış var. Orada deyilir ki, Zaqafqaziya Hərbi Dairəsinin Hərbi Tribunalı özünün 29 may 1959-cu il tarixli qərarı ilə M. H. Hacınskiyə qarşı çıxarılmış 30 sentyabr 1931-ci il, 2 fevral və 13 mart 1932-ci il tarixli "ədalətsiz" qərarları ləğv etmiş və o, ölümündən sonra kassasiya qaydasında bəraət almışdı. Bundan başqa, onun öz varislərinə kiçik bir vəsiyyətnaməsi də qalmışdır...

M. H. Hacınskinin ölümü ilə əlaqədar bir ehtimal da var ki, o, ona atılan böhtanlara və haqsızlığa dözməyərək, həbsxana kamerasında özünə qəsd etmiş və həlak olmuşdur. Bu zaman onun 55 yaşı vardı. Həmin hadisə ilə əlaqədar arxivdən tapılmış və rus dilində yazılmış 2 məktubu oxuculara təqdim edirik. Məktublardan biri o zaman Zaqafqaziya Federativ Respublikasının rəhbərləri Q. Orconikidzeyə və Ş. Eliavaya (Şalva Zuraboviç Eliava 18 sentyabr 1883-cü ildə Gürcüstanın Kutaisi quberniyasının Qaniri kəndində doğulmuş, 30-cu illərdə repressiya olunmuş və 1937-ci il dekabrın 3-də güllələnmişdir), digəri isə ona qarşı qaldırılmış "cinayət işi"nin istintaqını aparan müstəntiq İvan Purnisə ünvanlanmışdır:

*"Г. Орджоникидзе, Ш. Елиаве.*

*Умирая, я скажу вам правду. Я был врагом вашим с постоянным колебанием. Но я был врагом на языке, являлся, выслушивал, сам говорил враждебные речи, но ни одним своим действием я не вредил Советской власти. Здесь я начал нанизывать на себя обвинения за обвинениями, но когда мне*

*начали показывать показания, ужасающе ложные, будто я связан с заграницей, с Московским центром в Азербайджане, что я устраивал восстания, что организацию в Закгосплане. Я понял, что спросить их не сумею и должен буду остаток жизни позорство и мучится, я был жертвой своего колебания, своей аполитичности, своего болтливого языка. Обвинять никого не обвиняю, даже тех, кто сочинил показания. Все приходит ко мне.*

*Из гроба буду умолять Вас, пролейте свет на мое дело и снимите хоть часть моего позора.*

*М. Гаджинский".*

*"Ивану Яковлевичу Пурнису*

*Я не мог вынести позора ни морально, ни физически.*

*Все же уходя с этого мира, я продолжаю настаивать, что вся моя вина была в болтающем языке. Поступком и делом я пролетариату не изменял. Но кого винить.*

*Вас, как следователю, не могу, ибо Вы не обязаны врать душе. Душа фотографического снимка не дает. Умоляю Вас, после более тщательно проверьте, анализируя все показания против меня. Вы убедитесь, что в предполагаемых грехах я не виновен.*

*М. Гаджинский".*

Bir qədər də Hacınskilər nəslinin sonrkı aqibətləri barədə. Yeri gəlmişkən, Hacınskilər nəsli haqqında Azərbaycan Cümhuriyyətinin Varisləri Təşkilatının fəaliyyəti və məlumatları çox maraqlıdır...

Q. Orconikidzenin tapşırığı ilə M. H. Hacınskiyə kəsilmiş cüzi təqaüd 1940-cı ilə qədər verilsə də, ailə üzvlərinin təqib olunması dayanmamışdı. Nəticədə, onlar "xalq düşməni"nin övladları kimi təhsil aldıqları məktəblərdən xaric olunmuş, iş yerlərini də itirmişdilər. M. H. Hacınskinin müəmmalı, faciəli ölümündən sonra Səadət xanım Almaniyada olan oğlanları Şamilə və Nuşirəvana məktub yazıb onların Vətənə qayıtmalarını bildirmişdi. Şamil qayıtsada, atasının taleyini yaşamaq istəməyən Nuşirəvan (o, Almaniyanın Kotsput Universitetinin yüngül sənaye mühəndisliyi fakultəsini 1932-ci ildə başa vurmuş, ali təhsilə yiyəlnmişdi) ömürlük qürbətdə qalmağı üstün tutmuşdu. SSRİ hökuməti tərəfindən İranda da təqib olunan Tofiq və Murad Hacınskilər hərbi xidmətlərini başa vurub evə qayıtmaq ərəfəsində İkinci Dünya Müharibəsi başlanmışdı. Bakıda 2 illik pedaqoji kursu bitirərk, təyinatla Qubada ibtidai sinfdə dərs deyən Minurə xanım məktəbin dil-ədəbiyyat müəllimi idi. O, "xalq düşməni"nin qızı ilə evlənməyə cəsarət etmiş Əziz adlı bakılı oğlanla ailə həyatı qurmuşdu...

1941-ci il oktyabrın 4-də Hacınskilər ailəsinin sürgün edilməsi haqqında qərar çıxdıqda, artıq döyüş cəbhəsinə getməyə hazırlaşan Muxtar anası və bacıları ilə birlikdə sürgün olunmuşdu. Qazaxıstanda ağır sürgün həyatının izlərini daim üzərində yaşadan Muxtar ali təhsilli maliyyəçi, Ukraynadan sürgün edilmiş, türk əsilli Koçubəylər nəslindən olan Anna xanımla evlənmişdi. Onların hər ikisi maliyyə idarəsində birgə çalışmış, Anna xanım maliyyə şöbəsinə rəhbərlik etmiş, Muxtar isə baş mühəndis vəzifəsində çalışmışdı. Lakin ailənin xoşbəxtliyi uzun sürməmiş, işdə süni yolla dolaşdırılaraq həbs olunan Muxtardan sonra güclü mənəvi sarsıntı keçirən Anna Alma-Atadakı monastra gedib, orada ömürlük rahibə həyatını qəbul etmişdi. Həbsxana həyatından sonra ciyər xəstəliyi tapan Muxtar isə, həyatının son günlərini Bakıda, bacıları Minurə və Leylanın (ailənin sonuncusu) yanında yaşamışdı.

Sürgün haqqında qərara əsasən "xalq düşməni"nin ailəsi kimi Bakıdakı evləri əllərindən alınaraq 1941-ci il oktyabrın 5-də gəmi ilə Krasnovodska (Türkmənistan. İndiki Türkmənbaşı) yola salınan Səadət xanım 3 qızı, kiçik oğlu Tofiqlə oradan da yük vaqonunda Şimali Qazaxıstana göndərilmişdilər. Onları sərt qışı ilə ad çıxarmış Semi-Palatinski vilayətinin Jarmin rayonundakı Balacar qızıl şaxtasının ərazisində məskunlaşdırmışdılar. Əzablı sürgün həyatı belə başlanmışdı...

M. H. Hacinskinin böyük oğlu Şamil hələ 1927-ci ildə Almaniyaya təhsil almağa getmiş, atasının yolunu tutaraq, Darmştadt Universitetinin inşaat fakultəsinə daxil olmuş, 1932-ci ildə oranı bitirib Tiflisə qayıtmışdı. Almaniyada mükəmməl təhsil almış, bir neçə xarici dil bilən Şamil yaxşı mütəxəssis kimi İran Sənaye Nazirliyinin texniki nümayəndəsi kimi çalışırdı... Sonra Berlində işləməyə göndərmişdilər... Lakin birdən, 1942-ci il noyabrın 9-da onu təcili Moskvaya çağırmış və həbs etmişdilər... Altı ay Moskvadakı

məşhur Lefortovo həbsxanasında saxlanıldıqdan sonra Şamili Kuybışev şəhərindəki islah-əmək düşərgəsinə köçürmüşdülər... Sonralar gec də olsa, Suriyyə adlı qızla ailə qurmuş Şamil dünyaya gəlmiş yeganə oğluna atasının adını qoymuşdu. Şamil Hacınski özü 1969-cu il iyunun 9-da, 61 yaşında dünyasını dəyişmişdir...

M. H. Hacınskinin həyat yoldaşı Səadət xanım 1972-ci il yanvarın 9-da Bakıda vəfat etmişdir. Qızı Minurə də Bakıda 2004-cü ildə vəfat etmişdir. M. H. Hacınskinin 8 övladından sonuncu qızı, 1922-ci il təvəllüdülü Leyla xanım Hacınskaya düz 40 il Bakıda N. Nərimanov adına Toxuculuq Fabrikində calışmışdı. Fərdi təqaüdə çıxıb tənha yaşayırdı. 2004-cü il iyunun 23-də 82 yaşında vəfat etmişdir.

## MUSTAFA BƏY VƏKİLOV
## (1896-1965)

Azərbaycanın görkəmli ictimai-siyasi və dövlət xadimi. Azərbaycan Cümhuriyyəti dövründə N.Yusifbəylinin sədr olduğu 5-ci hökumət kabinetində daxili işlər naziri olmuşdur.



Mustafabəy Nadir bəy (ağa) oğlu Vəkilov 1896-cı ilin sentyabr ayında Qazax qəzasının Salahlı kəndində dünyaya göz açmışdı. O, Bakı gimnaziyasını bitirərək 1912-ci ildə Moskva Universitetinin hüquq fakültəsinə daxil olmuş və elə həmin dövrdən də öz xalqının milli azadlıq mübarizəsinə qoşulmuşdu. Mustafa bəyin gələcək siyasi dünyagörüşünün formalaşmasında əmisi, doktor Məmməd Rza Vəkilovun (8 mart 1864, Qazax qəzası, Salahlı kəndi-1944, Bakı) və yaxın qohumu, Azərbaycan Parlamentinin ilk sədri Əlimərdan bəy Topçubaşovun (4 may 1863, Tiflis-5 noyabr 1934, Paris) böyük təsiri olmuşdu. Mustafa bəy Moskva Universitetində



azərbaycanlı tələbələrin həmyerlilər təşkilatının rəhbərlərindən biri idi.

1917-ci ilin martında Universiteti bitirərək Bakıya qayıdan M.Vəkilov coşqun siyasi fəaliyyətə başlamışdı. O, apreldə Bakıda çağırılmış Qafqaz müsəlmanlarının qurultayında, Kiyevdə ukraynalı professor Mixail Qruşevskinin (1866-1934) rəhbərliyi altında keçirilmiş qeyri-rus millətlərin qurultayında, mayda isə Rusiya müsəlmanlarının Moskvada keçirilən qurultayında iştirak etmişdi. Onun Bakı mətbuatında aktual siyasi və ictimai hadisələrlə bağlı xeyli məqaləsi çap olunmuşdu. M.Vəkilov rus, fransız və alman dillərini bilirdi. O, 1917-ci ildə açılması nəzərdə tutulan Rusiya Müəssislər Məclisinə Azərbaycandan millət vəkili seçilmişdi.

M. Vəkilov "Türk ədəmi-mərkəziyyət partiyası" – "Müsavat"-ın 1917-ci il oktyabrın 26-31-də Bakıda keçirilən İ qurultayında partiyanın Mərkəzi Komitəsinin də üzvü seçilmişdi. Bu qurultaydan sonra M. Ə. Rəsulzadənin rəhbərliyi altında Bakıda və qəzalarda geniş xalq hərəkatı başlanmışdı. Çarizmin müstəmləkə zülmünə qarşı yönələn və milli azadlıq qayəsi daşıyan bu mübarizə tarixə milli Azərbaycan hərəkatı kimi daxil olmuşdur. M. Ə. Rəsulzadənin, Ə. M. Topçubaşovun yaxın silahdaşlarından olan M.Vəkilov həmin hərəkatın rəhbərlərindən biri idi.

M. Vəkilov 1917-ci il noyabrın 15-də Tiflisdə yaranan Zaqafqaziya Komissarlığı hökumətində daxili işlər komissarı A. İ. Çxengelinin məsləhətçisi vəzifəsini icra etmişdi. O, bundan əlavə, həm də Zaqafqaziya Seymində Müsəlman fraksiyasının fəal üzvlərindən biri idi.

Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin sentyabrından Daxili İşlər Nazirliyində işləyən M. Vəkilov "Müsavat" partiyasından həmin il dekabrın 7-də Bakıda təntənəli surətdə açılan Azərbaycan Parlamentinə üzvü olmuş, Parlamentin sədri Ə. M. Topçubaşovun iki katibindən biri seçilmişdi (digər katib Ə. M.Topçubaşovun oğlu Rəşid bəy seçilmişdi (H. Zərdabinin (1842-1907) kürəkəni Ə. M. Topçubaşovun oğlu, Rəşid bəy 26 oktyabr 1909-cu ildə Tiflisdə anadan olmuş, 1926-cı ildə, Parisdə vəfat etmiş, həmin şəhərin yaxınlığında Sent-Kloud adlanan qəbristanlıqda bacısı Pəri xanımın yanında dəfn olunmuşdur. Rəşid bəy Bakı

realnı məktəbini bitirmişdi. Azərbaycan Parlamentində katib vəzifəsində çalışmışdı. Parlamentin 1 sentyabr 1919-cu il tarixli qərarı ilə hüquq təhsili almaq üçün Paris Univeritetinə göndərilmişdi. Cümhuriyyətin süqutundan sonra sovet hökumətinin verdiyi təqaüddən imtina etmişdi...). Hələ 1918-ci ilin oktyabr ayında M. Ə. Rəsulzadənin başçılığı altında Azərbaycan Respublikasının nümayəndə heyəti İstanbula, beynəlxalq konfransda iştirak etməyə gedərkən, Mustafa bəy onun tərkibinə məsləhətçi kimi daxil edilmişdi. Həmin konfransa Almaniya, Avstriya, Macarıstan, Bolqarıstan, Türkiyə və Qafqaz ölkələri - Azərbaycan, Gürcüstan, Ermənistan, habelə Dağlı İttifaqının nümayəndələri qatılmışdı. Bizim nümayəndə heyətimizin konfrans iştirakçıları ilə danışıqlar aparmaq və müqavilə bağlamaq səlahiyyəti vardı. Bir qədər sonra Ə. M. Topçubaşov da gəlib çıxmışdı...

Mustafa bəy 1919-cu il dekabrın 2-11-də Bakıda keşirilən "Müsavat"ın II qurultayında yenidən partiyanın Mərkəzi Komitəsinin üzvü seçilmişdi. O, 1919-cu il dekabrın 24-də Nazirlər Şurasının sədri N. Yusifbəylinin təşkil etdiyi 5-ci hökumət kabinetində daxili işlər naziri vəzifəsində işləmişdi (**Qeyd:** *N. Yusifbəylinin 5-ci hökumət kabineti 1920-ci il martın 30-da istefa versədə, Daxili İşlər Nazirliyinin həmin dövrdə müstəsna əhəmiyyətli ali inzibati hüquqmühafizə orqanı olduğunu nəzərə alan Azərbaycan Parlamenti yeni hökumət kabinetinin formalaşmasınadək (bu iş 1920-ci il aprelin 1-də M. H. Hacınskiyə həvalə olunmuşdu*) M. Vəkilovun öz vəzifəsini icra etməsini məqsədəuyğun saymışdı. Odurki, M.Vəkilov daxili işlər naziri vəzifəsini faktiki olaraq Azərbaycan Cümhuriyyətinin süqutuna qədər, yəni 27 aprel 1920-ci ilədək yerinə yetirmişdi... Bunu həmin dövrdə daxili işlər naziri M. Vəkilovun verdiyi əmrlər və DİN-lə əlaqədar tarixi ədəbiyyatlarda bəhs olunan hadisələr və xarakterik faktlar da sübut edir.

Gənc M.Vəkilov Azərbaycan Cümhuriyyətinin Parlamenti və Hökumətinin birgə qərarı ilə daxili naziri təyin edilənədək əvvəlcə daxili işlər nazirinin müavini vəzifəsini icra etmişdi. Onun həmin vaxt, 1920-ci il fevralın 4-də Qarabağın general-qubernatoru Xosrov bəy Sultanova göndərdiyi teleqramda Zəngəzura hərbi yardım üçün DİN-in təşkilatçılığı ilə digər yerlərin əhalisindən yaradılmış 1000 nəfərlik partizan dəstəsinin hazırkı mürəkkəb vəziyyətdə bölgəyə göndərilməsinin zəruruliyi bildirilirdi. Bundan başqa, DİN-in tşkilatçılığı ilə tələbələrdən ibarət könüllülər dəstəsi də Bakıdan Qarabağa-general-qubernator X. Sultanovun sərəncamına yola salınmışdı. Bu haqda X.Sultanovun sədrliyi ilə 1920-ci il fevralın 9-da general-qubernatorluqda keçirilən iclasda məlumat bildirilmişdi.

1920-ci il fevralın 18-də isə o, 23 yaşında Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri təyin olunmuşdu. M.Vəkilov hökumətin ən gənc naziri idi. Həmişə əsarətə, köləliyə, milli, mənəvi və fiziki zülmün müxtəlif təzahür formalarına qarşı barışmaz mübarizə aparan Mustafa bəy başçılıq etdiyi Daxili İşlər Nazirliyini mütərəqqi siyasi əqidəyə malik peşəkar hüquqşünaslarla, pak və təmiz mənəviyyatlı kadrlarla möhkəmləndirməyə çalışırdı. M. Vəkilovun elə nazir təyin olunduğu gün - onun 1920-ci il 18 fevral tarixli 34 nömrəli əmriylə buna qədər Şəmkir Qəza İdarəsinin rəis əvəzi olan İsgəndər bəy Məşədi Salman oğlu Qəmbərəliyev Şamaxı Qəzasının rəisi (12 noyabr 1919-cu ildən sayılmaqla) təyin edilmişdi.

M. Vəkilov həmişə obyektivlik, haqq-ədalət üçün çalışır, fərq qoymurdu. Məsələn, hətta 1920-ci il aprelin əvvəlində Azərbaycan Cümhuriyyətinə qarşı mübarizə aparan bolşevik Əli Bayramovu qətlə yetirmiş cinayətkarların aşkar olunub həbs edilməsi, onlar haqqında cinayət işi qaldırılması barədə şəxsən göstəriş vermiş və bunu daim nəzarətdə saxlamışdı. Həmin hadisə belə baş vermişdi:

– ... Hələ 1919-cu ilin əvvəlində şəhərdə belə bir söz-söhbət gəzirdi ki, şimalda ağqvardiyaçı general Denikinin ordusunu əzən 11-ci ordunun Azərbaycan sərhədlərinə yaxınlaşmasından ruhlanan Bakı bolşevikləri Azərbaycan Hökumətini yıxmaq üçün üsyan planı hazırlamışlar. Azərbaycan Daxili İşlər Nazirliyi, Bakı Polismeysterliyinin qüvvələri həmin bolşeviklərədən xüsusilə Ə. Bayramovu və H. Cəbiyevi fəal surətdə axtarırdı. Lakin Azərbaycan Parlamentinin üzvü Ə. H. Qarayev özünün toxunulmazlıq hüququndan istifadə edərək, onları əvvəlcə öz mənzilində gizlətmiş, polisə onun mənzilində əsaslı axtarış aparmasına yol verməmiş, onların hər ikisinin Bakıdan çıxmasına şərait yaratmışdı. DİN Ə. Bayramovun Salyan qəzasında gizləndiyini öyrənib qəza rəisi Əli Heydər Yusifova onu aşkar ediib həbs etməyi tapşırmışdı. Lakin

həmin vaxt Ə. Bayramov Salyanda yox, bir müddətdən sonra - 1920-ci ilin martında Bakıda Bakı Polismeysterliyinin (Birja küşəsi 21-də, indiki Üzeyir Haşıbəyov küçəsi 21-də yerləşirdi) 2-ci və 4-cü sahə polis pristavlıqları əməkdaşlarının birgə həyata keçirdilkəri əməliyyat-axtarış tədbirləri nəticəsində həbs olunmuşdu.

Onun tutulmasına polislərə Bakıda çox məşhur olan "qoçu" Əjdər (Əjdər Əminov) kömək etmişdi . Ə. Bayramovu Bakı General-Qubernatorluğunun yerləşdiyi Birja küçəsindəki binasında (indiki Üzeyir Hacıbəyov küçəsi, 8 nömrəli evdə) Bakı polismeysteri Rüstəm bəy Mirzəyev özü dindirmişdi. Bu xüsusda Ə. Bayramovun arvadı, məşhur bolşevik Ceyran Bayramova (22 mart 1896-cı il. Bakı - 1987, Bakı) Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra AK (b) P MK-da Qadın Şöbəsinin müdiri işləmişdi...) sonralar xatirələrində belə bəhs etmişdir:

-Bakı Polismeystrliyinin İnformasiya Şöbəsinin rəisi Ələkbər xan Şahsuvarov (1879-1920). (Ələkbər xan Kərim xan oğlu Şahsuvarov Qarabağda anadan olmuşdu. İxtisasca həkim idi. Odessada "Novorossiysk" Universitetinin tibb fakultəsini bitirmişdi. Azərbaycan Cümhuriyyəti dövründə ali təhsilli milli kadrlardan biri kimi Bakı Polismeysterliyində xidmətə cəlb olunmuşdu. Sovet hakimiyyəti qurulduqda, onu keçmişinə görə həbs etmiş və güllələmişdilər...) onun köməkçisi, baş qorodovoy Məmməd İbrahim Babayev mənə dedilər ki, Ə. Bayramov və yoldaşları hökuməti devirmək istəyirlər, ona görə siyasi məhbus kimi tutulublar. Onların tutulmağından daxili işlər nazirinin (həmin vaxt daxili işlər naziri M.Vəkilov idi) müavini Şəfi bəy Rüstəmbəylinin də xəbəri var. Bununla əlaqədar Ə. H. Qarayev Parlamentdə kəskin çıxış edib Ə. Bayramovun buraxılmasını tələb etmişdi. O, həmçinin tanınmış bolşeviklərdən Mir Fəttah Musəvinin (1891-1919) və Haşım Əliyevin (1892-1919) ölümündə də hökuməti günahlandırmışdı".

- Bu hadisə əslində, Ə. H. Qarayevin dediyi kimi deyil, aşağıdakı kimi baş vermişdi:

- 1919-cu il sentyabrın 5-də cümə günü, gecə saat 12-yə yaxın "Noviy svet" ("Yeni dünya"(indiki "Sahil" metrosunun yaxınlığında yerləşirdi) restoranında bir stolun arxasında mühəndis Hacıbəy Seyidbəyov öz tanış qadını ilə şam edirdi. Qonşu stolun arxasında isə bolşeviklər Mir Fəttah Musəvi Bakı Fəhlə Konfransının sədri Levon Qoqoberidze ( ) və Haşım Əliyev əyləşmişdilər. Onlar öz aralarında siyasi mövzuda söhbət edirdilər. Birdən M. Musəvi H. Seyidbəyova müraciət edərək: "Yeri gəlmişkən, biz indiki Azərbaycan Hökumətinin sədrini (N.Yusifbəyli nəzərdə tutulurdu ) və üzvlərini "Parapetdə" (indiki Fontanlar bağı ) asacağıq, Baş nazir isə Qoqoberidzeni təyin edəcəyik", – demişdi. H. Seyidbəyov M. Musəviyə çox kəskin cavab vermişdi. M. Musəvi isə revolveri çıxarıb H. Seyidbəyova tuşlamışdı. H. Seyidbəyov da revolveri çıxarıb salondan çıxış yoluna tərəf geri çəkilməyə başlamış və özünü müdafiə məqsədilə bir neçə dəfə atəş açmışdı. Nəticədə, M. Musəvi və H. Əliyev yerindəcə ölmüş, Levon Qoqoberidze isə qarnından ağır yaralanmışdı. Atışma davam edrərkən bundan xəbər tutan Bakı polismeysteri Rüstəm bəy Mirzəyev və 5-ci sahə polis pristavı Mixail Vakula özlərini hadisə yerinə yetirmişdilər.

- Restoran və ətrafı bütünlüklə mühasirəyə alınmış, H. Seyidbəyov isə dərhal həbs olunmuşdu. İstintaq zamanı onun şəxsiyyəti müəyyənləşdirilmiş, aydın olmuşdu ki, o, ixtisasca mühəndisdir və Azərbaycan Dəmiryol İdarəsində Teleqraf Şöbəsinin rəisi işləyir. Şəxsi işi araşdırıldıqda, iş yerində onu çox ciddi və işgüzar qulluqçu kimi xarakterizə etmişdilər.

- Bu hadisə kəskin əks-sədaya səbəb olmuş və hətta Parlamentdə müzakirə edilmişdi. Parlamentdə çıxış edən "Sosialistlər fraksiyası"nın təmsilçisi Ə. H. Qarayev qəzəbli halda Azərbaycan hökumətini günahlandırmış və demişdi: "Biz qırmızı ordu ilə ciddi danışığa girməliyik. Bu hökumət isə bunu bacarmayacaqdır. Onun əli Əli Bayramovun qanına boyanmışdır. Sovet Rusiyası ilə danışığa girmək lazımdır".

- **Qeyd**: *Ə. H. Qarayev ona görə belə deyirdi ki, Parlamentin iclasından qabaq həbsdə olan bolşevik Ə. Bayramovun orada güya boğularaq öldürüldüyü... xəbəri yayılmışdı.*

- Daxili işlər nazirinin müavini Şəfi bəy Rüstəmbəyli Ə. H. Qarayevin çıxışında toxunduğu məsələ barədə izahat verərək bildirmişdi: "Daxili işlər naziri (M.Vəkilov nəzərdə tutulur) burada yox ikən Qarayev Ə. Bayramov haqqında danışdı. Bu xüsusda bir

neçə söz deyəcəyəm. Bir neçə gün bundan əvvəl polis dövlət çevrilişi və üsyan qaldırmaq planını kəşf etdi. Burada hökuməti yıxmaq, Parlamanı da dağıtmaq və şura hökuməti qurmaq istəyirdilər. Ə. Bayramov da bu çevrilişin iştirakçılarından biridir. Parlaman üzvü Əli Heydərin də orada imzası var. Polisə əmr olunmuşdu ki, o adamları tutsun. Polis axtarır, tapa bilmirdi. Bu ara xəbər çıxdı ki, Ə. Bayramov yoxa çıxıb... Bu barədə məlumatda yoxdur. Ancaq şayiələr var ki, onu bir qoçu tutub polisə verib. Polis isə onu boğmuşdur. Bu xəbəri eşidən cənab nazir qradonaçalnikə əmr verdiki, xəbəri rəsmi şəkilə salsın, tapıb açsın. Deyilənlər doğru çıxsa, kim müqəssir olsa, məhkəməyə vetiləcək və cəzalanacaq. Hökumətə iftira, böhtanlar yağdırılır, buna ciddi etiraz edirəm".

**Qeyd:** *Hərb tarixi tədqiqatçılarından biri, o cümlədən 1928-ci ildə Azərbaycan Ordusu tarixinə dair kitab həsr etmiş A. Steklov yazır ki, Əli Bayramovun başını əslində, 1920-ci il martın 22-dən 23-nə gecə "naməlum adamlar" kəsmişdilər... Onun başını kəsib, bədənindən ayırmış, meyidini isə gecə fəhlə rayonuna daxil olan Xatisov zavodunun (indiki Səttərxan zavodu) həyətinə atmışdılar...*

Ə. Bayramovu öldürən cinayətkaların həbs edilməsi və onların haqqında cinayət işi qaldırılması üçün daxili işlər naziri M.Vəkilov şəxsən göstəriş vermiş və müavini Ş. Rüstəmbəylinin sədrliyi ilə bu işi araşdırmaq üçün xüsusi komissiya yaradılmış, nazir özü isə bununla əlaqədar Parlamentin 1920-ci il aprelin 15-də keçən xüsusı iclasında Ə. Bayramovun ölümü ilə bağlı millət vəkillərinin suallarına cavablar vermişdi...

Təyinat. Daxili işlər naziri əvəzi Ş. Rüstəmbəylinin 14 mart 1920-ci il tarixli 45 nömrəli əmri ilə Şamaxı qəzasının rəisi Səlim bəy Ağakişibəyov tutduğu vəzifəsindən azad edilmiş, onun yerinə Bakı polismeysterinin böyük köməkçisi Mehralı bəy Fərzəlibəyov (1878-1942) tövsiyə edilmişdi... Daxili işlər naziri M. Vəkilovun 19 mart 1920-ci il tarixli əmri ilə isə Lütvəli bəy Zülədərov (1881-1920) Cavad qəzasının rəisi vəzifəsindən azad edilmişdi...

Azərbaycan Cümhuriyyətinin axırıncı daxili işlər naziri M. Vəkilov nazir kürsüsünü M H. Hacınskidən qəbul etmişdi. O, Daxili İşlər Nazirliyinə çox ağır dövrdə, hökumət böhranı ərəfəsində gəlsə də, bu ali inzibati təşkilatı zəifləməyə qoymamışdı.



M. Vəkilov siyasi-sosial vəziyyəti nəzərə alaraq hesab edirdi ki, onun öz komandası olmalıdır. Mustafa bəy özündən əvvəlki nazirlərin səhvlərini təkrar etməməyə çalışırdı. M. Vəkilovun nazirliyi dövründə DİN və polis sistemi keçmiş çar Rusiyası və bəzi Qərbi Avropa (İngiltərə və s.) ölkələrindəki klassik polis sistemi yönündə təkmilləşdirilirdi. 1920-ci ilin yazında Azərbaycan Cümhuriyyətinin Daxili İşlər Nazirliyi və onun yerli strukturları ölkədə ictimai təhlükəsizliyi müstəqil qoruya bilən və cinayətkarlıqla bilavasitə mübarizə aparmağa qadir olan real qüvvəyə çevrilmişdi.

M. Vəkilovun bir daxili işlər naziri kimi bütün fəaliyyəti müstəqil Azərbaycan Respublikası hakimiyyətini qoruyub saxlamağa yönəlmişdi. Onun bolşeviklər və fəhlələrlə dialoqa girməsi və hətta kompromis yola əl atması da bununla bağlı idi. M. Vəkilov 1920-ci il martın 22-də Azərbaycan Hökuməti əleyhinə çıxış edən bütün qüvvələrə (siyasi partiyalara, təşkilatlara, vətəndaşlara, xarici təbəələrə), o cümlədən, Bakı fəhlələrinə müraciətində bildirirdi:

"Zəhmətkeşlərin maraqlarını müdafiə edən Ali İcra hakimiyyəti fəhlə sinfinin iqtisadi və hüquqi vəziyyəti yaxşılaşdırmaq üçün apardığı mübarizəyə qarışmaq fikrində deyil. Amma fəhlə sinfinin maraqlarını "qorumaq" adı altında təşviqat və cinayət işlətməklə dövlət əleyhinə çıxışlar edən xarici qüvvələrin əlaltılarına qarşı bütün mümkün tədbirlər həyata keçiriləcək".

Bakı Polismeysterliyinin Liman Sahə Polis Pristavlığı 1920-ci ilin fevralında Azərbaycan Cümhiriyyətinin hərbi naziri, tam artilleriya generalı S. Mehmandarovun Naberejnı küçəsində (indiki Neftçilər prospekti) yerəşən 51 saylı evinin girəcəyində ona və Azərbaycan Cümhuriyyətinin hökumət başçısı ilə görüşmək üçün Tiflisdən Bakıya gəlmiş Don, Terek və Kuban Baş Dairəsinin nümayəndələri Mixail Zazulyaya, Nikolay Baqiyevə və Pyotr Kovalyova bomba atmış Novikov adlı birisini tutmuşdu. Həmin bomba partlayışı nəticısində Kovalyovun sol əli, hərbi nazirimizin qapısı ağzında növbədə duran qorodovoy Qulu Məmmədoğlunun isə üzü yaralanmışdı. Hərbi nazir S. Mehmandarov partlayış səsinə küçəyə-hadisə yerinə gəlmiş, tələsdiyindən papağınıda başına qoymağı unutmuşdu. Tezliklə, hər şey aydınlaşmışdı.

Hadisəni törədənin polis tərəfindən İçərişəhərdəki dükanların birində yaxalanan naməlun şəxsin iki pasportu olan Filip Novikov olduğu müəyyənləşmişdi. Onun üstündən 2 ədəd bomba, 1 ədəd tapança, 9 ədəd patron, 275 manat Azərbaycan Hökumətinin pulu tapılmışdı. F. Novikov Liman Sahə Polis Pristavlığına gətirilmişdi. Daxili işlər naziri Mustafa bəy, onun iki müavini, Bakının general-qubernatoru Murad Gəray Tlexas, qradonaçalnik Əli Heydər bəy Yusifov, şəhər komendantı, general-mayor Firidun bəy Vəzirov (1850-1925), Bakı polismeysteri Rüstəm bəy Mirzəyev (1860-1920) və Məhkəmə Palatasının prokuroru Nəzərov hadisə yerinə gəlmiş, Novikovun dindirlməsində iştirak etmişdilər.

... Şahidlər dindirilərkən hərbi nazir S. Mehmandarovun mühafizəçiləri əldə qayırma bombanı atanların 3 nəfər, bunlardan birinin məhz F. Novikov olduğunu təsdiq etmişdilər. Təsadüfən yoldan keçən 14 yaşlı gimnaziya şagirdi, hadisəni görmüş Baraşvili Novikovu geyimindən tanımış və demişdi ki, bu, bomba atanlardandır. F. Novikov sərxoş idi, əvvəl diş texniki olduğunu, Bakıda işlədiyini, hadisə yerinə təsadüfən gəlib çıxdığını, heç bir bomba tullamadığını deyir, üstündən tapılan bombaları isə ona tanımadığı gürcünün verdiyini söyləmişdi... Dostlarının isə İ. Levin və Razin (onlar bolşevik idilər) olduğunu bildirmişdi. F. Novikov İçərişəhərdə Liman sahə polis pristavına təslim olmuşdu. Hərbi Səhra Məhkəməsinin qərarı ilə o, etdiyi terrorçuluq aktına görə 1920-ci il martın 23-də dar ağacından asılmaqla ölüm cəzasına məhkum edilmişdi. Hökm elə həmin gecə Bayıl həbsxanasında yerinə yetirilmişdi.

27 mart 1920-ci il. DMK-nın 3196 saylı sərəncamı ilə DİN-in ehtiyat qüvvələrinə əlavə 300 ştat, o cümlədən 276 əsgər ştatı ayrılmış və beləliklə, ehtiyat qüvvə üzrə əsgərlərin sayı 1000 nəfərə çatdırılmışdı. Bu məqsəd üçün 1920-ci il ərzində təkcə ərzağa 4 milyon rubl kredit ayrılmışdı.

Daxili işlər naziri M. Vəkilovun 1920-ci ilin martında bütün vətəndaşlara, siyasi partiyalara və təşkilatlara daha bir müraciətində deyilirdi ki, dövlət əleyhinə hər cür cəhdlərin və qanunsuz tətil, mitinq və çıxışların qarşısı qətiyyətlə alınacaqdır... Lakin Bakıda bolşeviklərin üsyan planından xəbər tutan Mustafa bəyin əmri ilə polis 1920-ci il aprelin 11-də AK(b)P-nin fəal üzvlərindən Dadaş Bünyadzadə (1888, Bakı qəzası, Fatmayı kəndi - 1938; 30-cu illərdə repressiya olunub, güllələnmişdir...), Vasili Yeqorov (1899, Rusiya, Tambov quberniyası, Berezovka kəndi-1938; 30-cu illərdə repressiya olunub, güllələnmişdir...) və Əlixanov müvəqqəti həbs olunmuşdu. Ümumiyyətlə, 1920-ci ilin aprelində həmin səbəblər üzündən tutulan 60 siyasi dustaq var idi.

Ermənilərin ucbatından yaranan Qarabağ və qaçqınlar məsələsi də Azərbaycan Cümhuriyyəti Hökumətinin problemli işlərindən idi. Bunu Gəncənin general-qubernatoru X. Rəfibəyliyə quberniyanın qəzalarından pristavlar tərəfindən göndərilən raportlardan bilmək olardı.

9 mart 1920-ci il.

Gəncə şəhəri polismeystrerinə.

*Cənab qubernatorun tapşırığı ilə Quberniya İdarəsi martın 11-nə vəsait toplamaq məsələsini müzakirə etmək üçün "Müsavat" partiyasının sədri Məşədi Əli Rəfiyevi, "İttihad" partiyasının sədri doktor Aslan bəy Səfikürdskini (1881-1937), Həmkarlar İttifaqının sədri Məşədi Yusif Fərzixanovu, Kəndlilər İttifaqının sədri Alış bəy Məmmədovu qubernatorluğun binasına dəvət etməyi Sizə təklif edir".*

10 aprel 1920-ci il.

Qaraçinar kəndi. Cənab Gəncə qubernatoruna.

Raport.

*Zati Alinizə məlimat verirəm ki, erməni qarovvulları əvvəlki təki Gülüstan kəndi tərəfdən bizim süvari mühafizə dəstələrimizi atəşə tuturlar.*

Qəza rəisi Məmməd Muradov".

Gəncənin general-qubernatoru X. Rəfibəyli qaçqınlar məsəlsi ilə hər gün, təxirəsalmadan məşğul olurdu. Belə ki, Ermənistanın müxtəlif yerlərindən – Göyçədən, Zəngəzurdan axışıb gəlmiş və gəlməkdə davam edən 20 min qaçqını yerləşdirmək heç də asan məsələ deyildi. X. Rəfibəyli bu işdə Gəncə camaatını, xüsusilə, imkanlı adamları da qaçqınlara dayaq olmağa səfərbər edirdi. O, bu haqda daxili işlər naziri M. Vəkilova vaxtaşırı məlumat verirdi.

...Bir dəfə daxili işlər naziri M. Vəkilov Bakı qubernatoru ilə söhbətində qeyd etmişdi ki, rüşvətxorluqla mübarizə zəif aparılır... Bir sıra yüksək çinli polis məmuru və pristavlar yalnız imza atmaqla işlərini bitmiş hesab edir, bəziləri hətta oxumadan sənədə qol çəkir və fəaliyyətsizlik göstərirlər. Qubernator nazirin bu qənaətini etiraf etmiş və bildirmişdi ki, bir çox qulluqçular doğrudan da "ideal" olmaqdan uzaqdırlar. Bəlalərinə qarşı mübarizə davam etdiriləcəkdir...

1920-ci il aprelin 5-də daxili işlər naziri M. Vəkilovun əmri ilə qətlə yetirilmiş bolşevik fəalı Ə. Bayramovun "işi" üzrə buraxdığı "kobud" səhvlərə görə Bakı polismeysteri həbs edilmişdi... Bakı şəhərinin sabiq polismeysteri olmuş Mustafa bəy Qabulov sonralar bu haqda belə bəhs etmişdi:

"1920-ci il aprelin 10-da Tiflis vağzalında şəxsi vaqonunda onu qəbul edən daxili işlər naziri Mustafa Vəkilov yeni vəzifəyə - Bakı şəhərinin polismeysteri vəzifəsinə təyin olunduğumu mənə bildirərək, tapşırdı ki, özbaşınalığına görə polismeyster Rüstəm bəy Mirzəyevi həbs edim. O və yaxın adamları Əli Bayramovun oğurlanıb vəhşicəsinə qətlə yetirilməsində müqəssir bilinirdilər. Mən R. Mirzəyevi və daha 3 qorodovoyu həbs edib silahlı gözətçilərin müşayiəti ilə Bayıl Dustaqxanasına saldırdım. R. Mirzəyevin yaxın qohumu, 4-cü sahə polisinin pristavı Nurəddin Seyidovun (1896-1968) və onun müavini Süleyman bəy Sübhanverdixanovun yerlərini dəyişib Balaxanıya göndərdim...".

Təyinat. Bakı Möhkəmləndirilmiş rayonun general-qubernatoru, general-mayor Murad Gəray bəy Tlexasın 7 aprel 1920-ci il tarixli 6966 nömrəli əmri ilə Bakı polismeysteri Rüstəm bəy Mirzəyev tutduğu vəzifəsindən azad olunmuşdu. Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri M. Vəkilovun 10 aprel 1920-ci il tarixli əmri ilə Balaxanı-Sabunçu polismeysteri vəzifəsində çalışan Qabulov Mustafa bəy Qabul oğlu vəzifə xidmətində irəli çəkilərək, sabiq polismeyster Rüstəm bəy Mirzəyevin yerinə - Bakı şəhərinin polismeysteri vəzifəsinə təyin edilmişdi . Bakının general-qubernatoru, general-mayor M. Tlexasın 19 aprel 1920-ci il tarixli və daxili işlər naziri əvəzi Ş. Rüstəmbəylinin 21 aprel 1920-ci il tarixli 60 nömrəli əmriylə Rüstəm bəy Heybət bəy oğlu Kərimbəyov Lənkəran qəzasının rəisi (o vaxt Lənkəran qəzası Bakı quberniyasının tərkibində idi) vəzifəsindən azad edilərək, Rüstəm bəy Mirzəyevin yerinə Balaxanı-Sabunçu polismeysteri təyin edilmişdi. Azərbaycan Cümhuriyyəti DİN-in Lənkəran Qəzasında Səlahiyyətli müvəkkili Bəhram xan Naxçıvanskinin 21 aprel 1920-ci il tarixli 70 nömrəli əmri ilə onun böyük köməkçisi Adil bəy Kəngərlinski müvəqqəti olaraq Balaxanı-Sabunçu polismeysteri vəzifəsinə irəli çəkilmiş Rüstəm bəy Kərimbəyovun yerinə Lənkəran qəzasının rəisi vəzifəsinə təyin olunmuşdu.



Qeyd etmək lazımdır ki, hətta əqidəsinə görə mövcud quruluşa qarşı çıxış edənlərin qanundan kənar, özbaşına cəzalandırılmasına yol verilməyəcəyinə dair zəmanət veriləcəyinə daxili işlər naziri M. Vəkilov bəyanat vermişdi. Məsələn , bolşevik Ə. Bayramovun həyat yoldaşı C. Bayramova 1920-ci il aprelin 9-da Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri M. Vəkilova ərizə ilə müraciət edərək göstərmişdi ki, həmin il mart ayının 22-dən 23-nə keçən gecə onun əri Bakı Polismeysterliyinin qorodovoyları və mühafizəçiləri olan Gəncə sakinləri Vəli Məşhədihüseyn oğlunun, Həbibin və Əbdürrəhmanın bilavasitə iştirakı ilə başı kəsilməklə vəhşicəsinə qətlə yetirilmişdir. Həmdə bu cinayət Bakı qradonaçalnikinin və Bakı polismeysterinin razılığı ilə baş vermişdir. Və adları çəkilənlər cəzalanmalıdırlar". Bununla əlaqədar nazir M.Vəkilovun ərizənin üstünə yazdığı dərkənarda deyilirdi: "Bakı Dairə Məhkəməsinin prokuroruna. Bu ərizə əsasında lazımi tədbirlər görmənizi xahiş edirəm".

Tarixi sənədlər Ə. Bayramovun qatilnin konkret kim olduğunu müəyyənləşdirməyə imkan vermir. Lakin onun məhz Bakı Polismeysterliyindən yoxa çıxması (o vaxt siyasi dustaq kimi yatan görkəmli bolşeviklərdən Dadaş Bünyadzadə demişdi ki, qorodovoylar Ə. Bayramovu Polismeysterlikdə görmüşlər) sonra isə vəhşicəsinə qətlə yetirilməsi hakimiyyətin cəza orqanında hələ qanunsuzluqlar və bəzi ordakı məmurların "gizli işlərlə" məşğul olmalarını göstərirdi. Buna görə də Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Ə. Bayramovun öldürülməsi ilə əlaqədar aparılan məhkəmə prosesi nəticə etibarı ilə çox amansız hökm çıxarmışdı. Belə ki, Ə. Bayramovun qətlində günahkar bilinənlərin bir qədər tələsikliklə, cəmi bir həftə davam etmiş məhkəmə mühakiməsi

1920-ci ilin mayın 20-dən sonra başlanmışdı. Müttəhimlər kürsüsündə qorodovoydan tutmuş qoçu, pristav və generala qədər 20 "müqəssir" oturmuş, 69 şahid dindirilmişdi.

Bu cəhətdən Azərbaycan SSR Ali İnqilabi Tribunalının 28 may 1920-ci il tarixli hökmü səciyyəvidir. Sədr Teymur Əliyevin (29 oktyabr 1890, Şuşa-mart 1938; 30-cu illərdə repressiyaya məruz qalmış, 1938-ci il martın 8-dən 9-na keçən gecə güllələnmişdi), Lev Qantsın, Yefim İvanoviç Rodionovun (1889-1937) (əslən Rusiyanın Saratov quberniyasının Xmelevki kəndindən idi. Sonralar, Azərbaycan SSR-in xalq poçt və teleqraf komissarı, Bakı Soveti sədrinin müavini və s. vəzifələrdə işləmişdi. 30-cu illərdə repressiya olunmuş, həbs edilərək, 1937-ci ilin dekabrında güllələnmişdi), Zeynal Dadaşovun və Mir Bəşir Qasımovun (1879-1949) üzv olduğu İnqilabi Tribunal həmin cinayət işi ilə əlaqədar olaraq Azərbaycan Cümhuriyyətinin daxili işlər nazirinin müavini Ş. Rüstəmbəylini, Bakının general-qubernatoru Murad Gəray bəy Tlexasıda (1874-1920) ölüm cəzasına məhkum etmişdi.

Azərbaycan Cümhiriyyətinin sonuncu daxili işlər naziri M. Vəkilovun (Mustafa bəy Bakıda Kladbişenski (Qəbristanlıq) küçəsi, 9 nömrəli evdə (indiki Nazirlər Kabinetinin və Teleteatrın yaxınlığında "Qəhrəmanlar" Evinin yanında ikimərtəbəli binada yaşayırdı. İndi orada hündürmərtəbəli kooperativ bina ucalır və alt mərtəbəsində flora və fauna muzeyi yerləşir) daxili işlər nazirliyi dövründə polis quruculuğu zamanın tələblərinə uyğun qurulmaqla aparılır və inkişaf edirdi. Onun nazirliyi zamanı Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyinin və respublika polisinin mərkəzi və yerli təşkilati strukturları aşağıdakı kimi idi:

- Daxili işlər naziri Mustafa bəy Vəkilov (xidməti telefon nömrəsi-57-57; mənzil nömrəsi 39-72 idi). Onun müavini Şəfi bəy Rüstəmbəyli. Dəftərxana direktoru və vitse-direktoru Rza bəy Ağasıbəyov.
- DİN-in 6 şöbəsi vardı: 1-ci şöbə. Rəisi Nikolay Doljenkov. 2-ci şöbə. Rəisi Aleksandr Motorin. 3-cü şöbə. Rəisi İvan Baliçki. 4-cü şöbə. Rəisi Sonazır Taprov. 5-ci şöbə. Rəisi knyaz Vladimir Çaçba-Şervaşidze. 6-cı-İnşaat şöbəsi. Müdiri Panteleymon Kosyurp. Hüquq məsləhətçisi Vladimir Qadaseviç. Xüsusi tapşırıqlar üzrə



kargüzar məmurlar: baş polis məmuru İlya Pavliyev ; kiçik polis məmuru Abdulla Dadaşov. Katiblik Məmmədağa Agayev. İnzibati İnspeksiya - baş inspektor Ömər Faiq əfəndi Nemanzadə. İnzibati İnspeksiya (Polis Müfəttişliyi) Nikolayev (indiki İstiqlaliyyət) küçəsi, 7 nömrəli evdə yerləşirdi). Dəftərxana direktoru Səmədağa Qayıbov. Dəftərxana katibi Teymur Hüseynzadə. Qeydiyyatçı Əhməd Əfəndizadə. Bakı rayonu üzrə polis redaktoru Səməd bəy Əli İsgəndərov. Gəncə rayonu üzrə polis redaktoru İsmayıl ağa Vəkilov (1863-1931). Göyçay rayonu üzrə polis redaktoru. Əhməd ağa Vəkilov. Şuşa rayonu üzrə polis redaktoru Məmməd Həsən bəy Mirzəcamalov. Quba rayonu üzrə polis redaktoru Mirzə Vəlizadə.

Bakıda Daxili İşlər Nazirliyinə tabe olan polis təşkilatları və onların strukturları belə idi:

BAKI MÖHKƏMLƏNDİRİLMİŞ RAYONUN HƏRBİ GENERAL-QUBERNATORLUĞU (15 fevral 1905-ci ildə təsis edilmişdir) (Birja, indiki Ü. Hacıbəyov küçəsi, 8 nömrəli ev). Bakı rayonunun hərbi qubernatoru. General-mayor Murad Gəray bəy Tlexas (1874-1920). Dəftərxana rəisi Sergey Romanov. Xüsusi tapşırıqlar üzrə məmur Boris Spektor. Mənzil şöbəsinin müdiri Xəlil bəy Sultanov və onun köməkçisi Musa bəy Hüseynov.

BAKI QUBERNATORLUĞU. Qubernator (qubernator vəzifəsi hələ 1872-ci ildə təsis edilmişdi). Qubernator Əmir bəy Nərimanbəyov (Əmir bəy Nərimanbəyov bu vəzifəyə daxili işlər naziri əvəzi-vitse-nazir, general-mayor M. S. Ağabəyzadənin 2 sentyabr 1919-cu il tarixli əmri ilə təyin edilmişdi. Ə. Nərimanbəyovun aylıq məvacibi 3.600 manat idi. Onun böyük köməkçisi Əmirxan Xoyski (1888-1954) (o, bu vəzifəyə 2 sentyabr 1919-cu ildə təyin edilmişdi. Aylıq məvacibi 2.700 manatıydı) və köməkçisi Qafarov idi..

BAKIQRADONAÇALNİKLİYİ. (ŞƏHƏR RƏİSLİYİ). (Birja (indiki Ü.Hacıbıəyov) və Krasnovodsk (indiki Səməd Vurğun) küçəsinin kəsişdiyyi yerdə, Budaqovun evi) yerləşirdi). Bakı Qradonaçalniki Puda (əslində Quda) Əliyeviç Qudiyev (1880-1920) (o, bu vəzifəyə 15 iyun 1919-cu ildə təyin olunmuşdu). Polismeysterliyin katibi. İsmayıl xan oğlu Talışxanov (Lənkəranın məşhur Talışxanovlar (Talışinskilər) nəslindən çıxmışdır. Atası Mir Əsgər xan Talışxanov (1841-1920) general-mayor rütbəsinə malik idi... O,

"Müsavat" partiyasının üzvü kimi Azərbaycan Hökumətinin Lənkəranda Səlahiyyətli nümayəndəsi seçilmişdi). Dəftərxana müdiri Georgi Dqebuadze. Xüsusi tapşırıqlar üzrə baş məmur Xasbulat Cambulatov. Kargüzar Vasili Lukin. Arxivarius Məmməd Cəfərov. Tərcüməçi Əzimağa Vəlixanov. Qorodovoy hazırlayan məktəb (İçərişəhər). Müdiri polis podpolkovniki Şükür bəy Yüzbaşınski (o, bu vəzifəyə 1918-ci ilin sentyabrından təyin edilmişdi...).

BAKI ŞƏHƏR POLİSMEYSTERLİYİ. Hələ çar Rusiyası dövründə, 1868-ci ildə yaradılmış və Azərbaycan Cümhuriyyəti dövründə də polisin bir xidmət strukturu kimi Birja küçəsi – 21-də. Skobelevlərin evində yerləşirdi). Bakı polismeysteri Rüstəm bəy Mirzəyev (1860, Gəncə -1920, Bakı) (o, bu vəzifəyə 15 iyun 1919-cu ildə təyin edilmişdi). Baş polis qulluqçusu Mehrəli bəy Fərzəlibəyov. Mansur bəy Şıxlinski. Kiçik polis qulluqçusu, sonra polismeysterin müavini olmuşdu. Onun 2 köməkçisi (Fyodr Varakin və Mixail Lasinski), onların 2 köməkçisi (Velyamin Naydel və Mir Həmdi bəy Talışxanov), xəzinədar (Anatoli Fedotyeviç); qeydiyyatçı (Mariya Karaseva) və arxivarius (Yusif Ağayev).

Bakı Polismeysterliyi 10 sahə pristavlığından, Liman və Ehtiyat polisindən ibarət idi. 1-ci sahə pristavlığı Bibi Heybətdə, 58 nömrəli evdə yerləşirdi. Pristav Abbas bəy Usubbəyov (o, sovet hakimiyyəti qurulduqdan sonra həbs olunmuş və Azərbaycan FK Kollegiyasının qərarı ilə 1921-ci ildə güllələnmişdir...), katib Stepan Popov. 2-ci Qala sahə pristavlığı Böyük Çəmbərəkənd küçəsi, ev 111/13-də yerləşirdi. Pristav İlyas bəy Hacı Əlibəyov, köməkçisi Qafar Həsənov, katib Vlasi Selivançik. 3-cü Aleksandr Nevski sahə pristavlığı. Spassk keçmiş Qasım İsmayılov (indiki Zərgərpalan küçəsi)- 53-də yerləşirdi. Pristav Rzaqulu bəy Məmmədzadə, köməkçisi Həbib İsgəndərbəyov, katib Leonti Vyaznov. 4-cü Şamaxı sahə pristavlığı. Spassk küçəsi-122-də yerləşirdi. Pristav Nurəddin Seyidov, köməkçisi Qərib-Sultan Alboqaçiyev, katib Adam Ravinski. 5-ci Mərkəzi sahə pristavlığı. Merkuryev (indiki Azərbaycan) prospekti, 1/21-də yerləşirdi. Pristav Mixail Vasilyeviç Vakulo (sovet hakimiyyəti qurulduqdan sonra Bakı qradonaçalniki Q. Qudiyevlə birlikdə həbs olunmuş, Azərbaycan SSR Ali İnqilabi Tribunalının 1920-ci il 29 avqust tarixli əmri ilə ona 10 il iş kəsilmişdi...), köməkçisi Mirzə Axundov, katib Yakov Yefimov. 6-cı Mixaylovski sahə pristavlığı. Qoqol (indiki Mərdanov qardaşları) küçəsi - 46-da yerləşirdi. Pristav Abutalıb Sadıxov, köməkçisi Məhəmməd Sultanov, katib İlya Bezsolov. 7-ci Romanovski sahə pristavlığı. Bolşaya Morskaya (indiki Bül-Bül) prospekti-36-da yerləşirdi. Pristav Qriqori Şpak, köməkçisi Camir Adcı Mustafa Əliməmmədov, katib Dmitri Zaldastanov. 8-ci Kapitanski sahə pristavlığı. N. Priyutskoy küçəsinin küncü Otaslavski küşəsi, 219/58-də yerləşirdi. Pristav Fataliyon Qulambəyov, köməkçisi Paçaxat bəy Abaşidze, katib Trofim Vasuyenko - Bobruyusok; 9-cu Zavağzal sahə pristavlığı. 1-ci Slaboda küçəsi-13-də yerləşirdi. Pristav Həsən bəy Firidunbəyov, köməkçisi Məmmədəli Baxşəliyev.10-cu Qaraşəhər sahə pristavlığı. Ağşəhər şosesində, Yaqub Sərkisovun evində yerləşirdi. Pristav əvəzi Sadıx Abbasov idi. Liman sahə pristavlığı. Minarət küçəsi 18 nömrəli evdə yerləşirdi. Pristav Hüseyn bəy Şıxlinski. Onun köməkçisi Talıb bəy Həsənbəyov (1897-1920.1920-ci ildə bolşeviklər tərəfindən həbs olunaraq, Nargin ("Böyük Zirə. "Ölüm cəzirəsi") adasında güllələnmişdir...) idi. Ehtiyat polisi Birja (indiki Ü. Hacıbəyov) küçəsi-21-də yerləşirdi. Müdir Nikolay Kolaydoviç...

Bakı Polismeysterliyinin 14 nərdən ibarət Xəfiyyə Şöbəsi vardı. Şöbənin rəisi Əbdül Məcid Rebirov, köməkçisi İlya İnalişvili, bayır xidməti hissəsinin rəisi Süleyman bəy Sübhanverdixanov, kargüzarı İvan Markelov idi. Şöbə əməkdaşlarının 9 nəfəri polis nəzarətçisi idi. Əməkdaşlar milli tərkibcə müxtəlif millətlərdən təşkil olunmuşdu. Bundan başqa, Bakı şəhər Upravası ilə müntəzəm birgə fəaliyyət göstərən ayrıca polis də vardı ki, şəhər Upravası təsərrüfat - abadlıq işlərində və s. də onun xidmətindən istifadə edirdi. Bu, hələ çar Rusiyası dövründən belə idi. Həm Xəfiyyə polisi və həm də Uprava polisi Bakı şəhər Qradonaçalnikliyinə də tabe idi.

BALAXANI-SABUNÇU POLİSMEYSTERLİYİ. Hələ çar Rusiyası dövründə, 1897-ci ildə yaradılmış, Azərbaycan Cümhuriyyəti dövründədə polisin bir xidmət strukturu kimi saxlanmışdı. Sabunçu kəndində, Martınov küçəsi ev 213-də yerləşirdi. Polismeyster Mustafa bəy Qabul oğlu Kabulov (əslində Qabulov) idi. Onun böyük köməkçisi Vladimir Qulyanoviç. Kiçik köməkçisi Sultan bəy Əhmədbəyov. Ehtiyat polisi (müdiri İbrahim bəy Davıdov).

Mərkəzi Ünvan Stolu (Şöbə). Şöbə rəisi Əbdül Cabbar Ələkbərzadə idi. Xəfiyyə polisi. 1918-ci ilin sonunda Bakı qəza rəisliyi ləğv olunanda onun bütün ərazisi də Balaxanı-Sabunçu Polismeysterliyinə verilmişdi.

Balaxanı-Sabunçu Polismeysterliyi 7 sahə polis pristavlığından ibarət idi. 1-ci sahə polis pristavlığı Sabunçu kəndində yerləşirdi. Pristav İlyas Tomayev, köməkçisi Dursun bəy Xıdırbəyov idi. 2-ci sahə pristavlığı Ramana kəndində yerləşirdi. Pristav knyaz İvan Avalov, köməkçisi Georgi Eliaşvili idi. 3-cü sahə pristavlığı Zabrat kəndində yerləşirdi. Pristav əvəzi Əkbər ağa Məmmədov idi. 4-cü sahə pristavlığı Balaxanı kəndində, İbrahimovun evində yerləşirdi. Pristav Ağa bəy Misirxanov (1885-1938), köməkçisi Qədir bəy Balaqədirbəyov idi. 5-ci sahə pristavlığı Suraxanı kəndində, Balayevin evində yerləşirdi. 6-cı sahə pristavlığı. Binəqədi kəndində, O. Babayevin evində yerləşirdi. 7-sahə pristavlığı. Corat kəndində yerləşirdi. Pristav Xosrov İmaməliyev, köməkçisi Mirzə Əfəndiyev idi.

Azərbaycan Cümhuriyyəti DİN-in Dəftərxanasına, daxili işlər nazirinin adına qubernatorlar və qəza rəisləri tərəfindən göndərilən hesabatlara əsasən respublikanın qəza-şəhər polisinin təşkilatı vəziyyəti və strukturu əsas etibarı ilə pristavlıqlardan ibarət olmaqla aşağıdakı kimi idi:

BAKI QUBERNIYASI. (Ərazisi 39.075.15 km.): – Tərkibinə 5 qəza: Göyçay, Cavad, Quba, Şamaxı və Lənkəran qəzaları daxil idi.

GÖYÇAY QƏZASI. Mərkəzi Göyçay şəhəri idi. Çar hökumətinin 9 dekabr 1867-ci il tarixli inzibati islahatına əsasən 1868-ci il yanvarın 1-də Bakı quberniyasının tərkibində yaradılmışdı. Mərkəzi Göyçay şəhəri idı. 1917-ci ilə aid mənbələrə görə Göyçaya Alxasova (Alxas adlı şəxsin adıdır) və Yalman demişlər. Qəza İdarəsinə qəza rəisi, onun müavini, məntəqə iclasçıları, xəzinədar və polis idarəsi daxil idi. Göyçay qəzası Azərbaycanın rayonlaşdırılması ilə əlaqədar 1929-cu ilin aprelində ləğv olunmuşdu. 1930-cu il avqustun 8-də rayon təşkil edilmişdir).

Göyçay Qəza İdarəsinin rəisi. Aylıq məvacib 2500 manat idi. Niftəli (əslində Lütvəli) bəy Zülqədərov (o, bu vəzifəyə Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri N.Yusifbəylinin 23 iyun 1919-cu il tarixli 85 nömrəli əmri üzrə təyin olumuş və 14 fevral 1920-ci ilədək xidmət etmişdi). Niftəli bəyin böyük köməkçisi Mahmud bəy Fərzəlibəyov (1871-1937), kiçik köməkçisi Hacı Abdullayev.



Beş sahə pristavlığı mövcud idi:

1. Göyçay şəhər pristavlığı. Pristav Axundov, köməkçisi Əlibaba Əliyev.

2. İvanovski pristavlığı (Göyçay şəhəri). Pristav Rüstəmbəyov, köməkçisi Əliş Rzayev.

3. Kürdəmir sahə pristavlığı. Mərkəzi Kürdəmir stansiyasında yerləşirdi. Pristav Hacı Yunus, köməkçisi Əhməd Bədirov ("Kürdəmir" keçmişdə indiki Kürdəmir şəhərinin ətrafındakı torpaqlardan qışlaq kimi istifadə edən Kürdəmir adlı şəxsin adını daşıyır... Kürdəmirə Sor-Sor və Xınıslı da demişlər (Xınıslı tayfa adıdır). 1930-cu il avqustun 8-də Kürdəmir rayonu təşkil edilmişdir...).

4. Bərgüşad sahə pristavlığı. Mərkəzi Ucar stansiyasında idi. Pristav Nəbibəyov, köməkçisi Ələkbərov (Ucar Şirvan düzündə yerləşirdi. Ucarın adı həmdə Qarabörk olub (Qarabörk qədim türk tayfasının adıdır). 1939-cu ildə Ucarda rayon təşkil olunmuşdu. 1963-cü il yanvarın 4-də Zərdab rayonu da ləğv edilərək Ucar rayonuna verilmişdi... Lakin 1965-ci ildə yenidən öz müstəqilliyini bərpa etmişdir...). ("Zərdab" fars sözüdür. "Zərdab" sözüylə əlaqədar müxtəlif ehtimallar mövcuddur. Bir qisim müəllifıər hesab edirlər ki, farsca "zərd"-"sarı", "ab"–"su", yəni xəstəlik yayan "sarısu" deməkdir. Bir başqaları hesab edirlər ki,"Zərdab" "axmaz", "gölməçə" mənasındadır. N. Zeydlis "Bakı quberniyası" kitabında "Zərdab" sözünü "soyuq su" kimi izah edir. Bir qrup müəlliflər isə hesab edirlər ki, "farsca "Zərdab" əncir bol olduğundan əncir yeyən, əti yeyilən məkan quşu, "əncirquşu"dur...Vaxtilə Zərdabın yeri Tyqay meşələri olmuşdur. Burada "zərd"-"əncirquşu" çox olmuş və bu da yaşayış yerinə öz təsirini göstərmişdi."Zərdab" "qızıl su" kimi də səciyyələndirilir... Zərdab qədim yaşayış yeridir. Mənbələrdə Zərdab kəndinin adı ilk dəfə 1578-ci ildən məlumdur. 1884-cü ildə Zərdab 500 evli kənd kimi qeydə alınmışdır).

5. Müsüslü pristavlığı. Mərkəzi Müsüslü stansiyasında idi. Pristav Mustafayev, köməkçisi İbrahimov idi.

CAVAD QƏZASI. Mərkəzi Salyan şəhəri idi. Çar hökumətinin "Qafqazda inzibati islahatların keçirilməsi haqqında" 9 dekabr

1867-ci il tarixli fərmanına əsasən 1868-ci ildə Bakı quberniyasının tərkibində yaradılmışdı. Ərazisi 83.96,97 kv.km., əhalisinin 162.305 nəfərini, o cümlədən 83.955 nəfərni (51,72 faiz) kişilər, 78.350 nəfərini (42,27 faiz) isə qadınlar təşkil edirdi.

***Haşiyə***: Salyan hələ 13-cü əsrdə böyük yaşayış məntəqəsi idi ("Salyan" sözü farsca "illik bağ, "illik gəlir" mənasındadır. Digər fərziyəyə görə "salın yan aldığı yer" deməkdir, tədricən "Salyan" şəkilinə düşmüşdür. Başqa bir fərziyəyə görə qədim türk tayfaları içərisində sal tayfasıda olmuşdur. Karvan və ticarət yollarının üstündə yerləşən Salyan yaşayış məntəqəsi keçmişdə məhz sal tayfasının adını daşımışdır. Belə ki, orta əsrlərdə yaranmış yaşayış məntəqələrinin əksəriyyəti qəbilə, tayfa, nəsil, tirə və şəxs adlarını daşımışdır... Tarixin müxtəlif dönəmlərində Salyana Xəzər, Aşağı Qaramanlı, Marıslı da (türk tayfasının adıdır) demişlər... Salyan rəsmi sənədlərdə 1916-cı ildən şəhər hesab olunmuşdur. İndiki Salyan rayonu 1930-cu il avqustun 8-də təşkil edilmişdir... Lakin Salyanın nə vaxt salındığı dəqiq məlim deyil. Məşhur coğrafiyaçı, tarixçi, etnoqraf və səyyah Hacı Zeynalabdin ibn Axund İsagəndər Şirvani (1780-1838 ) yazırdıki, Salyan Şirvanın cənub-şərqində bir limandır... Həmin əsrin axırlarında Salyanda zərbxana olmuş və burada gümüş və mis pullar kəsilmişdir... Salyan müqavimət göstərdiyi üçün 1795-ci ildə, Ağa Məhəmməd xan Qacarın birinci yürüşü zamanı talan edilmişdi. Qeyd etmək lazımdır ki, Cənubi Rusiyada və Qafqazda ilk olaraq məhz 1894-cü ildə Salyanda meteroloji stansiya yaradlmışdı...

Cavad Qəza İdarəsinin rəisi (aylıq məvacib 2500 manat) Məhəmməd bəy Süleymanbəyov idi (o, bu vəzifəyə Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri N.Yusifbəylinin 15 noyabr 1919-cu il tarixli əmri ilə 14 oktyabr 1919-cu ildən sayılmaqla təyin olunmuşdu).

*Cavad qəzası 5 sahə pristavlığına bölünürdü.*

1. *Salyan sahə pristavlığı*. Ptistav Haxcıyev, köməkçisi Xəlil Məmmədov.

2. *Cavad pristavlığı*. Mərkəzi Petropavlovka kəndi idi. Pristav Hüseynbəyov, köməkçisi A. Axundov (Cavad adına hələ 16-cı əsrin tarixi mənbələrində rast gəlinir. Kür və Arazın birləşdiyi yerdə, Suqovuşandaydı... Cavad 1768-ci ildə Quba xanlığının (1747-1806) tərkibində, Türkmənçay müqaviləsindən (10 fevral 1828) sonra isə Rusiyanın tərkibində olmuşdur...).

**Qeyd:** *Əzəmətli çariça II Yekaterina Böyük (1729-1796; 1762-1796-cı illərdə çarlıq etmişdir) fəth məqsədilə 18-ci əsrin sonlarında, 1796-cı ilin aprelində genera-anşef (general-leytenant), baş komandan, qraf Valerian Aleksandroviç Zubovun (1771-1804) başçılığı altında Azərbaycana 30 minlik qoşun göndərmişdi. Xalq arasında "Qızılayaq" ləqəbilə çağırılırdı. Zubov 1794-cü ildə Rusiyaya qarşı Polşada baş vermiş üsyanın yatırılması zamanı çöldə hərbi xəritə çəkərkən naqafil atılan top mərmisindən ayağından ağır yaralanmışdı. Onun ayağını kəsməli olmuşdular. Bir ayağı kəsildiyindən qızıl suyuna çəkilmiş protez düzəltmişdilər...). V. Zubov Şirvan düzündə, Cavad yaxınlığında, Kür çayının üstündə-onun sol sahilində şəhər-qala tikilməsi ideyasını irəli sürmüşdü. V. Zubov belə hesab edirdi ki, yeni salınacaq şəhər Volqa çayı ilə Xəzər dənizinə girən rus gəmiləri üçün əlverişli liman olar. Bu şəhər-qalanın imperatriça II Yekateinanın şərəfinə "Yekaterinaserd" adlandırılması nəzərdə trutulmuşdu. Lakin 1796-cı il noyabrın 6-da çariça II Yekaterina qəflətən öldüyü üçün qraf V. Zubov tələsik Azərbaycanı tərk edib Rusiyaya qayıtdığından həmin niyyət baş tutmamışdı. Bununla belə, sonralar bu ideya həyata keçmiş, general V. Zubovun dediyi yerdə Çıplaqlı kəndində şəhərin əsası qoyulmuşdu. Yeni şəhər-yaşayış məntəqəsi V. Zubovun şərəfinə "Zubovka" adlanmışdı... Çıplaklının bir tayfa adı, yaxud ərazinin bitki örtüyünün az olması ilə bağlılığı ehtimal edilir... Azərbaycanın Göyçay rayonunda Lək Çıplak, Türkiyənin Mardin və Qars vilayətlərində Çıplaklı kəndlərinə təsadüf olunur... Azərbaycan MİK-in qərarı ilə 1930-cu il avqustun 8-də Əlibayramlı rayonu təşkil olunmuşdu. 1938-ci ildə Zubovka adı götürülmüş və Əlibayramlı adlandırılmışdı. Zubovka ilə yanaşı əhali yeni yaşayış sahəsinə "Qırxçıraq"da deyirdi. Yaxınlıqdakı "Papanin" adlanan dəmiryol stansiyası da Zubovkaya daxil olub gələcək rayon mərkəzinə çevrilmişdi. Ona 1920-ci il martın 23-də Bakıda qətlə yetiilmiş bolşevik Əli Bayramovun şərəfinə Əlibayramlı adı verilmişdi. Əlibayramlı 1938-1954-cü illərdə şəhər tipli qəsəbə olmuşdu... İkinci Dünya Müharibəsindən sonra Əlibayramlı şəhəri Azərbaycanın iri sənaye şəhər-

*lərindən birinə çevrilmişdi... 1963-cü il yanvarın 4-də Əlibayramlıya respublika tabeli şəhər statusu verilmişdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 may 2008-ci il tarixli 2800 nömrəli sərəncamı ilə Əlibayramlı şəhəri Şirvan şəhəri adlandırılmışdır... Şirvan şəhərinin ərazisi hazırda 72,7 kv.m.-dir. Şirvan şəhəri Bakıdan 113 km. məsafədə yerləşir.*

Petropavlovka indiki Sabirabaddır. 1868-ci ildən burada ilk ikimərtəbəli bina və pravoslav kilsəsi tikilmişdi. Çarizmin köçürmə siyasəti ilə əlaqədar 1887-ci ildə Muğana ukraynalı kəndlilər köçürülmüşdü. 1888-ci ildən oraya Petropavlovka adı verilmişdi. 1898-ci ildə Yeni Araz (Para Nuri), habelə Novo Aleksandrovka (Bayramqulu) və Kaqeraman (yəqin Qəhrəman) kəndlərinin əsası qoyulmuşdu... Petropavlovka sonra bir müddət Qalaqayın adlanmışdır. 1930-cu il avqustun 8-də Petropavlovkada rayon təşkil olumuşdu. 1931-ci il oktyabrın 8-də Petropavlovka görkəmli Azərbaycan şairi Sabirin şərəfinə Sabirabad adlandırılmışdır. 1943-cü ildə qonşu Saatlı ("yəni "saya atlı", yaxud 11-ci əsrdə bura gəlmiş səlcuq türk tayfalarındn birinin adı olan sayatlı, saatlı, saadlı, sayadlı tayfasının adıdır) rayonu ləğv olunmuş və ərazisi Sabirabad rayonuna verilmişdi. 1965-ci ildə indiki Saatlı rayonu yenidən müstəqil rayon olmuşdur. Tarixin müxtəlif dönəmlərində Sabirabadı Qarasu, Kövrətli və Qaratuqay (meşə ilə örtülmüş ovlaq, çoxmeşəli ovlaq deməkdir), Poladtyqay (Polad meşəsi), Zəngər(n)ə (qədim türk tayfasının adıdır) kimi də adlandırmışlar.

3. *Xıllı pristavlığı.* Bojiy Promısel kəndində yerləşirdi... Pristav Haqverdiyev, köməkçisi N. Həsənov (Xıllı Neftçalada ən böyük kəndlərdən idi. "Neftçala" əvvəl "Trest" qəsəbəsi adlanıb. 1940-cı ildə Neftçala rayonu yaradılıb. 1952-ci il oktyabrın 7-dən Neftçala şəhəri adlanıb. 1959-cu ildə Neftçala rayonu ləğv edilib və Salyan rayonuna verilib. 1973-cü ildən yenidən müstəqil rayondur).

4. *Muğan pristavlığı.* Sebidaj sahəsində yerləşirdi (indiki Cəlilabad). Pristav Feyzulla bəy Muradxanov, köməkçisi Ağabəyov idi (Rayon ərazisində mövcud olmuş Həmşərə şəhəri e.ə.2-ci minilliyə aiddir... Ərəblərin işğalı zamanı Həmşərə şəhəri dağıdılmışdı... Əvəzində sonra Hasıllı şəhəri məşhurlaşmışdı. Odur ki, tarixin müxtəlif dönəmlərində Cəlilabada Hasıllı, həmçinin Alar da (Alar



türk-şahsevən tayfasının adıdır, Cəlilabad rayonunda indi də Alar kəndi vardır). 1845-ci ildə Rusiyanın Astarxan (Həştərxan) şəhərindən buraya çoxlu rus ailəsi köçürülmüşdü. Həmin vaxtdan ərazi Astanxanbazar adlanmışdı. Astarxanbazarda rayon 8 avqust 1930-cu ildə yaranmışdı. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin 2 iyul 1967-ci il tarixli fərmanı ilə Astarxanbazar adı ləğv olunmuş və ona böyük Azərbaycan yazıçısı Cəlil Məmədquluzadənin şərəfinə Cəlilabad adı verilmişdir).

5. *Biləsuvar sahə pristavlığı.* Pristav R. Rəcəbov, köməkçisi Allahverdiyev. Pristavlıq Qaradonlu kəndində yerləşirdi... (1930-cu ildə avqustun 8-də Qaradonlu rayonu təşkil olunub. Qaradonlu adı 1938-ci ilədək adlanıb. Qaradonlu indiki İmişli şəhərinin və rayonunun adıdır. İmişlinin ilkin adlarından biri Ağcüyür, yəni "ağımtıl rəngli söyüdə oxşar ağac bitən yer" adlanmışdır...).

Tarixçi, coğrafiyaçı, arxeoloji alimlər "Biləsuvar" adının türkcə "burada su var", ərəbcə "suv-ar", "sub-ar", yəni "böyük atlı", farsca "suvar", yəni "hərbi atlı" kimi söyləyirlər... Bu adı Muğanda yaşayan xəzər türk tayfalarından olan Bil və Suvarların adı ilə əlaqələndirənlərdə var... 8-ci əsrdə ərəb sərkərdəsi Səid Əl-Hərəşinin onlara qalib gəlməsi tarixi faktdır. Biləsuvar toponimi ilə əlaqədar bir sıra alimlər, tədqiqatçılar və el ağsaqqalları "Belə su var", yəni "yaxşı su var", "bol su var", "bolllu su var", "çoxlu su var" qənaətindədirlər. Bu adın qədimdən Azərbaycanın Muğan bölgəsində yaşayan türk tayfalarının oğuz soyuna aid alan suvar tayfasının adl ilə bağlı olduğunu bildirənlər də var...Görkəmli tarixçilər L. Qumilyov (Lev Nikolayeviç Qumilyov.şərqşünas tariçi alim. 1 oktyabr 1912-ci ildə Tver quberniyasında anadan olmuş, 5 aprel 1992-ci ildə 80 yaşında Moskvada vəfat etmişdir. O, 1967-ci ildə yazdığı "Qədim türklər" adlı əsəri ilə xüsusilə məşhurlaşmışdı. L. Qumilyov məşhur rus şairəsi Anna Axmatovanın (qızlıq soyadı Qorenkodur) (23 iyun 1889, Odessa, Ukrayna - 5 mart 1966, Domodedovo, Moskva) oğlu idi), Süleyman Əliyarlı, Oqtay Əfəndiyev B. Kumekov və b. qədimdən Muğan və digər bölgələrdə yaşayan suvar tayfasını "savirilər" kimi də adlandırmış, onların e.ə. 11-10-cu əsrlərdə Altaydan Kiçik Asiyaya və Qafqaza gəldiyini yazırlar. Suvarlar digər türk tayfaları kimi cəngavərlikləri ilə fərqlənmişlər.

Hələ V əsrdə "Avropanın imperatoru" titulunu qazanmış, böyük Hun (macar) İmperiyasının hökmdarı Atilayın (Atillanın) (doğulub 395-ci ildə-vəfat edib 453-cü il) ordusunda bu tayfanın döyüşçüləri, ən peşəkar, qorxmaz və xüsusi tapşırıqları yerinə yetirən tayfa kimi "suvari" adıyla tnınmış və qoşunun tərkibində elit dəstəsi kimi "quzlar"ın (oğuzlar"ın) başında ən ön cərgədə getmişlər. Sonralar, Türk Dünyasında və ümumiyyətlə, bütün Şərqdə peşəkar və ən yaxşı döyüşkən dəstələrə "suvar" tayfasının adıyla süvarilər deyirdilər. Xüsusi təyinatlı hərbi dəstələr əksər hallarda, məhz suvarilərdən ibarət olub."Biləsuvar" sözünün mənası Muğanda ("muğ"-"düz", "an"-"yer", yəni "düz yer", "düzənlik" deməkdir) "Muğan" sözü Altay mənşəli türk sözüdür) Pilsuvar ("Pil", "Fil"-əjdaha boyda, çöx böyük, pəhləvan, igid deməkdir), yəni "igid suvar". Beləliklə, "Biləsuvar" sözünün mənası Muğanda çöx su olması ilə deyil (əksinə, burada su həmişə az, suvarma isə problem olub) birbaşa suvar oğuz türk tayfasının adıyla bağlıdır (Bu haqda ətraflı bax: Yəhya Yusif Canıyar. "Turan Mübarizi" kitabı. Bakı, "Ozan" nəşriyyatı, 2011, səh.137)... Biləsuvar rayonu 1930-cu il avqustun 8-də yaranıb. 1938-ci ilədək Puşkin (böyük rus şairi Aleksandr Puşkinin (10 iyun 1799 - 10 fevral 1937) şərəfinə) adlandırılıb. 1938-ci ildə ləğv edilərək, ərazisi Cəlilabad rayonu ilə birləşdirilmişdi...1964-cü ildən yenidən müstəqil rayondur. Tarixin müxtəlif dönəmlərində Biləsuvara Ağayrı və Ağalı da demişlər...

QUBA QƏZASI. Mərkəzi Quba şəhəri idi. X əsrdə yaşamış ərəb alimlərinin coğrafi lüğətlərində Quba Azərbaycan şəhərləri arasında "Kubba" kimi qeyd olunb. Səfəvi qaynaqlarında isə şəhərin adı "Qübbə" kimi öz əksini tapmışdır. Qubanın əsası 1744-cü ildə qoyulmuşdur. Rəvayətə görə "Quba" sözü Nadir şah Əfşarın (1688-1747) buraya yürüşü zamanı qurduğu çadırın qübbəsinə işarə etməsindən yaranmışdır. Qubanın türkcə "köbə", yəni "sahil" mənası verdiyini deyənlər də var (sahil Qudyalçayın sahilinə aiddir). Tarixin müxtəlif dönəmlərində Qubaya Birinci Nügədi, Əlik, Susay, Ağbil, Zərdabi, Zizik (Zizik kəndinin adı ilə. Bu kəndin adı A. Bakıxanovun "Gülistani-İrəm" əsərində çəkilir), Afruca ("su aşağı, su sıçrayan, su tökülən, şəlalə) və Amsar ("böyük yaşayış məntəqəsi" də demişlər... Quba xanlığı Fətəli xan Hüseynəli



xan oğlu Şahsevən (Əfşar) (Quba xanlığının 6-cı xanı. 1735, Quba şəhəri - 1789, Quba, 54 yaş) çöx qüdrətli olmuşdur... Bu xanlıq 1806-cı ildə qılınc gücünə Rusiyaya birləşdirilmişdir... Axırıncı Quba xanı Şeyx Əli xan (1791-1806) idi... Quba qəzası 1840-cı ildə təşkil olunmuşdu. 1860-cı il martın 5-də Bakı quberniyasının tərkibinə verilmişdi... 1929-cu ilin aprelində ləğv olunmuşdu. 1930-cu il avqustun 8-də indiki Quba rayonu yaradılmışdır.

Quba Qəza İdarəsinin rəisi (Aylıq məvacibi 2500 manat) Səlim bəy Ağakişibəyov (O, bundan əvvəl Şamaxı qəzasının rəisi işləmiş, daxili işlər naziri əvəzi Ş. Rüstəmbəylinin 14 mart 1920-ci il tarixli 45 nömrəli əmri ilə tutduğu vəzifəsindən azad olunub, Quba qəzasına rəis göndərilmiş, yerinə isə Bakı polismeysterinin böyük köməkçisi Mehralı bəy Fərzəlibəyov tövsiyə edilmişdi), onun böyük köməkçisi (birinci müavini) Rüstəmağa Kərimbəyov, kiçik köməkçisi Hüseyn Əli Hüseynzadə idi. Quba şəhər pristavı . Boşdur).

Quba Qəza İdarəsi 5 pristavlığa bölünürdü. 1. Quba şəhər pristavlığı özü iki hissə pristavlıqdan ibarət idi: 1-ci hissənin pristavlığı. Pristav vəzifəsi boşdur. Köməkçi Musa Kazımbəyov. 2-ci hissənin pristavlığı. Pristav Şirəli bəy Həsənbəyov. Köməkçisi Ələkbər bəy Nəzirov idi.

Qəza sahə polis pristavlıqları: 1. Rustov sahə pristavlığı. Mərkəzi Rustov kəndi idi. Pristav Musa bəy Həsənbəyov (Musa bəy Şərif bəy oğlu Həsənbəyov 1890-cı ildə anadan olmuşdu. Azərbaycan Cümhuriyyəti dövründə polisdə xidmət etdiyi üçün sovet hakimiyyətnin cəza orqanları tərəfindən 30-cu illərdə repressiyaya məruz qalaraq həbs edilmiş, 1938-ci il martın 16-da Bakıda 48 yaşında güllələnmişdi...), onun köməkçisi Muxtar Xəlfəyev. 2. Qusar sahə pristavlığı. Mərkəzi Həzrə kəndi ("həzrə" ərəbcə "ev", "ocaq", "yaşayış yeri" deməkdir). Pristav Asəf Vahabov, köməkçisi Mürsəl bəy Qayıbov.

**Qeyd:** *"Qusar" sözü macarca "süvari" qoşun növü deməkdir. Qusar kəndinin (sonralar şəhər idi) əsası çarizmin köçürmə siyasətinin nəticəsində 1830-cu illərdə yaranmış və Bakı quberniyasının 1840-cı ildə təşkil edilən Quba qəzasının tərkibinə daxil olmuşdu. Qusar bir vaxtlar bu ərazidə məskunlaşmış Qusar Şirvan alayının tərxis olunmuş rus əsgərlərinin şərəfinə adlandırılmışdır.*

*Qusarın ilk sakinləri məhz həmin əsgərlər və onların ailələri idi... 1930-cu ildə Qusar rayonu yaradılmış və mərkəzi Hil kəndi olduğu üçün 1938-ci ilədək Hil rayonu adlanmışdır.*

3. *Müşkür sahə pristavlığı.* Mərkəzi Xaçmaz stansiyası idi. Pristav Məmmədəli bəy Heydərbəyov, köməkçisi Butay Əbdülrzayev (İndiki Xaçmaz rayonu (mərkəzi Xudat idi). Xaçmazın qədim adı Ağa Rəhimoba olub. Xaçmaza Gülalanda deyiblər... "Xaçmaz" sözü isə "hökmdar qalası" deməkdir... Xaçmaz rayonu 1930-cu il avqustun 8-də yaradılmışdı. 4 yanvar 1963-cü ildə ləğv edilərək, ərazisi Quba və Qusar rayonlarına verilmişdi...1965-ci ildə yenidən müstəqil rayon kimi fəaliyyətini bərpa etmişdir... ).

5. *Dəvəçi sahə pristavlığı.* Mərkəzi Dəvəçi kəndi. Pristav Müslüm Qasımov, köməkçisi Ağaəli Əliyev idi (İndiki Dəvəçi rayonu 1930-cu il avqustun 8-də yaradılmışdır...1944-cü ilədək "Dəvəçi bazarı" adlanmışdı... 4 yanvar 1963-cü ildə ləğv edilərək, ərazisi Abşeron rayonuna verilmişdi. Dəvəçi (hazırda Şabran) 1965-ci ildə yenidən öz müstəqil rayon ststusunu bərpa etmişdir...1956-cı il dekabrın 4-də Xızı rayonu da ləğv edilib ərazisi Abşeron rayonuna verilmişdi. Bunadək Azərbaycanın ayrıca inzibati ərazi vahidi idi. Xızı rayonu 1930-cu il avqustun 8-də təşkil olunmuşdu. Xızının əvvəlki adı Altıağac olmuşdur. Mənbələrdə Altıağac adına ilk dəfə 1823-cü ildə rast gəlinmişdir. Xızı rayonuna bəzən Yaşma da demişlər... Xızı rayonu 1990-cı il mayın 18-də yenidən yaradılmışdır... Dağ rayonu sayılan Xızı ilə Bakının arası 104 km.-dir).

***Haşiyə***: Yuxarıda barəsində bəhs olunan Abşeron rayonu Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 4 yanvar 1963-cü il tarixli fərmanı ilə yaradılmışdı. "Abşeron" sözünün fars dilində "ab" su, yəni "şoran, duzlu su" mənası verdiyi izah olunur. Lakin əksər tədqiqatçıların yekdil fikiri belədir ki, vaxtilə burada avşar (əfşar) adlı oğuz türk boylarından biri məskən saldığından Abşeron adıda ondan törənmişdir."Abşeron", yəni "Avşar yaşayan yer" deməkdir. Abşeron rayonunun mərkəzi Xırdalan kəndi 1936-cı ildən şəhər tipli qəsəbə olmuşdur. Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin imzaladığı 2 oktyabr 2006-cı il tarixli 149-3 Q saylı Qanuna əsasən Xırdalana şəhər statusu verilmişdir.



ŞAMAXI QƏZASI. Mərkəzi Şamaxı şəhəri. Şamaxı şəhərinin əsası 6-cı əsrdə Sasani şahı Ənuşirəvan tərəfindən qoyulmuşdur. Şamaxı 7-9-cu əsrlərdə ərəblər, 13-cü əsrdə monqollar, XV əsrdə Qaraqoyunlular, 16-cı əsrdə Səfəvilər, 17-ci əsrdə Nadir şah Əfşar tərəfindən dağıdılmışdır...1795-ci ildə Mustafa xan öz sarayını uca Fit dağına köçürmüş və orada özü üçün ev-qala tikmişdi. Fit dağının başqa bir adı "Qırxotaq"dır. Xalq arsında "Fit dağı əfsanəsi", "Qırxotaq əfsanəsi" indi də dolaşmaqdadır... Fit dağının əlçatmaz bir yerində Mustafa xan onun ətrafında qala tikdirmişdi. Qalanın 3 arşın enində divar hörgüsü vardı..."Fit qalası" Şirvanşahların son iqamətgahı idi. Qala Şamaxı şəhərindən 35 km. məsafədə Sulut və Basqal kəndlərinin yaxınlığında yerləşir və Lahıc dağları ilə əhatə olunmuşdur.

Rus şərqşünas alimi V.A. Nikonova görə, "Şamaxı" ərəbcə "hündürlük" deməkdir. Digər fərziyəyə görə "Şaməxi" sözündən olub, "şərq qardaşlığı" deməkdir. Tanınmış coğrafiyaçı alim, mərhum Rəmzi Yüzbaşova (5 may 1906-cı il, Şamaxı şəhəri, Yuxarılala məhəlləsi - 30 oktyabr 1990, Bakı, 84 yaş) görə, "Şamaxı" vaxtilə burada yaşamış Şamaxiyə və yaxud Kamaxiya adlı tayfa başçısının adıdır. Qədim albanlar "Şamaxı"nı "şahlar diyarı" adlandırmışlar... Şamaxıya Birinci Çağan, yəni "böyük, sulu çay, dənizə tökülən çay" da demişlər... Şamaxının salındığı dəqiq tarix məlum deyil. Ərəblərin əsarəti dövründə, 9-cu əsrin ikinci yarısında Şamaxı ərəb canişini əl-Yəzidin şərəfinə Yəzidiyyə adlanmışdır... 1805-ci il dekabrın 27-də Şamaxı xanlığı güclü Rusiyanın hakimiyyətini qəbul etmiş...1813-cü il 12 oktyabr Gülüstan sülhünə əsasən Rusiyanın tərkibinə qatılmışdı...

Şamaxının axırıncı xanı Xançobanı tayfasından çıxmış Mustafa xan (1792-1844) olmuşdu. O, 1844-cü ildə Beyləqanda vəfat etmişdi... Şamaxı xanlığının paytaxtı Şamaxı şəhəri, ara-bir Yeni Şamaxı (Ağsu) və sonuncusu isə indi İsmayıllı ərazisinə aid olan "Fit dağ qalası" olmuşdu (İsmayıllının ilkin adlarından biri Ağbulaq olmuşdur. Ağbulağın keçmişdə Ərəb Şahverdi adlı bir nəslin qışlaq yeri olması məlimdur. İsmayıllını "Balık Kənd, Balık Yurd" da adlandırmışlar ki, bu da "qala divarları ilə əhatə olunmuş şəhər "deməkdir. Böyük Qafqaz dağlarının cənub yamacında yerləşən İsma-

yıllıda 1931-ci il noyabrın 24-də rayon təşkil olunmuşdu.). Şamaxı qəzası 1840-cı il aprelin 10-da, Şamaxı quberniyası isə 1846-cı il dekabrın 14-də yaradılmış, Şamaxı şəhəri ayrı-ayrı zamanlarda Şirvan əyalətinin, Xəzər vilayətinin Şamaxı qəzasının və Şamaxı quberniyanın paytaxtı olmuşdur. 1859-cu il mayın 31-də zəlzələ baş verməsi nəticəsində Şamaxı dağılmışdı... Odur ki, quberniyanın mərkəzi həmin ildə Şamaxıdan Bakıya köçürülmüşdü. 1902-ci il yanvarın 2-də Şamaxıda yenidən dəhşətli zəlzələ baş vermişdi. 1930-cu il avqustun 8-də indiki Şamaxı rayonu yaradılmışdır...

**Qeyd:** *Nadir şah Əfşar 1734-cü ildə ona müqavimət göstərən Şamaxını dağıdaraq əhalisini onun yaxınlığına köçürmüş və ona "Yeni Şamaxı" adını vermişdi. Yeni Şamaxı indiki Ağsunun adıdır... Ağsu çayının adını daşıyır. Çayın gətirdiyi suxurları onun yatağına çökdüyündən bu adı almışdır. "Ağsu" həm də "yungül su" deməkdir... Ağsuya "Qəşəd", həmçinin "Padar", "Axtaçı" (hər ikisi türk tayfalarının adıdır) demişlər... Yeni Şamaxı Azərbaycanda orta əsr şəhəri idi. Onun xarabalıqları indiki Ağsu şəhərinin 4-5 kilometrliyində yerləşir. Arxeoloqlarımız orada qazıntılar aparmış və uğurlu nəticələr əldə etmişlər... Ağsu rayonu 1943-cü ildə təşkil edilmiş, 1963-cü ilin yanvarında ləğv edilmiş, Kürdəmir rayonuna verilmişdi... İndiki müstəqil Ağsu rayonu 1965-ci ildə yenidən bərpa olunmuşdur...*

Şamaxı Qəza İdarəsinin rəisi (aylıq məvacibi 2500 manat) Talıbxan Talıbxanov (1859-1920) (14 mart 1920-ci ildən bu vəzifədə Quba qəzasına rəis göndərilmiş Səlim bəy Ağakişibəyovu əvəz etmişdi), böyük köməkçisi İluzan bəy Rüstəmbəyov, kiçik köməkçisi Səməd bəy Hacıbəyov idi

Şamaxı Qəza İdarəsi pristavlıqlardan ibarət təşkil olunmuşdu: Şamaxı şəhərinin 1-ci hissəsinin pristavlığı. Pristav Qulam Axundov, köməkçisi Övsəl Fərzəliyev. Şəhərin 2-ci hissəsinin pristavlığı. Pristav Mahmud bəy Qasımbəyov. Şəhərin Qəbristan sahə pristavlığı. Pristav İsgəndər bəy Əsgərbəyov. Koşuyok sahə pristavlığı. Pristav Davud bəy Zülqədərov. Abdulyan sahə pristavlığı. Pristav Hacı Ağa bəy Hacıbəyov. Mədrəsə sahə pristavlığı. Pristav Sultanov, köməkçisi Həmzət bəy Həbibulla bəy oğlu Şirvanski (1884-cü ildə Qaxda anadan olmuşdu) idi.



**Qeyd**: *Azərbaycan Cümhuriyyəti dövründə, 1918-19-cu illərdə, əslən Məlik-Çobanlı kəndindən olan polkovnik Azad bəy Ağa Sadıq bəy oğlu Qocamanbəyov (1860-1920) da Şamaxı qəzasının rəisi vəzifəsində işləmişdi. Onun köməkçisi isə Tərlan bəy Əilyarbəyov (1892-1956) (sonralar general olmuşdu) idi.*

LƏNKƏRAN QƏZASI. Daxili İşlər Nazirliyinin Lənkəran qəzası yanında Xüsusi Səlahiyyətli müvəkkili (aylıq məvacibi 3.000 manat) – Bəhram xan Naxçıvanski idi (O, bu vəzifəyə 1919-cu ilin sonunda təyin edilmişdi). Qəza İdarəsinin rəisi Rüstəm bəy Kərimbəyov (o, bu vəzifəyə Azərbaycn Cümhuriyyətinin daxili işlər naziri N.Yusifbəylinin 23 oktyabr 1919-cu il tarixli 156 nömrəli əmri ilə təyi olunmuş və 1920-ci il aprelin 19-dək xidmət göstərmişdi). Qəza İdarəsinin Dəftərxana rəisi Cəfər Əfəndi Həbibullahi. Xüsusi tapşırıqlar üzrə məmur Mir Ağadı bəy Talışxanov. Mühasib Karapet Menyans, kargüzarlar Vladimir Yermalayev və Böyükxan Talışınski. Arxivarius-qeydiyyatçı Sultan bəy Muradov. Fars dilindən tərcüməçi İlyas Axundzadə. Dəftərxana qulluqçuları - Balabəy Çaxmaqsazov və Mariya Trubetskaya. Qeydiyyatçı reimnqtonistikaçı - Anna Bernşteyn idi.

Lənkəran sözünün qəbul edilmiş eimalogiyası belədir ki, "Lənkəran" fars dilində "Lənkərkonan", yəni "lövbər salınan yer" deməkdir. Başqa bir fərziyəyə görə "Lənkəran", "Lən" talış dilində "qamış", deməli, "qamışlı yer" deməkdir. Lənkərana "Türkəkəran Lənkəran", yəni "türk elləri" də demişlər... Lənkəran qəzası çar hökumətinin keçirdiyi inzibati islahatı zamanı 1840-cı il 10 aprel fərmanına əsasən 1841-ci il yanvarın 1-də yaradılmışdı... Yardımlıda Lənkəran qəzasının tərkibinə daxil idi... Yardımlı Viləş çayın sahilində, çökəklikdə yerləşir. 1930-cu ildə Yardımlıda rayon təşkil olunmuşdu. Yardımlı 1938-ciilədək Vərgədüz rayonu adlanmışdır. 1963-cü il yanvarın 4-dən şəhər tipli qəsəbə idi... Lənkəran 1859-cu ildən Bakı quberniyasının tərkibinə daxil edilmişdi. Lənkəran indiki Astara, Lənkəran, Lerik, Masallı,Yardımlı və Cəlilabad rayonunun ərazilərini əhatə edirdi. Sahəsi 5321,5 kv.km. idi (Xəzər dənizi sahilində yerləşən "Astara" farsca "aşağı yer", "aşağıda duran" deməkdir. Astaranın bir adı da "Alaşa" olub, yəni "hündür olmayan yer, alçaq yer" adlanıb... Astara rayonu 1930-cu il avqustun 8-də yara-

dılmış, 1963-cü il yanvarın 4-də ləğv edlərək, Lənkəran rayonuna verilmişdi. 1965-ci ildən yenidən müstəqil rayondur. Lerik rayonu 8 avqust 1930-cu ildə yaradılmışdı. Bu rayonun ərazisi ən qədim insanların ilkin yaşayış yeri olmuşdur. 1938-ci ilədək Zuvand-Druğ rayonu adlanıb. Lerikin ilkin adlarından biri "Ağqışlaq", yəni "Kiçik qışlaq" olub... 1965-ci ildən müstəqil rayondur. Masallıya "Qədirli" də demişlər. Bu, Masallıdakı eyni adlı kəndi salmış Şahsevənlər tayfasından olan nəslin adıyla belə adlanmışdır... Masallının mərkəzi uzun illər qədim yaşayış məskənlərindən biri Daştvənd-Ərkivan olmuşdur. "Ərkivan" "çöl kənarı", "dəniz kənarı" (ərk" fars dilində "qala", istinadgah", "van" isə yer" deməkdir ; qalanın yaxınlığında, istinadgah yerində salınmış yer" deməkdir. Beləliklə, "Ərkivan" "qala yeri" deməkdir. Tarixçi alimlər məşhur Səfəvilər sülaləsinin banisi Şeyx Səfiəddin Ərdəbilinin (1252-1334) Ərkivanda yaşadığını qeyd etmişlər... 1930-cu il avqustun 8-də Ərkivandakı məşhur "Qala bazarı" da Masallıya köçürülmüşdü. Bu, həmin vaxt Masallıda rayon təşkil olunması ilə əlaqədar idi...

Lənkəran Qəza İdarəsi rəisliyi Lənkəran, Səbican, Ərkivan iri inzibati idarəçilik-polis məntəqələrindən və Muğan polis pristavlığından ibarət idi. Qəza İdarəsinə idarə rəisi, onun müavini, xəzinədar, məntəqə iclasçıları və polis idarəsi daxil idi. Mülki və inzibati hakimiyyət qəza İdarə rəisinin əlində cəmləşmişdi. Lənkəran qəzası 1929-cu ilin aprelindək mövcud olmuş, sonuncu tarixdən Azərbaycanın rayonlaşdırılmasının başlanması ilə əlaqədar olaraq ləğv edilmişdi. 1930-cu il avqustun 8-də indiki Lənkəran rayonu təşkil olunmuşdur.

QƏNCƏ QUBERNİYASI. Mərkəzi Gəncə şəhəriydi. Ərazisi 44.371.29 min kv.km. idi. Tərkibinə 9 qəza: Gəncə, Nuxa (Şəki), Ərəş, Şamxor (Şəmkir), Qazax, Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzaları daxil idi.

GƏNCƏ GENERAL-QUBERNATORLUĞU. General-qubernator (aylıq məvacibi 3.000 min manat) Xudadat bəy Rəfibəyli (1877-1920). (O, bu vəzifəyə 6 may 1919-cu ildə təyin edilmişdi). Onun köməkçisi (müavini) polkovnik Hüseynqulu xan Xoyski (1869-1955). Quberniya İdarəsinin məsləhətçiləri - İsrafil bəy Mikayılbəyov (1875/78-1920) və Aleksandr Boqatko. Zemski



(şəhər bələdiyyə) nümayəndəsi Georgi Çernyavski-mühəndis. İki nəfər kargüzar, mühasib, arxivarius, qeydiyyatçı, ekzekutor (vergini ödəyə bilməyənlərdən əşyaları qanuni miqdarda müsadirə edən, əməliyyat-axtarış işlərində xüsusi səlahiyyəti olan mülki mütəxəssis) və tərcüməçi. Qubernator Dəftərxanasının rəisi Konstantin Qrabovski (o, həm də qubernatorun böyük köməkçisi (birinci müavini) sayılırdı). Qubernator yanında xüsusi tapşırıqlar üzrə baş məmur Abbas bəy Cavanşir. Xüsusi işlər üzrə köməkçi Abbasquli bəy Babayev idi.

**Qeyd:** *Azərbaycan Cümhuriyyəti dövründə Gəncə quberniyasının Sərhədi Mühafizə Dəstəsinin (DİN-ə tabe idi) rəisi vəzifəsində Rzaqulu bəy Cabbar bəy oğlu Kərimbəyli (1881-1921) xidmət göstərmişdi. R. Kərimbəyli 1921-ci ildə məhz keçmişinə görə Azərbaycan FK agentlərinin əli ilə qətlə yetirilmişdi...*

GƏNCƏ ŞƏHƏR POLİSMEYSTERLİYİ. Polismeyster (aylıq məvacib 650 rubl) İsmayıl bəy Hacıəlibəyov (1810-cu ildə doğulmuşdu). Onun böyük köməkçisi (aylıq məvacibi 550 rubl) və kiçik köməkçisi (aylıq məvacibi 500 rubl). Katib və onun köməkçisi. Mühasib. Qeydiyyatçı-arxivarius və tərcüməçi. Gəncə şəhərinin pristavlıqları: 1-ci sahənin pristavlığı. Pristav Əkbərağa bəy İsgəndərbəyov (aylıq məvacibi 500 rubl), köməkçisi İsgəndər bəy Vəkilov. 2-ci sahə pristavlığı. Pristav Nəsib bəy Kidayarbəyov, köməkçisi Məcid Abbasov. 3-cü sahə pristavlığı. Pristav Xankişi bəy Sultanov, köməkçisi Kazım bəy Ağasıbəyov. 4-cü sahə pristavlığı. Pristav Əsəd bəy Tomtiyev, köməkçisi Süleyman Əliyev. 5-ci sahə pristavlığı. Pristav Hüseyn bəy Qəniyev, köməkçisi Novruz Poladov. 6-cı sahə pristavlığı. Pristav Xələf Quliyev, köməkçisi Abdulla Vidalov. 7-ci sahə pristavlığı. Pristav Cəfərqulu, köməkçi – boşdur. Gəncə şəhər Poilsmeysterliyi yanında Xəfiyyə Şöbəsi. Rəisi Mir Cavad Seyidov idi. Üç polis nəzarətçisi - Əli Vəliyev, Muradağa Muradov və Mədət Quliyev (Gəncəli Mədət. Az.FK-nın qərarı ilə 1931-ci il fevralın 17-də güllələnib. O, həmin il güllələnən 35 nəfər içərisində sayca 2-ci idi). (**HAŞİYƏ**: *Azərbaycan Respublikası DİN-in Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin, Baş Narkotiklərlə Mübarizə İdarəsinin , Baş Mühafizə İdarəsinin rəisi, Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini,*

*Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin - Penitensiar Xidmətinin rəisi işləmiş, Azərbaycanın Milli Qəhrəmanı, hazırda Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin rəisi, general-leytenant Mədət Quliyevin babasıdır* ).

GƏNCƏ QƏZASI. Hələ çar hökumətinin "Qafqazda inzibati islahatlar haqqında" 9 dekabr 1867-ci il fərmanına əsasən Yelizavetpol quberniyası yaradılmışdı. Ərazisi 38922,43 kv. verst, əhalisi 1275,131 nəfər idi. Yelizavetpol quberniyasının tərkibndə 8 qəza yaradılmışdı. Gəncə qəzası da Yelizavetpol adı ilə 8 qəzanın içərisində 1 yanvar 1868-ci ildə yaradılmışdı. Qəza İdarəsinin rəisi (aylıq məvacib 650 rubl) vəzifəsi - boşdur. Onun böyük köməkçisi İosif Ledak (550 rubl), kargüzarlar İvan Pyatnitski və Miron Yemolyanov, qeydiyyatçı və arxivarius Vasili Nabatçenko. Gəncə qəzasının polis sahə pristavlıqları: 1-ci sahə polis pristavlığı. Pristav Molla Qasım Bədirxanov. 2-ci sahə polis pristavlığı. Pristav Kəbir bəy Səfikürdski. 3-cü sahə polis pristavlığı. Pristav Hadı bəy Kərimbəyov. 4-cü sahə polis pristavlığı. Pristav (aylıq məvacib 500 rubl) Məmməd Muradov.

NUXA (ŞƏKİ) QƏZASI. Mərkəzi Nuxa (Şəki) şəhəri. Çar Rusiyasının "Qafqazda inzibati islahatlar haqqında" 10 aprel 1840-cı il tarixli qanununa əsasən 1 yanvar 1841-ci ildə yaradılıb. Qəza İdarə rəisi (aylıq məvacib 3.000 manat) Eyyub bəy Rəfibəyov (Rəfibəyli) (1890-1979). Onun böyük köməkçisi (aylıq məvacib 550 rubl) Zahid bəy İbrahimbəyov, katib Aleksandr Tarkovski, kargüzarlar - Cəfərəli Zeynalov və Rüstəm bəy Əlicanbəyov, qeydiyyatçı və arxivarius – Əhmədağa Şəkixanov. Nuxa şəhərinin polis pristavlığı: 1-ci sahənin polis pristavlığı. Pristav (aylıq məvacib 500 rubl) Əhmədağa Xocambəyov. 2-ci sahənin polis pristavlığı. Pristav Mürsəl bəy Sədrəddinbəyov, onun köməkçiləri-Paşa Əfəndiyev, Abuzər bəy Məlikov və Səməd Məmmədov.

Nuxa Şəkinin 1968-ci ilə qədər olan adıdır (gürcülər "Nux-pato" demişlər). 1968-ci ildən Şəki adlanır. Şəki Azərbaycanın qədim şəhəridir. Şəki "qədim türk tayfası "Şoki" nin adındandır. Şəkiyə Göybulaq (yəni yaşıllıq), Kiş, Gələsən-Görəsən, Baş Küngüt də demişlər. Tarixdə Şimali Azərbaycan ərazisində Şakaşena adlı vilayət olub. Şəhərin müəyyən hissəsi əvvəllər Kiş çayı sahilində yaşamışdır. 1551-ci ildə Şəki Səfəvilər dövlətinin (1501-1736) tərkibinə birləşdirilmişdi. XVIII əsrdə, 1743-cü ildə Nadir şah Əfşarla mübarizənin gedişində yerli iri feodal Hacı Çələbi Qurbanoğlu ( Şəki xanlığının əsasını qoyub və 1747-1755-ci illərdə hakimiyyətdə olub. Bu xanlıq Azərbaycan xanlıqarı içərisində güclülərdən idi. 1805-ci il mayın 21-də bağlanan Kürəkçay müqaviləsinə görə Şəki xanlığı Rusiyanın tərkibinə keçmişdi. Axırıncı Şəki xanı Səlim xan idi (1795-1806) (Şəkili Məhəmmədhəsən xanın oğlu Səlim xanın anası gürcü İvan Baqrationun qızıydı. Səlim xan 1826-cı ildə Türkiyədə vəfat etmişdir...). 1841-ci ildə Nuxa qəzası yaradılıb. 1930-cu il avqustun 8-də Şəki rayonu təşkil olunub. 1963-cü il yanvarın 4-də ləğv olunaraq, Oğuz rayonuna verilib. Oğuz 18-ci əsrdə Şəki xanlığının, sonra isə Nuxa qəzasının tərkibində idi. Oğuz rayonu 8 avqust 1930-cu ildə təşkil edilmişdi, 1964-cü il yanvarın 17-dən 1991-ci ilin fevralınadək Vartaşen adlanmışdır. Azərbaycan MM-in 7 fevral 1991-ci il tarixli qərarı ilə Vartaşen adı ləğv edilərək, Oğuzun tarixi adı özünə qaytarılmışdır. Şəki isə 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur.

ƏRƏŞ QƏZASI. Mərkəzi Ağdaş şəhəri. Çar hökumətinin "Qafqazda inzibati islahatlar haqqında" 9 dekabr 1867-ci il tarixli fərmanına əsasən 1 yanvar 1868-ci ildə Yelizavetpol quberniyasının tərkibində yaradılmışdı.

Ərəş Qəza İdarə rəisi (aylıq məvacib 3.000 manat) Rəhim bəy Şıxlinski. Onun böyük köməkçisi İsgəndər Şıxzamanov, katib Qriqori Novaxatski. Kargüzar, qeydiyyatçı və o həm də arxivariusdu-Əmircan bəy Əmircanov. Ərəş qəzasının polis pristavlıqları: Ağdaş şəhərinin polis pristavlığı. Pristav Əşrəf Kələntərlinski. Qəzanın 1-ci sahə polis pristavlığı. Pristav vəzifəsi boşdur. 2-ci sahə polis pristavlığı. Pristav Kiyar bəy Şıxlinski. 3-cü sahə polis pristavlığı. Pristav İsrafil bəy Bədirbəyov.

Ərəş orta əsr şəhərlərindən olmuşdur. Xarabalıqları indiki Yevlax rayonunun Xaldan kəndi yaxınlığındadır. Salındığı tarix məlum deyil. Orta əsrlərdəki inkişafı dövründə mühüm ticarət mərkəzi idi. Öz ipəyi ilə Yaxın Şərqdə məşhur olmuşdur. Səfəvilər dövründə kiçik feodal hakimliyi - Ərəş Şultanlığı (16 əsrin 2-ci yarısı - 1795) yaradılmışdı. 1795-ci ildə Ərəş Sultanlığı ləğv edilərək, mahal kimi

Şəki xanlığının tərkibinə qatılmışdı. Ərəşin sonuncu sultanı ərəşli Məlik Əlinin qardaşı oğlu Şəhabəddin Sultan olmuşdur. Müharibələr və tranzit ticarətin zəifləməsi nəticəsində tənəzzülə uğrayan Ərəş 17-ci əsrdə kiçik bir yaşayış məntəqəsinə çevrilmişdi. Çar hökumətinin Qafqazda apardığı inzibati islahatlar və dəyişikliklər dövründə 1883-cü ildə Nuxa qəzasının cənub hissəsi hesabına Yelizavetpol (Gəncə) quberniyasının tərkibində yeni inzibati ərazi vahidi kimi Ərəş qəzası yaradılmışdı. Ərazisi 2308,10 kv.verst idi. Ərəş qəzası şimaldan Nuxa, həmçinin Göyçay, cənub-qərbdən Cavanşir (mərkəzi Tərtər idi), şimali qərbdən Yelizavetpola daxil olan qəzalar, habelı Zaqatala dairəsi ilə həmsərhəd idi. 1918-20-ci illərdə Ərəş qəzasının mərkəzi Ağdaş idi (Ağdaşın adı ilk dəfə 1578-ci ilə aid mənbələrdə çəkilib. Ağdaş Ağzıbir də adlanıb, yəni "çıxılmaz yer, darısqal, möhkəm yer, batıq yer, sulu göl" və s. deməkdir. Ona tarixin müxtəlif dönəmlərində Türyançay (yəni sürətli, iti axan çay), Keçtazlı, Yuxarı Ağcayazı da demişlər... Ağdaş 16-cı əsrdən mövcuddur və qədim Dəhnə kəndindən şimalda yerləşir. 1900-cü ildə şəhər statusu almışdı).

Ərəş Qəza İdarəsinə qəza rəisi, onun müavini, xəzinədar, məntəqə iclasçıları və polis idarəsi daxil idi. Əslində, hakimiyyət bütünlüklə qəza rəisinin əlində cəmləşmişdi. Qəzada məhkəmə də yaradılmışdı. Azərbaycan Cümhuriyyəti Hökuməti 1918-ci il avqustun 26-da Ərəş qəzasının Ağdaş yaşayış məntəqəsinə şəhər statusu vermiş, daxili işlər naziri Behbud xan Cavanşirə tapşırmışdı ki, şəhərin ərazisi və burada tətbiq ediləcək özünüidarənin yaradılmasının gedişi barədə xüsusi məruzə hazırlayıb hökumətə təqdim etsin. 1919-cu il dekabrın 10-da Azərbaycan Hökumətinin yeni qərarı ilə Ərəş qəzasaı Ağdaş qəzası adlandırılmışdı. Ərəş qəzası 1929-cu ilədək mövcud olmuşdu. 1930-cu il avqustun 8-dən Qutqaşen (indiki Qəbələ) rayonu yaradılanda Ərəş bu rayonun tərkibinə qatılmışdı.

**Qeyd**: *Qədim Qəbələ indiki rayon mərkəzindən 20 km. cənub-qərbdə yerləşib. 6-cı əsrdə paytaxtın Partava (Bərdə) köçürülməsinədək Qafqaz Albaniyasının paytaxtı olmuşdu. Qəbələ 18-ci əsrdə Qəbələ Sultanlığının mərkəzi idi. Sovet dönəmində,1930-cu il sentyabrın 8-də Qəbələnin adı dəyişdirilib və Qutqaşen adı ilə rayon təşkil olunub. 1963-cü il yanvarın 4-də Ağdaş rayonunun tərkibinə daxil edilib. 1964-cü il yanvarın 17-də yenidən müstəqil rayon olmuşdur. 1991-ci il fevralın 7-də Qəbələnin tarixi adı özünə qaytarılmışdır.*



ŞAMXOR (ŞƏMKİR) QƏZASI. Mərkəzi Şəmkir şəhəri. Qəza İdarə rəisi (aylıq məvacib 3.000 manat) İsgəndər bəy Qəmbərəliyev (tarixi ədəbiyyatda Əliyev yazılır. Qəmbərəliyev düzdür).(O, bu vəzifəyə Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri M. Vəkilovun 18 fevral 1920-ci il tarixli 34 nömrəli əmri ilə 12 noyabr 1919-cu ildən sayılmaqla təyin edilmişdi). Onun böyük köməkçisi Abbas Əliyev. 1-ci sahə polis pristavlığı. Pristav İsgəndər Qasımov. 2-ci sahə polis pristavlığı. Pristav Məmmədtağı Tağıyev. 3-cü sahə polis pristavlığı. Pristav Həmid bəy Səfikürdski. 4-cü sahə polis pristavlığı. Pristav Əsgərağa Şıxlinski idi.

Şəmkir Azərbaycanın orta əsr şəhərlərindən biridir. Orta əsr ərəb və fars mənbələrində bu söz "Şəmkür", türk mənbələrində isə "Şəmkir" kimi işlənib. Mənası "Günəşə tapınan" ("Şəms"-"Günəş", "Kür" isə "tapınan", yəni "Günəşə tapınan"lar" yurdu" deməkdir). "Şəmkir" sözünü "Kür qırağı" kimi yozanlarda var. Orta əsr Şəmkir şəhərinin xarabalıqları Şəmkirçayın sol sahilindədir. Şəmkir "Şəmükür", yəni "Kür qalası", "Kür mayağı" deməkdir. "Şəmkir" sözü tayfa və ya tayfa başçısının adı ilə də bağlanır. Şəmkirin ilkin, geniş yayılmış adlarından biri Abbaslıdır. Bu, Abbas adlı şəxsin, yaxud mənşəcə qədim türk xəzər-peçeneqlərdən sayılan abas-avaz adlı tayfanın adıyla bağlıdır. Şəmkirə "Dağ Cəyir", yəni "dağlıq sahədə yerləşən cəyir (kənd) də demişlər. Azərbaycanda xanlıqlar dövründə (1747-1828) Şəmkir Gəncə xanlığının tərkibində olub. 1803-cü ildə çar qoşunları tərəfindən tutulan Şəmkir Rusiyanın tərkibinə qatılıb.

XIX əsrin birinci yarısında çar hökumətinin icazəsi ilə alman kolonistlərindən bir qrupu da Şəmkirdə məskunlaşmışdı. Həmin dövrdən (1819-cu il) Şamxor "Anino" (almanca) adlanmışdı. 1819-cu ilin aprelində Şəmkirin yaxınlğındakı Çıraqlı yaşayış məntəqəsinə (sonralar bir müddət Leninkənd adlanmışdır) Tiflisdən Yelizavetpola (Gəncə) köçmüş 194 alman ailəsi "Annenfeld" və "Helenendorf" (22 aprel 1819-cu il) adlı iki koloniya salmışdılar.

1888-ci ildə almanlar hazırkı Şəmkir rayonu ərazisində "Georqsfeld" (indiki Çinarlı qəsəbəsi), 1902-ci ildə "Alekseyevka", 1906-cı ildə "Avxenfeld" (indiki İrmaslı kəndi), 1906-cı ildə indiki Ağstafa rayonu ərazisində "Qrunfeld" (indiki Həsənli kəndi), 1912-ci ildə Tovuzda "Trauhenfeld" (indiki Tovuz şəhəri) və 1914-cü ildə yenə orada "Yelizavetinna" adlı yaşayış məskənləri salmışdılar. 1918-ci ilin məlumatına görə müxtəlif illərdə Azərbaycanda məskunlaşmış alman kolonistlərinin sayı 6 minə qədər idi. Sovet dönəmində, İkinci Dünya Müharibəsinin gedişində,1941-ci ildən SSRİ hökuməti almanlara etibar etmədiyindən Azərbaycanda olan almanlarıda Qazaxıstana və Sibirə sürgünə göndərməyə başlamışdı. Təkcə həmin ildə 23 min koloniyalı alman Azərbaycandan SSRİ-nin Asiya hissəsinə sürgün edilmişdi.

Azərbaycan Cümhuriyyəti dövründə hökumətin 22 aprel 1920-ci il tarixli qərarı ilə Gəncə qəzasının qərb hissəsində və keçmiş İrəvan quberniyasının "Yeni Bayazid" qəzasına (vaxtilə buraya Türkiyənin Yeni Bayazid bölgəsindən ermənilər köçürülmüşdülər...) bitişik hissələrində Şamxor qəzası yaradılmışdı. Azərbaycanda sovet dövründə qəzalar rəsmən 1929-cu il aprein 8-dək əsas inzibati ərazi vahidi kimi saxlanmışdı. Lakin 1930-cu ildən onlar ləğv edilmiş və rayonlaşma başlanmışdı. 1930-cu il avqustun 8-də indiki Şəmkir rayonu təşkil olunmuşdu (Annino, Annünfeld adı hələ qalırdı). Alman kolonist ailələrinin tədricən sürgün yerini tək etmələrindən sonra, bizimkilərin "Yelenendorf" kimi tələffüz etdikləri Helenendorfa 1938-ci ildə məşhur inqilabçı Xanlar Səfərəliyevin şərəfinə Xanlar rayonu adı verilmişdi. 1938-ci ilədək isə Anino adı ilə bərabər Annelfelddə demişlər. 1938-ci ildə Annenfeld Şamxora birləşdirilmiş və Şamxorun əvvəlik adı bərpa olunmuşdu. Şamxor adı 1991-ci ilədək yaşamışdı. Azərbaycan Respublikası MM-in 7 fevral 1991-ci il tarixli qərarı ilə Şamxor adı ləğv edilmiş və Şəmkirin qədim tarixi adı özünə qaytarılmışdır. Şəmkir rayonu Azərbaycanın şimal-qərbində yerləşir. O, Bakı ilə 399 km. məsafədədir.

QAZAX QƏZASI. Mərkəzi Qazax şəhəri. Qazaxın əsası 8-ci əsrdə Azərbaycanda məskunlaşmış ərəb hakimi Mərvan ibn Məhəmməd (732-744) tərəfindən qoyulmuş və o zaman Kasal adlanmışdır. Qazax xalq adıdır. "Qazax" ("qazaq") sözünü ilk dəfə X əsrdə ərəb tarixçisi Əbu Məhəmməd Əhməd ibn əl-Kufi (926-cı ildə vəfat edib) 7-8 əsr hadisələri ilə əlaqədar "Kasak" kimi işlətmişdir. Bu, qıpçaq mənşəli qazax etnik birliyini əks etdirir. "Qazax" qədim türk sözü "qaz" ("qas") "ucalıq", "yüksəklik", "ax" ("ağ") "yer", "sahə" deməkdir. Bəzi tədqiqatçılar qazax sözünü "atlılar yeri", "atlılar diyarı", "azad köçərilər", "qaçaq", yəni öz tayfasından aytılmış, aralı durmuş adamlar və s. kimi izah edirlər. Mənbələrdə 26 qazaxlı tirəsinin olduğu göstərilir... Qazax tayfası ilk orta əsrlərdə Şimali Qafqazda, Kuban çöllərində, Dəşti-Qıpçaq deyilən ərazidə yaşamışdır. Qazaxlar Azərbaycana 11-ci əsrdə köçmüşlər. Qazax rayonu ərazisində Gürcüstana etdikləri hərbi xidmətlərə görə gürcü çarı II Georginin dövründə (1072-1089) məskunlaşmışdılar. Buna qədər həmin ərazinin adı Kisal (Kasal) olmuşdur. Qazağa Qarapapaqlı və Qazanlı da demişlər.

Qazax qəzası 1868-ci il yanvarın1-də təşkil olunmuşdur. Qazax şəhərinin əsası isə 1909-cu ildə qoyulmuşdur. 1930-cu il avqustun 8-də Qazax rayonu yaradılıb.1959-ci ildə Ağstafa rayonunun ərazisi də Qazax rayonuna verimişdi (Ağstafa rayonu 1939-cu il yanvarın 24-də təşkil olunmuşdu. 1959-cu il dekabrın 4-də ərazisi Qazax rayonuna qatılmışdı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə 1990-cı il mayın 18-də Ağstafa rayonu yenidən müstəqil rayon olmuşdur). 1963-cü ildə Tovuz rayonu da Qazax rayonunun tərkibinə qatılmışdı ("Tovuz", "Tavuz", "Touz", "Tauz" tayfa və ya tayfa başçısıdır. Belə ehtimal edilir. Tovuzun ilkin adı Ağçala olmuşdur. Tovuza Qovlar Sabad (Qovlar türk-peçeneq tayfasının adıdır) və Alakol da (Alakol, yəni ara-sıra bitki olan yer, adda-budda kolu olan sahə də demişlər. Tovuzda rayon 1930-cu ildə təşkil olunmuşdu. 1964-cü ildə Tovuz rayonu Qazax rayonundan ayrılaraq, yenidən müstəqil rayondur.

Daxili İşlər Nazirliyinin Qazax Qəza İdarəsində Xüsusi Səlahiyyətli müvəkkili (qubernator hüquqlu) (aylıq məvacibi 3.000 manat) Əmir xan Xoyski idi (1881-1954) (o, bu vəzifəyə Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri N.Yusifbəylinin 13 oktyabr 1919-cu il tarixli əmri ilə təyin edilmişdi). Qəza rəisi əvəzi Abdullayev, onun böyük köməkçisi Yusif bəy Şərifov, kiçik köməkçisi Məcid bəy Şıxlinskiydi. Qazax şəhərinin polis pristavlığı. Pristav

Həsən Kazımov (bu vəzifədə əvvəl 1855-ci ildə Şuşa qəzasının Vərəndə sahəsinin Yağlavənd obasında anadan olmuş Həsənali bəy Əsgərxanov işləmişdi. Həsənalı bəy Əsgərxanov yaxşı xidmətlərinə görə hələ çar dövründə "Georgi" xaçına layiq görülmüşdü. Həsənalı bəy həm də şair idi. O, "Kovxa" təxəllüsü ilə şerlər yazmışdır...).

Qəza sahə polis pristavlıqları:1-ci sahə polis pristavlığı. Pristav vəzifəsi boşdur. 2-ci sahə polis pristavlığı. Pristav Məmməd Rzayev. 3-cü sahə polis pristavlığı. Pristav İsrafil İbrahimov (1897-1938). 4-cü sahə polis pristavlığı. Pristav Abdulla Mustafayev. Qazax qəzasının Sərhədi Mühafizə Dəstəsi. Komandiri Hacı Rəhim Sibhanverdixanov. Mühafizə üzrə rəis Musa Tumayev.

Azərbaycan Cümhuriyyəti dövründə, 1918-ci ilin iyununda türklərin gəlişindən sonra Məhəmməd Kovxa (Mahmudov) (1859-1933) Qazaxın general-qubernatoru olmuşdu. Ondan əvvəl bu vəzifəni ay yarım Hacı Kərim Sanılı (1878-1937) tutmuşdu... H. Sanılı sol menşevik idi və bu vəzifəyə gürcü menşevik hökumətinin köməkliyi ilə gəlmişdi. Onun Məhəmməd Kovxa (tarixi ədəbiyyatda Koxa yazılır, əslində Kovxadır...) ilə düşmənçiliyi vardı. Lakin nüfuzlu mülkədar nəslindən olan kəndxuda (kovxa) Məhəmməd Kovxanı yerli əhali müdafiə edirdi və onların tələbiylə H. Sanılı vəzifədən kənarlaşdırılmış və Azərbaycan Cümhuriyyəti hökuməti tərəfindən M. Kovxa general-qubernator vəzifəsinə təyin edilmişdi.

ZAQATALA QUBERNİYASI. Mərkəzi Zaqatala şəhəri. Mövcud ehtimala görə Zaqatala 12-ci əsrdə yaşamış Zəkəriyyə adlı bir şəxsin adını daşıyır. "Zəkəriyyə" "Zaqatala qalası" mənasındadır. Başqa fikrə görə, ləzgilərə məxsus zağa, "saxa" etnik qrupunun adının dəyişilmiş formasıdır. Zaqatala Bazar da adlanıb. Bu, qədim türk tayfasının adıdır. Zaqatala Azərbaycanda hərbi-inzibati ərazi vahidi kimi 1860-cı ilin mayında təşkil olunmuşdu. Azərbaycan Cümhuriyyəti dövründə Zaqatala qubeniyası 1918-ci il iyunun 28-də yaradılmışdı. Həmin vaxt general-mayor Əliyar bəy Haşımbəyov (1856-1920) Zaqatalanın qubernatoru təyin edlmişdi. Sovet hakimiyyəti qurulduqda, quberniyalar dərhal ləğv olunsada, qəzalar inzibati ərazi idarəetmə vahidi kimi 1929-cu ilin aprelinədək saxlanmışdı. Zaqatala qəza kimi 1920-ci il aprelin 28-dən 1929-cu ilin aprelin 8-dək mövcud olmuşdur. 1930-cu ildə hazırkı Zaqatala şəhərində qala tikilmişdi. "Yenilməz batalyon" bədii filmi həmin qalada çəkilmişdir. İndiki Zaqatala rayonu 1930-cu ildə təşkil edilmişdir.

XX əsrin əvvəllərində Samux şəhərinin mövcud olmasını Samux meşələrində onun indi də qalmaqda olan xarabalıqları sübut edir. Samux şəhərinin ərazisi Kür çayının hər iki sahilində Qazannı dağlarının ətəklərini Qanlı Qobu ilə Qabırrı çayı vadisi arasında olan ərazini əhatə edibdir. Tədqiqatçıların bir qisminin fikrincə, "Samux" alban sözü olub, "meşəlik", "ov yeri" deməkdir. Digər qisim tədiqatçıların qənaətinə görə, "Samux" üç çayın (Kür, Qabırrı və Alazan") birləşdiyi yerdir. Başqaları hesab edir ki, "Samux" sözü fars dilində "üç çay qolu" deməkdir. Samux rayonu 1931-cu il noyabrın 24-də təşkil olunmuşdu. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 24 yanvar 1939-cu il tarixli 4 nömrəli qərarı ilə Səfərəliyev rayonu (inqilabçı Xanlar Səfərəliyev soyadını daşıyırdı) Kirovabad (o vaxt Gəncə belə adlanırdı) şəhərinin ərazisinə daxil olan inzibati ərazi idi. 1940-cı il yanvarın 16-da bu rayon şəhərin tərkibindən çıxarılıb republikanın kənd rayonları sırasına daxil edilmişdi. 1948-ci ildən başlayaraq Mingəçevir SES-in tikintisi ilə əlaqədar olaraq Samuxun ərazisinin çox hissəsi su altında qalmışdı. 1954-cü il yanvarın 28-də Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Samux rayonu ləğv edilərək ərazisi Səfərəliyev rayonu ilə birləşdirilmişdi. 1959-cu il dekabrın 4-də Səfərəliyev rayonu müstəqil rayon kimi ləğv edilərək Gəncə şəhərinə birləşdirilmişdi. 1963-cü il yanvarın 4-də keçmiş Səfərəliyev rayonunun ərazisi Xanlar rayonuna daxil edilmişdi. Samux öz tarixi adını yalnız 90-cı illərin əvvəllərinədə bərpa edə bilmişdir, Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurasının 1992-ci il 18 fevral tarixli 72 saylı qərarı ilə Səfərəliyev şəhər tipli qəsəbə olmaqla yeni inzibati ərazi vahidi kimi yaradılmışdı. Milli Şuranın 1992-ci il 31 dekabr tarixli qərarı ilə Səfərəliyev qəsəbəsinin adı dəyişdirilib Nəbiağalı qəsəbəsi adlandırılmışdır. Azərbaycan Respublikasının 13 iyun 2008-ci il tarixli Qanununa əsasən isə Nəbiağalı və Kolayır kəndi biləşdirilərək Samux qəsəbəsi adlandırılmış, Samux qəsəbəsinə şəhər statusu verilmiş və Samux rayonu da müstəqil rayon kimi yaradılmışdır. Bakı ilə Samux şəhərinin arasındakı məsafə 362 km-dir.

... Xanlar rayonu 1954-cü il yanvarın 28-də Səfərəliyev rayonu ilə birləşdirilmişdi. Səfərəliyev rayonu 1938-ci ilədək görkəmli dövlət xadimi və yazıçı N. Nərimanovun (1870-1925) şərəfinə Nərimanov rayonu adlanırdı. Nərimanov adının verilməsinə qədər rayon Yelenendorf (almanca Helelenendorf) (22 aprel 1819-cu ildən) adlanmışdır. Belə ki, hələ 19-cu əsrdə, 1819-ci il aprelin 22-də Azərbaycana gəlmiş ən böyük icma olan alman koloniyaçıları Yelenendorf adı ilə həmin yaşayış məntrəqəsini salmışdılar. 1869-cu il aprelin 22-də koloniya özünün 50 illiyini təntənəli surətdə qeyd etmişdi. 1896-cı ildən etibarən isə Yelenendorfda və onun ətrafında ermənilər görünməyə və orada məskunlaşmağa başlamışdılar. Səfərəliyev rayonu (Samux) isə məşhur qarğabazarlı (Füzuli rayonu) inqilabçı Xanlar Səfərəliyevin (1885-1907) adı verilmişdi. Xanlar Həsən oğlu Səfərəliyev. 1885-ci ildə Cəbrayıl qəzasının (indiki Füzuli rayonu) Qoçəhmədli kəndində anadan olmuşdu. Gənc yaşlarından çarizmə qarşı mübarizədə qorxmaz inqilabçı kimi ad çıxarmışdı. 1907-ci il sentyabrın 19-da milyonçu Abuzər bəy tərəfindən muzdla tutulmuş Süleyman adlı dağıstanlı qatil tərəfinfən axşam sevgilisi ilə görüşə çıxdığı zaman arxadan atılan güllə ilə qətlə yetirilmişdi. Bu zaman onun cəmi 22 yaşı vardı. Xanlar Səfərəliyevin dəfni böyük izdahamla keçmiş və o, Bibiheybətdə torpağa tapşırılmışdı. Xanların atası Həsən kişi dostu Əbdül Məmmədovla (Əbdül Məmməd oğlu Məmmədov. 1888-ci ildə Cəbrayıl qəzasının (indiki Füzuli rayonu) Qoçəhmədli kəndində anadan olmuşdu. Sonralar, 1930-cu ildə "Sərdar" rayonu adlanan (indiki Füzuli rayonu) rayonun Milis İdarəsinin rəisi olmuşdu. Mərd adam kimi ad çıxarmışdı. 1934-cü ildə vaxtsız, cəmi 46 yaşında dünyasını dəyişmişdir...) Dağıstana gedib oğlunu öldürən Süleymanı tapmış və qisas əvəzi olaraq onun öldürülməsinə nail olmuşdu...). Xanlara Qovlarsarı və Qaraarx da demişlər.). Xanlar rayonu 2008-ci ilədək öz adını saxlamışdı. Hazırda Göygöl rayonu adlanır. Azərbaycan Respublikası Milli Məclisinin 25 aprel 2008-ci il tarixli qərarı ilə Xanlar rayonu mərkəzi Göygöl şəhəri olan Göygöl rayonu adlandırılmışdır.

Zaqatalanın qubernatoru (aylıq məvacib 3.000 min manat). Məhəmməd bəy Şahmalıyev (1870-1924) (o bu vəzifəyə Azərbaycan



Cümhuriyyətinin daxili işlər naziri N.Yusifbəylinin 16 aprel 1919-cu il tarixli əmri ilə təyin edilmiş və 28 aprel 1920-ci ilədək xidmət etmişdi). Zaqatala quberniya mühafizə polisinin inspektoru Şamil bəy Dibirov (Şamil bəy Dibirov qubernator Məhəmməd bəy Şahmalıyevi əvəz etmişdi... O, Zaqatala jandarmasının və polis qarnizonunun rəisi sayılırdı. 30-cu illərdə repressiyaya məruz qalmış, həbs olunaraq güllələnmişdi); quberniya mühəndisi Məmməd bəy Sultanov, Quberniya İdarəsinin katibi Ağa bəy Şıxlinski. Qubernator yanında xüsusi tapşırıqlar üzrə məmur Abbasəli bəy Məmmədov. Quberniya İdarəsinin mühasibi Vasili Lev. Kargüzar Abdulla Səfərov. Arxivarius Həzrət Süleymanov. Tərcüməçi Əliağa Qardaşov. Zaqatala şəhər polis pristavlığı. Pristav Yusif bəy Ağayev. Şəhər polisi üzrə nəzarətçilər Mehralı Darışev və Şıxamir Qardaşov idi.

Quberniya üzrə ərazi polis strukturları 7 sahə polis idarəsindən ibarət idi. 1. Zaqatala Şəhər Polis İdarəsi. 2. Car Sahə Polis İdarəsi. Rəisi Hacı Məcid. Onun köməkçisi Rəsul Qarəhmədov. 3. Balakən sahə polisi. Pəisi Muqu İzmayılov. Köməkçisi Əmircanov (İndiki Balakən rayonu 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv ediərək ərazisi Zaqatala rayonuna verilmişdi. 1965-ci ildə yenidən müstəqil rayondur. Balakənə Sarıbulaq da demişlər...). Tala Sahə Polis İdarəsi. Rəisi Mahmud bəy Gülməmmədov, köməkçisi Aleksandr Qaraəhmədov. 4. Muxax Sahə Polis İdarəsi. Rəisi Məmmədəli Mansurov, köməkçisi Şirin bəy Mirzəbəyov. 5. Qax Sahə Polis İdarəsi. Rəisi Teymuraz Qaraqada oğlu , köməkçisi Bədrəddin Abbasov (Qaxa Qaratala, Tanqıt, Qarağan, Ağyazı və Qıpçaq da demişlər... İndiki Qax rayonu 1930-cu ildə təşkil olunmuşdur. 1963-cü ildə ərazisi ləğv edilərək, Zaqatala rayonuna verilmişdi. 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. 6. Əliabad Sahə polis idarəsi. 7. Almalı Sahə Polis İdarəsi. (Azərbaycan tarixşünaslığında təqdim olunan strukturu müasir tarixşünaslıq dövriyyəsinə ilk dəfə təqdim edən bu sətirlərin müəllifi - İ. Əliyarlı və polis polkovniki T. Behbudovdur. Bax - Onların : " Müstəqil Azərbaycan polisinin yaranması və fəaliyyəti. 1918-1920-ci illər. Bakı, 1998-ci il, səh.29-37).

QARABAĞ GENERAL-QUBERNATORLUĞU. Mərkəzi Şuşa şəhəri. Tərkibinə Şuşa, Zəngəzur, Cəbrayıl və Cavanşir qəzaları daxil idi. Qarabağ (müvəqqəti) general qubernatoru Xosrov bəy

Sultanov Şuşa şəhərində otururdu (Şuşa şəhərinin əsası 1750-ci ildə Qarabağ xanı Pənahəli xan Sarıcalı-Cavanşir tərfindən qoyulmuş, 1757-ci ildə tikilib başa çatdırılmışdı . Şəhər onun şərəfinə Pənahabad da adlanrdı. Şəhərin adı havasının şüşə kimi şəffaflığı, təmizliyi və təbiətinin saflığı ilə əlaqədardır. X. Sultanovun böyük köməkçisi (birinci müavini) Hüseyn bəy Mahmudbəyov (1874-1920), köməkçisi (mülki hissə üzrə) Qriqori Kələntərov, məsləhətçilər Xosrov bəy Poladov, İbrahim bəy Poladov, Levon Varapetyan və Akop Balasanyan idi. Şuşa şəhərinin pristavı Aşot Andriasyan, köməkçisi Məmmədqulu xan Qaradağski (əslində, Qarabağski), şəhərin 1-ci hissəsinin polis pristavı Şahzadə Ərdəşir mirzə, 2-ci hissəsinin polis pristavı Srtanis Melkumov, köməkçisi Mahmud bəy Axundov idi.



**Qeyd:** *Xosrov bəy İbrahim bəy oğlu Folatov (tarixi ədəbiyyatda belə yazılır. Əslində, Poladovdur...). 1860-cı ildə Şuşada anadan olmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Sonra Şuşa şəhər məktəbində oxumuşdu. Bir müddət Şuşa Qəza İdarəsində məmur işləmişdi. Azərbaycan Cümhuriyyəti dövründə artıq polkovnik rütbəsində polisdə müxtəlif məsul vəzifələrdə, o cümlədən Qarabağ General-Qubernatrorluğunda məsləhətçi vəzifəsində çalışmışdı...*

Ermənilər qubernator X. Sultanova məktub göndərmişdilər. Məktubda Ağdam İnzibati İdarəsinin rəisi Xosrov bəy Poladova təşəkkür bildirilirdi. Deyilirdi ki, 1918-ci il iyun ayının ilk günlərində Yevlax stansiyasından Şuşaya gedərkən (həmin vaxt Yevlaxın sahə pristavı Ələkbər bəy Qalabəyov (1887-1920) idi) Ağdam stansiyasında saxlanıldıq. Çünki həmin vaxt Şuşada "çaxnaşma" baş vermişdi... Bu zaman biz polkovnik Xosrov bəy Poladovun rəhbərlik etdiyi Ağdam İnzibati İdarəsi tərəfindən son dərəcə səmimi və qayğıkeş münasibət gördük. Bizim üçün ayrılmış binada nəinki sərbəst, təhlükəsiz gəzirdik, hətta özümüzə lazım olan zəruri ərzaq malları da alırdıq. Biz İnzibati İdarə əməkdaşları tərəfindən



çox səmimi münasibət gördük. Xüsusilə, ermənilərin saxlandığı məntəqənin müdiri Əbdürrəhim bəy Xocalinskinin xidmətlərini qeyd etməliyik (tarixi ədəbiyyatda Xozalanski yazılır. Fikrimizcə, Xocalinski düzdür. Xocalinski sonralar, 30-cu illərdə repressiyaya məruz qalıb, həbs edilmiş və 1937-ci il noyabrın 15-dən 16-na keçən gecə 74 yaşında güllələnmişdir...). Bütün bu şəraiti nəzərə alaraq, biz aşağıda imza atmış 94 nəfər erməni xahiş edirik ki, Ağdam İnzibati İdarəsinə bizim təşəkkürümüzü çatdırasınız. Bununla yanaşı, X. Poladov Qarabağda erməni-daşnaklara qarşı qətiyyətli mübarizə aparmışdı...

ŞUŞA QƏZASI. Mərkəzi Şuşa şəhəri. 1 yanvar 1841-ci ildə çarizmin Qafqazda keçirdiyi 10 aprel 1840-cı il tarixli inzibati islahatı zamanı Kaspi vilayətinin tərkibində yaradılmışdı...1867-ci il dekabrın 9-da çar hökuməti "Qafqazda inzibati islahatlar haqqında" fərman verdi. Fərmana əsasən aparılan yeni inzibati islahatlar nəticəsində Yelizavetpol quberniyası yaradıldı. Quberniyanın tərkibinə 8 qəza, o cümlədən, Şuşa qəzası daxil oldu. Paytaxtı Şuşa olan Şuşa qəzasının ərazisi 4423,28 kv.verst, əhalisi isə 144876 nəfər , o cümlədən 76730 kişi, 68146 qadından ibarət idi... Şuşa qəzası 1929-cu ildə ləğv edilmişdi. 1930-cu ildə Şuşa rayonu yaradılmışdı. 1963-cü ildə ləğv edilərək, ərazisi Xankəndi rayonuna verilmişdi. Lakin 1965-ci ildən yenidən müstəqil royon olmüşdur... Qarabağın mərkəzi Şuşa şəhəri 1992-ci il mayın 8-də erməni - rus işğalçıları tərəfindən zəbt edilmişdir...

Şuşa Qəza İdarəsinin rəisi (aylıq məvacib 3000 manat) Qədir bəy Hacıbəyov, böyük köməkçisi Avetis Ter Qukasov idi. Qəza polis pristavlıqları: 2-ci Vərəndə sahə polis pristavlığı (Vərəndənin peçeneq-qıpçaq, yaxud oğuz türk tatfalarından birinin adı olduğu ehtimal olunur. Bərəndə və ya Vərəndə tayfası 13-cü əsrin əvvəllərində Dərbənd vasaitəsilə Azərbaycana gəlməsi güman edilir. Vərəndə 1840-1867-ci illərdə Şuşa qəzasının inzibati ərazi sahələrindən biri idi. 1867-ci il dekabrın 9-da çar fərmanı əsasında yeni inzibati islahatlar keçriləndə ərazisi və kəndləri Cəbrayıl və Şuşa qəzaları arasında paylanmışdı. Vərəndənin sonrakı adı Ağdərədir. Ağdərə rayonu 1930-cu ildə yaradlımışdı və Mardakert adı ilə DQMV-nin inzibati rayonu idi. 1939-cu ilədək Cerabert rayonu adlanıb ("ermənilər ona "Cermux" deyirlər. Əslində, Çiləbörddür). Pristav Aqoparon Danialbəyov, kö-

məkçisi Fəxrəddin bəy Şərifbəyov. 3-cü sahə Vərəndə polis pristavlığı. Pristav Baqrat Mixaylov. 4-cü sahə polis pristavlığı. Pristav Salah Ağayev. 3-cü Ağdam sahə polis pristavlığı. Pristav Hüseynəli Sofiyev, köməkçisi Əbdürrəhim bəy Xocalinski. 5-ci sahə polis pristavlığı. Pristav Cəfərqulu Ərəbov, köməkçisi Əbdürrəhim Axundov.

**Qeyd:** *Ağdamın qədim adının "Aquen" sözündən törəndiyi irəli sürülür... Hələ 18-ci il əsrin birinci yarısında Qarabağ xanı Pənahəli xan Sarıcalı-Cavanşir öz dədə-baba mülkü olan Ağdamda İmarət adlanan yerdə ağ daşdan məqbərə tikdirmişdi. Həmin imarət ətraf yerlərin əhalisi üçün bir növ mayak rolunu oynamışdır. Ağdamın adını həmin imarətlə əlaqələndirənlərdə var. Bu mənada "Ağdam" "Günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev" deməkdir . Bəzi etimoloqların fikrincə,"Ağdam" sözü qədim türk dilində "kiçik qala" deməkdir. Lakin Ağdamın Pənahəli xanın tikdirdiyi imarətə qədər mövcudluğu bəllidir. Tarixi ədəbiyyatda Ağdam şəhərinin 1928-ci ildə yarandığı barədə məlumatlar da var... 1930-cu il avqustun 8-də Ağdamda rayon təşkil olunub. Ağdama Qurdlar da demişlər. Ağdam rayonu və şəhəri 23 iyul 1993-cü ildə erməni qəsbkarları tərəfindən işğal olunmuşdur. Ağdam turistlər arasında maraq doğuran "20 ruhlar şəhəri" siyahısına salınıb. 2010-cu ilin noyabr ayında üzdəniraq Dağlıq Qarabağ Respublikası adlanan separatçı rejimin rəhbərləri Ağdamın adını erməniləşdirmək məqsədilə onun adını dəyişərək "Akna", "Akn", "Hakaku" qoyublar. Ağdam Bakıdan 358 km. məsafədə yerləşir.*

ZƏNGƏZUR QƏZASI. Mərkəzi Gorus kəndi idi. ( Zəngəzur - "zəng susdu " deməkdir). Hələ 1861-ci ildə aparılan islahatlar zamanı inzibati ərazi vahidi kimi Yelizavetpol quberniyasının tərkibinə daxil edilmişdi. 1867-ci il dekabrın 9 da çar hökuməti "Qafqazda inzibati islahatlar haqqında" fərman verdi. Fərmana əsaasən aparılan yeni inzibati islahatlar nəticəsində 1868-ci il yanvarın 1-dən Yelizavetpol quberniyası yaradıldı. Quberniyanın tərkibinə 8 qəza - Yelizavetpol, Ərəş, Nuxa, Qazax, Cavanşir, Cəbrayıl, Zəngəzur və Şuşa qəzaları daxil idilər. Mərkəzi Gorus şəhəri (indi Ermənistan ərazisində, Gorus çayı sahilindədir.1370 m. hündürlükdə yerləşir. Sonralar, 1924-cü ildə ilk dəhə şəhər statusu almışdı) olan Zəngəzur qəzasının ərazisi 6742,92 kv.verst (1 verst =1,0668 km.-dir), əhalisi 224197 nəfər, o cümlədən 112780 kişi, 111417 qadın idi. Əhalinin



120 min nəfərini (53,2 faizini) azərbaycanlılar, 3638 (1,62 faizini) müsəlman kürdləri təşkil edirdi.

Zəngəzur Qəza İdarə rəisi (aylıq məvacib 3.000 manat) vəzifəsini əvəz edən Həbib xan Şəkinski (1880-1956) idi. (1920-ci ilin əvvəli).**Qeyd**: *Azərbaycan Cümhuriyyəti dövründə Zəngəzur qəzasında əsas 6 nəfər qəza rəisi vəzifəsində xidmət göstərmişdi :*

*1 . Fərəc bəy Məliknamazəliyev. 2. Hüseyn bəy Mahmudbəyov. 3. Fərrux bəy Sərməstbəyov 4. Mirzə Məhəmməd Axundov (1876-1938). 5. Camal bəy Sultanov. 6. Həbib xan Şəkinskidir. H. Şəkinskini müvəqqəti olaraq onun böyük köməkçisi (birinci müavini) Şahsuvar bəy Kələntərov (Hüseynbəyov) (1867-1934) əvəz etmişdir... Kiçik köməkçisi Mahmud bəy Hüseynəli bəy oğlu Sərməstbəyov idi. İkinci sahənin polis pristavlığı. Pristav Cabbar Niyazov idi. Üçüncü sahənin polis pristavlığı. Pristav Əli bəy Şərifov idi. Dördüncü sahənin polis pristavlığı. Pristav Cəmil Şirinov idi.*

CƏBRAYIL QƏZASI. Mərkəzi Karyagin (Qarabulaq) kəndi. Qəza İdarə rəisi (aylıq məvacib 3.000 manat) Ələkbər bəy Bəhrəmbəyov (1920-ci ilin əvvəli) (ondan əvvəl bu vəzifəni Hüseyn bəy Mahmudbəyov daşımışdı... Ə. Bəhrəmbəyov bu vəzifəyə Azərbaycan hökumətinin qərarı və daxili işlər naziri N.Yusifbəylinin 5 yanvar 1920-ci il tarixli 228 nömrəli əmri ilə təyin (12 dekabr 1919 ildən sayılmaqla) edilmişdi. Ə. Bəhrəmbəyov bunadək Bakı Mərkəzi Həbsxanasının rəisi vəzifəsində xidmət edirdi. Ə. Bəhrəmbəyov Cəbrayıl qəzasının rəisi vəzifəsində 1920-ci il martın 6-dək çalışmışdı...), köməkçisi İsrail Ter-İonisyan. 1-ci sahə polis pristavlığı. Pristav Həbib Məhərrəmov (sovet hakimiyyət dövründə həbs olunmuş və Azərbaycan FK Kollegiyasını qərarı ilə 1921-ci ildə güllələnmişdi...). 2-ci sahə polis pristavlığı. Pristav Mirzə Həsən bəy Mirzə Cəfər oğlu Vəzirov (Şuşada anadan olmuşdu. Əvvəllər Şuşa şəhərində tərcüməçi və pristav köməkçisi işləmişdi). 3-cü sahə polis pristavlığı. Pristav Camal bəy Əlibəyov. 4-cü sahə polis pristavlığı. Pristav Arşak Balasanyan, köməkçisi Artyom Şahnəzərov idi.

**Qeyd.** *Cəbrayıllı tayfası 15-ci əsrdə Qaraqoyunlu (1410-1467) dövləti zamanı Qqaraqoyunlular, Ağqoyunlu (1468-1501) dövləti zamanı Ağqoyunlular, Səfəvilər dövlətinin (1501-1736) tərkibində Əfşarlar və nəhayət, Qarabağ xanlığı dövründə (1747-*

*1822) Cavanşirlər tayfa ittifaqlarının tərkibinə daxil idilər.1804-1813 və 1826-1828-ci illər Rusiya-İran müharibələri zamanı döyüş əməliyyatlarının gedişində Xüdafərin körpüsü də daxil olmaqla Cəbrayıl ərazisi qanlı vuruşmalar meydanına çevrilmişdi.1878-ci ildə Londonda türkcə nəşr olunmuş topluda Cəbrayıllılar Şahsevənlər etnoqrafik toplusunun bir qolu kimi göstərilmişlər...*

Cəbrayıl qəzası çar hökumətinin "Qafqazda inzibati islahatlar haqqında" 9 dekabr 1867-ci il tarixli fərmanına əsasən Yelizavetpol quberniyasının tərkibində 8 qəzadan biri kimi 1 yanvar 1868-ci ildə təsis olunmuşdu. Ərazisi 3276,31 kv.verst, əhalisi 89584 nəfər, o cümlədən 44.493 nəfəri (49,66 faizi) kişi, 45.091 nəfəri (50,33 faizi) isə qadın idi. Onun tərkibinə Şuşa qəzasının Vərəndə (indiki Ağdərə) sahəsi, Qarabulaq sahəsi (indiki Füzuli), qisməndə Beyləqan, Qubadlı və Zəngilan əraziləri daxil edilmişdi. Cəbrayıl qəzası zəruri inzibati ərazi dəyişiklikləri aparılan zaman,1 iyul 1883-cü il qanununa əsasən Yelizavetpol (Gəncə) quberniyası tərkibində Cavanşir qəzası ilə birlikdə müstəqil inzibati ərazi vahidi kimi yenidən yaradılmışdı. Maili düzənlikdə, İncəçay vadisində,Gəyən çölündə yerləşirdi. Cəbrayıl strateji cəhətdən əlverişli, mühüm yer olduğundan rus hərbi qarnizonu tərəfindən orada hərbi şəhərcik salınmışdı. Cəbrayıl qəzasının adı orta əsrlərdə yaşamış Cəbrayıl Ata adlı nüfuzlu bir şəxsin adı ilə (o, Alıpaşa dağının görkəmli bir yerində dəfn olunmuşdur...) əlaqədar olaraq belə adlandırılır. Cəbrayıla əhali arasında "Qıraxtin" (yəni qıraxda, ucqarda yerləşən),"Qıraxdin" və "Tulus Cəbrayıl" da demişlər ("tulus" türk tayfasının adıdır).

1918-ci il avqustun 30-da F. Xoyskinin başçısı olduğu Azərbaycan Cümhuriyyəti hökumətinin qərarı ilə daha bir tarixi ədalətsizlik bərpa olunmuş, çarizmin müstəmləkə siyasətinin rəmzi olan Karyagin adə ləğv edilmiş və Cəbrayıl qəzasının əvvəlki adı özünə qaytarılmışdı. Azərbaycan Cümhuriyyəti süqut etdikdən və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra quberniyalar 1920-ci il aprelin 28-dən ləğv olunsada, bütün qəzalar (16 qəza), o cümlədən mərkəzi Cəbrayıl şəhəri olmaqla Cəbrayıl qəzası 1929-cu ilin aprelinədək respublikanın inzibati ərazi vahidi kimi qalmış, fəaliyyət göstərmişdi. 1929-cu il aprelin 8-dən başlayaraq Azərbaycan SSR-in inzibati-ərazi idarəetmə bölgüsündə yeni dəyişikliklər aparılmağa başlanmışdı. Bu, qəzaların ləğvi və rayonlaşma ilə əlaqədar idi. Odur ki, 1929-cu ilin aprelindən Cəbrayıl qəzası da ləğv olunmuş və bir il sonra əvəzində sabiq Cəbrayıl qəzasının 1/6 hissəsi hesabına yeni Cəbrayıl rayonu yaradılmışdı. İndiki müstəqil Cəbrayıl rayonu da elə həmin vaxtdan mövcuddur. Cəbrayıl şəhəri və rayonu 23 avqust 1993-cü ildə rus-erməni qəsbkarları tərəfindən işğal edilmişdir. Ermənistan Respublikası rəhbərliyi indi Cəbrayıl şəhərinə "Jrakan" adı vermişdir...

Yuxarıda qeyd etdiki, Cəbrayıl qəzası yaradılanda onun tərkibinə Qarabulaq (keçmiş Karyagin, indiki Füzuli rayonu), Beyləqan (keçmiş Jdanov rayonu), Qubadlı və Zəngilan əraziləri də daxil olunmuşdu. Fikrimizcə, Cəbrayılla əlaqədar olduğu üçün qısaca bu rayonların da tarixinə nəzər salmaq yerinə düşər.

QARABULAQ. Füzuli şəhərinin və rayonunun keçmiş, lakin həqiqi adıdır. Qarabulaq" türkcə "böyük bulaq" anlamındadır."Qara" türkcə "böyük" deməkdir."Qarabulaq", yəni "bol sulu bulaq, çeşmə" mənasındadır. Lakin əksər alimlər və tədqiqatçılar hesab edirlər ki, Qarabulaq ərazidə yaşayan qədim türk tayfaları Qarabulaqlıların adıyla bağlıdır. Qarabulaqlılar sülaləsi döyüşkən Kəngərli türk tayfalarındandırlar. Hazırda Naxçıvan Muxtar Respublikaında Qarabulaqlılar yaşayırlar. Azərbaycan SSR dönəmində DQMV-nin Xankəndi rayonuna tabe olan Qarabulaq kəndi (və sovxozu) sonra qəsəbə statusu almışdı. Qarabulaq (indiki Füzuli şəhəri) Araz çayının qolu olan Köndələnçayın sahilində, Qarabağ silsiləsinin ətəyində yerləşir. Qarabulaq adına tarixdə əvvəldən rast gəlinsədə , onun düzən yerdə, qışlaq sahəsi əsasında 1827-ci il sentyabrın 10-da salınması yazılır...1905-ci il mayın 14-də Qarabağ xanlığının Rusiya tərkibinə keçməsini rəsmiləşdirmiş Kürəkçay müqaviləsinin ("Andlı öhdəlik") 100 illiyi tamam olanda, bu münasibətlə Cəbrayıl qəzasının adı dəyişdirilərək, vaxtilə çar I Aleksandrın sevimlisi olmuş, Qarabağda və Azərbaycanın digər yerlərinin istilasında xidmətlər göstərmiş, rus ordusunun zabiti, polkovnik Pavel Mixayloviç Karyaginin (1761, Poltava şəhəri, Ukrayna - 14 dekabr 1807, Şuşa şəhəri) şərəfinə Karyagin qəzası adlandırılmışdı.Yeni yaranan Karyagin qəzasının mərkəzi Cəbrayıl şəhəri elan olunmuşdu.

BEYLƏQAN. Azərbaycan Respublikasının paytaxtı Bakıdan 265 kilometr məsafədə yerləşir. Bu rayon yeganə rayondur ki,

Həzrəti Cərcis Peyğəmbərin qəbri onun ərazisindədir. (Həzrəti Cərcis Peyğəmbər 7-ci əsrdə təkallahlığı təbliğ üstündə təqibdən yaxa qurtarmaq üçün Beyləqan ərazisinə gəlmişdi. Peyğəmbərin türbəsi 16-cı əsrdən ziyarətgah yerinə çevrilmişdir...). Beyləqan Azərbaycanın orta əsrlərdə inkişaf etmiş sənətkarlıq və ticarət şəhəri olmuşdur. Karvan yollarının üstündə yerləşən bu şəhərin adı 9-14-cü əsrlərdə çəkilir. Ərəb müəlliflərinin məlumatına görə Beyləqan şəhəri 5-ci əsrin sonu - 6-cı əsrin əvvəllərində Sasani şahənşahı İ Qubad (488-531) tərəfindən salınmışdır. Beyləqan şəhərinin xarabalıqları rayonun Kəbirli kəndi yaxınlığında "Örənqala" adı ilə tanınmışdır. 1933-1961-ci illərdə rayonun Kəbirli kəndindən cənubda Örənqala yaşayış yerində arxeoloji tədqiqatlar aparılmışdı. Örənqalanı AMEA-nın müxbir üzvü, görkəmli mərhum arxeoloq, tarix elmləri doktoru Qara Əhmədov (1928-2003) tədqiq etmişdir. (**Qeyd**: *Qara Məmməd oğlu Əhmədov. 1928-ci ildə Qəbələ rayonunun Çarxana kəndində doğulmuş, 2003-cü ildə isə Bakıda vəfat etmişdir. Qara müəllim orta əsr Beyləqan şəhərinin tarixini kompleks şəkildə tədqiq etmiş və 1979-cu ildə buna dair eyni adlı sanballı monoqrafiya nəşr etdirmişdir. O, Beyləqanda 30-dan artıq sənət sahəsinin olduğunu yazmışdır.*). Beyləqan hakimi olmuş Məsud ibn Namdarın (əslən beyləqanlı idi, orada doğulmuşdu. Mənşəəcə kürddür. Hökmdar, həm də şairdir) və 13-cü əsr ərəb tarixçisi, monqol yürüşlərinin müasiri İzzəddin Əbül Həsən Əli ibn Məhəmməd İbn Əl-Əsrin (1160-1234) yazdıqlarından məlim olub ki, Beyləqan şəhəri monqol sərkərdələri Cəbə və Subudayın Azərbaycana yürüşü zamanı, 1221-ci il oktyabr ayının 9-u-noyabr ayının 18-də baş verən qanlı döyüşlərdən sonra müqavimət göstərdiyi üçün süquta uğradılmışdı... Tarixin müxtəlif dönəmlərində Beyləqan Gəncə Əmirliyinin, Cavad, Cəbrayıl və Karyagin qəzalarının tərkibində olmuşdur...

Beyləqanın ən iri yaşayış məntəqələrindən biri Birinci Şahsevən kəndidir. Kənd Araz çayına yaxın, Daşburun stansiyasında yerləşir. Kənd adını tarixdə öz döyüşkənliyi ilə ad çıxarmış məşhur köçəri-elat Sahsevən tayfasının adından götürmüşdür. "Şahsevən" adı I Şah İsmayıl Səfəvinin (1487-1524) hakimiyyəti dövründə (1501-1524) yaranmışdır. "Sahsevən", yəni "şahın sevdiyi el", "elin sevdiyi şah" deməkdir. "Şahsevənlərin erkən vətəni



Güney (Cənubi) Azərbaycan olmuşdur. Şahsevənlər xüsusi qəbilə və tayfa birliyi olmayıb, ayrı-ayrı qəbilə və tayfa birliklərinə daxil olan icma-qəbilə qruplarının, qəbilə və oymaqlardan ayrılaraq birləşməsi nəticəsində əmələ gəlmişdi. Qaynalarda yazılmışdır: "Şahsevənlər. Şahsevən atlıları. I Şah Abbas Səfəvi Cənnətiməkan (1587-1629). (Ləqəbi "Böyük". 27 yanvar 1571-ci ildə Heratda (Əfqanstan. Tarixi ədəbiyyatda Nişapurda adlanmışdır...) da doğulmuş, 19 yanvar 1629-cu ildə Əşrəf şəhərində 58 yaşında vəfat etmiş, Mazandaranda dəfn olunmuşdur) tərəfindən 7 əsas qızılbaş elindən təşkil edilmiş türk tayfasıdır. Əmir Teymur (1336-1405) 14-cü yüzillikdə Şahsevənləri Azərbaycanda məskunlaşdırmışdı.

Şahsevənlər Ərdəbil və Meşkin qoluna bölünür. Meşkin qolu köçəri, Ərdəbil qolu isə oturaqdır. Şahsevən eli bütün oymaqları ilə bir yerdə 76.500 nəfərdir... Ərdəbil ətrafında Savalan dağının şimal yaylaqlarına köçürlər. Muğanda qışlayırlar. Şahsevənlər Azərbaycanın siyasi həyatında mühüm rol oynamışlar.

Tarixçi alim, mərhum Hüseyn Dəlili yazır: "Şahsevənlər etnoqrafik qrupdur. Cənubi Azərbaycanın şimal-şərqində, Savalan dağı və Qarasu çayı ərazisində (hövzəsində), qismən də Quzey (Şimali) Aazərbaycanın cənubunda məskunlaşmışdılar. I Şah Abbas Cənnəti-Məkan 16-17-ci əsrlərdə Azərbaycanın güclü tayfa başçılarının mərkəzi hakimiyyətə tabe olmaq cəhdlərinin qaşısını almaq və öz hakimiyyətini gücləndirmək məqsədilə bəzi tayfaları (əfşar, qacar, zülqədər, təkəli, bəydili, quzatlı və s.) öz tərəfinə çəkərək "Şahsevən" adlı xüsusi şah qvardiyası yaratmışdı. Səfəvilər dövlətinin əsas hərbi qüvvəsinə çevrilən Şahsevənlilər sonralar Azərbaycanın siyasi həyatında mühüm rol oynamışlar.

Azərbaycan Sovet Ensiklopediyasında yazılmışdır:

"... Ərdəbil, Mugan, Qəzvin və s. ərazilərdə Şahsevənlilərə xeyli torpaq sahələri bağışlanmışdı...19-cu əsrin sonunda Şahsevənlilərin əksəriyyəti oturaq həyata keçmişdi. Onlar maldarlıq, toxuculuq və qismən əkinçiliklə məşğul olurdular. Şahsevənlər onlarca tirə, oymağ, tayfa və qoldan (quzatlılar, inanlılar, canıyarlılar, əliyarlılar, qocabəylilər, bəydililər, xələfli, quzanlı, dursunxocalılar, məstalıbəylilər, zərgərlər, əlihəsənlilər, qocabəylilər, rzabəylilər, poladlılar, alarlar, qarahəsənlilər, talışmikayıllılar, novruzbəylilər, preyvatlılar,

qaraqasımlılar və b.) ibarətdirlər. 1983-cü il məlumatına görə Şahsevənlərin sayı 250 min nəfər idi. "Şahsevəni" saz havası da Şahsevənlilərlə əlaqədar yaranmışdır. Ona "Döşəmə Koroğlu" da deyilir. "Şahsevəni"nin poetik mətni gəraylıdır... "Şahsevəni" şah pərdə və ya "Misri" kökündə ifa olunur.

Şahsevənlərin Şimali Azərbaycana ilkin axını 18-ci əsrin axırı - 19-cu əsrin əvvəllərində baş vermişdir...1813-cü ildən 1872-ci ilədək Şimali Azərbaycana gəlmiş Şahsevən alaçıqlarının sayı 12,5 minə çatırdı. 1870-ci il məlumatına görə, Bakı quberniyasında xırdapay, xələfli və muğanlı ailələrinin sayı (300 ailə), poladlı (300 ailə), xumusta poladlısı (150 ailə), talış-mikayıllı (400 ailə), qocabəyli (200 ailə), novruzalıbəyli (100 ailə), quzanlı (60 ailə), seyidlər, əlibabalı, dəmirçi, qaraqasımlı və bu kimi onlarca Şahsevən yarımköçəri icmaları yaşayırdılar. 1880-85-ci illərdə çar hökuməti Şahsevənlilərin böyük bir hssəsini icazəsiz yaşadıqlarına görə geriyə - İrana qaytarmışdı. Azərbaycanda qalan, əsasən Beyləqanda yaşayan Şahsevənlilər başlıca olaraq 3 hissəyə ayrılırdılar: 1. Hüseynli, Kərimili, Əliyarlı 2. Çovğunlu, Callar, Korlar, Keçəllər (II Şahsevən kəndi) 3. Tağıbəyli, Hacıkişili, İsgəndərli. Bunlar əsas etbarı ilə Arazboyu yerlərdə, indiki Beyləqan ərazisində I və II Şahsevən kəndlərində yaşayırdılar və indidə yaşamaqdadırlar (I Şahsevən kəndində 10-dan yuxarı tirə, nəsil, qol, o cümlədən İnanlı (böyük inanlı və kiçik inanlı), Qarahəsənli, Preyvatlı (Qocabəyli) - Əliyarlı (Əliyar İbrahim oğlu Preyvatlı ; 1831-ci ildə doğulmuşdu ; Preyvatlı Arazın o tayında kənddir) yaşayır. 1835-ci ildə Şahsevən elinin bir hissəsi, o cümlədən İbrahim kişi Arazın bu tayına Qarabağa köçüb, Cavanşir-Dizaq mahalının (indiki Fizuli rayonu) Oltan adlı sahəsində məskunlaşmışdı. Əliyar obanın ağsaqqallarından idi. Söz-söhbəti ilə qan yatırırdı. Onun Fəti, Həzi, Alış, Firidun, Teymir, Heydər, Əsəd, Məmiş... adlı oğlanları vardı... Əliyar Süleyman Əliyarlı, Qaçay Əliyarlı, Arif Əliyarlı, İltifat Əliyarlı kimi tanınmış şəxslərin babasıdır. Tağıbəylı, Sadıxlı, Kərimli, Əhmədli, Qıçılar, Hüsnlü-Qəhrəmanlı, Hacıkişili, İsgəndərli, Həzili (Onikilər) tirələri və onların törəmələri yaşamaqdadırlar...

Arazboyu şahsevənlilər (I və II Şahsevən kəndinin camaatı) 1835-ci ildə Ərdəbildən və Cənubi Azərbaycanın digər yerlərindən əvvəlcə indiki Füzuli rayonuna -"Oltan yeri" deyilən boş əraiyə - Horadizlə Kürdlər kəndi arasaına köçmüşlər... ("Kürd" qədim fars dilində "kərd" sözündən olub, "mərd", "qoçaq", "bahadır", "pəhləvan" deməkdir. Kürdlər irandilli tayfalardandır... Füzuli rayonunda hazırdada Kürdlər kəndi vardır). I Şahsevən kəndinin camaatı Arazboyundan indiki yaşayış yerinə 1930-cu ildə köçmüşdür...

... 1839-cu ildən etibarən Şahsevənliləri elbəyilər idarə etməyə başlamışdılar. Azərbaycanın Rusiyaya birləşdirilməsinə qədər Muğan düzü Talış xanlığına (1747-1825) daxil idi. Xanlıq buradakı qış otlaq sahələrindən istifadə müqabilində Şahsevənlərdən "çöpbaşı" deyilən vergi alırdı. Xanlığın Rusiyaya birləşdirilməsindən (1828) sonra burada ilk dəfə olaraq Şahsevənlərin bir hissəsi Yeddioymaq kəndinin əsasını qoymuşdu. Qalanları isə öz tərəkəmə tərzini davam etdirməkdə idilər.

Azərbaycanda rayonlaşmanın başlandığı illərdə (1929-1930) Beyləqan ərazisi Qarabağ və Salyan mahallarının tərkibinə daxil edilmişdi. 1868-1917-ci illərdə Beyləqan Bakı quberniyasının Cavad qəzasının, Yelizavetpol (Gəncə) quberniyasının Şuşa qəzasının və Cəbrayıl qəzasının (1883-cü ildən) tərkibində olmuşdu. Azərbaycan cümhuriyyəti dövründə Beyləqan ərazisinin bir hissəsi Bakı quberniyasının Cavad qəzasının, digər hissəsi isə Gəncə quberniyasının Cəbrayıl (Karyagin) və Şuşa qəzalarının tərkibində idi.

Şahsevənlər Muğanda və Azərbaycanın başqa yerlərində də məskunlaşmışdılar. Respublikada Beyləqanla yanaşı, Ağcabədidə (Şahsevən kəndi və bu kənddən törəmə Təzəkənd adlanan Şahsevən kəndi var. Həmin kəndlərin camaatının 95 %-i şahsevənlilərin Əlihəsənlilər qolundan ibarətdir), Kürdəmirdə, Ağsuda, Gəncədə də Şahsevən adlı toponimlər, yaşayış yerləri və əslən Şahsevənlərdən olan çoxlu tirə, qol və nəsil vardır. (Məsələn, Biləsuvarda Canıyarlar, Cəlilabadda Alarlar nəsili və s. Əsilli-köklü Canıyarlar nəsli 30-cu illərin repressiyası dövründə amansız təqiblərə və faciələrə məruz qalmışdır. Qazaxıstanın Cambul Vilayətinin Merke rayonuna sürgün edilmiş Canıyarlar nəslundən 36 nəfər repressiyanın qurbanı olmuşdur... Canıyarlı-Şahsevən nəslindən görkəmli şəxsiyyətlər və xadimlər çıxmışdır... (Bax: Yəhya Yusif Canıyar. "Turan Mübarizi", Bakı, 2011, "Ozan" nəşriyyatı, səh.232-268).



*Şimali Azərbaycanda (Muğanda) və Cənubi Azərbaycanda (Ərdəbildə) Şahsevənlilər*



*Şahsevənli at belində*





*Gəncə. Böyük Bağmanlar məhəlləsi. Şahsevənlər məscidi. 1882-ci ildə tikilmişdir, hazırda fəaliyyətdədir.*

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 24 yanvar 1939-cu il tarixli Fərmanı ilə o vaxtkı Karyagin (indiki Füzuli), Qaradonlu (indiki İmişli) və Ağcabədi rayonlarının əraziləri hesabına yeni inzibati ərazi vahidi kimi Jdanovun adının verildiyi Jdanov rayonu yaradılmışdı (Andrey Aleksandroviç Jdanov (26 fevral 1896, Mariupul, Ukrayna - 31 avqust 1948, Moskva) görkəmli partiya və dövlət xadimi, Sov. İKP MK-nın üzvü idi. Yeni rayon onun şərəfinə adlandırılmışdı). Fərmanı Ali Sovetin Rəyasət Heyətinin sədri Mir Bəşir Qasımov (1879-1949) və Ali Sovetin katibi Əziz Əliyev (1897-1961) imzalamışdılar (**Qeyd**: *Əziz Məmmədkərim oğlu Əliyev. Görkəmli dövlət və elm xadimi. 1897-ci il yanvarın 1-də İrəvan quberniyasının Hamamlı kəndində anadan olmuşdu. Ə. Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin babası, görkəmli oftalmoloq, akadmik Zərifə xanım Əliyevanın atasıdır. 1998-ci il may ayının 14-də Əziz Əliyevin 100*

*illik yubileyi, 2006-cı il dekabrın 5-də isə 110 illiyi dövlət səviyyəsində keçirilmişdi...).*

... "Ağcabədi", "Ağca" və "bədi", ağımtıl, quru, şumlanmamış, bozumtul torpaq" deməkdir. Tarixin müxtəlif dönəmlərində Ağcabədiyə "Boyat" (yerli türk tayfasının adıyla), Yeni Qaradolaq (yerli türk tayfasının adıyla), Sarvanlar, Minaxorlu (at bəslənən yer), Qaravəllili (yerli türk tayfasının adıyla), Mirzə Haqverdilər (yerli nüfuzlu şəxsin adıyla), həmçinin "Üzeyirabad" da demişlər... Ağcabədidə Beyləqan adlı kənddə var. Yerli məlumata görə əhali vaxtı ilə Beyləqan şəhərindən köçüb gəlmişdir. Beyləqanın mərkəzi 1932-38-ci illərdə 5 nömrəli Mil sovxozuydu (bu sovxoz Mil düzündə salınmış ilk dövlət təssərrüfatı orqanı idi. Mil sovxozu 1927-ci ildə salınmış və tədricən Mil sovxozlar qrupunun mərkəzinə çevrilmişdi. Sonralar, 1985-ci ildə rayon təsərrüfatı üçün böyük əhəmiyyət kəsb edən "Yeni Xan qızı kanalı" (Qarabağın axırıncı xanı Mehdiqulu xanın qızı Xurşidbanu Natəvan çəkdirdiyi üçün belə adlanır. Kanal 1924-cü ilədək "Xan qızı arxı" kimi xalq arasında məşhur idi. Həmin ildə bu ad dəyişdirilib "S. Orconikidze adına kanal" adlandırılmışdı. Xan qızı arxı öz mənbəyini Araz çayının baş dəhnəsindən götürür. Bu arxın qədim adı "Barlaks" olmuşdur). Yeni rayon yarandıqdan sonra da bu sovxoz şəhər tipli qəsəbə kimi 1966-cı ilədək Jdanov rayonunun mərkəzi olmuşdur. Beyləqan 1939-63-cü illərdə Jdanov rayonu adlanmışdı. 1964-cü il yanvarın 4-də respublikada aparılan inzibati-ərazi bölgüsü və dəyişikliklərlə əlaqədar olaraq rayon ləğv edilmiş və ərazisi İmişli rayonuna verilmişdi. Lakin 1965-ci ildə yenidən müstəqil rayon kimi təşkil olunmuşdur. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Süleyman Tatlıyevin (1 mart 1934, Bakı - 1 avqust 1993, Bakı, 59 yaş) imzaladığı 18 mart 1989-cu il tarixli fərmanla Jdanov adı ləğv edilmiş və Beyləqanın tarixi adı özünə qaytarılmışdır. Tarixin müxtəlif zamanlarında Beyləqana Paytakaran ("Paytakaran" farsca "Arranın anası" deməkdir, şəhərin qalıqları Beyləqanda Təzəkənd adlanan ərazidədir), "Balasakan", "Biləqan", "Sarısu", "Soltanbud" (Soltan şəxs ad, "bud" farsca "təpə deməkdir, yəni "Soltanın təpəsi"), 5 nömrəli sovxoz, "Mil Minarə" də demişlər). 2009-cu ildə Beyləqan rayonu özünün 70 illik yubileyini təntənə ilə qeyd etmişdir...



Artıq yuxarıda qeyd etdyimiz kimi, Karyagin qəzası (indiki Füzuli rayonu) 1905-ci il mayın 14-də Kürəkçay müqaviləsinin 100 illiyi tamamında keçmiş çar polkovniki Pavel Karyaginin şərəfinə təşkil olunmuşdu. Bunadək qəzanın ərazisi Qarabulaq kimi tanınırdı ("Qarabulaq" türk sözüdür,"qara" böyük,"bulaq" isə "bol sulu çeşmə", yəni "böyük bulaq" deməkdir. Beləliklə, Füzuli şəhərinin əsası 1827-ci ildə (sentyabrın 10-da) qoyulmuş və ilkin adı Qarabulaq olmuşdur. Qarabulaq yaşayış məntəqəsi öz adını vaxtılə orada çıxan çoxlu sayda təbii bulaqların adından almışdır. İstanbulun başkanlıq arxivində saxlanılan 930 saylı "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" adlanan tarixi sənəddə indiki Füzuli şəhərinin adı "Dizaq nahiyəsinə tabe olan Qarabulaq Qışlağı" kimi qeyd olunmuşdur. Həmin mənbədə 1886-cı ildə Qarabulaqda 45 ailənin (104 kişi, 109 qadın) yaşadığı bildirilir.

Qeyd etmək lazımdır ki, 1827-ci ilədək indiki Füzuli rayonunun adı "Molokan" adlanıb. Bu onunla əlaqədar idiki, hələ 1822-ci ildə Qarabulaq qışlağı (kəndi) ərazisinə çar Rusiyasının mərkəzi quberniyalarından ucqarlara köçürmə siyasətinin nəticəsi olaraq 46 molokan ailəsi köçürülmüşdü ("molokan" rusca "süd kimi pak" qidalananlara deyilirdi. "Molokanlar"ın öz dini təriqətləri vardı və onlar bunu süd kimi pak" adlandırırdılar. Təriqətin adı da elə bundan götürülmüşdü. Təriqətin başçısı Semyon Ukleyin hesab olunurdu). Molokanlar əvvəlcə Tombov quberniyasından Zəngəzurun ərazisinə - Bazarçay kəndinə gəlib məskunlaşsalar da, burada çəyirtkə onların əziyyətlə becərdikləri məhsulları (taxıl, arpa, qarğadalı, kələm, çuğundur və s.) tələf etdiyi üçün hamılıqla Qarabulaq kəndinə gəlib burada həmişəlik məskunlaşmışdılar. Bundan sonra, yaşayış məntəqəsi bir müddət "Molokan" adlandırılmışdı. İşgüzar molokanlar yerli qarabulaqlılarla tez dil tapmış və ünsiyyət bağlamışdılar. Onların saldıqları "Molokan bazarı" deyilən bazar bütün ətraf yerlərdən əhalinin axışıb gəldiyi izdihamlı tricarət mərkəzinə çevrilmişdi. Buraya nəinki Qarabağın hər yerindən, hətta İrandan ticarət məqsədilə çoxlu tacirlər gəlirdi. "Molokan" adlanan mərkəz 1827-ci ildə Qarabulaq yaşayış məntəqəsi adlanmağa başlamışdı. Odur ki, Füzulinin

bir adı da əhali arasında çağrılan "Molokan" rayonu olmuşdur). (Yeri gəlmişkən, Füzulinin adına xalq arasında "Ərgünəş", "Maralyan", "Azıx", " Aşağı Güzlək" və s. də demişlər).

Füzuli rayonu tarixdə "Fioletovka" da adlanmışdır. Füzuli şəhərinin mərkəzindən 1 kilometr məsafədə, onun qərb hissəsində yerləşən, xalq arasında və tarixi mənbələrdə "Qızılqışlaq" adlanan yaşayış hissəsi vaxtilə "Fioletovka" adlandırılmışdı. Bu, həmin hissədəki küçəyə 1918-ci il sentyabrın 20-də Türkmənistanda güllələnən 26 Bakı komissarından biri - bolşevik İvan Fioletovun (19 dekabr 1883 - 20 sentyabr 1920) adının verilməsindən sonra olmuşdur...

Azərbaycan Cümhuriyyəti dövründə Cəbrayıl qəzasının tərkibində olan Füzuli ərazisi inzibati idarəçilik cəhətdən Birinci Böyük Bəhmənli (tarixdə Böyük və bala Bəhmənli kəndlərinin adı Saday bəy obası kimi də tanınır. Vaxtilə, Nadir şah Əfşar 1735-ci ildə Bəhmənli oymağının böyük qismini Xorasan (İran) əyalətinin Sərəxs adlanan ərazisinə sürgün etmişdi. Bəhmənli oymağının başçılarından biri Ağa bəy olmuşdur. Ağa bəyin Bəylər bəy adlı qardaşı vardı. Ağa bəy və övladları Bəhmənli obasında məskunlaşmışdılar. Ağa bəyin oğlu Baba bəy (1796) bir müddət Bala Bəhmənli obasına başçılıq etmişdir. Ağa bəyin digər qardaşı Alı bəyin də Əhməd bəy (1798) adlı oğlu vardı. Əhməd bəy hazırkı Əhmədbəyli kəndinin əsasını qoymuşdur...) polis sahə pristavlığına, İkinci Horadiz polis sahə pristavlığına və Üçüncü Cəbrayıl polis sahə pristavlığına ayrılmışdı. Birinci sahə polis pristavlığının pristavı Həbib Məhərrəmov, İkinci sahə polis pristavlığının pristavı Həsən bəy Vəzirov və Üçüncü sahə polis pristavlığının pristavı Camal bəy Əlibəyov (1907-1937) idi.

**Qeyd:** *1593-cü il Osmanlı qaynaqlarından birində indiki Füzulinin Horadiz kəndinin də adı çəkilir."Horadiz" irandilli (fars) sözdür; "hor" "od", "günəş", "işıq","diz" "qala", yəni "Günəş qalası", "qala kənd" ("məskən, yurd, qala" anlamındadır). 17-ci əsrin ikinci yarısında kəndin sahibi Səfəvi dövlətinin (1501-1736) adlı-sanlı əmirlərindən biri Xələf bəy idi. 1823-cü ilə aid rus mənbəyində bildirilir ki, Horadiz kəndi Cəfərqulu xana məsusdur).*

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra, 1920-ci il iyulun 29-da Karyagin Qəza İnqilab Komitəsinin sədri Məmmədxan Məmmədxanov onun qərargahını Qoçəhmədli kəndinə köçürmüşdü...(Burada "Qoçəhmədli" sözü, "qoç"-"igid", "cüssəli", "qəhrəman" deməkdir, "əhmədli" isə etnonimdir. Qoçəhmədli bu kənddə ilkin məskunlaşmış nəslin adıdır).(1593-cü ilə aid Osmanlı qaynaqlarından birində bildirilir ki, Gəncə-Qarabağ əyalətinin Dizaq nahiyəsində Qoçəhmədli kəndi mövcuddur). Qoçəhmədli kəndi 1867-1905-ci illərdə Cəbrayıl qəzasının tərkibində olmuşdur.

1929-cu ilin yazında aparılan yeni inzibati ərazi bölgüsünün tətbiqi və rayonlaşmaya keçilməsiylə əlaqədar olaraq, respublikadakı bütün qəzalar, o cümlədən Karyagin qəzası da ləğv olundu, əvəzində rayon yaradıldı. Bu dəfə yeni yaranan rayona daha Karyaginin adı verilmədi. Rayon Sərdar rayonu adlandırıldı. Beləki,1929-cu il martın 1-də Azərbaycan XKS əslən Qarğabazar kəndindən olan ("Qarğabazar" adına hələ 1724-cü il tarixli bir türk qaynağında rast gəlinir. Kəndin mənşəyi burada ilkin məskun olmuş Qarqar türk tayfasının adı ilə əlaqələndirilir. Qarğabazar karvan yolları üzərində yerləşirdi. Burada səsli-küylü, izdihamlı, gur bazar da mövcud idi. Məhz bazarın olması ilə əlaqədar sonralar kəndin adı "Qarqar bazarı", "Qarqarlar bazarı" adlandırılmış, zaman-zaman hallalanaraq "Qarğabazar" şəkilinə düşmüşdür) məşhur inqilabçı Bünyad Sərdarovun (həqiqi soyadı İbrahimovdur) 1919-cu ildə faciəli vəfatının (Bünyad Bakıda çarizmə qarşı mübarizə dövründə, Balaxanı neft mədənlərində işlərkən inqilabi fəaliyyəti zamanı - 1908-ci ildə təqibdən yaxa urtarmaq üçün "Sərdarov" soyadını götürmüşdü. O, 1919-cu ilin yazında "İbrahim Ata" pasportu ilə gecə ikən kiçik balıqçı qayığında Həştərxandan Xəzərə çıxıb (qayıqda silah və s. vardı) Bakıya yollanarkən "Çeçen adası" deyilən yerin yaxınlığında ağqvardiyaçı keşikçi gəmisi tərəfindən yaxalanmış, çoxlu işgəncələrdən sonra boynuna daş bağlanmaqla, güllələnərək dənizdə batırılmışdı.) 10-cu ildönümü ilə əlaqədar olaraq, Karyagin rayonuna və şəhərinə Sərdar adını vermişdi. Lakin SSRİ XKS-in təzyiqi altında Azərbaycan SSR XKS 1931-ci ilin əvvəlində Sərdar adını ləğv edib, yenidən Karyaginin adını bərpa etmişdi. Sərdar rayonu RPK-nın ilk 1-ci katibi Məmməd Əsədov, RİK-in ilk sədri Əziz Nuriyev və Rayon Milis İdarəsinin ilk sədri Əbdül Məmmədov olmuşdular. Beləliklə, Karyagin adı 1931-ci ilin əvvəlində yenidən bərpa olun-

muşdu. Bu ad 1959-cu ilin aprelinədək qalmışdır (Karyagin rayonuna xalq arasında uzun müddət "Qaryagin" demişlər. Hətta rəsmi sənədlərin bir çoxunda, tarixi ədəbiyyatlardada "Qaryagin" adı yazılmışdır. Hələ indinin özündədə belə deyənlər var). 1959-cu il aprelin 2-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə dahu şair Məhəmməd Füzulinin (1494-1556) anadan olmasının 400 illiyi şərəfinə Karyagin adı ləğv edilmiş, rayona və Karyagin şəhərinə M. Füzulinin adı verilmişdir ("Füzuli" ərəb sözüdür, "həddi bilinməyən","həddini aşan" deməkdir). Əlli min nəfərə yaxın əhalisi qeydə alınmış Füzuli şəhəri və rayonun böyük hissəsi 23 avqust 1993-cü ildən erməni qəsbkarları tərəfindən işğal olunmuşdur (Kiçik Qafqazın cənub-şərq qurtaracağı ilə Araz çayı arasında 1386 kv. km. ərazisi olan Füzuli rayonunun yalnız 22 kəndi işğalda deyildir. Hazırda rayonun inzibati mərkəzi Horadiz şəhərindədir. Azərbaycan Respublikasının 2007-ci il 23 oktyabr tarixli qərarı ilə Horadizə şəhər statusu verilmişdir.

QUBADLI. Qarabağ yaylasının cənub-şərqində yerləşir. 16-cı əsrin sonunda Azərbaycana köçmüş səlcuq türklərinə mənsub Qubad nəslinin adını daşıyır. Tarixin müxtəlif dövrlərində Qubadlıya "Aşağı Xoca Musaxlı" (19-cu əsrin ikinci yarısında Zəngəzur qəzasında yaşayan yerli tayfanın adıdır), "Dondarlı" (orada yaşayan qədim, döyüşkən dondarlı türk tafalarının adıdır), "Xanlıq", "Məmmədli", "Yuxarı Cibikli", "Sarıyataq" da demişlər. İnzibati ərazi vahidi kimi Qubadlı rayonu 1933-cü ildə təşkil olunmuşdu. Ərazisi 826 kv. km., əhalisi 31.000 nəfər idi. 1963-cü il yanvarın 4-də ləğv edilmiş və ərazisi Zəngilan rayonuna verilmişdi. 1964-cü ildə yenidən müstəqil rayon olmuşdur. Qubadlı 31 avqust 1993-cü ildə Ermənistan "silahlı qüvvələri" tərəfindən işğal edilmişdir. Ermənistan Respublikası rəhbərliyinin Azərbaycan (türk) mənşəli toponomlərin erməni adları ilə əvəz edilməsi siyasətinə uyğun olaraq işğal altında olan Qubadlı şəhəri indi "Sanasar" adlandırılmışdır.

ZƏNGİLAN. Zəngilan Kiçik Qafqazın cənub-qərbində, Arazın sol sahilində yerləşir. Şimaldan Qubadlı və Cəbrayıl, qərbdən Ermənistanla, cənubdan və şərqdən İranla həmsərhəddir. XV əsrin məşhur coğrafiyaşünası və tarixçilərindən biri yazırdı ki, Zəngilanın əsası hicri tarixin 15-ci ilində axırıncı Peyğəmbərimiz Məhəmməd Əleyhissalamın (570-632) 622-ci ildə Məkkədən Mədinə şəhərinə hicrət etməsi ili ilə başlanır, yəni əsası 636-cı ildə qoyulub. "Zəngilan" həmin ərazidə ilk məskən salmış "zəngənə", "zəng" adlı kürd qəbiləsinin adını daşıyır.Tarixin müxtəlif dövrlərində Zəngilana Sarıqışlaq, Pirçivan, Məmmədli, Mincivan, Saralı-Xəştab (yəni "Saralı tayfasına məxsus qışlaq" da demişlər. İndiki Zəngilan rayonu 8 avqust 1930-cu ildə təşkil olunmuş, 1959-cu ilədək "Pirçivan" adlanmışdır. 1963-cü il yanvarın 4-də qonşu Qubadlı rayonu da ləğv edilmiş və Zəngilan rayonuna verilmişdi. 1964-cü ildə Qubadlı yenidən müstəqil olduğundan ərazisi Zəngilandan ayrılmışdı. Zəngilan 29 oktyabr 1993-cü ildə Ermənistan "silahlı qüvvələri" tərəfindən işğal olunmuşdur.

CAVANŞİR QƏZASI. Mərkəzi Tərtər kəndi idi. İnzibati ərazi vahidi kimi çar hökumətinin "Qafqazda inzibati islahatlar haqqında" 9 dekabr 1867-ci il tarixli fərmanına əsasən Yelizavetpol quberniyasına daxil olan 8 qəzadan biri kimi 1 yanvar 1868-ci ildə yaradılmışdı. Ərazisi 4654,06 kv. verst, əhalisi 75730 nəfər idi. Əhalinin 54,79 faizini kişilər, 45,20 faizini qadınlar təşkil edirdi. 1 iyul 1883-cü ildə Cavanşir qəzası inzibati dəyişikliklərə uğramışdı... Mərkəzi Tərtər məntəqəsi idi. Tərtər orta əsrlərdə "Trtu" adlanmışdır. 1920-ci il aprelin 22-də Azərbaycan hökumətinin qərarı ilə Cavanşir qəzası bir sıra dəyişilkilər əsasında yenidən təşkil olunmuşdu. Mərkəz yenə Tərtər idi.Tərtər 1922-ci ilədək Cavanşir qəzasının tabeliyində idi. 1922-ci ildə Cavanşir sahəsi adlandırılmışdı. Cavanşir sahəsi 7 iyul 1923-cü ildən 1930-cu ilin avqustunadək Qarabağ dairəsinin tabeliyində olmuşdu. 1930-cu il avqustun 8-də Tərtər rayonu yaradılmışdı. 1931-ci il fevralın 24-də Tərtər rayonu ləğv edilərək, Bərdə rayonunun inzibati tabeliyinə verilmişdi. 27 yanvar 1934-cü ildə yenidən müstəqil olmuşdu. 1949-cu ilədək "Tərtər" adı ilə mövcud olan Tərtər rayonunun adı 5 avqust 1949-cu ildə dəyişdirilərək Mirbəşir rayonu (sovet dövlət xadimi Mirbəşir Qasımovun şərəfinə) adlandılmışdı.1963-cü il yanvarın 4-də Mirbəşir rayonu da ləğv edilərək Bərdə rayonuna verilsədə, lakin 6 yanvar 1965-ci ildə yenidən Mirbəşir adı ilə müstəqilliyini qaytarmışdı. Qədim Yuxarı Qarabağın mərkəzində, Kür-Araz ovalığının qərb hissəsində, Tərtərçayın sağ və sol sahillərində yerləşən Tərtər rayonu şimaldan Ağdərə, cənubdan

Bərdə (qədim Bərdə şəhəri də Tərtər çayının sahilində idi... Onun yeri indiki Bərdənin yaxınlığında olmuşdur. Bərdə" türkcə "Piyaləli", "Kuzəli" mənasını bildirir. Farsca isə "qul yeri" deməkdir. Erməni mənbələrində Bərdə "Partav" adlandırılır. Bərdə Arranın (Albaniyanın) paytaxtı (752-ci ildən) olmuşdur. Əslində, "Aran", yəni dağlıq yerə nisbətən alçaq, düzən yer, "qışlaq yeri", "isti yer" deməkdir. Arran deyəndə Kur və Araz çaylarının arası, qovuşduğu yer başa düşülürdü. Ərəblər Aranı "Arran" şəkilində söyləmişlər. Bərdəni "Arranın anası"da adlandımışlar. Bərdə qədim türk dillərində "aran" - "isti yer" deməkdir. Aran Qarabağı deyiləndə, Qarabağ tayfasının qışlaq yeri başa düşülür. Tarixin müxtəlif dönəmlərində Bərdəyə "Qurdlar, "Böyük Qacar", "Bala Qacar", Bük ("meşəlik", "kolluq", "cəngəllik") demişlər. Bərdə rayonu 8 avqust 1930-cu ildə təşkil olunmuşdur) qərbdən Ağdam, şimali-şərqdən Naftalan (1968-ci ildə yaradılıb) və Goranboy (1930-cu ildə yaradılıb. 1938-ci ildən Qasım İsmayılov (1885-1922) rayonu (inilabçı Qasım İsmayılovun şərəfinə adlanıb. Qasım İsmayılova "Şadılı" da deyilib, yəni Şadılı tayfasına mənsub), cənub-şərqdən Yevlax rayonları ilə həmsərhəddir (Yevlaxın ilkin adı "Ovlaq" şəkilində olub. Ovlax adı ilk dəfə 16-cı əsr Azərbaycan tarixçisi Həsən bəy Rumlunun (1530-cu ildə Qum şəhərinsdə anadan olmuşdu) "Əhsən ət-təvarix" (Tarixlərin ən yaxşısı" əsərində çəkilmişdir. 1879-88-ci illərdə Bakı-Tiflis dəmiryolu çəkiləndə, burada işləyən rus mühəndisləri əraziyə aid olan "Ovlaq" sözünü "Yevlax" kimi işlətmiş, dəmir yolu stansiyasını bu adla adlandırmışlar. Həmin vaxtdan "Yevlax" sözü Azərbaycan dilinə daxil olub. Ümumiyyətlə, bu yerlər əvvəldən ovlaq yeri olub. Tədqiqatçılara görə bu yerin əsl qədim adı elə "Ovlaq"dır. Yevlaxa korkın adlı qədim oğuz türk tayfasının adı ilə "Aşağı Qarxun" da demişlər. Azərbaycan Cümhuriyyəti dövründə Yevlax stansiyası ("Vağzal" da deyirlər) və Yevlax kəndinin ərazisi Ərəş və Cavanşir qəzalarının tərkibində olmuşdu. 1928-ci ildə Yevlaxda pambıqtəmizləmə zavodu işə salınmışdı. 1935-ci il fevralın 20-də Azərbaycan MİK-in qərarı ilə Yevlax rayonu təşkil olunmuşdu. Həmin ilin mayında Yevlax rayon mərkəzinə çevrilmişdi. 1939-cu il fevralın 1-də Yevlax rəsmən şəhər adlandırılmışdı. 1962-ci il dekabrın 26-da Yevlax



rayonu ləğv edilərək, ərazisi Ağdaş, Bərdə və Qasım İsmayılov (Göranboy) rayonlarına verilmişdi (Qədim tarixə malik Goranboy rayonu Azərbaycan MİK-in 8 avqust 1930-cu il tarixli qərarı ilə yaradılmışdı. 8 sentyabr 1938-ci ildə adı dəyişdirilərək Qasım İsmayılov adlandırılmışdı. Bu, məşhur inqilabçı, 1922-ci ildə sovet hakimiyyətinin düşmənləri ilə mübarizədə öldürülmüş Qasım İsmayılovun (1885-1922) şərəfinə belə adlandırılmışdı. Azərbaycan Respublikası Ali Sovetinin 12 fevral 1991-ci il tarixli qərarı ilə Şaumyan (kənd) rayonu və Qasım İsmayılov adı ləğv edilmiş və Goranboyun tarixi adı özünə qaytarılmışdır. İndiki Yevlax rayonu 6 yanvar 1965-ci ildən müstəqildir). Coğrafi mövqeyinə görə Qərblə Şərq arasında keçən karvan yollarının üstündə olduğundan Tərtər tarixdə "Çaparxana" (Karvansara) və qala vəzifəsi daşıdığı üçün "Çəpərxana" adlanmışdır. 1963-cü ildə ləğv edilərək ərazisi Bərdə rayonuna verilmişdi. 1965-ci ildə yenidən müstəqil rayondur. Uzun müddət, 5 avqust 1949-cu ildən Mir Bəşir rayonu (Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Mirbəşir Qasımovun (1879-1949) şərəfinə) adlanmışdır. Mirbəşirə "Apanlı"da demişlər. 1991-ci il fevralın 7-də Mirbəşir adı ləğv edilmiş və Tərtər rayonu adı özünə qaytarılmışdır. Azərbaycan Respublikası MM-in 13 oktyabr 1992-ci il tarixli 327 nömrəli qərarı ilə Ağdərə rayonu da ləğv edilərək, Ağdərə qəsəbəsi və 28 kəndi ilə birlikdə Tərtər rayonuna verilmişdir. Həmin 28 kənddən 13-ü və Ağdərə qəsəbəsi hazırda erməni işğalı altındadır.

Cavanşir Qəza İdarəsinin rəisi (aylıq məvacibi 3.000 manat) Mustafa bəy Qabulov (1920-ci ilin əvvəli), onun böyük köməkçisi İsmayıl bəy Hacıbəyov, kiçik köməkçisi Baqrat Kaçançyans. 1-ci sahə polis pristavlığı. Pristav Ərəblinski. 2-ci sahə polis pristavlığı. Pristav Əbdürrəhim Hacıverdiyev. 3-cü sahə polis pristavlığı. Pristav Bahadur bəy Əlikişibəyov. 4-cü sahə polis pristavlığı. Pristav Sergey Sarkisyans. 5-ci sahə polis pristavlığı. Pristav Yegişe Ter-Akopov. Yevlax qəsəbə polis pristavlığı. Pristav İmran Kazımov idi.

Beləliklə, 1920-ci ilin aprelinədək, yəni M. Vəkilovun daxili işlər naziri olduğu dövrdə Azərbaycan Respublikası DİN-in təşkilati-struktur mənzərəsi 4 quberniya (Bakı, Gəncə, Zaqatala quberniyaları, Qarabağ general-qubernatorluğu) və 10-dan çox qəzalar üzrə

mövcud olub fəaliyyət göstərən ölkə polisi haqqında, DİN-in yuxarıdan aşağı təşkilat və strukturu haqqında aydın təsəvvür yaradır. İstər DİN-də, onun mərkəzi və yerli aparatlarında və istərsədə, qəzalarda polis əməkdaşları azərbaycanlılarla yanaşı ruslar, yəhudilər, gürcülər, ermənilər, polyaklar, ukraynalılar, ləzgilər, talışlar, osetinlər və s. xalqların, millətlərin nümayəndələri xidmət göstərirdilər. Daxili İşlər Nazirliyi sistemində işləyən əməkdaşların bu cür beynəlmiləl kontingentdə olması Azərbaycan Cümhuriyyəti Parlamentinin və Hökumətinin ölkə ərazisində yaşayan bütün millətlərə və xalqlara eyni gözlə, bərabərhüquqlu vətəndaşlar kimi, başqa sözlə, demokratiya prinsipindən yanaşmasının nəticəsi idi.

Qeyd etmək lazımdır ki, Azərbaycan Cümhuriyyəti dövründə Hökumətin 6 mart 1920-ci il tarixli qərarı və daxili işlər naziri M. Vəkilovun əmri ilə həmin vaxtadək DİN-in tərkibində olan Əks-Kəşfiyyat İdarəsi (sovet tarixi ədəbiyyatında "Müsavat Əks-Kəşfiyyatı" kimi yazılır. Əslində, Əks-İnqilabla Mübarizə Təşkilatıdır ...) Nazirliyin strukturundan çıxarılmışdı.

... V. İ. Leninin başçılıq etdiyi sovet Rusiyası hələ 1920-ci ilin əvvəllərindən Azərbaycandakı bolşeviklərin köməyi ilə milli müstəqil dövlətimizin varlığına son qoymaq üçün əlverişli şərait və bəhanə gözləyirdi. Bunu V. Leninin İ. T. Smilqaya və S. Orconikidzeyə 1920-ci il martın 17-də göndərdiyi teleqram da sübut edir. Teleqramda deyilirdi: "Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün qüvvələri buna yönəldin. Qüvvələrin ora yeridilməsi haqqında Baş komandanlıqla şərtləşin".

1920-ci ilin aprelində Şimali Qafqazda ağqvardiyaçı general Denikini məğlub edən 11-ci ordu hissələri V. Leninin həmin niyyətini əməli olaraq həyata keçirmək üçün M. Levandovskinin (1890-1938) komandanlığı altında Dərbənd rayonunun Azərbaycanla sərhədboyu ərazilərində cəmləşməyə başlamışdı.Yeri gəlmişkən, burada Azərbaycan Cümhuriyyəti ilə Denikin (Anton İvanoviç Denikin. Görkəmli rus hərbi xadimi, çar ordusunun general-leytenantı, "ağlar" hərəkatının rəhbəri (1872, Polşa -1947, ABŞ) hökuməti və ordusu arasındakı münasibətlər üzərində dayanaq. Belə ki, Denikin hökuməti və ordusu Azərbaycandakı milli müstəqil demokratik hökumətin fəaliyyətini bu və ya digər dərəcədə müdafiə etmişdir.



Bunu bəzi tarixi faktlar da sübut edir. Məsələn, Denikin hökuməti Bakı XKS-in Azərbaycan neftini sovet Rusiyasına göndərməsinə mane olmaqla əslində, bir növ Azərbaycan Cümhuriyyətinə kömək edirdi. İngilislərə də yaxın olan Denikin Azərbaycan hökumətinin Britaniya komandanlığı ilə normal münasibətlərdə olduğunu bilərək, hətta 11-ci ordu ilə döyüşlərdə məğlub olduqdan sonra belə, Azərbaycan Respublikasına qarşı sovet Rusiyası daşnak Ermənistanı tərəfindən günü-gündən güclənən təcavüzkarlığı görərək, Azərbaycan hökumətinə öz istiqlaliyyətini qorumaq üçün silahla kömək göstərmişdi...

Tarixi ədəbiyyatda Denikin ordusunun 1920-ci ilin aprelində gəmilərlə Lənkərana hər cür silah-sursat, hətta aeroplanda göndərməsi barədə məlumat vardır. Həmin silah və döyüş sursatlarını, hərbi ləvazımatların Gəncəyə çatdırılmasını Azərbaycan hökuməti daxili işlər naziri M.Vəkilovun başçılıq etdiyi Daxili İşlər Nazirliyinə həvalə etmişdi. Nazir M. Vəkilovun müvafiq gizli əmrilə Saloğlu (indiki Poylu-Ağstafa) dəmiryol polisinin pristavı İsrafil İbrahimov (1897-1937) həmin silahların Gəncəyə aparılmasını təmin etmişdi. Bu silahlardan Azərbaycan Ordusunun əsgər və zabitləri, sovet hakimiyyətini qəbul etməyən milli qüvvələrimiz Gəncədə üsyana qalxarkən, 1920-ci il mayın 24-dən iyunun 4 - dək 11-ci orduya qarşı döyüşlərdə istifadə etmişdilər.

**Qeyd:** *20-30-cu illərdəki repressiyalar dövründə Bakıda həbs olunaraq güllələnməyə məhkum edilmişlərin demək olar ki, əksəriyyəti Xəzər dənizindəki "Nargin"(əslində, "Böyük Zirə") adasından başqa daha müdhiş bir yerə - "ölüm adası"na aparılırdılar. Barəsində mərhum akademik Ziya Bünyadovunda bəhs etdiyi həmin "qorxunc" ada "Xarə Zirə" (indiki Bulla) adasıdır...("Zirə" "çökəklik yer" deməkdir*

Beləliklə, Denikin hökuməti ilə Azərbaycan Cümhuriyyəti arasında müəyyən müsbət mənafe əməkdaşlığı aparıldığı aşkar olur. Hətta, Gəncədə Denikin ordusu zabitlərinin gizlənib bolşeviklərə qarşı döyüşlərdə milli qüvvələrimizə kömək göstərmələri faktı da məlumdur. Odur ki, Rusiyanın xalq xarici işlər komissarı G. Çiçerin (1872-1936) hələ 1920-ci ilin yanvarında Azərbaycan Cümhuriyyətinin xarici işlər naziri F. Xoyskiyə yazanda ki: "Biz hökumətinizi o

vaxt tanıyarıq ki, siz Denikinə qarşı çıxasınız". F. Xoyski cavabında yazmışdı: "Biz müstəqil dövlətik, başqa dövlətin işinə qarışmırıq".

Yuxarıda bəhs etdiyimiz faktlara əsaslanaraq deyə bilərik ki, Denikin hökumətinin və ordusunun müstəqil Azərbaycan Cümhuriyyətinin ərazisini açıq qəsb etmək niyyəti olmayıb... Açıq qəsbkarlıq planını bolşevik Rusiyası, onun təcavüzkar 11-ci ordusu hazırlamışdı və həyata keçirmək üçün fürsət gözləyirdi. Sənədlər sübut edir ki, hələ Dərbənddə ikən 1920-ci il aprelin 25-də 11-ci ordu komandanlığı "Bakı üzərinə hücum və "Azərbaycanın azad edilməsi haqqında" xüsusi əmr hazırlamışdı. Əmrdə deyilirdi: "Müxtəlif mənbələrdən alınmış məlumatlara görə, Azərbaycan Cümhuriyyətinin ordusu 12 minlik bir piyada diviziyadan (bunlar Bakı, Göyçay, Zaqatala, Gəncə və Qazax polklarıdır), 2 min nəfərlik polisdən, 300 nəfərlik Parlamenti mühafizə dəstəsindən və 400-500 nəfərlik yunker məktəbinin şəxsi heyətindən ibarətdir. Ordunun ümumi sayı 30 min nəfərə çatır. Azərbaycan Cümhuriyyətinin qüvvələri 1920-ci il aprelin birinci yarısında aşağıdakı kimi yerləşmişdir: Dağıstan vlayəti və Azərbaycanın Qusar-Quba-Xudat rayonlarının sərhədində 5 min nəfər ; bilavasitə sərhəddə "jandarm" (əslində, sərhədi mühafizə polisi) divizonu dayanır. Bakı şəhərində Bakı piyada polku, 2 min nəfərlik polisin ehtiyat batalyonu və 300 nəfərlik Parlamenti Mühafizə Dəstəsi yerləşir".

Ermənilər də Bakının və bütövlükdə Azərbaycanın 11-ci "qızıl ordu" tərəfindən tutulmasının sürətləndirilməsi üçün dəridən qabıqdan çıxırdılar. Belə ki, hələ 1920-ci ilin əvvəllərində erməni nümayəndələri Zaxaryan və Pirumov Moskvaya gedib, ərazi güzəştləri müqabilində Azərbaycan Cümhuriyyətini devirmək işində "öz təkliflərini" və "xidmət"lərini bildirmişdilər. Qarabağda ermənilərin qiyamı və daşnak Ermənistanıyla Azərbaycan Cümhuriyyəti arasında müharibə də planlaşdırılmışdı. 72 minlik 11-ci ordu hissələrinin şimal sərhəddimizə - Samur çayı sahilinə cəmləşdiyi Novruz Bayramı günlərində, 1920-ci il martın 21-22-də Dağlıq Qarabağ ermənilərinin təxribat xarakterli qiyamı başlanmışdı. Antanta dövlətlərinin (İngiltərə, Fransa, ABŞ) etirazına baxmayaraq, 11-ci ordu hissələri Azərbaycan sərhəddinə yeridilmişdi (40 minlik Azərbaycan ordusunun demək olar, hamısı bu zaman Azərbaycanın qərbinə - Ermənistanla sərhədə - Zəngəzura və Qarabağa yerləşdirilmişdi).



Lakin Azərbaycan Cümhuriyyətini ciddi təhlükə daşnak Ermənistanından deyil, daha ciddi təhlükə şimaldan təhdid edirdi. 1920-ci il aprel ayının 18-də Quba qəzasının rəisi Səlim bəy Ağakişibəyov (o, bu vəzifəyə daxili işlər naziri M.Vəkilovun 14 mart 1920-ci il tarixli əmri ilə təyin olunmuşdu. S. Ağakişibəyov bunadək Şamaxı qəzasının rəisi vəzifəsində çalışırdı) Daxili İşlər Nazirliyinə, nazir M.Vəkilova gönfərdiyi məxvi teleqramda Azərbaycanın sərhədlərinə toplaşmış 11-ci ordu hissələrinin hazırlığı və hərəkətləri barədə məlumat vermişdi...

1920-ci il aprel ayının 21-də Qafqaz cəbhəsi komandanlığının rəhbərliyinə və Volqa-Xəzər donanmasının komandanı F. Raskolnikova (Fyodr Raskolnikov. 28 yanvar 1892, Peterburq - 12 sentyabr 1939, Nitsa, Fransa; Trotskiçi siyasi mühacir), RSFSR Hərbi İnqilab Şurasının üzvləri marşal M. N.Tuxaçevski (1893-1937. 30-cu illərdə repressiyaya məruz qalmış və 1937-ci ildə güllələnmişdir...), S. Orconikidze və Zaxarovun imzası ilə göndərilən direktivdə bildirilirdi ki, Azərbaycanın əsas qüvvələri öz dövlətinin qərb cəbhəsində məşğuldur. Direktivdə əmr olunurdu ki, aprelin 27-də Azərbaycanın sərhəddini keçib, 5 gün ərzində "Yalama-Bakı əməliyyatı"nı yerinə yetirsinlər. Lakin aprelin 23-də bu direkdivdə dəyişiklik edildi və əmr olundu ki, 11-ci ordunun vəzifəsi təkcə Bakını tutmaq deyil, bütün Azərbaycanı ələ keçirməkdir...

21 aprel 1920-ci il. Azərbaycan Cümhuriyyəti DMK-nın və DİN-in birgə qərarı ilə şimaldan yaxınlaşan 11-ci ordu ilə mübarizə məqsədilə Quba qəzasında 200 nəfərlik daimi "xalq milisi " yaradılmış və onun dərhal təşkili üçün 2 milyon rubl avans pul ayrılmışdı. Qərara əsasən düşmənə qarşı əməliyyatların başlanacağı təqdirdə, xalq milisinin bütün şəxsi heyəti Hərbi Nazirliyin müvafiq hərbi hissə komandanlığının sərəncamına keçməli idi.

1920-ci il aprelin 26-da Azərbaycanla müharibə vəziyyətində olan Ermənistan daşnak hökuməti Azərbaycan Cümhuriyyəti ilə güya "barışıq" imzalamaq xahişi ilə ona müraciət etdi. Lakin bu, növbəti riyakar fənd idi və hadisələrin gələcək "məcrası"na təsir edə bilməzdi. Azərbaycan Cümhuriyyətinin müqədəratı əslində,

Moskvada həll olunmuşdu. Bakıda milli mənafeyimiz əleyhinə canfəşanlıqla fəaliyyət göstərən Anastas Mikoyanın (1895-1978) başçılıq etdiyi bolşeviklərin nümayəndə heyəti Dağıstanın Port-Petrovsk (Mahaç Qala, dağıstanlılar onu məşhur Şeyx Şamilin şərəfinə "Şamil-Qala" da adlandırırlar) şəhərində yerləşən 11-ci ordu komandanlığının qərargahına gələrək, Azərbaycan xalqı adından (?) sovet-rus ordusunu məmləkətimizə dəvət etmişdi. S. Orconikidze, S. M. Kirov və başqalarının yaxından köməyi və 11-ci ordunun Hərbi İnqilab Şurası ilə qabaqcadan razılaşdırılmış plana əsasən, "qızıl ordu" Bakıda onun gəlişini səbirsizliklə gözləyən və müstəqil Azərbaycan Cümhuriyyətini devirməyə hazırlaşmış Ə. H. Qarayev, H. Sultanov, H. Cəbiyev, L. Mirzoyan və digərlərinin səyi ilə aprelin sonunda Azərbaycana soxulmalı idi. Bununla da, beynəlxalq aləmdə belə bir "fikir" yaradılmalıydı ki, Azərbaycan hökuməti xarici hərbi müdaxilə vasitəsilə deyil, məhz daxili müxalif qüvvələrin "inqilab" etməsi yolu ilə devrilmişdir.

Ancaq buna bir növ ehtiyac qalmadı. Aprel ayının 27-də Mixail Levandovskinin komandanlıq etdiyi 11-ci "qırmızı ordu" artıq Azərbaycan sərhəddini keçmişdi. Azsaylı Azərbaycan Ordusunun qüvvələri sovet ordusunun avanqardı, Mixail Yefremovun (1897-1942) komandirlik etdiyi "Üçüncü Beynəlmiləl" zirehli qatarın müşayiəti ilə Bakıya doğru hərəkət edən dəstələrinə qarşı uzun müddət müqavimət göstərə bilməsədə, Yalama stansiyası uğrunda 2 saatlıq davam edən qanlı döyüşdə düşmənə qarşı 4 topu və 10 pulemyotu olan Quba piyada alayının iki taboru və 200 nəfərə yaxın polisin mühafizə dəstələri vuruşmuşdu.

Həmin hadisələrin iştirakçısı olmuş bolşevik E.Y. Blyumin sonralar xatirələrində 11-ci ordunun 1920-ci il aprelin 27-də şimaldan irəlilədiyi vaxt səhər saat 4-də Xaçmaz-Quba sərhəddində keşik çəkən və atların üstündə mürgüləyən, tez-tez oyanıb ətrafa diqqət kəsilən 200 nəfərlik "jandarma" dəstəsi ilə rastlaşdığından yazırdı. Həmin rastlaşma zamanı Azərbaycan ordu hissələri və "Jandarma"- gözətçi dəstələri ilə döyüşdə "qırmızı" rus əsgərlərindən 6 nəfər öldürülmüş, 2 nəfəri isə yaralanmışdı...

XI "qırmızı" ordunun hücumu ərəfəsində və zamanı Azərbaycan Cümhuriyyətinin xarici və daxili vəziyyətində mürək-



kəb durum, o cümlədən Parlamentdə hökumətin tərkibində böhran hokm sürürdü... Sovet Rusiyasına qarşı sərt və barışmaz xəttin tərəfdarı olan xarici işlər naziri F. Xoyski qrupu və güzəşt siyasətinə tərəfdar olan, sabiq daxili işlər naziri M. H. Hacınski qrupu arasında ixtilaflar dərinləşmişdi. Yeni hökumət təşkil etmək Parlament tərəfindən M. H. Hacınskiyə tapşırılsada, o, bu vəzifəni həll edə bilməmişdi. M. H. Hacınski kommunistlərin də daxil olması şərtilə koalisyon hökumət yaradlmasını təklif etsədə, bolşeviklər ondan imtina etdilər. Bundan dərhal, özüdə olduqca saymazyana istifadə edən 11-ci ordu hissələri sürətlə irəliləyərək, Bakıya çatmaqdaydı.

Belə tarixi şəraitdə Azərbaycan Parlamentində kəskin mübahisələr gedirdi. 1920-ci il aprelin 27-də, gündüz saat 12-də H. Sultanovun başçılığı ilə AK(b)P MK və RK(b) P-nin Qafqaz Ölkə Komitəsinin Bakı Bürosu adından hakimiyyəti təhvil vermək haqında ultimatum təqdim edilmişdi. Ultimatumda bildirilirdi ki, hakimiyyət heç də ruslara deyil, azərbaycanlı kommunistlərin ixtiyarına keçəcək. Burada Rusiya ordusunun güya Anadoluya (Türkiyə) gedib xarici düşmənləri qovacağı və bununla əlaqədar Xəlil paşanın da (1881-1957) (Ənvər paşanın əmisi idi...) səlahiyyətli nümayəndə kimi onunla getməsinə icazə verilməsinin zəruriliyi də müzakirə olunmuşdu. (***Haşiyə***: General Xəlil paşa - Xəlil KUT. "KUT" əsgi türklərdə, qədim uyğurlarda hökmdar ləqəbi–"İdi-KUT, "İduk-KUT", yəni "Tanrı tərəfindən göndərilmiş" deməkdir. Xəlil KUT 1881-ci ildə anadan olmuş və 1957-ci ildə 76 yaşında vəfat etmişdir. Türkiyənin tanınmış hərbi xadimlərindən biri, tüm general (general-leytenant) olan Xəlil KUT Qafqaz İslam Ordusunun təminat-təchizat və təsərrüfat işlərinə (intendant) rəhbərlik etmişdi...

Parlamentin son iclasında kəskin çıxış edən M. Ə. Rəsulzadənin və Ş. Rüstəmbəylinin Rusiya ordusunun Azərbaycanı işğala gəldiyini demələrinə baxmayaraq, Parlament səs çoxluğu ilə yaranmış hazırkı böhranlı vəziyyətdə qan tökülməsinə yol verilməməsi üçün 1920-ci il aprelin 27-də, axşam saat 11-də hakimiyyətin kommunistlərə verilməsi haqqında qərar çıxardı. Beləliklə, Bakıda hakimiyyət siyasi yolla bolşeviklərin əlinə keçdi, 2 ilə yaxın (23 ay) mövcud olan Azərbacan Cümhuriyyəti süqut etdi. Azərbaycanın 11-ci ordu tərəfindən 1920-ci il aprelin 27-dən zorla başlanan işğalı bir gün sonra - aprelin 28-də

Bakıda sovet hakimiyyətinin qurulması, həmin il mayın 15-də isə qəzalarda silah gücünə bərqərar olmasıyla başa çatdı...

Böyük M. Ə. Rəsulzadə bununla əlaqədar sonralar yazdığı "Qara gün münasibətilə" əsərində xarici təcavüz nəticəsində beynəlxalq münasibətlərə və hüquqlara zidd olaraq dünya ölkələri tərəfindən 1920-ci il yanvarın 11-də de-yure tanınmış suveren dövlətin - Azərbaycan Cümhuriyyətinin zor işlədilməklə devrildiyini qeyd etmiş və 27 apreli "qara gün" kimi səciyyələndirmişdi... O, "Nahaq qan yerdə qalmaz" adlı digər bir məqaləsində isə yazmışdı: "...Azərbaycanlılar Mehdi zühuruna inanırlar (dünya müsəlmanları arasında qəbul olunmuş belə bir ümumi inam var ki, qeybə çəkilmiş 12-ci imam Mehdi Sahib əz-Zaman nə vaxtsa ("Qiyamət Günü") yenidən zühur edəcək... ("Mehdi" ərəbcə "doğru yola gəlmiş" deməkdir). Bolşeviklər bütün sərvət və zənginliyi dağıdaraq, hər kəsi bir loğma çörəyə möhtac etmək siyasətinin, bir əlində silah, bir əlində çörək tutan bu şeytanə politikanın xalqı nə kimi vasitələrlə bolşevik etdiyini görüncə Azərbaycan xalqı...bundan sonra, təbii ki, Mehdinin gəlməsini gözləyir. "Azərbaycan Mehdisi" xalqının idealından, Milli İstiqlalından ibarətdir".

Müstəqil dövlətçiliyini itirib, bu dəfə sovetləşmiş formada Rusiyanın tərkibinə qatılan Azərbaycan xalqının milli təəssübkeşli qüvvələrinə qarşı 11-ci ordunun "Bakı əməliyyatı" çox qəddarlıqla- "qırmızı terror" yolu ilə başa çatdırılmış, minlərlə azərbaycanlı dar ağacından (hətta evlərin balkonundan, küçələrdə səyyari qurulmuş tirlərdən və s.) həbsxanalara atılmış, başqa sözlə, repressiyaya məruz qalmışdılar. Bu haqda çoxlu sənədlər, fotolar və faktlar var . Belə bir statistik fakt var: - 1920-ci ilin aprelin 29-dan həmin il sentyabrın 1-dək Azərbaycan Fövqəladə Komissiyası (FK) tərəfindən 1308 adam həbsə alınmışdı. Bunun 1261-i kişi, 47-si isə qadın və uşaq idi. Ümumiyyətlə, 20-ci illərdə FK tərəfindən həbslər aparılması adi bir işə çevrilmişdi. Belə ki, sovet hakimiyyəti qurulduqdan sonra təkcə 1921-ci ilin avqustunadək Azərbaycanda "qırmızı terror" vasitəsilə 48 min adam məhv edilmişdi ki, bununda çox hissəsi görkəmli ictimai-siyasi xadimlərdən, ziyalılardan, hərbiçilərdən, o cümlədən Azərbaycan Cümhuriyyəti daxili işlər orqanlarının canını fəda etmiş şəxsiyyətlərindən ibarət idi... Bu akt 30-cu



illərdə də davam etdirilmişdi. Belə ki, təkcə 1934-38-ci illərdə 27.854 nəfər XDİK tərəfindən güllələnməyə məhkum olunmuşdu...

Bolşeviklər Azərbaycan Cümhuriyyətinin görkəmli xadimlərinə toxunmayacaqlrı barədə verdikləri vədə əməl etmədilər və 11-ci ordu da Anadoluya getmədi. Bütün milli təfəkkürlü, demokratik ruhlu siyasi partiyalar ("Müsavat", "İttihad", "Əhrar" və s) onların liderləri, Azərbaycan Cümhuriyyəti Parlamentinin və Hökumətinin görkəmli üzvləri, dövlət xadimləri təqibə, həbslərə məruz qalmış, güllələnmiş, bir çoxları canını qurtarmaqla ölkədən qaçmaya və siyaisi mühacir həyatı yaşamağa məcbur olmuşdular. Onların içərisində Azərbaycan Cümhuriyyətinin görkəmli ictimai-siyasi xadimi, sabiq daxili işlər naziri Mustafa bəy Vəkilovda vardı.

1920-ci il aprelin 28-də Azərbaycanda sovet hakimiyyəti qurulduqdan və baş verən "hadisələrdən" sonra M. Vəkilov məcbur olaraq əvvəlcə Tiflisə, həmin il dekabrın sonundan isə İstanbula gedərək ömrünün axırınadək orada yaşamışdı...

... XI ordunun Xüsusi Şöbəsinin əməkdaşları Bakıda hakimiyyət bolşeviklərin əlinə keçdikdən dərhal sonra M. Ə. Rəsulzadənin "sağ əli" hesab etdikləri Mustafa bəyi əlimyandı ilə axtarırdılar. Onlar M.Vəkilovun gizlənə biləcəyi bütün evləri və mənzilləri diqqətlə axtarsalar da, izinə düşə bilməmişdilər. Mustafa bəy uzaq qohumu olan Xədicə Qayıbovanın (24 may 1893, Tiflis - 19 oktyabr 1938, Bakı) evində gizlənərək, nəhayət, fürsət tapıb yük qatarı ilə Tiflisə gedib çıxa bilmişdi. Bundan sonra, siyasi mühacir həyatı yaşayan M.Vəkilov Tiflisdə fəaliyyətini dayandırmamışdı. O, Azərbaycandan buraya təşrif buyurmuş digər mühacirlərə faktiki rəhbərlik edərək, qısa müddətdə Bakı ilə konsprativ əlaqə yarada bilmişdi...

***Haşiyə***: Xədicə xanım Osman qızı Qayıbova Azərbaycan Xalq Maarif Komissarlığı nəzdində Şərq Musiqisi Şöbəsinin müdiri. Şərq Konservatoriyasının (indiki Azərbaycan Dövlət Konservatoriyasının) yaradıcısı. Milli ruhlu azərbaycanlı pianoçu qadın. O, 10 gündən çox Mustafa bəyi evində gizlətmişdi. Hətta Azərbaycan İnqilab Komitəsinin sədri M. D. Hüseynovdan Mustafa bəyin SSRİ-də leqal şəkildə yaşaması barədə razılıq da əldə etmişdi. Lakin M.Vəkilov Azərbaycan Ordusunun sabiq zabiti Sultan Hüseynzadənin (1897-1962) köməyi ilə Bakıdan qaça

bilmişdi... Xədicə xanım Osman qızı Qayıbova isə sonralar repressiya olunaraq həbs edilmiş və Azərbaycan SSR XDİK "Üçlüyünün" 1938-ci il 19 oktyabr tarixli qərarına əsasən müstəsna cəza tədbiri - ölüm hökmü ilə güllələnmişdi.

**Qeyd:** *Sultan İbrahim İsmayıl bəy oğlu Hüseynzadə. 1897-ci il yanvarın 13-də Salyan şəhərində anadan olmuşdu. Atası İsmayıl bəy (1868-1943) görkəmli mütəfəkkir Əli bəy Hüseynzadənin yeganə qardaşı idi. General-mayor Məhəmməd Sadıx bəy Ağabəyzadə də Əli bəy və İsmayıl bəy Hüseynzadələr ilə əmiuşağı idi. Görkəmli Azərbaycan şairi M. Ə .Sabirin (1862-1911) də Əli bəy Hüseynzadə ilə qohumluq əlaqəsi vardı. Belə ki, Sabir Əli bəyin xalası Fatmanın qızı Naib xanımın qaynatası idi. Əli bəy Hüseynzadə özü 24 fevral 1864-cü ildə Kür sahilində Salyan şəhərində anadan olmuşdu. Atası Tiflis Müsəlman Məktəbinin riyaziyyat müəllimi Molla Hüseyn Hüseynzadə, anası Qafqazın şeyxülislamı Axund Əhməd Hüseynzadənin qızı Xədicə xanım idi. Əli bəy 1911-ci ildə İstanbulda əslən milliyyətcə çərkəz olan süvari zabiti Şəmsəddin Sami bəyin (Hüseynzadənin) qızı Əthiyə xanımla evlənmişdi. Onların 3 övladı dünyaya gəlmişdi: qızı Saida bəyim (6 aprel 1914), oğlu Səlim Turan (9 iyun 1915-oktyabr 1994) və kiçik qızı Feyzavər xanım (31 dekabr 1920) idi. Saida Fransada ali təhsil almış, riyaziyyat müəllimi işləmişdi. Oğlu Turan Səlim rəssam idi.Turan Səlim 1994-cü ilin oktyabrında Parisdə, 79 yaşında vəfat etmiş və oradakı müsəlman qəbristanlığında dəfn olunmuşdu. Əli bəy Hüseynzadənin övladlarının uşaqları olmayıb.*

Hərbi təhsil almış Sultan Hüseynzadə əvvəllər poruçik (baş leytenant) rütbəsində çar ordusunda xidmət etmiş, zaman-zaman rütbəsi artmışdı. Hərbi ordenidə vardı. O, Azərbaycan Cümhuriyyəti dövründə Mill Ordumuzun zabiti kimi müstəqilliyimizin müdafiəçilərindən, 1918-ci ildə Kürüstü kəndlərimizi talan edən erməni daşnak silahlı qüvvələrinə qarşı döyüşlərdə türk ordusu əsgərləri ilə birlikdə vuruşlarda hərbi əməliyyatlara başçılıq edən cəsur komandirlərdən biri kimi özünü göstərmişdi. Sovet hakimiyyəti qurulduqdan sonra bir peşəkar hərbçi kadr kimi Azərbaycan SSR-in hərbi hissələrində xidmətini davam etdirirdi. Lakin o, Azərbaycan FK-nın nəzarətə götürdüyü 141 nəfər "şübhəli şəxsdən" biri idi.



1925-ci ilin yanvarında Şimali Qafqazda xidmət göstərirdi. Həmin il fürsət tapıb təqibdən yaxa qurtarmaq üçün İrana keçən Sultan Hüseynzadə orada orduda xidmət göstərmiş və mirpənc (general-leytenant) rütbəsinə yüksəlmişdi...

30-cu illərdə repressiyaya məruz qalmış Xədicə Qayıbovanın istintaq materiallarında S. Hüseynzadənin adı çəkilirdi. İstintaqı aparan leytenant Tevosyanın hazırladığı 16 mart 1938-ci il tarixli arayışda Azərbaycan Dövlət Konservatoriyasının müəllimi X. Qayıbovanın "cinayətlərindən" biri kimi onun evində türk ordusunun azərbaycanlı zabiti S. Hüseynzadənin gizləndiyi və onun İrana məhz X. Qayıbovanın köməkliyi ilə getdiyi bildirilirdi. 1938-ci il martın 23-də ikinci dindirilməsində yazdığı ifadədə Xədicə xanım S. Hüseynzadənin bir zaman ona aşiq olduğunu, hərdənbir onu teatra dəvət etdiyini bildirmişdi. Xədicə xanımın mənzili Sultan bəyin yaşadığı evə baxırdı. Bu ev indiki Azərbaycan Akademik Milli Teatrının arxasında, Şah döngəsində idi. Milyonçu Aşurbəyova məxsus həmin evdə Sultan bəyin atası İsmayıl Hüseynzadə (1868-1943) yaşamışdı... Xədicə xanımın ifadəsindən məlum olur ki, Sultan bəy İrana qaçmazdan əvvəl Bakıda həbs olunmuş və onun azad edilməsi üçün Xədicə xanım Ə. H. Qarayev və M. D. Hüseynova müraciət etməli olmuşdu...

Sultan bəyə görə ailə üzvləri də repressiyaya məruz qalmışdılar. Atası İsmayıl bəy Əli bəy Hüseynzadənin də qardaşı olduğuna görə sovet hakimiyyəti tərəfindən 1941-ci ildə həbs olunaraq, uzaq Qazaxıstana sürgün edilmişdi. O, elə sürgündəcə 1943-cü ildə 75 yaşında dünyasını dəyişmişdi. Ömrünün bir hissəsini Türkiyədə və İranda yaşayan general-leytenant Sultan bəy Hüseynzadə haqqında sonuncu məlumat dayısı Əziz bəyin arvadı Səlma xanımla 1962-ci ildə İstanbulda görüşməsi barədədir. Sultan bəyin varisi olmadığından o, varidatını məhz dayısı arvadı Səlma xanıma miras buraxmışdı. General Sultan Hüseynzadənin məzarı Təbrizdədir...

...1920-ci ilin dekabrında M.Vəkilov Müseyib Bədəlbəyov (vasitəsilə Bakıdan partiya üçün pul və siyasi ədəbiyyat almışdı. Ancaq bolşeviklərin artıq onu tezliklə yaxalayacağını duyaraq, 1920-ci ilin dekabr ayının sonunda Tiflisdən İstanbula getməyə məcbur olmuşdu.

İstanbulda "Müsavat"ın Xarici Bürosunda fəaliyyətini davam etdirən M. Vəkilov 1924-cü ildə M. Ə. Rəsulzadənin rəhbərliyi altında mühacir Azərbaycan Milli Mərkəzinin (əslində Milli Birlik) yaradılmasında yaxından iştirak etmiş, onun üzvü olmuşdu. Təşkilatın əsas məqsədi bütün siyasi mühacirləri birləşdirmək idi. O, Azərbaycanda gizli fəaliyyəti davam etdirən milli qüvvələrimizlə əlaqələr yaratmaq üçün çox səylər göstərirdi.

1925-ci ildə Azərbaycan Milli Mərkəzində bir qədər fikir ayrılığı yaranmışdı. Mustafa bəy Şəfi bəy Rüstəmbəyli ("Aran") ilə birlikdə M. Ə. Rəsulzadəni və "Müsavat"ın Xarici Bürosunun digər rəhbərlərini tənqid edərək, onları öz fəaliyyətlərini yalnız Türkiyə ilə məhdudlaşdırdıqlarına görə günahlandırırdı. O, hesab edirdi ki, bu işi daha geniş miqyasa - Qərbi Avropa ölkələrinə keçirmək lazımdır. Bu, öz təsirini göstərmiş, M. Ə. Rəsulzadə 1929-cu ildə xüsusi nümayəndə heyəti ilə Qərbi Avropaya yola düşmüşdü.

Lakin sovet hökuməti də yatmamışdı... Xalq Daxili İşlər Komissarlığının agentləri hər yerdə siyasi mühacirləri güdür, onların hətta şəxsi həyatda belə fəaliyyətlərini fasiləsiz izləyir və nəzarətdə saxlayırdılar. Siyasi mühacirlərin Azərbaycanda qalmış qohumları da nəzarətdə saxlanılır və onlar vasitəsilə xaricdəki əlaqələrinin öyrənilməsinə cəhdlər göstərilir, Azərbaycan Milli Mərkəzinə yol tapmağa çalışırdılar. Mustafa bəy bunu təbii-sövq hisslə duyur və ehtiyatı əldən vermirdi. O, Bakını subay tərk etmişdi. Mühacirətdə İstanbul Universitetinin tələbəsi Sürəyya xanım Talıbxanlı ilə tanış olaraq onunla evlənmişdi. Sürəyya xanım Mustafa bəyin hələ Bakıdan tanıdığı Talıb xan Talıbxanovun (O, Şamaxı qəzasının rəisi olmuşdu) qızı idi. Lakin M. Vəkilovun Polşaya gedib uzun müddət orada qalmasından sonra Sürəyya xanımla ilə yolları ayrılmışdı...

M.Vəkilov 1929-cu ildə Azərbaycan Milli Mərkəzindən çıxmış və Polşaya getmişdi. Səbəbi isə Türkiyədə yaşayan azərbaycanlı siyasi mühacirlər arasında ziddiyyətlərin güclənməsiydi. Məhz buna etiraz kimi Mustafa bəy Lehistanın (Polşa) başçısı, marşal Yuzef Pilsudskinin (1867-1935) yanına getmişdi. M. Vəkilov Azərbaycan Milli Mərkəzindən çıxsa da, siyasi fəaliyyətini dayandırmamışdı... O, azərbaycanlı mühacirlərin Parisdə yaratdıqları "Prometey" təşkilatında da fəal surətdə iştirak edirdi. Bu təşkilat 1926-cı ildə Fransada "Komintern"ə qarşı mübarizə məqsədilə yaradılmışdı. "Gənc prometeyçilər" Kommunist İnternasionalı gənclərinə qarşı fəaliyyət göstərirdilər. Təşkilat əslində, siyasi mühacirlərin qurumu idi. 1928-ci ildə Polşada da onun mərkəzi yaranmışdı. "Prometey"in əsas məqsədi sovet hakimiyyətini devirmək idi. "Prometey"in yaradılmasının əsas təşəbbüsçülərindən biri M. Ə. Rəsulzadə idi Təşkilatı Polşa hökuməti maliyyələşdirirdi. Azərbaycan "Prometey"də M. Ə. Rəsulzadə və Mir Yaqub Mehdiyevlə (Mirmehdiyev) (1891, Xırdalan, Bakı - 1952, Türkiyə) təmsil olunurdu. M.Vəkilov ilk vaxtlar S. Əhmədov, M. Çokayev, Osman Xoca və B. Mirski ilə birlikdə "Promotey"in İstanbul Komitəsinə daxil idi.

... Marşal Yuzev Pilsudski vaxtı ilə rus çarı III Aleksandra ( ) qarşı sui-qəsddə iştirak etmiş və buna görə həbsdə yatmışdı. I Dünya Müharibəsi zamanı Avstriya-Macarıstan ordusunun tərkibində polyak hərbi hissəsinin komandiri kimi Rusiyaya qarşı vuruşmuşdu. Həm çar və həm də sovet Rusiyasına qarşı döyüşmüşdü. O, əliboş oturmayaraq, sovet hakimiyyəti əleyhdarlarını öz ətrafına cəlb edir və gələcək planlarında onlardan istifadə etməyi düşünürdü. 1926-cı ildə Polşada hakimiyyət onun əlinə keçdikdən sonra Y. Pilsudski, bir-birinin ardınca Qafqazın (o cümlədən Azərbaycanın) və Ukraynanın görkəmli siyasi mühacirlərini yanına dəvət etməyə başlamışdı. Azərbaycanlı mühacirlər Türkiyədən "qovulandan"... sonra məhz Polşada, onun yanında sığınacaq tapmışdılar. M. Ə Rəsulzadə Pilsudskinin vəfatını eşidəndə (1935) onun ölümünə bərk ağrımış, Berlində çıxan "Qurtuluş" məcmuəsində çıxış edərək, polyak xalqının öz böyük oğlunu itirməsi münasibətilə dərdinə şərik çıxmışdı. Varşavada Mustafa bəy faktiki olaraq "Promotey" siyasi klubunda ikinci şəxs idi. Kluba isə məşhur ukraynalı professor Roman Snal-Stotski başçılıq edirdi. Klub İkinci Dünya Müharibəsinə qədər mövcud olmuşdu.

M.Vəkilov həm də jurnalist idi. Hələ İstanbulda fəaliyyət göstərərkən orada nəşr olunan "Yeni Qafqasiya" (1923-27), "Azəri türkü" (1928-30), "Odlu yurd" (1920-30), "Azərbaycan yurd bilgisi" (1932) jurnallarında Azərbaycan tarixinə və ədəbiyyatına dair məqalələr yazmışdı. Mustafa bəy Parisdə fransızca çıxan "Prometey" (1927-38), rusca "Kafkaz" (1934-38) və Berlində nəşr edilən "Qurtuluş" (1934-38) jurnallarında siyasi mövzularda da bir çox yazılar

dərc etdirmişdi. İkinci Dünya Müharibəsindən (1 sentyabr 1939 - 2 sentyabr 1945-ci il) sonra da Ankarada yaşayarkən Mustafa bəyin "Azərbaycan", "Mücahid" və b. jurnallarda da Azərbaycanın ən yeni tarixi ilə bağlı siyasi memuarları çap olunmuşdu.

Tez-tez Avropa ölkələrinin paytaxtlarında olan M. Vəkilovu siyasi dairələrdə yaxşı tanıyır və qiymətləndirirdilər. Ancaq gözü götürməyənlər və mühacirlər arasında onun müvəffəqiyyətlərinə şayiələr qoşanlar da tapılırdı... Mustafa bəy azərbaycanlı mühacirlər içərisində ən qapalı şəxs sayılırdı. Odur ki, belə şayiələrə əhəmiyyət vermədən öz işləri ilə məşğul olurdu.

1938-ci ilin noyabrın 10-da M. Atatürk vəfat etmişdi. M.Vəkilov M. Ə. Rəsulzadə ilə birlikdə Ankarada onun dəfnində iştirak etməyə getmişdi. Türklər Sovetlər İttifaqı ilə münasibətləri mürəkkəbləşdirmək istəməyərək M. Ə. Rəsulzadədən xahiş etmişdilər ki, Atatürklə bağlı vida nitqi ilə çıxış etməsin. O, bundan incimiş və çıxıb getmişdi. Mustafa bəy isə getməmiş və öz istəyinə nail olmuşdu. Həmin hadisənin şahidi olanlar söyləyirdilər ki, Atatürkün qəbri üzərinə ən bahalı əklil azərbaycanlılar adından qoyulmuşdu. Həmin əklili Mustafa bəy qoymuş və dəfn mərasimində təsirli və yaddaqalan nitq ilə də çıxış etmişdi.

... İkinci Dünya Müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşa üzərinə hücumu ilə başlanmışdı. Polşanın almanlar tərəfindən işğalı ərəfəsində M. Vəkilov Varşavanı tərk edib Fransaya getməyə macal tapmışdı. Lakin 1940-cı ildə hitlerçilərin Fransaya hücumları başlandıqda daha orada da qalmaq olmazdı. Axı, heç nədən həlak ola bilərdi. Odur ki, oranı tərk etmək qərarına gəlib bitərəf ölkəyə - İsveçrəyə keçmiş və orada 1944-cü ilədək yaşamışdı. 1943-cü il noyabrın 6-da Almaniyanın Berlin şəhərində azərbaycanlı siyasi mühacirlərin Milli Azərbaycan Qurultayı keçirilmişdi. Həmin qurultayda M. Vəkilov onun Rəyasət Heyətinin fəxri üzvü seçilmişdi. Qurultayda "Azərbaycan Milli Birlik Məclisi" yaradılmışdı ki, onun da təsisçilərindən biri Mustafa bəy olmuşdu...

İsveçrədə M. Vəkilov türk şəhəri Amasiyada çoxdan yaşayan mühacir qohumlarının təkidi ilə yenidən ailə qurmuşdu. Bu dəfə o, Firdovsi xanımla evlənmişdi. Həmin izdivacdan 2 övladı - qızı Serpil və oğlu Nadir dünyaya gəlmişdi. Bundan sonra, Mustafa bəy ailəsi ilə Ankaraya köçmüş və ömrünün sonunadək orada yaşamışdı.



M.Vəkilov gözəl və hərtərəfli şəxsiyyət kimi yaddaşlarda qalmışdır. O, Azərbaycan musiqisinə və poeziyasına qəlbən bağlı bir şəxsiyyət idi. Güclü ədəbiyyat həvəskarı olan Mustafa bəy xalqımızın iftixarı, xalq şairi Səməd Vurğunun (Vəkilovun) (21 mart 1906, Qazax qəzasının Yuxarı Salahlı kəndi - 27 may 1956, Bakı şəhəri) yaxın qohumu idi. Məhz S. Vurğun və böyük satirik şairimiz M. Ə Sabir onun ən çox sevdiyi şairlər idilər. M. Ə . Sabirin ölümündən sonra onun seçilmiş əsərlərinin - "Hop-hopnamə"nin nəşr etdirilməsinin əsas təşkilatçılarından biri Mustafa bəyin əmisi professor Məmməd Rza Hacı Mansur oğlu Vəkilov (8 mart 1864, Qazax qəzası, Salahlı kəndi - 1944, Bakı) olmuşdur.

Öz dövrünün görkəmli ictimai-siyasi xadimi, xalqımızın istiqlaliyyəti uğrunda var qüvvəsini əsirgəməyən, cəlayi-vətən düşərək, mürəkkəb və keşməkeşli həyat yolu keçmiş M. Vəkilov inanırdı ki, vaxt gələcək uğrunda yorulmadan mübarizə apardığı Azərbaycanın yenidən müstəqilliyə qovuşması gerçəkləşəcək. Onun inamı bu gün həyata keçmiş, özünü doğrultmuşdur.

Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, sabiq daxili işlər naziri Mustafa bəy Nadir bəy oğlu Vəkilov 1965-ci il noyabrın 1-də 69 yaşında Türkiyənin Amasiya şəhərində vəfat etmiş, Ankarada dəfn olunmuşdur... Qəbri nurla dolsun!

# İKİNCİ FƏSİL

## *AZƏRBAYCAN CÜMHURİYYƏTİ DAXİLİ İŞLƏR NAZİRLƏRİNİN SİLAHDAŞLARI*

Azərbaycan Cümhuriyyəti daxili işlər nazirlərinin silahdaşları (nazir müavinləri, general-qubernatorlar, qubernatorlar, qəza rəisləri, polismeysterlər, pristavlar və s.) arasında milli istiqlalımız yolunda canlarını fəda etmiş, repressiyalara məruz qalmış, güllələnmiş, sürgünlərdə olmazın əzab-əziyyətlərə düçar olmuş, lakin öz əqidələrindən dönməyən şəxsiyyətlər çox idi. Onlardan bir qisminin həyat və fəaliyyəti, aqibətləri ilə Sizləri tanış edirik.

### *NAZİR MÜAVİNLƏRİ*

### MEHDİ bəy HACINSKİ
### (1879 - 1941)

Tanınmış ictimai-siyasi xadim, publisist, teatr xadimi və tənqidçisi, aktyor olan Mehdi bəy Hacınski o zaman zərurət olduğu üçün DİN-də xidmət göstərməyə cəlb olunmuş və 1918-ci ilin sentyabrından daxili işlər nazirinin müavini vəzifəsinə təyin edilmişdi...





Mehdi bəy Süleyman bəy oğlu Hacınski 1879-cu il may ayının 24-də Qubada əsilli ailədə anadan olmuşdu. Bakıdakı realnı məktəb və Şərq dilləri kurslarını bitirən M. Hacınski 1896-cı ildə Bakıda müsəlman teatr truppasının təşkilində yaxından iştirak etmişdi. O, 1905-ci ildə Bakı Şəhər Dumasının üzvü seçilmişdi. M. Hacınski "Cəmyəti xeyriyyə", "Nicat" və "Şəfa" xeyriyyə cəmiyyətlərinin təşkilatçılarından, "Nicat"ın teatr bölməsinin rəhbəri olmuşdu. Dövrü mətbuatda Azərbaycan teatrı və aktyorlarına dair məqalə, oçerk, hekayə və felyetonlarla "Avara", "Dəmdəməki", "Ürufzadə", "Estet" imzaları ilə çıxışlar etmişdi.

1906-07-ci illərdə bir müddət "Hümmət" müsəlman bolşevik təşkilatının orqanı olan "Təkamül" qəzetinin naşiri işləmiş, Bakının teatrlarında aktyor kimi də fəaliyyət göstərmişdi. Azərbaycan xalq yaradıcılıq nümunələrinin toplanıb doğma dildə və rus dilində nəşr edilməsində də onun xidmətləri vardı. Mehdi bəy M. Ə. Sabirlə yaxın olmuş, onun ölümündən sonra əsərlərinin nəşrində fəal iştirak etmişdi.

M.Hacınski 1917-ci ildən "Müsavat" partiyasının, Zaqafqaziya Seyminin, Müsəlman fraksiyasının üzvü olmuşdu. O, Milli Şuranın Azərbaycanın İstiqlal Bəyannaməsini qəbul etmiş 24+2 üzvündən biri idi. 1918-ci ilin payızından (sentyabrından) Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri B. Cavanşirin müavini vəzifəsində çalışırdı. M. Hacınski 1918-ci il dekabrın 7-də Azərbaycan Parlamentinin tərkibinə daxil edilmiş, Parlamentin Rəyasət Heyətinin katibi seçilmişdi.

M. Hacınski 1918-ci il oktyabrın 26-da Gəncədə gizir məktəbinin buraxılış mərasimində DİN-in rəsmi nümayəndəsi kimi iştirak və çıxış etmişdi. O, öz çıxışında bildirmişdi ki, bu günlərdə Bakıda da 1200 nəfərlik DİN-in qorodovoylar (polis nəfərləri) hazırlayan

məktəbi açılacaq, onun müdavimləri də gizirlər kimi parlaq nailiyyətlər əldə edəcəklər.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra M. Hacınski bir peşəkar milli kadr kimi məsul vəzifələrdə çalışsada, onun vaxtılə Azərbaycan Cümhuriyyəti daxili işlər nazirinin müavini vəzifəsində xidmət göstərdiyini unutmamışdılar. Azərbaycan SSR-in cəza orqanlarının sərt baxışları ondanda yan keçməmişdi... Yeri gəlmişkən, Azərbaycan Cümhuriyyətinin 4-cü və 5-ci hökumət kabinetlərində poçt və teleqraf naziri olmuş Camo bəy Hacınski (14 iyun 1888, Quba - 1942,Vyatka, Sibir) M. Hacınskinin kiçik qardaşı idi və repressiyanın qurbanlarından biri olmuşdur... M. Hacınski də repressiyaya məruz qalırdı... Bu isə onun səhhətində öz təsirini göstərmişdi. Xalqını ürəkdən sevən və onun istiqlalı yolunda var qüvvəsini əsirgəməyən bu milli təəssübkeş şəxs xəstələnmiş, uzun müddət yataqda yatmışdı... Mehdi bəy Süleyman bəy oğlu Hacınski 1941-ci ilin iyun ayında Bakıda 62 yaşında vəfat etmişdir...

## ƏLİYAR bəy HAŞIMBƏYOV
## (1856 – 1920)



Əliyar bəy Mehdi bəy oğlu Haşımbəyov 1856-cı il martın 8-də Bakı şəhərində anadan olmuşdu... Çar Rusiyası ordusunda xidmət etmiş, 1908-ci ildə general-mayor hərbi rütbəsinə layiq görülmüşdü. Qafqaz araba-karvan briqadasının komandiri idi. 1917-ci ildə istefaya çıxan Əliyar bəy Azərbaycan Cümhuriyyəti yarandıqda könüllü olaraq onun xidmətinə keçmişdi. O, əvvəlcə 1918-ci il iyununun 28-də təsis olunan Zaqatala quberniyasının qubernatoru təyin edilmiş və bu vəzifədə 1919-cu il martın 16-dək işləmişdi. Ə. Haşımbəyov Zaqatalanın 1-ci qubernatoru olmuşdur. Cümhuriyyət hökumətinin qərarı və daxili işlər naziri X. Xasməmmədovun müvafiq əmri ilə general-mayor Ə.



Haşımbəyov 1919-cu il martın 16-dan Cənub-Qərbi Azəbaycan (Naxçıvan) general-qubernatorluğunun general-qubernatoru təyin edilmişdi... Ə. Haşımbəyov bu vəzifədə 1919-cu ilin avqustunadək fəaliyyət göstərmişdi. Sonuncu tarixdən tutduğu vəzifəsindən azad olunan general Ə. Haşımbəyovu Azərbaycan Cümhuriyyəti daxili işlər nazirinin müavini vəzifəsinə irəli çəkmişdilər. Ə. Haşımbəyov nazir müavini kimi (o vaxt iki müavin vardı) DİN-in intendant sahəsini həyat keçirən funksioner - məmur idi. Ə. Haşımbəyov DİN-in təsərrüfat və təchizat işlərinin tələb olunan səviyyədə həyata keçirilməsini təmin edən şəxs kimi var qüvvəsini əsirgəmirdi. Sənədlərdən Ə. Haşımbəyovun o zaman çox vacib strukturlardan sayılan Baş İdarə hüquqlu DİN-in Dəftərxanasının direktoru əvəzinə imza atdığı da bəlli olur...

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan dərhal sonra bolşeviklər tərəfindən həbs olunan general-mayor Ə. Haşımbəyov Azərbaycan SSR Ali İnqilabi Tribunalının 29 may 1920-ci il tarixli hökmü ilə güllələnmişdi. Bu zaman onun 55 yaşı vardı. General Əliyar bəy Haşımbəyov Nargin (Böyük Zirə) adasında sübutsuz və məhkəməsiz güllələnən 79 nəfər, o cümlədən 13 nəfər yüksək rütbəli azərbaycanlı hərbiçidən biri idi... Ümumiyyətlə,1920-ci il Gəncə üsyanından (24 may - 4 iyun 1920-ci il) sonra Azərbaycan Ordusunun 12 generalı, 27 polkovnik və podpolkovniki, 46 kapitanı və hərbi qulluqçusu bolşeviklər tərəfindən güllələnmişdi... Onların sırasında istiqlal fədaisi, general-mayor Əliyar bəy Mehdi bəy oğlu Haşımbəyovda vardı....

## İBRAHİM bəy HEYDƏROV
## (1879 - 1949)

İbrahim bəy İsa bəy oğlu Heydərov (Heydəroğlu) 1879-cu il avqustun 3-də indi Dağıstan ərazisində olan Azərbaycanın qədim Dərbənd şəhərində (ruslar Dərbənd şəhərini 1806-cı ildə işğal etmişdilər) zadəgan ailəsində dünyaya gəlmişdi. İbrahim bəyin mənsub olduğu soyun nümayəndələri dəfələrlə Dərbənd şəhərinin başçıları olmuşlar. İbrahim Heydərov ilk təhsilini 1897-ci ildə Teymur-

xan Şurada (sovet dövründə bu şəhər Buynaksk adlanırdı) başa vurmuşdu. 1907-ci ildə isə o zaman çox nüfuzlu sayılan Sankt-Peterburq Yol Mühəndisləri İnstitutunu bitirmişdi. Ali təhsilini başa vuran İbrahim bəy Bakıya gəlib müxtəlif sahələrdə yol mühəndisi işləmişdi.



İ. Heydərov çox ağıllı və enerjili bir şəxs idi və bunu xalqının tərəqqisinə sərf etməyə çalışırdı. O, 1907-ci ildə Bakıda "Nəşri-Maarif" Cəmiyyətinin İdarə heyətinin üzvü seçilmişdi. Artıq cəmiyyətdə yetərincə nüfuzlu bir şəxs kimi tanınan İ. Heydərov 1907-ci il oktyabrın 14-də 28 yaşında Dağıstan Vilayəti və Zaqatala Dairəsindən Rusiyanın III Dövlət Dumasına (1907-12) deputat seçilmiş və Sankt-Peterburqa yollanmışdı. O, bu şəhərdə Podolsk küçəsi, ev 31, mənzil 11-də yaşayırdı.

İbrahgim bəy əqidəcə əvvəl sosial-demokrat idi. RSDF(b)P-nin Dərbənd təşkilatını Müslüm İsrafilov və başqaları ilə yaradanlardan biri olan İ. Heydərov Dumada Sosial-Demokrat (bolşevik) fraksiyasına daxil olmuşdu. Lakin Dumada millətçi rus bolşeviklərinin velikorus şovinizmi yürütdüklərini, milli azlıqların hüquqlarına tam etinasızlıqla yanaşdəqlarına görərək, bu partiyanı tərk etmiş və 3-cü sessiyada Müsəlman fraksiyasına keçmişdi. İ. Heydərov mübarizədən-mübarizəyə bərkiyərək, bundan sonra öz seçicilərinin ehtiyac və tələblərini daha qəti surətdə müdafiə etməyə başlamışdı...

Faktlar və dövrü sənədlər sübut edir ki, İbrahim bəyin deputat kimi fəaliyyəti səmərəli olmuşdur. umadakı qətiyyətli, alovlu, tutarlı, əsaslandırılmış çıxışları, xüsusilə, xalqın inkişafı və tərəqqisində mühüm olan təhsil və maarrifçilik məsələlərini ön plana çəkməsi bir qayda olaraq, müzakirələr zamanı mübahisələrə səbəb olurdu. Onun ibtidai məktəblərdə ana dilinin qeyri millətlərə məcburi öyrədilməsinin özünü doğrultmadığı ilə bağlı fikirləri, bu layihənin həyata keçirilməsinin əslində, qeyri-xalqların dili və mədəniyyətinə qarşı yönəldiyini isbat etməsi birmənalı qarşılanmırdı...



Zaqafqaziyadan III Dumayaya seçilmiş deputatlar X. Xasməmmədov, N. Çxeidze və başqalarıda onu müdafiə edirdilər. Onlar Rusiyada dini təhsilin də durumunu kəskin tənqid esdərək, məktəblərdə dini təhsil proqramlarında bərabərlik yaradılmasını tələb edirdilər. İ. Heydərov "böyük dövlətçilik" kimi imperiya siyasətini də tənqid edirdi. O, Dumada "Rusiya ruslar üçündür!", - çağırışı ilə çıxış edən rus şovinist monarxiyaçı qrupuna qarşı mübarizə aparanların sırasında idi.

1909-cu ildə III Dumanın kürsüsündən çıxış edən İ. Heydərov çarizmin Rusiyanın mərkəzi quberniyalarından "köçürmə siyasəti"ni də real faktlar və həyati missallar gətirməklə tənqid edir, bu siyasətin Qafqazdada sabitliyin pozulmasına və millətlərarası qarşıdurmaya səbəb olduğunu söyləyirdi.

1913-cü ildə Rusiyanın Daxili İşlər Nazirliyi "Ucqarlarda yerli özünüidarənin yaradılması haqqında" qanun layihəsi işləyib hazırlamışdı. Vaxtılə Dumada həmin məsələni qaldıranlardan biri məhz İ. Heydərov idi.

İ. Heydərovun Dumadan sonrakı həyatı və fəaliyyəti yenidən Bakıyla bağlı olmuşdu. O, 1913-cü il martın 27-dən Bakı Şəhər İdarəsinin üzvü, İdarənin təsərrüfüt bölməsinin rəisi, həmçinin sorğu qiymətlərinin toplanması üzrə şəhər komissarı vəzifələrində işləmişdi. İ. Heydərov 1913-cü ildə "Dəyanət" və "Şərakət" adlı neft-sənaye cəmiyyətlərini təşkil etmiş, 1914-cü ildə yaradılan qeyri-maarrifçi "Şəfa" Cəmiyyətinin (sədri Tağı Nağıyev idi) İdarə Heyətinin üzvü seçilmişdi. İ. Heydərov 1914-cü ildə Məhəmməd Həsən Hacınski ilə birlikdə "Qafqazı Öyrənən Cəmiyyət" yaratmağa təşəbbüs göstərmiş, onun Nizamnaməsini Bakı Şəhər Qradonaçalnikliyinə təqdim etmişdi.

1916-cı ildə "Nicat" Cəmyəti sədrinin müavini seçilən İ. Heydərov artıq o dövrün ən nüfuzlu ictimai-siyasi xadimlərindən sayılırdı. Bunu onun görkəmli şəxsiyyətlər - M. Ə. Rəsulzadə, Ə. M. Topçubaşov, M. H. Hacınski, X. Xasməmmədov və başqaları ilə birgə fəaliyyəti sübut edirdi.

Rusiyada 1917-ci ililn fevralında Romanovlar sülaləsinin 300 illik hakimiyyətinə (1613-1917) son qoyan burjua-demokratik inqilabından sonra yaranmış əlverişli tarixi şəraitdə İ. Heydərovun doğul-

duğu Dağıstanda da yeni müvəqqəti hakimiyyət qurumu - Müsəlman Komitəsi yarandıqda, məhz İ. Heydərovu onun sədri seçmişdilər. Bunu nəzərə alan Rusiya Müvəqqəti hökumətinin paytaxtı Tiflisdə yerləşən, Zaqafqaziyada səlahiyyətli hakimiyyəti olan Zaqafqaziya Xüsusi Komitəsi 1917-ci il martın 9-da İ. Heydərovu Dağıstan Vilayəti Müvəqqəti İcraiyyə Komitəsinin sədri təyin etmişdi. İ. Heydərov 1917-ci il martın 22-də Bakıda yaradılmış Müsəlman İctimai Təşkilatları Komitəsinin Müvəqqəti İcraiyyə Komitəsinin Milli Bürosunun tərkibinə seçilmişdi. Büronun sədri M. H. Hacınski idi.

1917-ci il aprelin 5-də Zaqafqaziya Xüsusi Komitəsi öz sərəncamıyla İ. Heydərovu Dağıstan Vilayətinin komissarı təyin etmişdi. Həmin ilin noyabrında Rusiyanın hər yerində Müəssislər Məclisinə seçkilər keçirildi. Müəsislər Məclisinə Dağıstandan olan namizədlər içərisində İ. Heydərov da vardı. Noyabrın 12-də İ. Heydərov Rusiya Müəssislər Məclisinə üzv seçilmişdi. Lakin 1918-ci ilin yanvar ayında RSFSR hökumətinin başçısı V. İ. Lenin (10 aprel 1870, Simbirsk - 21 yanvar 1924, Nijni-Novqorod) Müəssislər Məclisini qovduqdan və bu ali qanunverici orqanını müdafiə edən nümayişçilər güllələndikdən sonra Zaqafqaziya Xüsusi Komitəsi də bolşeviklərin hakimiyyətini tanımadı. Bu cür kəskinləşmiş ictimai şəraitdə sosialistlər (Mahaç Dahadayev və digərləri) İ. Heydərovun yerinə başqa komissar seçilməsinə nail oldular. Dağıstanda daha qalmağın faydasız olduğunu görən İ. Heydərov Bakıya gəlmişdi.

1918-ci ilin əvvəllərində Tiflisdə Rusiyanın sabiq Müəssilər Məclisinə seçilmiş deputatlardan ibarət Zaqafqaziya Seymi yaradıldı. İ . Heydərov da Dağıstandan olan təmsilçi kimi Seymdəki Müsəlman Sosialist blokunun üzvü olmuşdu. O, elə ilk gündən Seymin işində fəal iştirak etmişdi. Onun 15 fevral 1918-ci ildə Seymin Müsəlman Sosialist bloku adından söylədiyi geniş nitqi (müharibə, sülh, torpaq, sosial və əmək qanunvericiliyi, milli məsələ və s. barədə) diqqətəlayiq olub alqışlarla qarşılanmışdı. İ . Heydərov Zaqafqaziya Seyminin qərarı ilə 1918-ci ilin fevral-martında keçirilən Trabzon konfransında iştirak edən nümayəndə heyətinin tərkibinə daxil edilmişdi. O, Trabzon konfransında iştirak etdiyi müddətdə, Zaqafqaziya Seyminin 1918-ci il martın 17-dəki iclasında Zaqafqaziya hökumətinin heyəti təsdiq olunmuşdu. Y. P. Gegeçkorinin



(1891-1954) başçılıq etdiyi həmin hökumətdə İ. Heydərova ümumi müfəttiş (dövlət nəzarəti naziri) vəzifəsi tapşırılmışdı. 1918-ci il martın 26-da Y. Gegeçkorinin baş nazir olduğu 2-ci hökumət kabinetində də İ . Heydərov həmin vəzifədə saxlanmışdı.

1918-ci il martın 31-də V. Leninin birbaşa göstərişi ilə S. Şaumyanın daşnak bandasının Bakıda törətdiyi qanlı qırğınlardan sonra Zaqafqaziya seymi 2 aprel 1918-ci il tarixli iclasında İbrahim bəy Heydərov, Mustafa bəy Mahmudov (1878,Göyçay qəzasının Kürdəmir kəndi - noyabr 1937, repressiya olunub və güllələnib) və Cavad bəy Məlik-Yeqanovdan (1878, Şuşa qəzası, Tuğ kəndi - 14 may 1942, Kareliya MSSR, Medvejskaya Qori şəhəri, sürgündə vəfat edib) ibarət nümayəndə heyəti yaratmış və Bakıya yola salmışdı. Buraya 1 gürcü və 1 erməni, həmçinin daha başqa 2 deputatda əlavə olunmuşdu. Bakıdakı mart soyqrımından sonra Trabzon konfransındakı iştirakını yarımçıq qoyub Tiflisə dönən M. Ə. Rəsulzadə Seymin rəhbərliyi qarşısında qəti şərt qoymuşdu ki, əgər Seym bolşevikləri Bakıdan çıxarmağa çalışmasa, Müsəlman fraksiyası onun tərkibindən çıxacaq. Bundan sonra Seym Bakıya 6 min nəfərlik hərbi qüvvə yola salmışdı...

Bakıya gəlmiş İ. Heydərovu bolşeviklər həbs etmişdilər (1918-ci ilin ortaları). Onu yalnız 1918-ci il mayında azad etmişdilər. Həbsdə olmasına baxmayaraq, o, 1918-ci il mayın 11-də Qafqazın Dağlı Xalqlarının Birliyi Cəmiyyətinin (Dağlılar Cəmiyyətinin) "Tapa" ləqəbli Əbdül Məcid Çermoyevin (15 mart 1882, Qroznı, Çeçenistan - 28 avqust 1936, Paris) təşkil etdiyi 2-ci hökumət kabinetində (11 may 1918-15 dekabr 1918) nəqliyyat, poçt və teleqraf naziri vəzifəsinə təyin edilmişdi. Hökumət başçısı Ə. Çermoyevin rəhbərlik etdiyi Qafqaz Dağlılar Birliyinin nümayəndə heyəti 1918-ci il noyabrın sonunda Bakıya gələndə, Azərbaycan Cümhuriyyəti hökuməti ilə bir sıra müqavilələr imzalanan zaman müqavilələrdən birinə nəqliyyat, poçt və teleqraf naziri kimi İ. Heydərov qol çəkmişdi.

1918-ci il dekabrın 15-də Dağıstanın İttifaq Şurası (Qafqazın Dağlı Xalqlarının Birliyi Cəmiyyətinin Parlamenti) təsis olundu. Şura Ə. Çermoyevin istefasını qəbul etdi. Yeni hökumətin təşkili daxili işlər naziri Pşimaxo Kotsevə həvalə olundu. P. Kotsevin yeni hökumət kabinetində (15 dekabr 1918-23 mart 1919) İ. Heydərova

yollar naziri vəzifəsi verilmişdi.

İ. Heydərov 1919-cu ilin yazında Fransanın paytaxtı Parisdə keçirilən beynəlxalq Sülh Konfransında Avropa dövlətləri ilə danışıqlar aparmaq üçün Dağıstandan göndərilən nümayəndə heyətinin tərkibində idi... Payızda oradan geri qayıdanda artıq general Denikin Dağıstanı tutmuşdu. İ. Heydərov əldə silah denikinçilərə qarşı vuruşmuşdu...

1920-ci ilin əvvəllərində 11-ci ordu Dağıstanı denikinçilərdən təmizlədikdən və orada sovet hakimiyyəti qurulduqdan sonra İ. Heydərov Bakıya gəlmişdi. Burada ictimai-siyasi, habelə mədəni tədbirlərdə fəal iştirak edərək,"Əhrar" partiyasının üzvü Ağa Kərim Əminovla (1888, Bakı - 1921, Bakı) birlikdə xeyriyyə konsertlərinin, teatr tamaşalarının, həmçinin Üzeyr bəy Hacıbəylinin (18 sentyabr 1885, Şuşa qəzasının Ağcabədi kəndi - 23 noyabr 1948, Bakı) "Leyli və Məcnun" operasının, habelə "Azərbaycan gecələri"nin təşkilində fəal iştirak etmişdi.

1920-ci ilin əvvəlində İ. Heydərovu çətin bir sahəyə, yeni bir məsul vəzifəyə təyin etmişdilər. Belə ki, o, Azərbaycan hökumətinin qərarı ilə 1920-ci il yanvarın 6-da Azərbaycan Cümhuriyyəti daxili işlər nazirinin müavini vəzifəsinə təyin edilmişdi. Həmin vaxt daxili işlər naziri M. H. Hacınski idi. Hərtərəfli, təcrübəli, peşəkar kadr olan İ. Heydərov daxili işlər nazirinin müavini vəzifəsində 1920-ci il martın 10-dək fəaliyyət göstərmiş, bu vəzifədə həmin sahənin inkişafı üçün, o cümlədən respublikada ictimai asayişin mühafizəsi və cinayətkarlıqla mübarizədə var qüvvəsini sərf etmişdi...

... Daxili işlər nazirinin müavini İ. Heydərovun 1920-ci il yanvarın 23-də Bakıdan Qarabağ General-Qubernatorluğuna məxfi qrif altında göndərdiyi teleqramda deyilirdi:

"Şuşa. Hüseyn bəy Mahmudbəyova. Səlim bəyə çatdırınki, (rotmistr Səlim bəy Qarabağdakı kürd süvari divizionunun komandiri idi) Xəlil paşa Xosrov bəy Sultanovun sərəncamında olmasını əmr edir. Nömrə 423.

Daxili işlər naziri əvəzi Heydərov".

Bir gün sonra, yanvarın 24-də Xəlil paşanın bu gün axşam qatarla Şuşaya salınacağını, onun üçün Yevlax stansiyasına avtomobil göndərməyi əmr etmişdi .



...Daxili işlər nazirinin müavini İ. Heydərov türk generalı Xəlil paşanın Azərbaycandakı fəaliyyətindən... xəbərdar idi. Azərbaycanın istiqlal fədailərindən biri İsa bəy Aşurbəyli (1878-1938) bir çox milli təəssübkeşlərimiz kimi 30-cu illərdə həbs olunduqdan sonra XDİK-in müstəntiqinə verdiyi ifadələrində İ. Heydərovun kommunistlərlə "əməkdaşlığı"nı bildirmişdi. Bu, general Mustafa Faruq Nuru paşa ilə əlaqədardı. Belə ki, bolşeviklər tərəfindən Batumda həbs edilmiş Nuru paşanı xilas etmək lazım idi. İ. Heydərov və silahdaşları Nuru paşanın xilasını çətinliklə də olsa təşkil etməyi bacarmış (bu işi əslən göyçaylı, Azərbaycan Parlamentinin üzvü Yusif Yaqub oğlu Əhmədov (Əhmədzadə). 30-cu illərdə repressiyaya məruz qalmış, həbs olunaraq, 1938-ci il iyulun 26-da güllələnmişdi) və onu azad etdirib Bakıya gətirmişdi. Bakıda sabiq daxili işlər naziri B. Cavanşirin yanında Nuru paşa, H. Sultanov, Ə. H. Qarayev, İ. Heydərov, İ. Aşurbəyli və Zaqafqaziya Diyar Komitəsi nümayəndəsinin iştirakı ilə yığıncaq olmuşdu. İclasda qəbul edilən qərara əsasən Nuru paşa təhlükəsizlik nöqteyi-nəzərdən daha etibarlı hesab olunan Dağıstana yola salınmışdı... Sonra onun ardınca Türkiyədən general Xəlil paşa da Bakıya gəlmişdi...

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra İ. Heydərov lazımlı bir mütəxəssis kimi Azərbaycan SSR yollar, poçt və teleqraf naziri Cəmil bəy Vəzirovun (1886, Şuşa qəzası, Zümürxaç kəndi - 1943, Oryol şəhəri, Rusiya) müavini təyin edilmişdi. Ancaq heç bir ay keçməmişdi ki, Azərbaycan FK tərəfindən həbs olunmuşdu. Onu Azərbaycan Cümhuriyyəti hökumətinin həbsdə yatan görkəmli xadimlərinin azad olunmasına yardım göstərməsində suçlayırdılar. İ. Heydərov yalnız, Azərbaycan SSR XKS-in sədri, köhnə dostu N. Nərimanovun işə qarışmasından sonra 1920-ci ilin sonunda həbsdən azad edilmiş və daha Bakıda qalmayıb Gürcüstana getmişdi. Orada hələ sovet hakimiyyəti qurulmamışdı. Menşevik hökuməti onu köhnə dostu kimi səmimi qarşılamışdı. Lakin 1921-ci il fevralın 25-də Gürcüstan sovetləşəndən sonra İ. Heydərov Fransaya mühacirət etməyə məcbur olmuş və ailəsi ilə 1925-ci ilədək orada yaşamışdı. İbrahim bəy Fransada siyasi fəaliyyətlə məşğul olaraq, xarici ölkələrdə aparılan diaspor işini birləşdirmək, Qafqaz xalqlarının azadlıq mübarizəsinə rəhbərlik məqsədilə Parisdə yaşayan Ə. Topçubaşov, Ə.

Çermoyev, Ceyhun bəy Hacıbəyli (2 fevral 1891, Şuşa - 22 oktyabr 1962 Paris), Heydər Bammatov (1890, Dağıstan – 1965, Fransa, milliyyətcə kumık idi) daxil olduğu Konfedarasiya təsis etmişdi.

1925-ci ildə Türkiyə hökuməti İ. Heydərovu İstanbula dəvət etmişdi. İbrahim bəy Türkiyəyə köçdükdən sonra "Heydəroğlu" soyadını qəbul etmişdi. İbrahim Heydəroğlu Türkiyədə Kayseri dəmir yolu xəttində, Türkiyənin Yollar Nazirliyində və axırıncı iş yeri olan Abadlaşdırma Nazirliyində müxtəlif məsul vəzifələrdə çalışmış, yüksək elmi heyətin üzvü olmuşdu. O, 1949-cu ildə 70 yaşında vəfat etmiş və Ankaradakı Cəbəçi məzarıstanlığında dəfn olunmuşdur...

İ. Heydəroğlunun nəsil və ailəsi barədə də bir qədər bəhs etmək yerinə düşər. Onun nəslinin başçısı Hacı Osman bəy Heydərov Dərbəndin köklü sakinlərindən idi. O, Dərbənd şəhərinin də başçısı olmuşdu. Hacı Qasım bəyin Nemətulla və Minətulla adlı 2 oğlu vardı. Nemətulla (4 oktyabr 1827 - 20 yanvar 1901) hərbçi olmuş, çar Rusiyasının general-mayoru (1844) rütbəsinədək yüksəlmiş, 3-cü dərəcəli "Müqəddəs Georgi" ordeninə layiq görülmüş və Rusiyada bu ordeni alan ilk müsəlman idi. İkinci oğul Minətulla bəyin 3 oğlu dünyaya gəlmişdi : İsa bəy, Musa bəy və Qasım bəy. 1822-ci il təvəllüdlü İsa bəy Heydərov İbrahim bəyin atasıydı. O, hərbçi vəzifəsində xidmət göstərmiş, xüsusi polis konvoyunun praporşiki olmuşdu.

İ. Heydərov hələ 1915-ci ildə Dərbənddə general-leytenant Balakişi bəy Ərəblinskinin (1828 Tala kəndi, Zaqatala - 3 yanvar 1905, Dərbənd) oğlu Cahangir bəyin qızı Nisə xanımla (1900-1943) ailə qurmuşdu. (**Qeyd:** *B. Ərəblinski Qafqazın müsəlman əhalisindən Rusiyada ali hərbi təhsil almış ilk azərbaycanlı idi. O, düz 50 il çar Rusiyasının ordusunda nümunəvi xidmət göstərmiş, çoxlu orden və medallarla təltif olunmuşdu. General-leytenant B. Ərəblinskinin Azərbaycan milyonçularının lideri H.Z. Tağıyevlə qohumluğu vardı. Belə ki, hacı general B. Ərəblinskinin kiçik qızı Sona xanımı almışdı. III Dumaya Azərbaycandan deputat seçilmiş oğlu Ağa İsmayıl bunun üstündə atasından birdəfəlik küsmüş, heç Dumaya da getməmişdi*).

İ. Heydərovun generai-leytenant B. Ərəblinskinin nəvəsi Nisə xanımla izdivacından 4 övladı dünyay gəlmişdi. Bunun 3-ü qız, 1-i isə oğlan idi. Oğlanın adını Minnətullah qoymuşdular. Minnətullah



5 sentyabr 1918-ci ildə Bakıda doğulmuşdu. Sonralar ali hüquq təhsili almış vəkil M. Heydəroğlu Türkiyənin tanınmış şəxslərindən, hüquqşünaslarından və siyasətçilərindən biri olmuşdu. Minnətullah bəy hələ uşaq ikən atasından mükəmməl öyrəndiyi şahmatı 80 yaşından sonrada oynayır, hətta turnirlərədə qatılırdı. Bu gündə İzmirdə onun adına şahmat turnirləri düzənlənir. M. Heydəroğlu 88 illik ömrünün son 15 ilini İzmir şəhərində yaşayıb, ancaq 16 avqust 2006-cı ildə Bürhanədə yay evində dünyasını dəyişib.

İ. Heydəroğlunun böyük qızı Leyla xanım Heydəroğlu 1920-ci ildə Dərbənddə anadan olmuş və 1955-ci ildə İstanbulda vaxtsız, cəmi 35 yaşında vəfat etmişdi... Ortancıl qızı Fatma xanım Alpenqin 21 noyabr 1921-ci ildə Tiflisdə doğulmuş, Ankarada yaşamış və indi də orada qəzet sahəsində çalışan qızı Mina xanım Tansellə yaşamaqdadır... Kiçik qızı Şermin xanım Özgen 22 aprel 1926-cı ildə İstanbulda anadan olmuş, 85 il ömür sürmüşdü. O, 24 yanvar 2011-ci ildə İstanbulda vəfat etmişdir...

## ŞƏFİ bəy RÜSTƏMBƏYLİ
## ("Aran") (1893 – 1960)



Dövrünün görkəmli ictimai-siyasi xadimlərindən olan Şəfi bəy Mustafa bəy oğlu Rüstəmbəyli (Rüstəmbəyov) 1893-cü ildə Qutqaşenin (indiki Qəbələ) Aydınqışlaq kəndində əsilzadə ailəsində anadan olmuşdu (Bəzi tarixi ədəbiyyatda onun Qəbələnin Mamaylı, digərində isə Ağdaş qəzasının Məmmədli kəndində anadan olduğu yazılmışdır. Son araşdırmalar göstrərir ki, Şəfi bəy Aydınqışlaq kəndində dünyaya gəlmişdir...).

Şəfi bəyin atası Mustafa bəy varlı şəxs - mülkədar idi. (Böyük M. Ə. Rəsulzadə özünün "Azərbaycan Cümhuriyyəti" kitabında Mustafa bəyi "İstiqlal Şəhidi" adlandırmışdır...). Onun bir neçə kənddə evi

və mülkü vardı. Çox vaxtda Pirəlli kəndində yaşayırdılar. Şəfi bəyin anasının adı Ülkər xanım idi. Şəfi bəy orta təhsilini Gəncə klassik gimnaziyasında başa vurduqdan sonra 1911-ci ildə Kiyev Universitetinin hüquq fakultəsinə daxil olmuşdu. 1916-cı ildə oranı bitirərək, hüquq təhsili diplomu alaraq, Gəncəyə dönmüş və dairə məhkəməsində işləməyə başlamışdı. Ş. Rüstəmbəyli "Müsavat" partiyasının və onun Mərkəzi Komitəsinin fəal üzvlərindən birinə çevrilmişdi...

Ş. Rüstəmbəyli 1917-ci il noyabrın 15-də yaranmış Zaqafqaziya Komissarlığının, Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının da fəal üzvlərindən idi. O, Tiflisdə Azərbaycan Milli Şurasının və Azərbaycan Cümhuriyyətinin də yaranmasında yaxından iştirak etmişdi. Şəfi bəy 1918-ci il sentyabrın 16-dan dərc edilməyə başlayan və Azərbaycan Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin (rus dilində) redaktoru idi (Azərbaycanca çıxan nəşrin redaktoru isə Ceyhun bəy Hacıbəyliydi). Ş. Rüstəmbəyli 1918-ci il dekabrın 7-də Bakıda təntənəli surətdə açılan Azərbaycan Parlamentinə üzv seçilmişdi. O, Parlamentdə Etimad Komissiyasının sədri idi.

Ş. Rüstəmbəyli qəzet redaktoru olmaqla bərabər, Azərbaycan Cümhuriyyəti Daxili İşlər Nazirliyinin Dəftərxanasının müdiri işəyirdi. Azərbaycan Parlamenti və Hökumətinin qərarı ilə o, 1920-ci il martın 10-dan daxili işlər naziri M. H. Hacınskinin müavini təyin edilmişdi. Ş. Rüstəmbəyli bu vəzifədə həmin tarixdən ondan əvvəlik nazir müavini İ. Heydərovu əvəz etmişdi. Ş. Rüstəmbəyli daxili işlər naziri vəzifəsində Azərbaycan Cümhuriyyətinin süqutunadək qətiyyətlə xidmət etmişdi. O, çox vaxt faktiki nazir rolunu oynayırdı... Müstəqil Azərbaycan polisi orqanlarının möhkəmləndirilməsində, respublikada asayişin qorunmasında və cinayətkarlıqla mübarizədə Ş. Rüstəmbəyli müstəsna rol oynamışdı. Şəfi bəy Azərbaycan Cümhuriyyəti əleyhinə baş verən qanunsuz fəhlə və kəndli çıxışlarının "qəddar düşməni" kimi ad çıxarmışdı. Azərbaycan hökumətinin 10 mart 1920-ci il tarixli 46 nömrəli qərarına və DİN-in müvafiq əmrinə əsasən Ş. Rüstəmbəylinin nazir müavini təyin edilməsi barədə Nazirliyin şəxsi heyətinin tanış olması üçün bu haqda rəsmi dövlət orqanı olan "Azərbaycan" qəzetində də bəyanat dərc olunmuşdu .

Qeyd etmək lazımdır ki, M. H. Hacınski daxili işlər naziri olarkən Bakıdakı ingilis komandanlığının apardığı "siyasətə" "uyğun" gəlmədiyinə görə, Böyük Britaniya hərbi rəhbərliyi onun başqasıyla əvəzlənməsinə və yerinə xüsusilə, müavini Ş. Rüstəmbəylinin təsdiq olunmasına çalışırdı. Belə ki, Ş. Rüstəmbəyli daxili işlər nazirinin müavini təyin edildikdən sonra onun əmrləri ilə polis orqanlarının fəhlə məhəllələrində, müxtəlif klublarda bolşeviklərin təbliğat-təşviqatına qarşı apardığı həbs əməliyyatlarının sayı artmış və ümumiyyətlə, kommunistlərə qarşı xüsusilə sərtləşmişdiki, bu da bolşevikləri sevməyən ingilislərə sərf edirdi.

Ş. Rüstəmbəyli Azərbaycan Parlamentindəki çıxışlarında milli istiqlalımızın, müstəqil dövlətimizin müdafiəsi istiqamətində Ə. H. Qarayev, H. K. Sanılı, A. Malxazyan və b.-na kəsərli cavabları ilə yadda qalmışdı. 1920-ci ilin yazında 11-ci ordu tərəfində Bakının işğalı təhlükəsi yarandıqda o, bolşeviklərə qarşı mübarizənin axıradək davam etdirilməsinin tərəfdarı mövqeyində qəti olaraq qalmışdı.

27 aprel 1920-ci il. Səhər saat 9-da bütün partiya liderləri N. Yusifbəylinin mənzilinə toplaşıb 11-ci ordunun Azərbaycan sərhədlərini keçməsini müzakirə edirlər. Müxtəlif fikirlər irəli sürülür... Şəfi bəy Rüstəmbəyli deyirdi: "...Gəlin, hökuməti Gəncəyə köçürək və oradan bolşeviklərə qarşı mübarizə aparaq". Lakin onun təklifi qəbul olunmamışdı. Azərbaycan Cümhuriyyəti Parlamentinin son iclasının (27 aprel 1920-ci il) stenoqrammı: dinməz-söyləməz, bircə güllə açılmadan hakimiyyəti bolşeviklərə təslim haqda qəbul edilən iclas. Orada bir cümlə də var: " Şəfi bəy Rüstəmbəyli ağlayır".

1920-ci il 27 aprel işğalından sonra Ş. Rüstəmbəyli qardaşı oğlu Bəhramla birlikdə Azərbaycanı tərk edərək, əvvəlcə Tiflisə köçməyə məcbur olmuşdu. Lakin orada təqiblərə məruz qaldığı üçün 1921-ci ilin fevralın 25-dən sonra İstanbula köçmüşdü... Ş. Rüstəmbəylinin İstanbul şəhəri yaxınlığında şəxsi südçülük təsərrüfatı vardı...

1921-ci il iyulun 17-də İstanbulda erməni muzdlu qatili Misaq Torlaqyan tərəfindən Azərbaycan Cümhuriyyətinin sabiq daxili işlər naziri B. Cavanşir qətlə yetirilmişdi. Bu işin məhkəmə prosesində

iştirak edən Ş. Rüstəmbəyli tutarlı dəlillərlə çıxış edərək qatilin qəti surətdə cəzalanmasını tələb etmişdi...

Ş. Rüstəmbəylinin müxtəlif mötəbər jurnallarda Azərbaycanın siyasi tarixinə dair məqalələri çap edilmişdi. "Mətbuat" haqqında qanunun müəllifi olan Ş. Rüstəmbəyli "Azərbaycan Xalq Komitəsi"nin də qurucularından biri idi. 1943-cü il noyabrın 6-da Almaniyanın Berlin şəhərində mühacir azərbaycanlıların Milli Azərbaycan Qurultayı keçirilmişdi. Qurultayda Ş. Rüstəmbəyli onun Rəyasət Heyətinin fəxri üzvü seçilmişdi. Həmçinin "Azərbaycan Milli Birlik Məclisi" yaradılmışdı ki, onun da təsisçilərindən biri Ş. Rüstəmbəyli idi.

Ş. Rüstəmbəyli 1960-cı ildə 67 yaşında İstanbulda "Vətən!", "Azərbaycan!",- deyə-deyə vəfat etmişdi. Hərçənd, Adil Ziyadxanovun 1993-cü ildə nəşr olunmuş "Azərbaycan" adlı kitabında oxuyuruq: ..."Əli Bayramovun məsələsi"ində (öldürülməsində) daxili işlər naziinin müavini kimi heç bir günahı olmamasına baxmayaraq, Azərbaycanın İstiqlalının ikinci ildönümü günü - 1920-ci il Mayın 28-də Şəfi bəy Rüstəmbəyli Azərbaycan SSR Ali İnqilabi Tribunalın hökmü ilə güllələnmişdi... Fikrimizcə, A. Ziyadxanov bu faktı yazarkən tələsmişdir...



# *DAXİLİ İŞLƏR NAZİRLİYİNİN XİDMƏT RƏİSLƏRİ*

## ÖMƏR FAİQ NEMANZADƏ
**(1872-1938)**



Ömər Faiq əfəndi Nemanzadə 1872-ci il dekabrın 24-də Gürcüstanın Tiflis quberniyasının, Ahıska (Axalsıx) qəzasının Azqur kəndində anadan olmuşdu. Təhsilini kənd camesində almış, sonra anasının təkidilə Türkiyəyə, İstanbula getmiş, orada "Fateh" məktəbində təhsilini davam etdirmişdi. Ö. F. Nemanzadə Cənub-Qərbi Qafqaz Türk Respublikasının (27 mart 1917 - 30 noyabr 1918) Nazirlər Şurasının 1-ci sədri olmuşdu... Ö. F. Nemanzadə Azərbaycan milli-demokratik fikir cərəyanının rəhbərlərindən biri, məşhur ədib C. Məmmədquluzadə (1866-1933) ilə birlikdə "Molla Nəsrəddin" jurnalının yaradıcılarından idi...

Azərbaycan Cümhuriyyəti dövründə DMK-nın 1919-cu il 16 sentyabr tarixli qərarı ilə polis məmurlarının qanunçuluğa necə əməl etməsinə nəzarəti həyata keçirmək məqsədilə DİN yanında Xüsisi İnzibati Polis İnspeksiyası (Xüsusi Polis Müfəttişliyi) yaradılmışdı. DİN-in bu qurumu o zaman Nikolayev (indiki İstiqlaliyyət) küçəsi 7 nömrəli evdə yerləşirdi. Azərbaycan Cümhuriyyəti DMK-nın qərarı və daxili işlər naziri N.Yusifbəylinin müvafiq əmri ilə görkəmli yazıçı-jurnalist Ömər Faiq əfəndi Nemanzadə ("faiq" ərəb sözü olub, "başqalarından irəli", "əla", "seçmə" deməkdir) yeni təsis olumuş Xüsusi Polis İnspeksiyasının ilk baş inspektoru (rəis hüqu-

qunda) təyin edilmişdi. Onun aylıq məvacibi 5 min rubl idi. DİN-in Xüsusi İnspeksiyasının ayrıca Əsasnaməsi qəbul edilmiş və həmin qurumun fəaliyyətini tənzimləyən hüquqi akt rolunu oynamışdı. DİN-in Xüsisi İnspeksiyası Ö. F. Nemanzadənin rəhbərliyi altında daxili işlər orqanlarında qnunçuluğun möhkəmləndirilməsində və həyata keçirilməsində səmərəli fəaliyyət göstərmişdi... Bir xarakterik misal. Ö. F. Nemanzadənin tapşırığı ilə DİN-in Xüsusi Polis Müfəttişliyinin inspektoruı daxil olmuş məlumat əsasında Bakı polismeysteri Rüstəm bəy Mirzəyevin köməkçisi, polkovnik Bayrambəyovun xidməti fəaliyyətini təhqiq etmişdi. Təhqiqat nəticəsində Bayrambəyov vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə cinayət hərəkətlərinə yol verdiyi üçün DİN-in Xüsusi Müfəttişliyinin 29 sentyabr 1919-cu il tarixli əmri üzrə tutduğu vəzifəsindən azad olunmuş və ona qarşı cinayət işi qaldırılmışdı.

... Ö. F. Nemanzadə Gürcüstanda hələ menşevik hökuməti elan olunanda Ahıska və Axalkələk əyalətlərinə muxtariyyət tələb etməyə başlamışdı. Buna görə 3 dəfə həbsə alınnmış, Tiflisdəki Metex qalasında yatmışdı. Lakin xalqın hər dəfə tələbilə yenidən azadlığa buraxılmışdı.1921-22-ci illərdə Gürcüstan SSR Müvəqqəti İcraiyyə Komitəsinin üzvü, 1922-23-cü illərdə Gürcüstan SSR Müsəlman İşləri üzrə Şuranın 1-ci sədri seçilmişdi. Ö. F. Nemanzadə sovet dövründə repressiyanın ilk qurbanlarından biri olmuşdu. O, 1937-ci ildə doğulduğu Gürcüstan SSR-in Axalsıx qəzasının Azqur kəndində ikinci dəfə həbs edilərək, bir müddət Tiflisdə saxlanmışdı. Azərbaycanın istiqlal fədailərindən biri Ö. F. Nemanzadə 1938-ci il oktyabrın 10-da Tiflisdə Xüsusi İstintaq Komissiyasının nəzdindəki "Üçlüyün" qərarı ilə güllələnmişdi...



## MƏHƏMMƏD BAĞIR bəy ŞEYXZAMANLI (ŞEYXZAMANOV) (1880 – 1920)



Məhəmməd Bağır bəy (Məmmədbağır yazılır, əslində Məhəmməd Bağır düzdür) Saleh bəy oğlu Şeyzamanlı (Şeyzamanov) 1880-ci ildə Gəncədə əsilzadə ailədə anadan olmuşdu. İlkin təhsilini Gəncə şəhər Gimnaziyasında almışdı... Müsavatçıydı. Azərbaycanın əsl istiqlal fədailərindən biri olmuşdur. M. B. Şeyxzamanlı məşhur Gəncə Müsəlman Xeyriyyə Cəmiyyətinin Təftiş Komissiyasının üzvü idi...

...1919-cu il iyunun 11-də Azərbaycan DMK Əks-İnqilabla Mübarizə Təşkilatı (tarixi ədəbiyyatda Əks-Kəşfiyat Xidməti də adlanır) yaradılmışdı. Təşkilatın yaranması Azərbaycanı hədələyən xarici və daxili əks qüvvələrə qarşı mübarizə zərurətindən irəli gəlmişdi. Bu təşkilat əvvəlcə DMK-ya tabe idi, lakin sonra Azərbaycan Cümhuriyyəti DİN-in sərəncamına keçmiş və onun mühüm xidmət strukturlarından birinə çevrilmişdi. Əks - İnqilabla Mübarizə Təşkilatının ilk rəisi (sədri) məhz əslən Gəncədən olan M. B. Şeyxzamanlı olmuşdu. Onun müavini isə "Hümmət" müsəlman təşkilatının üzvü Mirfəttah Müsəvi (1891-1919) təyin edilmişdi. Əks-İnqilabla Mübarizə Təşkilatı yarandığı ay onun cəmi 17 əməkdaşı (3 nəfər baş agent, 14 agent) çalışırdı. Ümumiyyətlə, mövcudluğu dövründə (11 iyun 1919 - 6 mart 1920) bu təşkilatda 100-dən artıq agent xidmət göstərmişdi. 1919-cu il avqustun 20-də M. B. Şeyxzamanlı öz xahişi ilə istefa vermiş və əvəzinə qardaşı Nağı bəy Şeyxzamanlı (Şeyxzamanov) təyin edilmişdi. Azərbaycan Cümhuriyyətinin ilk xüsusi orqanının rəhbəri M. B. Şeyxzamanlı 1920-ci il Gəncə üsyanından (24 may - 4 iyun 1920) sonra bolşeviklər tərəfindən həbs edilmiş və Ali İnqilabi Tribunalın hökmü ilə 1920-ci il mayın 29-da güllələnmişdir...

Gəncədə M. B. Şeyxzamanlının vaxtı ilə yaşadığı evə xatirə lövhəsi - onun baralyefi vurulmuşdur. Böyük M. Ə. Rəsulzadə özünün "Azərbaycan Cümhuriyyəti" kitabında Məhəmməd Bağır bəy Şeyxzamanlını "İstiqlal Şəhidi" adlandırmışdır...

## NAĞI bəy ŞEYXZAMANLI (ŞEYXZAMANOV) ("Keykur") (1883 – 1967/69)



Nağı bəy Saleh bəy oğlu Şeyxzamanlı (Şeyxzamanov) Azərbaycan Cümhuriyyətinin görkəmli xadimlərindən biri idi. 1883-cü ildə Gəncədə əsilzadə ailədə anadan olmuşdu... İlkin təhsilini Gəncə şəhər klassik Gimnaziyasında almışdı... Gəncədə N.Yusifbəylinin "Türk Ədəmi Mərkəziyyət" firqəsinin üzvü olmuş, sonra isə "Müsavat" partiyasına girmişdi. O, Gəncə Milli Komitəsinin Gənclər Təşkilatının sədri kimi də fəaliyyət göstərmişdi.

1919-cu il avqustun 20-də Azərbaycan Cümhuriyyətinin ilk xüsusi orqanının - Əks-İnqilabla Mübarizə Təşkilatının rəisi M. B. Şeyxzamanlı öz xahişi ilə tutduğu vəzifəsindən istefa vermiş və onun yerinə məhz qardaşı Nağı bəy Şeyxzamanlı təyin edilmişdi... 1919-cu il sentyabrın 13-də Bakı Möhkəmləndirilmiş Hərbi Müdafiə Rayonu ilə Bakı General-Qubernatorluğu birləşdirilmişdi. Bir ay sonra, 1919-cu il oktyabrın 26-da N. Şeyxzamanlının rəhbərlik etdiyi Əks - İnqilabla Mübarizə Təşkilatı Bakı General Qubernatorluğuna tabe edilmişdi. Həmin quruma isə milliyyətcə çərkəz olan general-mayor Murad Gəray bəy Tlexas başçı təyin edilmişdi... Beləliklə, Əks-İnqilabla Mübarizə Təşkilatı ilə Bakı General-Qubernatorluğu birləşib Azərbaycan Cümhuriyyəti DİN-in vahid srukturu kimi fəaliyyətini davam etdirmişdi... N. Şeyxzamanlı Əks-İnqilabla Mübarizə Təşkilatının sədri olmaqla bərabər, "Difai" ("Fədai") təşkilatının işindən də kənarda qalmırdı...



Lakin 1920-ci il martın 6-da Azərbaycan Cümhuriyyəti Nazirlər Nurasının qərarı ilə Əks-İnqilabla Mübarizə Təşkilatı (tarixi ədəbiyyatda Müsavat Əks-Kəşfiyat Xidməti də adlandırılır) "istənilən səmərəni" vermədiyi üçün ləğv edilmişdi. Bu haqda Nazirlər Şurasının 1920-ci il 6 mart tarixdə keçən iclasında gündəlikdə duran məsələlərdən biri kimi daxili işlər naziri M. Vəkilov məlumat vermiş və ertəsi günü rəsmi dövlət mətbu orqanı olan "Azərbaycan" qəzetinin 7 mart tarixli nömrəsində bildiriş də dərc olunmuşdu... Ancaq hadisələrin yaxın gələcək gedişi göstərmişdiki, N. Şeyxzamanlının rəhbərlik etdiyi, özüdə pis işləməyən Əks-İnqilabla Mübarizə Təşkilatının ləğvi gənc Azərbaycan Cümhuriyyətinin o zamankı mürəkkəb tarixi şəraitində bir qədər tələsik qəbul edilmiş qərar idi və çox keçmədən bu mühüm xüsusi orqanın yoxluğu özünün mənfi nəticələrini göstərmişdi... Reallıq onndan ibarət idi ki, həmin qurumun mövcudluğu və saxlanması hələ zəruri idi... Beləliklə, Nağı bəyin bu çətin və məsuliyyətli vəzifədə 1920-ci il martın 6-dək xidmət göstərdiyi aydın olur...

N. Şeyxzamanlı Azərbaycanda sovet hakimiyyəti qurulduqdan və Gəncə üsyanınının (24 may - 4 iyun 1920-ci il) məğlubiyyətindən sonra F. Xoyski, X. Xasməmmədov və H. Ağayevlə birlikdə bolşeviklərin əlinə keçməmək üçün əvvəlcə Tüflisə getməyi qərarlaşdırmışdı... Mərhum xalq artsti, aktyor Məmmədrza Şeyxzamanov (4 avqust 1915, Gəncə - 25 yanvar 1984, Bakı,70 yaş) söyləyirdi ki, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra dayım Nağı bəyin Tiflisə gedib-çıxmasına (Bakının Güzdək stansiyasından vaqonda gizlənməklə Yevlax stansiyasına, oradan da Gürcüstana) kömək etmişdi... Lakin 1920-ci il iyunun 19-da Tiflisdə F. Xoyski erməni terrorçuları tərəfindən qətlə yetirildikdən sonra Tiflisdən İstanbula getmiş, məşəqqətli mühacir həyatı yaşamağa başlamışdı. İstanbulda siyasi mühacirlər arasında Nağı bəy "Keykur" soyadını qəbul etmişdi.

Nağı bəyin ailə üzvləri və qohumları da sovet hakimiyyəti qurulduqdan sonra repressiyaya məruz qalmışlar. Ortancıl qardaşı İsrafil bəy Şeyxzamanlı (1882-1956) ixtisasca mühasib idi və heç bir siyasi prtiyaya mənsubluğu yoxuydu. O və oğlanlarından SSRİ Kənd Təsərrüfatı Nazirliyində subtropik meyvə və üzümçülük şöbəsinin müdiri vəzifəsində çalışan Nizami, dəfələrlə təqiblərə məruz

qalmışdı və Qazaxıstana sürgün olunmuşdu... Həyat yoldaşı Səlma xanımda Azərbaycan SSR FK-nın əməkdaşları tərəfindən həbs olunaraq istintaqa və işgəncələrə məruz qalmışdı. Günahı olmadığından buraxılsada, təqiblərdən yaxa qurtarmaq üçün Türkiyəyə ərinin yanına gedə bilmişdi... Onlar İstanbulda birlikdə yaşamışdılar. Nağı bəy Şeyxzamanlının "Mənim xatirələrim. İstiqlal mücadiləsi" adlı kitabı 1967-ci ildə Bakıda nəşr olunmuşdu. Nağı bəy ABŞ-da olarkən 1967-ci ildə 84 yaşında (bəzi məlumata görə 1969-cu ildə) vəfat etmiş, lakin Türkiyəyə gətirilib... İstanbulda azərbaycanlı siyasi mühacirlərin dəfn olunduğu məşhur "Fəri köy" qəbristanlığında torpağa tapşırılmışdı. Onun məzarı X. Xasməmmədovun yanındadır. Hərçənd, bəzi bilgilərdə Nağı bəyin İstanbuldakı Qaraca Əhməd qəbristanlığında dəfn olunduğu yazılır... Ancaq Nağı bəyin İstanbulda yaşayan oğlu Yavuz bəyin "Fəri köy"də onun qəbrinin başı üstündə mərhum jurnalsit Xanlar Bayramovla birgə şəkili vardır. X. Bayramov hələ 1992-ci ildə İstanbulda olarkən məhz Yavuz bəyin müşayiətilə "Fəri köy"də uyuyan görkəmli ictimai-siyasi xadimlərimizi ziyarət etmiş və xatirə şəkilləri çəkmişdir...

Nağı bəyin nəvəsi Tomris Azəri hazırda ABŞ-da fəalliyyət göstərən Amerika-Azəribaycan Mədəni Əlaqələr Cəmiyyətinin sədridir... Gəncədə Nağı bəy Şeyxzamanlının vaxtı ilə yaşadığı evin önünə onun baralyefi - xatirə lövhəsi vurulmuşdur...

## YUSİF ZİYA TALIBZADƏ
## (1877 – 1923)



Yusif Ziya Talıbzadə Azərbaycan Respublikası DİN-in hazırkı Daxili Qoşunlarının yaradıcısıdır. Azərbaycan Cümhuriyyəti Könüllü Əskərlər Dəstəsinin ilk rəisi olan "Axund Yusif" ləqəbli Yusif Ziya Mustafa oğlu Talıbzadə 1877-ci il yanvar ayının 20-də Tiflisdə anadan olmuşdu. Əvvəlcə Tiflisdə, sonra Xorasan (İran) və Bağ-



dadda (Bağdad ərəbcə "Allahın vergisi", "Sülh şəhəri - "Mədinat əs-Səlam" deməkdir. İraqda Dəclə çayının hər iki sahilində yerləşən, 9-cu əsrdə özünün çiçəklənmə dövrünü yaşayan, Yaxın Şərqin məhtəşəm elm və mədəniyyət mərkəzi olan bu şəhərin əsasını xəlifə əl-Mənsur 762-ci ildə qoymuş və o vaxtdan 508 il Abbasilər Xilafətinin (750-1258) paytaxtı olmuşdu) yüksək təhsil almış Yusif Ziya 20-ci əsrin əvvəllərində türkçülük, islamçılıq, azərbaycançılıq ideoloqlarından biri, publisist, maarrifçi, şair, dramaturq, hərbçi idi. O, ömrünün sonuna qədər milli istiqlal hərəkatımızın fəal iştirakçısı olmuşdu...

... Hələ uşaqlıq və yeniyetməlik çağlarından farslaşdırma və ruslaşdırma siyasətinin türkçülüyə vurduğu zərərləri görmüş, daim buna qarşı mübarizə aparmışdı... Tədqiqatçıların fikrincə, Y. Z. Talıbzadə Azərbaycanda ilk xəritə tərtib etmiş azərbaycanlıdır. "İslam tarixi və tarixi müqəddəs ənbiyayə dair məkanların nəqşəsi və islam məmləkətlərinin xəritəsi" adlanan bu nadir xəritə, 1904-cü ildə Bakıda, A. M. Promislyanskinin tipoqrafiyasında litoqrafiya üsulu ilə çap olunmuşdur. İndi biblioqrafik xarakter daşıyan bu nadir divar xəritəsi, ötən əsrin əvvəllərində rus-tatar məktəblərində bir dərs vəsaiti kimi kütləvi şəkildə istifadə olunurdu.

1912-ci ildə Yusif Ziya həyat yoldaşı Cənnət xanım və oğlu Tələtlə Türkiyəyə köçmüş, orada hərbi təhsil almış, Birinci Dünya Müharibəsində Qars-Ərdəhan türk ordusu sıralarında ruslara, ermənilərə qarşı döyüşlərdə binbaşı (mayor) rütbəsində iştirak edətək, qəhrəmanlıqlar göstərmişdi. Yusif Ziya Osmanlı ordusunda albay (polkovnik) rütbəsinədək yüksəlmişdi...

1918-ci il sentyabrın 15-də Yusif Ziya Nuru paşanın komandanlıq etdiyi türk ordusu sırasında Bakıya gəlmişdi. Bu vaxt o, Qafqaz İslam Ordusunun Könüllülərdən İbarət Yardım Alayının rəisi idi...

Əhalini hərbi işlə tanış etmək, ölkədə sabitliyin, ictimai asayişin və nizam-intizamın saxlanması üçün Baş nazir və eyni zamanda daxili işlər naziri olan N.Yusifbəylinin başçılıq etdiyi hökumətin 1 iyun 1919-cu il tarixli qərarı və Parlamentin razılığı ilə Azərbaycan Cümhuriyyətinin mobil Könüllü Əsgərlər Dəstəsi yaradılmışdı. Bu, Bakı şəhərinin komendantı, general-mayor Firidun bəy Vəzirovun

(1850-1925) 7 sentyabr 1919-cu il tarixli raportundan bəlli olur. Dəstə əvvəlcə ancaq Bakı şəhərinin 14 rayonu (Sabunçu, Mərkəzi, Balaxanı, Zabrat, Suraxanı, Xil, Aşağı Bibiheybət, Yuxarı Bibiheybət, Qara şəhər, Ağ şəhər, Z. Tağıyev fabriki, Binəqədi, Maştağa və Nardaran) ərazilərini əhatə edirdi. Azərbaycan hökumətinin qərarı ilə Könüllü Əsgərlər Dəstəsinin rəisi vəzifəsinə məhz peşəkar hərbiçi, polkovnik Yusif Ziya Talıbzadə təyin edilmişdi. 1919-cu il iyunun 10-da N.Yusifbəylinin sədr olduğu Azərbaycan Cümhuriyyəti DMK-nın əmri ilə Bakı şəhəri və onun inzibati rayonlarının ərazisində yaşayan çağırış yaşına çatmış şəxslər üçün hərbi hazırlıq işinin təşkili başlanmışdı. Bununla əlaqədar olaraq könüllü dəstələrin təşkili üzrə komissiya yaradılmışdı. Komissiyaya ictimai asayişi mühafizə edən Bakı Təşkilatının Yardım Alayının rəisi Y. Z.Talıbzadə sədr təyin edilmişdi. O, 5 min rubl əmək haqqı verilməklə bu vəzifəyə təyin olunmuşdu. İctimai Asayişi Mühafizə üzrə Bakı Təşkilatının Yardım Alayı da Könüllü Əsgərlər Dəstəsi kimi əvvəlcə DMK-ya tabe idi. Lakin çox keçmədən DİN-in tabeliyində olan çevik bir quruma çevrilmiş və DMK-nın 1919-ci il 27 mart tarixli qərarı ilə Daxili İşlər Nazirliyinin sərəncamına verilmişdi... Beləliklə, xalqımızın milli istiqlalı üçün xeyli işlər görmüş şəxslərdən biri olan Yusif Ziya Talıbzadəni həm də Azərbaycan Respublikası DİN-in indiki Daxili Qoşunlarının yaradıcısı hesab etmək olar...

Azərbaycanda sovet hakimiyyəti "qurulduqdan" sonra Y. Ziyaya peşəkar hərbçi kadr kimi iş təklif olunmuşdu... 1921-ci ilin əvvəllərində Yusif Ziya Naxçıvanın hərbi komissarı təyin edilmişdi. Fevral-mart aylarında ailəsini də Naxçıvana gətirmişdi. Yeni hərbi komissar Naxçıvan torpağına göz dikən, ona əl uzadan daşnak silahlı dəstələrinə zərbələr endirməklə Naxçıvanda hörmət və nüfuz qazanmışdı. Hətta onun adına kənddə olduğu söylənilirdi...

Y. Z. Talıbzadə 1921-ci ilin fevralından dekabrınadək Naxçıvanda hərbi komissar vəzifəsində xidmət etmişdi. Lakin Naxçıvan torpaqlarına iddialarla yanaşan, sərhədləri tez-tez pozan erməni millətçilərinə, daşnaklara münasibətdə loyal siyasət yeridən sovet rəhbərliyi ilə barışmayan Y. Z.Talıbzadə Bakıya gəlib Azərbaycan XKS-in sədri N. Nərimanovla görüşmüş, bu quruluşla uyğunlaşa



bilmədiyini və sovetlərə qulluq etmək istəmədiyini bildirmişdi. N. Nərimanov ona xaricə mühacirətə getməyə rəsmi sənəd vermişdi. Türkiyəyə qayıdan Y. Z. Talıbzadə görkəmli hərbi siyası xadim Ənvər paşanın (Nuru paşanın ögey qardaşı) komandanlıq etdiyi orduda xidmətə başlamışdı. O, Orta Asiyada istiqlaliyyət uğrunda mübarizəni davam etdirən türk xalqlarının "qızıl ordu"ya qarşı döyüşlərində yardımçı olmuşdu. Tarixi mühacirət ədəbiyyatında Y. Z . Talıbzadənin məhz Orta Asiyada 1923-cü il mayın 18-də "qızıl ordu"ya qarşı döyüşlərdən birində qəhrəmancasına həlak olduğu bildirilir... Tarixi ədəbiyyatlardakı məlumatlardan birində deyilirki, Yusif Ziya Ənvər paşanın müavini olmuş və onun həlak olmasından (1922) sonra "qırmızı" ordu ilə döyüşlərdən birində ağır yaralanmışdı. O, xilas olmaq üçün Amu-Dərya (Ceyhun) çayını yaralı halda üzə-üzə keçmək istəyərkən bataraq həlak olmuşdu...

1923-cü ildə Orta Asiyadan gəlmiş bir nəfər Yusif Ziyanın qana bulaşmış köynəyini və həmişə yanında gəzdirmiş olduğu balaca ölçülü (cib) Quranını onun kiçik qardaşı, görkəmli yazıçı-şair Abdulla Şaiqə (Talıbzadəyə) (1881, Tiflis - 1959, Bakı) vermişdi. Həmin qanlı Quran Abdulla Şaiqin mənzil muzeyinin ekspozisiya salonunda bu gündə mühafizə olunmaqdadır.

## *PARLAMENTİ MÜHAFİZƏ POLİSİ*

### NAĞI bəy ƏLİZADƏ (ƏLİYEV)
### (1897 – 1920)



Nəsli-kökü bakılı olan Nağı bəy Əlizadə (Əliyev) 1897-ci ildə Bakıda doğulmuşdu... Podpolkovnik rütbəsində olan Nağı bəy Azərbaycan Cümhuriyyəti yarandıqda onun uğrunda çalışmışdı...1919-cu il fevralın 18-də Azərbaycan Parlamenti öz iclasında "Parlamenti Mühafizə Polisinin təşkili" məsələsini müzakirə etmişdi. Müzakirənin gedişində belə bir strukturun yaradılması zəruri hesab edilmiş, 4 maddədən ibarət qanun layihəsi təsdiq olunmuşdu. Yeni qanuna görə 200 nəfərlik polis dəstəsinin yaradılması məqbul sayılmışdı. M. Ə. Rəsulzadənin təklifi ilə yeni yaradılan polis strukturu "Parlamenti Mühafizə Dəstəsi" adlandırılmışdı. (Sənədlərdə "Parlamentin Qoruyucu Bölüyü" də yazılmışdır...). Yeni strukturun təşkilinə dövlət xəzinəsindən 2.200000 manat ayrılmışdı. Parlamenti Mühafizə Dəstəsinin komanda (idarə) heyəti 6 ştat vahidi üzrə təsis olunmuşdu. Azərbaycan Cümhuriyyəti Parlamentinin Mühafizə Dəstəsinin rəisi podpolkovnik Nağı bəy Əlizadə (Əliyev) təyin edilmişdi. Onun aylıq məvacibi 4500 rublidi. Köməkçisi rotmistr Haşımbəyov təyin olunmuşdu. Məvacibi 3.800 rubl idi. Parlamenti Mühafizə Dəstəsi Parlamentin Rəyasət Heyətinə tabe olub, onun tərəfindən də formalaşdırılır və vazxtaşırı ona hesabat verirdi. Lakin o bəzi məsələlərdə... Azərbaycan Cümhuriyyəti DİN-ə də tabe idi və zəruri hallarda onun tədbirlərinə də cəlb olunurdu...



...Azərbaycan Cümhuriyyəti Parlamentini Mühafizə Polisinin ilk rəisi Nağı bəy Əliyev Azərbaycanda sovet hakimiyyəti elan olunduqdan sonra bolşeviklər tərəfindən həbs edilərək, elə 1920-ci ildə (Nargin adasında) güllələnmişdi... Böyük M. Ə. Rəsulzadə (1884-1955) özünün "Azərbaycan Cümhuriyyəti" kütabında qaimməqam Nağı bəy Əlizadəni "İstiqlal Şəhidi" adlandırmışdır...

# *GENERAL-QUBERNATORLAR*

## MURAD GƏRAY bəy TLEXAS
## (1874-1920)



Bakının general-qubernatoru, general-mayor Murad Gəray bəy Tlexas milliyyətcə çərkəz idi (çərkəzlərdə müsəlmandır). O, 21 oktyabr 1874-cü ildə Kuban vilayətində, Yekaterinodar (indiki Krasnodar) şəhərində hərbçi ailəsində doğulmuşdu. Sankt-Peterburqdakı Mixaylovsk Artilleriya Məktəbini bitirdikdən sonra, 1904 -05-ci illər rus-yapon müharibəsində və Birinci Dünya Müharibəsində (1914-18) döyüşlərdə bərkimiş, özünü nümunəvi döyüş zabiti kimi göstərərək, şöhrət qazanmışdı... Murad Gəray bəy çar Rusiyası ordusunda nümunəvi xidmətinə görə general-mayor ali hərbi rütbəsinə layiq görülmüşdü...

...Azərbaycan Cümhuriyyətinin Murad Gəray bəy kimi peşəkar kadrlara ehtiyacı vardı. O cümlədən Daxili İşlər Nazirliyini də belə kadrlarla möhkəmləndirmək son dərəcə vacib idi. Odur ki, Azərbaycan hökumətinin başçısı və eyni zamand daxili işlər naziri olan N.Yusifbəylinin 1919-cu il 4 dekabr tarixli əmri ilə general-mayor Murad Gəray bəy Tlexas Bakının general-qubernatoru vəzifəsinə təyin edilmişdi. O, Birja küçəsi (indiki Ü. Hacıbəyov) 8 nömrəli ünvanda otururdu. M. Tlexas bu vəzifədə Azərbaycan Cümhuriyyətinin süqutuna qədər qətiyyətlə və sədaqətlə xidmət göstərmişdi...

... General M.Tlexas kabinet məmuru deyildi. Məsul dövlət vəzifəsində çalışan general M. Tlexas gözəl başa düşürdü ki, ona



tapşırılan çətin vəzifənin öhdəsindən layiqincə gəlməlidir. Əvvəlllər döyüşlərdə sınaqdan çıxmış M. Tlexas cinayətkarlıqla mübarizədə və müstəqil, milli dövlətimiz əleyhinə çalışan qüvvələrə qarşı barışmaz və amansız idi. General M. Tlexas Bakı qradonaçalnikinə, Bakı və Sabunçu polismeysterliklərinə pristavların, digər polis məmurlarının və qorodovoyların xidməti fəaliyyətində qanunçuluğa riayət etmələrinə həmişə ciddi nəzarət edir, nizam-intizamı diqqətdə saxlayırdı. O, Bakı şəhərində və bütövlükdə Bakı quberniyasının hər yerində qayda-qanunun möhkəm olması, asayişin mühafizəsi, cinayətkarlıq və onun növləri ilə, xüsusilə, bolşeviklərin Azərbaycan hökuməti əleyhinə gizli fəaliyyətinə qarşı tədbirlər görürdü. Cinayət hadisəsi baş verəndə general-qubernator dərhal orada görünərdi. General Murad Gəray bəyin Milli Ordumuzun formalaşması, inkişafında da xidmətləri vardı. Buna görə Azərbaycan Cümhuriyyətinin hərbi naziri S. Mehmandarov DİN-ə göndərdiyi iki məktubda ona xüsusi minnətdarlığını yazmışdı...

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşeviklər general-mayor M. Tlexası bağışlamadılar və onu dərhal elə 1920-ci il aprelin 28-də həbs etdilər. Onu güya inqilabçı bolşevik Əli Bayramovun qəsdən qətlə yetirilməsinin təşkilatçısı ittihamı ilə mühakimə edərək, işgəncələr verdilər. Güya Bakı Polismeysterliyinin Xəfiyyə Şöbəsinin rəisi Əbdül Məcid Reburov və onun əməliyyatçıları, Bakının 4-cü polis sahə pristavının müavini Süleyman bəy Sübhanverdixanov bolşeviklər Əli Bayramov və Həbib Cəbiyevin Azərbaycan Parlamentinin üzvü Ə. H. Qarayevin evində gizləndiyini bilib evi mühasirəyə alanda əməliyyata general M. Tlexas özü şəxsən rəhbərlik etmişdir... Məhkəmədə bu işin polis tərəfindən təşkil olunması irəli sürülmüşdü. Murad Gəray bəyin istintaqını 11-ci ordunun Siyasi İdarəsinin Xüsusi Şöbəsinin keçmiş rəisi, həmin vaxt isə Azərbaycan SSR Fövqəladə Komissiyasının (FK) sədri vəzifəsini tutmuş, cəllad Semyon Pankratovun rəhbəri olduğu FK-nın baş müstəntiqi Adamyan aparırdı. 10 gün ərzində isintaq və mühakimə olunan General M.Tlexas Ali İnqilabi Tribunalın 28 may 1920-ci il tarixli 1 nömrəli hökmü ilə ölüm cəzasına məhkun edilmişdi. Hökmü Ali İnqilabi Tribunalın sədri Teymur Əliyev imzalamışdı.

Bolşevik Ə. Bayramovun qətlində günahı sübut olunmamasına baxmayaraq, general Murad Gəray bəy Tlexas 1920-ci il mayın 29-da Bakıda gecə saat 2-də güllələnmişdi. Bu zaman onun cəmi 46 yaşı vardı. Böyük M. Ə. Rəsulzadə (1884-1955) özünün "Azərbaycan Cümhurlyyəti" kitabında Murad Gəray bəy Tlexası (Dəlxası) "İstiqlal Şəhidi" adlandırmışdır...

## TEYMUR bəy MƏLİK-ASLANOV
## (1889 - 1920)



Teymur bəy Ağa bəy oğlu Məlik-Aslanov 1889-cu ildə Qarabağda, Şuşa qəzasının Dizaq sahəsinin (indi Hadrud-dur, 1939-cu ilədək Dizaq adlanırdı) Tuğ kəndində əsilzadə ailədə anadan olmuşdu. Onun özündən 10 yaş böyük qardaşı, Azərbaycanın görkəmli ictimai-siyasi xadimi Xudadat bəy Məlik-Aslanov (1879-1935) Azərbaycan Cümhuriyyətinin ilk yollar, poçt və teleqraf naziri olmuş, repressiyayaya məruz qalmışdır...Teymur bəy özü isə Peterburq Yol Mühəndisliyi İnstitutunu bitirmiş, Azərbaycan Cümhuriyyəti dövründə Azərbaycan Dəmir Yol İdarəsinin rəisi və Bakı Dəmir Yolunun general-qubernatoru olmuşdu...

...Teymur bəy Məlik-Aslanov Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra milli qüvvələrimiz tərəfindən Gəncə üsyanında (24 may - 4 iyun 1920-ci il) bolşevik-rus-daşnak qüvvələrinə qarşı fəal iştirak etmişdi. Odur ki, üsyan qan içində yatırıldıqdan sonra Azərbaycan SSR FK əməkdaşları tərəfindən həbs edilmişdi. Azərbaycan SSR İnqilabi Hərbi Səhra Məhkəməsi 1920-ci il iyulun 17-də 14 nəfər kommunistin şahidliyi və qondarma ifadələr əsasında keçmiş müsavatçı, Azərbaycan Cümhuriyyəti Dəmir Yolunun və Bakı Dəmir Yolu üzrə general-qubernator Teymur bəy Məlik-As-



lanovun edam olunması haqqında hökm çıxarmış (orada deyilirdi ki, hökmdən kassasiya şikayəti vermək olmaz), onun evindən 28 min 340 rubl dəyərində əşya müsadirə olunmuşdu. Hökm elə həmin ay yerinə yetirilmişdi...

## MƏHƏMMƏD KOVXA
## (1859 – 1933)



Məhəmməd Mahmud oğlu Kovxa (Mahmudov) (xalq arasında "Məmməd Koxa" kimi məşhur olmuşdur) Azərbaycan Cümhuriyyəti dövründə türklərin köməyə gəlişi zaman (1918-ci ilin iyununda) Qazaxın general-qubernatoru olmuşdu. Bu zaman ay yarım idi ki, həmin vəzifədə Hacı Kərim Sanılı (1878-1937) işləyirdi. H. Sanılı sol menşevik idi və general-qubernator vəzifəsinə gürcü menşevik hökumətinin köməkliyi ilə... gəlmişdi. Onun M. Kovxa ilə köhnədən düşmənçiliyi vardı. Lakin nüfuzlu mülkədar nəslindən olan M. Kovxanı yerli əhali müdafiə edirdi. Onların tələbiylə H. Sanılı vəzifədən kənarlaşdırılmış və Azərbaycan Cümhuriyyəti hökumətinin qərarı ilə yerinə - general-qubernator vəzifəsinə M. Kovxa təyin edilmişdi.

M. Kovxa öz xeyirxah əməlləri ilə general-qubernator vəzifəsinə təyin edilməmişdən əvvəl el-oba arasında böyük hörmət qazanmışdı . M. Kovxa hələ 1914-cü ildə Avey dağındakı bulaqdan camaata su çəkdirmişdi. Qeyrətli şəxsiyyət olub. Xalqın xeyir-şərində yaxından iştirak edib, onlara dayaq durub, əl tutub... M. Kovxa 1914-20-ci illərdə erməni-daşnak dəstələrinə zərbə vuranlardan biri idi. General-quberator işlədiyi dövrdə (1919-cu ilin oktyabrınadək) Qazaxda ciddi qayda-qanun yaratmışdı... Böyük milli qürura malik şəxsiyyət idi Məhəmməd Kovxa. Oğlu Həmid

bəy də Gəncə hərbi məktəbinin ilk məzunlarından biri kimi sovet hakimiyyətinə qarşı mübarizə aparmışdı...

Təəssüf ki, Məhəmməd Kovxada repressiya qurbanlarından biri olan şəxsiyyətlərimizdən, milli istiqlal fədailərimizdəndir. M. Kovxa Qazax qəzasında "Həqiqət ordusu" adlı antisovet təşkilatının fəal üzvü olmuşdu... M. Kovxa acı tale yaşamışdır. 1926-cı ildən başlayaraq, sovet hakimiyyət orqanları onun ailəsini də repressiyaya başlamışdılar. Özü oğlu Həmid ilə bir müddət Türkiyədə-Sarıqamışda yaşasa da, ailəsinin repressiya edilməsinə dözməyərək, Qazaxa qayıtmışdı...1929-cu il sentyabrın 14-də 70 yaşlı qocanı sovet hakimiyyətinin düşməni kimi Baş Dövlət Siyasi İdarəsinin (BDSİ) müstəntiqi Revaz Xaçikyan dindirmişdi... M. Kovxa 1929-33-cü illərdə sürgün həyatı yaşayıb. Vəfatından əvvəl artıq huşu da getmişdi. Qazaxın sabiq general-qubernatoru Məhəmməd Kovxa 1933-cü ilin payızında 74 yaşında sürgündə ürəyi partlamaqla dünyasını dəyişmişdir...

## XOSROV bəy SULTANOV
## (1879 – 1947)



Qarabağın general-qubernatoru olmuş Xosrov bəy Sultanov 1879-cu il mayın 10-da Zəngəzur qəzasının Hacısamlı bəyliyinin (Hacısamlı-Qaraçorlu bölgəsinin də yazılır) Qasımuşağı obasında Qurdqajı (Qurdhacı da deyilir) kəndində mülkədar ailəsində anadan olmuşdu. Bu kənd yaşayış məntəqəsi, yurd yeri kimi çox qədimlərə gedən tarixə malikdir. Kəndin ilk adı Qurdgəzi olmuşdur. Qurdqajı (Qurdhacı) çayının sahilində yerləşirdi (kənd hazırda Laçın rayonununun ərazisinə daxildir). Xosrov bəyin atası böyük nüfuza və var-dövlətə sahib, müdrik kəlamlar ustadı, millətpərvər Əli



Paşa bəy (1837-ci ildə doğulmuşdu) Xanmurad bəy oğlunun ailəsində dünyaya gəlmişdi.

Əli Paşa bəy Kəbirli mahalından, Pərioğulular obasından Abbasqulu bəyin qızı Bəyim xanımla ailə həyatı qurmuşdu. Bu izdivacdan Sultan bəy (1871-1955), Xosrov bəy (1879-1947), İsgəndər bəy (1897-1923) və Rüstəm bəy oğulları (1875), Aftab xanım (1867) adlı qızı dünyaya gəlmişdi. Əli Paşa bəyin ikinci arvadı Seyidlər obasından Hacı Mir Əziz ağanın qızı idi. Həmin nikahdan da Zülfüqar bəy, Bahadur bəy, İsrafil bəy adlı oğulları, Ziba xanım və Məhbub xanım adlı qızları doğulmuşdu. Beləliklə, Əli Paşa bəyin 11 övladı vardı.

Əli Paşa bəyin böyük oğlu Sultan bəy (əsl adı Əli Paşa bəyin ana babasının adını qoyduğu Əsəd Sultan idi) və qardaş-bacıları Paşa bəyin əsas kəndi Qurqajı olsa da, onlar bir müddət Nağdalı kəndində yaşamışdılar... Böyük mülkədar olan Əli Paşa bəy və övladlarının dədə-baba peşələri qoyunçuluq və maldarlıqla məşğul olmaq idi. Onlar yayda Qurdqjl kəndinin ən uca yeri olan Qarapalçıq dağının zirvəsində tikdikləri "Dağ evi"ndə yaşayırdılar. Əli Paşa bəy və həyat yoldaşı, Qarabağ xanlarının nəslindən olan Dilrüba xanım oğlanları Xosrov bəyin həkimlik və Sultan bəyin isə hərb sənətinə yiyələnmələri üçün heç nələrini əsirgəməmişdilər. Belə ki, onlar Sultan bəy Sankt-Peterburq Hərbi Akademiyasına, Xosrov bəyi isə Odessadakı "Novorossiysk" Universitetinə oxumağa göndərmişdilər. Rüstəm bəy isə Sankt-Peterburq Texnologiya İnstitutunu bitirib ali təhsilli neft mühəndəsi kimi çalışmışdı. Qardaşlardan Bahadur bəy hələ cavan ikən naməlum adamlar tərəfindən qətlə yetirilmişdi. Sonralar Sultan bəy qardaşının qisasını qatillərdən almışdı... Əli Paşa bəy ermənilərin Zəngəzur qəzasına, hətta Şuşa şəhərinə hücumlarının qarşısını alanda başçılıq etdiyi dəstəsilə hünərlər göstərəndə, ona ən yaxın yardımçı xalq qəhrəmanına çevrilmiş böyük oğlu Sultan bəy olmuşdu.

... Xosrov bəy ilk təhsilini Gəncə Klassik Gimnaziyasında, ali tibb təhsilini isə Ukraynannın Odessa şəhərindəki "Novorossiysk" Universitetində və Xarkov şəhər Universitetində (1903) almışdı. O, Odessa Universitetində xalqımızın böyük oğlu N. Nərimanovla birlikdə oxumuş və onunla dostluq etmişdi. Tarixi ədəbiyyatda yazı-

lana görə, hələ tələbə olarkən nadinc rus oğlan şəhərin mərkəzində, Xosrov bəyin yaşadığı küçənin yaxınlığında bir qızla kobud davrandığına görə, Xosrov bəy həmin oğlanın yumruq və təpiklə "dərsi"ni vermişdi. Buna görə həmin oğlan Xosrov bəyi duelə çağırmışdı. "Dueli" qəsdən elə təşkil etmişdilər ki, ilk gülləni rəqib atmalı olmuşdu. Rəqib ilk atəşdə Xosrov bəyi sol gözündən yaralamışdı. Lakin yaralı və həyəcanlı olmasına baxmayaraq, Xosrov bəy sərrast cavab atəşilə rəqibini biryolluq yerə sərmişdi. İş elə gətirmiş ki, sonralar həmin qızla Xosrov bəy ailə qurmuş və bu evlilikdən onların bir oğlu dünyaya gəlmişdi. Xosrov bəy babası Xanmuradın şərəfinə oğluna Murad adını qoymuşdu. Lakin Murad azyaşlı ikən xəstələnmiş və dünyasını dəyişmişdi. Bu, Xosrov bəyə dərd olmuşdu...

... Xosrov bəy Sultanov Tiflisdə Azərbaycan Cümhuriyyəti elan olunan zaman ona imza atmış 24+2 nəfər görkəmli ictimai-siyasi xadimlərdən biri idi. 1918-ci il mayın 28-də F. Xoyskinin təşkil etdiyi Azərbaycan Cümhuriyyətinin 1-ci hökumət kabinetində müsavatçı X. Sultanov Azərbaycanın ilk hərbi naziri olmuşdu (2-ci və 3-cü hökumət kabinetlərində isə əkinçilik naziri kimi fəaliyyət göstərmişdi). O, hökumətin qərarı ilə N.Yusifbəyli və Ş. Rüstəmbəyli ilə birlikdə Gəncəyə əmin-amanlığı bərpa etməyə göndərilmişdi.

Azərbaycan milli-azadlıq hərəkatının fəal iştirakçısı olan X. Sultanov hələ 1917-ci ildə "Müsavat" partiyasına daxil olmuş, Rusiya Müəssislər Məclisinə deputat seçilmişdi... Vaxtilə Müsəlman fraksiyasının tərkibində Zaqafqaziya Seyminin üzvü olmuş X. Sultanov sonra "İttihad" partiasına keçmişdi... Azərbaycan Parlamenti təsis olunanda - 1918-ci il dekabrın 7-də onun tərkibinə daxil edilmişdi.

Azərbaycan Cümhuriyyəti yarandıqdan sonra ertəsi gün, 1918-ci il mayın 29-da Cənibi Qafqazda sülh və əmin-amanlıq yaranacağını zənn edən Azərbaycan hökuməti özünə paytaxt tapa bilməyən daşnak Ermənistanı Respublikasına qədim türk yurdu İrəvanı güzəştə getmişdi. Bu, ciddi səhv idi və ermənilər şirnikləşərək, ərazi iddialarını davam etdirirdilər...

1918-ci il iyulun 22-də Qarabağın dağlıq hissəsindədəki ermənilər "müstəqil" olmaq cəhdi göstərərək, xalqımızın qatı düşməni.



Türkiyədən qulağı kəsilməklə qovulmuş general Andronik Ozanyan (general rütbəsini ona türkləri sataraq rus ordusuna tərəf keçdiyi üçün Rusiya vermişdi) həmin qiyamçılara kömək məqsədilə silahsız azərbaycanlılara qarşı qırğınlar törədərək Zəngəzurdan Şuşa qəzasına keçmişdi. Odur ki, Zəngəzur qəzasının mərkəzi Gorusdan Qubadlının Dondarlı kəndinə köçürülmüşdü. Andronik isə Gorusu tutaraq azərbaycanlılara qarşı soyqırımını davam etdirirdi... Belə şəraitdə Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri X. Xasməmmədov Azərbaycan hökumətinə məruzə təqdim edərək, Qarabağda müvəqqəti general-qubernatorluq yaradılması təklifiylə çıxış etdi. Təklif qəbul olundu və 1919-cu il yanvarın 13-də Gəncə quberniyasından ayrılmaqla Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları əsasında Qarabağ General-Qubernatorluğunun təsis edilməsi haqqında qərar çıxardı.

1919-cu il yanvarın 15-də Azərbaycan hökumətinin növbəti iclası oldu. İclasda daxili işlər naziri X. Xasməmmədovun Qarabağdakı vəziyyətə dair məruzəsi dinlənildi. "Azərbaycan hökumətinin qərarlar" jurnalından aydın olur ki, həmin iclasda razılaşdırılmışdı ki, məruzədə göstərilən hüquq və vəzifələrlə müvəqqəti general-qubernator vəzifəsi təsis olunsun. DİN-ə tapşırılsınki, hökumətin növbəti iclasınadək general-qubernator vəzifəsinə namizəd göstərsin və onun sərəncamına nə qədər məbləğdə vəsait buraxılmasının zəruriliyi barədə öz mülahizələrini təqdim etsin. Məruzədə adları çəkilən 4 qəzadan ibarət vahid müvəqqəti general-qubernatorluğun zəruriliyi hüquqi əsaslar, dəlillərlə və real situasiyaya əsasən izah olunmuşdu. Məruzədə həmçinin general-qubernatorun dəqiq və konkret vəzifələri də müəyyənləşdirilmişdi. Buraya erməni separatçı hərəkatına qarşı mübarizə və onun tamamilə ləğv edilməsi, yuxarıda göstərilən qəzalarda qəti qayda-qanun yaradılması, yerli hakimiyyətin təşkili, qaçqınların ərzaqla təchiz olunması, onlara köməklik göstərilməsi və əvvəlki yaşayış yerlərinə qaytarılması daxil idi. Bu işlərin həyata keçirilməsi məqsədilə general-qubernatorun yanında ona kömək üçün Xosrov bəyin sədrliyi ilə xüsusi Şura yaradılması nəzərdə tutulmuşdu. Şuranın tərkibinə hərbi, ərzaq, himayəçilik və səhiyyə nazirliklərinin məşvərətçi səsi olan nümayəndələri daxil olmalı idi.

Azərbaycan hökumətinin 15 yanvar 1919-cu il tarixli iclasında Qarabağın general-qubenatoru vəzifəsinə namizəd də təklif olunmuşdu. Daxili işlər naziri X. Xasməmmədov tərəfindən irəli sürülmüş namizəd Bakının polismeysteri və qradonaçalniki (qubernator hüququna bərabər vəzifə, şəhər rəisliyi idi) vəzifələrində çalışmış Quda Əliyeviç Qudiyevi (bəzi ədəbiyyatda Puda, Qud yazılıb. Quda düzdür) Daxili İşlər Nazirliyi təcrübəli, hərbi xidmətin müxtəlif pillələrini bit-bir keçmiş məmur kimi xarakterizə edərək, namizədliyini müdafiə edirdi. Lakin Q. Qudiyevin yeganə və həmdə əsas çatışmayan cəhəti Azərbaycan dilini bilməməsiydi. Üstəlik, o, Qarabağ bölgəsinə də yəqinki, çox yaxından bələd deyildi. Çünki, Q. Qudiyev Dağıstanda Ter Vilayətinin Nazran Dairəsində anadan olmuşdu, milliyyətcə inquş idi (bu faktı ilk dəfə dövriyyəyə BDU-nun professoru, tarix elmləri doktoru İsmayıl Musayev daxil etmişdir...).

Beləliklə, görkəmli ictimai-siyasi xadim, Qarabağı yaxşı tanıyan Xosrov bəy Sultanov Azərbaycan Parlamenti və Hökumətinin 1919-cu il 15 yanvar tarixli iclasının birgə qərarı ilə yeni təsis olunan müvəqqəti Qarabağ General-Qubernatorluğunun başçısı təyin edilmişdi. Bakıda təçkilati işlərini başa vuran X. Sultanov 1919-cu il fevralın 10-da general-qubernatorluğun mərkəzi Şuşa şəhərinə gəlmiş, səhərisi günü şəhər başçısı Q. Şahnazarovu, yepiskop Vahanı yanına çağırtdırıb vəziyyətin stabilləşdirilməsi üçün onlarla danışıq aparmışdı. X. Sultanov fevralın 12-dən əməli olaraq vəsifəsinin icrasına başlamışdı.

...Ermənilərin Azərbaycan torpaqlarına və əhalisinə qarşı təcavüzkarlıqları, fitnə-fəsadları səngimək bilmirdi. Odurki, Qarabağ General-Qubernatorluğu ilə yanaşı, 1919-cu il fevralın 28-də Azərbaycan hökumətinin qərarı ilə ermeni-daşnakların hücumlarını mütəşəkkil surətdə dəf etmək və bölgədə qayda-qanunu yaxşılaşdırmaq məqsədilə paytaxtı Naxçıvan olan Cənub-Qərbi Azərbaycan General-Qubernatorluğu yaradılmış, Bəhram xan Naxçıvanski general-qubernator vəzifəsinə təyin edilmişdi...

... X. Sultanov vəzifəsinin icrasına başlamasından 3 gün sonra, 1919-cu il fevralın 15-də qəza rəislərinin və ictimai xadimlərinin ilk müşavirəsini keçirmişdi. Müşavirədə əsasən kəskinləşmiş erməni və Azərbaycan münasibətləri müzakirə olunmuşdu. İclasda Şuşanın qəza rəisi Abış bəy Qalabəyov, Zəngəzurun qəza rəisi Camal bəy Sultanov, Cavanşir qəzasının rəisi Bəhram bəy Məlik-Abbasov və başqaları çıxış etmişdilər. Zəngəzur qəzasının rəisi Camal bəy Sultanov öz çıxışında qəzada olan ağır vəziyyəti, ABŞ-ın, Böyük Britaniyanın, Rusiyanın və digər ölkələrin Andronikə həm hərbi, həm pul, həm də ərzaq yardımları etməsindən danışmışdı. Müzakirədə qeyd edilmişdi ki, Andronikin qaniçən, quldur dəstəsində 1000 nəfər vardır və bu dəstənin təcavüzü nəticəsində təkcə Zəngəzur qəzasında 166 kənd talan edilmişdir... Fevralın 17-də general-qubernatorluqda növbəti müşavirə olmuşdu. Müşavirədə iştirak edən ingilis qoşunlarının Şuşadakı nümayəndəsi kapitan Seyral bildirmişdiki, Andronikin dəstəsinin ləğvi ilə onlarda məşğuldur... Şuşadakı Britaniya missiyası adından çıxış edən mayor Monk-Mezon isə Qarabağ Erməni Milli Şurasına müraciətlə bütün erməniləri hökumət orqanına tabe olmağa çağırmışdı. O, bildirmişdi ki, Zəngəzur, Şuşa, Cavanşir və Cəbrayıl qəzalarının müvəqqəti general-qubernatorluğu Briyaniya komandanlığının razılığı ilə təsis edilmişdir. Qubernatorluğun mülki hissə üzrə müavini də ermənidir... Britaniya missiyası əhaliyə bəyan edirki, Qarbağ General-Qubernatorluğunun bütün göstəriş və sərəncamları hamı üçün məcburidir və hər hansı itaətsizlik göstərilməsinə qarşı ən qətiyyətli tədbirlər həyata keçiriləcəkdir.

Azərbaycan Cümhuriyyəti Parlamenti və Hökumətinin 1919-cu il 13 və 15 yanvar tarixli birgə qərarı ilə Gəncə quberniyasından ayrılaraq birbaşa DİN-ə tabe olmaqla təşkil edilən Müvəqqəti Qarabağ General-Qubernatorluğuna məhz X. Sultanovun rəhbər təyin olunması (rəsmi surətdə 29 yanvar 1919-cu ildən) separatçı ermənilərin, daşnakların, Daşnak Ermənistanının, hətta ikiüzlü siyasət yeridən ingilislərin narazı qalmasına səbəb olmuşdu. Belə ki, Xosrov bəyin Qarabağın genera-qubernatoru təyin edilməsini Bakıdakı müttəfiq qoşunların komandanlığı rəsmən yalnız 1919-cu il aprelin 3-də tanımışdı. Sonrakı hadisələr sübut etmişdi ki, ingilislər heç də Azərbaycan hökumətinin Qarabağdakı tədbirlərinə səmimi olmamıışlar. X. Sultanov Azərbaycan hökumətinə göndərdiyi məlumatlarda real faktlarla bildirirdi ki,"Qarabağ və Zəngəzur məsələlə-

rinin həllində ingilis köməyindən qətiyyətlə imtina etmək lazımdır, onlar bu işdə bizə yalnız maneçilik törədirlər".

Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının 1919-cu il 29 yanvar tarixli iclasında müəyyən məsləhətləşmələrdən sonra "Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarına general-qubernator təyin edilməsi haqqında" DİN-in məruzəsi dinlənilmişdi. İclasda X. Sultanovun general-qubernator təyin edilməsi, Nazirliyin 20 milyon manatlıq fondundan general-qubernatorun ehtiyacları üçün 5 milyon manat ayrılması, həmin məbləğdən 1 milyon manatın general-qubernatorun sərəncamına indi buraxılması, ondan isə 728.300 manatın qubernatorluğun ştatının saxlanması, 600 nəfərlik süvari dəstəsinin təşkili və 1 ay müddətində təmin olunmasına, 271 manatın isə gözlənilməz, təcili tədbirlərə xərclənməsi, yuxarıda qeyd olunan dəstənin sayının 3000 min nəfərə qaldırılmasının mümkünlüyünü etiraf etməklə hökumətin xüsusi göstərişi ilə həyata keçirilməsi qərara alınmışdı. İclasın qərarı ilə general-qubernatorluğun müavinliyinə (hərbi məsələlər üzrə) əslən Qubadlıdan olan Çingiz İldırım (10 iyul, 1890 Qubadlı - 1938, Moskva, Suxanovka, güllələnib) təyin olunmuşdu.

X. Sultanova tapşırılmışdı ki, Dağlıq Qarabağda ermənilərin separatçı çıxışlarına son qoyub orada qayda-qanun yaratsın. X. Sultanov tapşırılan vəzifənin öhdəsindən layiqincə gəlmişdi. O, böyük qardaşı, məşhur xalq qəhrəmanı Sultan bəylə ermənilərə qarşı həmişə sərt mövqedə durmuş, onlara dəfələrlə sarsıdıcı zərbələr endirmişdi... Ermənilərin müstəqil Xalq Cümhuriyyətimizin ərazi bütövlüyünə və varlığına qarşı mənfur niyyətlərini Xosrov bəy puç etmişdi. 1919-cu il martın 21-dən 30-dək davam edən Əskəran döyüşlərində X. Sultanov general-mayor Həbib bəy Səlimovun (1881-1920) komandanlıq etdiyi Azərbaycan Ordusunun qüvvələrini də cəlb etməklə İrəvandan Qarabağa göndərilmiş daşnak generalı Dro (Drostamat) Kanayanın və "Dəli Qazar"ın quldur-terrorçu dəstələrini darmadağın etmişdi. Düşmənlərə qarşı vahid və mərkəzləşdirilmiş qüvvələrin yaradılmasını zəruri hesab edən Xosrov bəy 1919-cu il aprel ayının 2-də Bakıya Nazirlər Şurasının sədrinə göndərdiyi məktubunda yazırdı ki, ağır anda qanuna görə general-qubernatorluğun hakimiyyəti Baş komandanın hakimiyyətinə bərabər tutulur və general-qubernatorluğun ərazisindəki silahlı qüvvələr onun tabeliyinə keçməlidir. Çünki bunu mövcud vəziyyət tələb edir...

1919-cu il aprelin 5-də Xosrov bəy general-qubernatorluğun fəaliyyəti ilə xalqı tanış etmək üçün rəsmi dövlət qəzeti olan "Azərbaycan" ın müxbirinə olduqca maraqlı müsahibə vermişdi...

X. Sultanov 1919-cu il aprelin 6, 7 və 14-də Azərbaycan hökumətinə yeni məktublar ünvanlamışdı. Azərbaycan hökumətinin başçısına ünvanladığı 14 aprel tarixli məktubunda bildirirdi ki, Qarabağ General-Qubernatorluğuna aid ərazilərin məsələsini qəti həll etmək üçün kifayət qədər hərbi sursatlı 2 min nəfər əsgər bəs edər və bu məqsədlə də bölgələrdəki hərbi hissələrin onun tabeçiliyinə keçməsini xahiş edir. Əks təqdirdə, istefaya buraxılmasını xahiş edir. "Buna görə də Azərbaycan Cümhuriyyəti hökumətinin 19 aprel 1919-cu il tarixli iclasında Nazirlər Şurasının sədri N.Yusifbəyli X. Sultanovun rəhbərlik etdiyi generai-qubernatorluqdakı hərbi hissələrin ona tabe olması haqqında əlavə vəsadətinə dair məruzə ilə çıxış etmişdi. İclasda Qarabağ General-Qubernatorluğunun hüdudlarında yerləşən hərbi hissələrin Xosrov bəyin icazəsi və razılığı ilə hərəkət etməsi və onun məsul olması qərara alınmışdı. Hökumət başçısı N.Yusifbəyli bu qərara uyğun olaraq Hərbi Nazirliyə X. Sultanovun vəsadətini yerinə yetirməyi və həmin sahədə ona kömək göstərmək barədə sərəncam vermişdi.

Xosrov bəy baş nazir N.Yusifbəyliyə göndərdiyi məktubda yazırdı: "Xahiş edirəm, xəzinəyə birdəfəlik 200 min manatdan az olmayaraq, pulun (daha yaxşı olardı ki, mənim vasitəmlə) köçürülməsi haqqında sərəncam verəsiniz ki, mən bu pulu ehtiyac olan hallarda xəzinəyə buraxım. Bu, ermənilərin xəzinədəki pulları ələ keçirə bilmək imkanı ilə izah olunur. Tezliklə, Andronikin "məsələsi"ni ləğv etmək üçün gördüyümüz fəal və qəti hərəkətlər haqqında məruzə hazırlanacaqdır. Bir ay ərzində ermənilərlə və ingilislərlə apardığımız dinc, ehtiyatlı siyasət heç bir nəticə verməyərək, məsələni yubadır. Ermənilərin hər yerdə hərəkətlərindən görünür ki, onlar güclü hazırlığa malikdir. Xahiş edirəm, hərbi nazirə sərəncam verəsiniz ki, əvvəlcə geyim ləvazımatı hazırlığı olmadan orduya çağırış keçirilməsin. Dünən yerli batalyonun his-

sələri içərisində ayaqqabı, geyim çatışmazlığı ucbatından narazılıq olmuşdur. Mən işə qarışmasaydım, bu, kəskin xarakter alardı. Dörd qəzada hazırda sakitçilikdir. Vəd olunmuş patronları almamışam".

X. Sultanov Qarabağda ingilis siyasəti ilə əlaqədar yaranmış vəziyyəti aradan qalırmaq üçün 1919-cu il iyun ayının 4-də saat 10-da Şuşada general-qubernatorluğun binasında müttəfiq qoşunların nümayəndəsi polkovnik D. Şatelvortla görüşüb söhbət aparmışdı... Onun da razılığı əsasında gizli yolla Şuşaya silah gətirən Erməni Milli Şurasının fəal separatçı üzvləri, Şuşa keşişləri Ter-Ovanesyan, Mirzəbekov, Vartapetovlar, həmçinin E. İşxanyan, Avetisyan və Tumanyansı həbs edib, iyunun 5-də səhər saat 9-da ingilis komandanlığının nümayəndəsi Azərbaycan məmurlarının müşayiəti və ingilis əsgərlərinin mühafizəsi alyında onların Qarabağ hüdüdlarından çıxarılmasına, əvvəl Tiflisə, oradan da Ermənistana ötürülməsinə nail olmuşdu. İyunun 5-də X. Sultanovun yanına gələn R. N. Məlik-Şahnazarov Şuşada baş verən faciəli hadisələrin dayandırılmasında gördüyü təsirli tədbirlərə görə onunla həmrəy olduğunu bildirmişdi.

General-qubernator X. Sultanov Şuşanın müdafiə olunması haqqında gördüyü tədbirlər barədə Nazirlər Şurasının sədri N.Yusifbəyliyə göndərdiyi növbəti məktubunda bildirirdi : " Köçəri maldarların hərəkəti ilə əlaqədar mənim tərəfimdən Əskərandan Turşsuya qədər 40 kilometrlik məsafədə və xüsusilə, köçərilərin keçdiyi ən mühüm məntəqə olan Şuşa ətrafında xalq milisindən və piyadalardan ibarət gücləndirilmiş gözətçi məntəqələri qoyulmuşdur. Milliyyətindən asılı olmayaraq, Şuşaya kənardan silahlı dəstələrin gəlməsinə mane olmaq üçün Şuşa ətrafında bütün məntəqələr mənim əmrimlə tutulmuşdur. Bunlar Erməni Milli Şuraasının (bu Şuranın üzvləri Qarabağda millətlərarası və etnik münaqişələri qəsdən qızışdırmaqla Xosrov bəyin işini mürəkkəbləşdirirdilər) rəhbərlik etdiyi erməni əhalisindən olan bəzi ünsürlərin xoşuna gəlməmişdir, onlar bizim əsgərlərin tutduğu 1-ci məntəqəyə - "Üçmıxa"-a 4 iyunda hücum etmiş, bunun nəticəsində bizim postda olan 6 nəfər əsgərdən 3 nəfəri öldürülmüşdür və bütün bunlar əhalinin, qoşunun hiddətinə səbəb olmuş, atışma başlamışdır. Mən böyük çətinliklə Şuşa şəhərinin ermənilər yaşayan birinci hissəsinin əhali və qoşun tərəfindən darmadağın edilməsinin qarşısını almışam. Hadisənin ikinci günü atışma dayandırılmışdır. Münaqişənin ləğv olunması bütün Qarabağ üzrə aparılmışdır...".

Qarabağda düşmənlərə qarşı mübarizədə fərqlənənlərin qiymətləndirilməsi də bir general-qubernator kimi X. Sultanovun diqqətində idi və buna mühüm əhəmiyyət verirdi. Bu mənada onun 1919-cu il iyulun 14-də Azərbaycan Cümhuriyyətinin hərbi naziri S. Mehmandarova göndərdiyi teleqram xarakterikdir:

"Cənab hərbi naziri, Zati-Aliləri!

Qarabağın xalq milisi sıralarında Moskva İnstitutunun tələbələri İsgəndər bəy Sultanov və keçmiş Qarabağ Süvari Alayının əsgəri Xankişi Nuru oğlu xidmət edirlər. Onlardan birinə - ləzgi alayı ilə birlikdə bolşeviklərə qarşı döyüşlərdə iştirak etmiş İsgəndər bəy Sultanova Türkiyə hərbi ordeni "Məcidiyyə", ikincisi - Xankişi Nuru oğluna axırıncı müharibənin "Georgi Kavaleri" ordeni verilmişdir.

Axırıncı Qarabağ hadisələri zamanı onlar böyük bacarıq və şücaət göstərmişlər. Bu haqda Zati-Alilərinə məlumat verərək, xahiş edirəm ki, Siz onların birinci zabit rütbəsinə təqdim olunmaları haqqında sərəncam verəsiniz".

1919-cu il iyulun 29-da Qarabağın həyatında əlamətdar bir gün idi. Həmin gün Azərbaycan Cümhuriyyətinin Baş naziri və eyni zamanda daxili işlər naziri N.Yusifbəyli Gəncənin general-qubernatoru X. Rəfibəylinin və hərbi nazir S. Mehmandarovun müşaiyəti ilə əvvəlcə Xankəndinə (Qarabağ xanlığı Rusiyaya birləşdirildikdə (14 may 1805) Xankəndi axırıncı Qarabağ xanı Mehdiqulu xanın arvadı Pəricahan bəyimə bağışlanmışdı...), iyulun 30-da isə Şuşaya gəlmiş, Qarabaq General-Qubernatorluğunun iqamətgahında onu Xosrov bəy və bütün şuşalılar səmimi və duz-çörəklə qarşılamışdılar...

X. Sultanovun gördüyü tədbirlər nəticəsində 16 avqust 1919-cu ildə Şuşada keçirilən Qarabağ ermənilərinin 7-ci qurultayında onlar Azərbaycan hökumətini tanıdıqları barədə qərar çıxarmışdılar. Avqustun 20-də isə Şuşada erməni nümayəndələri ilə "Dağlıq Qarabağ ermənilərinin Azərbayacan hökuməti ilə müvəqqəti müqaviləsi" imzalanmışdı. 26 maddədən ibarət müqavilənin 5-ci maddəsinə əsasən Qarabağ General-Qubernatorluğu yanında 6 nəfərdən ibarət (3 azərbaycanlı və 3 erməni olmaqla" Şura yaradıl-

mışdı. Ümumiyyətlə, 1919-20-ci illərdə daşnakların Qarabağdan və Zəngəzurdan təmizlənməsində Xosrov bəy qardaşı Sultan bəylə birgə böyük xidmətlər göstərmişdi...

Xosrov bəy Qarabağın və Zəngəzurun müdafiəsində mühüm rol oynayacaq hərbçi kadrların hazırlanması ilə də məşğul olmuşdu. Onun köməyi sayəsində Gəncə hərbi məktəbində Zəngəzur (Laçın) Şöbəsi açılmışdı. Hərbi məktəbin birinci qəbulunada, 1919-cu ilin sentyabrında Gəncə hərbi məktəbinin piyada və artilleriya şöbələrinə hərbi təlim keçmək üçün 121 nəfər gənc cəlb olunmuşdu. Həmin gənclər içərisində Azərbaycan Cümhuriyyətinin hərbi nazir əvəzi, artilleriya general-leytenantı Ə. Şıxlınskinin 31 oktyabr 1919-cu il tarixli 507 nömrəli əmri ilə Zəngəzurdan (Laçından ) 31 nəfər gənc də "Zəngəzur atıcı batalyonunda" hərbi təlim keçmişdi. Bundan başqa, Azərbaycan Cümhuriyyəti DİN-də Qarabaq General-Qubernatorluğuna kömək məqsədilə tədbirlər görürdü. Məsələn, daxili işlər naziri əvəzi M.Vəkilovun X. Sultanova ünvanladığı 4 fevral 1920-ci il tarixli teleqramda Zəngəzura hərbi yardım məqsədilə digər yerlərin əhalisindən təşkil olunmuş 1000 nəfərlik partizan dəstəsinin hazırkı vəziyyətdə bölgəyə göndərilməsinin vacibliyi məqsədəyuğun hesab edilirdi. X. Sultanovun sədrliyi ilə keçən Qarabağ General-Qubernatorluğunun 1920-ci il 9 fevral tarixli iclasında Bakıdan gələn tələbələrin də müdafiə məsələlərinə cəlb olunduğu vurğulanmışdı.

X. Sultanov general-qubernator olmasına baxmayaraq, həmçinin həftənin şənbə və bazar günləri Qarabağ əhalisinə bir həkim kimi də təmənnasız xidmət göstərirdi. O, həmin günlər Zəngəzurun və Qarabağın kəndlərinə gedərək, xəstə insanları təmənnasız müalicə edirdi. Zəngəzurda Xosrov bəy evlərindən birini "Yaşıl aptek"ə çevirmişdi. Xosrov bəyin "Yaşıl aptek"ində xəstələrə müalicə məqsədilə Çalbayırda onların ailəsinə məxsus yaylaqlardan toplanmış otlardan, bulaq və mineral sularından düzəltdiyi dərmanlar verirdi.

Xosrov bəy Sultanov tariximizi, ədəbiyyatımızı və ümumiyyətlə, mədəniyyətimizin müxtəlif sahələrini ürəkdən sevən və bilən, dərin biliyə malik olan hərtərəfli bir çəxsiyyət idi. Bir laçınlı kimi poyeziyada Sarı Aşığın bayatılarını və alovlu istiqlal şairi Əhməd Cavad Axundzadənin (5 may 1892, Şəmkir, Seyfəli kəndi - 10 oktyabr 1937, Bakı, repressiya olunmuş və güllələnmişdir) şerlərini daha çox sevib mütaliə edirdi. Xosrov bəyi yaxından tanıyanlar Şuşadkı evini "Şərq kitabxanası" adlandırırdılar. Onun general-qubernatorluğun inzibati işçılərinə və məmurlarına Şərq ədəbiyyatı və tarixindən mühazirələr oxuması, Firdovsidən, Xaqanidən, Nizamidən, Xətaidən, Vaqifdən Azərbaycanca əzbər şerlər deməsi barədə məlumatlar vardır...

1920-ci il aprelin 28-də Azərbaycanda sovet hakimiyyəti 11-ci ordunun təcavüzü və işğalı nəticəsində "qurulduqdan" sonra yeni yaranan H. Sultanovun başçılıq etdiyi XDİK X. Sultanovu tabeçilikdə olan bir dövlət məmuru kimi Bakıya sərəncama çağırmış, tutduğu vəzifəsindən azad edib, həbs etdirmişdi... X. Sultanov yalnız köhnə dostu, Azərbaycan SSR XKS-in sədri N. Nərimanovun işə qarışması nəticəsində həbsdən azad olunmuşdu. Xosrov bəy sovet hakimiyyətinə lazım olan bir təcrübəli kadr kimi N. Nərimanovun məsləhəti ilə bir müddət Şuşa Qəza İnqilab Komitəsinin sədri vəzifəsində çalışmışdı... N. Nərimanov X. Sultanovun çox qabiliyyətli, elmli, qeyrətli bir vətənpərvər ziyalı olduğunu yaxşı bilirdi. Lakin sovet hakimiyyət orqanlarında məsul vəzifələrə soxulmuş bolşevik cilidində olan erməni-daşnakların onu bir millətçi kimi yenidən ləkələyə biləcəyini, bu yaxın günlərdə tutulacağını yəqin etdikdən sonra Xosrov bəyin hökmən tezliklə xarici ölkələrdən birinə qaçırılmasını məsləhət bilmişdi. Məhz onun yaxından köməkliyi ilə Xosrov bəy gizli yolla Bakıdan çıxarılmış və qardaşı Sultan bəyin göndərdiyi atlı adamlar tərəfindən Abdallara (Laçına) gətirilmişdi.

***Haşiyə***: 1924-cü ilə qədər Laçının adı Abdallar adlanırdı. Əlverişli coğrafi-strateji mövqedə yerləşən Abdallar Zaqafqaziyada və Ön Asiyada yaşamış qədim türk tayfasının adını daşımışdır. Tarixi ədəbiyyatda Abdallar hun türk tayfalarından biri kimi səciyyələnir. Abdallar 1829-cu ildə yaradılan Qarabağ əyalətinin, 1861-ci ildən isə Zəngəzur qəzasının tərkibində olmuşdu. Abdallar kəndi Laçının yerləşdiyi mərkəz idi. Laçınla Xocalı arasında - Qarabağ dağ silsiləsində erməni daşnakların qənimi, Sultan bəy və Xosrov bəyin döyüş yoldaşı, məşhur sərrast atıcı Qaçaq Xanalının (Xanalı Novruzalı oğlu Xanalıyev. 1867-ci ildə Fərraşda anadan olub. 1944-cü ildə 77 yaşında

orada öz əcəli ilə dünyasını dəyişib) doğulduğu səfalı Fərraş kəndi yerləşir. Bu kənddən bir qədər aralı, "Çəvəndinin yolu" adalanan ərazidə adına el arasında "qızıl palıd" deyilən nadir palıd növü hesab edilən "qırmızı palıd" bitir. Dünyanın heç bir ərazisində, deyilənlərə görə bu palıddan bitmir. XX əsrin əvvəllərində fransız iş adamları və şirkətləri Fransa hökumətinin razılığı ilə Fərraş kəndinə gəlib çıxmışdılar. Sən demə, bu palıd ağacından çox keyfiyyətli, misli-bərabəri olmayan şərab çəlləkləri düzəltmək mümkün imiş...

1924-cü ilin əvvəllərində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin katibi işləyən görkəmli yazıçı, ictimai xadim Tağı Şahbazi (Simurq) (2 iyul 1892, Bakı - 1938, Bakı. 30-cu illərdə repressiya olunaraq, 1937-ci ildə həbs edilib və 1938-ci ildə güllələnib) İnqiabi Şöhrət Şurasının üzvləri İsmayıl Şəfiyevlə (əvvəllər Ağdam İcraiyyə Komitəsinn sədri işləmişdi. 1923-cü il avqustun 6-da Kürdüstan qəzası yaradıldıqda o, qəza Partiya Komitəsinin 1-ci katibi vəzifəsinə göndərilmişdi) və Kürdüstan qəzası (6 avqust 1923 - 8 avqust 1929) İcraiyyə Komitəsinin sədri Hüsü Hacıyevlə (1897, Şuşa - 1931, Kürdəmir. Öldürülüb...) Zəngəzur qəzasının bir sıra kəndlərini gəzərkən, Abdallarda da dayanmışdılar. Kürdüstan qəzasının (qəza cəmi 6 - Qaraqışlaq, Kəlbəcər, Qubadlı, Qoturlu, Kürdhaçı (Qurdqajı) və Muradxanlı nahiyələrindən ibarət idi) mərkəzi üçün yeni yer seçilərkən Tağı Şahbazi Abdallar adını bəyənməmiş və Laçın qayasının adını mərkəz kimi yeni yaranacaq Laçın şəhəri elan etmişdi. Abdallar kəndi ilə Laçın qaysının altındakı düzənlik yerdə yeni şəhərin əsaı qoyulmuşdu. İlk küçə Laçın dağının ətəyində, Abdallar poçtunun yaxınlığında düzəngahda salınmışdı. Beləliklə, 1924-cü ildə hazırki Laçın şəhərinin bünövrəsi qoyulmuşdu. 1930-cu il avqustun 8-də Laçın rayonu təşkil olunmuş və Laçın şəhəri onun mərkəzi elan edilmişdi. Tarixin müxtəlif dövrlərində İaçına "Ağcayazı", "Qaraqışlaq", "Qarıqışlaq", Qarakaha", "Laçın-Avaz" da demişlər... Laçın şəhəri və rayonu 1992-ci il mayın 18-də erməni qəsbkarları tərəfindən işğal edilmişdir... Ermənilər Laçına indi "Berdzor" adı qoymuşlar...

...1921-ci il iyulun 25-də Bakıdan Xosrov bəyin dədə-baba yurdlarını "yoxlamağa" gələn komissiya və Şuşa Qəza İnqilab Komitəsi Sultanovların evlərini, var-dövlətlərini və mülklərini müsadirə etdikdən sonra, bolşeviklərin onu sağ qoymayacağını yəqin edən X. Sultanov 1922-ci ildə Cəbrayıl ərazisində, Qumlaq kəndi yaxınlığında Araz çayı üstündəki qədim Xudafərin körpüsündən köçməklə böyük qaradşı Sultan bəy, digər qardaşı İsgəndər bəylə İran şahı Əhməd şah Qacarın (1897-1925. 1909-25-ci illərdə şahlıq etmişdir) razılığı ilə əvvəlcə Əcəmə (farslar tarix boyu öz ölkələrini Əcəm (yəni qeyri-ərəb) də adlandırmışlar...) gedib Cənubi Azərbaycanın Larican və Xumarlı kəndlərində, sonra bir müddət Ərdəbil yaxınlığındakı Qalakəndində yaşamışdılar... Lakin sovet casusları onlardan əl çəkməmiş və qardaşı İsgəndər bəyi öldürdükdən sonra, onlara rəğbətlə yanaşan İran şahının məsləhəti ilə Türkiyəyə müraciət etmişdilər. Türkiyə dövləti 1923-cü ildə Xosrov bəyi və Sultan bəyi mehribanlıqla qəbul etmiş və onların şərəfinə rəsmi keçid düzənlənmişdi. Türkiyə hökuməti onlara Qars vilayətinin Köçqoy kəndində (tarixi ədəbiyyatda Köçgöy, Qoçköy kimi də adlandırılır) torpaq, mülk və malikanə verərək, təhlükəsiz həyat şəraiti yaratmışdı.

Xosrov bəyin böyük qardaşı, xalq qəhrəmanı Sultan bəy ömrünün sonuna qədər Qarsın ətrafında yerləşən həmin kənddə mühacir həyatı yaşamış və 1955-ci ildə orada 84 yaşında vəfat etmiş, həmin kənddə də böyük hörmətlə dəfn olunmuşdu. Sultan bəyin Ənvər (1914-69) bəy adlı oğlu vardı. Ənvər bəy sovet dövründə repressiyadan yaxa qurtarmaq üçün familiyasını Muradov soyadı ilə əvəz etmişdi. Sultan bəyin nəvəsi, Ənvər bəyin oğlu Elbrus da Muradov soyadını daşıyır. O, 1967-86-cı illərdə Bakı Metropolitenində və Azərbaycan Dəmir Yolunda müxtəlif məsul vəzifələrdə işləmişdir. 1987-ci ildən Bakı Metropolitenində baş mühəndis vəzifəsində çalışmışdır... 2009-cu ildə 70 yaşı tamam olmuş Elbrus müəllim Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə "Əməkdar mühəndis" adına layiq görülmüşdür. O, həm də "Fəxri dəmiryolçu"dur. Elbrus Muradov uzun illərdən sonra Qarsa, Köçqoy kəndinə gedib məşhur xalq qəhrəmanı, babası Sultan bəyin abadlığa ehtiyac duyuian qəbrini tapmış, ziyarət etmişdir...

...Slavyan Universitetinin elmi işçisi Nazim Vəlişov 2011-ci ilin martında Qarsda olaraq, həmin ayın 31-də erməni-daşnakların

xalqımıza qarşı törətdikləri soyqrımı günü Sultan bəyin qəbri üstündə bu soyqrımın tarixi kökləri, erməni-daşnakalrın cinayətkar əməllərini ifşa edən nitqlə çıxış etmişdir. O, söyləyir ki, "Köçqoy" kəndi Qarsdan 67 km. məsafədə yerləşir. Bu kənddən Ermənistanın Leninakan (keçmiş Gümrü) şəhəri görünür, cəmi 8 km-dir. "Köçqoy" kəndində 700 nəfər yaşayır. Kənddə vaxtilə oraya pənah aparmış 35 laçınlı ailə də məskunlaşıb. Onların hamısı doğma yurdları Laçının şərəfinə özlərinə "Laçınlı" soyadını qəbul etmişdir. Həmin şəxslərdən biri Elbrus Muradovun oxşarı Adil Laçın, digəri isə Mehmet Laçınlıdır. Nazim müəllim mənimlə söhbətində bildirmişdir ki, 2011-ci il martın 31-də keçirilən tədbirdə oradakı laçınlılarla birlikdə, "Köçqoy" kəndinin əhalisinin demək olar ki, tən yarısı, Naxçıvanın Qarsdakı konsulu Ayxan bəy, xaricdə yaşayan azərbaycanlılarla iş üzrə Azərbaycan Beynəlxalq Diaspora Mərkəzinin İdarə Heyətinin üzvləri və digər maraqlı qurumların təmsilçiləri iştirak edirdilər. Yeri gəlmişkən, Azərbaycan Milli Məclisinin üzvü, yazıçı Aqil Abbasda 2012-ci ilin may ayında Qarsa gedərək, "Köçqoy" kəndində baxımsız qalmış Sultan bəyin məzarını tapmış, onu ziyarət edərək, fotoşəkilini çəkmiş və qəbrin üstünü təzədən inşa etdirmək üçün yerli hakimiyyətdən icazə almağı qərarlaşdırmışdı...

Xosrov bəyə gəldikdə isə, o, siyasi mühacir fəaliyyətini (İranda, Fransada, Almaniyada və Türkiyədə) davam etdirirdi. O, Almaniyada Tibb Universitetində professor vəzifəsində çalışmışdı... 1926-cı il mart ayının 4-də Parisdən Tehrana gələn Xosrov bəy "İttihad"ın mühacirətdəki siyasi lideri kimi partiyanın xarici ölkələr Bürosunu formalaşdırmaq və bütün ittihadçıları bir təşkilat ətrafında cəmləşdirmək istəyirdi. Xosrov bəy İranda olarkən, orada "İttihad"ın Tehran və Təbriz Komitələrini yarada bilmişdi. Xosrov bəy Tehran Komitəsinə Aşur bəy İsabəylini, Təbriz Komitəsinə isə qardaşı İsgəndər bəyi təyin etmişdi. Xosrov bəy digər ittihadçı məsləkdaşı, Azərbaycan Cümhuriyyəti Parlamentinin sabiq üzvü Mir Yaqub Mehdiyevlə birlikdə "İttihad" partiyasının xarici ölkələr Bürosunu yaratmaq üçün ciddi cəhdlər göstərmişdi...

Xosrov bəy Sultanovun ailə üzvlərinin taleyi də özü kimi keşməkeşli olmuşdu. 1922-ci ildə İrana keçməsindən sonra onun ailə üzvləri bir müddət Ağdamda olan mülklərinin birində qohumlarının



himayəsində yaşamışdılar. 1930-cu ildə Xosrov bəyin neft sənayesində yüksək vəzifədə çalışan qardaşı Rüstəm bəy (1875-1941) Sultan bəyin ailəsini Bakıya gətirmişdi. Sultan bəyin həyat yoldaşı Dilrüba xanım kirayədə uşaqları ilə çətin həyat yaşasada, Əli Bayramov adına tikiş fabrikində sex rəisi vəzifəsində çalışmışdı. Başqalarından fərqləndiyi üçün o, hətta bir müddət Bakı Şəhər Sovetinn deputatı da olmuşdu. Sultan bəyin oğlu Ənvər Bakıdakı 33 nömrəli orta məktəbdə rus dili müəllimi, digər oğlu Çingiz isə biologiya müəllimi kimi həm də həmin məktəbin direktor müavini işləmişdi. Lakin hiss olunurdu ki, bunlar nisbi sakitlikdir. Nəhayət, 1937-ci il noyabrın 20-də Azərbaycan SSR XDİK əməkdaşları onlarında qapısını döydülər, Cənubi Qazaxıstan çöllərinə sürgün etdilər. Dilrüba xanım və övladları Qazaxıstanın Suzan rayonunun Çulak-Kurqan kəndində uzun və əzablı sürgün həyatı yaşadılar... Sürgün yerində ermənilərin iyrənc hiylələri ilə də üzləşdilər...1948-ci ildə icazə alıb Bakıya gələn Dilrüba xanım Azərbaycan KP MK-nın birinci katibi M. C. Bağırovun (1895-1956) qəbuluna yazılaraq, onunla görüşmüş, Vətənə qayıtmalarına kömək etməsini xahiş etmişdi... Lakin Dilrüba xanım və uşaqları yalnız 1955-ci ildə bəraət aldıqdan sonra, 1956-cı ildə Bakıya qayıda bilmişdilər...1969-cu ildə Xosrov bəyin qardaşı oğlu Ənvər Bakıda 55 yaşında dünyasını dəyişmişdi...

Sovet dövründə SSRİ-də, o cümlədən Azərbaycanda digər görkəmli siyasi mühacirlərimiz kimi X. Sultanovun da adının çəkilməsi qadağan edilmişdi. Ermənilər isə Xosrov bəyi unuda bilmir, onun harada olması və nə işlər gördüyü barədə məlimat əldə etməyə çalışırdılar. Vaxtilə Xankəndi ətrafında erməni quldur dəstələrinə divan tutan Qarabağın sabiq general-qubernatorunu mütləq öldürməyi qarşılarına məqsəd qoyan, fiziki cəhətdən məhv etməyə çalışan daşnaklar nəhayət, 1936-cı ildə onun dəqiq izinə düşə bilmişdilər... Belə ki, həmin il Trabzon şəhərində qısamüddətli dincəldiyi zaman erməni kəşfiyyatının dəqiq məlumatı və onların qətl törətmək məramı üzrə Xosrov bəy labüd ölüm təhlükəsilə üzləşmişdi. Bu, oteldə qaldığı vaxt baş vermişdi. Lakin dostları onun dadına vaxtında çata bimişdilər. Qaldığı motelin xidmətçisi məsələni bilən

kimi Xosrov bəyin dostlarına çatdıra bimiş və onlar özlərini yetirərək, onu vaxtsız ölümdən xilas etmişdilər...

Bu hadisədən sonra ehtiyatlı dolanan X. Sultanov daha 11 il ömür sürmüşdü... İkinci Dünya Müharibəsi başlananda (1 sentyabr 1939-cu il) Xosrov bəy yenə Türkiyədə yaşayırdı. O, sovet-alman cəbhəsində əsir düşmüş azərbaycanlıları Almaniyanın hərbi düşərgələrindən xilas etmək üçün böyük xidmətlər göstərmişdi... Məhz Xosrov bəy Sultanovun səyləri nəticəsində minlərlə azərbaycanlı ölüm məngənəsindən xilas olmuşdu.

Azərbaycan xalqının görkəmli ictimai-siyasi xadimi Xosrov bəy Sultanov 1947-ci ildə Türkiyənin Trabzon şəhərində 68 yaşında vəfat etmişdi... Yeri gəlmişkən, hərb tariximizin yorulmaz tədqiqatçısı, hazırda istefada olan polkovnik-leytenant, yazıçı-jurnalist Şəmistan Nəzirli hələ 1995-ci ildə yazdığı "Cümhuriyyət generalları" kitabında Xosrov bəyin 1941-ci ildə Türkiyədə vəfat etdiyini, məzarının isə Bursada azəri qəbristanlığında olduğunu yazmışdır. Xosrov bəyin məzarının Bursada olduğunu digər yorulmaz tədqiqatçı Səbahəddin Eloğlu ilk dəfə Türkiyəyə getdidən sonra yazmışdır. Tədqiqatçı Nazim Tapdıqoğlu isə belə hesab edirki, Xosrov bəy Bursa şəhərində 1956-cı ildə vəfat etmişdir... Bəzi sənədlərdə Xosrov bəyin 1941-ci ildə İstanbulda, digər sənədlərdə Türkiyənin şimalında 1963-cü ildə vəfat etməsi ilə bağlı müxtəlif məlumatlar vardır... Fikrimizcə, Xosrov bəyin 1947-ci ildə vəfat etməsi tarixi daha qəbuledilləndir. Çünki, bu məlumatı cari tarixşünaslıq dövriyyəsinə Nazirlər Kabinetinin müvafiq sərəncamına uyğun olaraq Milli Arxiv İdarəsinin rəisi Ataxan Paşayevin başçılıq etdiyi "Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası" adlı sanballı kitabı hazırlayıb nəşr etdirmiş mötəbər redaksiya heyəti daxil etmişdir.

## BƏHRAM xan NAXÇIVANSKİ

Bəhram xan Naxçıvanski 1872-ci ildə Naxçıvan şəhərində əsilzadə ailədə - məşhur Kəngərlilər nəslindən olan Əmənulla xanın ocağında dünyaya gəlmişdi. Atası çar polkovniki Əmənulla xan Kəngərli 1845-ci il iyunun 15-də anadan olmuş və 1891-ci ildə





*Naxçıvanskilər – Bəhram xan (öndə), Kamran xan. Tiflis, 1900-cü illər*

xəstələnərək həyatdan vaxtsız - cəmi 46 yaşında köçmüşdü. Bəhram xan və ondan 1 yaş kiçik qardaşı Əkbər xanın (1873-1961) 10 yaşınadək uşaqlığı Şuşada ana nənəsinin yanında keçmişdi. Çünki, onların ana nənəsi Azərbaycanın məşhur şairəsi, el arasında "xan qızı" kimi çağırılan Xurşudbanu Natəvan idi. X. Natəvan (6 avqust 1832-ci il Şuşa - 2 oktyabr 1897-ci il, Şuşa 65 yaş) 1847-ci ildə çar ordusunun general-mayoru, əslən Dağıstanın Aksay kəndindən olan Xasay xan Usmiyevlə (22 mart 1808, Aksay kəndi - 21 aprel 1867, Voronej şəhəri, Rusiya, 59 yaş) ailə qurmuşdu. Onlar Tiflisdə tanış olmuşdular. X. Usmiyev Qafqazın canişini Mixayil Vorontsovun () şəxsi yavəri idi. X. Usmiyev fransızca Parisdəki fransızlar kimi təmiz danışırdı. X. Usmiyev X. Natəvanı elə Tiflisdə - Qafqaz Canişinliyində (1844-1917) görüb bəyənmişdi. Görkəmli musiqiçi, alim, şair, rəssam, xəttat, münəccim, kimyaçı və riyaziyyatçı Mir Mövsüm Nəvvab (Hacı Seyid Əhməd oğlu) deyirdi ki, Xasay xan Böyük Monqol İmperiyasının yaradıcısı (1206) Çingiz xanın (əsl adı Temuçindir)(1162-1227) nəslindəndi.

Xasay xanın valideynləri narazı qalsalarda, onun Natəvanla izdivacından 2 övladı: 1 oğlan və 1 qız dünyaya gəlmişdi. Oğlana X. Natəvanın atası axırıncı Qarabağ xanı Mehdiqulu xanın adını qoymuşdular (X. Usmiyevlə X. Natəvanın birgə ailə həyatı çox uzun sürməmiş və XIX əsrin 60-cı illərinin əvvəllərində ayrılmışdılar...). Böyük oğlu Mehdiqulu xan 1855-ci ildə Şuşada anadan olmuşdu. Rus ordusunun zabiti, podpolkovnik idi. Həm də "Vəfa" təxəllüsü ilə ana dilində lirik qəzəllərdə yazmışdır. O, vaxtsız - 1900-cü il sentyabrın 5-də cəmi 45 yaşında Tiflisdə Mixaylovski küçəsindəki 148 nömrəli mülkündə vəfat etmişdi...

X. Usmiyevin və X. Natəvanın qızlarının adı isə Xanbikə (Fatmabikədə deyirdilər) idi. Məşhur Cavanşirlər nəslindən olan Xanbikə xanım 1856-cı ildə Şuşada anadan olmuş, 1921-ci ildə Ağdamda 65 yaşında vəfat etmiş, İmarət - Qərvənd qəbristanlığındababası Mehdiqulu xanın uyuduğu məqbərə-kompleksdə dəfn edilmişdi. Ona anası X. Natəvandan şairəlikdə keçmişdi. Xanbikə xanım Naxçıvanın məşhur Kəngərlilər nəslindən çar polkovniki Əmənulla xana ərə getmişdi. Əmənulla xanın vaxtsız ölümündən sonra isə ikinci dəfə yazıçı C. Məmmədquluzadənin dostu, Gəncədə yaşayan naxçıvanlı tacir Kərbəlayi Cabbar Hacı Ələsgərovla ailə qurmuşdu... (Xanbikənin anası X. Natəvanda X. Usmiyevdən ayrıldıqdan sonra 1861-ci ildə ikinci dəfə Şuşa Qəza İdarəsində katib vəzifəsində çalışan (əsl sənəti papaqçı olub) 53 yaşlı Seyid Hüseynə ərə getmişdi. X. Natəvanın S. Hüseyndən 5 övladı olmuşdu. Onlardan biri Mir Abbas ağa 1885-ci ildə 17 yaşında həyatdan vaxtsız köçmüşdü. Onun məzarı Ağdamda Qarabağ xanlarının dəfn olunduğu İmarət-Qərvənd məqbərə-kompleksində anası Xurşudbanu Natəvanın yanındadır (X. Natəvan 2 oktyabr 1897-ci ildə Şuşada vərəm xəstəliyindən vəfat etmişdi). Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 3 aprel 2012-ci ildə X. Natəvanın 180 illik yubileyinin keçirilməsi haqqında sərəncam vermişdi. Sərəncama əsasən 2012-ci il sentyabrın 14-də Bakıda Muğam Mərkəzində yubiley tədbiri keçirilmişdir...

... Xanbikə xanım Bəhram xan Naxçıvanskinin anası idi. Xanbikə xanımın birinci əri, Bəhram xanın atası Kəngərli Əmənulla xan Bəhram xanı kiçik yaşlarından nənəsi X. Natəvanın yanında qoymuşdular. X. Natəvan nəvələri Bəhram xanı və Əkbər xanı öz yanında – malikanəsində böyütmüş və tərbiyəsi ilə məşğul olmuşdu. O, rus dilini yaxşı öyrənmək üçün Bəhram xanı və ondan 1 yaş kiçik qardaşı Əkbər xanı Qarabağın barışdırıcı hakimi Lunyakinin evində yerləşdirmişdi. Sonra nənəsi ilə Tiflisə gedən Bəhram xan oradakı ədadiyə (realnı-orta hərbi məktəb) məktəbə daxil olmuşdu. 1886-cı ildə valideynləri Vladiqafqazdan, çar ordusunda xidmət edən polkovnik Əmənulla xanın iş yerindən geri dönmüş və onlar Naxçıvan şəhərinə gedib orada yaşamağa başlamışdılar. Əvvəlcə bir müddət Tiflisdə Qafqaz Canişinliyinin Hərbi Qərargahında ştalmeyster (ordu süvari zabiti), sonra mülkü qulluqda çalışan Bəhram xan 1899-1904-cü illərdə Naxçıvan Şəhər Polisində pristav köməkçisi vəzifəsində işləmişdi. Həmin illərdə o, Naxçıvan şəhər müsəlman ibtidai məktəbində həm də fəxri nəzarətçi idi... Bəhram xan sonra kollec katibi və kollec assessoru, titulyar müşavir (çar Rusiyasında 9-cu dərəcəli mülki rütbə), saray müşaviri (çar Rusiyasında 7-ci dərəcəli mülki rütbə) vəzifələrində çalışmışdı. 1906-09-cu illərdə Bəhram xan Naxçıvan şəhərinin başçısı olmuşdu. 1912-16-cı illərdə isə fəxri barışdırıcı hakim (xırda mülki və cinayət işlərinə baxan hüquqşünas) vəzifəsində fəaliyyət göstərmişdi.

Bəhram xan Naxçıvanski 1919-cu ilin yanvarından Cənub-Qərbi Qafqaz (Qars)-Araz Türk Demokratik Respublikasının xarici əlaqələr üzrə komissarı olmuşdu. Paytaxtı Qars və Naxçıvan olan (Naxçıvana "Bulğan" da, yəni "yurd, alaçıq yeri" demişlər) bu respublikanın tərkibinə Naxçıvan qəzası da daxil idi (Naxçıvan qəzası hələ 1841-ci il yanvarın 1-də yaranmışdı. Ərazisi 3.858,8 verst, əhalisi isə 100.771 nəfərydi). Andronikin başçılığı ilə erməni-daşnakların hücumu güclənən zaman, 1918-ci il iyulun sonu-avqustun əvvəllərində paytaxtı Naxçıvan şəhəri olan Araz-Türk Respublikası, onun Nazirlər Şurası yaranmışdı...1919-cu il fevralın 28-də Azərbaycan Cümhuriyyəti hökumətinin qərarı ilə Naxçıvan qəzasında sabitliyin yaxşılaşdırılmasını təmin etmək məqsədilə Cənub-Qərbi Azərbaycan (Naxçıvan) General-Qubernatorluğu yaradılmış və onun xərcləri üçün 2 milyon manat vəsait ayrılmışdı. Elə həmin tarixdən də partiya mənsubiyyəti üzrə müsavatçı olan Bəhram xan Naxçıvanski general-qubernator təyin edilmişdi. General-qubernatorluğun iqamətgahı yaranmış mürəkkəb şəraitə görə əvvəlcə qısa müddət Ordubadda yerləşmişdi. Lakin tezliklə, Naxçıvan şəhərinə köçürülmüşdü. B. Naxçıvanski general-qubernator vəzifəsində 1919-cu il martın 16-dək fəaliyyət göstərmişdi. Sonuncu tarixdə onu Azərbaycan Cümhuriyyəti Hökumətinin qərarı ilə bu vaxtadək Zaqatalanın qubernatoru vəzifəsində xidmət göstərən general-mayor Əliyar bəy Haşımbəyov (1856-1920) əvəz etmişdi.

... Qeyd etmək lazımdır ki, hələ 1919-cu ilin yanvarında daşnakların Araz-Türk Respublikası üzərinə hücumu güclənən zaman 7 nəfərdən ibarət hökumətin sədri naxçıvanlı Əmir bəy Ək-

bərzadə (tarixi ədəbiyyatda Nərimanbəyov da yazılır – İ.Ş.) (1918-ci il dekabrın 1-dən 1919-cu ili yanvarın 1-dək) idi. Əmir bəy istefa verəndə hökumətin başçısı Bəhram xan, Naxçıvan Milli Şurasının sədri isə Cəfərqulu xan Naxçıvanski (1859-1929) (Məşhur sərkərdə, general-mayor Cəmşid xan Naxçıvanskinin ( ) atası) olmuşdu. Bəhram xan Naxçıvanski Araz-Türk Respublikasının Azərbaycan Cümhuriyyəti Hökuməti ilə danışıqlar aparmaq üçün Bakıya gəlmiş nümayəndə heyətinin də başçısı olmuşdu... Belə ki, B. Naxçıvanskinin başçılığı ilə Araz Türk Cühuriyyətinin (tarixi ədəbiyyatda Araz Cümhuriyyəti də yazılır) 1919-cu il martın 8-də Bakıya ezam olunan xüsusi nümayəndə heyətinin tərkibinə dahi Azərbaycan şairi Hüseyn Cavid (Hüseyn Abdulla oğlu Rasizadə (1882-1941) də daxil idi. Nümayəndə heyəti Azərbaycan Cümhuriyyətinin rəhbərliyi ilə müəyyən məsləhətləşmələr, o cümlədən Naxçıvan məsələsinin Paris Sülh Konfransında müzakirə olunmasının mümkünlüyü haqqında danışıqlar aparmışdı. B. Naxçıvanski Bakıya gələrkən yolüstü Tiflisdə Gürcüstan hökumətinin üzvləri ilə, eləcə də, Gəncədə müsavatçılarla görüşərək, Naxçıvanın Azərbaycan Cümhuriyyətinə birləşdirilməsi ilə bağlı məsləhətlər aparmışdı.

Bəhram xan Naxşıvanskinin Bakıya səfərindən və Azərbaycan Cümhuriyyəti rəhbərliyi ilə danışıqlardan sonra iki respublika arasında qardaşlıq əlaqələrinin xeyli canlanması müşahidə edilmişdi. Danışıq və razılaşmadan sonra Azərbaycan Cümhuriyyəti Hökumətinin Naxçıvana göndərdiyi 10 nəfərlik zabit heyəti Araz-Türk Respublikasının hərbi hissələrində təlim keçmiş, kəşfiyyat işlərinin təşkilində və sərhəd xətlərinin möhkəmləndirilməsində iştirak etmişdi.

1919-cu il martın 16-da öz ərizəsiylə general-qubernator vəzifəsindən istefa verən B. Naxçıvanski onun yerinə təzəcə təyin olunmuş general-qubernator Əliyar bəy Haşımbəyovun mülki işlər üzrə köməkçisi keçmişdi (bu vəzifədə ondan əvvəl öz xahişi ilə çıxan Hacı Mehdi Bağırov çalışmışdı). Həmin ilin avqustundan Şərur-Dərələyəz General-Qubernatorluğunun köməkçisi (rotmistr) vəzifəsində olmuş Bəhram xan Naxçıvanski Azərbaycan Cümhuriyyəti Hökuməti tərəfindən Bakıya çağırılaraq, 1919-cu ilin sonunda Daxili İşlər Nazirliyinin Lənkəran Qəzası yanında Xüsusi Səlahiyyətli müvəkkili



təyin edilmişdi. Bu vəzifə general-qubernator (vali) vəzifəsinə bərabər hüquqlu vəzifə idi. Qəza rəisi də ona tabe idi. Bəhram xan bu vəzifədə kadr təyinatlarında sərbəst və müstəsna əmrlər vermək hüququna malik idi. Məsələn, B. Naxçıvanskinin 21 aprel 1919-cu il tarixli 70 nömrəli əmri ilə bu vaxtadək Lənkəran qəzasının rəisi vəzifəsində işləmiş və DİN-in əmri ilə tutduğu vəzifəsindən azad olunaraq Balaxanı-Sabunçu polismeysteri vəzifəsinə irəli çəkilmiş Rüstəm bəy Kərimbəyovun yerinə onun böyük köməkçısı Adil bəy Kəngərlinskini təyin (o, cəmi 1 həftə – 21-28 aprel 1920-ci ildə bu vəzifədə işləyə bilmişdi) etmişdi. B. Naxçıvanski Lənkəran qəzası yanında DİN-in Səlahiyyətli müvəkkili vəzifəsində Azərbaycan Cümhuriyyətinin süqutunadək xidmət göstərmişdi.

Azərbaycanda, o cümlədən Naxçıvanda sovet hakimiyyəti qurulduqdan sonra B. Naxçıvanski təqibdən, həbsdən və labüd güllələnmədən yaxa qurtarmaq üçün bir çox milli təəssübkeşlərimiz kimi xaricə - Parisə mühacirət etmək məcburiyyətində qalmüşdı. Qeyd etmək lazımdır ki, B. Naxçıvanskinin mənsub olduğu Kəngərlilər nəsli də sovet hökumətinin onlara qarşı ağır repressiyasına məruz qalmışdı. Bu məğrur nəsildən elə təkcə 6 general çıxmışdı. Bunların 4-ü çar ordusunda, biri sovet ordusunda, biri isə İran ordusunda xidmət göstərmişdi...

1926-cı ildən başlayaraq, Kəngərli Naxçıvanskilərin Azərbaycan SSR Baş Dövlət Siyasi İdarəsi (BDSİ) tərəfindən repressiyası, həbsi və sürgünlərə göndərilməsi xüsusilə güclənmişdi... Elə həmin arada Bəhram xan Naxçıvanski Fransadan Təbrizə köçmüş, orada ev almış və yaşamağa başlamışdı... Digər Kəngərlilərin böyük qismi Naxçıvandan qaçaraq Maku (Cənubi Azərbaycan) şəhərində məskunlaşmışdılar. Burada onların nəslindən qohumları yaşayırdı. Bu haqda Makuya səfər etmiş AMEA-nın Naxçıvan Bölməsi Tarix-Etnoqrafiya İnstitutunun elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev və hazırda Moskvada yaşayan istedadlı tədqiqatçı, Kəngərlilər nəslindən olub sanballı monoqrafiya yazmış Fərhad Nağdalıyev yazmışdır... Onların yazdıqlarından məlum olur ki, Bəhram xan Naxçıvanski 1928-ci ildə hələ Təbrizdə yaşayırdı. O, şah qulluğunda xidmətdə olan həmyerlimiz, mühəndis Məlik-Aslanovun köməyi ilə Təbriz-Culfa dəmir yolunda nəzarətçi

vəzifəsinə düzəlmişdi... Oğlu Əziz xan da Urmiya şəhərində, Urmiya gölünün şimal-qərb qurtaracağında yerləşən xəstəxanada feldşer işləyirdi. Tarixi ədəbiyyatda Əziz xanın 1928-ci ildə dünyasın dəyişməsi barədə məlumat vardır... Azərbaycan BDSİ-nin məlumatına görə Bəhram xan "bitərəf" antisovet mühacir qrupunun üzvlüyünə və gizli "Müstəqil Qafqaz" təşkilatına daxil idi... Lakin Bəhram xanın nə vaxt vəfat etdiyi məlum deyildir. Adlarını çəkdiyimiz tədqiqatçılar bildirirlər ki, Bəhram xan və Cənubi Azərbaycanda mühacirət həyatı yaşayan digər Naxçıvanskilər İkinci Dünya Müharibəsi dövründə sovet qoşunları İrana daxil olanda oranı tərk etmişdilər...

## XUDADAT bəy RƏFİBƏYLİ
## (1877-1920)



Xudadat bəy Rəfibəyli (Rəfibəyov) Azərbaycan Cümhuriyyətinin görkəmli ictimai-siyası və dövlət xadimlərindən biridir. O, 1877-ci ildə Gəncə şəhərinin Bala Bağman məhəlləsində məşhur xeyriyyəçi Ələkbər bəy Kərbəlayi Həsən oğlu Rəfibəylinin (1839, Gəncə - 3 aprel 1919, Gəncə, 80 yaş) ailəsində dünyaya gəlmişdi. Rəfibəylilər əsilli-nəcabətli böyük sülalə idi. Təkcə onu demək kifayətdir ki, o zamanlar Gəncə şəhər Dumasının 60 üzvündən 7 nəfərini Rəfibəylilər təşkil edirdi.

Rəfibəylilərin ağsaqqalı Gəncənin də ağsaqqalı sayılan, müdrik və xeyirxah əməlləri ilə xalq arasında böyük nüfuz sahibi olan Ələkbər bəyin özü də əvvəllər, çar Rusiyasının seçilən məmurlarından olmuşdu. Belə ki, o, Nuxa (Şəki) qəzası Bum sahəsinin polis pristavı, Yelizavetpol (Gəncə) qəzasının polis sahəsinin pristavı, Ərəş qəzasının 1-ci sahəsinin polis pristavı (1884-88),



Yelizavetpol (Gəncə) şəhərinin pristavı (1890-96) vəzifələrində xidmət etmiş, özünü qanunları gözləyən və ədalətli bir şəxs kimi tanıtmışdı. Ələkbər bəy cinayətkarlıqla mübarizədə, ümumiyyətlə, dövlət qulluğunda göstərdiyi səmərəli fəaliyyətə görə "Müqəddəs Vladimir" ordeninə təqdim olunmuş, Rusiya Senatının fərmanı ilə rütbəsi artırılmışdı. Ələkbər bəy saray müşaviri rütbəsi aldıqdan sonra polisdə xidmətini başa vurmuşdu.

Gəncə Müsəlman Xeyriyyə Cəmiyyəti (1904-19) Ələkbər bəy Rəfibəylinin təşəbbüsü ilə yaradılmışdı və o, özü bu qurumun ilk sədri olmuşdu. Ə. Rəfibəyli o vaxt bütün Gəncəbasarda yaşayan ermənilərin əl-qol açmasına yol verməmişdi. Xudadat bəy Gəncənin general-qubernatoru təyin ediləndə (6 may 1919) atası Ələkbər bəy artıq 1 ay idi ki, dünyasını dəyişmişdi. Onun vəfatı barədə M. Ə. Rəsulzadə demişdi: " Ələkbər bəy Gəncənin ən yaxşı vətəndaşı, Azərbaycanın milli ideallarının təəssübkeşdir". Nəsib bəy Yusifbəyli : "Ələkbər bəy Azərbaycanın namuslu vətəndaşıdır". Şəfi bəy Rüstəmbəyli: " Ələkbər bəy Azərbaycanın nəhəng ictimai-siyasi xadimidir". Xidadat bəy atasının əməllərini davam etdirəcəyinə söz vermiş və buna əməl etmişdi...

... Ələkbər bəy oğlunun mükəmməl təhsil alması və xalqı üçün gərəkli bir şəxsiyyətə çevrilməsi yolunda hər bir qayğısını göstərmişdi. Xudadat bəy əvvəlcə Gəncə rusdilli klassik gimnaziyasında oxumuş, sonra Ukraynada Xarkov İmperator Tibb Universitetinin tibb fakultəsinin cərrahlıq şöbəsinə daxil olmuşdu. Universiteti bitirdikdən sonra təyinat üzrə Xarkovda qalıb 3 il hospitalda ordinator vəzifəsində qulluq göstərmişdi. Elə həmin müddətdə yaxın qohumu, Gəncəli xeyriyyəçi Mirzə bəy Mirzə Kərim bəy oğlu Rəfibəylinin qızı Cəvahir xanımla da ailə qurmuşdu. Qeyd etmək lazımdır ki, Xudadat bəy mərhum xalq şairəmiz Nigar Rəfibəylinin (13 iyun 1913, Gəncə - 9 iyul 1981, Bakı) atası və Aərbaycan Yazıçılar Birliyinin sədri Anarın babasıdır. Xudadat bəyin Nigar xanımdan başqa Rəşid və Kamil adlı 2 oğluda vardı. "Arran" ləqəbi götürmüş oğlu Kamil Gəncə üsyanından (24 may - 4 iyun 1920-ci il) sonra İstanbula mühacirət edərək orada yaşmışdı...

...1907-ci ildə Xarkovdan Gəncəyə qayıdan X. Rəfibəyli həmin il noyabrın 15-də qubernatorun əmri ilə Afanasyev adına Ye-

lizavetpol (Gəncə) şəhər xəstəxanasının müdüri təyin edilmişdi. O, 1912-13-cü illərdə Sankt-Peterburqa gedərək, 6 ay knyaginya Yelena Petrovna adına İmperator Kliniki İnstitutunda məşhur professorların apardığı 12 ixtisas kursunun dinləyicisi olmuşdu. 1914-cü ildə həmyerlisi, ondan əvvəl Moskva Universitetinin tibb fakultəsini bitirmiş, sonralar Azərbaycan Milli Şurasının və Parlamentinin sədr müavini olmuş Həsən bəy Ağayaevlə birgə Gəncədə "Yelizavetpol Tibb Cəmiyyəti"ni yaradıb özü sədr, Həsən bəy isə katib olmuşdu. X. Rəfibəyli 1915-ci ildə kollec müşaviri rütbəsinə irəli çəkilmişdi. Xudadat bəy Aslan bəy Səfikürdski, Şəfi bəy Rüstəmbəyli və digər məsləkdaşları ilə birlikdə 1918-ci il yanvarın 9-12 arasında Şəmkir yaxınlığında, Dəllər dəmiryol stansiyasında Qafqaz (türk) cəbhəsindən geri qayıdan, lakin özlərini azğıncasına aparan 9 eşalon rus əsgərlərini qarşılayıb onların tərkisilah edilməsinə nail olmuşdu. Həmin silahlar sonra Gəncə üsyanı zamanı milli qüvvələrimizin karına gəlmişdi. Maraqlıdır ki, cərrah olan Xudadat bəy humanistlik göstərərək atışma zamanı yaralnmış rus əsgərlərini ölümdən xilas etmişdi...

Bu hadisə tarixə "Şəmkir davası" kimi düşmüşdür. 1918-ci ilin yanvarın əvvəlində Türkiyə cəbhəsindən qatarlarla geri qayıdan silahlı rus əsgərlərinin tərksilah edilməsi haqqında Zaqafqaziya Komissarlığı hökumətinin (1918-21) sədri Noy Jordaniya ( ) qərar imzalamış və bununla əlaqədar Gəncə Milli Müsəlman Komitəsinin (MMK) köməyinə knyaz Abxazovun başçılığı altında xüsusi qüvvə göndərmişdi. Gəncə MMK o zaman şəhərdə əhalinin təhlükəsizliyini təmin edir, qayda-qanun yaradır və ona nəzarəti həyata keçirirdi. O, ümumiyyətlə, bütün Gəncəbasarda real nüfuzlu idarəetmə qurumu idi. Həmin vaxt gürcü məşhurlarından biri Aleksandr Mucirinin dediyi kimi: " Bakı Azərbaycanın, Gəncə isə azərbaycanlıların paytaxtıdır",- sözləri kerçək vəziyyəti əks etdirirdi. Daim iş başında olan Gəncə Milli Müsəlman Komitəsinə 14 nəfər görkəmli xadim, o cümlədən Ələkbər bəy Rəfibəyli, Həsən bəy Ağayev, Ələkbər bəy Xasməmmədov, Xəlil bəy Xasməmmədov, Məhəmməd Bağır və Nağı bəy Şeyxzamanlı qardaşları, Həsən bəy Fəttah oğlu və başqaları daxil idilər. MMK-nın fəaliyyəti iki istiqamətdə qurulmuşdu. Açıq məsələlər proqramına fərdi təqaüdçü



Ələkbər bəy Rəfibəyli, gizli məsələlər proqramına isə N. Yusifbəyli rəhbərlik edirdi. MMK-nın 5 nəfərdən ibarət İcraiyyə Komitəsinə N. Yusifbəyli, A. Səfikürdski (hüquqşünas), Əhməd Cavad (şair), X. Xasməmmədov (hüquqşünas), Axund (Molla) Məhəmməd ağa Pişnamazzadə (Mirzə Məhəmməd Mirzə Kərim oğlu Axundzadə. Görkəmli din xadimi, publisist, dramaturq, ədəbiyyatşünas alim. 1875-ci ildə Gəncədə anadan olmuşdu. 1920-ci il Gəncə üsyanından sonra oktyabrın 2-də Azərbaycan FK tərəfindən həbs edilib Bakıya göndərilmiş, 10 il iş kəsmişdilər. 1921-ci ildə N. Nərimanovun köməyi ilə cəzası yüngülləşdirilmişdi... M. Pişnamazzadə 1923-cü ildə Bakıda 48 yaşında vəfat etmişdi...). Gəncə MMK-nın tabeliyində silahlı süvari və piyada qoşun hissələri vardı. Komitənin silahlı döyüş dəstələrinə məşhur qaçaq Qənbər Qənioğlu Bəhmənli, Sarı Hacı Ələkbər (Gəncənin Xəlfəli məhəlləsindən), samuxlu qaçaq Məmmədqasım, qaçaq Mikayıl, "Tatoğlu Həsən" (Həsən Hacı Mustafa oğlu Adıgözəlov. 1875-ci ildə anadan olmuşdu. Gəncə üsyanından sonra bolşeviklər tərəfindən mütləq güllələnəcəyini yəqin bildiyindən Batuma "qaçmışdı". Məqsədi Batumdan gəmilərdən biri ilə Türkiyəyə getmək idi... Lakin, 1920-ci ilin iyununda şəhərin yaxınlığında ələ keçmiş və naməlum şəraitdə öldürülmüşdü...), ərəşli Əşrəf bəy, Qaramanlı Qamboy Quliyev və digər milli təəssübkeşlər başçılıq edirdilər. MMK-nı bilavasitə qoruyan mühafizə dəstələrinin rəisi isə polkovnik, knyaz Maqalov və podpolkovnik Hüseynqulu xan Xoyski idi.

1918-ci il yanvarın 9-da Şəmkirin 2 verstliyində, Şəmkirçayın sağ sahilində 18-ci rus ordusuna daxil olan bolşevik əsgərlərin tərksilah olmaları tələb olunduqda, eşalondakı əsgərlər bunu rədd edib güllləbarana başlamışdılar. Onları buna təhrik edən və fitnəkarlıq törədən S. Şaumyan tərəfindən göndərilmiş, milliyyətcə çex olan İvan Vatsek (1870-1951) olmuşdu. O, qabaqcadan Poylu (Saloğlu) stansiyasına gedib rus əsgərlərini tabe olmamağa və azərbaycanlılarla vuruşmağa təşviq etmişdi... Rus əsgərləri vəhşiliklər törətmişdilər. Əhalidən xeyli öldürülən vardı. Top atəşləri ilə onların evləri dağıdılmışdı... Onlar Zaqafqaziya Komissarlığının xüsusi zirehli qatarlar qrupunun rəisi, knyaz Abxazovu və 60-a yaxın gürcü əsgər və zabitini də güllələmişdilər... Buna görə Gəncə MMK-nın göstərişilə

onun sərəncamında olan milli silahlı qüvvələrimiz rus əsgərləri ilə döyüşmüşdülər. Nəticədə rus əsgərləri tərkisilah olmağa məcbur olmuş və onlardan külli miqdarda silah və döyüş sursatları müsadirə edilmişdi. Bu işdə Gəncənin Şahsevən məhəlləsindən Kərbəlayi Həsən Şahsevənlinin adı xüsusi qeyd olunmalıdır. Lakin rus əsgərlərindən 900 nəfər öldürülmüşdüsə, yüzlərlə soydaşımızda həlak olmuşdu...

1918-ci il Mayın 28-də Azərbaycan Cümhuriyyəti yarandıqda, 2-ci hökumət kabinetində (17 iyun - 7 dekabr 1918-ci il) Xudadat bəy Rəfibəyli səhiyyə və sosial təminat naziri təyin olunmuşdu. Ömrünün axırınadək heç bir siyasi partiyanın üzvü olmayıb bitərəf qalan X. Rəfibəyli sonra Azərbaycan Hökumətinin 1919-cu il 6 may tarixli qərarı ilə Gəncə quberniyasının general-qubernatoru təyin edilmiş və Azərbaycan Cümhuriyyətinin süqutunadək həmin vəzifədə sədaqətlə çalışmışdı... Xudadat bəy general-qubernator olmaq istəmirdi. Lakin əhalinin xahişi ilə buna razılıq verəndə belə bir şərt kəsmişdi ki, işdə günün birinci yarısını qubernator, ikinci yarısını isə cərrah kimi işləyəcək...

Gəncə şəhəri 1918-ci il iyunun 17-dən 1918-ci il sentyabrın 16-dək Azərbaycanın paytaxtı idi... O zaman Gəncə quberniyası Azərbaycanın təxminən yarısını əhatə edirdi. Xudadat bəy təzə vəzifəyə təyin olunanda atası Ələkbər bəy artıq 1 ay 3 gün idi ki, dünyasını dəyişmişdi. Ağır kədərə baxmayaraq, atasının qırxından sonra, 1919-cu il mayın 17-də Gəncə, Nuxa, Qazax, Ərəş qəza rəislərinə və Gəncənin polismeysterinə teleqram göndərərək, o gündən vəzifəsinə başladığını bəyan etmişdi. Həmin vaxtlar Gəncə quberniyasında dərəbəylik edən, öz aralarında çəkişmələr aparan və beləliklə də, əhalinin dincliyini pozan bir neçə qaçaq dəstəsini özünün yüksək nüfuzu və məharəti ilə çox keçmədən barışdırmış və itaət göstərməyən bəzilərini isə zərərsizləşdirmişdi... Onun general-qubernator təyin edilməsindən sonra bütün Gəncə və Gəncəbasar ermənilərinin qəddi qırılmış, yerli bolşeviklərin milli müstəqil dövlətimiz əleyhinə yönəlmiş fəaliyyəti də çətinləşmişdi.

Bir faktı misal gətirmək yerinə düşər... Gəncə qəzasının Qaraçinar, Çaykənd, Erkəc, Buzuluq, Todan, İrəvan kəndlərinin erməni əhalisi Azərbaycan hökumətinə tabe olmurdular. İrəvandan gəlmiş



millətçi ermənilər və yerli cinayərkar qruplar fəlakətlər törədir, Aranın azərbaycanlı əhalisinə yaylağa köçməyə imkan vermir, əkinlərini suvarmağa qoymurdular. Odur ki,azərbaycanlılar və digər müsəlman əhali Xudadat bəyə şikayət etmişdilər. Xudadat bəysə ermənilərin tabe olmasını təmin etmişdi....

X. Rəfibəyli Gəncə, Gədəbəy və Qazaxda "mülki müdafiə" (partizan) dəstələrinin təşkilində də mühüm rol oynamışdı. Buna Azərbaycan Ordusunun Hərbi Qərargah rəisi, general-leytenant Məmməd bəy Sulkeviçin (əslən Polşa tatarı idi. Masey bəy, Maçe bəy də adlanırdı. O, 20 iyun 1865-də Krımda anadan olmuş, 15 iyul 1920 - ci ildə bolşeviklər tərəfindən Bakıda, Nargin adasında güllələnmişdir...) Xudadat bəyə ünvanladığı müraciət də sübutdur. Müraciətdə deyilirdi: " Zati Alinizdən xahiş edirəm ki, ordumuzun indiki vəziyyətində Vətənimizin müdafiəsi üçün çox gərək olan partizan işinin təşkilində yardımınızı əsirgəməyəsiniz".

1919-cu ilin mayında Azərbaycan Cümhuriyyətinin hərbi naziri, Peterburq yunker məktəbinin yetirməsi, tam artillrtiya generalı S. Mehmandarov Milli Orduda Azərbaycanın müstəqilliyini sarsıtmağa və sovet Rusiyası ilə birləşməyə çağıran təbliğata qarşı mübarizənin zəruriliyi ilə əlaqədar olaraq, Xudadat bəyə ünvanladığı müraciətdə bildirirdi: "Ordu kəşfiyyatı yerli şəraiti kifayət qədər yaxşı bilmədiyindən bu istiqamətdə müstəqil çalışmağın çətin olduğunu nəzərə alaraq, Daxili İşlər Nazirliyinin təkcə Bakıda deyil, bütün respublika ərazisində həm ordumuzu, təbii ki, həm müstəqilliyimizi qorumaq üçün bu məsələdə fəal yardım göstərəcəyinə ümid vardır".

X. Rəfibəyli öz xidməti işində olduqca qanunu sevən, bunu axıradək gözləyən və başqalarından da tələb edən bir ali dövlət məmuru idi. Hətta general-qubernator olsa belə, xidməti heç vaxt pozmaq istəmirdi. Bunu aşağıdakı xarakterik raportdan da görmək olar:

"Azərbaycan Respublikasının daxili işlər nazirinə.

Xahiş edirəm, mənə sabaha xidməti işlə əlaqədar Bakıya gəlməyimə icazə verəsiniz. Qubernator Rəfibəyov.

27 dekabr 1919-cu il".

1 oktyabr 1919-cu il. Ərəş kəndinin Bəydili kəndinin əhalisi general-qubernator X. Rəfibəyliyə müraciət edib kömək istəyir: kasıb kəndlilər onların torpaqlarını ələ keçirmiş mülkədarın qudur-

ğanlığından şikayətlənib Xudadat bəydən onlara arxa durmağı, torpaqlarının özlərinə qaytarılıb verilməsini xahiş edirdilər. Xudadat bəy onların xahişinin yerinə yetirilməsini təmin etmişdi...

Adam öldürdüyünə görə 20 yaşından "qaçaq" düşmüş "Qatır Məmməd" (Məmməd Əli oğlu Məmmədov sovet dönəmində uzun illər adlandırıldığı kimi heç demə, "xalq qəhrəmanı" deyilmiş. Hətta ona eyni adlı bədii film də çəkilmişdir. İndi aşkarlanan tarixi sənədlər və faktlar sübut edirki, vaxtilə Gəncəbasarda heykəli qoyulmuş bu "qaçaq" Rusiya bolşevikləri tərəfindən maliyyələşdirilmiş və silahlandılaraq birinci milli müstəqil dövlətimiz olan Azərbaycan Cümhuriyyətinə qarşı vuruşmuşdur. Bunu Gəncə qəzasının rəisi Bəhram bəy Məlik-Abbasovun general-qubernator X. Rəfibəyliyə göndərdiyi aşağıdakı raportuda sübut edir: "Qatır Məmmədin quldur dəstəsi Boyəhmədlidə, Erkəcdə erməni bolşevikləri ilə əlbir fəaliyyət göstərir. Xahiş edirəm, Bulutxanova təklif edəsiniz ki, yaylağa strajniklərdən ibarət kifayət qədər qüvvə gətirsin, pristav K. Səfikürdski isə günü bu gün Boyəhmədliyə - Qatır Məmmədin quldur dəstəsiylə erməni rayonları hüdüdlarında mübarizə aparmaq üçün təlimatları almaqdan ötrü yanıma gəlsin...".

1919-cu ilin noyabr ayında Gəncə Polismeysterliyinin rəisi İsmayıl bəy Hacıəlibəyov qubernator X. Rəfibəyliyə raportunda bildirirdi ki, Gəncə bolşevikləri Tovuz, Dəllər və Zəyəm kəndlərini Azərbaycan hökumətinə qarşı mübarizəyə təhrik edirlər...

X. Rəfibəyli Azərbaycan Cümhuriyyətini sonadək, hətta sovet hakimiyyəti qurulmasının elan edilməsindən bir neçə gün keçməsinə baxmayaraq belə, Gəncədə milli hökumətimizi qanun-qayda ilə saxlayır və bolşevik hakimiyyətinin üçüncü günündə də general-qubernator imzası ilə əmrlər imzalayırdı. 1920-ci il aprelin 28-də 11-ci ordu hissələri Bakını işğal etdikdən və Azərbaycanda sovet hakimiyyətinin qurulduğu elan olunduqdan sonra, elə həmin gün Gəncə bolşeviklərinin lideri Fərhad Əliyevin (1890-1938) sədrliyi ilə Gəncə Quberniya İnqilab Komitəsi yaranmışdı. İnqilab Komitəsinin nümayəndələri onun evinə gələrək, hakimiyyəti təslim etməsini, bütün siyasi dustaqların azad edilməsini, əhaliyə çağırışla müraciət olunmasını ultimatum şəklində tələb etdikdə, o, bildirmişdi ki, mən əvvəl Bakıya zəng vurum, əgər siz deyən düzdürsə, gəlin, qubernatorluğa, məndən dövlət vəzifəsini qanun-qayda ilə təhvil alın. Sonra Bakıya zəng vuraraq Parlamentin Sosialistlər fraksiyasının üzvləri Aslan bəy Ağalar bəy oğlu Səfikürdski (30 sentyabr 1881, Gəncə qəzasının Səfikürd kəndi - 20 sentyabr 1937, Bakı) və Qasım bəy Abbasqulu bəy oğlu Camalbəyovla (1881, Naxçıvan şəhəri - 1937, Bakı. Repressiya və həbs edilib, 1938-ci il yanvarın 8-dən 9-na keçən gecə güllələnib. O, həmin gecə güllələnən 45 nəfərin içərisində sayca 15-ci idi) danışıqlar apardı, eyni zamanda Hərbi Nazirliyin Baş Qərargah rəisi, general-leytenant Həmid bəy Qaytabaşı (1888-1920) ilə əlaqə saxlayıb həqiqətən hakimiyyətin Parlament tərəfindən kommunistlərə təhvil verildiyini öyrəndikdən sonra 1920-ci il aprelin 29-da bütün quberniyada hakimiyyətin İnqilab Komitəsinə verilməsi barədə aktı imzaladı. Xudadat bəy aprelin 30-da Nuxa, Ağdaş, Zəyəm, Gəncə qəza rəislərinə teleqram yollayaraq hakimiyyəti bolşeviklərə təhvil verdiyini bildirmişdi. Sonra da öz müavini, polkovnik Hüseynqulu xan Xoyski ilə lazımi sənədləri imzalayaraq, Gəncə İnqilab Komitəsinin 30 aprel 1920-ci il tarixli 67 və 68 nömrəli əmrlərinə uyğun qubernatorluğu 1920-ci il may ayının 1-də Gəncə İnqilab Komitəsinin sədri İbrahim Əliyevə (1890, Petrovsk (indiki Mahaç-Qala) - 1938. 30-cu illər qurbanlarından biridir. 1938-ci ildə güllələnmişdir) və onun köməkçisi (müavini) Fərhad Əliyevə təhvil vermişdi.

Aktı imzaladıqdan birqədər sonra Azərbaycan İnqilab Komitəsi adından X. Rəfibəyliyə zəng edilmişdi: "Fəaliyyətinizə xitam verin! Siyasi dustaqları azad edin! Qubin".

Xudadat bəy vəzifəsini tərk etməzdən əvvəl, 66 nömrəli son əmrini vermiş və onu bəyan etmişdi. Əmrdə deyilirdi:"

"Azərbaycan Respublikası Xalq Komissarları Soveti müavininin və Azərbaycan Cümhuriyyəti Parlamenti sədrinin təklifi ilə mən bu gün Gəncə quberniyasının idarəçiliyini Gəncə İnqilab Komitəsinin sədrinə təhvi verdim. Bir ilə yaxın müddətdə Gəncə qubernatoru vəzifəsini yerinə yetirərək mən əmin oldum ki, istər Gəncə Quberniyasının İdarə Heyəti və qubernator Dəftərxanasının qulluqçuları, istərsə də, mənə tabe olan polis məntəqələrinin işçiləri onlara tapşırılan vəzifələri vicdanla yerinə yetirir, quberniyada əmin-amanlığın, sülhün, sakitliyin bərqərar olması yolunda mənə

kömək etmək üçün bütün qüvvələrini səfərbər etmişlər. Buna görə də qubernator vəzifəsini tərk edərkən mən sadalanan müəssisələrin qulluqçularına çəkdikləri zəhmətlərə, sədaqətli xidmətlərinə görə səmimi təşəkkür etməyi özümə mənəvi borc sayıram. Əminəm ki, onlar bundan sonrada Azərbaycan Respublikasının çiçəklənməsi naminə öz vəzifələrini vicdanla və səylə yerinə yetirəcəklər.

Qubernator Rəfibəyov".

Beləliklə, X. Rəfibəyli hakimiyyəti sivil qaydada kommunistlərə təhvil vermişdi. 1920-ci il may ayının 1-də sovet qoşunları Gəncəyə daxil oldu və yeni hakimiyyət quruldu. Lakin bu hakimiyyət çox keçmədən xalqın ciddi müqavimətinə rast gəldi...

...Kommunistlər Azərbaycan Cümhuriyyəti Parlamenti və Hökumətinin görkəmli xadimlərinə toxunmayacaqları haqqında verdikləri vədlərə... xilaf çıxmışdılar, onlara qarşı haqsız, qanunsuz həbslərə və təqiblərə yol verdilər, bir çoxlarını günahsız yerə sadəcə, amma amansızcasına güllələdilər... Onların içərisində Azərbaycanın milli istiqlaliyyəti, müstəqilliyi uğrunda başları çox müsibətlər çəkmiş Rəfibəylilər nəsli də vardı. Görkəmli ədəbiyyatşünas, yazıçı, millət vəkili, professor Rafael Hüseynov yazırki, Gəncə üsyanından (24 may - 4 iyun 1920) sonra Rəfibəylilər 1920-1960-cı illərdə düz 9 dəfə kütləvi sürgünlərə məruz qalmışlar...

Azərbaycanda sovet dövründə X. Rəfibəyli haqqında qəsdən "xalq düşməni" damğası altında fikir formalaşdırılmışdı. Bir çox başqa milli istiqlal fədailərimiz kimi həmin dönəmdə X. Rəfibəylinin ailəsi, uşaqları və qohum-əqrabaları Rəfibəyli və Rəfibəyov soyadının təqiblərindən canlarını qurtarmaq, nisbətən gözdən iraq olmaq üçün yeni soy adları götürmüşdülər özlərinə. Həmin müddət ərzində Xudadat bəyin nəslinin mənsubları : qohum-qardaş Türkiyədən tutmuş uzaq Amerika və Yaponiyayadək dərbədər olmuşdular. Bununla əlaqədar Rəfibəylilər nəslinin müasir nümayəndələrindən biri, uzun illər respublikanın prokurorluq və ədliyyə orqanlarında, məsul vəzifələrdə, o cümlədən Ədliyyə Nazirliyinin müavini vəzifələrində çalışmış, ermənilərin torpaqlarımıza təcavüzə başlandığı andan ön sırada Qarabağa yola düşən əməkdar hüquqşünas, ədliyyə general-mayoru Akif Bəşir oğlu Rəfiyevlə (Akif müəllim hazırda istefadadır və Azərbaycan Respublikası yanında



Dövlət İdarəçiliyi Akademiyasında çalışır) və hörmətli yazıçımız, Azərbycan Yazıçılar Birlyinin sədri Anarla (Xudadat bəy onun ana babasıdır) söhbətləşmək aydın təsəvvür üçün kifayət edər.

... Azərbaycanda sovet hakimiyyəti qurulduqda işğalçı 11-ci ordu bir neçə gündən sonra Gəncəyə daxil olmuşdu. Qoşunun ən böyük hissəsi şəhərin ermənilərin sıx yaşayan məhəllələrində yerləşdirilmişdi. Azərbaycan Cümhuriyyəti dövründə gizli fəaliyyət göstərən erməni təşkilatının üzvləri üzə çıxmışdılar. Onlar "qızıl"ordu komandanlığıyla "dil" tapıb Xudadat bəyi həbs etməyi tələb etmiş və bu işdə köməklərini əsirgəməmişdilər...

Bunun nəticəsində 1920-ci il may ayının 10-da həbs olunan Xudadat bəyi 3 nəfər 11-ci ordu əsgəri əllərində silah açınacaqlı görkəmdə qabaqlarına qatıb dəmiryol stansiyasına - vağzala, oradanda xüsusi qatarla Bakıya aparmışdılar... Xudadat bəyin harasa gedib gizlənmək, o cümlədən Türkiyəyə keçmək imkanı da olmuşdu. Lakin ləyaqətli və məğrur şəxsiyyət, böyük insan olan Xudadat bəy bunu özünə sıxışdırmamışdı. Özü də Xudadat bəy sovet hakimiyyətinə heç bir müqavimət göstərməmiş, vəzifəsini dinc, sivil qaydada yeni hökumətə təhvil vermişdi. Bundan əlavə, onun ailəsi – uşaqları da Gəncədə idi, axı, onları atıb hara qaçasıydı ? Xudadat bəy düşünürdü ki, sovet hökumətinə heç bir pisliyi keçməyib, yəqin ona dəyməzlər... Lakin görünür, əbəs fikirləşirmiş... Xudadat bəyi Gəncə əhalisi (onlar Xudadat bəyi məhəbbətlə "Xudu bəy" adlandırırdılar) stansiyaya gedən yolda - sıx ağaclıqda qaçırmaq üçün toplaşmışdı. Lakin o, qan tökülməsinə yol verməmək üçün buna razılıq verməmişdi.

Sovet hakimiyyəti isə onun haqqında başqa cür düşünmüşdü... Xudadat bəyin həbsi haqqında 125 nömrəli order 11-ci ordunun Hərbi İnqilab Şurasının Xüsusi Şöbəsi tərəfindən 1920-ci il mayın 12-də təsdiq edilmişdi. Azərbaycan xalqının azadlığı uğrunda öz əqidəsindən dönməyən bu görkəmli şəxsin məhz həmin il mayı 12-də baş vermiş həbsindən və Bakıya gətirilərək necə güllələnməsi barədə (onun güllələnərək meyitinin Xəzər dənizinə atılması da istisna deyil... Necə Mikayıl Müşfiq kimi (Alovlu istiqlal şairi İsmayılzadə Mikayıl Müşfiq Mirzə Əbdülqadir Vüsaqi oğlu. 1908-ci il yanvarın 5-də Bakıda anadan olmuşdu. 30-cu illərdə repressiyaya məruz

qalmış, 3 iyun 1937-ci ildə həbs edilmiş, 1938-ci il yanvarın 1-də güllələnmiş və ehtimala görə meyiti dənizə atılmışdır...).

Dəqiq bəlli deyil... Bəlli olanı budur ki, 11-ci ordunun 32-ci atıcı diviziyasının Xüsisi Şöbəsi Xudadat bəyi Gəncənin erməni sakinləri B. Şahnazarov, A. Sarkisov, O. Vartanov, A. Gevorkov, A. Akopov və b.-ın, özüdə ancaq erməni millətindən olanların qondarma ifadələri və şahidliklərinə əsasən ittiham edib. Güya X. Rəfibəyli Gəncənin general-qubernatoru olarkən onları sıxışdırmış, tərksilah etmiş və əmlaklarını əllərindən aldıtdırmışdı. Əslində, o zaman həqiqi istintaq aparılmamış", "qondarma şahidlər"in və "id-diaçı"ların sözlərinin və verdikləri ifadələrində yazdıqlarının nə dərəcədə düzgün olduğu yoxlanılmamış, bunlar əsasındada tələm-tələsik saxta sənədlər tərtib edilmişdi. Bir də bu bəllidir ki, Xudadat bəyi Azərbaycan FK-nın müstəntiqi M. Safikyan dindirib. Özüdə necə? Bütün işgəncələrə mərdliklə dözən Xudadat bəy ona qarşı irəli sürülən saxta ittihamları qətiyyətlə rədd edib. Buna baxmayaraq, o, qəddarcasına qətlə yetirilib... Özü də gizlicə... Konkret hansı şəraitdə? Bax, bu, hələ də qaranlıq qalan sualdır. Hərçənd, tədqiqatçı-alim, elmlər doktoru Xaləddin İbrahimli yazır ki, Xudadat bəyi tələm-tələsik mühakimə edərək, məhkəmənin hökmü ilə Bakıda 1920-ci il mayın 20-də xəlvəti güllələmişlər...

X. Rəfibəylinin nə cür əqidəli və amallı bir şəxsiyyət olduğunu onun dostları da, düşmənləri də yaxşı bilirdi. Odur ki, dostları onun ölümünə çox heyifslənirdilər. "Məşhur vətənsevən Əli Əkbər Rəfibəylinin oğlu Xudadat bəy Azərbaycanın işğalı üzərindəki Gəncədə vali ikən həbs olunmuş, Gəncədə zühur edən üsyan əsnasında edam edilmişdir. Fədakar bir millət adamı idi". Məhəmməd Rəsulzadə. Böyük M. Ə. Rəsulzadə özünün "Azərbaycan Cümhuriyyəti" kitabında Xudadat bəy Rəfibəylini "İstiqlal Şəhidi" adlandırmışdır"... "Hayıf, Xudadat bəy kimi məşhur cərrahı xəbərimiz olmadan öldürüblər. Bu işdə Həmid Sultanovun bağışlanmaz səhvi olub" (H. Sultanov Azərbaycan SSR-in ilk xalq daxili işlər komissarı idi). Bu sözləri də Xudadat bəyin öldürülməsindən sonralar xəbər tutan Azərbaycan SSR XKS-in sədri doktor N. Nərimanov demişdi. Görəsən, bu, adi səhvin nəticəsi idi? Xeyr! Xudadat bəyin də, başqa onun kimi milli təəssübkeşlərimizində hamısı əslində, əvvəlcədən



hazırlanmış siyahı və düşünülmüş tədbirlə aradan götürülmüş və bilərəkdən məhv edilmişdilər...

Son tarixi ədəbiyyatlarda Xudadat bəyin də 1920-ci il mayın 12-də Bakının yaxınlığındakı Nargin (əsl adı Böyük Zirədir) adasına aparılaraq, həmin il iyunun 6-da bir qrup (79 nəfər) görkəmli Azərbaycan ictimai-siyasi xadimi və yüksək rütbəli hərbçisi ilə bir sırada güllələnməsi öz əksini tapmışdır...

***Haşiyə:*** Bakının yaxınlığında, Bakı buxtasını dənizdən ayıran "Nargin adası" adlandırılan Böyük Zirə ("zirə" çökəklik deməkdir) Abşeron yarımadasının cənubunda, 15 km.-lik məsafədə yerləşir. 18-ci əsrdə Rusiyanın Xəzər sahillərində üzən "Svyetoy Qavriil" ("Müqəddəs Cəbrayıl" freqatı bu yerə gəlib çıxanda matroslar onu Baltik dənizindəki adaya bənzətmiş və çar I Pyotrun (1682-1725) şərəfinə "Nargin" adlandırmışdılar... Başqa bir ehtimala görə, bu haqda məlumatı bilən çar I Pyotr Kaspi dənizindəki Böyük Zirə adasını Fin körfəzindəki Nayyssar adasına bənzətmiş və ona "Nargin" demişdi...1883-cü ildə Bakıda fəaliyyət göstərən isveçli Nobel qardaşları neft daşıtdırarkən gəmiləri qayaya dəyib qəzaya uğradığından bu qaranlıq adada mayak inşa etdirmişdilər. 1905-ci ildə şahzadə Ordenburqun təlimatı üzrə Nargində yeni əsir düşərgəsi salınmışdı... I Dünya Müharibəsində (1914 -18) Qafqaz (türk) cəbhəsindəki döyüşlərdə (məsələn, Sarıqamış döyüşündə (dekabr 1914 - yanvar 1915) və s.) məğlub olan əsir türk, avstiryalı, çex və alman əsgərlərini bu düşərgəyə sürgün etmişdilər. Türk və alman əsirlərinin Nargin adsında acından-susuzluqdan qırıldıqları barədə faktlar vardır...

...1917-ci ilin noyabrında N. Nərimanov o vaxt "ölüm cəzirəsi", "kabus adası", "Xəzər qəbirstanlığı" adlandırılan Nargınə getmişdi. Nargində bu adanı "ilanlar yuvası" adlandırırdılar... Nargindən səhərə yaxın evinə qayıdan N. Nərimanov orada gördüyü dəhşətli mənzərələrdən, əsirlərin dözülməz hallarından özünə gələ bilmir, dinclik tapmırdı. Elə hey papirosu bir-birinə calayırdı. "Ölüm cəzirəsi"... Göz yaşı tökdürən cəzirə. Burada 1200 insan... hazır ölüm növbəsində durmuşdu... 6 min də bu növbəyə hazırlaşırdı... Nargindən qayıtdığı günün ertəsi N. Nərimanov "Hümmət"

qəzetində "Göz yaşı tökdürən cəzirə" adlı məqalə dərc etdirmişdi. O, məqaləsində yazırdı:

... "Kaş, mən bu cəzirəyə getməyəydim. Kaş, bir dəri, bir sümük bədənləri, sifətsiz gözləri, ah-zar edən insanları görməyəydim. Kaş, "Əfəndim, su!", "Əfəndim, yemək!", "Əfəndim, paltar!" sözlərini eşitməyəydim. Kaş, çılpaq, dodaqları soyuqdan titrəyən, üzləri bozarmış atasız-anasız balaca balalarla söyləşməyəydim. Kaş, xəstəxanada başları kərpic üstə can verən igidlərə rast gəlməyəydim!". Beləliklə, Nargindəki dəhşətli əsir düşərgəsinin mənzərəsi aydın olur. A. Bakıxanovun nəvəsi Zinyət xanım danışırmış ki , onun babası Məmməd bəy Məmmədbəyov çar polkovniki olmuşdu. Azərbaycan Cümhuriyyəti tərəfinə keçdiyinə görə sovet hakimiyyəti qurulduqdan dərhal sonra onu həbs edib Nargin adasına aparmış və güllələmişdilər... Nargində təsadüfən sağ qalmış tək-tük əsirlərdən biri, məşhur neft milyonçusu Şəmsi Əsədullayevin ticarət müdüri olmuş Ağa Amiraqov sonralar söyləyirdiki, əsirləri bir-bir, adbad çağırıb sadəcə güllələyirdilər... Onu da güllələdikdən sonra elə bilmişdilər ki, ölüb və gətirib sahilə atmışdılar. Lakin A. Amiraqov ölməyibmiş, huşunu itiribmiş. Balıqçılar onu tapıb xilas etmişdilər... Doxsanıncı illərin əvvəllərində Nargin adasının adı dəyişdirilib yenidən "Böyük Zirə" adlanırılmışdı. Lakin minlərlə günahsız məzlumun ruhunun üzərində dolaşdığı bu mənhus adada turizm şəhərciyi salıb gəlir götürmək təklifləri ilə bulunanlarda vardı...

Yeri gəlmişkən, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 11-ci ordunun Siyasi İdarəsinin Xüsusi Şöbəsinin rəisi, əvvəli matros olmuş, ermənipərəst Semyon Pankratov güllələnməsi üçün (özüdə Nargində) 99 nəfər görkəmli ictimai-siyasi xadimi və yüksək rütbəli hərbçimizi həbs etmişdi. Onların içərisində Xudadat bəy və başqalarıyla yanaşı Azərbaycan Cümhuriyyətinin hərbi naziri, tam artilleria generalı S. Mehmandarov və onun müavini, general-leytenant Ə. Şıxlınski də vardı. Bundan xəbər tutan Azərbaycan hökumətinin başçısı N. Nərimanov köməkçisi Nurməmməd bəy Şahsuvarova (1883-1958) tapşırmışdı ki, S. Pankratovu tapıb onun yanına gətirsin. S. Pankratovu qəbulunda bilərəkdən saatlarla gözlətdikdən sonra N. Nərimanov 99 nəfərin siyahısı ilə tanış olduqdan sonra bu özbaşınalığa görə bərk qəzəblənmiş və siyahının üstünə yazmışdı: "Güllələnməsin!". O, S. Pankratovu otağından qovmuş, N. Şahsuvarova əmr etmişdi ki, dustaqxanaya gedib, general S. Mehmandarovu və Ə. Şıxlınskini azad edib, hamama aparsın, onlar yuyunub paltarlarını dəyişsinlər və sonra yanına gətirsin...

... Xalqının 20-ci əsrin əvvəllərində əldə etdiyi müstəqilliyini qoruyub saxlamaq yolunda və bu gün üçün canını fəda edən Xudadat bəyin üstündə düz 70 il "xalq düşməni" adı gəzdi...Yalnız 1990-cı il iyulun 2-də Azərbaycan SSR prokurorluğunda Xudadat bəy Ələkbər bəy oğlu Rəfibəyov haqqında vaxtılə qaldılmış 12 may 1920-ci il 298 nömrəli cinayət işi ləğv edildi və o, ancaq 70 ildən sonra uğrunda canını fəda etdiyi doğma Azərbaycanının vətəndaşlığı haqqında bəraət aldı. Bu bəraət onun qohumu, əməkdar hüquqşünas, indi istefada olan ədliyyə general-mayoru Akif Bəşir oğlu Rəfiyevin gərgin zəhmətləri, sabiq SSRİ-nin aidiyyatı orqanlarına ayaqdöymələri ... sayəsində əldə edilmişdir.

Halbu ki, Xudadat bəy, o cümlədən Gəncə üçün ,ümumilikdə milləti üçün çox işlər görmüş atası Ələkbər bəy Rəfibəylinin və digərlərinin xatirələri unudulmamalı, layiqincə əbədiləşdirilməlidir. Həmmüasirimiz, tanınmış ictimai-siyasi xadim, Gəncə Şəhər İcra Hakimiyyətinin uzun zaman başçısı vəzifəsində işləmiş mərhum Tofiq Bağırov (1926-2003) "Gəncə - qiyammı, üsyanmı?" məqaləsində yazmışdır ki, Gəncə üsyanının (24 may - 4 iyun 1920-ci il) hazırlanmasında Rəfibəylilər nəslinin nümayəndələrinin böyük rolu olub, ələlxüsusda Məşədi Əli bəy və Bağır bəyin".

Burada həmişə xalqımızın həqiqi tarixinin və görkəmli şəxsiyyətlərinin unudulmaz haqlarının özlərinə qaytarılmasının yorulmaz təşəbbüsçüsü olmuş ümummilli lider, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin hələ 1998-ci il oktyabrın 7-də Gəncə seçiciləri ilə görüşündəki çıxışında söylədiyi aşağıdakı xarakterik fikrini xatırlamaq yerinə düşər:

"...Yolumuz Sərdar bağına düşdü. Çünki orada Gəncənin dəyərli insanlarından biri Nigar Rəfibəylinin abidəsinin açılış mərasimini keçirdik... Gəncənin tarixi haqqında danışarkən deməliyəm ki, Nigar xanım Rəfibəylilər ailəsinin, sülaləsinin çox parlaq nümayəndəsidir. Gəncənin tarixi haqqında danışarkən Rəfibəylilərin xüsusi yerini mən qeyd edirəm... Onlardan biri Nigar xanımın atası

Xudadat bəy Rəfibəyli Azərbaycanın ilk hökumətində, Xalq Cümhuriyyətində nazir vəzifəsini tutmuş bir insan, sonra repressiya qurbanı olmuşdur. Ancaq tarix hər şeyi yerinə qoyur".

1992-ci il mayın 28-də Respublika Günündə Xudadat bəy Rəfibəylinin vaxtı ilə Gəncədə yaşadığı binanın önünə xatirə lövhəsi - onun baralyefi vurulmuşdur. Gəncədə Xudadat bəy Rəfibəylinin adına küçə vardır.

## RZA bəy QARAŞARLI



Rza bəy Qaraşarlı (Qaraşarov) Azərbaycan milli istaqlal hərəkatının və Xalq Cümhuriyyətinin görkəmli xadimlərindən biridir. O, Azərbaycan xalqının məşhur soylarıdan olan Qaraşarlılar nəslindən çıxmışdır. Bu soy öz başlanğıcını Qaraşar bəy Bilici-Kəngərlidən götürüb. Bu soy Kəngərli elinin Bilici oymağına bağlıdır. Vaxtı ilə Naxçıvandan köçüb Şuşa şəhərində məskunlaşmışdılar. Qaraşar bəyin oğlu Hümbət bəy 18-ci əsrdə Qarabağ xanı İbrahimxəlil xan Sarıcalı-Cavanşirə xidmət etmişdi. Rza bəy Kərbəlayı Baba bəy oğlu (1853) Qaraşarlı (Qaraşarov) 1891-ci ildə Şuşa şəhərində nüfuzlu ailədə anadan olmuşdu. Kərbəlayi Baba bəy ticarətlə məşğul olsa da, Qarabağda zil səsli mahir xanəndə kimi də ad çıxarmışdı. Onun Məmməd bəy (1889-1961) və Rza bəy adlı iki oğlu vardı... Rza bəy şəhər real məktəbini bitirmişdi. Sonra ali pedaqoji təhsil almışdı...

Rza bəy Qaraşarlı 1918-ci ilədək müxtəlif məktəblərdə riyaziyyat müəllimi işləmişdi. Zaqafqaziya Xeyriyyə Cəmiyyətində də çalışmışdı. Sosialist inqilabçılar (eser) partiyasının üzvü olmuşdu. R. Qaraşarlı Zaqafqaziya Seymi Müsəlman fraksiyasının, Azərbay-



can Milli Şurasının da üzvü olub. Milli Şuranın "Azərbaycan Məclisi Məbusanının təsisi haqqında" 1918-ci il 19 noyabr tarixli qanununa əsasən 7 dekabr 1918-ci ildə Azərbaycan Cümhuriyyəti Parlamentinin tərkibinə daxil edilib.

Rza bəy Qaraşarlı Parlamentdə (o, deputat kimi "Metropol" mehmanxanasında otururdu) 13 nəfərdən ibarət Sosialistlər fraksiyasında təmsil olunurdu. Onun adı fraksiya üzvləri sırasında 7-ci səslənirdi. R. Qaraşarlının Sosialistlər fraksiyasında millət vəkili məsləkdaşları Aslan bəy Səfikürdski, Səməd ağa Ağamalıoğlu (1867-1930), Qasım bəy Camalbəyov, Camo bəy Hacınski, Əli Heydər Qarayev, Əhməd bəy Pepinov (1893-1937), İbrahim Əbilov (1881-1923), Əkbər ağa Şeyxülislamov (1891-1961) və başqaları idi. R. Qaraşarlı Parlamentdə bir neçə iclasa katiblik etmişdi.

Rza bəy Qaraşarlı 1919-cu il mayın 6-da Azərbaycan hökumətinin qərarı ilə Daxili İşlər Naziliyinin Qazax qəzasaında Xüsusi Səlayiyyətli müvəkkili vəzifəsinə göndərilmişdi. Bu vəzifə general-qubernator (vali) vəzifəsinə bərabər hüquqlu bir vəzifə idi. Qəza rəisi də ona tabe idi. Rza bəy Qaraşarlı bu vəzifədə 1919-cu ilin oktyabrınadək xidmət göstərmişdi... Sonuncu tarixdən onun yerinə Bakı qubernatorunun böyük köməkçisi vəzifəsində işləyən Əmir xan Xoyski təyin olunmuşdu.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan SSR Xalq Daxili İşlər Komissarlığının (XDİK) 11 may 1920-ci il tarixli xüsusi əmri ilə Azərbaycan Cümhuriyyəti DİN-in strukturları, o cümlədən general-qubernator, qubernator, qradonaçalnik, xüsisi səlahiyyətli müvəkkillər, şəhər və qəzaların polismeysterliyi, polis müfəttişliyi, pristav vəzifələri ləğv edildi və əvəzində milis rəisləri, milis komissarlıqları və s. sovet inzibati orqanlara və vəzifələri tətbiq olundu. İlk dövrdə Azərbaycan SSR XDİK-in də peşəkar kadrlara ehtriyacı olduğu üçün vaxtı ilə Azərbaycan Cümhuriyyəti DİN sistemində çalışmış işçıləri də yeni xidmətə cəlb edirdi. Onların sırasında Azərbaycan SSR XDİK-in Baş Milis İdarəsində məsul vəzifəyə qəbul olunmuş İsrafil İbrahimov, Riza Mövləzadə, Əbil Musayev, həmçinin Rza bəy Qaraşarlı (milisə nəzarət üzrə müfəttiş vəzifəsində) var idi. Onlara Bakı milisində milis komissarları təyin edilən Həsən bəy Firidunbəyovu və Qriqori

Şpakı, qəzalarda Qiyas bəy Şıxlınski, Məmməd bəy Sarıcalınski (1889-1961) və Qiyas bəy Sarıcalınski (1896-) qardaşlarını və başqalarını da əlavə etmək olardı...

20-ci illərin ortalarına doğru Rza bəy Qaraşarlının XDİK sistemindən çıxıb Azərbaycan SSR Xalq Maarif Komissarlığında çalışması barədə məlumatlar da vardır... Lakin bir çox milli təəssübkeşlərimiz kimi Rza bəy Qaraşarlının da repressiya qurbanlarından biri olduğu söylənilir...

## ƏMİRASLAN xan XOYSKİ
## (1888 - 1954)



Əmirasalan xan (tarixi ədəbiyyatda qısaca Əmir xan yazılır) məşhur Xoyskilər nəslinin və Azərbaycan Cümhuriyyətinin görkəmli nümayəndələrindən biri idi. O, Fətəli xan Xoyskinin böyük qardaşı Cahangir xanın oğluydu. Ə. Xoyski 1888-ci ildə Gəncədə doğulmuşdu. Ali təhsilini Peterburq Universitetinin hüquq fakultəsində almışdı... Azərbaycan Cümhuriyyəti dövründə Əmir xan Xoyski Bakı qubernatorunun böyük köməkçisi (1-ci müavini-vitse-qubernator), aylıq məvacibi 2700 manat idi. O, bu vəzifəyə Azərbaycan Cümhuriyyəti daxili işlər nazirinin əvəzi, general-mayor M. S. Ağabəyzadənin 25 sentyabr 1919-cu il tarixli əmri ilə qubernator Əmir bəy Nərimanbəyovla bir gündə təyin edilmişdi. Daha sonra Gəncə qəzasının rəisi işləmişdi. Ə. Xoyski 1919-cu il oktyabrın 13-də Azərbaycan hökumətinin qərarı və Daxili İşlər Nazirliyinin müvafiq əmri ilə Qazax qəzasının qubernatoru olmuş, 1920-ci ilin əvvəllərindən isə Qazax qəzasında DİN-in Xüsusi Səlahiyyətli müvəkkili təyin edilmişdi. Bu vəzifə general-qubernator vəzifəsinə bərabər idi və Ə. Xoyskiyə



müstəsna hüquqlar vermişdi. 11-ci ordunun Bakını 1920-ci ilin 27 aprel işğalı ərəfəsində Ə. Xoyski Quba qəzasının rəisi... vəzifəsində idi. Ə. Xoyski sovet hakimiyyətinə qarşı 1920-ci il mayın 24 - iyunun 4-də Gəncədə baş vermiş üsyanda fəal iştirak etmişdi...

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1920-ci il iyunun 19-da əmisi F. Xoyski Tiflisdə muzdlu erməni qatilləri tərəfindən xaincəsinə qətlə yetirildikdə bərk sarsılmış Ə. Xoyski həbs və təqibdən yaxa qurtarmaq üçün bacısı Sara bəyimlə Türkiyəyə getmişdi. Azərbaycanda qalan Əmir xanın həyat yoldaşı Əfşan xanım bir neçə ay sonra vəfat etmişdi (Əfşan xanım Cənubi Azərbaycandakı Maku xanlığının nəslindən olan Cəfər xanın qızı idi). Əmir xanın 10 yaşlı oğlu Cəfər xan (1912-87) ana babası Cəfər xanın adını daşıyırdı. O və 12 yaşlı bacısı Bəyim atasız və anasız qalaraq qohumlarının himayəsində yaşamışdılar. Bu zavallılarda böyüyəndə bütün Xoyskilər nəsli kimi təqiblərə və sürgünlərə məruz qalıb, öz soyadlarını (Cangirli) dəyişib Cahangirli soyadını daşımağa məcbur olmuşdular...

Sovet quruluşu vaxtında, ömrü boyu Azərbaycana qayıtmaq həsrəti ilə yaşayan, lakin bu arzusuna çata bilməyən, bundan məhrum qalan Əmir xan Xoyski bir çox istiqlal fədailərimiz kimi siyasi mühacirət həyatı yaşayaraq,1954-cü ildə Ankarada 66 yaşında vəfat etmişdir. Hərçənd, Ş. Nəzirli "Cümhuriyyət generalları" kitabında Əmir xanın 1966-cı ildə İstanbulda vəfat etdiyini yazır... Fikrimizcə, 1954-cü il, Ankara daha dəqiqdir. Əmir xan Xoyskinin iki arvadı vardı. Onlardan olan övladları Xoylu soyadını daşıyır və Türkiyədə yaşayırlar...

## CAVAD bəy MƏLİK-YEQANOV
## (1878 – 1942)

Cavad bəy Rza bəy oğlu Məlik-Yeqanov (Məlik-Yeqanlı) Azərbaycan Cümhuriyyətinin görkəmli xadimlərindən biri olmuşdur. O, 1878-ci ildə Qarabağda Şuşa qəzasının Tuğ kəndində əsilzadə ailədə doğulmuşdu. Tuğdakı mülkdə anadan olmasına baxmayaraq, ailələri Şuşada yaşayırdı. İbtidai təhsilini Mir Mehdi Xəzaninin (Mir Mehdi Həşim bəy oğlu Musəvi. Görkəmli tarixçi,

tədqiqatçı və şair idi. 1819-cu ildə Bərgüşad mahalının Məmər kəndində anadan olmuşdu. "Xəzani" onun ədəbi təxəllüsüdür. Axund Mir Mehdi Xəzani 1894-cü ildə Tuğ kəndində 75 yaşında vəfat etmişdir) məktəbində alıb, sonra texniki məktəbi də bitirmişdi. Lakin o, ixtisasca iqtisadçı idi.



1903-cü ildən Bakının neft mədənlərində işləmiş, inqilabi hərəkatda iştirak etmişdi. "Hümmət" təşkilatının üzvü olmuşdu. 1909-cu ildə Bakıdan sürgün edilmişdi. 1914-cü ildə yenidən Bakıya qayıdıb, neft mədənlərində çalışmışdı. İslam dininə itaət edirdi. "Hümmət" partiyasında fəaliyyəti qeyd olunmalıdır. Lakin 1917-ci ildə "Müsavat" partiyasına daxil olmuşdu...

... Cavad bəy Məlik-Yeqanov 1918-ci ildə Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının üzvü idi. O, Azərbaycan Milli Şurasının İstiqlal Bəyannaməsini qəbul edən 24+2 üzvündən biri idi. C. Məlik-Yeqanov Müsəlman Fəhlələrinin Həmkarlar İttifaqının yaradıcısı, Azərbaycan Cümhuriyyətinin Həmkarlar təşkilatının banilərindən idi... Məhz fəhlələrin ümumi yığıncağının qərarı ilə o, 1918-ci il dekabrın 7-də Azərbaycan Cümhuriyyəti Parlamentinə millət vəkili seçilmişdi. O, Parlamentdə "Müsavat" və Bitərəflər fraksiyası"nda təmsil olunurdu. Parlamentin iclaslarında fraksiya siyahısında adı 9-cu səslənirdi... Parlamentin üzvü kimi münaqişəli, çətin bölgələrə ezam olunurdu. Parlamentdə onun yaxından məşğul olduğu məsələlərdən biri fəhlə məsələsi idi. O, fəhlələrin ağır güzəranı ilə əlaqədar hökumət qarşısında kəskin tələblərlə çıxış edirdi.

Cavad bəy Məlik-Yeqanov Azərbaycan Cümhuriyyəti dövründə Lənkəranın 1-ci general-qubernatoru olub. O, bu vəzifəyə 1919-cu il avqustun 12-də Azərbaycan Cümhuriyyəti Nazirlər Şurasının və Daxili İşlər Nazirliyinin birgə qərarı ilə təyin olunmuşdu. C. Məlik-Yeqanov Lənkəranda inzibati idarəçiliyin təşkili, möhkəmləndirilməsi və həyata keçirilməsi, qanunçuluğa nəzarət, ictimai-asayişin qorunması və cinayətkarlıqla intensiv mübarizə



işlərinə rəhbərlik etmişdi... Sonra bu vəzifələrin həyat keçirilməsində onu Bəhram xan Naxçıvanski əvəzləmişdi...

... Bakının XI ordu tərəfindən 1920-ci ilin 27 aprel işğalından sonra C. Məlik-Yeqanov mayın 11-də həbs olunmuşdu. Lakin iyulun 19-da azad edilmişdi... Sonrakı həyatında repressiyalar davam etmiş və o, yenidən dəfələrlə keçmişdə general-qubernator və bəy nəslindən olduğuna görə həbs olunmuş, buraxılmışdı... Azərbaycan SSR Ali İnqilabi Tribunalının hökmünün icrası olaraq FK-nın əməkdaşı, komissar Nersesov 1920-ci il sentyabrın 19-da 733 saylı orderlə Bakıda onu həbs edib, Bayıl həbsxanasına salmışdı...

C. Məlik-Yeqanov sovet hakimiyyəti illərində tikinti trestində, əmək birjasında çalışmış, Azərbaycan SSR Xalq Əmək Komissarlığında Qaçqınlar Şöbəsinin rəisi, 1927-28-ci illərdə Neft Məhsulları Satışı İdarəsinin rəisi vəzifəsində işləmişdi. 1931-ci ildə "Gizli Müsavat" partiyasının üzvü ittihamı ilə həbs olunmuş və 10 il müddətinə uzaq şimala sürgün edilmişdi. Onun sürgündə nə kimi dəhşətli əzablara düçar olduğu 1934-37-ci illərdə Kareliyadan,1935-ci ildə Komi (Ural) şəhərindən arvadı Məryəm xanım Teymur bəy qızı Bayraməlibəyovaya (4 aprel 1898, Lənkəran - 1988, Bakı, 90 yaş) yazdığı məktublardan bilinirdi. Cavad bəy 1935-ci ildə Komi şəhərindən Məryəm xanıma göndərdiyi məktubda yazırdı: "...Sən çox yaxşı bilirsən ki, mən Vətənimi - Azərbaycanımı, xalqımı nə qədər sevirəm, hər şeydən üstün tuturam və hətta canımı onlara qurban verirəm...".

C. Məlik-Yeqanov hələ Lənkəranda işləyərkən Məryəm xanımla ailə qurmuşdu. Onların Azarya, Təlalə və Asiman adlı 3 övladı dünyay gəlmşdi. Cavad bəyin həyat yoldaşı Məryəm xanım ilk maarifçi qadınlarımızdan idi. Onu da 1937-ci il noyabrın 14-də həbs edib şimala - uzaq Arxangelsk şəhərinə sürgün etmişdilər. Zavallı qadın düz 19 ildən sonra Bakıya qayıda bilmişdi. Bu zaman o artıq şikəst idi, dah gözləri görmürdü, dünya işığına həsrət idi. Məryəm xanım 1988-ci il dekabrın 2-də həyatdan köçmüşdü. Əri Cavad bəy Məlik-Yeqanov isə ondan düz 45 il qabaq, 1942-ci il mayın 18-də 64 yaşında sürgündə - Kareliya MSSR-in Keme şəhərində, Medvejskaya Qori şəhərində ürək partalamasından vəfat etmişdi... Cavad bəy Məlik-Yeqanova ölümündən yalnız 17 il sonra, 1959-cu ildə bəraət verilmişdi.

## ƏBDÜL SƏMƏD bəy CƏMİLLİNSKİ
## (1892 – 1937)



Əbdül Səməd bəy (ağa) Cəmil ağa (bəy) oğlu Cəmillinski 1892-ci ildə Qarabağda, Cavanşir qəzasının (mərkəzi Tərtər idi) Cəmilli kəndində əsilzadə ailədə anadan olmuşdu... (Bəzi tarixi ədəbiyyatda və internet məlumatında Cəmillinskinin atasının adının Cəlal bəy olduğu bildirilir. Lakin bu, düzgün deyildir. Əbdül Səməd bəyin (ağanın) atasına babası Cəmil ağanın adı qoyulmuşdu. Odur ki, Əbdül Səməd bəy Cəlal bəy oğlu yox, Cəmil bəy (ağa) oğludur). Əbdül Səməd bəy görkəmli Azərbaycan şairəsi Xurşudbanu Natəvanın qız nəvəsi idi. O, X. Natəvanın ikinci əri, şuşalı Seyid Hüseyndən olan qızı Həcər bəyimin oğlu idi. Belə ki, Cəmil bəy Cəmillinski Həcər bəyimlə (1869) ailə qurmuş və bu ailəlikdən onun 4 övladı, 3 oğlu və 1 qızı dünyaya gəlmişdi. Oğlanların adı Əbdül Səməd bəy, Kənan bəy (onu daha çox "Kəniş bəy", "Geniş bəy" deyə çağırırdılar), Məhəmməd bəy, qızın adı isə Zərəngiz xanım idi.

"Kəniş bəy" Baxış bəy Qalabəyovun qızı Zivər xanımla evlənmişdi. Bu evlilikdən Tubər xanım və Sara xanım adlı qızları dünyaya gəlmişdi. "Kəniş bəy" özündən 2 yaş böyük qardaşı Əbdül Səməd bəy kimi sovet dövründə repressiyanın qurbanı olmuşdu. O, 1937-ci ildə həbs edilərək, 16 noyabr da, 43 yaşında güllələnmişdi... Əbdül Səməd bəyin digər qardaşı Məmməd bəy evlənməmişdi və uşağıda olmayıb... Bacısı Zərəngiz xanım isə Məhəmməd bəy Nəcəfqulu oğlu Qalabəyov ilə ailə qurmuşdu. Bu izdivacdan Yeganə adlı bir qızları dünyaya gəlmişdi.



Beləliklə, Səməd bəy X. Natəvanın birinci əri, knyaz Xasay xan Usmiyevdən olan qızı, naxçıvanlı - Kəngərli polkovnik Əmənulla xana ərə getmiş qızı Xanbikənin oğlu, Azərbaycan Cümhuriyyəti dövründə Araz-Türk Cümhuriyyətinin başçılarından biri, Cənub-Qərbi Azərbaycan (Naxçıvan) general-qubernatoru və Lənkəran qəzasında DİN-in Xüsusi Səlahiyyətli müvəkkili vəzifələrində çalışmış Bəhram xan Naxçıvanskinin xalası oğluydu (ögey).

Səməd bəy ixtisasca hüquqşünas idi, Sankt-Peterburq Universitetini bitirmişdi... Sonra hərbi xidmətə cəlb olunmuşdu... Polkovnik rütbəsi vardı... Azərbaycan Cümhuriyyəti yarandıqda, onun xidmətinə keçmişdi. 1919-cu ilin avqustunda Azərbaycan Cümhuriyyəti hökumətinin qərarı ilə o Bakıdan Naxçıvana - Cənub-Qərbi Azərbaycanın (Naxçıvan) general-qubernatoru vəzifəsinə göndərilmişdi. Ə. S. Cəmillinski, bu vəzifədə Azərbaycan Cümhuriyyəti daxili işlər nazirinin müavini vəsifəsinə irəli çəkilmiş general-mayor Əliyar bəy Haşımbəyovu əvəz etmişdi. Əbdül Səməd bəy Cəmillinski o zaman Naxçıvan bölgəsində mürəkkəb və çətin problemlərin hökm sürdüyü bir şəraitdə xidmət göstərmişdi... Ə. S. Cəmillinski Naxçıvan Milli Şurasının üzvü idi... General-qubernator Ə. S. Cəmillinski Behbud ağa Şahtaxtlının (1881, Naxçıvan, 30. 05. 1924, Tiflis) başçılığı ilə Qaçqınlar Komitəsi təsis etmişdi... Ə. S. Cəmillinski Cənub-Qərbi Azərbaycan (Naxçıvan) general-qubernatoru vəzifəsində 1920-ci ilin martınadək fəaliyyət göstərilmiş və sonuncu tarixdən geriyə, Bakıya, DİN-in sərəncamına çağırılmışdı...

Əbdül Səməd bəyin 2 övladı vardı: oğlunun adı Cəmil bəy, qızının adı isə Həcər xanım idi. Hər ikisinə valideynlərinin adını vermişdi...

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra polkovnik Əbdül Səməd bəy Cəmillinski xaricə mühacirət etməyib, Vətənində qalmışdı. Hərcənd, onu nə gözlədiyini yaxşı bilirdi... Bir müddət "sakit" keçsə də, onun keçmişini unutmamışdılar. Ə. S. Cəmillinski məhz keçmişdə Azərbaycan Cümhuriyyətinə xidmət göstərdiyi üçün 30-cu illərdə repressiyaya məruz qalmış və 1937-ci ildə həbs olunmuşdu. Əbdül Səməd bəy Cəmillinski 1937-ci il noyabrın 7-dən 8-nə keçən gecə 45 yaşında güllələnmişdi... O, həmin gecə cəmi güllələn 127 nəfərin içərisində 1-ci idi...

## *QUBERNATORLAR*

### MÜSEYİB bəy AXICANOV (AXICANLI)
### (1892 - 1920)



Müseyib bəy Axıcanov (bəzi ədəbiyyatlarda Axicanov, Əxicanov yazılır. Axıcanov düzdür) Azərbaycan milli istiqlal hərəkatının, Azərbaycan Cümhuriyyətinin görkəmli ictimai-siyasi xadimlərindən biridir.

Müseyib bəy Qəhrəman bəy oğlu Axıcanov 1892-ci il oktyabr ayının 12-də Bakı quberniyasının Cavad qəzasının (1868-ci ildə yaranıb) Tomarxanlı kəndində (o vaxt Salyan ərazisində idi) əsilli-nəsilli, nəcabətli ailədə - bəy (mülkədar) ailəsində anadan olmuşdu. Atası Qəhrəman bəy Hümbətalı bəy oğlu (1851-1934/35) görkəmli dövlət xadimi, Azərbaycan Hökumətinin başçısı Nəriman Nərimanovla (1870-1925) yaxınlığı vardı. Uzun müddət mahal yüzbaşısı vəzifəsində çalışmış nüfuzlu və maarifpərvər, dövrünün savadlı şəxsiyyətlərindən biri olan Qəhrəman bəy uşaqlarının ali təhsil alması üçün hər şey etmişdi (**Haşiyə** : Qəhrəman bəy Şuşadan olan bəy qızı Cəvahir xanımla ailə qurmuşdu ; Cəvahir xanım görkəmli bəstəkar Süleyman Ələsgərovun (1924-2000) anası Saray xanımın xalası idi ; Müseyib bəyin nişanlısı Gülsüm xanım da şuşalı idi, ömrünün sonunadək onu gözləmiş və ərə getməmişdi). Qəhrəman bəyin qayğısı ilə böyük oğlu İbarhim bəy Fransada (Paris) Hərbi Akademiyanı bitirmiş, Azərbaycan Cümhuriyyəti Ordusunda yüksək rütbədə xidmət göstərmiş (İbrahim bəyi yaxından tanımış qocaman hərbçi-adyutant işləmiş Mərdan kişinin dediklərinə görə),



lakin sovet hakimiyyəti qurulduqdan elə dərhal sonra həbs olunacağından ehtiyat edərək, bir çox milli təəssübkeşlərimiz kimi Fransaya mühacirət etməyə məcbur olmuş, mühacirət həyatı yaşamış və oradada vəfat etmişdir (**Qeyd**: Azərbaycan Cümhuriyyəti Ordusunun ilk ali təhsilli milli peşəkar hərbçi kadrlarından biri olan İbrahim bəy Axıcanovun sonrakı taleyi barədə təəssüfki, nə arxivlərdə və nədəki qohumlarında səhih məlumat yoxdur-**İ.Ş.**).

Qəhrəman bəy ortancıl oğlu Müseyib bəyi 1902 – ci ildə savad almaq üçün əvvəlcə kənd mirzəsinin yanına qoymuşdu. İlkin orta təhsilini Şuşada almışdı. Müseyib bəy sonra Bakı Şəhər Gimnaziyasına daxil olmuş və oranı əla qiymətlərlə bitirmişdi. 1912-ci ildə o zaman Rusiyada ən məşhur ali təhsil ocaqlarından biri sayılan Ukraynadakı Kiyev Müqəddəs Vladimir İmperator Universitetinin hüquq fakultəsinə qəbul edilmişdi. Həmin dövr Azərbaycanın ictimai-siyasi həyatında oyanış mərhələsinə qədəm qoyduğu dövr kimi səciyyələnir. Kiyev Universitetində Müseyib bəy ondan 1 kurs yuxarıda oxuyan gələcəyin görkəmli ictimai-siyası və dövlət xadimi olmuş Şəfi bəy Rüstəmbəyli (1893-1960) ilə yaxınlaşmışdı. Müseyib bəy Şəfi bəylə bərabər, Universitetdə təhsil alan azərbayvanlı tələbələrin "Həmyerlilər Təşkilatı"na rəhbərlik etmişdi. 1917-ci ildə Kiyev Universitetini fərqlənmə diplomu ilə bitirən Müseyib bəy Axıcanov vətənə qayıdıb əvvəlcə Bakı Şəhər Məhkəməsində titulyar müşavir (o zaman çar Rusiyasında 9-cu dərəcə mülki rütbə idi) barışdırıcı hakim, xırda mülki işlərə və cinayət işlərinə baxan hüquqşünas kimi işləməyə başlamışdı. 1917-ci ildə Rusiyada baş verən Fevral inqilabı Azərbaycana da güclü təsir göstərmişdi. Belə şəraitdə Müseyib bəy Gəncədə Nəsib bəy Yusifbəyli (1881-1920) tərəfindən 1917-ci ilin martın 3-də yaradılmış "Türk Ədəmi Mərkəziyyət" (Federalist) - "Müsavat Partiyasına tərəddüd etmədən daxil olmuş, həmin ilin aprelin 15-20-də Bakıda keçirilən Qafqaz müsəlmanlarının II qurultayında fəal iştirak etmişdi. Beləliklə, o zaman Rusiyada və ümumiyyətlə, Avropada məşhur olan Kiyev Müqəddəs Vladimir İmperator Universitetini əla qiymətlərlə (fərqlənmə diplomu ilə) başa vuran Müseyib bəy Axıcanov Azərbaycandan kənarda oxuyub geri qayıdaraq xalqının tərəqqisi üçün var qüvvəsini sərf edən və ləyaqətlə çalışan az qisim istedadlı gənc milli

hüquqşünas kadrlardan biri idi. Həmin vaxtdan ömrünün sonunadək xalqına sədaqətlə xidmət edən Müseyib bəy Axıcanov Azərbaycan milli azdlıq hərəkatının əsl istiqlal fədaisi olmuşdur. O, xalqının istiqlaliyyəti uğrunda daxili və xarici düşmənlərlə mübarizə aparan milli təəssübkeş oğullarımızın öncüllərindən biriydi.

"Müsavat" partiyasının fəal üzvlərindən də biri olan Müseyib bəy Axıcanov 1918-ci il Mayın 28-də yaradılan Azərbaycan Cümhuriyyətinin əsasının qoyulmasında mühüm rolu olmuş tarixi şəxsiyyətlərdəndir. ... Belə ki, Müseyib bəy Axıcanov Zaqafqaziya Seymində Müsəlman fraksiyasının üzvü idi. Seymin süqutundan (26 may 1918) sonra yaranmış Azərbaycan Milli Şurasının da üzvü (27 may 1918), Tiflisdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına (28 May 1918) səs verən Milli Şura üzvlərindən (24+2) biri olmuşdu...



*Y.V.Çəmənzəminli ilə*

... 1918-ci il sentyabrın 15-də Bakı Nuru paşanın (1881-1949) komandanlığı altında Qafqaz İslam Ordusu və Azərbaycan Cümhuriyyətinin hərbi qüvvələri tərəfindən üzdəniraq "Sentrokaspi" hakimiyyətindən (1 avqust – 14 sentyabr 1918) azad edildikdən sonra bir hüquqşünas kimi Müseyib bəy Axıcanov Bakı Qubernator İdarəsində (1872-ci ildə yaradılmışdı) fəaliyyət göstərmişdi. Belə ki, o, 1918-ci il oktyabrın 20-dən Bakı qubernatorunun (M.Fəthi) böyük köməkçisi (qubernatorun 1-ci müavini - vitse qubernator (Qərb modeli) (2.700 manat maaşla) təyin edilmişdi. Müseyib bəy bu vəzifədə 1918-ci il dekabrın 30-dək xidmət etmişdi. (Bax: AR Milli Arxiv İdarəsi. OİMDA (indiki Tarix Arxivi), fond 1046, siyahı 5, iş 154, vərəq 15). Həmin vaxt Bakının müvəqqəti qubernatoru türk zabiti, yarbay (podpolkovnik) Mehmet Fəthi, onun digər köməkçisi isə Əli bəy Zizikski (1878 - 1928) idi...

... Müseyib bəy Azərbaycan Milli Şurasının "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanununa" (19 noyabr 1918)



əsasən 1918-ci il dekabrın 7-də Azərbaycan Parlamentinə üzv (26 yaşında) seçilmiş və beləliklə, onun siyasi karyerası başlanmışdı. Müseyib bəy Axıcanov Parlamentdə "Musavat" və bitərəflər fraksiyasının (38 nəfərdən ibarət idi) tərkibində təmsil olunurdu. Parlamentin iclaslarında fraksiya üzvlərinin adı çəkiləndə Müseyib bəyin adı sayca 21-ci səslənirdi (Bax: AR Milli Arxiv İdarəsi, OİMDA (indiki Tarix Arxivi), fond 895, siyahı 1, iş 192, vərəq 1; AXC Ensiklopediyası, c. 1, Bakı, 2004, s. 107; Milli Məclis. Analitik İnformasiya jurnalı. Parlament - 90. Xüsusi buraxılış. Bakı, 2008, səh. 80; Nəsib Nəsibzadə. Azərbaycan Demokratik Respublikası. B., 1990, səh. 85).

... I Dünya Müharibəsində Antanta tərəfindən məğlub edilən Türkiyə və onun müttəfiqi Almaniyanın imzaladığı Mudros sazişinin (30 oktyabr 1918) şərtlərinə əsasən türklər 1918-ci il noyabrın 10-dan Bakını tərk eməyə başlamışdılar. Bununla əlaqədar M. Fəthi Azərbaycandan getdikdən sonra Bakının qubernatoru vəzifəsi qısa müddət boş qalmışdı. Belə vəziyyətdə Azərbaycan Hökumətinin qərarı və daxili işlər naziri Behbud xan Cavanşirin (1877-1921) 30 dekabr 1918 il tarixli əmri ilə Bakının qubernatoru vəzifəsinin icrası (3.600 manat məvaciblə) Müseyb bəy Axıcanova həvalə olunmuşdu. (Bax : AR Milli Arxiv İdarəsi, OİMDA (indiki Tarix Arxivi), fond 1046, siyahı 5, iş 169, vərəq 1; Respublika press" qəzeti, 17 avqust 2006-cı il). Arxiv sənədlərində şəhər sakinləri tərəfindən Bakı qubernatoru kimi Müseyib bəyin adına baxılmaq üçün daxil olmuş materiallar (ərizələr, şikayətlər və s.) və M. Axıcanovun həmin sənədlərə onların müsbət həll olunması üçün qoyduğu dərkənarlar saxlanılır (Bax: AR Milli Arxiv İdarəsi, OİMDA (indiki Tarix Arxivi), Bakı Qubernator İdarəsi, fond 1046, siyahı 5, iş 168, vərəq 82; siyahı 2, iş 14-a, vərəq 10). Bu zaman Müseyib bəy Bakı qubernatoru vəzifəsini (bu vəzifə hələ 1872-ci ildə təsis olunmuşdu) aparmaqla bərabər, eyni zamanda Azərbaycan Parlamentində də fəliyyətini davam etdirirdi. Bakı qubernatoru Müseyib bəy Axıcanov birbaşa Azərbaycan Cümhuriyyətinin Daxili İşlər Nazirliyinə və Bakı Möhkəmləndirilmiş Rayonun Hərbi General-Qubernatorluğunada (15 fevral 1905-ci ildə təsis edilmişdi; Birja (indiki Ü. Hacıbəyov-8) yerləşirdi) tabe idi və onların əmr və sərəncamlarını yerinə

yetirirdi. Müseyib bəy Axıcanov Bakının qubernatoru vəzifəsində 1919 - cu il fevralın 5-dək xidmət etmişdi. (Sonuncu tarixdən Bakının qubernatoru vəzifəsinə Azərbaycan Hökumətinin qərarı ilə həmin vaxtadək Azərbaycan Cümhuriyyətinin Nazirlər Şurasında İşlər İdrəsinin müdiri işləyən Rəşid bəy Axundzadə (1880-1940) təyin edimişdi. (**Haşiyə:** Bakının ilk general-qubernatoru vəzifəsinə Azərbaycan Cümhuriyyətinin Baş naziri və eyni zamanda daxili işlər naziri vəzifəsini tutan Nəsib bəy Yusifbəylinin 1919-cu il 4 dekabr tarixli əmri ilə milliyyətcə çərkəz olan general-mayor Murad Girey (Gəray) bəy Tlexas (1874 - 1920) təyin edilmişdi.



*Parlament üzvləri ilə. Ayaq üstdə sağdan birinci: M.Axıcanov*

...Daşnaklar və bolşeviklər müstəqil Azərbaycan Cümhuriyyətini parçalamaq, xüsusilə Bakını əldə saxlamaq üçün müxtəlif məkrli vasitələrə əl atır, qırğınlar törədirdilər. Hətta azərbaycanlılar vəfat etmiş yaxınlarını dəfn edərkən də daşnakların və başqa quldur dəstələrin hücumlarına məruz qalırdılar. Bakı qubernatorunun arxiv sənədləri içərisində bir maraqlı hadisə barədə bəhs olunan material diqqəti cəlb edir : "1919-cu il martın 18-də Bakıda eyni gündə iki



böyük səxsiyyət : məşhur aktyor Hüseyn Ərəblinski (Xələfov) (1881 - 1918), digəri isə məşhur milyonçu Musa Nağıyev (1842-1918) vəfat etmişdi. Camaat onları dəfn etmək üçün qəbristanlığa getməyə cürət etmirdi. Çünki vəziyyət olduqca gərgin və təlatümlü idi. Daşnaklar hər an izdihama hücum edə bilərdilər. Bunu nəzərə alan Bakı qubernatoru Rəşid bəy Axunzadə kömək üçün sabiq qubernator kimi Müseyib bəy Axıcanova müraciət etmişdi. Müseyib bəy baş verəcək təxribatların qarşısını almaq üçün tədbirlər planı işləyib hazırlamış və bu işə cəmi 1 ay ( 18 fevral 1919-cu il) olardı ki, yaradılmış "Parlamenti mühafizə dəstəsi (polisi)" əməkdaşlarını da cəlb etmişdi (**Haşiyə**: "Respublika press" qəzetinin 17 avqust 2006 il tarixli sayında Müseyib bəy Axıcanovun Azərbaycan "Parlamenti mühafizə dəstəsi"nin (Sənədlərdə "Parlamentin qoruyucusu bölüyü" adlanır) (polis) komanda heyətinin üzvləri ilə (9 nəfərlə, 1 nəfər qadındır) birgə çəkdirdiyi fotoşəkillə tanış olmaq mümkündür. Fotoşəkildə Müseyib bəy "Parlamenti mühafizə dəstəsi"nin komandiri, podpolkovnik Nağı bəy Əlizadə (Əliyev) (1897-1920)(1920-ci ildə bolşeviklər tərəfindən Xəzər dənizindəki Nargin adasında güllələnmişdir), onun köməkçisi (müavini) rotmistr, sonralar Zaqatalanın qubernatoru, Cənub-Qərbi Azərbaycan (Araz-Naxçıvan) Respublikasının general-qubernatoru və Azərbaycan Cümhuriyyəti Daxili işlər nazirinin müavini vəzifələrində çalışmış və general-mayor rütbəsinə layiq görülmüş Əliyar bəy Haşımbəyov (1856-1920)(1920-ci ildə Nargində bolşeviklər tərəfində güllələnmişdir) və başqaları əks olunmuşdur (Fotoşəkildə Müseyib bəy sağdan 1-ci oturmuşdur). Beləliklə, dəfn mərasimlərinin qalmaqalsız keçməsi üçün Müseyib bəy Axıcanov məsuliyyəti öz üzərinə kötürərək, mərasimdə iştirak edənlərin təhlükəsizliyini təmin etmək məqsədilə bütün vasitələri işə salmışdı. Onun göstərişi ilə yaradılmış xüsusi mühafizə dəstəsi mərasim iştirakçılarını müşaiyət etmiş və cənazələrin sağ-salamat qəbirstanlığa çatdırılıb vəfat edənlərin rahat torpağa tapşırılmasını təmin etmişdi.



*M.Axıcanovun vaxtilə yaşadığı bina*

...M.Axıcanov "Müsavat" partiyasının II qurultayının (2-10 dekabr 1919-cu il) da fəal iştirakçılarından biri olmuşdu...

...1920-ci il aprelin 22-də Azərbaycan Parlamentinin 141-ci iclası keçirilmişdi. İclasda Müseyib bəydə iştirak etmişdi. İclasın keçirildiyi anlarda Azərbaycan Cümhuriyyətində hökumət böhranı hökm sürürdü. İclasın gündəliyində duran həmin məsələ üzrə Parlament yeni hökumət kabinetini təşkil etməyi görkəmli ictimai-siyasi xadim (həmdə daxili işlər naziri olmuşdu), parlamentin üzvü və liderlərindən biri Məhəmməd Həsən Hacınskiyə (1876-1931) tapşırmışdı. Lakin o, bundan imtina etmişdi... Müseyib bəyin buna görə M.Hacınskiyə acığı tutmuşdu... (Bax: "Respublika press" qəzeti, 17 avqust 2006-cı il, nömrə 7-8). İclasın çağırılması və gündəliyini təsdiq edən sənəddə (fars dilində) Müseyib bəyin şəxsi imzası da vardır ( Bax : Azərbaycan Milli Arxivi, OİMDA (indiki Tarix Arxivi), fond 895, siyahı 1, iş 208, vərəq 173).

Azərbaycan Parlamentinin sonuncu – 1920 -ci il 27 aprel tarixli iclasında Müseyib bəy də iştirak etmiş və nitq söyləmişdi. Azərbaycan Cümhuriyyətinin süqutu ilə nəicələnmiş həmin gecədəki iclasdan sonra Bakıda sovet hakimiyyətinin qurulması (28 aprel 1920-ci il) elan edildikdə, həbs və təqiblərə məruz qalacaqlarını



yəqin hesab edən Xalq Cümhuriyyətinin bir çox üzvləri vətəni tərk etmək məcburiyyətində qalmışdılar. Lakin Müseyib bəy Axıcanov onların arasında yox idi. O, doğma vətəndə qalmağı üstün tutmuşdu. Sovet hakimiyyəti qurulduqdan sonra Müseyib bəy Axıcanov Azərbaycan Cümhuriyyətinin görkəmli xadimi və keçmiş müsavatçı kimi dərhal həbs olunmuşdu. Azərbaycan xalqının qəddar düşməni, XI "qırmızı" ordunun Siyasi şöbəsinin rəisi, ermənipərəst cəllad Semyon Pankratov və Azərbaycan SSR Fövqəladə Komissiyasının (FK) sədri Baba Əliyevin və vaxtiiə parlamentdəki iclaslarda Müseyib bəyin haqlı tənqidlərinə məruz qalan bolşevik (Sosialistlər fraksiyasının) liderlərindən Əliheydər Qarayevin göstərişiləri ilə M.Axıcanov özünün yaşadığı o zamankı Vrangelski küçəsindəki 18/20 saylı evində (indiki Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yerləşdiyi inzibati bina - hazırdakı Əhməd Cavad küçəsi-12) gecə saat 3-ün yarısında həbs olunmuş, evi (mülkü), bütün əmlakı və qiymətli şəxsi sənədləri də daxil olmaqla müsadirə edilmişdi. Qısa müddətdə Azərbaycan FK-nın zirzəmisində saxlanılan Müseyib bəy Axıcanov Böyük Zirə (Nargin) adasına aparılaraq 1920 il aprelin 30-da məhkəməsiz və istintaqsız güllələnmişdir (**Haşiyə:** "Nargin" əslində, "Böyük Zirə" ("Böyük Çökəklik") adasıdır. Nargin adasından başqa Xəzər dənizində bolşeviklərin minlərlə milli təəssübkeşlərimizi güllələdiyi, "ölüm adası" adını daşıyan daha bir müdhiş məkan - "Xarə Zirə" (Bulla) adasıda mövcuddur (Bu haqda bax : "Azərbaycan" qəzeti 20 fevral 1920-ci il) **.**

... Müseyib bəyin güllələnməsi ilə hələ iş bitməmişdi... Belə ki, onun qohum-əqrabaları keçmiş bəy-xan və mülkədar nəslinin nümayəndələri kimi bir müddət keçdikdən sonra sovet hakimiyyəti tərəfindən təqiblərə və repressiyaya məruz qalmışdılar ... Əslən Xocavəndin Muğanlı kəndindən çıxmış tərəkəmə elatının elit nəsli olan Axıcanlılar 1954-cü ilədək əvvəlcə o zaman Cavad qəzasının mərkəzi sayılan Salyanın Tomarxanlı kəndində yaşayırdılar. Sovet hakimiyyəti qurulduqdan sonra mühüm vəzifələrdə çalışmış Axıcanlıların ağsaqqallarından biri olan Zahid Məhərrəmov (1897-1975) öz el-obasına, qohum-əqrəbalarına dayaq durmuş, onları himayə etmiş və hər mənada onlara köməklik göstərmişdi. Tomarxan-

lıda orta məktəbi öz əlləri ilə tikmiş və həmin məktəbin ilk direktoru olmuş el ağsaqqallarından Soltan müəllimin də xatirəsi (1906-86) bütün Axıcanlılar üçün çox əzizdir. 1954 -cü ildə Kür çayı daşıb kəndi basdıqdan sonra Axıcanovlar yaşamaq üçün daha əlverişli olan İmişli rayonuna köçmüşdülər. (**Haşiyə** : Rayon qədim türk mənşəəli tayfalardan biri olan "İmişli" tayfasının adını daşıyır. İmişli rayonu 1930-cu il avqustun 8-də rayonlaşma zamanı Qaradonlu (indidə həmin adlı kənd var) adlandırılmış və 1938-ci ilədək bu adı daşımışdır. 1938-ci ildə rayon mərkəzi Qaradonludan İmişlinin hazırki yaşayış yerinə köçdükdə, qəsəbə ətraf yerlərdən köçüb gələn ailələr hesabına böyümüşdü. Həmin ailələrdən biridə hazırkı İmişli şəhərinin lap yaxınlığına köçüb məskunlaşmış Axıcanovlar nəsili, el-obasıydı). Həmin vaxt Cəfərli Sovetliyi yaranmışdı. Axıcanlıların yaşadıqları Sovetlik Birinci Cəfərli Sovetliyi idi. İkinci Cəfərli Sovetliyidə vardı. Hər iki Sovetlik "Yüksəliş" kolxozunda birləşirdi... 1990-cı ildə inkişaf və zərurət nəticəsində indiki rayon mərkəzindən 3 km məsafədə ayrıca Axıcanlı kəndi və "Yüksəliş" kolxozunun iki yerə bölünməsiylə M.Müşfiq adına kolxoz yarandı. Kəndə axıcanlılar nəslinin ulu ağğsaqqalı və banisi Axıcan bəyin adı verildi. Axıcanlı kəndinin və M.Müşfiq adına kolxozun yaranmasında və sonrakı inkişafında uzun illər kolxoz sədri vəzifəsində çalışmış Axıcanovlar el-obasının ağsaqqalı Məhəmmədəli Zahid oğlu Məhərrəmovun (1937-2016) müstəsna xidmətləri olmuşdur (Məhəmmədəli müəllim 2016-cı il avqustun 25-də dünyasını dəyişmişdir. Xatirəsi unudulmazdır. Əməlləri yaşayır. Yeri behiştlik olsun!). 1986-cı ildə dünyasını dəyişmiş Axıcanovların ağsaqqallarından və nüfuzlu şəxslərindən biri, Axıcanlı kənd orta məktəbinin yaradıcısı və ömrünün sonunadək onun direktoru olmuş Soltan müəllimin onlarca məşhur ziyalı yetirmələri (millət vəkilləri, alimlər və s.) bütün tədbirlərdə həmişə onu minnətdarlıqla yad edirlər. ...Müseyib bəyin 3 qardaşından sayca kiçiyi olan Soltan bəy Zahidov vaxtılə əvvəlcə Bakı şəhər realnı məktəbini bitirmişdi. Təqiblərə məruz qaldığı üçün məcbur soyadını dəyişib Qasımov familiyasını qəbul etmişdi.





*Soltan Qəhrəman oğlu Qasımov (Axıcanov)*



*Arif Soltan oğlu Qasımov*



*Zahid Usub oğlu Məhərrəmov*



*Məhəmmədəli Zahid oğlu Məhərrəmov*

Qori Seminariyasını (Gürcüstan) bitirmişdi. Riyaziyyatçı idi və pedaqoji fəaliyyətlə məşğul olmuşdu. Müseyib bəyin digər qohumları da Soltan müəllim kimi Qasımov soyadını qəbul etmək məcburiyyətində qalmışdılar. Müseyib bəyin 5 bacısı vardı. Kiçik bacısı Zibeydə xanım vaxtılə Bakıda məşhur milyonçu-xeyriyyəçi Hacı

Zeynalabdin Tağıyevin (1823 - 1924) qız gimnaziyasında oxumuşdu (1952 – ci ildə dünyasını dəyişmişdir. Allah rəhmət eləsin!).



*Soldan birinci Soltan Qasımov (Axıcanov)*

... Xalqımızın böyük oğlu Məhəmməd Əmin Rəsulzadə (1884-1955) özünün "Azərbaycan Cümhuriyyəti" kitabında Müseyib bəy Axıcanovu "İstiqlal Şəhidi" adlandırmışdır... (Bax: M. Ə. Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, səh. 98). Təəssüfki, M.Axıcanovun xatirəsi əbədiləşdirilməyib. Fikrimcə, xalqımızın əsl istiqlal fədailərindən biri, bu yolda canını fəda etmiş Müseyib bəy Axıcanovun xatirəsi əbədiləşdirilməli, vaxtılə Bakıda yaşadığı evinin (hazırki Əhməd Cavad küçəsi 12-də yerləşir) qarşısına xatirə lövhəsi (baralyefi) vurulmalı, həmin evin olduğu küçəyə onun adı verilməlidir (Hazırda Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yerləşdiyi bina Müseyib bəy Axıcanovun şəxsi mülkü idi – İ.Ş.) .

**QEYD:** Müseyib bəy Axıcanov (Axıcanlı) haqqında həqiqi məlumatları, orjinal sənədləri, nadir şəkillərini toplayaraq mənə



təqdim etmiş nəvələri Saleh Məhəmmədəli oğlu Zahidova, Qalib Məhəmmədəli oğlu Zahidova, kiçik qardaşı Xəzər müəllimə və həmçinin xalqımızın iftixarı olan babası Müsül bəyin əmioğlusu Müseyib bəy haqqında yazmaq istədiyimi bildikdə, bu işə ürəkdən tərəfdar çıxan, bir hüquqşünas kimi onun yolunu davam etdirən, hazırda Şamaxı RPŞ-nin rəisi vəzifəsində çalışan polis polkovniki Şahin Mirzəyevə dərin minnətdarlığımı bildirirəm. Bir daha qeyd edim ki, Şahin müəllimin mərhum atası Mahmud Mirzəyevin (1943-2012) atası Müsül bəy Müseyib bəy Axıcanovun doğma əmisioğludur. Onuda bildirmək istəyirəm ki, xalq artisti, Ü. Hacıbəyov mükafatı laueriatı, Azərbaycan Bəstəkarlar İttifaqının Qarabağ Filialının rəhbəri (1972-2000) xalqımızın böyük bəstəkarı unudulmaz Süleyman Ələsgərov da (24 fevral 1924, Şuşa – 21 yanvar 2000, Bakı) Müseyib Axıcanovun xalası oğludur.

## RƏŞİD bəy AXUNDZADƏ
## (1880 – 1940)



Rəşid bəy Axundzadə Azərbaycan milli-istiqlal hərəkatının fəal iştirakçılarından biridir. O, 1880-ci il martın 28-də Salyanda nüfuzlu ruhani, sonralar (1894-cü ildən) Qafqaz Müsəlmanları İdarəsinin rəisi – şeyxülislam olmuş Əbdüssalam Axundzadənin (1843 -1907) ailəsində doğulmuşdu (Rəşid bəyin doğulduğu tarixi 1879-cu və 1894-cü ilərə də aid edirlər... Lakin fikrimcə, o dövrün mötəbər sənədində təsdiq olunan 1880-ci il tarixi daha dəqiqdir...). Atasının Rəşid bəy üzərində böyük zəhməti olmuşdu... Rəşid bəy arzuladığı hüquqşünas ixtisasına onun qayğısı sayəsində yiyələnmişdi... Rəşid bəy Axundzadə 1912-ci ildə Kiyev Universitetinin hüququ fakultəsini bitirmişdi.

İxtisasca hüquqşünas olan Rəşid bəy əvvəl Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının, sonra Azərbaycan Milli Şurasının üzvü idi. Milli Şuranın "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında" qanununa əsasən (19 noyabr 1918-ci il) Salyan qəzasından Azərbaycan Cümhuriyyəti Parlamentinin tərkibinə daxil edilmişdi. O, Azərbaycan hökimətində İşlər İdarəsinin müdiri vəzifəsində də çalışırdı...

1919-cu il fevralın 5-də daxili işlər naziri X. Xasməmmədovun təqdimatı və Azərbaycan hökumətinin qərarı ilə bu vaxtadək Azərbaycan Nazirlər Şurasında İşlər İdarəsinin müdiri vəzifəsində çalışan Rəşid bəy Əbdüssalam oğlu Axundzadə 1919-cu il yanvarın 1-dən sayılmaqla Bakı şəhərinin qubernatoru vəzifəsinə (DİN qulluqçularının 16 dərəcəli tarif cədvəlinə əsasən 1-ci dərəcə üzrə aylıq əmək haqqı 3.600 manat olmaqla) təyin edilmişdi. Bu vaxtadək həmin vəzifəni Azərbaycan Parlamentinin üzvü Müseyib bəy Axıca-



nov (30 dekabr 1918 - 5 fevral 1919) icra etmişdi. R. Axundzadə Bakı şəhərinin qubernatoru vəzifəsində 1919-cu il avqustun 25-dək işləmişdi. Sonra onun yerinə- Bakı qubernatoru vəzifəsinə, ixtisasca hüquqşünas olan Əmir bəy Nərimanbəyov təyin edilmişdi.

R. Axundzadənin Bakı qubernatoru təyin edilməsi haqqında qərarla (5 fevral 1919-cu il) yanaşı, daxili işlər naziri X. Xasməmmədov da 9 fevral 1919-cu il tarixdə bütün DİN sistemi əməkdaşlarının bu haqda məlumatlı olması üçün ayrıca əmr vermişdi. Əmr elan olunaraq, yerlərə göndərilmişdi. R. Axunzadə yeni qubernator təyin edildikdən bir neçə gün sonra, 1919-cu il fevralın 10-da Bakı və Balaxanı - Sabunçu polismeysterlikləri əməkdaşlarının müşavirəsini keçirmişdi. Müşavirədə polis işçilərinin yeni vəzifələri, yeni tələblər, həmçinin onların paltarla təmin edilməsi, nizam-intizanın möhkəmləndirilməsi və s. barədə məsələlər müzakirə olunmuşdu. Rəşid bəy müşavirədə polis işçiləri qarşısında Azərbaycan hökumətinin cinayətkarlıqla mübarizəyə qarşı yeni qəbul edilmiş qərarının icrasını mühüm bir vəzifə kimi qarşıya qoymuşdu.

Rəşid bəy gənc və bacarıqlı azərbaycanlı kadrların dövlət qulluğuna qəbul olunmasına çöx diqqət və qayğı ilə yanaşır, buna böyük əhəmiyyət verirdi. Məs., əslən Qarabağdan olan, Zaqafqaziya Universitetinin təbiət fakultəsinin gənc bir tələbəsi Əliyev Ələkbər Məşədi Qəhrəman oğlu 1919-cu il iyunun 9-da Bakı qubernatoru R. Axundzadəyə işlə təmin olunması barədə ərizə ilə müraciət etmişdi. Rəşid bəy onun ərizəsinə müsbət cavab vermiş və özünün 25 iyun 1919-cu il tarixli 467 nömrəli əmri ilə Bakı Qubernator İdarəsində Ümumi Şöbənin kargüzar yardımçısı vəzifəsinə təyin etmişdi. O zaman kargüzar işi xüsusilə mühüm dövlət vəzifəsi sayılırdı. Qubernator R. Axundzadənin 17 avqust 1919-cu il tarixli əmri ilə işdə qısa müddətdə özünü yaxşı göstərmiş Ələkbər Əliyev vəzifədə irəli çəkilərək Nekrasovun yetinə kargüzar vəzifəsinin müvəqqəti icraçısı təyin olunmuşdu.

1920-ci il aprelin 28-də Azərbaycanda kommunistlər hakimiyyətə gəldikdən sonra keçmişinə görə təqiblərə məruz qalan Rəşid bəy repressiyanın qurbanlarından biri olmuş, 1937-ci ildə həbs edilərək sürgünə göndərilmişdi. Rəşid bəy Axundzadə 1940-cı ildə sürgün yerində həlak olmuşdu...

## ƏMİR bəy NƏRİMANBƏYOV

Əmir bəy Nəriman bəy oğlu Nərimanbəyov (Nərimanbəyli) 1871-ci ildə Şuşa şəhərində əsilzadə ailədə anadan olmuşdu. Orta təhsilini bitirdikdən sonra Ukraynada Xarkov Universitetinin hüquq fakultəsinə daxil olaraq oranı müvəffəqiyyətlə bitirmiş və hüquqşünas ixtisasına yiyələnmişdi. Universiteti bitrirdikdən sonra bir müddət Ukraynada dərs vermiş..., sonra bir sıra dövlət idarələrində məmur işləmişdi. Azərbaycan Cümhuriyyəti dövründə əvvəlcə Naxçıvanın general-qubernatoru və Bakı şəhərinin qubernatoru olmuş, milli istiqlalımızın qorunması üçün əlindən gələni etmişdi...

Azərbaycan Cümhuriyyəti daxili işlər nazirinin əvəzi, general-mayor M. S. Ağabəyzadənin 2 sentyabr 1919-cu il tarixli əmri ilə Əmir bəy Nərimanbəyov 1-ci dərəcə üzrə aylıq məvacibi 3.600 manat olmaqla Bakının qubernatoru, Əmir xan Xoyski (1881-1954) isə (2-ci dərəcə üzrə 2.700 manat aylıq əmək haqqı ilə) böyük köməkçisi (birinci müavini) vəzifəsinə təyin edilmişdi. Ə. Nərimanbəyov Bakının qubernatoru vəzifəsinə Rəşid bəy Axundzadənin istefasından sonra gəlmişdi. O, bu vəzifədə 1920-ci ilin aprelinədək xidmət göstərmişdi. Əmir bəy Bakının qubernatoru vəzifəsində çalışarkən gənc azərbaycanlı kadrları vəzifəyə təyin etməyə və irəli çəkməyə çalışırdı. Məsələn, onun 9 noyabr 1919-cu il tarixli 713 saylı əmriylə İdarədə qulluğa qəbul edilmiş gənc tələbə - mütəxəssis Ələkbər Məşədi Qəhrəman oğlu Əliyev Qubernator İdarəsinin Ümumi Şöbəsində daha mühüm vəzifə sayılan ekzekutor vəzifəsinə (bu vəzifə hələ çar Rusiyası dövründən idarə və müəssisələrdə təsərrüfat hissəsinə baxan məmur idi) təyin edilmişdi. Ələkbər Əliyevə verilmiş və qubernator Əmir bəy Nərimanbəyov tərəfindən imzalanmış 20 noyabr 1919-cu il tarixli 16317 nömrəli xidməti vəsiqədə təsdiqlənmişdi: "Bunu təqdim edən Əliyev Ələkbər mənim İdarəmin təsərrüfat hissəsinin müdiridir".

Ə. Əliyev 1920-ci il yanvarın 18-də Əmir bəy Nərimanbəyovun 23 saylı əmri ilə Bakı Qubernator İdarəsinin Təsərrüfat Hissəsinin müdiri vəzifəsindən azad olunmuşdu. Bu, Azərbaycan hökumətinin qərarı ilə gənc məmur Ələkbər Əliyevin bir sıra başqa



istedadlı və perspektivli gənclərlərlə birlikdə xaricə oxumağa göndərilməsiylə əlaqədar idi (1920-ci ildə Almaniyaya oxumağa göndərilmiş Ələkbər Əliyev sonralar kənd təsərrüfatı sahəsində görkəmli mütəxəssis, professor və kafedra müdiri olmuş, 1977-ci il fevralın 17-də Bakıda 79 yaşında vəfat etmişdi).

Əmir bəyin Həşim bəy (1859) və Teymur bəy (1865) adlı iki qardaşı vardı. Əmir bəy Rəhim bəy Behbudovun qızı Nəstərən bəyimlə ailə qurmuşdu. Bu evlilikdən Fərman bəy (1898, Şuşa - 1970, Mingəçevir).Yaqub bəy (1900), Arif bəy (1918-92), Asif bəy və İbrahim bəy adlı oğulları dünyaya gəlmişdi. Azərbaycanın böyük rəssamları Vidadi Nərimanbəyov (1927, Paris, Fransa - 2001, Bakı) və Toğrul Nərimanbəyov (1930-2013) Əmir bəy Nərimanbəyovun nəvələri, Fərman bəyin oğullarıdır.

Əmir bəy Nərimanbəyovun sovet dövründə əsilzadə nəslinə mənsubluğuna və Azərbaycan Cümhuriyyətinə xidmətinə görə repressiyaya məruz qaldığı barədə məlumatlar vardır... Əmir bəyin nəvəsi, xalq rəssamı Toğul Nərimanbəyov (söyləmişdir ki, Azərbaycan Cümhuriyyəti dövründə Bakının qubernatoru olmuş babası Əmir bəy Xarkov Universitetinin hüquq fakultəsini bitirmiş, Nikolay vaxtı Ukraynada dərs vermişdi. O, siyasi mühacir həyatı yaşamışdı... 1937-ci ildə isə babam ev dustağı olmuşdu... Toğrul bəy bildirmişdir ki, anası fransız qızıdır. Atası Fərman bəy Fransanın Tuluza şəhərində elektrik mühəndisliyi ixtisası üzrə təhsil olanda orada əslən Fransanın cənubu Qaskoniyadan olan İrma adlı qızla evlənmişdi. Atası fransız dilini mükəmməl bilirmiş... Özündən 4 yaş böyük qardaşı Vidadi Nərimanbəyov (Parisdə anadan olmuşdu. Ailələri repressiya məruz qalıb. Vaxtı ilə, Azərbaycan Cümhuriyyəti dövründə DMK-nın katibi işləmiş atası Fərmanı 31 dekabr 1937-ci ildə həbs etmişdilər. Həmin vaxt Fərman Nərimanbəyov Bakı Sovetinin enerketika bolməsində işləyirmiş. Onu ziyankarlıqda günahlandırırdılar. SSRİ XDİK yanında Xüsusi Müşavirənin 23 avqust 1938-ci il tarixli qərarı ilə Fərman Nərimanbəyova 5 il iş kəsmiş və təxminən iki həftədən sonra, 11 sentyabrda Kolımaya həbs düşərgəsinə göndərmişdilər. Arvadı İrmanı, oğlanları Vidadi və Toğrulu Özbəkistana, Səmərqənd şəhərinə sürgün etmişdilər. Beş ili başa vurub Bakıya qayıdanda Fərman bəyə Bakıda ya-

şamağa icazə verməmişdilər və o, Mingəçevir şəhərinə getmiş, orada SES-də işə düzəlmiş və ömrünün axırınadək orada yaşamış və 1970-ci ildə 72 yaşında vəfat etmişdi.

Əmir bəy Nərimanbəyovun oğlu Arif Nərimanbəyov 13 aprel 1918-ci ildə Bakıda anadan olmuşdu. O, gələcəyin məşhur aktyoru, kinorejissoru, operatoru və ssenaristi olmuş, bir-birinin ardınca gözəl bədii filmlər çəkmişdi. Arif Nərimanbəyov 1992-ci il mayın 16-da 74 yaşında Bakıda vəfat etmişdir.

Arif Nərimanbəyovun böyük əmisi Nəriman bəy Nərimanbəyli də babası Əmir bəy kimi 30-cu illərin qurbanı olub. Nəriman Nərimanbəyli milli-istiqlal hərəkatımızın fəal iştirakçılarından və Azərbaycan Cümhuriyyətinin görkəmli ictimai-siyasi və dövlət xadimlərindən biri idi. Nəriman bəy Həşim bəy oğlu 1989-cu ildə Şuşada anadan olmuşdu. Orta təhsilini İrəvan gimnaziyasıda almışdı. Sonra Moskva Universittinin fizika-riyaziyyat fakultəsində oxumuş, daha sonra Xarkov Universitetinin hüquq fakultəsinə dəyişilərək oranı bitirmişdi. Ali təhsilini başa bvurub bir müddət vəkillik etmiş, müəllimlklə məşğul olmuşdu. 1917-ci ildə "Müsavat" partiyasına girmişdi. 1918-ci ildə Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının və Azərbaycan Cümhuriyyəti Parlamentinin üzvü seçilmiş, Cümhuriyyətin 4-cü hökumət kabinetində dövlət nəzarət naziri (müfəttişi) olmuşdu.

Nəriman bəy sovet dövründə müxtəlif idarələrdə hüquq məsləhətçisi işəmişdi. Cümhuriyyət Parlamentinin və hökumət kabinetinin üzvü olduğuna görə təqiblərə və həbslərə məruz qalmışdı. 1937-ci ilin sonunda həbs olunaraq uzaq Solovki düşərgəsinə göndərilmişdi. Nəriman bəy Nərimanbəyli 1938-ci ilin əvvəllərində 48 yaşında ikən güllələnmişdir...



## İBRAHİM ağa VƏKİLOV
## (1853 – 1934)



İbrahim ağa Paşa ağa oğlu Vəkilov ("Kosaoğlu İbrahim Vəkilzadə Qazaği") 1853-cü il mayın 7-də Yelizavetpol (Gəncə) quberniyasının Qazax qəzasının Qırax Salahlı kəndində anadan olmuşdu. Peşəkar hərbçi kadr idi və orduda ilk hərbi topoqrafiya üzrə mütəxəssis sayılırdı. Albay (polkovnik) rütbəsi vardı. Azərbaycan Cümhuriyyətinin ikinci daxili işlər naziri Behbud xan Cavanşir peşəkar kadrlardan biri kimi onu DİN sistemində işləməyə cəlb etmişdi. B. Cavanşirin 1918-ci il 23 iyun tarixli əmi ilə İbrahim ağa Vəkilov Gəncənin qubernatoru vəzifəsinə təyin edilmişdi. İ.Vəkilov Gəncənin ilk qubernatoru olmuşdu...

Gəncə qubernatoru kimi Daxili İşlər Nazirliyinə, şəxsən nazir B. Cavanşirə görülən işlər barədə vaxtaşırı raportlar göndərən İbrahim ağa Vəkilov bu vəzifəyə təyin edildikdən sonra milli hökumətimiz əleyhinə olan qüvvələrə qarşı qətiyyətli fəaliyəti və gördüyü təsirli tədbirlərlə ad çıxarmışdı. İ.Vəkilov Goranboyda və onun ayrı-ayrı kəndlərində sığınacaq tapmış daşnak tör-töküntülərinə divan tutub onları tərksilah etmişdi...

1919-cu il martın 14-də Azərbaycan hökumətinin 248 nömrəli sərəncamı ilə İbrahim ağa Vəkilov tutduğu vəzifəsindən azad edilərək Milli Ordumuzun Baş Qərargahında Baş İdarənin Hərbi Topoqrafiya Şöbəsinin rəisi təyin olunmuşdu. 1919-cu il martın 30-da Azərbaycan Cümhuriyyəti hökumətinin qərarı ilə nümunəvi xidmətinə görə İbrahim ağa Vəkilova general-mayor, onun köməkçisi (müavini) Hüseynqulu xan Xoyskiyə (1869-1955) isə polkovnik rütbəsi verilmişdi. Qeyd etmək lazımdır ki, İbrahim ağa Vəkilovdan sonra Gəncənin qubernatoru vəzifəsinə 1919-cu il mayın 6-da

məşhur Rəfibəylilər nəslindən olan, görkəmli milli istiqlal fədaisi, bunadək F. Xoyskinin başçılıq etdiyi 2-ci hökumət kabinetində səhiyyə və sosial təminat naziri vəzifəsini tutmuş Xudadat bəy Rəfibəyli (1877-1920) təyin edilmişdi.

General İbrahim ağa Vəkilov 11-ci ordunun 1920-ci il 27 aprel işğalınadək öz vəzifəsində xidmət göstərmişdi. O, Milli Ordumuzun Baş Qərargah İdarəsinin 1919-cu ilin dekabrında ilk hərbi Bayrağımızın təsdiq edilməsi qərarından sonra həmin Bayrağın yaradıcısı olmuşdu... General-mayor İbrahim ağa Vəkilov 1934-cü il iyunun 26-da Bakıda 81 yaşında vəfat etmişdi... O,Yelena Yefimovna ilə ailə qurmuşdu. Qalib bəy, Faris bəy və Reyhan xanım adlı övladları vardı...

## MƏHƏMMƏD bəy ŞAHMALIYEV
## (1870 – 1924)



Azərbaycan istiqlal hərəkatının və Xalq Cümhuriyyətinin görkəmli fədailərindən biri Məhəmməd bəy Şahmalıyev olmuşdur. Məhəmməd bəy Nəsrullah bəy oğlu Şahmalıyev 1870-ci ildə Yelizavetpol (Gəncə) qəzasının Samux kəndində əsilzadə ailədə anadan olmuşdu. İxtisasca hüquqşünas olan Məhəmməd bəy 72 min desyatin torpaqları olan Samux bəylərinin görkəmli nümayəndələrindən biri idi.

Burada Məhəmməd bəyi yetirmiş Samuxun tarixi barədə də bəhs etmək yerinə düşər. İyirminci əsrin əvvəllərində Samux şəhərinin mövcud olmasını Samux meşələrində onun indi də qalmaqda olan xarabalıqları sübut edir... Samux şəhərinin ərazisi Kür çayının hər iki sahilində Qazanını dağlarının ətəklərini, Qanlı Qobu ilə Qabırrı çayı arasında olan ərazini əhatə edirdi. Tədqiqatçıların bir qisminin fikrincə, "Samux"



alban sözü olub, "meşəlik", "ov yeri" deməkdir. Digər qisim tədiqatçıların qənaətincə, "Samux" üç çayın (Kür, Qabırrı və Alazan) birləşdiyi yerdir. Başqaları hesab edir ki, "Samux" sözü fars dilində "üç çay qolu" deməkdir...

Samux rayonu 1931-ci il noyabrın 24-də təşkil olunmuşdu. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 24 yanvar 1939-cu il tarixli 4 nömrəli qərarına əsasən Səfərəliyev rayonu (inqilabçı Xanlar Səfərəliyevin soyadını daşıyırdı) Kirovabad (o vaxt Gəncə belə adlanırdı) şəhərinin ərazisinə daxil olan inzibati ərazi vahidi idi. 1940-cı il yanvarın 16-da bu rayon Kirovabad şəhərinin tərkibindən çıxarılıb respublikanın kənd rayonları sırasına daxil edildi. 1948-ci ildən başlayaraq Mingəçevir SES-in tikintisi ilə əlaqədar olaraq Samuxun ərazisinin çöx hissəsi su altında qalmışdı...1954-cü il yanvarın 28-də Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Samux rayonu ləğv edilərək, ərazisi Səfərəliyev rayonu ilə birləşdirilmişdi. 1959-cu il dekabrın 4-də Səfərəliyev rayonu da müstəqil rayon kimi ləğv edilərək Gəncə şəhərinə birləşdirilmişdi. 1963-cü il yanvarın 4-də keçmiş Səfərəliyev rayonunun ərazisi Xanlar rayonuna daxil edilmişdi.

...Xanlar rayonu 1954-cü il yanvarın 28-də Səfərəliyev rayonu ilə birləşdirilmişdi. Səfərəliyev rayonu 1938-ci ilədək görkəmli dövlət xadimi və yazıçı N. Nərimanovun şərəfinə Nərimanov rayonu adlanırdı. Nərimanov adının verilməsinə qədər isə, 1819-cu il aprelin 22-dən rayon Yelenenedorf (almanca Helelenedorf) adlanmışdı. Belə ki, hələ 19-cu əsrdə, 1819-cu il aprelin 22-də Azərbaycana gəlmiş ən böyük icma olan alman koloniyaçıları Yelenendorf adı ilə həmin yaşayış məntəqəsini salmışdılar...1869-cu il aprelin 22-də koloniya özünün 50 illiyini təntənəli syrətdə qeyd etmişdi...1896-cı ildən etibarən də Yelenendorfda və onun ətrafında ermənilər görünməyə və orada məskunlaşmağa başlamışdılar...

Beləliklə, 1938-ci ildə Samux ərazsinin daxil olduğu Səfərəliyev rayonu Xanlar rayonu adlanmışdı. Bu, Cəbrayıl qəzasının Qarğabazar kəndindən (indi Füzuli rayonundadır) məşhur inqilabçı Xanlar Səfərəliyevin (1885-1907) şərəfinə edilmişdi. Xanlara Qovlarsarı və Qaraarx da demişlər... Samux öz tarixi adını 90-cı illərin əvvəllərində bərpa etmişdir. Belə ki, Azərbaycan Respublikası Ali

Soveti Milli Şurasının 1992-ci il 18 fevral tarixli 72 saylı qərarı ilə Səfərəliyev qəsəbəsinin adı dəyişdirlib Nəbiağalı qəsəbəsi adlandırılmışdır. Azərbaycan Respublikasının 13 iyun 2008-ci il tarixli Qanununa əsasən Nəbiağalı qəsəbəsi və Kolayır kəndi birləşdirilərək Samux qəsəbəsi adlandırılmış, Samux qəsəbəsinə şəhər statusu verilmiş və müstəqil Samux rayonu yaradılmışdır.

... İndi Məhəmməd bəy Şahmalıyev haqqında söhbəti davam etdirək. Yeddi yaşınadık bir kəlmə rusca belə bilməyən Məhəmməd bəy ilk təhsilini Tiflisdə almış, 1891-ci ildə Odessadakı "Novorossiysk" Universitetinin hüquq fakultəsinə daxil olmuşdu. Burada N. Nərimanov, N. Yusifbəyli, X. Sultanov və başqaları ilə birlikdə yaxından tanış olub fəaliyyət göstərirdi... O, Universitetdə yaradılmış "Azərbaycan Həmyerlilər Təşkilatı"nın rəhbərlərindən biri idi. M. Şahmalıyev 1896-cı ildə Universiteti bitirib dövlət qulluğunda məmur kimi çalışmağa başlamışdı.

Rusiya imperatorunun qardaşı, Qafqazın canişini, böyük knyaz Nikolay Nikolayeviç Romanov Məhəmməd bəyin atası Nəsrullah bəylə dostluq edirdi. O, Samuxda Nəsrulla bəyin qonağı olarkən bəy ona cins atlar, o isə bəyə içində çox bahalı brilyant olan qızıl burunotu qabı - tabokerka bağışlamışdı. Bu dostluq Nəsrulla bəyin oğlu Məhəmməd bəyin dövlət qulluğunda irəliləməsinə və cəmiyyətdə nüfuz qazanmasına müsbət təsirsiz ötüşməmişdi... Belə ki, Məhəmməd bəy 1913-cü ildə Nuxa qəzasının, 1914-1915-ci illərdə isə Ərəş qəzasının rəisi olmuşdu.

Azərbaycan Cümhuriyyəti dövründə M. Şahmalıyev Azərbaycan hökumətinin 1919-cu il 16 mart tarixli qərarı ilə rəsmən çar hökuməti tərəfindən Azərbaycan ərazisi kimi təsdiq edilmiş Zaqatala quberniyasının qubernatoru təyin edilmişdi. M. Şahmalıyev bir qubernator kimi fəaliyyəti barədə DİN-ə, şəxsən daxili işlər nazirinə vaxtaşırı raport verir və hesabatlar hazırlayırdı... M. Şahmalıyev qubernator təyin edildikdən sonra Azərbaycan Cümhuriyyətinin Zaqatala quberniyasının Gürcüstan Respublikası Tiflis quberniyasının Sığnax qəzası arasındakı müvəqqəti demarkasiya xəttinin müəyyənləşdirilməsi üzrə Azərbaycan-Gürcüstan komissiyasının sədri təyin edilmişdi. Komissiyanın 25 oktyabr və 2 noyabr 1919-cu il tarixli iclasında Azərbaycan hökuməti adından müstəqil



dövlətimizin mənafeyini layiqincə təmsil etmişdi... Zaqatalanın qubernatoru vəzifəsində 1920-ci il aprelin 27-dək, yəni Azərbaycan Cümhuriyyətinin süqutunadək, canla-başla, ləyaqətlə xidmət göstərmişdi...

Sovet hakimiyyəti "qurulduqdan" sonra Məhəmməd bəyin mal-mülkü əllərindən alınmış, müsadirə olunmuşdu. Məhəmməd bəyi isə həbs etmişdilər. Onu labüd güllələnmə gözləyirdi. Lakin hələ vaxtılə Odessada tələbəlik dövründən dostluq etdiyi Azərbaycan SSR XKS-in sədri N. Nərimanovun xəbər tutub işə qarışması bunun qarşısını almışdı... Həbs və sonrakı məhkəmə zamanı Məhəmməd bəy Şahmalıyev: "... Məni keçmiş nökərim "keçəl Dursun" mühakimə edir, bu günü görməkdənsə, mənə güllələnmək xoşdur", - demişdi. Beləliklə, N. Nərimanovun sayəsində M. Şahmalıyev güllələnməkdən xilas olmuşdu. Lakin onu ev dustağı etmişdilər. Məhəmməd bəy indiki Sabir adına bağın yerində yerləşən evindəki mənzilində düz 4 il ev dustağı həyatı yaşamışdı... Məhəmməd bəy Şahmalıyev 1924-cü ildə elə həmin mənzilində 54 yaşında dünyasını dəyişmişdi...

M. Şahmalıyevin ilk ömür - gün yoldaşı həyatdan vaxtsız köçmüş Fatma xanımdan bir qız övladı - Şahpəri (1898-1981) dünyaya gəlmişdi. Şahpəri anasının adı idi. Şahpəri xanım Məhəmməd bəyin əmisi oğlu Mahmud bəyə ərə getmiş (Şahmalıyevlər ancaq öz nəsillərindən evlənirdilər. Başqa nəslə də qız verməzdilər...) və ondan Fərhad, Tofiq, Rüstəm adlı oğulları və Xədicə adlı qızları doğulmuşdu. Fatma xanımdan sonra Məhəmməd bəy Əminə xanımla evlənmiş, bu izdivacdan 5 övladı: 3 oğlu (Ehsan bəy (1899), Şamil bəy (1903-90), Mehralı bəy və 2 qızı – Səltənət xanım və Ədalət xanım anadan olmuşdu. M. Şahmalıyevlərin övladları və onların törəmələri indi Moskva, Odessa, Daşkənd və digər şəhərlərdə yaşayırlar...

# *QRADONAÇALNİKLƏR*

## QUDA QUDİYEV
## (1880-1920)



Quda Qudiyev Azərbaycan Cümhuriyyəti dövründə, 1919-20-ci illərdə Bakının qradonaçalniki (polis rəisi-İ.Ə.) vəzifəsində xidmət etmişdir (Qradonaçalniklik vəzifəsi hələ çar Rusiyasında, hökumətin 28 oktyabr və 2 noyabr 1906-cı il tarixli sərəncamları ilə xüsusi əhəmiyyəti olan iri şəhərlərdə təsis olunmuş və Əsasnaməsi qüvvəyə minmişdi.Qradonaçalnik qubernator hüququna malik olan dövlət məmuru idi. O, təkcə şəhər polisinə başçılıq etmirdi, əmçinin bir sıra inzibati, mülki və idarəetmə məsələlərəinədə baxırdı... Rusiyada Qardonaçalniklik 1917-ci ildə ləğv olunsa da, Azərbaycan Cümhuriyyəti dövründə, 1919-cu ildə bu vəzifə bərpa olunaraq ondan istifadə edilmişdi).

Qudiyev Quda Əliyeviç milliyyətcə inquş idi. O, 1880-ci il fevralın 12-də Qafqaz dağlarının ətəyində, Vladiqafqaz (sovet dövründə Orconikidze adlanırdı) şəhərində Ter milisində işləyən yunkerin ailəsində anadan olmuşdu. Real məktəbi bitirmişdi. Qafqaz Süvari Diviziyasının 20 fevral 1900-cü il tarixli 37 nömrəli əmri ilə Quda Qudiyev (bəzi tarixi ədəbiyyatlarda Puda yazılması düz deyil) Əlahəzrət çarın 45-ci şimal süvari alayına xidmətə qəbul olunmuşdu. Atasının yolu ilə getməyi qərara alan Q. Qudiyevin bu zaman cəmi 20 yaşı vardı.



Q. Qudiyev öz xidmətinə çox ciddi yanaşırdı. Bu, diqqətdən yayınmamışdı. Ona hərbi təhsil lazım idi. Odur ki, Yelizavetqrad Süvari Yunker Məktəbinə oxumağa göndərmişdilər. Məktəbdə tədris və təlimdə özünü nümunəvi aparması yenə diqqəti cəlb etmişdi. 1902-ci il iyunun 9-da onu "Elmdə və sıra təlimində əla müvəffəqiyyətlərə görə" fəxri silahla mükafatlandırmışdılar. Q. Qudiyevə gələcəyin əla hərbi mütəxəssisi kimi baxırdılar. Odessa Hərbi Dairəsinin 28 yanvar 1903-cü il tarixli qərarı ilə məktəbi bitirməsi ilə əlaqədar Yelizavetqrad Süvari Yunker Məktəbinin Tədris Komitəsi Qudiyevi general-leytenant D. A. Milyutin ( adına mükafatla təltif etmiş və ona ştandart-yunker rütbəsi verilmişdi.

... Q. Qudiyevin nüfuzu getdikcə yüksəlirdi. Onu təkcə əsgərlər deyil, həm də sadə adamlar sevir və dəyərləndirirdilər. 1903-cü il aprelin 1-də Q. Qudiyev kornetə daxil olmuş, sonra 50-ci İrkutsk süvari alayında xidmətini davam etdirmişdi. 1904-cü il fevralın 6-da 1-ci əlahiddə süvari briqada komandanlığının əmri ilə o Zabaykaleyə, Çita şəhərinə kazak qoşunları atamanının sərəncamına göndərilmişdi. 1904-cü il iyunun 9-da Zabaykalye 2-ci Arqun alayına - kazak diviziyasına xorunji rütbəsi verilməklə ezam olunmuşdu. Həmin il sentyabrın 7-də isə Zabaykalye Kazak Diviziyasının qərargahına keçirilərək xüsusilə mühüm kəşfiyat işində xidmət göstərmişdi.

1904-05-ci il rus-yapon müharibəsi başlandıqda oraya qafqazlılar da cəlb olunmuşdular. Onların içərisində yüzlərlə inquşda vardı (inquşlarda müsəlmandırlar). Onların sayı cəmi 400 nəfər idi. Bu dörd yüzlüyü vahid dəstə halında birləşdirib, ona komandir qafqazlıların dilini, adət və ənənələrini bilən Q. Qudiyevi təyin etmişdilər. Bu müharibədə Q. Qudiyevin dağlılar dəstəsi böyük cəsarət və möcüzələr göstərmişdi... Ən çətin, zəruri olan yerlərə Qudiyevin dəstəsi göndərilirdi. Qudiyevin dəstəsinin şöhrəti tezliklə hər yerə yayılmışdı.

1904-cü il sentyabrın 7-də Q. Qudiyevin dağlı divizionu general Rannenkampfın komandanlıq etdiyi Arqun Kazak Alayının tabeliyinə keçirildi. General Rannenkampf Qudiyevi çox sevir və onu başqalarına nümunə göstərirdi. Qudiyevin dəstəsi 1904-cü il sentyabrın 12-dən 1905-ci il oktyabrın 7-dək Şaxe çayındakı və Mukden şəhəri yaxınlıqdakı döyüşlərdə şücaətlər göstərmiş, qəfil və gözlə-

nilməz qəti hücumlarla yaponları çaş-baş salmışdılar... General-leytenant P. İ. Mişenko da sabiq həmkarı general Rannenkampf kimi Qudiyevin divizionunu "mənim uçan dəstəm" adlandırırdı.

Q. Qudiyev inquş tayfasından olan Qali Xasbulatovna Lyanova ilə nikahda olmuşdu... Q. Qudiyev İslama etiqad edir və özünü müsəlman sayırdı.

Q. Qudiyev əla kəşfiyyatçı kimi ad çıxarmışdı. O, bir qayda olaraq ali baş komandanın tapşırıqlarını cəsarətlə və dəqiq yerinə yetirirdi. Qudiyev dəfələrlə ali baş komandanlıq tərəfindən şifahi və yazılı təşəkkürlər və minnətdarlıqlar almışdı. Q. "Müqəddəs Anna" ordeni, 3-cü dərəcəli "Müqəddəs Vladimir" və "Müqəddəs Stanislav" ordeni (qılınc və bantla), 4-cü dərəcəli "İgidliyə görə" medalı ilə və s.-lə təltif olunmuşdu.

Q. Qudiyev 1905-ci il iyunun 5-dən sentyabrın 11-dək ordunun arxa cəbhə qərargahında ezamiyyətdə olmuşdu. 1905-ci il sentyabrın 11-də Qudiyevin 400-lük dəstəsi buraxılmışdı... Bundan sonra onu əlahiddə kəşfiyatçılar divizionuna keçirmişdilər. 1905-ci il oktyabrın 7-də Q. Qudiyev Qafqaza qayıtmışdı. Həmin il dekabrın 22-də o,Ter daimi milisində təftiş idarəsində adyutant vəzifəsinə təyin edilmişdi. 1910-cu ilin fevralında Q. Qudiyev İmperator Nikolay adına Süvari Akademiyasına daxil olmaq üçün attestat almışdı.

Birinci Dünya Müharibəsində (1914-18-ci illər) təcrübəli zabit kimi Q. Qudiyev polkovnik Merçule Georginin (milliyyətcə abxaz idi) komandirlik etdiyi Ter Dağlı Diviziyasının tərkibində İnquş Süvari Alayında 1-ci yüzlüyün başçısı kimi döyüşlərdə ad çıxarmışdı... O, 1914-cü ilin dekabrında Karpat döyüşlərindəki şücaətlərinə görə 2-ci dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif olunmuşdu. 1916-cı ilin martında Q. Qudiyev rotmistr (kapitan) rütbəsi almışdı. Q. Qudiyev məşhur "Dikiy diviziya"nın tərkibində də döyüşmüşdü...

Azərbaycan hökuməti tərəfindən Bakıya dəvət olunan rotmistr Q. Qudiyev daxili işlər naziri N.Yusifbəylinin 29 aprel 1919-cu il tarixli əmri ilə Bakı şəhərinin polismeysteri (16 dərəcəli tarif cədvəlinə əsasən 4-cü dərəcə üzrə aylıq maaşı 2.300 manat olmaqla) təyin edilmişdi. Lakin 1919-cu ilin iyununda o, daha yüksək və məsul vəzifəyə - Bakının qradonaçalniki vəzifəsinə təyin olunmuş-



du. Q. Qudiyev 15 iyun 1919-cu ildə Bakı qradonaçalniki vəzifəsinə başlaması haqqında 1 nömrəli əmr vermişdi.

Bakı qradonaçalniki Q. Qudiyev 1919-cu il avqustun 14-də verdiyi əmrlə hərbi vəziyyət dövründə, həm də Azərbaycan Cümhuriyyəti əleyhinə təbliğatla məşğul olan "Molot" və "Rossiya" adlı gündəlik qəzetlərin çıxmasını qadağan etmişdi.

Bakı qradonaçalniki Q. Qudiyevin təşəbbüsü ilə ticarət-sənaye, neft sənayeçiləri, bank müəssisələri və digər təşkilatların nümayəndələrinin iştirakı ilə müşavirə çağırılmışdı. Müşavirədə Bakı şəhərinin köməyə ehtiyacı olan sakinlərinə 300 milyon rubl məbləğində ilk növbədə işlənən zəruri ərzaq məhsullarının alınması və paylanmasının təşkil edilməsi barədə qərar qəbul olunmuşdu. Bu məqsədlə xüsusi komissiya yaradılmışdı.

Bakı qradonaçalniki vəzifəsində 11-ci ordunun 27 aprel işğalınadək xidmət edən, bu işdə yüksək təşkilatçılıq qabiliyyəti və mübarizə əzmi göstərən Q. Qudiyevin həyatı təəssüfki, faciəli surətdə sona yetmişdi. Belə ki, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşeviklər Q. Qudiyevi bağışlamadılar və o, həbs olundu, işgəncələrə məruz qaldı... Azərbaycan Ali İnqilabi Tribunalı Teymur Əliyevin sədr, müavini A. Popov, üzvləri A. Andreyev, Lilyakina və Şirəli Əliyevin iştirakı ilə 20 avqust 1920-ci il tarixdə keçən iclasında Q. Qudiyevin, 1919-cu il sentyabrın 5-də "Novıy svet" restoranındakı atışmada bolşeviklər Mir Fəttah Musəvini və Haşım Əliyevi öldürmüş, Levon Qoqoberidzeni isə ağır yaralamış Azərbaycan Dəmir Yolu İdarəsinin Teleqraf Şöbəsinin sabiq rəisi Hacıbəy Seyidbəyovun, Bakının 5-ci sahə polisinin pristavı Mixail Vakulanın işinə baxmışdı. Şahid qismində iştirak edən Rəşid bəy Tahirov, Bırdin Q. Qudiyevin əleyhinə ifadə vermişdilər. Əziz Bayrambəyovu və M.Vakulanıda M. Musəvi və H. Əliyevin ölümündə günahlandırmışdılar... Ali İnqilabi Tribunal qradonaçalnik Q. Qudiyevi və Hacıbəy Seyidbəyovu əmlakları müsadirə olunmaqla ən yüksək cəzaya - güllələnməyə məhkum etmişdi. Pristav M.Vakulanun məcburi işi 10 illik həbslə əvəz olunmuşdu... Ali İnqilabi Tribunalın 29 avqust 1920-ci il tarixli hökmü dərhal icra olunmuş və beləliklə, Q. Qudiyev 40 yaşında güllələnmişdi...

Q. Qudiyevin birinci arvadı inquş qızı Qalidən Əhməd və Məhəmməd adlı oğlanları qalmışdı. Böyük oğlu Əhməd 25 fevral 1909-cu ildə anadan olmuşdu. Onun barəsində məlumat yoxdur... Qudiyevin ikinci arvadı fars mənşəli qız Qəmər Solan xanım Həşimova idi. Onlar qanuni nikaha girməklə 1912-ci il noyabrın 27-də Moskvada evlənmişdilər. Qali Xasbulatova ilə isə 1913-cü il sentyabrın 10-da şəriət qaydasında ayrılmışdılar. Q. Qudiyevin 2-ci arvadı Qəmər Solan xanımdan 8 noyabr 1913-cü ildə dünyaya gəlmiş Leyla adlı qızı vardı.

Q. Qudiyevin daha bir arvadı Tamara olmuşdu. Bakıda həbsxanada olarkən Tamaraya məktub yazmışdı. Məktubda deyilirdi: "Kommunistlərə özlərini göstərmək və vahimə yaratmaq üçün iri fiqurlar lazımdır. Deyə bilərəm ki, mənim heç bir günahım yoxdur. Xahiş edirəm, təcili uşaqlarla Moskvaya, atanın yanına yola düş, oradan isə Parisə - qardaşının yanına, lakin bu zaman inquşlar olan yerdən və böyük oğlum Əhməddən ayırma. Bir yerdə onlar üçün asan olacaq. Ümid edirəm, bu amansız, qanunsuz əsr və repressiya başa çatacaq".

Tamara ərinin vədinə əməl etmiş, tezliklə Moskvaya getmişdi. Orada uşaqları Rusiya Dövlət Dumasının sabiq deputatının arvadı Qolovinanın malikanəsində yerləşdirmişdi. Həmin il o, Parisə, qardaşının yanına gedə bilmiş, 1924-cü ildə isə 3 uşağını da yanına aparmışdı...

Q. Qudiyevin oğlanlarından biri, Aslan bəy Qudiyev İkinci Dünya Müharibəsi (1941-45) dövründə general Şarl De-Qollun ( başçılıq etdiyi "Azad Fransa" hərəkatının gəal iştirakçısı olmuşdu. Onun uşaqları yox idi. Özü Parisdə müsəlman qəbirstanlığında dəfn olunmuşdu. Q. Qudiyevin fars mənşəli arvadı Qəmər xanım Solandan olmuş qızı Leyla isə Moskvaya, Qudiyevlərin yeznələrinin yanına qayıtmışdı...

Böyük M. Ə. Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" kitabında Quda Qudiyevi "İstiqlal Şəhidi" adlandırmışdır (Kitabda tərcümə səhvi üzündən Qudiyev Bakı valisi Hadıyev kimi yazılmışdır. Şübhəsiz , bu, Hadıyev deyil, Qudiyevdir...).



# *POLİSMEYSTERLƏR*

## İSMAYIL xan ZİYADXANOV
## (1880-1920)



İsmayıl xan Əbülfət xan oğlu Ziyadxanov (Ziyadxanlı) Gəncə xanı Cavad xanın nəvəsi, Azərbaycan Cümhuriyyətinin görkəmli xadimlərindən biridir. O, 15 avqust 1867-ci ildə Gəncə şəhərində anadan olmuşdu. Moskva Universitetinin hüquq fakultəsini bitirmişdi. Rusiya I Dövlət Dumasına Azərbaycandan deputat seçilmişdi. İ. Ziyadxanov ermənilərin Azərbaycanda ən qorxduğu adamlardan idi... 1918-ci ilin martında Şamaxı qəzasındakı soyqrımın səbəbkarı daşnak Stepan Lalayanın quldur dəstələrini podpolkovnik İsmayıl xan Ziyadxanlının başçılıq etdiyi 300 nəfərlik süvari alayı darmadağın etmişdi. Bədnam Stepan Şaumyan İsmayıl xanı Rusiya üçün "ən təhlükəli adam" adlandırırdı...

Azərbaycan Cümhuriyyəti dövründə podpolkovnik rütbəsində olan İsmayıl xan Ziyadxanov Gəncənin polismeysteri işlədiyi dövrdə Dağlıq Qarabağdakı mənfur daşnaklardan bir qrupunun həbs edilərək Gəncəyə gətirilməsini həyata keçirənlərdən olmuşdu... F. Xoyskinin 2-ci hökumət kabinetində İsmayıl xan Ziyadxanov hərbi işlər üzrə müvəkkil idi. 1919-cu ildə İrana diplomatik işə göndərilmiş İsmayıl xanı bolşeviklər Azərbaycanda sovet hakimiyyəti qurulandan cəmi bir gün sonra həbs etmişdilər.

İsmayıl xan Ziyadxanlının sağ qalmış oğlu Cavad ağa söyləmişdir ki, atamı Gəncə üsyanı (24 may - 4 iyun 1920-ci il) ərəfəsində Bakıda, yeznəsi Kamil Səfərəliyevin evində həbs etmişdilər. Tarixi ədəbiyyatlardakı faktlar gösrərir ki, İsmayıl xan Ziyadxanovu məhkəməsiz 11-ci ordunun Siyasi İdarəsinin Xüsusi Söbəsinin rəisi, Azərbaycan xalqının qəddar düşməni Semyon Pankratovun əmri ilə 1920-ci il iyun ayının 6-da görkəmli ziyalılarımızın və hərbçilərimizin daxil olduğu 79 nəfərin içərisində (onların arasında Gəncənin general-qubernatoru Xudadat bəy Rəfibəyli, Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-leytenant Məmməd bəy Sulkeviç, general-mayor şahzadə Məhəmməd Mirzə Qacar, polkovnik İsgəndər bəy Seyfulin, milyonçu Murtuza Muxtarov, Milli Ordunun generalı Həbib bəy Səlimov və başqaları da vardı) "ölüm adası" adlandırılan Nargin cəzirəsində (Bakının yaxınlığındakı Böyük Zirə adası) güllələnmişdi... Böyük M. Ə. Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" kitabında İsmayıl xan Ziyadxanlını "İstiqlal Şəhidi" adlandırmışdır...

## RÜSTƏM bəy MİRZƏYEV
## (1860-1920)

Rüstəm bəy Hidayət bəy oğlu Mirzəyev (Mirzəzadə) 1860-cı ildə Gəncə şəhərində Zərrabi məhəlləsində anadan olmuşdu. İbtidai təhsilini qardaşı Aslan (Astan) bəy kimi (o, sonralar tanınmış müsavatçı olmuşdu...) Gəncə şəhər Gimnaziyasında almış, sonra hüquq təhsilinə yiyələnmişdi... Gəncədə N.Yusifbəylinin rəhbərlik etdiyi "Türk ədəmi Mərkəziyyət" firqəsinə, sonra isə "Müsavat" partiyasına daxil olmuşdu...

Azərbaycan Xalq Cümhuriyyəti dövründə bir hüquqşünas kadr olaraq 1918-ci il sentyabrından Bakı Polismeysterliyində dövlət qulluqçusu kimi xidmətə girmişdi... Azərbaycan hökumətinin qərarı və daxili işlər naziri N.Yusifbəylinin 23 iyun 1919-cu il tarixli əmri ilə Rüstəm bəy Mirzəyev (4-cü dərəcə üzrə əmək haqqı 2.300 manat olmaqla) Bakı şəhərinin polismeysteri vəzifəsinə təyin olunmuşdu (**Qeyd:** *Bakı polismeysterliyi hələ rus imperiyasının*



*Daxili İşlər Nazirliyinə tabe olmaqla 1840-cı il aprelin 10-da ilk növbədə iri şəhərlərdə yaradılmışdı. Polismeysterin müavin hüququnda 2 köməkçisi, tələb olunan sayda pristavları vardı. Məsələn, Bakı şəhər Polismeysterinin 11 sahə polis pristavı və onlarında bir o qədər köməkçisi, Balaxanı-Sabunçu polismeysterinin isə 7 pristavı və bir o qədər də köməkçisi vardı. Polismeysterin aylıq məvacibi 1918-ci ildə 2.300 manat, pristavların məvacibi isə 1800 manat idi. 1919 -cu ildə bu rəqəmlər müvafiq olaraq 3.600 və 2700 olmuşdu).*



*Rüstəm bəy Mirzəyev (oturan soldan birinci)*

R. Mirzəyev bu vəzifəyə Bakı şəhərinin qradonaçalniki vəzifəsinə irəli çəkilmiş Q. Qudiyevin yerinə təyin edilmişdi. O, Birja küçəsi (indiki Ü. Hacıbəyov) -21 nömrəli ünvanda otururdu. R. Mirzəyev polkovnik rütbəsində idi... Bakıda ictimai asayişin qorunmasında və cinayətkarlıqla mübarizədə R. Mirzəyevin (tarixi ədəbiyyatda Mirzəzadə kimi də yazılır) xeyli zəhməti vardı... O zaman polis orqanları müstəqil dövlətimizin mövcudluğu üçün önəmli əhəmiy-

yət kəsb edən neft mədənlərinin mühafizəsində və orada oğurluq, təxribat, ziyançılıq törətmək cəhdlərinə qarşı qətiyyətlə mübarizə aparırdılar. Bu işdə DİN-in müvafiq əmri ilə demokratik prinsiplərə, o cümlədən neft mədənlərində çalışan fəhlələr arasında təbliğat, izah və profilaktikayada üstünlük verilirdi. 1920-ci il yanvarın 14-də Bakı polismeysteri Rüstəm bəy Mirzəyev neft mədən-zavod fəhlələrini xüsusi müşavirəyə dəvət etmişdi. O, bunun səbəbini açıqlayaraq demişdi:



*Bakı Polismeysterliyi İdarəsinin fasadı – Birja küçəsi (indiki Ü. Hacıbəyov küç., Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə üzbəüz bina).*

"Mən bu gün sizləri ona görə toplamışam ki, sizinlə birlikdə (müşavirəyə 65 nəfər fəhlə gəlmişdi) fikir mübadiləsi edim. Çünki indiki vaxtda sənaye rayonlarında oğurluqlar baş verir. Mən sizdən xahiş edirəm ki, bu bəla ilə mübarizə işində bizə kömək edəsiniz. Sizin üzünüzə mənim qapım həmişə açıqdır".



Bakı Möhkəmləndirilmiş Hərbi Rayonun general-qubernatoru, general-mayor Murad Gəray bəy Tlexasın 7 aprel 1920-ci il tarixli 6966 nömrəli əmri ilə R. Mirzəyev Bakı polismeysteri vəzifəsindən azad edilərək Balaxanı-Sabunçu polismeysteri təyin edilmişdi... Daxili işlər naziri M.Vəkilovun 10 aprel tarixli əmri ilə onun yerinə Mustafa bəy Qabulov təyin olunmuşdu...

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Rüstəm bəy Mirzəyev bir qrup keçmiş Azərbaycan Cümhuriyyəti DİN-in məmuru sırasında "Müsavat hökumətinə" xidmət etdiyi üçün həbs olunub, bolşevik Əli Bayramovun "işi" üzrə mühakimə olunaraq Azərbaycan SSR Ali İnqilabi Tribunalın hökmü ilə 1920-ci il mayın 29-da gecə saat 2-də güllələnmişdi... Böyük M. Ə. Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" kitabında Bakı şəhərinin polismeysteri Rüstəm bəy Mirzəyevi "İstiqlal Şəhidi" adlandırmışdır...

## MUSTAFA bəy QABULOV
## (1840-1930)

Mustafa bəy Qabul oğlu Qabulov (tarixi ədəbiyyatda Kabulov, Qabilov da yazılır. Qabulov düzdür.) 1840-cı ildə Qaxda məşhur Qabulovlar ailəsində anadan olmuşdu. Azərbaycan Cümhuriyyəti dövründə o, 1919-cu ildə Cavanşir qəzasının rəisi təyin edilmiş və bu vəzifədə 1920-ci ilin yanvarınadək fəaliyyət göstərmişdi. Daxili işlər naziri M.Vəkilovun 24 yanvar 1920-ci il tarixli 805 nomrəli əmri ilə Mustafa bəy Qabulov tutduğu vəzifəsindən azad olunaraq xidmətdə irəli çəkilmiş və Balaxanı-Sabunçu polismeysteri təyin olunmuşdu. O, 1-ci dərəcə üzrə ayda 3.600 manat məvaciblə bu vəzifədə 1920-ci il aprelin 10-dək işləmişdi. Sonuncu tarixdən isə daxili işlər naziri M.Vəkilovun əmri ilə daha məsul vəzifəyə - Bakı şəhərinin polismeysteri vəzifəsinə təyin edilmiş, bu vəzifədə Azərbaycan Cümhuriyyətrinin süqutunadək (27 aprel 1920-ci il) xidmət göstərmişdi...

Mustafa bəy sonralar bu haqda belə bəhs etmişdi: "1920-ci il aprelin 10-da Bakı Dəmir Yolunun Tiflis vağzalında şəxsi vaqonunda onu qəbul edən Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri

Mustafa bəy Vəkilov mənim yeni vəzifəyə - Bakı şəhərinin polismeysteri vəzifəsinə təyin olunduğumu bildirərək, tapşırdı ki, özbaşınalığına görə polismeyster Rüstəm bəy Mirzəyevi həbs edim. O və yaxın adamları bolşevik Əli Bayramovun oğurlanıb vəhşicəsinə qətlə yetirilməsində müqəssir bilinirdilər. Mən R. Mirzəyevi və daha 3 nəfər qorodovoyu həbs edib, silahlı konvoyun müşayiəti ilə Bayıl Dustaxxanasına saldırdım. R. Mirzəyevin yaxın qohumu, 4-cü sahə polisinin pristavı Nurəddin Seyidovun (o, polismeyster Rüstəm bəy Mirzəyevin baçısı oğluydu) və onun müavini Süleyman bəy Sübhanverdixanovun yerlərini dəyişib Balaxanıya göndərdim...".

Bakı şəhərinin polismeysteri Mustafa bəy Qabulovun da aqibəti Azərbaycan Cümhuriyyəti dövründə xidmət göstərmiş bir sıra dövlət məmurları kimi facia ilə qurtarmış və o, 30-cu illər repressiyasının qurbanlarından biri olmuşdur. Belə ki, Azərbaycanda sovet hakimiyyəti dövründə keçmişinə görə repressiyaya məruz qalıb həbs olunan Mustafa bəy Qabulov da 1937-ci ildə güllələnmişdir...

## ƏLİ bəy HACIƏLİBƏYOV
## (1880 -1939)



Əli bəy İsmayıl bəy oğlu Hacıəlibəyov (Hacıləlibəyli) 1880-ci ildə Gəncədə hərbçi ailəsində anadan olmuşdu. Atası İsmayıl bəy (1810) çar ordusunda xidmət etmiş, poruçik rütbəsi almışdı. İsmayıl bəyin İbrahim bəy və Əli bəy adlı oğulları vardı... Əli bəy atasının yoluyla getmişdi... Gəncə gimnaziyasını bitirmiş, sonra Tiflisdə hərbi məktəbə daxil olmuşdu... Azərbaycan Cümhuriyyəti dövründə Gəncə şəhər polisində pristav və polismeyster köməkçisi vəzifələrində çalışmışdı. Sonra o, 1919-20-ci illərdə (ayda 2.300 manat məvacibla) Gəncə şəhərinin polismeysteri vəzifəsində xidmət göstərmişdi... Əli bəy Hacıəlibəyovun rəisliyi zamanı polismeysterliyin ştatları onun böyük köməkçisindən (1-ci müavini) və köməkçisindən (müavini), katibdən və onun köməkçisindən, mühasib, qeydiyyatçı (həmdə arxiuvarus) və tərcüməçidən ibarət idi. Gəncə şəhər Polismeysterliyi ümumən 7 sahə polis pristavlığına bölünürdü. Polismeysterliyin yanında xüsusi Xəfiyyə Şöbəsi də vardı (rəisi Mir Cavad Seyidov, polisə nəzarətçilər Əli Vəliyev, Muradağa Muradov və Mədət Quliyev idilər). Əli bəy Hacıəlibəyov Xudadat bəy Rəfibəylinin (1877-1920) Gəncənin general-qubernatoru olduğu dövrdə (6 may 1919 - 30 aprel 1920) polismeyster vəzifəsində çalışmışdı... O, ictimai asayişin mühafizəsində, cinayətkarlıq və onun ayrı-ayrı növləri ilə mübarizədə qətiyyətli fəaliyyət göstərdiyi üçün qubernator tərəfindən dəfələrlə təltiflənmişdi. Əli bəy Hacalıbəyov Gəncə üsyanının (24 may - 4 iyun 1920-ci il) fəal iştirakçısı idi. Milli təəssübkeş Əli bəy İsmayıl bəy oğlu Hacıəlibəyov repressiyanın qurbanı olmuşdu. O, artıq 1939-cu ildə həyatda yoxuydu...

## *GENERAL-QUBERNATORLARIN KÖMƏKÇİLƏRİ*

### ƏLİ bəy ZİZİKSKİ
(1878 -1928)

Əli bəy Harun bəy oğlu Zizikski milli istiqlal hərəkatımızın və Azərbaycan Cümhuriyyətinin görkəmli xadimlərindən olmuşdur. O, 1878-ci ildə, rəcəb ayının 23-də, çərşənbə günü Qubanın Zizik kəndində nüfuzlu əsilli ailədə dünyaya göz açmışdı. Dövrünün ali təhsilli və bacarıqlı şəxsiyyətlərindən olan Ə. Zizikski Rusiyada 1917-ci il Fevral inqilabından sonra həmin il martın 7-də 27 yaşında kapitan rütbəsində Xüsusi Zaqafqaziya Komitəsi tərəfindən Quba qəzasının milis komissarı təyin edilmişdi. Ə. Zizikski öz təşəbbüsü ilə Zaqafqaziya hökumətinin qərarını alıb, həmyerlisi Mir Cəfər Bağırovu (1895-1956...?) köməkçi ("müavin") təyin etdirmişdi.



*Əli bəy Zizikski (1878 -1928) (ailə üzvlərinin önündə)*



1917-ci il aprelin axırlarında qəza komissarı Əli bəy Zizikski sabitliyi pozmağa cəhd göstərən araqarışdıranları, muzdlu cinayətkarları, aşkarlayıb həbs etməyə başlamışdı. Həmin ilin sentyabrında "Rusiyada Müsəlmanlıq" partiyası və "İttihadi-İslam" təşkilatı birləşərək, vahid "İttihad" partiyası yaradılan zaman Əli bəy onun sıralarına daxil olmuşdu. 1917-ci il noyabrın 11-də Tiflisdə çağırılmış Zaqafqaziya milli siyasi partiyalarının toplantısında Quba qəzasından "İttihad"ın nümayəndəsi kimi məhz Əli bəy Zizikski iştirak etmişdi.

1918-ci ilin mart-aprel soyqırımı dövründə Əli bəy Qubaya gəlmiş erməni başkəsəni, Bakı XKS-in daşnak Amazaspın başçılıq etdiyi qüvvələrinə qarşı öz dəstəsi, milli təəssübkeş Həmdulla əfəndinin, Azərin və ona köməyə gəlmiş, dağıstanlı dostu Nəcməddin Qotsinskinin (qüvvələri ilə birlikdə müsəlman əhalisini qorumuşdu... 1918-ci il aprelin əvvəllərində Əli bəy təcili qoşun toplayaraq, qələgahlı Həmdullah əfəndinin, pozunlu Molla Möhləvinin (Möhləlinin), cağarlı Hatəmin, xuluqlu Hacı Cavadın, qubalı Səttar Əfəndiyevin, qonaqkəndli qaçaq Mayılın (Mayıl Zahirovun) və Alpan bəylərinin dəstələrini birləşdirib, 1500 nəfərlik qoşunla Bakıya - azərbaycanlılara qarşı soyqırımın törədilməsinin təşkilatçısı S. Şaumyanın üzərinə yürüş etmiş və gəlib Xırdalanın yanına çıxmışdı. Burada 3 gün şiddətli döyüş olmuşdu... Dağıstana gedib orada Qafqaz İslam Ordusundan və oradakı yerli əhalidən yeni hərbi dəstə yaradan Əli bəy Hamazaspın daşnak-bolşevik qüvvələrinə zərbə endirərək, "Qanlı dərə" adlanan Şimi dərəsindəki döyüşdə çoxli erməniləri qıraraq 1918-cil mayın ortalarında Qubanı azad etmişdi...

Azərbaycan Cümhuriyyəti yarandıqda, Əli bəy Zizikski Azərbaycan Milli Ordusunun sıralarına daxil olmuşdu...1918-ci il sentyabrın 15-də Bakı Nuru paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Silahlı Qüvvələri tərəfindən "Sentrokaspi" hökuməti və onların havadarlarından azad olunduğu gün Bakının müvəqqəti qubernatoru təyin olunmuş türk zabiti - yarbay (podpolkovnik) Mehmet Fəthinin böyük köməkçisi (ayda 2700 manat məvaciblə) təyin edilmişdi...

Azərbaycan Milli Şurası tərəfindən qəbul edilmiş "Milli Məclisin təsisi haqqında" 19 noyabr 1918-ci il tarixli qanununa əsasən keçirilən seçkilər zamanı Əli bəy Zizikski dostu və silahdaşı Qələ-

gah kəndindən olan nüfuzlu şəxs, milli İstiqlalımızın fədakar keşikçilərindən biri Həmdulla əfəndi ilə birlikdə Quba qəzasından 1918-ci il dekabrın 7-də açılan Azərbaycan Parlamentinə millət vəkili seçilmişdi. Onlar eyni zamanda Bakı qubernatorunun köməkçiləri (Ə. Zizikski böyük köməkçi (1-ci müavin), Həmdulla əfəndi isə köməkçi (müavin) təyin edilmişdilər... Əli bəyin millət vəkili seçilməsi ermənilərı bərk narahat etmişdi. Onlar Əli bəyi aradan götürmək üçün terror aktı planı hazırlamış və onun həyata keçirilməsi Erməni Milli Şurasının üzvü Armikə və Vartanın qızı Haykanuşa tapşırılmışdı...

Əli bəy parlamentdə "İttihad" partiyasını və fraksiyasını təmsil edirdi. Parlamentdə "İttihad" fraksiyasının 13 nəfər üzvü içərisində Əli bəyin adı sayca 10-cu çəkilirdi... Əli bəy Zizikski doktor Qara bəy Qarabəylinin (Qarabəyovun) (1873-1953) sədr olduğu "İttihad" partiyasının 1919-cu ilin aprelində olmuş 1-ci və 1920-ci ilin yanvarında keçirilmiş 2-ci qurultayında partiyanın Mərkəzi Komitəsinə üzv seçilmişdi...

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra yeni quruluşa qarşı müqavimət hərəkatında iştirak etsədə, təqibdən yaxa qurtarmaq üçün İrana keçib bir müddət orada yaşamışdı. İrana-Cənubi Azərbaycana mühacirətə gedəndə atası Harun bəy (1843-1915) kimi qayğılarını onlardan əsirgəmədiyi Quba əhalisi onu Quba-Xaçmaz yoluna qədər müşayiət etmiş, "Yolunu gözləyirik, bəy!", - demişdilər. İranda olarkən Əli bəy Şimali Azərbaycanda baş verən hadisələr barədə ögey qardaşı Hacıbala Məmmədyarovun İrana tez-tez gəlib gedən tanışları vasitəsilə xəbərdar olurdu. Şah rejiminə uyğunlaşa bilməyən Əli bəy Hacıağa İbrahim oğlunun köməkliyi ilə 1922-ci ildə Vətənə qayıtmışdı...

Vaxtilə onun köməkçisi olmuş M. C. Bağırov Azərbaycan SSR FK-nın sədri və xalq daxili işlər komissarı təyin edildikdən sonra 1922-ci ildə Əli bəyin Vətənə qayıtmasına kömək etmişdi. M. C. Bağırov Əli bəy Zizikskinin Qubada üzə çıxmasaı və Bakıda yaşaması üçün qanuni sənədlər düzəltmişdi. Beləliklə, Ə. Zizikski leqal imkan əldə etmişdi. Lakin Ə. Zizikskini M. C. Bağırov da həbs olunmaqdan xilas edə bilməmişdi. O, Əli bəyi yalnız 1928-ci ilədək müdafiə edə bilmişdi və Azərbaycan Cümhuriyyətinin digər görkəmli xadimləri kimi onu da həbs etmişdilər. Bu, belə baş vermişdi.



... Əli bəy Bakıda Köhnə Qəbristanlıq küçəsi, 79 nömrəli evdə ailəsi ilə birlikdə yaşayır və şəxsi mülkünü kirayiyə verməklə dolanırdı. 1927-ci ilin axırlarında M. C. Bağırovun göndərdiyi adam Əli bəyə xəbər verdiki, onun başı üzərində qara buludlar sıxlaşmaqdadır və yüksək vəzifədə çalışan A. Mikoyan onunla ciddi maraqlanır. Təcili Bakıdan getsin. Bu xəbərdarlıqdan sonra Əli bəy Zizikski hara gedəcəyi barədə götür-qoy etməyə və hazırlaşmağa başladı. Təzədən İrana qayıda bilməzdi, orada şah rejimi (fars Pəhləvilər) tərəfindən azərbaycanlılara qarşı aparılan ifrat millətçi siyasətinə görə Rusiyada da yaşaya bilməzdi, oranın psixologiyasına, həyat tərzinə və dini mənsubluğuna görə, Türkiyəyə getməyi qərarlaşdırdı... Bu fikrini bacıları Umra xanıma və Sona xanıma, həyat yoldaşı Fatma xanıma bildirdikdən sonra vaxt itirmədən ev əşyalarını sataraq yol pulu və sənədlər hazırlamışdı.

Səmişin gəmisində ailə üzvləri buraxılış məntəqəsindən keçsə də, onu özünü gözlərinə qara eynək taxmış 4 nəfər hündürboy Azərbaycan DSİ əməkdaşı həbs edib, qollarına qandal vuraraq, öz idarələrinə gətirmişdilər. Əli bəyi fikir götürmüşdü ki, Türkiyəyə gedəbiləcəyini bacıları və həyat yoldaşından başqa heç kəs bilmirdi...

DSİ əməkdaşları, baş müstəntiq Andrey Andreyev və müstəntiq Aşot Sumbatyan Əli bəylə pis və amansız rəftar edib onu ələ salır, keçmişini təhqir edir, rezin dəyənəklə döyür, vaxtı ilə Qubada ermənilərin "qəhrəmanı" Amazaspın qoşunlarını darmadağın etdiyini, Bakı üzərinə Xırdalana qədər yürüşünü və s.-ni xatırlayırdı... Sorğu-sualı əl-qolu bağlı Əli bəyin üzünə siqaret üfürə-üfürə aparan A. Sumbatyan və A. Andreyev bu mərd şəxsin yenilməzliyi və cəsarətli cavabları qarşısında mat qalmışdılar. Onu millətçilikdə günahlandırırdılar. Əli bəyə dostu, Gəncənin general-qubernatoru Xudadat bəy Rəfibəyliyə böhtan dolu yazılmış kağıza qol çəkməsini, əvəzində yaxşı vəzifə verəcəklərini təklif etmişdilər. Lakin o, bundan qəti imtina etmişdi. Odur ki, Əli bəyin dırnaqlarını da çıxarmışdılar. Rezin dəyənəklə vurulan zərbələrdən qanla dolmuş ağzından qan süzülsə də, o, bütün ağır işgəncələrə mərdliklə dözmüş, ona qarşı irəli sürülən ittihamı qətiyyətlə rədd etmiş və demişdi: Əgər günahım varsa, Qubadakı meydanda xalqın qarşısında mühakimə edin, təqsirim hamıya əyan olsun ".

1928-ci ildə Azərbaycana rəhbərlik edən Levon Mirzoyan, Əli Heydər Qarayev və Hüseyn Bala Ağaverdiyev üçlüyü onlara düşmən olan M. C. Bağırovu Azərbaycandan "çıxardıqdan" sonra (M. C. Bağırov onların əlindən Tiflisə, keçmiş dostu və vaxtilə onun Azərbaycan FK-da müavini olmuş, həmin vaxt Zaqafqaziya Partiya Komitəsinin 1-ci katibi vəzifəsində işləyən Lavrenti Beriyanın yanına "qaçmışdı") Əli bəyi Bakıda Çəmbərəkənddəki həmin evində həbs etmişdilər. Onu M. C. Bağırovun yerinə təyin edilmiş, Novruz Rizayev (1883-1941) şəxsən həbs etmişdi. Ə. Zizikskini N. Rizayevin sədr olduğu Azərbaycan SSR DİSİ Kollegiyasının 1928-ci il 6 avqust tarixli qərarına əsasən güya "erməni qırğını törətmək" ittihamı ilə həbs etmişdilər...

1928-ci il avqustun ortaları idi. Bacısı Umra xanım (1907-ci ildə Zizik kəndində anadan olmuşdu. O, kəndin ilk alimlərindən idi...Sonralar Azərbaycan Tibb Universitetini bitirib adlı-sanlı ginekolq olmuşdu. 1987-ci ildə dünyasını dəyişmişdir) həbsxanaya qardaşına növbəti dəfə çörək gətirəndə ona bildirmişdilərki, Əli bəy daha burada yoxdur. Haraya aparıldığı da bəlli deyildir...

Ə. Zizikskini 1928-ci il sentyabrın 17-də güllələmişdilər... Bu zaman onun ömrünün yetkin yaşı idi. Beləliklə, Əli bəyi cəmi 50 yaşı olarkən güllələmişdilər...(**Qeyd:** *Əli bəy Zizikskinin ölüm tarixinin dəqiq üzə çıxarılması Bakı Avrasiya Universitetinin perofessoru Ə. Tahirzadəyə məxsusdur*).

Azərbaycan İstiqlal Hərəkatının və Azərbaycan Cümhuriyyətinin görkəmli xadimi Əli bəy Zizikskinin adına Qubada küçə vardır...

## MAHMUD bəy SƏFİKÜRDSKİ (1898-1977)

Mahmud bəy Bala bəy oğlu Səfikürdski 1898-ci ildə Gəncə qəzasının Səfikürd kəndində (indu Goranboy rayonundadır) hərbçi ailəsində anadan olmuşdu. Atası Bala bəy Səfikürdski 1857-ci ildə Səfikürd kəndində döğulmuş,çar ordusunda xidmət etmiş, praporşik (gizir) rütbəsi almışdı... O, xidmət zamanı Birinci Dünya Müharibəsi dövründə Rusiya qoşunlarının tərkibində rumın cəbhəsindəki



döyüşlərdə iştirak etmişdi. Yelizavetpol (Gəncə) Quberniya İdarəsində tərcüməçi də işləmişdi. Belə bir şəxsin ailəsində böyümüşdü Mahmud bəy.

... Mahmud bəy Səfikürdski Gəncədə Hüseynqulu xan Xoyskinin sədr olduğu və gənclərdən ibarət yaratdığı "Yaşıl qvardiya adlı" özünümüdafiə dəstəsinin tərkibində komandir olmuşdu... Mahmud bəy hüquq sahəsi ilə yaxından maraqlanırdı. Lakin iş elə gətirmişdi ki, o, 1919-cu ildə hüquq fakultəsinə yox, BDU-nun tibb fakultəsinə daxil olmuşdu. Ailə vəziyyəti və maddi çətinlik işləməyi tələb etdiyindən Azərbaycan Əks-İnqilabla Mübarizə Təşkilatnın rəisi Nağı bəy Şeyxzamanlının təklifi ilə bu xüsusi orqana işə girmişdi. Çünki N. Şeyxzamanlı onu Gəncədəki fəaliyyətindən... yaxşı tanıyırdı və ona zəmanəti də özü vermiş və müavin vəzifəsinə təyin etmişdi. Bu təşkilta qəbul şərtlərində belə təsdiq olunmuşdu ki, rəhbər heyətə yalnız iki partiyanın "Müsavat" (sədr) və "Hümmət" (müavin) partiyalarının üzvləri təyin olunmalıdır. Odur ki, Mahmud bəy Səfikürdski "Hümmət"dən ƏMT-yə sədr müavini təyin edilmişdi. Beləliklə, gənc, bacarıqlı və perspektivli hesab olunan Mahmud bəy Səfikürdski 1919-cu il noyabrın 15-də Azərbaycan Cümhuriyyəti DİN-ə tabe olan Əks - İnqilabla Mübarizə Təşkilatının (Əks-Kəşfiyat İdarəsinin) sədr (rəis) müavini vəzifəsinə təyin olunmuşdu. Həmin vaxt bu qurum DİN-in əsas strukturlarından biri olan Bakı General-Qubernatorluğunun tabeliyindəydi. Bu mənada Mahmud bəy Səfikürdski tutduğu vəzifə nöqtey-nəzərindən həmdə, Bakı general-qubernatorunun müavini hüququnda idi...

M. Səfikürdski DİN-in Əks - İnqilabla Mübarizə Təşkilatının rəis müavini vəzifəsində həmin qurumun ləğvinədək, yəni 1920-ci il martın 6-na qədər çalışmışdı. O, bu vəzifədə xidmət edərkən özünü layiqincə aparmış, müstəqil gənc respublikamızın təhlükəsizliyinin təmin edilməsində öz bacarığını əsirgəməmişdi. Xüsusilə, erməni casuslarına və ağqvardiyaçıların təxribat hərəkətlərinə qarşı bütün imkanlarını səfərbər etmişdi...

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bir qrup orqanda işləmək təcrübəsi olan hümmətçi kadr Azərbaycan SSR Fövqəladə Komissiyasında (FK) işə qəbul edilmişdi. Onların biri də Mahmud bəy Səfikürdski idi. Lakin onun FK-da işləməsi uzun çək-

məmişdi. 1920-ci il noyabrın 22-də M. Səfikürdskinin həbs edilməsi haqqında 1906 nömrəli order imzalanmışdı. Bir gün sonra onu Quba şəhərində həbs edib Bakıya göndərmişdilər. M. Səfikürdskini kommunistlərə qarşı çıxış etməkdə suçlandırırdılar... Amma "cinayəti" sübut olunmadığından azad etmişdilər. 1921-ci il yanvarın 21-də onun haqqında qərar çıxarıldıki, tutduğu vəzifədə qala bilməz. Buna baxmayaraq, təqiblər davam edirdi və dözülməz şərait yaranmışdı...

Belə vəziyyətdə Mahmud bəy Azərbaycanı tərk etmək məcburiyyətində qalmışdı. O, əvvəlcə Yuqoslaviyaya köçüb bir müddət orada yaşamış və ticarətlə məşğul olmuşdu. Sonrakı həyatını Türkiyədə yaşmışdı... Mahmud bəy Səfikürdski 1977-ci ildə Türkiyədə, 79 yaşında vəfat etmişdi. Onun Əli bəy adlı oğlu, Mələk xanım, Bilqeyis xanım və Leyla xanım adlı qızları vardı...

## HÜSEYNQULU xan XOYSKİ
## (1869-1955)



Fətəli xan Xoyskinin Cahangirdən sonrakı, özündən böyük ikinci qardaşı Hüseynqulu xan Xoyski milli istiqlal hərəkatımızın fəal iştitakçılarından, Azərbaycan Cümhuriyyətinin yaşaması üçün var qüvvəsini axıradək sərf etmiş fədailərdən biridir. Hüseynqulu xan İsgəndər xan oğlu Xoyski 22 sentyabr 1869-cu ildə Gəncədə anadan olmuşdu. İsgəndər xanın Şəhrəbanu xanım Hacı Molla Zeynal qızından olan Hüseynqulu xan Cahangirdən fərqli olaraq Fətəli xanın doğma qardaşı idi.

Peşə etibarı ilə hərbçi olan Hüseynqulu xan hələ 1917-ci ildə Gəncədə gənclərdən ibarət "Zelyonaya qvardiya" ("Yaşıl qvardiya") adlı təşkilat yaradıb onlara təlim keçməklə məşğul olmuşdu...



1918-ci il Mayın 28-də Tiflisdə Azərbaycan Cümhuriyyətinin yaranması xəbərini Gəncə camaatına ilk çatdıran məhz Hüseynqulu xan olmuşdu. Azərbaycan Cümhuriyyəti dövründə əvvəlcə 261-ci Şamaxı Piyada Alayında batalyon komandiri vəzifəsində xidmət göstərmişdi. Podpolkovnik rütbəsi vardı. O, 1918-ci ilin iyununda Gəncənin ilk qubernatoru, general-mayor İbrahim ağa Vəkilovun böyük köməkçisi (1-ci müavini) (2.500 manat məvaciblə) təyin olunmuşdu. Azərbaycan hökumətinin qərarı və DİN-in 30 mart 1919-cu il tarixli əmri üzrə nümunəvi xidmətlərinə görə Gəncə qubernatoru İbrahim ağa Vəkilova general-mayor, onun böyük köməkçisi Hüseynqulu xan Xoyskiyə isə polkovnik hərbi rütbəsi verilmişdi. 1919-cu il mayın 6-da Gəncəyə yeni qubernator, Xudadat bəy Rəfibəyli təyin olunanda Hüseynqulu xan həmin vəzifədə saxlanmış və Azərbaycan Cümhuriyyətinin süqutuna qədər bu vəzifədə uğurla axıradək, canla-başla xidmət göstərmişdi. O, Xudadat bəylə bərabər, Azərbaycan Cümhuriyyətinin Gəncə General-Qubernatorluğu hakimiyyət strukturunun sovet hakimiyyəti nümayəndələrinə təhvil verilməsi (1920-ci il aprelin 30-da) sənədlərinə imza atan şəxs olmuşdu.

1920-ci il Gəncə üsyanının (24 may - 4 iyun ) əsas iştirakçılarından biri olan Hüseynqulu xan bolşeviklərin təqibindən və labüd güllələnmə təhlükəsindən yaxa qurtararaq Türkiyənin İstanbul şəhərinə köçməyə macal tapa bilmişdi. Həyat yoldaşı Şirinbəyim xanım, əslən Cənubi Azərbaycanın Xoy şəhərindən olub, Gəncə xanı Cavad xanın nəslindən Əbülfət xan Ziyadxanlının qızı idi (1875, Nuxa - 25 may 1957, İstanbul). Hüseynqulu xan Şirinbəyim xanım, öğlanları Zahid xan və İsgəndər xanı, qızları Valiyyə və Samini, 6 aylıq nəvəsi Abbası və kürəkəni, məşhur Gəncə üsyanının başçısı, polkovnik Cahangir bəy Kazımbəyov (1888-1955) götürüb əvvəlcə İrana, sonrada İstanbula keçmişdi.

Qeyd etmək lazımdır ki, Hüseynqulu xanın kürəkəni, Gəncə üsyanının məşhur rəhbəri, şeyxli polkovnik Cahangir bəy Kazımbəyov 1988-ci ildə Gəncədə anadan olmuşdu. Peterburq Hərbi-Hava Akademiyasının məzunu, ilk təyyarəçilərimizdən idi (İlk hərbi təyyarəçimiz isə əslən Qazağın Qıraq Salahlı kəndindən olan, I Dünya Müharibəsində, 1916-cı il sentyabrın 8-də döyüş təyyarəsində həlak

olmuş poruçik (baş leytenant) Fərrux ağa Qayıbov (Qayıbzadə) (1891-1916), ikinci təyyarəçimiz isə Teymur Mustafayev (1896, Bakı - 1981, Karaqanda, Qazaxıstan) olmuşdur). C. Kazımbəyov I Dünya Müharibəsində almanlara qarşı vuruşmuşdu. 1918-ci ilin iyununda Milli Ordumuz yarananda Rusiyadan Gəncəyə gəlmişdi. O, Hüseynqulu xan Xoyskinin böyük qızı Valiyyə xanımla (11 dekabr 1900, Gəncə - 26 aprel 1947, İstanbul) ailə qurmuşdu. Polkovnik Cahangir bəy Kazımbəyov Azərbaycan Cümhuriyyətinin süqutundan sonra həyat yoldaşı Valiyyə xanımı, 6 aylıq oğlu Abbası, qaynanası Şirinbəyim xanımı, baldızı Samini (10 avqust 1904, Gəncə - 19 iyul 1971, İstanbul), qayınları Zahid xanı və İsgəndər xanı 2 faytona yığaraq 20 silahlı əsgərin müşayiətilə, dağ yollarıyla qohumlarından birinin yaşadığı Qazaxa gəlmişdi. Orada qaynansı Şirinbəyimin xalası yaşayırdı. Bir az dincəlməmiş, xəbərçilər onların gəlişini bolşeviklərə çatdırmışdılar. Odur ki, qala bilməmişdilər və Cahangir bəy evi mühasirəyə almağa qoymayaraq, atışa-atışa öz əsgərləri ilə dağlara çəkilmiş, oradan isə İrana keçmişdi... Ailəsi isə tutularaq yenidən Gəncəyə qaytarılmışdı. Lakin Gəncəyə gəlmiş Azərbaycan SSR-in xalq daxili işlər komissarı Həmid Sultanov C. Kazımbəyovun ailə üzvlərini ölümdən qurtarıb onları azad etdirmiş və Şirinbəyimin qardaşı Şahverdi xan Ziyadoğlunun evində yaşamağa icazə vermişdi.

C. Kazımbəyovun ailə üzvləri Gəncədə çox qala bilməzdilər...Odur ki, İran konsulunun verdiyi "saxta" pasportlarla əvvəlcə Batuma, oradan isə "İtaliyanın "Reno" gəmisilə İstanbula gəlmiş, orada yaşayan Hüseynqulu xanı tapmışdılar. Cahangir bəy isə yalnız bir müddətdən sonra İstanbula gəlib çıxa bilmişdi... Həmin müddətdə 35 yaşlı C. Kazımbəyov İrandan Gəncəyə qayıdaraq Azərbaycan Ordusunun 3-cü Süvari Alayının komandiri kimi 11-ci orduya (rus-erməni bolşeviklərə) qarşı itirilmiş milli istiqlaliyyətimizi bərpa etmək və qoruyub saxlamaq üçün silahdaşları, Azərbaycan Ordusunun Baş Artilleriya İdarəsinin rəisi, general-mayor şahzadə Məhəmməd Mirzə Qacar (1853, Şuşa - 6 iyun 1920, Nargin adasında bolşeviklər tərəfindən güllələnib...), 1-ci piyada diviziyasının komandiri, general-mayor Cavad bəy Şıxlınski (3 yanvar 1875, Qazax qəzası, Şıxlı kəndi -19 59, Türkiyə, 84 yaş), süvari diviziyanın komandiri, general-mayor Teymur bəy Novruzov Zülqədər (20 aprel 1880, Yelizavetpol (Gəncə) qəzasının Qovlar (Tovuz) kəndi - 3 may 1961, Nitsa (Fransa), 81 yaş) və başqa milli təəssübkeşlərimizlə birlikdə üsyana başçılıq etmişdi...

C. Kazımbəyov qeyri-bərabər döyüşdə davam etmiş üsyanın məğlubiyyətindən sonra (üsyanın yatırılmasında Gəncənin ikinci hissəsində yaşayan ermənilərin 11-ci işğalçı orduya bələdçilik və xəbərçilik etməsi də təsirli amillərdən olmuşdu) İstanbula qayıdıb 1922-ci il qədər, orada yaşamışdı. İstanbula gəldikdən sonra Kazımoğlu (tarixi ədəbiyyatda Kazımbəyli də yazılır) soyadını qəbul etmiş və bu adla mühacirətdə fəaliyyətini davam etdirmişdi. 1922-ci ildə Polşanın başçısı marşal Pilsudskinin dəvəti ilə Varşavaya köçmüşdü. Polşada ailəsilə yaşayan, sovet hakimiyyətinə nifrəti heç vaxt sönməyən, onunla heç vaxt barışmayan polkovnik C. Kazımbəyli Polşa ordusunda diviziya komandiri kimi xidmət etmişdi. C. Kazımbəyliyə böyük hörmətlə yanaşan marşal Pilsudski ona general vəzifəsinə bərabər diviziya komandirliyini vermişdi. C. Kazımbəyli Polşada sovetlərə qarşı yaranmış "Prometey" Cəmiyyətinin fəaliyyətində də iştirak eirdi. İkinci Dünya Müharibəsi başlandıqdan sonra döyüşlərdən birində, Polşa ordusunun zabiti kimi yaralanıb əsir düşən Cahangir bəyi vaxtılə Yelenendorfdakı alman koloniyasında yaşadığı vaxtdan dostluq etdiyi, Almaniya ordusunun zabiti Emin Qud azad etdirmişdi. Emin Qud əsir düşmüş digər azərbaycanlılara da bacardığı köməyi göstərmişdi...

Əsirlikdən qaçan Cahangir bəy əvvəl bir müddət Almaniyada, sonra isə İtaliyada yaşamışdı. 1950-ci ildə yenidən İstanbula dönmüşdü. O, İstanbulda Kazımoğlu soyadı ilə Topxanada, Kadılılar küçəsində, 58/1 ünvanında ağır güzəran keçirmişdi... Həyat yoldaşı Valiyyə xanım 1947-ci ildə təyyarə qəzasında həlak olduqdan sonra İstanbulda ikinci dəfə Məryəm xanım adlı qadınla evlənmişdi... Lakin təzədən Almaniyaya qayıtmalı olmuş, ömrünün sonunadək burada yaşamış və mübarizədən dönməmişdi. 1943-cü il noyabrın 6-da Berlində, "Kayserol" otelində dünya azərbaycanlılarının 1-ci qurultayı keçirilmişdi. Qurultayı açmaq şərəfi məhz Cahangir bəyə həvalə olunmuşdu. Qurultayda "Milli Birlik Məclisi" təsis olunmuş və Ceyhun Hacıbəyli (1891, Şuşa - 1962 Paris) onun

rəhbəri seçilmişdi. C Hacıbəyli və Fətəlibəyli Əbdürrəhman bəy Düdənginski (12 iyun 1908 İrəvan quberniyası, Şərur qəzası Düdəngə kəndi - 20 noyabr 1954, Münhen, Almaniya. "Abo" təxəllüslü Ə. Düdənginski Azərbaycan legionunun yaradıcısı və komansdiri olmuşdu... Muzdlu qatil, SSRİ DTK-ın agenti, "Miller" ləqəbli Georgi Vladimiroviç tərəfindən xaincəsinə qətlə yetirilmişdi) ilə ən sadiq dost olan C. Kazımbəylinin Varşavada, Berlində və Romadakı evi bütün mühacir azərbaycanlılar üçün mərkəz, "ata evi" sayılırdı.

... 1947-ci il aprelin 26-da arvadı, Hüseynqulu xanın qızı Valiyyə xanımın təyyarə qəzasından həlak olması Cahangir bəyi bərk sarsıtmışdı. Bu hadisə belə baş vermişdi: Valiyyə xanım Gəncə üsyanının fəal iştirakçılarından biri idi. Əri, atası və qardaşları ilə birlikdə milli istiqlaliyyətimiz uğrunda var qüvvəsilə çalışırdı. O, mühacir azərbaycanlıların yaratdığı "Milli Birlik Məclisi"nin üzvü idi və onun tapşırıqlarını dəqiqliklə icra edirdi. 1947-ci il aprelin 26-da mühüm bir tapşırıqla İstanbuldan Romaya yola salınmışdı. Lakin təyyarə Yunanıstanın paytaxtı Afina üzərində qəzaya uğramış, Valiyyə xanım və 12 nəfər yüksək rütbəli azərbaycanlı mübariz həlak olmuşdu. Bəlkə də bu hadisə təsadüfi deyildi... Cəmi 47 yaş ömür sürmüş, lakin həyatını Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizəyə həsr etmiş, yüksək nüfuz qazanmış bu mərd qadının (o, həm də gözəl pianoçu olmuşdur) dəfni böyük izdihama çevrilmişdi. Onun dəfninə Avropanın hər yerindən məsləkdaşları və mübariz yoldaşları gəlmişdilər. Hüseynqulu xan Xoyskinin qızı Valiyyə xanım Xoyski böyük hörmətlə İstanbulun "Fəri köy" qəbristanlığında dəfn olunmuşdur...

C. Kazımbəyli mətbuat sahəsində məqalələrlə çıxışlar edirdi. Onun hələ 1951-ci ildə Almaniyanın Münhen şəhərində çıxan azərbaycanlı mühacirlərin təsis etdiyi Azərbaycan Milli Birlik Təşkilatının orqanı olan "Azərbaycan jurnalında "Qafqaz imperializm ərəfəsində" məqaləsi dərc edilmişdi. C. Kazımbəylinin Azərbaycan Milli Birliyinin ABŞ-da da çıxan orqanı "Azərbaycan" jurnalının 1953-cü il tarixli 12-ci (dekabr) nömrəsində "Gəncə üsyanı haqqında xatirələr" adlı məqaləsi dərc olunmuşdu. Məqalədə o, ilk dəfə olaraq Gəncə üsyanının tarixi ilə əlaqədar sovet dövründə təhrif olunmuş fakta aydınlıq gətirmişdi. Belə ki, sovet tarixçiləri həmişə Gəncə üsyanının 1920-ci il mayın 25-31-də baş verdiyini yazmışlar. Cahangir bəy isə üsyanın təşkilatçılarından biri kimi (Gəncə üsyanı Cahangir bəyin işarəsi ilə başlanmışdı) onun 1920-ci il mayın 24-də axşam saat 8-də başlanıb, iyun ayının 4-də gecə saat 3 radələrində başa çatdığını yazmışdır. Bu faktı Cahangir bəyin qaynı, Gəncə üsyanının iştirakçılarından biri, ömrünün sonunadək ABŞ-da mühacir həyatı yaşamış Zahid xan Xoyski, Nağı bəy Şeyxzamanlı və başqaları da təsdiq etmişlər...

Ömrünün axır günlərini də mühacirətdə - Almaniyada keçirən, orada fəaliyyət göstərən "Azadlıq" radiosunda işləmiş (C. Kazımbəyli "Azadlıq" radiosunun yaradıcılarından biri idi) polkovnik Cahangir bəy Kazımbəyli 1955-ci il yanvar ayının 17-də Berlin şəhərində müəmmalı şəkildə, 67 yaşında vəfat etmiş və orada torpağa tapşırılmışdır... Həmin vaxt Türkiyədə çıxan qəzetlərdə dərc olunmuş nekroloqlarda Cahangir bəyin ölümünün SSRİ DTK-nın agentləri tərəfindən təşkil olunduğu yazılmışdı... Nekroloqlarda bildirilirdi ki, ömrü boyu sovet quruluşu ilə barışmaz olmuş Cahangir bəy Türkiyədən Berlinə bir qadının "sifarişi" ilə dəvət olunmuş və bundan çox keçmədən onun müəmmalı şəkildə həlak olması xəbəri yayılmışdı...

Artıq yuxarıda bəhs etdiyimiz kimi, C. Kazımbəylinin həyat yoldaşı Valiyyə xanım İstanbulda "Fəri köy" qəbristanlığında dəfn olunmuşdu. Onların 3 oğlu qalmışdı. Böyük oğlu Əli bəy İstanbulda, ortancıl oğlu Mustafa bəy və övladları İtaliyada, kiçik oğlu Abbas bəy isə Polşada yaşayırlar... (**Qeyd:** *Bütün tarixi ədəbiyyatlarda Cahangir bəy haqqında bəhs olunarkən onun atasının adı yazılmayıbdır. Baxmayaraq ki, Türkiyədə onu Kazımoğlu kimi çağırmışlar... Ehtimalımıza görə, Cahangir bəy böyük oğluna atası Əli bəyin adını qoymuşdur... Əli bəy İstanbulda məşhur Taksim Meydanında yaşayırdı...*).

C. Kazımbəylinin qayınatası Hüseynqulu xana gəldikdə, o, SSRİ-nin düşməni olan Polşanın (Poloniyanın) rəhbəri, milliyyətcə polyak tatarı olan Yuzef Pulsudskinin (1867-1935) dəvətilə bir müddət orada yaşamış, sonra yenidən İstanbula dönmüşdü. Hərbi rütbəsi polkovnik olan Hüseynqulu xan 1925-ci ildən sonra Türkiyə Cümhuriyyətinin prezidenti Mustafa Kamal Paşa Atatürkün (1881-1938) göstərişilə oğlu İsgəndər xanla birlikdə hərbi məktəbdə

tərcüməçi kimi çalışmışdı. Hüseynqulu xanın oğlu İsgəndər xan ixtisasca hüquqşünas idi. Hər ikisi rus dilini təmiz bildiyindən onlar Türk Hava Yolları Qüvvələrinin tabeliyində türklərə uçuş təlimləri öyrədən rus təyyarəçiləri ilə tərcümə işlərinə cəlb olunmuşdular (bu, 1921-ci il martın 16-da Moskvada Türkiyə ilə RSFSR arasında bağlanmış dostluq və əməkdaşlıq haqqında müqaviləyə uyğun idi). (Tarixi dövrü mətbuatda Hüseynqulu xana general verilməsi barədə məlumat da vardır...).

## KƏRİM xan İRƏVANSKİ
## (1883-1919)

Kərim xan İrəvanski məşhur nəsildən olan Abbasqulu xan İrəvanskinin (1830-1907) oğlu idi. O, 15 noyabr 1883-cü ildə İrəvanda anadan olmuşdu. Çar ordusunda layiqli xidmətinə görə polkovnik hərbi rütbəsinə yüksəlmişdi. Qafqazda Kabardin Süvari Alayında xidməti zamanı igidliyi ilə ad çıxarmışdı. Onun çar II Aleksandrın (1818-81) qardaşı, böyük knyaz Mixail Aleksandroviçlə və rus ordusunun görkəmli sərkərdəsi, həmyerlisi, general-leytenant Hüseyn xan Naxçıvanski ilə yaxşı münasibətləri vardı...



*Kərim xan İrəvanski (şəkildə sağdan ayaqüstə)*

Kərim xan İrəvanski nümunəvi xidmətinə görə çoxlu müxtəlif təltiflərə layiq görülmüşdü. Azərbaycan Cümhuriyyəti hökumətinin başçısı F. Xoyskiyə göndərilmiş 28 yanvar 1919-cu il tarixli 364 nömrəli xidməti qeydlərdə bildirilirdi ki, Kərim xan İrəvanski 1918-ci ilin sonu - 1919-cu ilin əvvəllərində olan dövrdə erməni daşnak ordusu ilə döyüşlərdə azərbaycanlılardan



ibarət 1000 nəfərdən artıq Naxçıvan süvarilərinə komandirlik etmiş və düşmənə tutarlı zərbələr endirmişdir. Azərbaycan Cümhuriyyəti hökümətinin 28 fevral 1919-cu il tarixli qərarı ilə Bəhram xan Naxçıvanskinin başçılığıyla Cənub-Qərbi Azərbaycan (Naxçıvan) General-Qubernatorluğu yarandıqda məhz Kərim xan İrəvanski onun hərbi hissə üsrə köməkçisi (müavini) təyin edilmişdi...

... 1919-cu il martın 26-da Kərim xan İrəvanski Cənub-Qərbi Azərbaycan (Naxçıvan) General-Qubernatorluğunun hərbi hissə üzrə köməkçisi vəzifəsindən "tərxis" olunmuş və yenidən Qafqaza, Kabardin Süvari Alayına qayıtmışdı. K. İrəvanski Nalçik Dairəsində milliyyətcə balkar olan bir əsilzadə ailəsindən çıxmış Şənudə Kumukerovna Aydabulova (qız familiyası Şamşita Qazıməhəmmədovna idi) evlənmişdi...

Polkovnik Kərim xan İrəvanski 1919-cu il oktyabr ayının 9-da Volqaboyunda Saritsın cəbhəsində gedən döyüşlərdən birində həlak olmuşdu... Cəbhə komandanlığının təşkiltçılığı ilə Kərim xanın nəşi Nalçik şəhərinə gətirilərək oradakı Volnıy Aul qəbristanlığında dəfn edilmişdi...

## HÜSEYN bəy MAHMUDBƏYOV
## (1874-1920)

Hüseyn bəy Behbud bəy oğlu Mahmudbəyov 1874-cü ildə Şuşada əsilli ailədə anadan olmişdu. İbtidai təhsilini molla yanında almışdı. Sonra şəhər məktəbində oxumuşdu. Daha sonra, Şuşa qəza idarəsində 2-ci dərəcəli dəftərxana xidmətçisi kimi işə başlamışdı. Tərcüməçı və pristav vəzifələrini də daşımışdı. Azərbaycan Cümhuriyyəti dövründə əvvəlcə Zəngəzur və Cəbrayıl-Karyagin (indiki Füzuli rayonu) qəzalarında böyük köməkçi, sonra isə qəza rəisi vəzifəsində işləmişdi...1919-cu il yanvarın 15-də Qarabağ General-Qubernatorluğu yarananda o, general-qubernator Xosrov bəy Sultanovun köməkçisi (müavini ) vəzifəsinə təyin olunmuşdu (digər köməkçi erməni Qriqori Kələntərov idi...). H. Mahmudbəyov bu vəzifədə Azərbaycan Cümhuriyyətinin süqutunadək xidmət etmişdi...

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra vəzifədən kənarlaşdırılaraq, bir müddətdən sonra həbs olunan Hüseyn bəy Mahmudbəyov naməlum şəraitdə güllələnmişdi...

## HƏMDULLA əfəndi ƏFƏNDİZADƏ (1888-1929)



Həmdulla əfəndi milli istiqlaliyyətimizin fədakar keşikçilərindən biri olmuşdur. Həmdullah əfəndi İsmayıl əfəndi oğlu 1888-ci ildə Quba qəzasının Dəvəçi nahiyəsinin Qələgah kəndində anadan olmuşdu. İlk təhsilini kənd mollaxanasında və Qubadakı mədrəsədə almış, ərəb və fars dillərini öyrənmişdi. Sonra ikisinifli rus məktəbini bitirib (1906) rus dilinə də yiyələnmişdi.

1918-ci il martın sonu-aprelin əvvəlində S. Şaumyanın sədr olduğu Bakı XKS-in daşnak Amazaspın başçılığı ilə qaniçən hərbi dəstələri Qubaya doğru irəliləyərkən Dəvəçiyə daxil olub, dinc azərbaycanlıları və digər müsəlman əhalisini qırmağa başlayanda Həmdullah əfəndi dostu, qonaqkəndli əfsanəvi qaçaq Mayılla birlikdə əhalini ayağa qaldıraraq vuruşmuş, əhalinin müdafiəsini təşkil etmişdi.

Əhali arasında böyük nüfuzu olan Həmdulla əfəndi 1918-ci ildə Azərbaycan Milli Şurasının "Azərbaycan Məclisi-Məbusanın təsisi haqqında" 19 noyabr 1918-ci il tarixli qanuna əsasən Quba qəzasından Əli bəy Zizikski ilə bərabər Azərbaycan Parlamentinə millət vəkili seçilmişdi. Eyni zamanda, Əli bəy Zizikski Bakı qubernatorunun böyük köməkçisi (1-ci müavini), Həmdulla əfəndi isə köməkçi (müavin) təyin olunmuşdu... Həmdulla əfəndi Azərbaycan Parlamentində 13 nəfərin daxil olduğu "İttihad" fraksiyasında təmsil olunurdu. Onun adı fraksiya siyahısında 7-ci oxunurdu. Həmdulla əfəndi bir millət vəkili kimi vətəndaşları Bakıda, Serkovnaya küçəsi, 109-da qəbul edirdi...



Həmdulla əfəndi iri dəstələr toplayıb Azərbaycanda 1920-ci il 27 aprel işğalı ərəfəsində şimaldan azsaylı milli sərhəd qüvvələrimizi məğlub edərək Bakıya doğru irəliləyən 11-ci ordunun "Üçüncü İnternasional" zirehli qatarlarının və 299-cu atıcı polkunun ərazimizə daxil olmasının qarşısını kəsməyə cəhd göstərən Azərbaycan Cümhuriyyətinin qatarlar qrupunun rəisi knyaz İ. Lordikipanedzenin başçılıq etdiyi qüvvələrin sırasında vuruşsa da, lakin qüvvələr qeyri-bərabər olduğundan geriyə çəkilməyə məcbur olmuşdu...

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Həmdulla əfəndi ona qarşı müqavimətini davam etdirirdi. O, Əli bəy Zizikskinin, qaçaq Mayılın (1917-ci ildən Qonaqkənd Kənd Cəmiyyətinin yüzbaşısı idi. Qaçaq Mayıl Zahirov igidlikdə ad çıxarmışdı. At nalını barmaqları arasında qırırdı. Əlli yaşı tamam olmamış, 1924-cü ildə Azərbaycan FK-nın tutduğu muzdlu qatil tərəfindən arxadan güllə ilə vurulub qətlə yetirilmişdi...), cağarlı Hatəm Əsgərovun (1923-cü ildə Azərbaycan FK tərəfindən ələ keçirilib güllələnmişdi...) könüllü dəstələri ilə birlikdə Dərə Çiçəkdə toplantı keçirmiş və 11-ci orduya qarşı döyüş əməliyyatı aparmışdı... Həmdulla əfəndi 1920-ci il avqustun 30-da başına 2 min nəfərlik könüllü döyüşçü toplayaraq, bolşeviklərə qarşı vuruşmuşdu. Həmin könüllülərə həmçinin Şəmsəddin əfəndi, türk zabitləri İsmayıl Əli əfəndi, Səttar əfəndi, Şükür bəy və Arif əfəndi Şıxzadə başçılıq etmişdilər. 1920-ci il sentyabrın 7-də Həmdulla əfəndi Şalomovun komandirlik etdiyi 11-ci ordu hissələrinin üzərinə hücum edib onu darmadağın etmişdi. Lakin əlavə qüvvələr alan sovet ordu hissələri 245-ci atıcı polkunun köməyi ilə 3 gün sonra, 1920-ci il sentyabrın 10-da Həmdulla əfəndinin olduğu Qələgah kəndinə hücum etmiş və döyüş zamanı o, yaralansada, onu tutmağa müvəffəq olmamışdılar. Həmdulla əfəndi nəhayət, çətinliklə də olsa, 1928-ci ildə ələ keçirilib, həbsdə saxlanmış, sonra isə Sibirə sürgün olunmuş və 1929 - cu ildə orada vəfat etmişdi... Bu zaman onun cəmi 40 yaşı vardı. Qeyd etmək lazımdır ki, əslən Qubanın Zizik kəndindən olan yazıçı Kərim Dünyamalı Həmdulla əfəndinin 1929-cu ildə Bakıda, Nargin adasında güllələndiyini yazmış və güllələnməzdən əvvəlki məhbus paltarında olan şəkilini də kitabına daxil etmişdir...

## MEHRƏLİ bəy FƏRZƏLİBƏYOV
## (1878-1942)



Mehrəli bəy Murtuzaqulu (Mürsəlqulu) oğlu Fərzəlibəyov 1878-ci ildə Şuşa şəhərində əsilli ailədə anadan olmuşdu. Şəhər real məktəbini bitirmişdi... "Müsavat" partiyasına daxil olmuşdu... Azərbaycan Cümhuriyyəti dövründə, 1918-ci ildən polis orqanlarında xidmətə girmişdi. O cümlədən 1919-20-ci illərdə Bakı Polismeysterliyində baş polis qulluqçusu, Bakı şəhərinin polismeysteri Rüstəm bəy Mirzəyevin böyük köməkçisi (5-ci dərəcə üzrə ayda 1800 manat əmək haqqı ilə) vəzifəsində çalışmışdı (**Qeyd**: *1919-cu ildə Bakı polismeysteri ayda 2.300 manat, onun böyük köməkçisi isə 1800 manat məvacib alırdı... Sonrakı ildə artmışdı).* Yaxşı fəaliyyətinə görə Azərbaycan Cümhuriyyəti daxili işlər nazirinin əvəzi Şəfi bəy Rüstəmbəylinin 14 mart 1920-ci il tarixli 45 nömrəli əmri ilə Şamaxı qəzasının rəisi Səlim bəy Ağakişibəyov tutduğu vəzifəsindən azad olunub Quba qəzasına rəis göndərilində, onun yerinə Mehrəli bəy Fərzəlibəyov tövsiyə olunmuşdu...

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Mehrəli bəy Fərzəlibəyov da XDİK-in 11 may 1920-ci il tarixli əmrilə tutduğu vəzifəsindən azad olunmuşdu. Bir müddət ona toxunmamışdılar... Lakin 30-cu illərin repressiya dalğası ondanda yan keçməmiş, məhz Azərbaycan Cümhuriyyətinin keçmiş polis məmuru olduğuna görə təqiblərə məruz qalmış, 1942-ci ildə həbs olunmuşdu...



## MƏNSUR bəy ŞIXLINSKİ
## (1892-1920)

Mənsur bəy Hüseyn bəy oğlu Şıxlınski 1892-ci ildə Qazax qəzasının II Şıxlı kəndində anadan olmuşdu. O, Qori Müəllimlər Seminariyasını bitirmiş, bir müddət pedaqoji fəaliyyətlə məşğul olmuşdu...

Azərbaycan Cümhuriyyəti dövründə, Bakıya gəlmiş və Bakı Polismeysterliyində qilluğa girmişdi. Əvvəlcə kiçik polis məmuru (onun köməkçiləri Velyamin Naydel və Mirhəmid bəy Talışxanov idi) vəsifəsində xidmət aparmışdı. Tədricən xidməti pillədə yüksəlmişdi. Mənsur bəy qanunların, ictimai asayişin qorunmasında və cinayətkarlıqla mübarizədə qətiyyətilə fərqlənirdi. Odurki, Bakı şəhərinin polismeysteri Rüstəm bəy Mirzəyevin böyük köməkçisi (1-ci müavini) təiyn edilmişdi. Ondan əvvəl bu vəzifədə Mehrəli bəy Fərzəlibəyov çalışırdı. Lakin M. Fərzəlibəyovu 1920-ci il martın 14-də Şamaxı qəzasının rəis əvəzi təyin etdikləri üçün həmin tarixdən xidməti vəzifədə irəli çəkilməklə məhz Mənsur bəy Şıxlınski onun yerinə təyin olunmuşdu. Mənsur bəy bu vəzifədə var qüvvəsini sərf etməklə sovet hakimiyyəti qurulanadək xidmət göstərmişdi.

XI ordunun Azərbaycanı işğal etdiyi 27 aprel 1920-ci ildən sonra XDİK yaranmışdı. Qısa müddətdə təcrübəli kadr kimi Mənsur bəyi Bakının 7-ci rayonunun milis komissarı vəzifəsində saxlamışdılar. Lakin 1920-ci il mayın 7-də onu keçmiş Bakı Polismeysterinin zabiti kimi həbs etmişdilər. Mənsur bəy XDİK rəhbərliyindən (o zaman Azərbaycan SSR-in xalq daxili işlər komissarı əslən Qazaxdan olan Həmid Sultanov idi) yalnız ailə işləri ilə məşğul olacağına söz verdikdən sonra həbsdən azad edilmişdi... Buna baxmayaraq, hiss edirdi ki, təqibdən yaxa qurtara bilməyəcək. Odur ki, 1920-ci ilin yazında Tovuza getmiş, müəllim vəzifəsinə düzəlmişdi. O, Gəncədə keçirilən maarif işçilərinin qurultayında

iştirak etmişdi. Elə həmin ilin iyulunda Tovuz Qəza Fəhlə-Kəndli Müfəttişliyinin katibi seçilmişdi.

Mənsur bəyin sonrakı ömrü təqiblərlə davam etmiş və faciə ilə sona yetmişdi. Sovet hakimiyyətinin onu bağışlamaq niyyəti yox idi. Azərbaycan Cümhuriyyətinə xidmət göstərdiyinə görə və Gəncə üsyanı (24 may - 4 iyun 1920) ilə əlaqədar olmaqda günahlandırılıb 11-ci ordunun Gəncədə yerləşən, qaniçən M. D.Velikanovun komandir olduğu 20-ci atıcı diviziyasının Xüsusi Şöbəsinin əməkdaşları tərəfindən 1920-ci il oktyabrın 18-də həbs olunub məhkəməsiz güllələnmişdi...

## SARI ƏLƏKBƏR
## (1885-1961)



Sarı Hacı Ələkbər İmamqulu oğlunun adı hələ çarizm dövründən "qaçaq Sarı Ələkbər" adı ilə məşhur idi. O, 1885-ci ildə Gəncənin Bağbanlar (camaat arasında Bağmanlar deyilir) qəsəbəsində doğulmuşdu. Deyilənə görə rus çarı Sarı Ələkbərə şəxsi hədiyyə olaraq qızılla işlənmiş əsa bağışlamışdı... İran da onu təltif etmişdi... Sarı Ələkbər Gəncənin böyük təəsübkeşi olmuşdu. Çar dövründə naməlum adamlar indiki Gəncə küçəsində yaşayan şəhərin ən zəngin ailələrindən olan Axundovların evinə (hazırda bu binada bank yerləşir) quldurcasına basqın etmiş, ailə üzvlərini öldürmüşdülər. Yalnız 5 yaşlı Mirəli (o sonralar tanınmış zooloq alim olmuşdu) çarpayının altında gizləndiyindən sağ qalmışdı. Sarı Ələkbər uzun axtarışlardan sonra basqının Yevlaxdan olan 8 nəfərlik dəstə tərəfindən törədildiyini dəqiqləşdirmişdi. Öz silahlıları ilə Yevlaxa gedərək həmin 8 nəfəri bir-bir tapıb güllələmişdi...



Azərbaycan Cümhuriyyəti dövründə Sarı Ələkbər Gəncə polismeysterinin böyük köməkçisi (1-ci müavini) vəzifəsində çalışmışdı... Sarı Ələkbər Gəncə üsyanının (24 may - 4 iyun 1920-ci il) rəhbərlərindən biri olmuşdu. Üsyan şəhərin ermənilər yaşayan ikinci hissəsində başlanmışdı. Üsyana 1924-cü il mayın 24-də axşam Bala Bağban məscidinə toplaşmış partizan dəstələrinin rəhbərləri Sarı Ələkbər və qaçaq Qənbərlə razılaşdırıldıqdan sonra polkovnik Cahangir bəy Kazımbəyov tərəfindən işarə verilmişdi. Üsyanın gedişində məlum olmuşdu ki, qatı kommunist olan türk Səid Cavadov və onun casusları gecələr üzümlüklərin araları ilə gedib üsyançıların toplandıqları yerləri, silah-sursatların yerini, 11-ci ordunun qərargahına xəbər verirlər və beləliklə, xəyanətlə məşğuldurlar. Sarı Ələkbər Səid Cavadovu və casus yoldaşlarını tutaraq güllələmişdi...

Qeyd etmək lazımdır ki, Sarı Ələkbərə qədər bütün Gəncəbasarda məşhur olan, onun yaxın dostu və silahdaşı qaçaq Qənbər Qəni oğlu Bəhmənli Gəncə üsyanının sonadək mübarizə aparmış rəhbər iştirakçılarından biri idi. O, Sarı Ələkbərlə birlikdə partizan dəstələrinin başçısı idi. Gəncədə Qaçaq Qənbərin çörəkbişirmə kombinatı vardı. Qaçaq Qənbər, Gəncənin qubernatoru Xudadat bəy Rəfibəylinin qohumu idi. Əvvəllər, çar Rusiyası dövründə Gəncə Polismeysterliyində uryadnik vəzifəsində xidmət etmişdi. Vaxtilə əhaliyə zülm edən çar məmurlarına divan tutduğuna görə tutulub Sibirə sürgün edilmişdi. Qolu qandallı halda həbsxanadan qaça bilmişdi... Adına xalq arasında "Qaçaq Qənbər" deyilmiş, şəninə mahnılar qoşulmuşdu. Qaçaq Qənbər Gəncənin sabiq rəisi də olmuşdu... Gəncə üsyanının (24 may - 4 iyun 1920) sonunda artilleriya atəşindən ağır yaralanmışdı. 11-ci ordunun əlinə keçməməsi üçün Sarı Ələkbər və digər silahdaşları tərəfindən döyüş meydanından çıxarılsa da, sonrakı taley məlum deyildi... Yalnız son illər yazılmış tarixi ədəbiyyatda onun bolşeviklər tərəfindən ələ keçirilərək, 1920-ci ildə Bakı yaxınlığındakı Nargin adasında güllələnməsi barədə məlumatlar öz əksini tapmışdır... Böyük M. Ə. Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" adlı kitabında "qaçaq Qənbəri" "İstiqlal Şəhidi" adlandırmışdır...

... Sarı Ələkbər və silahdaşları axıradək vuruşsada, qüvvələr qeyri-bərabər idi. Üsyanın gedişində öz istiqlaliyyətini müdadfəyə qalxmış 13 minə qədər günahsız milli təəssübkeşimiz həlak olmuşdu (Ancaq 11-ci ordunun 8,5 min şəxsi heyəti də məhv edilmişdi...). Bu işdə M. D.Velikanovun komandir olduğu 20-ci atıcı diviziya mənfur rol oynamışdı. Diviziyanın topçuları günahsız dinc əhalinin evlərini kütləvi artilleriya atəşinə tutmuşdular. Gəncədə salamat bir ev, bina qalmamışdı. Gecələr 11-ci ordunun Xüsusi Şöbəsinin rütbəli zabiti Libermanın və mauzerçi Sarkisin əli ilə Quru Qobuda və şəhərin kənarında günahı olmayan insanların kütləvi şəkildə güllələnməsi qəddarlıqla həyata keşirilmişdi... Mayın 29-da leysan yağışlar, Gəncə və Qoşqar çaylarının daşaraq şəhəri basması vəziyyəti faciəli hala gətirmiş, dinc əhalinin çıxarılmasını olduqca çətinləşdirmişdi. Sel aparması nəticəsində minlərlə insan həlak olmuşdu... Üstəlik, belə faciəli şəraitdə ermənilər bolşeviklərə bələdçilik etmiş və onlarən tərəfindən vuruşmuşdular... Əvəzində polkovnik Stankeviçin komandirlik etdiyi denikinçilər gəncəli üsyançılarla çiyin-çiyinə vuruşmuşdular...

Üsyan qan içində boğulduqdan sonra Gəncəyə gəlmiş Azərbaycan SSR XKS-in sədri N. Nərimanov və Azərbaycan FK-nın sədri Əyyub Xanbudaqov (1893-1937) 11-ci ordunun azərbaycanlılara qarşı vəhşiliklərini təhqiq etmişdi...Törətdikləri qəddarlıq və vəhşiliklərə görə N. Nərimanov Azərbaycan SSR-in xalq daxili işlər komissarı Həmid Sultanovu bərk tənbeh etmiş, Xüsusi Şöbənin rəisi Libermanı və erməni mauzerçisi Sarkisi, habelə daha bir neçəsini tutdurmuş və həbsdə saxlanılan xeyli günahsız gəncəlini azad etdirmişdi.

1920-ci il iyunun 4-də gecə Gəncə alayının tabeliyində olan qüvvələr, o cümlədən Sarı Ələkbərin başçılıq etdiyi sağ qalan partizan dəstələrinin üzvləri buraxılmışdı... Üsyanın məğlubiyyətindən sonra Türkiyəyə keçməyə müvəffəq olmuş Sarı Ələkbər Qars şəhərində yaşamağa başlamışdı. Sarı Ələkbərin İsmayıl, Qulu adlı oğlanları və Brilyant adlı qızı vardı. Türkiyəyə onlardan birini, yalnız 10 yaşlı İsmayılı gizlətməklə özü ilə aparmağa macal tapa bilmişdi Sarı Ələkbər. Gəncə üsyanından dərhal sonra Sarı Ələkbərə məxsus binalar, karvansaralar, ev əşyaları, bütün var-dövləti müsadirə olunmuşdu. Həyat yoldaşı Cəvahir xanım, oğlu Qulu və qızı Brilyant isə sovet hakimiyyəti tərəfindən Qazaxıstana sürgün olunmuşdular.

Bir neçə il sonra Göyçədən Məmmədəli bəy adlı bir tacir Gəncəyə gələrkən, Sarı Ələkbərin bacılarına onun Qars şəhərində məskunlaşdığı barədə xəbər vermişdi. O, Sarı Ələkbərin ailəsinin də Türkiyəyə gəlməsini arzuladığını bildirmişdi. Sarı Ələkbərin həyat yoldaşı və iki övladını onun silahdaşları gizlicə etibarlı şəxslərin köməyi ilə sürgündən azad etdirib, Gəncəyə gətirmişdilər. Bu müddətdə göyçəli Məmmədəli bəyin də nə dərəcədə etibarlılığı sınağa çəkilmişdi. Axırda o, sonuncu dəfə Türkiyədən dönərkən özü ilə tutarlı dəlilər - Sarı Ələkbərin papağını və kəmərini gətirdikdən sonra daha şübhə yeri qalmamışdı. Bundan sonra, 1924-cü ildə Sarı Ələkbərin ailəsi Məhəmmədəli bəylə birlikdə Ermənistan - Türkiyə sərhəd məntəqəsindən birinə gəlmişdi. Sarı Ələkbərin buraya göndərdiyi adamlar onları qarşılayıb Türkiyəyə -Trabzona Sarı Ələkbərin yanına aparmışdılar...

Sarı Ələkbvərin 5 bacısı və bir qardaşı vardı. Bacıları Nərgiz, Kübra, Gilə, Sarabəyim və ömrünü Orta Asiyada sürgündə başa vurmuş Zinyət Gəncənin əsl milli təəssübkeşləri idilər. Sarı Ələkbərin yeganə qardaşı Məhəmmədrzanı bolşevikləşmiş daşnak-ermənilər bir satqının vasitəsilə ələ keçirərək, qətlə yetirmişdilər... Bacılardan Nərgiz və Gilə gecə ikən Məmmədrzanın qayınatası Hacı Kərim kişinin köməyi ilə bolşeviklərin yerləşdiyi kazarmadan qardaşlarının meyidini çıxararaq, onu arabada, ot-ələfin altında gizlətməklə gətirib Gəncədəki Səbizkar qəbristanlığında dəfn etmişdilər. Onlar Məhəmmədrzanın gizləndiyi yeri bolşeviklərə nişan vermiş satqını da böyük miqdarda pul verməklə təhvil almışdılar. Hələ gəncliyindən at çapmağı, tüfəng atmağı yaxşı bacaran Nərgiz xanım qisas alaraq satqını Kür sahilində öz əlləriylə güllələmişdi (Nərgiz xanım 1975-ci ildə dünyasını dəyişmişdir).

Sarı Ələkbərin bacısı Kübranın nəvəsi Füzuli müəllim 1991-ci ildə, Azərbaycanın müstəqilliyini təzəcə qazanmasından sonra Türkiyəyə getmişdi. O, qayıtdıqdan sonra söyləmişdir ki, Sarı Ələkbərin özü ailəsi ilə birlikdə Türkiyədə böyük nüfuz sahibi idilər. Gəncədən gedəndən sonra Sarı Ələkbər gübrə zavodu sahibi

olmudu. Sarı Ələkbərin övladları İsmayıl, Brilyant və Qulu da öz savad və bacarıqları ilə yüksək məqamlara çatmışdılar. İsmayıl və Brilyant ixtisasca həkim idilər. İsmayıl millət vəkili olmuşdu... Hazırda İstanbulda yaşayan Brilyant xanım Türkiyə Səhiyyə Nazirliyində yüksək vəzifələr tutmuşdu... Sarı Ələkbər, onun nəsli-törəmələri Türkiyədə "Sarıyal" soyadını götürmüşdülər (Sarıyal Gəncə ətrafında dağ adıdır). Sarıyal Türkiyənin tanınan soyadlarından birinə çevrilmişdir. Azərbaycan-Türkiyə Parlamentlərarası dostluq qrupunun başçısı, İqdır bölgəsindən millət vəkili seçilmiş Şamil Ayrum (babası vaxtılə Gədəbəydən Türkiyəyə köç edib, ana tərəfi isə Gəncədən idi) Sarı Ələkbərin qohumlarındandır, daha dəqiqi onun qayınanası Sarı Ələkbərin nəvəsidir. Sarı Ələkbərin nəvəsi olan həmin qadın isə Türkiyədə ilk azərbaycanlı turizm və mədəniyyət naziri olmuş İlhan Aküzümün bacısıdır... Brilyant xanımın oğlu İlhan Türkiyə Parlamentinin üzvü olmuşdur. Türkiyədə yaşayan azərbaycanlıların hamısı Sarı Ələkbərə Gəncənin rəmzi kimi baxırdılar... Sarı Ələkbər 1956-cı ildə Qars şəhərində 71 yaşında vəfat etmişdir...

1992-ci il mayın 28-də Respublika Günündə Sarı Ələkbərin vaxtı ilə Gəncədə Bağbanlar qəsəbəsində yaşadığı evin ön hissəsinə xatirə lövhəsi - onun barelyefi vurulmuşdur.



## *QƏZA RƏİSLƏRİ*

### MİKAYIL bəy İSRAFİLBƏYOV
### (1875/1878-1920)



*Ortada Mikayıl bəy İsrafilbəyov*

Mikayıl bəy Hüseyn bəy oğlu İsrafilbəyov 1875–ci ilin fevralında (bəzi sənədlərdə 1878-ci il göstərilir) Yelizavetpol (Gəncə) quberniyasının Gəncə qəzasının Zəyəm kəndində (indi Şəmkir ərazisinə daxildir) nüfuzlu bəy ailəsində anadan olmuşdu. İsrafilbəyovlar əslən gəncəli idilər. Onların Hacıkənddə, o cümlədən Zəyəmdə mülkləri vardı. Əsasən ailələri ilə Gəncədə yaşayırdılar. Ailədə 3 qardaş idilər. Mikayıl bəy kiçik qardaş idi.

Atası Hüseyn bəy İsrafilbəyov (1838-1907) polis məmuru olmuşdu. O, 1868-71-ci illərdə Qazaxda məhkəmə pristavı, 1871-72-ci illərdə Yelizavetpol (Gəncə) şəhər Polis İdarəsinin pristavı, 1873-74-cü illərdə Qazax qəza rəisinin kiçik köməkçisi, titulyar müşavir, Qazax qəza rəisinin köməkçisi, kollec assesoru, 1877-ci ildə Zəngəzur qəza rəisinin köməkçisi, 1878-83-cü illərdə Yelizavetpol şəhərinin polismeysteri, saray müşaviri, kollec müşaviri, 1882-ci ildə polismeyster vəzifəsində işləyə-işləyə Yelizavetpol Quberniyasının Həbsxanalara Nəzarət Komitəsinin üzvü, 1894-97-ci illərdə yenidən Yelizavetpol şəhərinin

polismeysteri, ştatski-müşavir olmuşdu. Hüseyn bəy 1901-07-ci illərdə Yelizavetpol Şəhər İdarəsinin, o cümlədən 1901-03, 1906-cı illərdə Yelizavetpol Şəhər Dumasının qlasnısı olmuşdu. Hüseyn bəy İsrafilbəyov 1907-ci ildə naməlum şəraitdə qətlə yetirilmişdi...

Mikayıl bəy gələcəkdə Azərbaycan Cümhuriyyətinin görkəmli xadimləri olmuş F. Xoyski, X. Xasməmədov, N.Yusifbəyli və X. Rəfibəyli ilə birlikdə Gəncə şəhər klassik kişi gimnaziyasında oxumuşdu. Rus dilinə təmiz yiyələnmişdi. Azərbaycan Cümhuriyyəti dövründə Gəncə Qəza Polis İdarəsində əvvəlcə pristav, sonra qəza rəisinin böyük köməkçisi, daha sonra isə Qəza polis rəisi vəzifələrində xidmət göstərmişdi.

Özündən böyük qardaşı İsrafil bəy İsrafilbəyov (1872-1920) da Gəncə polisinin məmuru idi. O, 1884-90-cı illərdə Yelizavetpol şəhər klassik kişi gimnaziyasında oxumuşdu. İsrafil bəy 1899-cu ildə Yelizavetpol Qəza Polis İdarəsinin məmuru, kollej qeydiyyatçısı, 1900-cü ildə Yelizavetpol Quberniya İdarəsinin katibi, 1904-05-ci illərdə Yelizavetpol Qəza Polis İdarəsinin tərcüməçisi (rus dili üzrə), kollec katibi, 1908-14-cü illərdə isə Yelizavetpol Qəza İdarəsi barışdırıcı məhkəməsinin tərcüməçisi, titulyar müşavir, kollec assesoru vəzifələrində işləmişdi. İsrafil bəy də qardaşı Mikayıl bəylə bərabər Gəncə üsyanından sonra naməlium şəraitdə yoxa çıxmışdı... Onun haqqında da dəqiq məlumat yoxdur...

Mikayıl bəyin böyük qardaşı Cəbrayıl bəy İsrafilbəyov 1871-ci ildə anadan olmuş, 1884-92-ci illərdə Gəncə şəhər klassik kişi gimnaziyasını bitirmişdi. Lakin 1892-ci ildə atasının xahişi ilə ərizə verib gimnaziyadan çıxmış və sənədlərini hərbi məktəbə hazırlamışdı... Onun bundan sonrakı taleyi barədə bir məlumat yoxdur...

Qəza rəisi vəzifəsində işləyərkən, Mikayıl bəy İsrafilbəyov Azərbaycan Ordusunun komandirlərindən Mahmud bəy Paşayevlə birlikdə öz dəstəsiylə bolşeviklərlə əlbir olub, müstəqil dövlətimizə qarşı mübarizə aparan "qatır Məmməd"in dəstəsinə qarşı döyüşmüşdü. Həmin döyüş 1919-cu il iyunun 28-də Gəncə qəzasının Goran kəndində olmuşdu...

Mikayıl bəy İsrafilbəyov Xudadat bəy Rəfibəylinin general qubernator olduğu dövrdə Gəncə Quberniya İdarəsinin müşaviri vəzifəsində xidmət etmişdi. Belə ki, Xudadat bəyin Azərbaycan



Cümhuriyyətinin daxili işlər naziri M.H. Hacınskiyə göndərdiyi 7 dekabr 1919-cu il tarixli 17969 nömrəli təqdimat əsasında nazirin 31 dekabr 1919-cu il tarixli 193 nömrəli əmri ilə Mikayıl bəy Hüseyn bəy oğlu İsrafilbəyov 11 iyun 1919-cu ildən sayılmaqla Gəncə Quberniya İdarəsinin müşaviri vəzifəsinə təyin edilmişdi. Mikayıl bəy hərbi, polis və inzibati məsələlərə baxan müşavir idi. Digər müşavir isə Aleksandr Konstantinoviç Boqatko idi. O, təsərrüfat və təchizat məsələləri ilə məşğul olurdu.

Milli qüvvələrimizin sovet hakimiyyətinə qarşı qaldırdığı Gəncə üsyanının (24 may - 4 iyun 1920-ci il) fəal iştirakçısı olan Mikayıl bəy İsrafilbəyovun sonrakı taleyi barəsində təəssüfki, dəqiq məlumat yoxdur. Mikayıl bəyin nəticəsi, hazırda Bakıda yaşayan, ziyalı Əziz Mustafayev (o, Mikayıl bəyin nəvəsi Tamella xanımın oğludur) söyləyir ki, Gəncə üsyanından sonra naməlum şəraitdə yoxa çıxan Mikayıl bəyin qardaşı İsrafillə birlikdə elə Gəncədə bolşeviklər tərəfindən məhkəməsiz güllələnmişdir. Bizim ehtimalımız isə belədir ki, Mikayıl bəy həbs olunaraq, Bakıya gətirilmiş və bir qrup digər milli təəssübkeşlərimizlə bir sırada (onların arasında Xudadat bəy Rəfibəylidə vardı) Nargin adasında 1920-ci il iyunun 6-da güllələnmişdir...

Mikayıl bəy İsrafilbəyov Dünya xanım Qambay bəy qızı Cəmillinskaya ilə ailə qurmuşdu. Bu ailəlikdən onların Zərintac (1904-1991) xanım və Qəmərtac xanım adlı iki qız övladı dünyaya gəlmişdi...

## LÜTVƏLİ bəy ZÜLQƏDƏROV
## (1881-1920)

Lütvəli (tarixi ədəbiyyatda Niftəli bəy yazılır. Əslində, Lütvəli bəydir). Lütvəli bəy Mehralı bəy oğlu Zülqədərov 1881-ci ildə Yelizavetpol (Gəncə) quberniyasında iri mülkədar ailəsində anadan olmuşdu. Lütvəli bəy orta əsrlərdə parlamış və Azərbaycan dövlətçiliyində mühüm rol oynamış məşhur Zülqədərlər adlı türk tayfalarının iri nəslindən çıxmış şəxs idi. Zülqədərovlar əsasən Şəmşəddil (Şəmşəddin) mahalının (Sultanlığının) (1747-1819) iri Xılxına kəndində, Tovuz ərazisində, Öksüzlüdə, bir qismi isə Şəmkirdə və Zəyəmdə yaşayırdılar...

Azərbaycan Cümhuriyyəti dövründə Lütvəli bəy əvvəlcə Cəbrayıl (Karyagin. İndiki Füzuli) qəzasının 2-ci sahə polisinin, Yelizavetpol (Gəncə) qəza polisinin 3-cü sahəsinin pristavı, habelə Ərəş qəzasında pristav vəzifəsində işləmişdi. Əhalinin böyük hörmətini qazanmışdı. Lütvəli bəy əvvəllər Peterburqda çar II Nikolayın sarayında qulluq etmiş, imperator və imperatriça Mariya Fyodorovna tərəfindən yüksək dövlət mükafatlarına layiq görülmüşdü...



O, 1918-ci il oktyabrın 12-də daxili işlər naziri Behbud xan Cavanşirin 78 nömrəli əmri ilə Şamaxı qəzasının müvəqqəti rəisi vəzifəsinə təyin edilmiş və bu vəzifədə 1919-cu ilin iyununadək xidmət göstərmişdi. Sonuncu tarixdə, daxili işlər naziri N.Yusifbəylinin 23 iyun 1919-cu il tarixli 85 nömrəli əmri ilə Göyçay qəzasının rəisi (1-ci dərəcə üzrə 3.000 manat əmək haqqı ilə) təyin olunmuşdu (Göyçay qəzası çar hökumətinin 9 dekabr 1867-ci il tarixli inzibati islahatına əsasən 1 yanvar 1868-ci ildə Bakı quberniyasının tərkibində yaradılmışdı. Mərkəzi Göyçay şəhəri idi. 1917-ci ilə aid mənbələrdə Göyçaya Alxasova (Alxas adlı şəxsin adıdır) və Yalman da demişlər) rəisi vəzifəsində fəaliyyət göstərmişdi. Lütvəli (Niftəli) bəy Zülqədərovun qəza rəisi kimi sonuncu vəzifəsi Cavad qəzasında olmuşdu. Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri M. H. Hacınskinin 1920-ci il 14 fevral tarixli 488 nömrəli əmri ilə L. Zülqədərov Göyçay qəzasaının rəisi vəzifəsindən azad olunub, mərkəzi Tərtər olan Cavanşir qəzasının rəisi təyin edilmişdi. L. Zülqədərov Göyçay qəza rəisi vəzifəsində 1920-ci ilin martınadək xidmət göstərmişdi. 1920-ci il martın 19-da daxili işlər naziri M.Vəkilovun əmri ilə Lütvəli bəy Cavanşir qəzasının rəisi vəzifəsindən azad olunmuş, onun yerinə Mustafa bəy Qabulov təyin edilmişdi...



... Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Lütvəli bəy Gəncədə yaşayırdı. O, 1920-ci il Gəncə üsyanında (24 may - 4 iyun) işğalçı XI orduya qarşı yerli əhalinin sırasında axıradək vuruşmuşdu. Üsyan yatırıldıqdan sonra Türkiyədən ona Gəncədən çıxıb oraya gəlmək təklif olunmuşdu. Lakin Lütvəli bəy buna razı olmamışdı və rus - bolşeviklər onu tutub elə 1920-ci ilin iyun ayında güllələmişlər. Bundan sonra, onun ailəsi və nəsli də repressiyaya məruz qalmışdı. Zülqədərovlar təqibdən yaxa qurtarmaq üçün Mehralıyev soyadını qəbul etmişdilər.

Lütvəli bəyin qardaşı Allahyar bəy də Azərbaycanda məşhur idi. O, Gəncə şəhər Dumasının üzvü, Gəncə Quberniyasının Şəmkir qəzasının rəisi olmuşdu. Lakin bolşeviklər tərəfindən qızışdırılmış kəndlilər tərəfindən evinə basqın nəticəsində arvadı Səid - Nisə xanım gülləylə öldürülmüş, özü isə tutularaq diri-diri yandırılmışdı.

Lütvəli bəyin oğlu Kamran bəy Zülqədərov sonralar general rütbəsinə yüksəlmişdi. Bekə ki o, Tiflisdə gimnaziyanı biritdikdən sonra Zaqafzaziya Dəmiryol İnstitutuna daxil olmuşdu. İnstitutdan sonra bu sahədə çalışmış, Zaqafzaziya Dəmiryol nazirinin müavini, daha sonra Gəncə Dəmiyolunun rəisi, Gəncə Politexnik İnstitutunun dekanı olmuşdu. Lütvəli bəyin qızı Sima xanım Bakıda yaşayırdı və 1996-cı ilin iyulunda hələ sağ idi...

## MƏMMƏD bəy SÜLEYMANBƏYOV

Məmməd bəy Süleymanbəyov İrəvan quberniyasında əsilli ailədə anadan olmuşdu. Ali təhsilli hüquqşünas idi. 1918-ci ildə Bakıya köçmüşdü. Azərbaycan Cümhuriyyəti Ədliyyə Nazirliyi sistemində müstəntiq vəzifəsində işə düzəlmişdi. Onu 1919-cu ilin payızında təcrübəli müstəntiq kimi DİN sahəsində işləməyə dəvət etmişdilər. Bununla əlaqədar Azərbaycan Cümhuriyyəti daxili işlər nazirinin müavini, general-mayor Əliyar bəy Haşımbəyovun imzasıyla DİN-in adından Ədliyyə Nazirliyinə 8 noyabr tarixli 10980 nömrəli xahiş məktubu yazılmışdı. Məktubda Ədliyyə Nazirliyinin Bakı Məhkəmə Dairəsinin Balaxanı-Sabunçu sahəsinin müstəntiqi Məmməd bəy Süleymanbəyovun tutduğu vəzifəsindən azad edilərək

DİN-in sərəncamına göndərilməsi xahiş olunurdu. Məktuba müsbət cavab verilmiş və Məmməd bəy Süleymanbəyov tutduğu vəzifədən azad olunaraq Azərbaycan DİN-in sərəncamına göndərilmişdi. Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri N.Yusifbəylinin 15 noyabr 1919-cu il tarixli əmri ilə Məmməd bəy Süleymanbəyov 14 oktyabr 1919-cu ildən sayılmaqla Cavad qəzasının rəisi vəzifəsinə (1-ci dərəcə üzrə 3.000 manat məvaciblə) təyin edilmiş və bu vəzifədə 1920-ci ilin yazınadək xidmət göstərmişdi...

## AZAD bəy QOCAMANBƏYOV
## (1860-1920)

Azad bəy Ağa Sadıq bəy Qocamanbəyov 1860-cı ildə Şamaxı qəzasının Məlik-Çobanlı kəndində məşhur mülkədar ailəsində anadan olmuşdu. 1918-20-ci illərdə Şamaxı Qəza Polis İdarəsində müxtəlif məsul vəzifələrdə, o cümlədən qəza rəisi vəzifəsində işləmişdi. Onun köməkçisi sonralar (sovet dövründə) general-mayor rütbəsi almış, əslən ağsulu olan Tərlan bəy Əliyarbəyov (1892-1956) idi. Azad bəy 1918-ci ildə erməni-daşnaklarla mübarizədə hünərlər göstərmişdi... Azad bəy Qocamanbəyov 1920-ci ilin fevralında Şamaxıda 60 yaşında vəfat etmiş və Laləzar qəbristanlığında dəfn olunmuşdur.

## TALIBXAN bəy TALIBXANOV
## (1859-1920)

Talıb xan Məşədi Hüseyn bəy oğlu Talıbxanov 24 may 1859-cu ildə Şuşa qəzasının Vərəndə sahəsinin Qacar kəndində əsilzadə ailədə anadan olmuşdu. Molla yanında ibtidai təhsil almışdı. Ailə şəraitində rus dilini öyrənmişdi. 1881-ci il avqusyun 1-də Bakı şəhərinin İvanovo sahəsində katib köməkçisi kimi işə başlamışdı. 1882-ci ildə Quba qəzasına tərcüməçi göndərilmişdi. 1883-cü ilin dekabrından Quba qəzasında pristav köməkçisi vəzifəsinə təyin olunmuşdu. 1884-cü il iyunun 4-də Qubadakı həbsxanaya baxıcı



təyin edilmişdi. 1888-ci il sentyabrın 22-də Quba şəhər pristavının köməkçisi vəzifəsinə irəli çəkilmişdi. 1890-cı il oktyabrın 18-də yenidən həbsxana baxıcısı vəzifəsinə göndərilmişdi. Talıb xan bəy 1892-ci il mayın 31-də Göyçay qəzasının Bərgüşad qəzasına polis pristavı təyin edilmişdi. 1894-cü il sentyabrın 24-də Kürdəmir sahəsinə polis pristavı vəzifəsinə dəyişdirilmiş, 1901-ci ilədək orada xidmət göstərmişdi. Həmin ilin sentyabrında Bakı qəzasının Maştağa sahəsinə polis pristavı vəzifəsinə dəyişdirilmişdi. 1903-cü ildə Bakı qəzasının Bibiheybət sahəsinə polis pristavı vəzifəsinə köçürülmüş, 1907-ci ilədək orada xidmət etmişdi. 1907-ci ilin sentryabrında Göyçay qəzasının Kürdəmir sahəsinə köhnə vəzifəsinə qaytarılmışdı. 1909-cu il yanvarın 1-də Göyçay qəza rəisinin köməkçisi vəzifəsinə irəli çəkilmişdi. 1910-cu il iyunun 24-də Bakı qəza rəisinin böyük köməkçisi təyin edilmişdi. O, bir sıra orden və medallarla, o cümlədən çar Rusiyasının 2-ci dərəcəli "Müqəddəs Anna" ordeni və 3-cü dərəcəli Aleksandr medalı, həmçinin "Şiri-Xurşud" (İran) ordeni ilə təltif olunmuşdu.

Azərbaycan Cümhuriyyəti dövründə, 1920-ci il fevralın əvvəlində (həmin vaxt Şamaxı qəzasının rəisi Azad bəy Qocamanbəyov vəfat etmişdi və onun yerinə T. Talıbxanov təyin olunmuşdu) 1920-ci ilin əvvəlində o polkovnik rütbəsi almaqla daha məsul vəzifəyə – Şamaxı qəzasının rəisi vəzifəsinə göndərilmişdi. T. Talıbxanov Azərbaycan Cümhuriyyətinin süqutunadək həmin vəzifədə xidmət etmişdi...

T. Talıbxanov Xeyrənnisə xanım Məmiş bəy qızı Mirzəcamalova ilə ailə qurmuşdu. Onların Hüseyn bəy adlı oğulları, Qəmər xanım, Sürəyya xanım və Sona xanım adlı qızları dünyaya gəlmişdi...

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra T. Talıbxanovun ailəsi Türkiyəyə mühacirət etməli olmuşdu... T. Talıbxanov 1920-ci ildə vəfat etmişdi... (Qeyd etmək lazımdır ki, Talıbxan bəyin qardaşı Tapdıq bəy Talıbxanov Qacar kəndinin yüzbaısı olmuş və 130 il (1862-1991) ömür sürmüş, 1991-ci ildə dünyasını dəyişmişdi...). Talıbxan bəyin ortancıl qızı Sürəyya xanım (1888) Talıbxanlı Bakıda Azərbaycan Cümhuriyyəti Parlamentində Qanunvericilik Şöbəsinin rəisi işləmişdi. O, İstanbula gələn kimi Talıb-

xanlı soyadını qəbul etmişdi. İstanbul Universitetinin filologiya fakultəsini bitirmişdi. Hələ tələbə ikən Türkiyədə publisist, ədəbiyyatşünas kimi tanınmışdı... Sürəyya xanım İstanbulda Azərbaycan Cümhuriyyətinin ən gənc və sonuncu sabiq daxili işlər naziri Mustafa bəy Vəkilovla tanış olmuşdu. Mustafa bəy daxili işlər naziri olanda Sürəyya xanımın atası Talıbxan Talıbxanov Şamaxının qəza rəisi işləyirdi və xidməti sarıdan Mustafa bəyə tabe idi. Onlar bir-birini yaxşı tanıyırdılar. Mustafa bəy heç vaxt ailəli olmamışdı və İstanbula da Azərbaycandan subay gəlmişdi. Beləliklə, Sürəyya xanım Talıbxanlı və Mustafa bəy evlənmişdilər... Lakin Mustafa bəyin siyasi fəaliyyəti ilə əlaqədar olaraq Avropa ölkələrində, o cümlədən Polşada uzun müddət qalmalı olduğundan yolları ayrılmışdı. Onların uşaqları da olmamışdı... Sürəyya xanım ikinci dəfə azərbaycanlı mühacirlərdən professor, fizika üzrə elmlər doktoru Məhəmməd Qarabağlı ilə ailə qurmuşdu. Onlar sonradan Amerikaya köçmüş, hər ikisi orada vəfat etmişdilər...

## RÜSTƏM bəy KƏRİMBƏYOV

Rüstəm bəy (ağa) Heybət bəy oğlu Kərimbəyov 1878-ci ildə Quba qəzasında anadan olmuşdu. Quba qəza polisində kiçik rütbədə polis məmuru vəzifəsində işə başlamış, sonra polis pristavı və Quba qəza rəisinin böyük köməkçisi (1-ci müavini) olmuşdu. Rüstəm bəy 1919-cu ildə Cavad qəza rəisinin də böyük köməkçisi vəzifəsində xidmət edirdi. Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri N.Yusifbəylinin 23 oktyabr 1919-cu il tarixli 156 nömrəli əmri ilə Rüstəm bəy Heybət bəy oğlu Kərimbəyov tutduğu vəzifədən azad olunaraq, xidmətdə irəli çəkilmiş və Bakı quberniyasının Lənkəran qəzasının rəisi vəzifəsinə (1-ci dərəcə üzrə aylıq əmək haqqı 3.000 min manat olmaqla) təyin olunmuşdu. O, bu vəzifədə 1920-ci il aprelin 19-dək işləmişdi. Rüstəm bəy Kərimbəyov daxili işlər naziri əvəzi Şəfi bəy Rüstəmbəylinin əmr-teleqramı ilə sonuncu tarixdən tutduğu vəzifəsindən azad olunaraq Bakıya–DİN-in sərəncamına çağırılmışdı.

Bakının general-qubernatoru, general-mayor Murad Gəray bəy Tlexasın təqdimatı üzrə cəmi 1 gün sonra, Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri Mustafa bəy Vəkilovun 21 aprel 1920-ci il tarixli 60 nömrəli əmri ilə R. Kərimbəyov yenə xidmətdə irəli çəkilərək polkovnik Rüstəm bəy Mirzəyevin yerinə Balaxanı-Sabunçu polismeysteri təyin olunmuşdu. Rüstəm bəy Kərimbəyov Balaxanı-Sabunçu polismeysteri vəzifəsində Azərbaycanda sovet hakimiyyəti qurulanadək (28 aprel 1920) xidmət göstərmişdi...



## ƏYYUB bəy RƏFİBƏYOV (RƏFİBƏYLİ)
## (1890-1979)



Əyyub bəy Rəfibəyov (Rəfibəyli) - Əyyub Sayğın Gəncənin əsilli-nəsilli, məşhur Rəfibəylilər sülaləsinin tanınmış nümayəndəsi, milli-istiqlal uğrunda mərd mübarizlərdən biri olmuşdur. Sovet hakimiyyətrinə qarşı baş vermiş Gəncə üsyanın (24 may - 4 iyun 1920-ci il) təşkilatçılarından və iştirakçılarından biri olan Əyyub bəy Azərbaycan Cümhuriyyətinin görkəmli ictimai-siyasi xadimlərindən Xudadat bəy Rəfibəylinin əmisi oğlu idi.

Əyyub bəy 1890-cı ildə Gəncənin Bala Bağban qəsəbəsində mötəbər bir ailədə, Gəncə camaatının ağsaqqalı sayılan Ələkbər Rəfibəylinin (1839, Gəncə - 3 aprel 1919, Gəncə) qardaşı Məşədi bəy Rəfibəylinin ailəsində anadan olmuşdu. Əyyub bəy ilkin təhsilini Gəncə rus liseyində almışdı... Hələ çarizm dövründə qubernatorun 1909-cu il 17 sentyabr tarixli 116 nömrəli əmri ilə Yelizavetpol (Gəncə) şəhərinin 3-cü hissəsinin pristav köməkçisi işləyən Əyyub bəyə müvəqqəti olaraq pristav vəzifəsi həvalə olunmuşdu. Rusiyada baş verən 1917-ci il oktyabr inqilabından sonra Əyyub bəy Rəfibəyov artıq Yelizavetpol şəhər Polismeysterliyinin pristavı idi.

Azərbaycan Cümhuriyyəti qurulduqda Əyyub bəy Rəfibəyov yenə Gəncə şəhər polisinin pristavı təyin edilmiş və fəaliyyət

göstərmişdi. Azərbaycan Cümhuriyyətinin süqutu ərəfəsində, 1920-ci ilin aprelində Əyyub bəy Rəfibəyov Nuxa qəzasının rəisi vəzifəsində xidmət edirdi.

Azərbaycanda sovet hakimiyyəti qurulan zaman Əyyub bəy onunla barışmamış, qardaşı, Azərbaycan Milli Ordusunun Qarabağdakı 1-ci Cavanşir Piyada Alayının komandiri olan polkovnik Səməd bəy Rəfibəyli (1891-1980), əmisi oğlu Qafar bəy və digər Rəfibəylilərlə birlikdə müstəqilliyimizi bərpa etmək üçün Gəncə üsyanında yaxından iştirak etmişdi. Üsyan 11-ci ordu tərəfindən qan içində boğulduqdan sonra Əyyub bəy 1920-ci ilin iyununda bir neçə silahdaşı ilə birlikdə Türkiyəyə keçmiş, siyasi mühacir kimi orada yaşamış və ömrünün sonunadək sovet hakimiyyətinə qarşı mübarizəni davam etdirmişdi... Bütün digər Rəfibəylilər kimi Əyyub bəyin də atası, qardaş-bacıları və qohumları sovet hakimiyyəti tərəfindən ağır məhrumiyyətlərə düçar olunmuşdular...

Türkiyəyə keçərkən Əyyub bəyin başına yolda qəribə bir hadisə gəlmişdi. Belə ki, o və yol yoldaşları Qarsa Batum (Gürcüstan) tərəfdən getməyi qərarlaşdırmışdılar. Lakin iş elə gətirmişdi ki, yolları uzanmış və məcburən Ermənistan ərazisindən keçməli olmuşdular. Bu vaxt bir Gəncə ermənisi Əyyub bəyi tanıyıb Ermənistanın hakimiyyət orqanlarına xəbər vermişdi və onu həbs etmişdilər. Canlarını qurtaran yoldaşları bu haqda İstanbulda olan, Mustafa Kamal Paşa Atatürkün dostu və sevimlisi, Əyyub bəyin qarrdaşı, general-mayor Səməd bəyə (Əbdülsəməd bəy Sayqın) xəbər çatdırmışdılar. O isə bunu Türkiyə Ordusunun Şərq cəbhəsinin Kol (nizami) ordu komandanı, general Kazım Qarabəkir (1882 - 1948) paşaya demişdi. Kazım Qarabəkir paşanın Ermənistan tərəfi ilə apardığı danışıqdan sonra bir neçə ermənini dəyişməklə Əyyub bəy xilas edilib Türkiyəyə gətirilmişdi...

Əyyub bəy Rəfibəyli rus dilini təmiz bilirdi. Odur ki, Türkiyədə əvvəlcə Qarsda, sonra da Ərzrumda, Trabzonda, İstanbulda və Ankarada Milli Güvənlik Kurulu-Milli Əmniyyət Təşkilatında tərcüməçi, məsləhətçi və s. vəzifələrdə düz 40 il çalışmış. " Sayğın", yəni sayılan, hörmətli adını da qazanmışdı. Əyyub bəy Türkiyə polisinin Qafqazdan gələnlərə nəzarət üzrə mütəxəssisi kimi SSRİ-yə qarşı mübarizə aparmaq üçün təşkil etdiyi partizan dəstələrinə azərbaycanlıları cəlb etməklə məşğul olmuşdu. Nəzəri



məşğələ və əməli təlim yeri Əlaziqi şəhərində idi... Azərbaycan SSR Xalq Dövlət Təhlükəsizlik Komissarlığının I Şöbəsinin 1941-ci ilə aid məlumatında bildirilirdi ki, Əyyub bəy Rəfibəyov Türkiyə Kəşfiyyat İdarəsinin Qars filialının rəis müavinidir və orada Sovet İttifaqına göndərilən türk casuslarının hazırlanması ilə məşğul olur.

Siyasi mühacir sayılan, sovet quruluşuna və ideologiyasına qarşı dərin nifrət bəsləyən Əyyub bəy beləliklə, türk-əks kəşfiyyatının mühüm simalarından birinə çevrilmişdi. O, həyatının sonunacan Türkiyədə yüksək hərbi vəzifəyə yüksəlmiş, Mustafa Kamal Paşa Atatürkün böyük hörmət göstərdiyi qardaşı, general-mayor Səməd bəy Rəfibəyli (19 yanvar 1980-ci ildə 88 yaşında İstanbulda vəfat etmişdir), əmisi oğlu, Gəncə üsyanında rus-bolşevik-erməni qüvvələrinə qarşı axıradək şücaətlə döyüşüb ad çıxarmış Qafar bəylə (qısa müddətdə Türkiyədə hörmət qazanıb Qarsın valisi (qubernatoru) səviyyəsinə yüksələn Qafar "Əskəran"ın (Rəfibəylinin təəssüf ki, ömrünün sonlarında gözləri tutulmuşdu...), Gəncə üsyanının rəhbərlərindən biri Sarı Ələkbərlə, Gəncənin general-qubernatoru Xudadat bəyin oğlu Kamil Arran bəy və başqa Vətən həsrətlilərilə birgə Rəfibəylilərin və digər nəsillərin başına olmazın müsibətlər gətirmiş sovet hökumətinə qarşı yorulmadan mübarizə aparmışdı...

Vətən həsrətli, ömrü keşməkeşlərdə və mücadilələrdə keçmiş Əyyub bəy Rəfibəyli 1979-cu il yanvarın 19-da Türkiyənin paytaxtı Ankarada 89 yaşında vəfat etmiş və orada dəfn olunmuşdur. Əyyub bəyin övladları, nəvələri və qohumları indi İstanbulda və Ankarada yaşayırlar...

## ƏŞRƏF bəy TAĞIYEV (QARXUNLU)
## (1867-1930)

Əşrəf bəy Həsən bəy oğlu Tağıyev (tarixi ədəbiyyatda Əşrəf bəy Qarxunlu kimi də yazılır) 1867-ci ildə Şirvan Dairəsinin Yuxarı Qarxunlu (indi Yevlax rayonundadır) əsilli ailədə anadan olmuşdu. Kür qırağındakı Yuxarı Qarxun kəndi ilə Yevlax stansiyasının arası 1 km.-dir. (**Haşiyə:** *"Qarxun" qədim türk tayfalarından birinin adıdır. 14-cü əsrin divan başçısı, məşhur tarixçi alim Fəzlulah Rəşidə-*

*dinin (1280-1349) özünün məşhur "Cami ət-təvarix"- "Tarixlərin cəmi" əsərində ilk dəfə "Qarxın" adına rast gəlinir. Özbəkistanda da bu adda tayfa olmuşdur... Səlcuq türklərindən olan qarxunluların bir bölüyü də Azərbaycana gəlib çıxmışdır... "Qarxın" Azərbaycan dilində "Qarxun " kimi işlənilir. Qarxunluların qonşuları igidliklikləri ilə ad çıxarmış qaramanlılar da qədim türk tayfalarındandır*).



Yuxarı Qarxun Ərəş qəzasının mərkəzi idi. Türklər 1918-ci ilin iyununda Azərbaycana gələndə Əşrəf bəy Ərəş qəzasının rəisi idi. (***Haşiyə***: Hörmətli tədqiqatçı-jurnalist Şəmistan Nəzirli yazır ki, Əşrəf bəy Ərəş mahalının bəylərbəyisi idi. Bu, düzgün fakt deyildir. Məlumat üçün bidirək ki, 1918-20-ci illərdə Azərbaycanda inzibati ərazi vahidi qəza idi. Bəylərbəyilik və bəylərbəyi isə hələ 16-cı əsrin birinci yarısında yaranmış və 18-ci əsrdə ləğv olunmuşdu. 1747-ci ildə ləğv olunan Qarabağ bəylərbəyiliyinin əsasında iki müstəqi feodal dövləti - Qarabağ və Gəncə xanlıqları yaranmışdı...

Əşrəf bəy Həsən bəy yüzbaşının oğlu idi. O, əsl bəy idi. Mərdliyi, səxavəti, el-obanı birliyə çağırması və dayaq durması, xeyir-şərlərində yaxından iştirakı ilə nüfuz qazanmışdı. "Çörəkverən" adamdır,-deyirdilər. Bunları Yevlax, Ağdam, Ağdaş, Şəki, Qəbələ, Göyçay camaatı indi də xatırlayır... Əşrəf bəyin Qarxunda, habelə Ağdaşda iki mülkü, Şəkidə isə möhtəşəm evi vardı (90-cı illərin əvvəllərində Ağdaşdakı mülkündən birində tarix diyarşünaslıq muzeyi, digərində isə rayon qəzetinin redaksiyası yerləşirdi...).

...Əşrəf bəy igid adam idi. 1918-ci il yanvarın 9-da Türkiyə cəbhəsindən – Qars və Sarıqamışdan qatarla geri qayıdan rus əsgərlərinin Şəmkirin Dəllər stansiyasında tərksilah edilməsində Əşrəf bəy Qarxunlunun və Adil xan Ziyadxanlının (Gəncə) başçılıq etdiyi dəstələr də mühüm rol oynamışdı... Əşrəf bəy yaxın silahdaşları Qamboy ağa Qazanpapaq oğlu Qaramanlı (Quliyev) (Böyük M.



Ə. Rəsulzadənin yaxın dostu və məsləkdaşı), bərdəli sərrast atıcı Sarıtel Aslan və bibisi oğlu Məhəmmədlə birlikdə qəzanın qeyrətli gənclərindən ibarət "Ərəş alayı" yaratmışdı. Əşrəf bəyin komandanlığı altında "Ərəş alayı" Qarabağa hücum edən erməni-daşnaklarına qarşı vuruşmalarda iştirak edib ad çıxarmışdı...

1918-ci ilin yayında Azərbaycana köməyə gələn türk ordusunu Əşrəf bəy Yevlax stansiyasında qarşılamışdı. Bakını xilas etməyə gedən Qafqaz İslam (Müsəlman) Ordusunun komandanı, general-leytenant Faruq Mustafa Nuru paşa iyul ayında Gəncədən gələrkən Əşrəf bəyin evində qonaq olmuşdu. Nuru paşanı Qafqaz İslam Ordusunun hərbi müşaviri Əhməd bəy Ağaoğlu və gəncəli milli təəssübkeş Nağı bəy Şeyxzamanlı müşayiət edirdilər. Əşrəf bəy Bakını düşmənlərdən azad etməyə gedən Nuru paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun və Azərbaycan Cümhuriyyəti Silahlı Qüvvələrinin tərkibində idi. O, türk ordusu komandanlığına tərcüməçi kimi də cəlb olunmuşdu...

... Azərbaycan milli-istiqlal hərəkatının fəal iştirakçısı olan şəxs kimi dəyərləndirilən Əşrəf bəy Tağıyev Azərbaycan Milli Şurasının "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında" 19 noyabr tarixli qanununa əsasən 1918-ci il dekabrın 7-də açılan Azərbaycan Cümhuriyyəti Parlamentinə Ağdaş şəhərindən millət vəkili seçilmişdi. O, Parlamentdə "Əhrar" partiyasını təmsil edirdi. Ərəş qəzasında "Əhrar" partiyasının yerli-bölgə təşkilatını Əşrəf bəy Qarxunlu yaratmışdı. Təşkilatın sıralarına Ərəş, Nuxa, Ağdaş qəzalarının və Gəncəbasarın nüfuzlu ziyalıları və din xadimləri daxil idi. Təşkilatın "El" adlı qəzeti də çıxırdı. Qəzetin redaktoru əslən Zaqatalanın Faldar kəndindən olan Bayram Niyazi Kiçixanlı (Kiçixanov) idi. (O, Parlamentin katibi və vəzifəsinə görə Rəyasət Heyətinin də üzvü idi).

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Əşrəf bəy lazımlı kadrlardan olaraq 1921-ci ilədək hərbi tərcüməçi işləmişdi... Lakin o başa düşürdü ki, bu, müvəqqətidir. Azərbaycan Cümhuriyyətinin digər sabiq xadimlərindən biri kimi bolşeviklərin onu bağışlamayacağını yəqin bilirdi. Odur ki, Əşrəf bəy fürsət düşən kimi 1921-ci ilin əvvəllərində qardaşları ilə birlikdə əvvəlcə hələ sovet hakimiyyətrinin qurulmadığı menşevik Gürcüstanının paytaxtı

Tiflisə qaçmış, oradan isə Batumdan gəmi ilə İstanbula getmiş, 1923-cü llədək orada qalmışdı... 1923-cü ildə hansı yolla isə sovet hakimiyyəti orqanlarından "bəraət" almış və geriyə qayıtmışdı... Ancaq qayıtdıqdan sonra bərk xəstələnmişdi... Əşrəf bəy Şəkidəki mülkündə xəstə yatırdı. Bu vəziyyətini nəzərə almadan, 1924-cü il oktyabrın 7-də onu həbs edib Bakıya aparmışdılar. Lakin 3 aydan sonra günahı sübut olunmadığından Zaqafqaziya DSİ Kollegiyasının qərarı ilə həbsdən buraxılmışdı.

Əşrəf bəy Tağıyev sovet totalitar rejiminin ilk qurbanlarından olmuş, həyatı faciə ilə sona yetmişdir. O, 1930-cu il yanvarın 27-də yenidən həbs edilərək, Azərbaycan SSR CM-nin 72-ci maddəsi ilə təqsirli bilinərək (o, güya 1918-ci ildə türklər Azərbaycana gələndə Ağdaşda dinc ermənilərі talayıb, qətlə yetirib və birdə 1929-cu ilin oktyabrında Yevlax yolunda Az.neftin kassirini və onun mühafizəçisini öldürüb qarət etməkdə iştirak edib... Həm də güya əksinqilabi "Əhrar" partiyasının üzvü kimi kolxoz hərəkatına və sovet hakimiyyətinə qarşı təbliğat aparıb) 10 il müddətinə azadlıqdan məhrum edilməyə məhkum olunsada, sonradan bu hökm dəyişdirilərək, ölüm cəzasıyla əvəzlənmiş, 1930-cu il martın 3-də "xalq düşməni" kimi 63 yaşında güllələnmişdi...

Əşrəf bəyin Baxşalı bəy, Samsun bəy, Mürsəl bəy və Mustafa bəy adlı qardaşları, Məstan xanım adlı bacısı vardı. O, əslən Şəkidən olan Maral xanım adlı qadınla ailə qurmuşdu. Onların Knyaz (1902) və Məhəmmədəli (1912) adlı oğlu, Ceyhun adlı qızı vardı... Ceyhun xanım şəmkirli Ağalar bəy Zülfüqarovun həyat yoldaşıydı.

Əşrəf bəy Qarxunlu (Tağıyev) yalnız Azərbaycan SSR Ali Məhkəməsinin 29 avqust 1989-cu il tarixli qərarı ilə hərəkətlərində cinayət tərkibi olmadığı üçün Zaqafqaziya DSİ-nin və Azərbaycan SSR XDİK-in 3 mart 1930-cu il tarixli ədalətsiz qərarı ilə ləğv edildikdən sonra bəraət almışdı. Əşrəf bəyin Bakıda məsul vəzifədə işləyən nəvəsi Kərim Məhəmməd oğlu Kərimovun bu işdə mühüm rolu olmuşdur...



## QƏDİR bəy HACIBƏYOV

Qədir bəy Mehdi bəy oğlu Hacıbəyov 1874-cü ildə Şuşa şəhərində anadan olmuşdu. Uşaqlığı Şuşa qəzasının Əhmədağalı, Zəngəzur qəzasının Diləli-Muğanlı kəndində keçmişdi. Kənddə mollaxanada ibtidai təhsil almışdı. Sonra Şuşa real məktəbində oxumuşdu. Şuşa Qəza Polis İdarəsinə 2-ci dərəcəli dəftərxan xidmətçisi kimi işə düzəlmişdi. Bir müddət tərcüməçi kimi çalışmışdı. Sonra polis pristavı işləmişdi.

Azərbaycan Cümhuriyyəti dövründə Şuşa qəza İdarəsində böyük köməkçi vəzifəsində işlərkən, Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun təqdimatı və daxili işlər naziri Mustafa bəy Vəkilovun 6 dekabr 1919-cu il tarixli 103 nömrəli əmrilə Qədir bəy Hacıbəyov vəzifədə irəli çəkilərək Şuşa Qəza İdarəsinin müvəqqəti rəisi təyin olunmuşdu. Onun böyük köməkçisi Avetis - Ter Qukasov idi... Daxili işlər naziri M. Vəkilovun 1920-ci il 6 mart tarixli 42 nömrəli əmri ilə isə o, Şuşa qəzasının rəisi (1 dekabdr 1919-cu ildən sayılmaqla) təyin edilmişdi. Lakin daxili işlər naziri M. Vəkilovun 21 aprel 1920-ci il tarixli 61 nömrəli yeni əmrü ilə Qədir bəy Hacıbəyov "vəzifəsinə uyğun gəlmədiyi üçün" həmin vəzifədən və ümimiyyətlə, DİO-dan azad olunmuşdu... Bu, nazir müavini və həm də DİN-in Dəftərxana direktoru Şəfi bəy Rüstəmbəylinin Qarabağın general-qubernatoru X. Sultanova göndərdiyi 21 aprel 1920-ci il tarixli teleqramından bəlli olur...

## FƏRƏC bəy MƏLİKNAMZƏLİYEV

Fərəc bəy Kərbəlayi Mehdi bəy oğlu Məliknamazəliyev 1863-cü ildə Şuşa qəzasının Vərəndə (indiki Ağdərə) sahəsinin Pirəhmədli kəndində anadan olmuşdi. Şuşa şəhər real məktəbində oxumuşdu. Sonra dövlət idarələrində qulluğa başlamışdı. Tiflisdə Qafqaz Canişinliyində tərcüməçi işləmişdi. 1909-cu ildə titulyar müşavir rütbəsi almışdı. Zaqatala dairəsində pristav vəzifəsində

xidmət etmişdi. Azərbaycan Cümhuriyyəti dövründə (1919-cu ilin fevralınadək) Zəngəzur qəzasının rəisi vəzifəsində işləmişdi.

Fərəc bəy əvvəlcə Bədircahan bəyim Mustafa ağa qızı Sarıcalı-Cavanşirlə, sonra isə Asiya bəyim Axundova ilə ailə qurmuşdu. Həsən bəy adlı oğlu vardı...

## HƏBİB xan ŞƏKİNSKİ
## (1880-1956)



Həbib xan Süleyman xan oğlu (tarixi ədəbiyyatda Süleyman ağa da adlandırılır) Şəkinski 1880-ci ildə Şuşada doğulmuşdu. O, Şəki xanı Səlim xanın və Qarabağ xanı İbrahim Xəlil xanın nəvəsi idi. Hələ çar Rusiyası dövründə Zəngəzur qəzasının Dığ nahiyəsində sahə polis pristavı olmuşdu...

Azərbaycan Cümhuriyyəti dönəmində Zəngəzur qəzasının rəis əvəzi təyin edilmişdi (**Qeyd**: *AXC dönəmində Zəngəzur qəzasının rəisi vəzifəsində 6 nəfər xidmət etmişlər. Bunlar Fərəc bəy Məliknamazəliyev, Hüseyn bəy Mahmudbəyov (1874-1920), Camal bəy Sultanov, Fərrux bəy Sərməstbəyov, Mirzə Məhəmməd Axundov (1876-1938) və Həbib xan Şəkinski olmuşlar H. Şəkinski rəis hüququnda rəis əvəzi vəzifəsini yerinə yetirmişdi*). Zəngəzur qəzasının Akara, Muradxanlı, Novruzlar kəndləri Həbib xan Şəkinskiyə məxsus idi.

Həbib xan Şəkinskinin anası Gövhər xanım görkəmli yazıçı, dramaturq Əbdürrəhim bəy Haqverdiyevin (17 may 1870, Şuşa - 17 dekabr 1933, Bakı) əmisi qızı idi. Həbib xan Ağca (Həcər) xanım Mirzə Kərim bəy qızı Hacıyeva ilə ailə həyatı qurmuşdu. Onun Süleyman adlı oğlu, Barat xanım və Səriyyə xanım adlı qızları vardı. Barat xanım Şəkinskaya (14 iyun 1914, Şuşa - 14 yanvar 1999, Bakı) görkəmli aktrisa, respublikanın xalq artisti kimi məşhur idi.



Həbib xan Şəkinski 1956-cı ildə Bakıda 76 yaşında vəfat etmişdir...



*Həbib xan Şəkinski*

## ƏLƏKBƏR bəy BƏHRƏMBƏYOV

... Ələkbər bəy Bəhrəmbəyov 1919-cu ilin dekabrınadək Bakı Mərkəzi Həbsxanasının (1888-ci ildə tikilib istifadəyə verilmişdi) rəisi işləyirdi. 1919-cu il dekabrın 12-də daxili işlər naziri N. Yusifbəylinin əmri ilə Ələkbər bəy Bəhrəmbəyov tutduğu vəzifəsindən azad olunaraq Qarabağa, Cəbrayıl qəzasının rəisi vəzifəsinə (1-ci dərəcə üzrə ayda 3.000 manat əmək haqqı ilə təyin edilmişdi (Bundan əvvəl həmin vəzifədə Hüseyn bəy Mahmudbəyov işləmişdi). Bu təyinat Daxili İşlər Nazirliyinin 5 yanvar 1920-ci il tarixli 228 nömrəli yeni əmri ilə bir daha təsdiqlənmişdi...

O zaman Cəbrayıl qəzası X. Sultanovun başçılıq etdiyi Qarabağ General-Qubernatorluğunun tərkibinə daxil idi. Bu qubernatorluğa Cəbrayıl qəzasından başqa Şuşa, Zəngəzur və Cavanşir qəzaları da daxil idi. Ələkbər bəyə vəzifələrinin yerinə yetirilməsində əvvəlki xidməti fəaliyyət xəttindən tanıdığı, millət vəkili Bəhram bəy Vəzirov (1857-1927) yaxından kömək etmişdi...

Bəhram bəy Əsəd bəy oğlu Vəzirov 23 dekabr 1857-ci ildə Şuşa qəzasının Vərəndə (indiki Ağdərə) sahəsinin Mirzəcamallı (Şərifbəyli) obasında doğulmuşdu. Sonra Şuşa şəhərinə köçmüşdülər. Bəhram bəy Şuşa real məktəbini bitirmişdi. Sonra hüquq təhsilinə yiyələnmişdi... Bir müddət qəza polis idarəsində işləmişdi... Buna görə də Qarabulaq (indiki Füzuli), o vaxtkı Karyagin dövlət həbsxanasının rəisi işləmişdi... Elə Ələkbər bəy Bəhrəmbəyovla da həmin sahədəki xidməti fəaliyyəti zamanı yaranmış əlaqələrə görə tanış idi... Bəhram bəy Vəzirov Azərbaycan Milli Şurasının 19 noyabr 1919-cu il tarixli "Azərbaycan Məclisi-Məbusanının təsisi haqqında qanuna" əsasən "İttihad" partiyasından Azərbaycan Cümhuriyyəti Parlamentinə üzv seçilmişdi. Parlamentdə 13 nəfərdən ibarət "İttihad" fraksiyasına daxil idi. Bəhram bəyin adı Parlamentin iclaslarında fraksiya üzvlərinin adı çəkilən zaman sayca 5-ci səslənirdi. Bəhram bəy həmdə şair idi. "Fədai" təxəllüsü ilə şeir yazırdı... Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Bəhram bəy müxtəlif təssərrüfat müəssisələrində və idarələrində işləmişdi.. Lakin 20-ci illərin ortalarından o, keçmişinə görə təqiblərə məruz qalmağa başlamış və nəticədə, repressiyanın qurbanı olmuşdu. Bəhram bəy Vəzirov 1927-ci ildə ailə üzvləri ilə birlikdə sürgün olunmuş və orada vəfat etmişdi...

...Ələkbər bəy Bəhrəmbəyov Cəbrayıl qəzasının rəisi vəzifəsində 1920-ci ilin martınadık işləmişdi. Beləki, Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri Mustafa bəy Vəkilovun 6 mart 1920-ci il tarixli əmri ilə o, tutduğu vəzifəsindən azad olunmuşdu...



## BƏHRAM bəy Məlik-ABBASOV

Bəhram bəy Hüseyn bəy oğlu Məlik-Abbasov 1857-ci ildə Şuşa qəzasının Nüvədi kəndində anadan olmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Ordubad şəhərində oxumuşdu. Zəngəzur Qəza İdarəsində 2-ci dərəcəli dəftərxana xidmətçisi kimi işə başlamışdı. 1893-cü ildə qəza idarəsində tərcüməçi kimi xidmət etmişdi. Sonra ədliyyə sahəsində çalışmış və polis pristavı işləmişdi. O, 1919-cu ilin fevralında Cavanşir qəzasının rəisi idi. 1919-cu il fevralın 15-də Qarabağın general-qubernatoru Xosrov bəyin yanında keçirilən müşavirədə ermənilərin fitnə-fəsadlarının qarşısını almaq məsələlərinin müzakirəsi zamanı öz çıxışı və təklifləri ilə diqqəti cəlb etmişdi. Bəhram bəy Məlik-Abbasov Xudadat bəy Rəfibəyli Gəncənin general-qubernatoru təyin edildikdən sonra (6 may 1919-cu il) 1919-cu ilin iyunundan Gəncə qəzasının rəisi vəzifəsində işləmişdi...

## MİRZƏ MƏHƏMMƏD AXUNDOV
## (1876-1938)

Məhəmməd Hacı Molla Şükür oğlu Axundov (əsl soyadı Məhərrəmovdur) 1876-cı ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini atasından almışdı. Atası Qarabağın baş axundu Hacı Molla Şükür Şərqdə İslam dinini yaxşı bilən adamlardan biriydi. Sonra mədrəsədə oxumuşdu. Savadlı olduğundan hələ gəncliyindən Məhəmməd "Mirzə" ünvanı da daşıyırdı. Müəllimlik fəaliyyəti ilə məşğul olmuşdu.

Əslən Şuşadan olan, uzun müddətdir ki, "Şuşa" nəşriyyatının və eyni adlı qəzetin baş redaktoru olan, yorulmaz tədqiqatçı-jurnalist Vasif Quliyev 1991-ci ildə çapdan buraxdırdığı "Mənim babam kim olub?" adlı kitabında yazır: "... 1904-cü ildə Mirzə Məhəmmədin əlindən təsadüfi bir xəta çıxmış, heç nədən baş verən şəxsi münaqişə zəminində bir nəfəri vurub öldürmüşdü. Beş il cəzasını Azərbaycandan kənarda çəkəndən sonra Vətəninə dönmüş

və müəllimlikdən əl çəkib Qacar cəmiyyətində nahiyə kargüzarı vəzifəsində qulluq etmişdi. 1917-ci ilədək burada çalışmış, sonra bir müddət işsiz qalmışdı.

Azərbaycan Cümhuriyyəti dövründə əvvəlcə şəhər pristavının katibi, Qubadlının pristavı, sonra Şuşa şəhərinin polismeysteri, daha sonra isə Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun sərəncamı ilə Zəngəzur qəzasının rəisi (1919-cu ilin yanvarından) olmuşdu. Ona qədər qəza rəisi vəzifəsində 1864-cü ildə Şuşa qəzasının Mehri sahəsinin Əldərə kəndində anadan olmuş Fərrux bəy Sərməstbəyov çalışmışdı. Yazıçı Nəzər Heydərov "Zəngəzur dağlarında" kitabında yamışdır: "... Şəhərdə söz gəzirki, güya Qarabağın general-qubernatoru Xosrov bəy bizim qəzada həyəcanı yatırmaq üçün Hacı Molla Şükürün oğlu Mirzə Məhəmməd Axundovu ora rəis göndərir. O, belə fikirləşir ki, bununla və Allahın köməyi ilə bolşevizmin kökünü kəsəcək!".

... Mirzə Məhəmməd Axundov Şuşa şəhərinin polismeysteri vəzifəsində də işləmişdi... O, bu vəzifəyə təzəcə təyin olunmuşdu ki, 11-ci ordu tərəfindən 1920-ci il aprelin 27 Bakı işğal olundu və ertəsi günü sovet hakimiyyəti quruldu. 11-ci ordu hissələri sürətlə Qarabağa doğru irəlilədi və Azərbaycan Cümhuriyyətinin Şuşadakı məmurları həbs olunmağa başladı. Mirzə Məhəmməd Axundovu da keçmişinə görə həbs etdilər, lakin günahı sübut olunmadığından tezliklə buraxıldı. Bununla belə, yeni quruluşla barışa bilməyən Mirzə Məhəmməd Axundov həmin andan ömrünün axırınadək sovet hakimiyyətinə qarşı gizli mübarizə aparmış, bu yolda dəfələrlə (1923, 1927, 1929, 1937) həbs olunmuş və yenidən azad edilmişdi...

... Mirzə Məhəmməd Axundov "Müsavat" partiyasının üzvü idi. O, Qarabağda (Şuşada, Ağdamda) "Müsavat"ın gizli rəhbərlərindən birinə çevrilərək sovet hakimiyyətinə qarşı əks fəalyyətinə görə 1929-cu ilin sonunda tutulmuş və Sibirə sürgün olunmuşdu. Ancaq həbslər və sürgünlər də bu milli təəssübkeş şəxsi öz yolundan döndərə bilməmişdi. 1933-cü ilin qışında 57 yaşında Tomsk vilayətindəki 3 illik sürgün müddətini başa vurub Şuşaya qayıtmışdı. Amma ona Şuşada yaşamağa icazə verilməmişdi... Odur ki, Ağdama köçmüşdü. Ağdamda da müsavatçılarla gizli fəaliyyətini davam etdirmişdi... O, Ağdam "Müsavat" təşkilatının rəhbəri seçilmişdi...



Mirzə Məhəmməd Axundov 30-cu illərin repressiya qurbanlarından biri olmuşdu. Repressiyanın tüğyan etdiyi 1937-ci ildə onu da həbs etmişdilər. Dağlıq Qarabağ Muxtar Vilayəti Siyasi İdarəsinin rəisi, dövlət təhlükəsizlik xidməti kapitanı Stepanik Sayadyanın və köməkçisi, dövlət təhlükəsizlik kiçik leytenantı Martirosovun imzaladığı order əsasında Mirzə Məhəmməd Məhərrəmov (bu onun əsl familiyasıdır. Nəzər Heydərov onu öz kitabında Axundov kimi yazdığından sovet sənədlərində o cür yazılmışdı. Lakin Mirzə Məhəmmədin qardaşları Məhərrəmov soyadını daşıyırdılar...) 1937-ci il avqustun 4-də Ağdamda həbs edib Stepanakertə (keçmiş Xankəndinə. 1923-cü il sentyabrın 1-dən şəhərə Stepan Şaumyanın adı verilmişdi) gətirmişdilər. Düz 1 il 2 ay həbsxanada ona olmazın əzab-əziyyət vermişdilər. Mirzə Məhəmməd Axundov həbs edilmiş məsləkdaşları Salman Ağayev, Cəlal Zeynalov və başqaları ilə birlikdə 1938-ci il oktyabrın 10-da 62 yaşında güllələnmişdi (Hərçənd, tədqiqatçı-jurnalist Vasif Quliyev yazmışdır ki, Mirzə Məhəmməd Axundov 1869-cu ildə döğulmuşdur. Etimologiya üzrə tədqiqatçı Ənvər Çingizoğlu isə onun ailə sənədlərinə əsaslanaraq M. Axundovun 1876-cı ildə anadan olduğunu bildirir. Ə. Çingizoğlu əsaslandırır ki, 1917-ci ilədək olan sənədlərin hamısında Mirzə Məhəmməd Axundovun təvəllüdü 1876-cı il olaraq qeyd olunmuşdur...).

Mirzə Məhəmməd Axundovun ailə üzvləri və qohumları da repressiyaya məruz qalmışlar... Lakin onların davamçıları bu gün əqidəli milli istiqlal fədailərindən biri olmuş Mirzə Məhəmməd Axundovun əməlləri və əziz xatirəsi ilə fəxr edirlər. Azərbaycan Republikasının millət vəkili, Xankəndindən olan camaat tərəfindən deputat seçilmiş Flora xanım Qasımova Azərbaycanın Milli Qəhrəmanı, mərhum Qarabağ şəhidi Şirin Mirzəyevin (15 yanvar 1947, Xankəndi - 18 iyun 1992, Ağdam) həyat yoldaşı və unudulmaz Mirzə Məhəmməd Axundovun nəvəsidir...

## RƏHİM bəy ŞIXLINSKİ



Rəhim bəy Tahir bəy oğlu Şıxlınski 19-cu əsrin axırıncı rübündə Qazax qəzasının II Şıxlı kəndində məşhur "Alqazax"- Şıxlınskilər nəslindən çıxmış ailədə doğulmuşdu. 1902-ci ildə Qori Seminariyasını bitirmiş və dövrünün qabaqcıl pedaqoqlarından olmuşdu. Müəllimliklə məşğul olmağa Nuxa qəzasından başlamışdı. Sonra Ağdamda və Bakıda dərs demişdi.

Rəhim bəy 1917-ci ildən milli istiqlal hərəkatında fəal iştirak edirdi. Siyasi baxışlarına görə Türkiyəyə meyilli idi. Azərbaycan Cümhuriyyəti dövründə əvvəlcə Şuşa Polismeysterliyində işləmiş, 1919-cu ilin dekabrından Ərəş qəzasının rəisi vəzifəsinə təyin edilmiş və bu vəzifədə Azərbaycan Cümhuriyyətinin süqutuna qədər xidmət göstərmişdi...

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra repressiya olunacağından ehtiyat edərək, 1920-ci ildə Tiflisə köçmüşdü. Çünki orada hələ sovet hakimiyyəti qurulmamışdı. Rəhim bəy Tiflisdə Azərbaycan orta məktəbində uzun illər direktor işləmişdi... Lakin 30-cu illər repressiyası dövründə onu "Müsavat" partiyasına üzv olmaqda və antisovet fəaliyyət göstərməkdə ittiham edib, 1937-ci il iyulun 22-də həbsə almış və bir qədər sonra güllələmişdilər...

## İSGƏNDƏR bəy QƏMBƏRƏLİYEV

İsgəndər bəy Məşədi Salman bəy oğlu Qəmbərəliyev (tarixi ədəbiyyatda Əliyev də yazılır. Qəmbərəliyev düzdür) 1888-ci il mayın 10-da Gəncədə anadan olmuşdu. 1906-cı il iyunun 1-də 6 sinifli Gəncə şəhər məktəbini bitirmişdi. Kollec registirliyinə yiyələnmişdi... 1917-ci ildən Yelizavetpol (Gəncə) qəza və xalq milisin-



də xidmət etmişdi. Zaqafqaziya Komissarlığının əmri ilə 1918-ci il yanvar ayının 1-dən Gəncə şəhər xalq milisində 4-cü sahənin milis komissarı təyin edilmişdi.

Azərbaycan Cümhuriyyəti dövründə 1918-ci il iyun ayının 23-də Gəncənin ilk qubernatoru təyin olunmuş polkovnik İbrahim ağa Vəkilovun 25 sentyabr 1918-ci il tarixli əmri ilə İsgəndər bəy Qəmbərəliyev Gəncə şəhər polismeysterinin böyük köməkçisi (1-ci müavini) vəzifəsinə təyin edilmişdi. Daxili işlər naziri N.Yusifbəylinin 30 sentyabr 1919-cu il tarixli 133 nömrəli əmri ilə bu vaxtadək Gəncə polismeysterinin böyük köməkçisi vəzifəsində çalışan İsgəndər bəy Qəmbərəliyev Gəncə şəhərinin müvəqqəti polismeysteri təyin olunmuşdu. Sonra yenə daxili işlər naziri N.Yusifbəylinin 12 noyabr 1919-cu il tarixli 295 nömrəli əmri ilə İsgəndər bəy Qəmbərəliyev Şamxor (Şəmkir) qəzasının rəis əvəzi göndərilmişdi. Nəhayət, Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri Mustafa bəy Vəkilovun 18 fevral 1920-ci il tarixli 34 nömrəli əmri ilə İsgəndər bəy Məşədi Salman oğlu Qəmbərəliyev 12 noyabr 1919-cu ildən sayılmaqla Şamxor qəzasının rəisi vəzifəsinə (1-ci dərəcə üzrə ayda 3.000 manat məvaciblə) təyin edilmiş və bu vəzifədə Cümhuriyyətin süqutuna qədər xidmət göstərmişdi... İsgəndər bəy Qəmbərəliyevlər 30-cu illərin repressiyasına məruz qalmışdılar...

# QƏZA RƏİSLƏRİNİN KÖMƏKÇİLƏRİ

## ŞAHSUVAR bəy KƏLƏNTƏROV
## (1880-1934)

Şahsuvar bəy ("Şahsuvar" farsca "atlılar başçısı" deməkdir) Mirzəhəzrətqulu bəy oğlu Kələntərov (əslində Hüseynbəyovdur) 1880-ci ildə Şuşa qəzasının Xocamusaxlı (bu kənd Xacə Əbuisaqlı da adlandırılır) kəndində əsilli ailədə anadan olmuşdu. İbtidai təhsilini molla yanında almış, ardını Yelizavetpol (Gəncə) klassik gimnaziyasında davam etdirmişdi. Şahsuvar bəy 19-cu əsrdə ali təhsil almış ilk azərbaycanlı gənclərimizdən biri idi. O, 1906-cı ildə Ukraynada Kiyev Müqəddəs Vladimir Universitetinin hüquq fakültəsini bitirmişdi.1911-ci ildən Zəngəzurun Dondarlı bölgəsinin (indi Qubadlı ərazisindədir. Dondarlılar qədim döyüşkən türk tayfaları olmuşlar) polis pristavı idi. Şahsuvar bəy savadlılığı və ədalətliliyi ilə el-oba arasında hörmət qazanmışdı. Odurki, 1918-ci ildə Zəngəzur qəzasının mərkəzi Gorus şəhərinin polis rəisi vəzifəsinə irəli çəkilmişdi.

Azərbaycan Cümhuriyyəti yaranan zaman Şahsuvar bəy Qarabağ General-Qubernatorluğuna daxil olan Zəngəzur qəzasının rəis əvəzi təyin edilmiş Həbib xan Şəkinskinin (1880-1956) böyük köməkçisi (1-ci müavini) vəzifəsində fəaliyyət göstərmişdi. Şahsuvar bəy Hüseynbəyov nüfuzlu bir şəxs kimi müstəqil dövlətimizin möhkəmlənməsində və torpaqlarımızın düşmənlərdən qorunmasında müstəsna xidmətlər göstərmişdi... Şahsuvar bəy məşhur xalq qəhrəmanı, Qarabağın general-qubernatoru X. Sultanovun böyük qardaşı Sultan bəy Sultanovun yaxın dostu və silahdaşı olmuşdu. 1919-cu ildə Sultan bəy Laçında Zabıx çayı vadisində qaniçən daşnak generalı Andronik Ozanyanın ordusunu darmadağın edəndə, Şahsuvar bəy bu müdrik və igid xalq qəhrəmanının yanındaydı...



Şahsuvar bəy erməni-daşnak qüvvələrinin Qarabağa hücumlarının qarşısının alınmasında xalqımıza köməyə gəlmiş türk generalı Faruq Mustafa Nuru paşayla bərabər vuruşmada qəhrəmanlıqlar göstərmişdi. Odur ki, Nuru paşa ona "Kələntər" (farsca "böyük" sözündəndir, "hakim," "başçı" deməkdir) adı vermişdi. Kələntərov soyadı çox gümanki bu faktla bağlıdır...

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra fəhlə-kəndli hökumətinə təhsilli kadrlar lazım idi. Şahsuvar bəyə də "iş" tapılmışdı. O, ömrünün sonunadək Laçın şəhərində maliyyə şöbəsinin müdiri vəzifəsində çalışmışdı. Azərbaycan Cümhuriyyəti dövründə milli istiqlaliyyətimizin keşikçilərindən biri olan Şahsuvar bəy Kələntərov (Hüseynbəyov) 1934-cü ildə 54 yaşında ürək xəstəliyindən vəfat etmişdi.

Şahsuvar bəyin Arəstə, Vəsilə, Mustafa, Xəlil, Xədicə, Balaxanım və Yusif adlı övladları vardı... Çox təəssüf ki, Şahsuvar bəy Kələntərovun şəkilini tapa bilmədik. 30-cu illərin qara yelləri onun və ailə üzvlərindən də yan keçməmişdi... Azərbaycanın çox sevilən mərhum şairi Qasım Qasımzadə ( 1923-1993) Şahsuvar bəyin nəvəsi idi. O söyləmişdirki, "kişinin bir şəkili qalıbmış, onu da Allah insaf verməmiş qohumlarımız 1937-ci ildə qorxularından məhv ediblər".

Qasım Qasımzadə oğlanlarından birinə Şahsuvar bəyin adma oxşar Xansuvar adını qoymuşdur. Xansuvar Qasımzadə və onun qardaşı, "Qurani-Kərim"in mükəmməl tərcüməçilərindən biri, şərqşünas alim Nəriman Qasımzadə bu gün Bakıda yaşayırlar və nüfuzlu ziyalılar kimi tanınarlar. Onlar Şahsuvar bəy haqqında iftixarla danışırlar və buna haqları da çatır... Şahsuvar bəyin nəticəsi, polis polkovniki Əli Vəliyev isə hazırda Bakı Şəhər Baş Polis İdarəsinin şəxsi heyət üzrə böyük köməkçisi vəzifəsində xidmət edir. İstiqlalımızın fədailərindən biri, unudulmaz Şahsuvar bəy Kələntərov (Hüseynbəyov) kimi...

# QİYAS bəy ŞIXLINSKİ
## (1895-1972)



Qiyas bəy Cahandar ağa (bəy) oğlu Şıxlınski 1895-ci ildə Qazax qəzasının II Şıxlı kəndində əsilzadə ailədə dünyay gəlmişdi ("Dəli Kür" bədii filmindəki Cahandar bəy surəti Qiyas bəyin atası Cahandar ağanın prototipidir. Qiyas bəy Şıxlınski mərhum xalq yazıçısı İsmayıl Şıxlının dayısıdır). Kənddə ibtidai məktəbi bitirdikdən sonra Qori Seminariyasına daxil olmuş, lakin 2-ci kursdan məktəbdən xaric edilmişdi... Sonrakı illərdə quberniya idarələrində müxtəlif vəzifələrdə qulluq etmişdi.

Qiyas bəy Azərbaycan Cümhuriyyəti dövründə Parlamentin üzvü, Ərəş qəzasının rəisi ,Yevlaxın Qarxunlu kəndindən olan Əşrəf bəy Tağıyevin ((1867-1930) köməkçisi (müavini) vəzifəsində xidmət göstərmişdi. Ancaq buna qədər ştabs-kapitan rütbəsində Gəncənin polis pristavı və Ərəş qəzasının 2-ci polis sahəsinin pristavı vəzifələrində çalışmışdı. Əşrəf bəylə Qiyas bəy hər ikisi eyni zümrəyə məsub olub, ailəvi dost idilər. Hər ikisi də Azərbaycan Cümhuriyyətinə can - başla və sədaqətlə xidmət etmişdilər... Ancaq hər ikisi də gələcəkdə sovet hakimiyyəti repressiyasının qurbanı olmuşdu...

Qiyas bəy 1920-ci il Gəncə üsyanının iştirakçısı olduğundan sovet hakimiyyəti qurulduqdan sonra bir müddət gizlənməyə məcbur qalmışdı. Lakin sonra Azərbaycan SSR FK-DSİ-nın sədri və xalq daxili işlər komissarı kimi məsul vəzifələrdə çalışan Mir Cəfər Bağırovla yaxın şəxsi münasibətləri, əlaqələri və dostluğu səbəbindən Qiyas bəy üzə çıxmış, əvvəlcə onun tərəfindən Qazax qəzasında milis dəstəsinin komandiri, sonra isə Qazax Qəza Milis İdarəsinin rəisi təyin olunmuşdu.



1920-ci illlərin ikinci yarısında Azərbaycanın şimal-qərb bölgələrində sovet hakimiyyətinə qarşı narazılıqlar və çıxışlar baş verirdi. Bunlardan biri Zaqatalada baş vermiş "üsyan" idi. Həmin "üsyan"ın yatırılması zamanı Qiyas bəy M. C. Bağırovu labüd ölümdən xilas etdiyi üçün onların arasında bir-birinə etimad dahada mohkəmlənmişdi. Sovet hakimiyyətinə qarşı silahlı dəstələr yaradan bir çox qaçaq dəstəsinin başçıları Qiyas bəyin kişi kimi verdiyi sözün üstündə durduğunu görüb, üzə çıxmış və silahı yerə qoymuşdular... Bu, M. C. Bağırovun Qiyas bəyə hörmətini daha da artırmışdı.

1927-29-cu illərdə Qiyas bəy Şıxlınski Qazax qəzasının Salahlı nahiyəsinin milis rəisi işləmişdi. Lakin 1928-ci ildə Azərbaycana rəhbərlik edən L. Mirzoyan, Ə. H. Qarayev və B. Ağaverdiyev üçlüyü özlərinə düşmən saydıqları M. C.Bağırovu respublikadan çıxmağa məcbur etdikdən sonra (M. C. Bağırov Tiflisə, dostu L. Beriyanın yanına qaçmışdı...) Qiyas bəyin qaçaq düşməkdən başqa çarəsi qalmamışdı. Onun düzəltdiyi antisovet qaçaq dəstəsinə dostları Tomtuoğlu Əmiraslan və Sədi, Borçalıdan Həmzə bəy, Şıxlınskilərdən qardaşı Həsən ağa, Alay bəy, İsrafil bəy, Mustafa ağa, Süleyman ağa və başqaları daxil idilər. Bu dəstə bir müddət Dağıstan səmtdə fəaliyyət göstərmişdi. Dəstə həmin vaxt (1930-cu ilin fevralında) Nuxada Baş Şabalıd kəndindən olan Molla Mustafa Məhəmməd oğlu Şeyxzadənin başçılığı altında sovet hakimiyyəinə qarş başlanan və ətraf 8 rayonu əhatə edən Nuxa-Zaqatala üsyanında ) tarixi ədəbiyyatda və dövrü mətbuatda bu 1930-cu il "Şəki üsyanı" kimi öz əksini tapmışdır...) da iştirak etmişdi... Üsyan ordu və XDİK qüvvələri tərəfindən yatırıldıqdan sonra Qiyas bəyin dəstəsi təqib olunduğundan fasiləsiz olaraq yerini dəyişir, gah Mamay dağında, gah da Borçalı və Baş Keçiddə görünür, tez-tez onları izləyən milis qüvvələri ilə toqquşmalı olurdular.

Q. Şıxlınski Türkiyə Cümhuriyyətinin Prezidenti Mustafa Kamal Paşa Atatürklə də əlaqə saxlayırdı... Q. Şıxlınski 20-ci illərin sonlarında sovet hakimiyyətinə qarşı çıxmışdı... O, 1930-cu il iyulun 29-da qohumları və silahlı dəstəsilə Türkiyəyə - əvvəlcə Qarsa keçmiş, orada üsyançı dəstələrin qərargah rəisi olmuşdu. Türkiyənin hakimiyyət orqanları ilə əlaqə Qiyas bəyin vasitəsilə aparılırdı. Buraya çoxsaylı qaçaq dəstələrinin silah-sursatla təminatı, hərbi təlim-

lər, yaralıların müalicəsinin təşkili və başqa işlər daxil idi ki, onlara da Qiyas bəy özü rəhbərlik edirdi. Qiyas bəy sonra Van bölgəsində Qara Köçədə məskunlaşmışdı...

Azərbaycan BSİ-nin Türkiyəyə qaçmış üsyançı dəstələrə qarşı nəzərdə tutduğu tədbirlər baş tutmadığından onların Azərbaycanda qalmış ailə üzvlərinə, arvad-uşaqları və digər qohumlarına divan tutulmasına başlanılmışdı. Bəzilərini sadəcə güllələyir, yaxud sürgünlərə göndərirdilər... Belə şəraitdə Türkiyənin ağırlaşmış beynəlxalq vəziyyətində hakimiyyət orqanları Qiyas bəy və Əmiraslan Tomtuoğluna silahı yerə qoymağa və bir daha sərhədi keçməməyə (qaçaqların Zaqafqaziya sərhədlərinə reydləri axırıncı dəfə 1936-cı ildə olmuşdu) razılaşdılar. Onlar da Türkiyənin SSRİ ilə qarşılıqlı münasibətlərinə bir daha xələl gəlməməsi üçün buna əməl etmişdilər. Üstəlik, Qiyas bəy və Tomtuoğlu Əmiraslanın Moskvadakı Türkiyə səfirliyi vasitəsilə Azərbaycanda qalmış ailələri ilə birləşməyə imkan verilməsi barədə etdikləri xahiş də sovet hökuməti tərəfindən rədd edilmişdi...

Siyasi fəaliyyətini davam etdirən Qiyas bəy İkinci Dünya Müharibəsi dövründə (1939-45) azərbaycanlı əsirlərin xilas edilməsi və milli legionların yaradılmasında yaxından iştirak etmişdi. 1943-cü ildə Almaniya və Türkiyə arasında gizli müqavilə bağlanmışdı. Müqaviləyə görə Qiyas bəy Şıxlınskinin başçılığı ilə Türkiyədə yaşayan qafqazlılar geri qayıdıb Sovetlər İttifaqına daxildən zərbələr vurmaq üçün cəbhə açmalıydılar. Ancaq Qiyas bəyin tərəfdarları içərisində İman Bolluq bəy adlı birisi bu məlumatı sovetlər tərəfə 20 min lirəyə satdığından həmin niyyət baş tutmamışdı...

Qiyas bəy 1944-cü ildə mühüm tapşırıqla SSRİ-yə sonuncu gəlişində Batumda həbs olunmuşdu. Lakin şəxsiyyətini müəyyənləşdirə bilmədiklərinə görə onu azad etmişdilər. Müharibədən sonrakı illərdə Qiyas bəy cəzalanma qorxusu altında Vətənə qayıtmaq istəməyən azərbaycanlı hərbi əsirlərin məsələləri ilə məşğul olurdu...

Qiyas bəy Şıxlınski 1949-55-ci illərdə yenə Qarsda, 1955-65-ci illərdə Ağrıda yaşayıb... Ağrıda yaşayarkən evlənmiş, 3 oğlu və 2 qızı dünyaya gəlmişdi. Oğlanlarından Çingiz bəy Alqazax (1938, İqdır şəhəri, Türkiyə -1992, Ankara, Türkiyə) hərbi təyyarəçi idi. Türkiyə



Hərbi Avasiya Məktəbini bitirmişdi. ("Alqazax", "Alqazaxlı" qədim türk tayfasıdır). Çingiz Alqazax albay (polkovnik) rütbəsinə yüksəlmişdi. O, Türk Hava Qüvvələrində layiqli xidmətilə şöhrət qazanmışdı. Çingiz bəy 1992-ci ildə 54 yaşında vəfat etmişdi...

Ömrünün sonunadək sovet hökumətinə müxalif qalan və mübarizə aparan, siyasi mühacir həyatı yaşayan Qiyas bəy Şıxlınski 1972-ci ildə Türkiyənin Bandurma şəhərində 77 yaşında vəfat etmişdir...

## MAHMUD bəy FƏRZƏLİBƏYOV
## (1871-1937)



*Mahmud bəy Fərzəlibəyov (ayaq üstə soldan birinci)*

Mahmud bəy Murtuzaqulu (Mürsəlqulu) oğlu Fərzəlibəyov 1871-ci ildə Şuşada əsilzadə ailədə anadan olmuşdu. 1890-cı ildə Şuşa real məktəbini bitirmişdi. Sonra Tiflisdə ali savad almışdı. 1891-ci ildə Qazax Qəza İdarəsində xidmətə başlamışdı. 1893-cü il iyunun 29-da Şuşa Qəza İdarəsinin tərcüməçisi təyin olunmuşdu. 1896-cı il avqustun 21-də Quba Qəza İdarəsinə tərcüməçi dəyişdirilmişdi. 1900-cü il oktyabrın 15-də Bakı Qəza İdarəsinə həmin vəzifəyə göndərilmişdi. 1 noyabr 1901-ci ildə Bakı Dairə Məhkəməsinə tərcüməçi vəzifəsinə köçürülmüşdü. 24 sentyabr 1904-cü ildə Bakı Dairə Məhkəməsi katibinin köməkçisi təyin edilmişdi. 7 oktyabr 1908-ci ildə Bakı Dairə Məhkəməsinin Daşlaqar məhkəmə sahəsinə barışdırıcı münsif təyin olunmuşdu. 1911-ci il may ayının 2-də Bakı Dairə Məhkəməsinin Prişib (indiki Göytəpə) məhkəmə sahəsinə məhkəmə təyinatçısı göndərilmişdi. 1914-cü il məlumatlarına görə Şuşa Qəza

İdarəsində kargüzar işləyirdi. 1917-ci il aprelin 9-da Şuşa şəhər Dumasına kargüzar təyin olunmuşdu.

Azərbaycan Cümhuriyyəti dövründə Göyçay qəza rəisi Niftəli (əslində Lütvəli bəydir) Zülqədərovun böyük köməıçisi (1-ci mavin) vəzifəsində xidmət etmişdi...

Azərbaycanda sovet dönəmində Mahmud bəy Fərzəlibəyov ("Mahmud" ərəb sözüdür,"tərifli, təriflənmiş" deməkdir) 1922-ci il yanvarın 29-dan 1923-cü ilədək Bakı şəhərində İşlər İdarəsində kargüzar vəzifəsində çalışmışdı. 1923-cü ildə tərcüməçi vəzifəsinə dəyişilmişdi. 1924-cü ildə Azərtütün İdarəsinə tərcüməçi göndərilmiş və ömrünün sonunadək həmin işdə çalışmışdı. Mahmud bəy Fərzəlibəyov 1937-ci ildə Bakıda 66 yaşında vəfat etmişdir...



## *PRİSTAVLAR*

### İSMAYIL bəy HACIBƏYOV



İsmayıl bəy Hacı bəy oğlu Hacıbəyov 1887-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Şuşa qəza məktəbini bitirmişdi. Azərbaycan Cümhuriyyəti dövründə Şuşa qəzasında əvvəlcə polis pristavı işləmişdi. Sonra Cavanşir qəzasında xidmətini davam etdirmişdi. O, 1920-ci ilin aprelinədək Cavanşir qəzasının rəisi Mustafa bəy Qabulovun (tarixi ədəbiyyatda Kabulovda yazılır) böyük köməkçisi (1-ci müavini) vəzifəsində qulluq göstərmişdi...

...İsmayıl bəy Hacıbəyovun Soltan bəy və Osman bəy adlı oğulları, Dilguşə xanım adlı qızı vardı...

### NURƏDDİN bəy SEYİDZADƏ (SEYİDOV)
### (1896 – 1968)

Nurəddin bəy Seyidzadə 1896-cı ildə Gəncə şəhərinin Zərrabi məhəlləsində anadan olmuşdu. Atası Hacı Seyid Hüseyn Məşədi İsmayıl oğlu bir müddət Gəncədəki "Çökək hamamı"ı işlətmiş, Gəncədəki Şah Abbas məscidində pişnamaz (məsciddə camaat (cümə) namazında qabaqda duran din xadimi) olmuşdu. Nurəddin

Seyidzadənin anası Zərnişan xanım Hidayət bəy qızı Bakı polismeysteri Rüstəm bəy Mirzəyevin bacısı idi (başqa sözlə, Rüstəm bəy Nurəddinin dayısı idi). Nurəddin bəy Seyidzadə Gəncə şəhər gimnaziyasını bitirmişdi. O, "Gəncədə N. Yusifbəylinin lider olduğu "Türk Ədəmi Mərkəziyyət" firqəsinin, daha sonra isə "Müsavat" partiyasının fəal üzvü olmuşdu.

Azərbaycan Cümhuriyyəti dövründə (1918-20) Nurəddin Seyidzadə dayısı, polkovnik Rüstəm bəy Mirzəzadənin pəhbərlik etdiyi Bakı şəhər Polismeysterliyində xidmət göstərmiş, Polismeysterliyin 4-cü Şamaxı sahəsinin (əsasən indiki Səbail rayonu ərazisini əhatə edirdi) polis pristavı (5-ci dərəcə əmək haqqı tarifi üzrə ayda 1800 manat maaşla) olmuşdu. Pristavlıq Spassk (indiki Zərgərpalan) küçəsi, 22-də yerləşirdi. Pristav Nurəddin Seyidzadənin köməkçisi Qərib-Sultan Alboqaçiyev, katib isə Adam Ravinski idi. Qeyd etmək lazımdır ki, Sahə polis pristavlıqları hələ çar Rusiyası dövründə, 31 dekabr 1882-ci ildə yaradılmışdı...

Azərbaycan Cümhuriyyətinin daxili işlər naziri Mustafa bəy Vəkilovun 1920-ci il 7 aprel tarixli əmri ilə dayısı Rüstəm bəy Mirzəyev Bakı polismeysteri vəzifəsindən azad edildikdə, Nurəddin Seyidov da işdən çıxarılmışdı. Onların iş yeri Balaxanı-Sabunçu polismeysterliyinə dəyişdirilmişdi. Hətta qısa müddətə həbs də olunmuş və Bayıl Dustaqxanasına salınmışdılar. Bu, 1920-ci il martın 23-də "naməlum adamlar" tərəfindən başı kəsilməklə öldürülmüş bolşevik Əli Bayramovun işi ilə əlaqədar idi. Onları da başqaları ilə (o cümlədən Bakının general-qubernatoru, general-mayor Murad Gəray bəy Tlexas və s.) birlikdə Ə. Bayramovun ölümünü təşkil etməkdə günahlandırmışdılar. Lakin hər ikisini tezliklə buraxmışdılar...

Sovet hakimiyyəti qurulduqdan sonra Nurəddin Seyidzadə daim təqib və təzyiqlərə məruz qalmış, heç yerdə işləyə bilməmişdi. Keçmişinə görə hələ 1915-ci ildə Gəncədə ermənilər tərəfindən gənc ikən (16 yaşında) qətlə yetirilmiş qardaşı Mir İsmayılın dərdi də onu bir tərəfdən üzürdü... Azərbaycan Cümhuriyyəti dövründə xidmət göstərmiş sabiq pristav Nurəddin Hacı Seyid Hüseyin oğlu Seyidzadə 1968-ci ildə Gəncədə vəfat etmiş və oradakı Səbizkar qəbristanlığında dəfn olunmuşdu... Nurəddin Seyidzadənin ikimərtəbəli mülkü Gəncə şəhərindəki Firuz Məlikov küçəsindədir...



## İSRAFİL İBRAHİMOV
## (1897-1938)



İsrafil Ələkbər oğlu İbrahimov 1897-ci ildə İrəvan quberniyası, Sürməli qəzasının Qaraqoyunlu kəndində anadan olmuşdu. 1918-ci ildən "Hümmət" təşkilatının üzvü idi.

Azərbaycan Cümhuriyyəti dövründə Qazax şəhərinin polis pristavlığında 3-cü sahənin pristavı və Ağstafada Poyly (Saloğlu) stansiyasının polis pristavı vəzifəsində xidmət etmişdi...

Sovet hakimiyyəti qurulduqda bolşeviklər partiyasına daxil olmuşdu. Partiya ləqəbi "Saqqal İbrahim" idi. İ. İbrahimov bir təcrübəli kadr kimi Azərbaycan SSR XDİK orqanlarında müxtəlif məsul vəzifələrdə, o cümlədən 1921-23-cü illərdə XDİK-in müavini, eyni zamanda Baş Milis İdarəsinin rəisi, 1925-26-cı illərdə XDİK Kollegiyasının üzvü və eyni zamanda İslah Əmək Müəssisələri Baş idarəsinin rəisi olmuş, sonrakı illərdə Azərbaycan SSR XKS-də və Naxçıvan MİK-də məsul vəzifələrdə çalışmış, Şamaxı rayonu İcraiyə Komitəsinin sədri işləmişdi. İ. İbrahimov 30-cu illərdə repressiyanın qurbanı olmuşdu. 1937-ci ildə "Şamaxı işi" üzrə Həmid Sultanovla günahkar bilinərək həbs olunmuş və 1938-ci il yanvarın 20-dən 21-nə keçən gecə Azərbaycan SSR xalq daxili işlər komissarı vəzifəsini icra edən T. M. Borşovun (1901-56) əmri ilə 41 yaşında güllələnmişdi (Timofey Mixayloviç Borşov Azərbaycan SSR-in Qusar rayonunda anadan olmuşdu. Etdiyi cinayətlərə görə Bakıda M. C. Bağırovun məhkəməsində (12-26 aprel 1956-cı il) məhkəmənin hökmü ilə güllələnməyə məhkum olunmuş, hökm həmin ilin may ayında yerinə yetirilmişdi) İ. İbrahimov o gecə güllələnən 7 nəfərin sırasında sayca 3-cü idi. 1-ci isə Azərbaycan SSR-in ilk xalq daxili işlər komissarı Həmid Sultanov (1889-1938) güllələnmişdi.

İsrafil İbrahimovun Validə və Nəzakət adlı qızları vardı. Onlar 80-ci illərin ortalarınadək Bakıda yaşayırdılar...

## ABUTALIB SADIQOV
## (1867-1983)

Abutalıb Hacı Sadıq oğlu Sadıqov 1867-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Molla yanında oxumuşdu. Sonra Şuşa real məktəbini bitirmişdi. Şuşa Qəza İdarəsində 2-ci dərəcəli dəftərxana xidmətçisi kimi əmək fəaliyyətinə başlamışdı...1919-20-ci illərdə Bakı Qəza İdarəsində-Balaxanı-Sabunçu ərazisində pristav və Bakı şəhər Polismeysterliyinin 6-cı Mixaylovski sahəsinin polis pristavı vəzifəsində (5-ci dərəcə əmək haqqı tarifi üzrə ayda 1800 manat olmaqla) xidmət etmişdi...

Abutalıb Sadıqovun Adil adlı oğlu vardı...

Adil Abutalıbov 1903-cü ildə Şuşada anadan olmuşdu. Sonralar tibb sahəsində tanınmış terapevt, tibb elmləri doktoru, professor olmuşdu. 1929-cu ildə Azərbaycan Tibb İnstitunu bitirmişdi... 1965-72-ci illərdə N. Nərimanov adına Azərbaycan Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universitetinin) daxili xəstəliklər propedefikası kafedrasının professoru idi. Onun tədqiqatları əsasən. patalogiyaya, ürək-damar sistemi problemlərinə, qastroenterologiya və kurortologiyaya həsr olunmuşdu. Professor Adil Abutalıb oğlu Sadıqov 1983-cü ildə 80 yaşında Bakıda vəfat etmişdir...

## ŞAHZADƏ ƏRDƏŞİR mirzə QOVANLI-QACAR

Şahzadə Ərdəşir mirzə Bəhmən mirzə oğlu 1875-ci il sentyabrın 2-də Yelizavetpol (Gəncə) qubcrniyası, Şuşa qəzasının Şuşa şəhərində əsilzadə ailədə anadan olmuşdu. Şahzadə Ərdəşir mirzə xüsusi ailə tərbiyəsi almışdı. Anasının adı Bərdə xanım idi.

Şahzadə Ərdəşir mirzə 11 avqust 1908-ci ildə 2-ci dərəcəli dəftərxana qulluqçisu kimi Şuşa Qəza Polis İdarəsində xidmətə başlamışdı. 1912-ci il aprelin 18-də Yelizavetpol (Gəncə) Quberniya İdarəsinin (qubernatorun) əmri ilə Şuşa Qəza Polis İdarəsinə tərcüməçi təyin edilmişdi. 1914-cü il mayın 27-də Şahzadə Ərdəşir mirzə Şuşa qəzasının Kirs, Fingə və Sarıbaba ərazilərində yerləşən yaylaqlara dağbəyi vəzifəsinə göndərilmişdi. 1916-cı il mayın 21-də o, Şuşa qəzasının Qırxqız və Meydan ərazilərində yerləşən yaylaqlara həmin vəzifəyə təyin edilmişdi.



Azərbaycan Cümhuriyyəti dövründə Şahzadə Ərdəşir mirzə 1919-cu ildən əvvəlcə Şuşa şəhərinin ermənilər yaşayan 1-ci hissəsinin,1920-ci ildə isə 2-ci sahənin polis pristavı vəzifəsində xidmət göstərmişdi...

## ƏLƏKBƏR bəy QALABƏYOV
## (1887-1920)

Ələkbər bəy Bahadur bəy oğlu Qalabəyov 1887-ci ildə Cavanşir qəzasının Bərdə nahiyəsinin Əyricə kəndində əsilli ailədə anadan olmuşdu. İlkin təhsilini Şuşa real mətəbində və gimnaziyada almışdı. Sonra Sankt-Peterburq Universitetinin hüquq fakultəsini bitirmiş.Yevlax sahə polis pristavı vəzifəsində xidmətə başlamışdı...

Azərbaycanda sovet hakimiyyəti qurulduqadan sonra Ə. Qalabəyov 1920-ci ildə Əyricə kəndində bolşeviklər tərəfindən cəmi 31 yaşı olarkən öldürülmüşdü...

Ələkbər bəy öz nəslindən olan Simuzər xanım İsmayıl bəy qızı Qalabəyova ilə ailə qurmuşdu. Onun Zülqədər bəy adlı oğlu və Dilbər xanım adlı qızı vardı...

## HÜSEYN bəy ŞIXLINSKİ
## (1886-1920)

Hüseyn bəy Şərif bəy oğlu Şıxlınski 1886-cı ildə Qazax qəzasının II Şıxlı kəndində anadan olmuşdu. Hüseyn bəy Şıxlınski milli istiqlal hərəkatımızın fəal iştirakçılarından və fədailərindən biri olmuşdur... Ali təhsili vardı... Polisdə xidməti fəaliyyətə Tiflisdə başlamışdı. Oradan Gəncəyə dəyişilmiş, Qəncə Qəza polisinin

9-cu sahəsinin polis pristavı təyin edilmişdi. Sonra bir müddət Ərəş Qəza İdarəsində də işləmişdi. 1914-16-cı illərdə Nuxa (Şəki) Qəza İdarəsində tərcüməçi olmuşdu. 1916-18-ci illərdə Nuxa şəhərinin pristavı vəzifəsində çalışmışdı...

Hüseyn bəy Şıxlınski Azərbaycan Cümhuriyyəti DİN-in əmri ilə 1918-20-ci illərdə Bakı Polismeysterliyində şəhərin 6-cı polis sahəsinin və Liman sahəsinin (Minarət küçəsi-18) polis pristavı (5-ci dərəcə əmək haqqı tarifi üzrə ayda 1800 manat məvacib almaqla) vəzifəsində xidmət etmişdi. Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra (28 aprel 1920) təcrübəli kadr kimi Bakının 7-ci sahə milis komissarı funksiyasında saxlansa da, 1920-ci il Gəncə üsyanında (24 may - 4 iyun 1920-ci il) iştirakda suçlandırılaraq həbs olunmuş və həmin il iyunun 27-də güllələnmişdir...

## BƏYLƏR bəy ƏLİYARBƏYOV

Bəylər bəy Hüseyn bəy oğlu Əliyarbəyov 1865-ci ildə Şuşa şəhərində anadan olmuşdu. İbtidai təhsilini molla yanında almışdı. Sonra şuşa real məktəbində oxumuşdu. Şuşa Qəza İdarəsində 2-ci dərəcəli dəftərxana xidmətçisi kimi işə başlamışdı. Sonra Cavanşir qəzasında əvvəlcə tərcüməçi, sonra da pristav vəzifəsində çalışmışdı. Azərbaycan Cümhuriyyəti dövründə, 1918-ci ildə Bəylər bəy Əliyarbəyov Şuşa qəzasının 4-cü nahiyəsinin (əslində sahəsinin) polis pristavı vəzifəsində xidmət aparmışdı...

## İBRAHİM bəy ƏLİBƏYOV

İbrahim bəy Məhəmmədhüseyn bəy oğlu 1858-ci ildə Şuşa qəzasının Vərəndə (indiki Ağdərə) sahəsinin Dədəli kəndində anadan olmuşdu. Şuşa şəhər qəza məktəbini bitirmişdi. Karyagin Qəza Polis İdarəsində əvvəlcə tərcüməçi, sonra Bakı şəhərində polis pristavı işləmişdi...



## MƏHƏMMƏDƏSƏN bəy MİRZƏCAMALOV

Məhəmmədhəsən bəy Məmiş bəy oğlu Mirzəcamalov 1870-ci ildə Şuşa şəhərində doğulmuşdu. Əslən Qarabağın Hacılı camaatının Gecəgözlü obasının Səlifbəyli tayfasından idi. Şəhər məktəbini bitirdikdən sonra ali pedaqoji məktəbə daxil olmuşdu. Məktəblərdə rus dilini tədris edirdi. Onun gözəl aktyorluq bacarığıda vardı...

Azərbaycan Cümhuriyyəti dövründə M. Mirzəcamalov polisdə, o cümlədən DİN-də Şuşa qəzası üzrə polis redaktoru (kurator) vəzifəsində işləmişdi...

Məhəmməd Həsən bəy Mirzəcamalov Sitarə xanımla ailə qurmuşdu. Onun Əsgər bəy, Böyük bəy, Bala bəy, Firudun bəy, Tofiq bəy adlı oğulları, Böyük xanım, Gülrux xanım və Mahrux xanım adlı qızları vardı...

## AĞA bəy MİSİRXANOV
## (1885-1938)

Ağa bəy Həşim bəy oğlu Misirxanov 1885-ci ildə Şuşa şəhərində dünyaya gəlmişdi. Rusiyada 1917-ci il fevral inqilabınadək iri mülkədar, bəy olmuşdu. Muradbəyli kəndində böyük torpaq sahələri vardı. A. Misirxanov çar hökuməti və Azərbaycan Cümhuriyyəti dövrlərində dövlət qulluğunda işləmişdi. O cümlədən, Karyagin qəzasında pristav, Bakıda Balaxanı-Sabunçu Polismeysterliyində 6-cı polis sahə pristavının köməkçisi və pristav vəzifələrində xidmət göstərmişdi. Polisdə xidmətədək A. Misirxanov Milli Ordumuzun tərkibində Qarabağda ermənilərin separatçı çıxışlarının yatırılmasında fəal iştirak etmiş, o cümlədən 1920-ci ilin mart-aprelində Əskəran döyüşlərində dəstə komandiri kimi xüsusilə fərqlənmişdi...

Sovetləşmənin ilk illərində həbs olunaraq, güllələnəcəyini yəqin bilən A. Misirxanov qısa müddət gizlənə bilmişdi... Lakin 11-ci ordu hissələri Qarabağa daxil olduqda A. Misirxanov aşkar olunaraq 1920-ci ilin mayında həbs edilmişdi. İki ilə yaxın həbsxanada yatdıqdan sonra azad olunmuş, keçmişdən tanıdığı, sovet hakimiyyəti qurulduqdan sonra məsul vəzifələrdə işləyən dostları Məm-

mədxan Məmmədxanovun, Əsəd Qarayevin, Dadaş Bünyadzadənin, Mirzə Məhəmməd Qasımovun köməkliyi ilə Ağdam Kommunal Təsərrüfatı İdarəsində işə düzəlmişdi. 1922-29-cu illərdə burada işlədiyi müddətdə belə A. Misirxanov təqiblərdən yaxa qurtara bilməmiş, həbs edilmiş (1925), lakin yenə buraxılmışdı... A. Misirxanov təcrübəli kadr olduğu üçün o, 1931-32-ci illərdə Lahıcda (İsmayıllı) və Qubada kommunal təssərrüfat idarələrində də işləmişdi. 1932-ci ildə Qubada səsvermə hüququndan (keçmiş mülkədar və Azərbaycan Cümhuriyyətinin məmuru kimi) məhrum edilərək işdən çıxarılmışdı. Bir müddət Gəncədə yaşamış və kənd təsərrüfatı işləri ilə məışğul olmuşdu. A. Misirxanov 30-cu illərin repressiya qurbanlarından biridir. O, 1938-ci il martın 15-də güya "trotskiçidir", - deyə həbs olunmuş, əmlakı müsadirə edilməklə güllələnmə cəzasına məhkum edilmişdi. Hökm elə həmin il yerinə yetirilmişdi...

Ağa bəy Misirxanov Tərlan xanım Kərim bəy qızı ilə ailə qurmuşdu. Onun 5 övladı - Şəmsəddin bəy, Tahir bəy adlı oğlanları, Sənubər xanım, Elza xanım və Rəhilə xanım adlı qızları vardı...

## TƏRLAN bəy ƏLİYARBƏYOV
## (1892-1956)



Tərlan bəy Abdulla bəy oğlu Əliyarbəyov 28 noyabr 1892-ci ildə Ağsu şəhərində anadan olmuşdu. Hərbçi yolunu seçən Tərlan bəy Üçüncü Qafqaz Alayında əsgər kimi xidmət edərkən, 1911-ci ildə Tiflisdəki Mixaylovsk piyada hərbi məktəbini 1-ci dərəcəli diplomla bitirmişdi. Podporuçik rütbəsində Şamaxıdakı 205-ci piyada alayında xidmətə başlamışdı. 1914 -18-ci illər I Müharibəsinin fəal iştirakçısı olmuş, ağır yara almışdı. Dördüncü dəfə yaralanan ştabs-kapitan bir müddət



Brest şəhərindəki hospitalda müalicə olunduqdan sonra Bakıya göndərilmişdi. 1918-ci ilin avqustunda Azərbaycan Cümhuriyyəti ordusuna çağırılan Tərlan bəy Əliyarbəyov 2-ci alayın komandir köməkçisi təyin edilmişdi...

Azərbaycan Cümhuriyyətinin daxili işlər orqanlarında Tərlan bəy kimi kadrlara ehtiyac vardı. Şamaxı şəhər polis pristavlığında pristav kimi xidmətə qəbul edilən T. Əliyarbəyov çox keçmədən, 1919-cu ilin noyabrında 27 yaşında ikən Şamaxı qəzasının rəisi Azad bəy Qocamanbəyovun (1860-1920) köməkçisi təyin edilmişdi...

1920-ci ilin mayında T. Əliyarbəyov Bakı Hərbi İdarəsinin rəis müavini olmuşdu... O, 1922-ci ildə Kürdəmir və Qaraqoyunlu ərazilərində "quldur dəstəsi"nin ləğvi əməliyyatlarında iştirak etmişdi... 1923-29-cu illərdə Azərbaycan SSR hərbi komissarının köməkçisi (müavini) və ərazi idarəsinin rəisi vəzifələrində çalışmışdı. 1927-ci ildə M. Frunze adına Hərbi Akademiyanın Ali komanda heyəti kursunu bitirmişdi... 1925-31-ci illərdə Azərbaycan KP MK-nın üzvlüyünə namizəd olmuşdu. 1941-ci ildə M. F. Frunze adına Hərbi Akademiyanı bitirmişdi.

1941-45-ci il Böyük Vətən müharibəsi başlananda polkovnik T. Əliyarbəyov 416-cı atıcı diviziyasının komandiri, 58-ci korpusun komandir müavini olmuşdu... Müharibə illərində T. Əliyarbəyovun döyüş xidmətlərini yüksək qiymətləndirən SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə 1944-cü ildə T. Əliyarbəyov generl-mayor rütbəsi ilə təltif edilmişdi.

General T. Əliyarbəyov 1946-48-ci illərdə Azərbaycan SSR maarif nazirinin müdafiə işləri üzrə müavini vəzifəsində çalışmışdı. General-mayor T. Əliyarbəyov 15 fevral 1956-cı ildə Bakıda 64 yaşında vəfat etmişdi... O, Azərbaycan SSR Ali Sovetinin II Çağırış deputatı olmuşdu. General T. Əliyarbəyovun xidmətləri Lenin ordeni, Qırmızı Bayraq ordeni, Qırmızı Ulduz ordeni və çoxlu medallarla təltif olumuşdu. Doğulduğu Şamaxıda abidəsi qoyulmuş və adına küçə verilmişdir...

T. Əliyarbəyovun iki oğlu vardır: Pərviz və Nadir. Pərviz Əliyarbəyov uzun illər milis və polis orqanlarında işləmiş, o cümlədən Şamaxı Rayon Daxili İşlər İdarəsi və Polis Şöbəsinin, Bakının Nəsimi Rayon Polis İdarəsinin rəisi vəzifələrində çalışmışdı. O,

şöhrətli atası kimi yaxşı xidmətlərinə görə bir sıra medallarla təltif olunaraq təqaüdə çıxmışdı...Tərlan Əliyarbəyovun nəvəsi, Pərviz Əlyarbəyovun oğlu Fərman Əlyarbəyovda uzun illər polis orqanlarında xidmət göstərmiş, polis polkiovnik-leytenantı rütbəsinə yüksəlmiş və hazırda Azərbaycan Respublikası DİN-in Nəqliyyatda Baş Polis İdarəsinin Dəmir Yolunda Polis İdarəsinin Təşkilti-İnspektor Şöbəsinin zabitidir...

## YUSİF bəy SULTANOV



Yusif bəy Məmməd bəy oğlu Sultanov 1860-cı ildə Şuşa qəzasının Zəngəzur sahəsinin Püsyan nahiyəsinin Bəxtiyarlı kəndində anadan olmuşdu. Məktəb təhsili vardı... Rus-yapon (1904-05) müharibəsində iştirak etmiş, buna görə medal almışdı. 1899-cu il yanvarın 1-də kollec qeydiyyatçısı, titulyar müşavir rütbələrinə layiq görülmüşdü. O, 3-cü Aleksandr, 4-cü dərəcəli Şiri-Xurşid (İran) ordenləri ilə də təltif olunmuşdu.

Azərbaycan Cümhuriyyəti dövründə (1918-20-ci illər) Yusif bəy Şamaxı qəzasının Mədrəsə sahəsinin polis pristavı vəzifəsində xidmət etmişdi...

Yusif bəy Sultanov Qafur ağa Səmədovun qızı, qubalı Fətəli xanın nəvəsi ilə ailə qurmuşdu. Onun Bahadur bəy adlı oğlu, Gövhər xanım, Sevda xanım və Rübabə xanım adlı qızları vardı...



## NƏTİCƏ

Beləliklə, əziz oxucular, Sizlər kitabın əsas mətnində XX əsrin əvvəllərində xalqımızın tarixində, onun dövlətçilik salnaməsində Birinci Respublika kimi xrakterizə olunan Azərbaycan Cümhuriyyəti (Azərbaycan Demokratik Respublikası) varlığı dövründə baş verən mürəkkəb və ziddiyyətli proseslər fonunda xidmət göstərmiş daxili işlər nazirləri, onların silahdaşları olan digər şəxsiyyətlərin - fədailərin həyatı və fəaliyyətinin müxtəlif çalarları ilə tanış oldunuz. Əlbəttə, bir şəxsiyyət və dövlət xadimləri kimi həmin daxili işlər nazirlərinin, həmçinin silahdaşlarının rolu və fəaliyyəti, aqibətləri də şübhəsiz müxtəlifdir. Xüsusilə, hər bir daxili işlər naziri, onun şəxsiyyəti və fəaliyyəti heç də birmənalı deyil, ayrı-ayrı rakurslardan, müsbət və mənfi tərəflərdən qiymətləndirilir, dəyərləndirilir, xarakterizə edilir. Odur ki, Sizlərə təqdim olunan, bir qədərdə ensiklopedik məlumat xarakteri daşıyan bu kitabda bəhs edilən şəxsiyyətlərin - istiqlal fədailərinin hər birinin fəaliyyətinə və şəxsiyyətinə görə də obyektiv qiymət verməyə çalışdıq.

Kitabı yazarkən ilk növbədə real faktlara, mənbələrə və sənədlərə, habelə tarixi ədəbiyyatlardakı obyektiv xarakterik məlumatlara, informasiyalara, onların təhlilinə əsaslanmağa və bunlara yeri gəldikcə analoji müqayisədə münasibətimi də bildirməyə cəhd göstərmişəm... Əlbəttə, kitabda bəhs olunan daxili işlər nazirlərinin özləri kimi, milli istiqlalımızın qorunmasında xidmətlər göstərmiş onların silahdaşlarının - istiqlal fədailərinin xalqa, dövlətçiliyimizə göstərdikləri xidmət də təzadlı nəzərə çarpır. Bu da təbiidir... Lakin mübaliğəsiz və birmənalı şəkildə demək olar ki, 1918-20-ci illərdə ilk milli müstəqil dövlətimiz kimi tarix səhnəsində təşəkkül tapıb qısa zaman kəsiyində fəalyyət göstərmiş Azərbaycan Cümhuriyyəti vaxtında daxili işlər naziri olmuş 7 şəxsin (şəxsiyyətin), onların silahdaşları sayılan müavinlərinin, general-qubernatorların, qubernatorların, qəza rəislərinin, polismeyster və pristavların hər biri əsl istiqlal mübarizi, əsl istiqlal fədaisi idi. Onların bir çoxu bu yolda canlarını qurban vermişdir... Hamısının amalı bir idi - tarixdə ilk dəfə müsəqillik əldə etmiş, istiqlaliyyət qazanmış Azərbaycan

Cümhuriyyətinin dövlətçiliyini nəyin bahasına olursa-olsun qoruyub saxlamaq, möhkəmləndirmək və inkişaf etdirmək. F. Xoyski, B. Cavanşir, X. Xasməmmədov, N. Yusifbəyli, M. H. Hacınski, M. Vəkilov, general-mayor M. S. Ağabəyzadə, M. Axıcanov, Ə. Haşımbəyov, Ş. Rüstəmbəyli, İ. Heydərov, X. Sultanov, general-mayor M. G. Tlexas, Məlik-Yeqanov, X. Rəfibəyli, general-mayor İ. A.Vəkilov, B. Naxçıvanski, S. Cəmillinski, R. Axundzadə, M. Şahmalıyev və b.-ı həmin müqəddəs amal uğrunda var qüvvələrini sərf etmiş, bir çoxları canlarını fəda etmişlər... Xalqımızın Avropa təhsili görmüş, qabaqcıl ziyalıları, burjua-demokratik məsləkli nümayəndələri olan bu tarixi şəxsiyyətlər əsl istiqlal fədailəri, əsli milli mücahidlərimiz, müstəqil dövlətimizin qurucuları, keşikçiləri və qoruyucuları... idilər.

Xalqımızın ümummilli lideri, Azərbaycan Respublikasının Prezidenti, müasir Azərbaycan Respublikasını Azərbaycan Cümhuriyyətinin varisi hesab edən ulu öndər Heydər Əliyev söyləmişdir ki, Azərbaycan Cümhuriyyəti öz varlığı dövründə çox iş görüb, ən əsası - müstəqillik yolunun başlanğıcını qoyub.

Fəqət, o zamankı mürəkkəb tarixi şəraitdə daxili və xarici düşmənlərin təzyiqi altında böyük əziyyətlər və qurbanlar bahasına əldə edilmiş milli istiqlaliyyətimizi, müstəqilliyimizi qoruyub saxlaya bilmədilərsə də, istiqlalın nə qədər şirin olduğunu sübut edən tarixi təcrübə qoyub getmişdilər. Vaxtı ilə böyük M. Ə. Rəsulzadə Azərbaycan Cümhuriyyətinin tarixi yeri barədə İ. Stalinin (Cuqaşvili): "Bu ilyarımlıq hakimiyyətiniz ərzində xalqa nə verə bildiniz? - sualına cavabında demişdi: "... Çox şey verə bilmədik, amma milli azadlığın nə olduğunu başa saldıq. Azca da milli istiqlal dadızdırdıq...". F. Xoyskinin, B. Cavanşirin, N.Yusifbəylinin, M. H. Hacınskinin, Ə. Haşımbəyovun, Ö. F. Nemanzadənin, M. G. Tlexasın, X. Rəfibəylinin, M. Şeyxzamanovun, M. Axıcanovun, R. Axundzadənin, Ə. Zizikskinin, H. Əfəndinin, M. Kovxanın, Q. Qudiyevin, N. Əlizadənin, M. Şahmalıyevin, Ə. Qarxunlunun (Tağıyevin) və b. milli istiqlal fədailərimizin şəxsi həyatları vaxtsız faciələrlə sona yetdi. Özü də məkrli və qəddar düşmənlərimiz olan erməni-bolşevik-daşnakların fitnə-fəsadları ilə... Lakin onlar qurban getsələrdə, şəxsiyyətləri və əməlləri ilə örnək oldular gələcək nəsillərə.



# XRONOLOGİYA

Birinci Respublika – Azərbaycan Cümhuriyyətinin daxili işlər nazirləri.

*Fətəli xan İsgəndər xan oğlu Xoyski.* 28 may 1918 - 17 iyun 1918-ci il.

*Behbud xan Azad xan oğlu Cavanşir.* 17 iyun 1918 - 7 dekabr 1918-ci il.

*Xəlil bəy Hacıbaba bəy oğlu Xasməmmədov.* 26 dekabr 1918-ci il - 14 mart 1919-cu il.

*General-mayor Məhəmməd Sadıq bəy Ağabəyzadə.* 23 oktyabr 1918-ci il - 1 yanvar 1919-cu il; 14 mart 1919 - 16 aprel 1919-cu il.

*Nəsib bəy Yusif bəy oğlu Yusifbəyli.* 16 aprel 1919 - 22 dekabr 1919-cu il.

*Məhəmməd Həsən Cəfərqulu oğlu Hacınski.* 24 dekabr 1919-cu il - 18 fevral 1918-ci il.

*Mustafa bəy Nadir bəy oğlu Vəkilov.* 18 fevral 1920 - 27 aprel 1920-ci il.

# KİTABDA İŞLƏNƏN ƏCNƏBİ (ŞƏRQ VƏ AVROPA) MƏNŞƏLİ SÖZLƏRİN İZAHI VƏ ŞƏRHLƏR

## -A-

**Abşeron** – *farsca "şoran, duzlu su" deməkdir.*
**Adilə** – *ərəb sözüdür, "baldız" deməkdir.*
**Adyutant** – *latınca "adjutans", almanca "adjutant" sözlərdən ibarət olub, "kömək edən" (zabit) deməkdir.*
**Agent** – *latınca "agentus" "işgörən"; fransızca "ajan"; rusca "agent kiminsə tapşırığı ilə hərəkət edən," "casus" deməkdir.*
**Ağdam** – *türk sözüdür, "kiçik qala" deməkdir.*
**Axund** – *ərəb sğzüdür, hərfi mənası "rəhbər", "müəllim", "mürşid", "yol göstərən", "nəsihətçi" deməkdir.*
**Albay** – *türk sözüdür, "alay bəyi" (polkovnik) deməkdir.*
**Alp** – *türk sözüdür, "qəhrəman" deməkdir.*
**Amnistiya** – *yunanca "annetia" sözündən olub, "unutmaq, bağışlamaq" deməkdir. Amnistiya ümumi əfv, məhkəmə və ya dövlət başçısı tərəfindən məhkum edilən şəxslərin qismən, yaxud tamamilə bağışlanmasıdır.*
**Ankara** – *yunanca "ankura" sözündən olub, "lövbər salınan yer" deməkdir.*
**Analogiya** – *yunanca "analogiya" terminindən olub, "oxşarlıq", "uyğunluq" deməkdir.*
**Antanta** – *ingilis sözüdür, "saziş" deməkdir. Antanta XX əsrin əvvəllərində İngiltərə, Fransa və Rusiya arasında bağlanan (1904) "üçlər sazişidir.*
**Antik** – *yunan sözüdür, "qədim, klassik" deməkdir. Antik dedikdə, qədim (klassik) Yunanıstan və Roma quldarlıq mədəniyyəti başa düşülür.*
**Ajan** - *fransız sözüdür, "polis", "jandarm" deməkdir.*
**Aqreman** – *fransızca "aqremant", sözündən olub, "bəyənmək", "razılıq" deməkdir. Aqreman bir dövlətin başqa dövlət tərəfindən təklif edilən, göndərilən şəxsi öz ölkəsində diplomatik nümayəndəliyin başçısı kimi qəbul etməyə qabaqcadan verdiyi razılıqdır.*
**Apellyasiya** – *latın sözüdür, "appelltio" "müraciət deməkdir. Apellyasiya məhkəmə hökmündən ali instansiyalara şikayətetmə formalarından biridir.*
**Asayiş** – *fars sözüdür, "əmin-amanlıq, dinclik, sakitlik, nizam, qayda" deməkdir.*
**Asi** – *türk sözüdür, "itaət etməyən düşmən" deməkdir.*
**Astara** – *fars sözüdür, "aşağı yer, aşağıda duran" deməkdir.*
**Ayə** – *ərəb sözüdür, "rəmz", əlamət" deməkdir.*



## -B-

**Balık** – *türk sözüdür, "şəhər" deməkdir.*
**Baltalama** – *türkcə "təxribat, sabotaj" deməkdir.*
**Baza** – *fransızca "base", yunanca "busis" sözlərindən olub, "əsas, özül, bünövrə" deməkdir.*
**Behbud** – *fars sözüdür, "sağalma, yaxşılaşma, sağlam, vücudu möhkəm" deməkdir.*
**Beynəlxalq** – *ərəb sözüdür, "millətlərarası, beynəlmiləl" deməkdir.*
**Bədiə** – *ərəb sözüdür, "misli olmayan şey, nadir şey" deməkdir.*
**Bəhmən** – *fars sözüdür, "ağıllı, zəkalı, bilikli, tədbirli" deməkdir.*
**Bələdiyyə** – *ərəb sözüdür, "şəhər idarəçiliyi, yerli özünüidarə" deməkdir. Şəhər, rayon bələdiyyəsi (seçkili orqan).*
**Bəndər** – *fars sözüdür, "liman" deməkdir.*
**Bərdə** – *türk sözüdür, "piyaləli, kuzəli" deməkdir.*
**Bərid** – *ərəbcə "poçt"; farsca "qasid, çapar" deməkdir.*
**Binbaşı** – *türkcə "mayor" hərbi rütbəsinə deyilir.*
**Bölgə** – *türkcə, "rayon, ərazi" deməkdir.*

## -C-

**Cahandan** – *türkcə "hakim" deməkdir.*
**Cahangir** – *ərəb sözüdür, "dünyanı istila edən, cahanşümul, çox məşhur" deməkdir.*
**Canişin** – *ərəbcə "əmir"; farsca "sərdar" deməkdir. Orta əsrlərdə əyalət (vilayət) başçısı, bəylərbəyi, inzibati hakim idi.*
**Cavad** – *ərəb sözüdür, "comərd, səxavətli" deməkdir.*
**Cəbhə** – *ərəb sözüdür, "döyüş meydanı" deməkdir.*
**Cəlil** – *ərəb sözü olub, "böyük, yüksək, hörmət sahibi" deməkdir.*
**Cəmiyyət** – *ərəb sözüdür, "konkret tarixi maddi həyat şəraiti ümumiliyi, birləşmiş adamlar məcmusu, toplusu" deməkdir.*
**Cinayət** – *ərəb sözü olub, "mövcud hüquq, qanun-qaydanın pozulması, ictimai baxımdan təhlükəli hərəkət, yolverilməz, pis əməl"; latınca "kriminal" deməkdir.*
**Cinayətkar** – *"cinayət" ərəb sözüdür, "kar" isə fars. Mənası "pis əməl, pis iş tutan" deməkdir.*
**Cümə** – *ərəbcə "yaum əl-cümə" sözündəndir, " bir yerə toplaşma günü"dür. Müsəlmanlarda həftənin beşinci – bayram (bazar, istirahət)*

*günüdür, lakin heç də iş günü olmaması demək deyildir. Cümə günü bütün müsəlmanlar birlikdə günorta namazı qılmaq və xüsusi cümə xütbəsini (vəziləri) dinləmək üçün məscidə toplaşmalıdırlar.*
**Cümhuriyyət** – *ərəb sözüdür," respublika, ictimai, ümumxalq hakimiyyəti" deməkdir.*
**Cürüm** – *türkcə "cinayət" deməkdir.*

## -Ç-

**Çavuş** – *türk sözüdür, "aşağı hərbi rütbədir" (serjant).*
**Çempion** – *ingilis terminidir, "birinciliyi qazanan" deməkdir.*
**Çerik** – *türk sözüdür, "könüllü", "könüllü dəstə" deməkdir.*
**Çete** – *türk sözüdür, "quldur", "quldurbaşı" deməkdir.*

## -D-

**Daktiloskopiya** – *yunanca "daktulos" "batmaq","skepeo" "baxıram" deməkdir. Daktiloskopiya Kriminalistika elminin şəxsin identifikasiyasını (eyniləşdirilməsini), cinayətin qeydiyyatı və cinayətkarlığın axtarışı üçün əl dərisi naxışlarının strukturunu (quruluşunu) öyrənən elmdir.*
**Damad** – *fars sözüdür,"qızının əri, kürəkən" deməkdir.*
**Darğa** – *farsca "daruqə" sözündəndir,"hakim" deməkdir.Orta əsrlərdə şəhər və kəndlərdə müəyyən inzibati idarələrin başçısı, əmin-amanlığı və nizam-intizamı gözləyən şəxs, şəhər polisi rəisi vəzifəsini yerinə yetirənə verilən addır.*
**Darülfünun** – *ərəbcə "universitet" deməkdir.*
**Daşnaksütyun** – *erməni sözüdür, ittifaq" deməkdir. Daşnaksütyun erməni burjua-millətçi partiyası. 1890-cı ildə Tiflisdə yaranmışdı.*
**Deklarasiya** – *latın sözüdür," mühüm bir məsələ haqqında rəsmi bəyanat, bəyannamə"dir.*
**Dekret** – *latınca "dekretum" sözündən olub," fərman, qərar" deməkdir. Dekret ümumi, yaxud xüsisi xarakterli normativ hüquqi aktın adıdır. Dekret ali hakimiyyət orqanının qanun qüvvəsinə malik qərarı, fərman və qanundur.*
**Demarş** – *fransız sözüdür,"müqabil (qarşı) tərəfin güzəştə getməsinə nail olmaq üçün edilən təşəbbüs, çıxış ,hərəkət, tədbir" deməkdir.*
**Demarkasiya** – *fransız sözüdür,"sərhədd xətti çəkilməsi" deməkdir. Demarkasiya mütarikə (saziş) və ya sülh bağlayan iki ordunu biri-birindən ayıran xətt, zonadır.*



**Demokratiya** – *yunanca sözü olub,"demos "xalq", kratos"xalq hakimiyyəti" deməkdir.*
**Dərbənd** – *farsca "dar keçid, boğaz, dağ yolu, dağ keçidi, darvaza" deməkdir. Türklər Dərbəndə "Dəmir qapı"; ərəblər" bab əl-əbvab"- "qapılar qapısı" deyirlər.*
**Dəstə** – *fars sözüdür, "bir neçə adamın bir yerdə olması" deməkdir.*
**Diə** – *ərəb sözüdür,"qətl, şikəst etmək və ya yaralmaq üstündə alınan qan bahasıdır".*
**Difai** – *ərəb sözüdür,"fədai" deməkdir.*
**Diktat** – *alman sözüdür. Güclü imperialist dövlətlərin özündən zəif dövlətlərə öz şərtlərini ,tələblərini zorla qəbuletdirmə siyasətidir.*
**Diktator** – *latın sözüdürdir. Dövləti idarə etməkdə qeyri-məhdud hüquqa malik olan; hər hansı bir işdə özünü hakim-mütləq kimi aparan şəxsdir.*
**Diktatura** – *latınca "dictatura" sözüdür olub, hakim sinfin gücünə istinad edən qeyri-məhdud dövlət hakimiyyətidir.*
**Direktiv** – *fransızca "direktive", latınca "diriqo" terminlərindən olub,"mənası " yönəldirəm" deməkdir.*
**Diplomat** – *yunanca "diploma "- "ikiqat bükülmüş sənəd" deməkdir. Diplomat qədim Romada rəsmi şəxslərə Senat tərəfindən verilən zəmanət və ya etimadnamə, diplomu olan şəxs; Xarici İşlər Nazirliyinin əməkdaşıdır.*
**Divanxana** – *fars sözüdür , "məhkəmə" deməkdir.*
**Divan** – *fars sözüdür,"böyük məclis, rəsmi məclis" deməkdir.*
**Diyar** – *ərəb sözüdür,"ölkə, məmləkət" deməkdir.*
**Divizion** – *fransız sözüdür, "topçu, bəzən zirehli tank və ya atlı qoşun hissəsində bölmə"dir.*
**Diviziya** – *latın sözüdür."Bir neçə alaydan (polkdan) və ya briqadadan ibarət qoşun hissəsi, qoşun birləşməsidir. Adətən, 3 alaydan (briqadadan) ibarət hərbi qurumdur.*
**Doktrina** – *latın sözüdür, "elmi, fəlsəfi və ya siyasi nəzəriyyə, baxışlar sistemi"dir.*
**Dominion** – *latın sözü olub "özünüidarə" deməkdir. Məsələn, Hindistan dominionu, Pakistan dominionu və s.*
**Dotasiya** – *latınca "dotatio" sözündən olub,"bəxşiş" deməkdir. Dotasiya dövlət tərəfindən verilən əlavə pul yardımıdır.*
**Dövlət** – *ərəb sözüdür, "siyasi qurum, iqtidar, hakimiyyət, hökumət" deməkdir.*
**Duaen** – *fransız sözüdür," ağsaqqal" deməkdir. Duaen diplpmatik korpusun ağsaqqalı və həmkarları arasında birinci olaraq etimadnaməni təqdim edən şəxsdir.*

**Duma** – *rus sözüdür. Çar Rusiyasında qanunverici və ya inzibati vəzifə daşıyan nümayəndələr məclisidir. Məsələn, Rusiya Dövlət Duması, Bakı Bələdiyyə Duması və s.*

## -E-

**Ekspansiya** – *latın sözüdüer,"təsir dairəsinin genişlənməsi" deməkdir.*
**Eksrert** – *latın sözüdür," çətin və mübahisəli hallarda ekpertiza üçün dəvət edilən mütəxəssisdir".*
**Ekstremist** – *latın sözüdür," siyasətdə ifrat tədbirlər tərəfdarı, ifrat hərəkətlərə əl atan" (şəxs) deməkdir.*
**Eksumasiya** – *latınca "ekhumatio" sözündən olub, "içərisindən", "humus", "torpaq" deməkdir. Yəni meyitin dəfn olunduğu torpaqdan, yerdən çıxarılmasıdır.*
**Eskalasiya** – *ingilis sözüdür," hər hansı bir şeyin tədricən artması, güclənməsi" deməkdir.*
**Elita** – *fransızca "elite", rusca "elita" ən yaxşı","ən seçmə", "cəmiyyətin yuxarı seçilmiş təbəqəsi ,ən yaxşı, əla" deməkdir.*
**Elm** – *ərəb sözüdür, "bilmək","bilgi" deməkdir.*
**Embarqo** – *ispan sözüdür,"bir ölkədən mal gətirilməsinin və ya oradan mal çıxarılmasının qadağan edilməsi, iqtisadi blokada" deməkdir.*
**Ensiklopediya** – *fransız sözüdür,"hərtərəfli, elmin bir çox sahələrini əhatə edən","hər şeyi qavrayan", "çoxcəhətli" deməkdir.*
**Emissar** – *latınca "missarius" sözündəndir, "elçi","başqa ölkəyə dövlət tərəfindən məxfi tapşırıqla göndərlən şəxs" deməkdir.*
**Eridusiya** – *latın sözüdür,"dərin bilik","dərin məlumat, məlimatlı" deməkdir.*
**Etnonim** – *yunan sözüdür, "tayfa"," xalq"," millət" deməkdir.*
**Etnos** – *yunan sözüdür, "bir dildə danışan adamların tarixən təşəkkül tapmış toplusu" deməkdir.*
**Eşkiya** – *ürk sözüdür, "quldur, soyğunçu" deməkdir.*

## -Ə-

**Əbdüsssalam** – *ərəb sözüdür, "salamın qulu" deməkdir.*
**Əcnəbi** – *ərəb sözüdür, "başqa ölkəyə ,xalqa ,millətə mənsub olan xarici, başqa ölkənin vətəndaşı, təbəəsi" deməkdir.*
**Əhrar** – *ərəb sözüdür, "azadlıq sevən", "hürrün cəmi", "azad ,azad adamlar" deməkdir.*



**Əhməd** – *ərəb sözüdür, "tərifli", "tərifəlayiq" deməkdir.*
**Əxi** – *ərəb sözüdür, "qardaş" deməkdir.*
**Əqidə** – *ərəbcə "əqaid" sözündəndir, "inam, ehkam" deməkdir.*
**Əqdnamə** – *fars sözü olub, "kəbin şahadətnaməsi" deməkdir.*
**Ərkivan** – *farsca ərk "qala"," istinadgah", van "yer, yəni "qalaq yeri, istinadgah yeri" deməkdir.*
**Ərgünəş** – *türk sözüdür, ər "igid, yüksək, hündür" deməkdir.*
**Əmniyyə** – *ərəb sözüdür. İranda jandarmaya deyilir. Əmniyyə Jandarm İdarəsidir. Polis məmurudur.*
**Əmniyyət** – *ərəb sözüdür, "təhlükəsizlik, qorxusuzluq, əminlik, sakitlik, ictimai asayiş" deməkdir.*
**Əmr** – *ərəb sözüdür,"bir işin görülməsi üçün verilən hökm, göstəriş, rəsmi sərəncam"deməkdir.*
**Əncümə** – *fars sözüdür," məclis, cəmiyyət, şura, camaat" deməkdir.*
**Ənvər** – *ərəb sözüdür, "çox işıqlı, çox parlaq" deməkdir.*
**Əsasnamə** – *ərəbcə əsas "qanun, nizam,"namə farsca "kağız, məktub, sənəd, qanun kağızı, qanun sənədi" deməkdir.*
**Əsəd** – *ərəb sözüdür,"şir"," aslan " deməkdir.*
**Əsləhə** – *ərəb sözüdür, "silah-yaraq" deməkdir.*

## -F-

**Faiq** – *ərəb sözüdür, "başqalarından irəli", "əla" ,"seçmə" deməkdir.*
**Faktor** – *latın sözüdür,"əmələ gətirən amil" ,"səbəb" deməkdir.*
**Fatimə** – *ərəb sözüdür, "uşağı süddən ayıran" (qadın) deməkdir.*
**Federasiya** – *fransızca "federation", latınca "foederare" sözlərindən olub,"ittifaqda möhkəmlənmək"; rusca "fererasiya" "bir ittifaq dövləti halında birləşmək" deməkdir.*
**Feldmarşal** – *alman sözüdür,"marşalaqədərki hərbi rütbə" deməkdir.*
**Fenomen** – *yunanca "phainomen" sözündən olub, "nadir", "xarüqladə", "müstəsna" "var olan" deməkdir.*
**Fəqih** – *ərəbcə "fəqihə" sözündən olub, "hüquqşünas","müsəlman hüququ" deməkdir.*
**Fəridə** – *ərəb sözüdür,"misilsiz","nadir tapılan" deməkdir.*
**Fərmandeh** – *fars sözüdür, "komandan" deməkdir.*
**Fərraş** – *fars sözüdür,"cəllad","ölüm hökmünü yerinə yetirən" deməkdir.*
**Fərziyə** – *ərəb sözüdür. "təxmini mülahizə", "ehtimal","güman","fikir" deməkdir.*

**Forpost** – *alman sözüdür, "forposten" "dayaq məntəqəsi", "dayaq mövqeyi", "duracaq yeri" deməkdir.*
**Fraksiya** – *fransız sözüdür, "mütəşəkkil qrup" deməkdir.*
**Füzuli** – *ərəb sözüdür, "həddi bilinməyən", "həddini aşan" deməkdir.*

## -G-

**General** – *yunan sözüdür, "yüksək ali hərbi rütbə və belə rütbəni daşıyan şəxs" deməkdir.*
**Generalissimus** – *latın sözüdür, "ən yüksək hərbi rütbə və belə rütbəni daşıyan şəxs" deməkdir.*
**Genosid** – *yunanca genos "qəbilə", "tayfa"; latınca qaedo "öldürmə" deməkdir. Genosid beynəlxalq cinayət növü olub, irqi, milli, etnik və dini mənsubiyyətə görə əhalinin müəyyən hissəsinin, yaxud ucdantutma məhvidir.*
**Gerb** – *polyak-alman mənşəli söz olub, "bir dövlətin, bir nəslin, bir sülalənin fərqlənmə nişanı, fərqlənmə əlamətidir".*
**Gestapo** – *alman sözüdür, "Hitler Almaniyası dövründə (1938-1945) "gizli polis" idi.*

## - H-

**Hakim** – *ərəb sözüdür, "məhkəmə orqanlarında baxılan iş haqqında hökm və ya qərar çıxaran vəzifəli şəxs".*
**Hakimiyyət** – *ərəb sözüdür, "dövləti idarə etmək hüququ, siyasi hömranlıq" deməkdir.*
**Hegemon** – *yunan sözüdür, "rəhbər, qabaqcıl, hökmran" deməkdir.*
**Hədis** – *ərəb sözüdür, "rəvayət" deməkdir. Rəvayət Məhəmməd Peyğəmbər və silahdaşlarının gördükləri işlər, əməllər və söylədikləri fikirlərlə bağlı topludur.*
**Hərb** – *ərəb sözüdür, "müharibə, döyüş" deməkdir*
**Həzrə** – *ərəb sözüdür, , "ev, ocaq, yaşayış yeri" deməkdir.*
**Horadiz** – *fars sözüdür, hor "od, günəş, işıq"; diz "qala", yəni "Günəş qalası, qala kənd, qala məkan, qala yurd, qala" anlamındadır.*
**Hökumət** – *ərəbcə "hökumə" sözündəndir, "dövlətə aid, dövlətin ali icraedici orqanı" deməkdir.*
**Hüquq** – *ərəb sözüdür, dövlət tərəfindən müəyyən olunan və tətbiq edilən, insanlar arasında ictimai münasibətləri nizama salan və hakim sinfin iradəsini ifadə edən normaların, qaydaların, dövlətlər arasında qarşılıqlı münasibətləri nizamlayan beynəlxalq sazişlərin, müqavilələrin məcmusudur.*



**Hürriyyət** – *ərəb sözüdür, "azadlıq" deməkdir.*

## -X-

**Xalid** – *ərəb sözüdür, "ölməz, əbədi" deməkdir.*
**Xanədan** – *fars sözüdür, "sülalə, nəsil" deməkdir.*
**Xaos** – *yunan sözüdür, "qarma-qarışıqlıq, hərc-mərclik" deməkdir.*
**Xəfiyyə** – *ərəb sözüdür, "gizli agent ,casus" deməkdir.*
**Xəlifə** – *ərəbcə "xalifa" sözündəndir, "varis, övlad, əvəz, müavin, davamçı" deməkdir.*
**Xitam** – *ərəb sözüdür. "bitmə, sona çatma, qurtarma" deməkdir.*
**Xronika** – *yunanca "chronikas" sözündən olub, "salnamə, hadisələrin tarixi ardıcıllıqla yazılışı" deməkdir.*
**Xronologiya** – *yunan sözüdür, xronos "vaxt, zaman", loqos "elm" deməkdir. Xronologiya tarixin zaman və dövrlər üzrə ardıcıllıqla yazılmasıdır. Xronologiya tarixin ardıcıllıqla öyrənilməsini tədqiq edən elmdir.*

## -İ-

**İctimai** – *ərəb sözüdür, "kollektiv, ümumi, ellik, insan cəmiyyətinə aid, xalq ilə əlaqədar olan" deməkdir.*
**İflas** – *ərəb sözüdür, "müflis olmaq ,var-yoxu əldən çıxmaq" deməkdir.*
**İfrat** – *ərəb sözüdür, "son hədd, son həddi keçmə" deməkdir.*
**İlhaq** – *ərəb sözüdür, "zorla birləşdirmə, birləşdirmə, bitişdirmə, daxil etmə, qoşma, işğal etmə" deməkdir.*
**İqtidar** – *ərəb sözüdür, "qüvvət, güc, hakimiyyət, hakimiyyətdə olan qüvvə" deməkdir.*
**İqtisad** – *ərəb sözüdür, "qənaət" deməkdir.*
**İlbaşı** – *türk sözüdür, "vali, qubernator" deməkdir.*
**İltimas** – *ərəb sözüdür, "xahiş, rica etmək" deməkdir.*
**İmperiya** – *latın sözüdür, "başında qeyri-məhdud hakimiyyətə malik hökmdarın durduğu monarx (mütləq) dövlət hakimiyyəti .*
*İNSAN - ərəb sözüdür, " üns saxlayan" deməkdir.*
**İmperator** – *latın sözüdür, "çarın, padşahın, hökmdarın, sultanın ən yüksək titulu, bu titulu daşıyan şəxs"dir.*
**İmperialist** – *fransız sözüdür, "iri kapitalist, inhisarçı, monopolist" deməkdir.*

**İmpiçment** – *ingilis sözüdür, "mühakimə etmək, vəzifədən kənarlaşdırmaq" deməkdir.*
**İmtiyaz** – *ərəb sözüdür, "müstəsna hüquq , üstünlük" deməkdir.*
**İnaqurasiya** – *ingilis sözüdür, "ABŞ-da prezidentin rəsmən vəzifəsinə başlaması mərasimi"dir.*
**İnkişaf** - *ərəb sözüdür , "irəliyə doğru, tərəqqi" deməkdir.*
**İnqilab** – *ərəb sözüdür, "zorkı ictimai çevriliş" deməkdir.*
**İntendant** – *fransız sözüdür, "orduda, qoşun hissəsində təsərrüfat işlərinə baxan hərbi qulluqçu"dur.*
**İntensiv** – *fransız sözüdür, "səmərəli, məhsuldar" deməkdir.*
**İntellektual** – *ərəb sözüdür, "hərtərəfli biliyə malik" deməkdir.*
**İntervü** – *ingilis sözüdür, "müsahibə" deməkdir.*
**İntibah** – *ərəb sözüdür, "oyanış, oyanma, canlanma" deməkdir.*
**İnvestisiya** – *latın sözüdür, "kapital qoyuluşu" deməkdir.*
**İslahat** – *ərəb sözüdür, "islah" "yenidənqurma, yenidən təşkiletmə, dəyişdirmə, əsaslı dəyişikliklər" deməkdir.*
**İstanbul** – *latın-yunan sözüdür, "İstin polis", "şəhərə gedirəm, şəhərə girirəm" deməkdir.*
**İstiqlal** – *ərəb sözüdür, müstəqillik əldə etmək, müstəqillik qazanmaq, müstəqillik, azadlığa qovuşmaq" deməkdir.*
**İstiqbal** – *ərəb sözüdür , "gələcək" deməkdir.*
**İslam** – *ərəb sözüdür, "itaət, Allahın iradəsinə itaət" deməkdir.*
**İstibdad** – *ərəb sözüdür, "özbaşınalığa, zülm və zorakılığa əsaslanan dövlət idarə üsulu"dur.*
**İstintaq** – *ərəb sözüdür, "sorğu-sual, soruşma, dindirmə, ifadə alma" deməkdir.*
**İstisna** – *ərəb sözüdür, "ümumi qaydadan kənar çıxma, ayırma, xüsusi hal" deməkdir.*
**İşgəncə** – *fransız sözüdür, "vəhşi və amansız üsullarla verilən cismani əzab, əziyyət, zülm və hədsiz incitmə"dir.*
**İttihad** – *ərəb sözüdür, "birlik" deməkdir.*

## -J-

**Jandarm** – *fransız sözüdür, "jandarmeriyada (siyasi polis) xidmət edən polis məmuru, jandarm polisinin aşağı rütbəsi.*
**Jandarmeriya** – *fransız sözüdür. Çar rusiyasında və Avropanın bir sıra ölkələrində siyasi mühafizə və inqilabi hərəkata qarşı mübarizə məqsədilə yaradılmış xüsusi polis qoşunu, siyasi polis. Rusiyada 1917-ci ildə ləğv edilmişdir.*



## -K-

**Kabinet** – *fransız sözüdür, "nazirlər heyəti, hökumət" deməkdir.*
**Kadastr** – *fransız sözüdür, "müşahidə nəticəsində tərtib olunan sistemli məlumat"dır. Məsələn, dövlət kadastrı.*
**Kadet** – *fransız sözüdür. "korpus müdavimi "deməkdir. Çar Rusiyasında zadəgan uşaqlarının oxuduğu qapalı orta hərbi məktəb. Rusiyad siyasi partiyanın adı olub.*
**Kansler** – *alman sözüdür, "Baş nazir, hökumət başçısı" (Almaniyada).*
**Karser** – *latın sözüdür, "müqəssirin, məhkumun saxlandığı təkadamlıq soyuq otaq, kamera"dır.*
**Kassasiya** – *latınca "cassatio" "ləğv etmə", "quassso" "dağıdıram, uçururam" deməkdir, sözüdür,"*
**Kapitan** – *fransız sözüdür, "baş leytenantdan sonrakı hərbi rütbə, məsələn, polis kapitanı və s.*
**Katib** – *ərəb sözüdür, "yazı işlərini aparan" deməkdir.*
**Kavaler** – *latın sözüdür, "müəyyən ordenlə təltif olunmuş hərbçi" (süvari).*
**Kapital** – *latın sözüdür, "sərmayə, sərvət, əmlak, çoxlu pul, ən qiymətli şey" deməkdir.*
**Karakol** – *türk sözüdür, "polis məntəqəsi,keşikçi məntəqəsi, patrul" deməkdir.*
**Kələntər** – *fars sözüdür, "başçı, şəhər başçısı, hakim" deməkdir.*
**Kinoloq** – *latın sözüdür, "cinayətkarlıqla mübarizədə istifadə olunan itlərin hazırlığı ilə məşğul olan mütəxəssis.*
**Kitel** – *alman sözüdür, "hərbi biçimdə dikyaxalı pencək"dir.*
**Knesset** – *yəhudi sözüdür. İsrail dövlətində parlamentin adıdır.*
**Koalisiya** – *latın sözüdür, "saziş, birləşmə, ittifaq" deməkdir.*
**Kol** – *ərəb sözüdür, "nizami, nizami hərbi hissə " deməkdir.*
**Kollegiya** – *latın sözüdür, "kollegium", sözündəndir, "kollegial, ümumi əməkdaşlıq" deməkdir.*
**Kollektiv** – *latın sözüdür, "ümumi" deməkdir.*
**Komanda** – *fransız sözüdür, "komandirin qısa ,şifahi əmri" deməkdir.*
**Komandan** – *alman sözüdür, "yüksək rütbəli komandir" deməkdir.*
**Komendant** – *fransız sözüdür, "qala və s. yerlərdə bütün qoşunların başçısı, zabit. 19-cu əsrin birinci yarısında çar Rusiyasında məhkəmə, polis və s. geniş funksiyaları yerinə yetirən hərbç i məmur.*
**Komissar** – *fransız sözüdür, "vəzifəli şəxs". Məsələn, polis komissarı, milis komissarı, hərbi komissar və s.*
**Kompensasiya** – *latın sözüdür , "əvəzinivermə, əvəzini ödəmə" deməkdir.*

**Konqres** – *latın sözüdür, "geniş miqyaslı beynəlxalq yığıncaq ,qurultaq" deməkdir.*
**Konfedensial** – *latın sözüdür, "gizli aşkarlanmağa ehtiyacı olmayan" deməkdir.*
**Konfrans** – *latın sözüdür, "mühüm məsələləri həll etmək üçün nümayəndələrin yığıncağı" deməkdir.*
**Konfrantasiya** – *latın sözüdür, "qarşıdurma" deməkdir.*
**Konfederasiya** – *latın sözüdür, "müxtəlif dövlətlərin, təşkilatların, qüvvələrin ittifaqı, birləşməsi" deməkdir.*
**Konvent** – *latın sözüdür, "bəzi ölkələrdə xüsusi qanunvericilik hüququna malik seçkili orqan, 17-18-ci əsrlərdə Fransada Milli Məclis.*
**Konvensiya** – *latın sözüdür,"dəyişmə, bir haldan başqa hala keçmə" deməkdir.*
**Konvoy** – *holland sözüdür, "mühafizə üçün, yaxud qaçmağın qarşısını almaq məqsədilə yaradılmış silahlı dəstə, həmin dəstədə xidmət edən adam" deməkdir.*
**Konsul** – *latınca "consules" sözündəndir, "diplomatik nümayəndə" deməkdir.*
**Konsensus** – *latın sözüdür,"mübahisəli məsələ haqqında razılığa gəlmə" deməkdir.*
**Korrupsiya** – *latın sözüdür, "ictimai və siyasi xadimlərin, vəzifəli şəxslərin satqınlığı, rüşvət, hədiyyə və s. ilə ələ alınması" deməkdir.*
**Korporasiya** – *latın sözüdür,"eyni bir peşəyə,sikə mənsub adamların ittifaqı" deməkdir.*
**Krematori** – *latın sözüdür, meyitlərin yandırılması (krematori sobaları).*
**Kriminal** – *latın sözüdür, "cinayət" deməkdir.*
**Kriminilitika** – *latınca "criminalist" sözündəndir, "cinayətə aid olan " deməkdir. Kriminalistika cinayəti tədqiq edən, ona dair üsulları öyrənən hüquq elmidir.*
**Kriminologiya** – *latınca "crimines "cinayət", yunanca "loqos" "söz, təlim" deməkdir. Kriminologiya cinayətkarlıq, onun səbəbləri, cinayətkarların şəxsi, cinayətkarlığın qarşısının alınması və onunla mübarizə yolları, vasitələri, habelə ləğvi perspektivləri haqqında elmdir.*
**Kriteri** – *yunan sözüdür, "bir şeyi qiymətləndirmək üçün ölçü, meyar" deməkdir.*
**Kriminogen** – *latın-yunan sözünün birləşməsi olub, "cinayətlə əlaqədar" deməkdir.*
**Kulminasiya** – *latın sözüdür, "inkişafın, yüksəlişin ən yüksək həddi, momenti, anı, dövrü" deməkdir.*



**Kürd** – *qədim fars dilindəki "kərd" sözündəndir, "qoçaq", bahadır, pəhləvan" deməkdir.*
**Kvorm** – *latın sözüdür, "qərarın qnuni olması üçün qanun və nizamnamə ilə yığıncaqda iştirak edəcək adamların sayı (yetərsy).*

## -Q-

**Qaimməqam** – *fars sözüdür, "vali, ,qubernator" deməkdir.*
**Qarantiya** – *farsca "qarante", "qarantir", "təmin etmək, zamin durmaq" deməkdir.*
**Qarabulaq** – *türk sözüdür, qara "böyük", bulaq "su", yəni "böyük bulaq" deməkdir.*
**Qazax** – *türk sözüdür, qaz "ucalıq, yüksəklik", ax "yer, sahə", yəni "uca yer, yüksək yer, yüksək sahə" deməkdir.*
**Qazi** – *ərəb sözüdür,"müsəlman dini icmasının hakimi, başçı, şəriət hakimi" deməkdir.*
**Qərar** – *ərəb sözüdür, "hökm, sərəncam, qətnamə" deməkdir.*
**Qərinə** – *ərəb sözüdür ,"zaman, vaxt, dövr" deməkdir. Qərinə əsrin üçdə biridir (33 il).*
**Qnçaq** – *erməni sözüdür,"haray, zəng, səs" deməkdir.*
**Qorodovoy** – *rus sözüdür, "çar Rusiyası dövründə aşağı polis rütbəsi (indiki polis nəfəri) idi.*
**Qradonaçalnik** – *rus sözüdür,1907-ci ilədək Rusiyada xüsusi əhəmiyyəti olan iri şəhərlərdə qubernator hüququnda olan şəhər rəisi.*
**Qusar** – *macar sözüdür, "süvari" (qoşun) deməkdir.*
**Qövm** – *ərəb sözüdür, "tayfa, qohum-əqrəba, nəsil" deməkdir.*

## -L-

**Lənkəran** – *farsca "Lənkərkonan" sözündən olub,"lövbər salınan yer" deməkdir.*
**Leytenant** – *fransız sözüdür. Leytenant baş leytenantdan əvvəl gələn hərbi rütbə və belə rütbəni daşıyan şəxsdir (zabit).*
**Lider** – *ingiliscə "leader" sözündən olub, "qabaqda gedən", "rəhbər", "aparıcı", "başçı" deməkdir.*
**Litoqrafiya** – *yunanca litos "daş", qrapho "yazıram", ,rusca litoqrafiya "daşbasması" üsulu, "daşbasma çapxanası" deməkdir.*

## -M-

**Marixuana** – *hind sözüdür, "hind kənafindan alınan, güclü təsirə malik narkotik maddə"dir.*
**Marş** – *fransız sözüdür, "sırada bir qydada, ritmik yürüş tərzi, komanda" deməkdir.*
**Marşal** – *fransız sözüdür, "yüksək hərbi rütbə və belə rütbəsi olan şəxs"dir.*
**Mayor** – *latın sözüdür,"kapitandan sonra gələn zabit rütbəsi və belə rütbəsi olan şəxs" deməkdir. Məsələn, polis mayoru və s.*
**Mehdi** – *ərəb sözüdür, "doğru yola gəlmiş" deməkdir.*
**Məcəllə** – *ərəb sözüdür, "jurnal" deməkdir.*
**Mədrəsə** – *ərəb sözüdür, "məktəb (məscid yanında ruhani məktəb) deməkdir.*
**Məfkurə** – *ərəb sözüdür, "ideologiya, ideya, qayə" deməkdir.*
**Məclis** – *ərəb sözüdür , "toplantı, iclas, yığıncaq yeri" deməkdir.*
**Məhəmməd** – *ərəb sözüdür, "tərifəlayiq, bəyənilmiş, öyülmüş, mədh edilmiş, çox öyülən" deməkdir.*
**Məhkəmə** – *ərəb sözüdür, "mühakimə edən" deməkdir. Məhkəmə cinayət və mülki işlərin təhqiqatını aparan ədliyyə orqanıdır.*
**Məlik** – *ərəb sözüdür, "hökmdar, vəliəhd, şahzadə" deməkdir.*
**Məmur** – *ərəb sözüdür, "əmr alan, bir işə təyin edilən dövlət qulluqçusu" deməkdir.*
**Mənsur** – *ərəb sözüdür , "fərman" deməkdir.*
**Məramnamə** – *məram ərəbcə, namə farsca "bəyan edən sənəd, proqram" deməkdir.*
**Məscid** – *ərəbcə "sucud" sözündən olub, "səcdə edilən, səcdə qılınan yer-dir. Məscid müsəlmanların ibadət etdikləri dini ayinlər binası, Allah evidir.*
**Məslək** – *ərəb sözüdür, "yol, əqidə" deməkdir.*
**Məşhəd** – *ərəbcə "şəhid olmuş, bir müqəddəsin şəhid olduğu və ya basdırıldığı yer" deməkdir.*
**Məşrutə** – *ərəb sözüdür , "konstitututsiya" deməkdir.*
**Millət** – *ərəbcə "millə" sözündəndir, "dini icma, əhali, xalq" deməkdir.*
**Milis** – *latınca "militia" sözündən olub, "xalq qoşunu, xalq qvardiyası, könüllü xalq dəstəsi, daimi olmayan qoşun" deməkdir.*
**Miralay** – *türk sözüdür, "alay bəyi (polkovnik) deməkdir.*
**Mirliva** – *türk sözüdür, "general-mayor" deməkdir.*
**Mirpənc** – *farsca "general-leytenant" deməkdir.*
**Mitinq** – *ingilis sözüdür, "mühüm gündəlik (daha çox siyasai) məsələyə həsr olunmuş yığıncaq ,toplantı" deməkdir.*



**Modern** – *fransız sözüdür, "müasir" deməkdir.*
**Molokan** – *rus sözüdür , "süd kimi pak" deməkdir.*
**Moratorium** – *latınca "moratorius" sözündən olub, "fövqəladə vəziyyət və s. ilə əlaqədar müəyyən işin görülməsinin dayandırılması, ləngidici, təxirəsalıcı aktdır".*
**Muxtariyyət** – *ərəb sözüdür, "özünüidarə" deməkdir.*
**Murad** – *ərəb sözüdür, "istək, kam, məqam, məqsəd" deməkdir.*
**Müavin** – *ərəb sözüdür, "rəisi, sədri, rəhbəri əvəz edən" deməkdir. Orta əsrlərdə müavinə naqib (ərəbcə) deyilirdi.*
**Müdavim** – *ərəb sözüdür, "dinləyici" deməkdir.*
**Müəllim** – *ərəb sözüdür, "dərs verən, tədris edən " deməkdir.*
**Mücadilə** – *ərəb sözüdür, "mübarizə, çəkişmə" deməkdir.*
**Müdrik** – *ərəb sözüdür, "dərrakəli, dərk edən, dərindən anlayan, çox ağıllı" deməkdir.*
**Müharibə** – *ərəb sözüdür, "hərb, döyüş" deməkdir. Türklər müharibəyə "savaş" deyirlər.*
**Mükalimə** – *ərəb sözüdür, "müsahibə, söhbət" deməkdir.*
**Mükəlləfiyyət** – *ərəb sözüdür, "yerinə yetirilәsi məcburi olan vəzifə" deməkdir.*
**Müqəddəm** – *ərəb sözüdür, "ön, öndə gedən, qabaqda gedən, əvvəldə olan" deməkdir.*
**Münasibət** – *ərəb sözüdür, "uyğunluq, əlaqə, ünsiyyət" deməkdir.*
**Müsavat** – *ərəb sözüdü, ,"bərabər deməkdir.*
**Müşavir** – *ərəb sözüdür, "məsləhətçi" deməkdir.*
**Müşir** – *ərəb sözüdür, "marşal, əmr, hökm verən" (şəxs) deməkdir.*
**Mütarikə** – *ərəb sözüdür, "müvəqqəti barışıq, sülh" deməkdir.*
**Mütəfəkkir** – *ərəb sözüdür , "düşünən, düşüncəli, filosof, alim" deməkdir.*
**Müvəkkil** – *ərəbcə "əl-müvəkkil" sözündəndir, "səlahiyyətli" deməkdir.*
**Müvərrix** – *ərəb sözüdür, "salnaməçi, tarix yazan" deməkdir.*
**Möhtəsib** – *ərəb sözüdür. Orta əsrlərdə Azərbaycanda və digər Şərq ölkələrində polis rəisi funksiyalarını həyata keçirən şəxsdir.*
**Mövlud** – *ərəb sözüdür, "anadan olunan gün" deməkdir.*

## -N-

**Naçalnik** – *rus sözüdür, "rəis, müdir" deməkdir.*
**Naib** – *ərəbcə "müavin", farsca "canişin, soltan" deməkdir. Orta əsrlərdə polis rəisi vəzifəsini yerinə yetirən şəxsin köməkçisi idi. Bir sıra hallarda naib mahal başçısı da olurdu.*

**Nahiyə** – *ərəb sözüdür, "mahal,vilayət" deməkdir. Orta əsrlərdə geniş yayılmış inzibati ərazi vahididir.*
**Naqan** – *alman sözüdür, "hərlənən , fırlanan, barabanlı tapançadır".*
**Narkobiznes** – *narko yunan, biznes ingilis sözüdür, "narkotik maddələrin alveri" deməkdir.*
**Nazir** – *ərəb sözüdür ,"nəzarət edən, nazirliyə başçılıq edən hökumət üzvü, idarə edən, inspektor" deməkdir.*
**Nemezis** – *yunan sözüdür, "yunan ilahəsi Nemezidanın adına işarədir".*
**Nəhr** – *ərəb sözüdür , "axar çay" deməkdir.*
**Nəsib** – *ərəb sözüdür, "əsli-nəsəbi olan" deməkdir.*
**Nəzmiyyə** – *ərəb sözüdür , "İranda polis, jandarm idarəsinin adıdır".*
**Nizamnamə** – *nizam ərəbcə qanun, qərar, namə farsca "kağız, məktub", yəni "qanunlar toplusu, əsasnamə, məcəllə" deməkdir.*
**Notarius** – *latın sözüdür, "mirzə, katib" deməkdir.*
**Novator** – *latın sözüdür, "yenilikçi" deməkdir.*
**Nümayiş** – *fransız sözüdür, "siyasi-ictimai əhval-ruhiyyəni ifadə edən kütləvi yürüş" deməkdir.*

## -O-

**Orqanon** – *yunanca "orqanon" sözündəndir, inzibati idarə ,inzibati təşkilat (məsələn, polis orqanı", prokurorluq orqanı, məhkəmə orqanı və s.) deməkdir.*
**Ofis** - *türk sözüdür, "idarə", "müəssisə", "şöbə", "departament" deməkdir.*
**Orden** - *latın sözüdür, "müxtəlif dərəcəli fərqlənmə nişanı" deməkdir.*
**Opion** - *latınca "optio" sözündən olub, "seçmə" deməkdir.*

## -Ö-

**Ödül** – *türk sözüdür, "mükafat" deməkdir.*

## -P-

**Paritet** – *alman sözüdür, "bərabər, bərabərhüquqlu" deməkdir.*
**Pasport** – *fransızca "passeport" sözündən olub, ilkin mənası "limandan keçmək üçün icazə" deməkdir. Parsport farsca bəndər, yəni "liman" deməkdir. Pasport vətəndaşın şəxsiyyətini təsdiq edən əsas hüquqi sənəddir.*
**Parlament** – *ingiliscə "parliament", fransızca "parlement", "parle" sözündən olub, "danışıram" deməkdir. Parlament ilk dəfə 1265-ci ildə (13-cü əsr) İngiltərədə silki nümayəndəlik orqanı kimi yaradılmışdır. Parlament qanunvericilik funksiyasını yerinə yetirən seçilmiş nümayəndəli orqan, ,ali qanunverici məclisdir.*
**Patent** – *latınca "patens" sözündən olub, "şəhadətnamə, fərman, müəyyən hüquqi səlahiyyəti təsdiq edən sənəd" deməkdir.*
**Patronal** – *latınca "patronatus", "patronus" sözündən olub, "himayədarlıq" deməkdir.*
**Patrul** – *fransız sözüdür, "təhlükəsizliyi, nizam və qayda-qanuna nəzarət edən polis, milis, əsgər və s.-dən ibarət kiçik silahlı dəstədir.*
**Paşa** – *türk sözüdür, "generala bərabər mülki rütbədir".*
**Paytakaran** – *fars sözü olub, "Arranın anası" deməkdir.*
**Periferiya** – *yunanca "perphereia" sözüdür, "əhatə", rusca "periferiya isə "mərkəzdən uzaq yer, məhəlli" deməkdir.*
**Petisiya** – *latın sözüdür, "ali orqanlara, yuxarı distansiyalara təqdim edilən yazılı müştərək ərizədir".*
**Piyada** – *ərəb sözüdür , "idman" deməkdir.*
**Plagiat** – *latınca "plagio", "oğurlayıram" deməkdir.*
**Plebissit** – *latınca "pleisetum"-ple "sadə xalq", setum "qərar" deməkdir. Plebissit əhali arasında aparılan sorğudur.*
**Prins** – *almanca "prinz", latınca "prinseps" sözündəndir, "kralın (Avropa ölkələrində) varisi olan oğulun titulidur". Polk - rus-sözüdür, "alay"a uyğun hərbi birləşmədir".*
**Podpolkovnik** – *rus sözüdür, mayordan sonra gələn hərbi rütbədir (indi polkovnik-leytenant deyilir). Polkovnik-rus sözüdür, podpolkovnikdən sonra gələn hərbi rütbə və belə rütbə daşıyan şəxsdir (zabit).*
**Poliqraf** – *yunanca poli "çoxlu", "qraptos" yazıram,deməkdir. Hərfi mənası "çoxlu yazıram" deməkdir.*
**Polis** – *almanca "polizei", yunanca "politea" sözündən olub, klassik anlamda "dövlət işlərini idarə etmə", "idarə edən" deməkdir.*
**Polismen** – *ingilis sözüdür, əsasən ingilisdilli ölkələrdə işlənir . İngiltərə və ABŞ-da polismen "polis nəfəri"dir.*
**Polismeyster** – *almanca "polizeimeister" sözündəndir, "polis rəisi" deməkdir.*
**Pornoqrafiya** – *yunanca pornos "əxlaqsız", qrapko "yazıram" deməkdir.*
**Poruçik** – *polyak sözüdür (bax:səh161)*
**Preambula** – *fransızca "preambul" və latınca "preambulus" sözlərindən olub, "qabaqda gedən" deməkdir. Preambula beynəlxalq müqavilə və ya sazişin giriş hissəsidir.*
**Presedent** – *latınca "prousenes", "prasedentis" sözlərindən olub, "əvvəlki, qabaqdan gələn" deməkdir.*

**Prokuror** – *latın sözü olub, "qanunların dəqiq icrasına nəzarəti həyata keçirən vəzifəli şəxs, dövlət məmurudur".*
**Prokurorluq** – *latınca "prokuro" sözündən olub, "qayğısına qalıram, təmin edirəm, qarşısını alıram" deməkdir.*
**Publisist** – *yunanca "publikus" sözündən olub, "ictimai" deməkdir.*
**Pud** – *fars sözüdür, çəki vahididir. Pud 16 kiloqramdır.*

## -R-

**Rabitə** – *ərəb sözüdür, "iki şeyi bir-birinə bağlayan ip, bağ, əlaqə, ünsiyyə körpüsü" deməkdir.*
**Ratfikasiya** – *latın sözüdür ,"hökumətin dövlətləarası müqaviləni və digər sənədi təsdiq etməsidir".*
**Reablitasiya** – *latın sözü olub, "hüquqlarının bərpa olunması barədə bəraət almaq" deməkdir.*
**Real** – *latınca "realis" sözündən olub, "kerçək, həqiqi" deməkdir.*
**Referendum** – *latınca "xəbər verilməli şey, ümumxalq səsverməsi" deməkdir.*
**Reforma** – *fransızca reforme, latınca "reformare" "yenidənqurma" deməkdir.*
**Rekvizit** – *latınca "requistum" sözündən olub, "tələb olunan, zəruri" deməkdir.*
**Residivisit** – *latınca "resdivus" sözündəndir" geri qayıdan,təkrar",rusca "residivist" mühakimə olunmuş şəxsin ienidən cinayət etməsi, təkrar cinayət edən cani "deməkdir.*
**Respublika** – *latın sözüdür, res "iş", publikus "ictimai, ümumi, yəni ümumxalq, ictimai idarəetmə hakimiyyəti" deməkdir.*
**Rəis** – *ərəb sözüdür,"başçı, başçılıq edən, sədr, amir, amirlik edən, rəhbər, rəhbərlik edən, idarə edən" deməkdir.*
**Rotmistr** – *polyak sözüdür,süvari qoşunlarda zabit rütbəsi və belə rütbəni daşıyan zabit. Rotmistr kapitan rütbəsinə uyğundur... (bax səh161).*
**Rövşən** – *fars sözüdür, "aydın, aşkar, işıqlı" deməkdir.*
**Rütbə** – *ərəb sözüdür , "xidməti dərəcə, xidməti ad"dır.*

## -S-

**Sabit** – *ərəb sözüdür, "dəyişməz, möhkəm" deməkdir.*
**Sabotaj** – *fransız sözüdür,"qəsdən işləməmək, işə mane olmaq, işi pozmaq" deməkdir.*



**Sadizm** – *fars sözüdür. "Başqasına əziyyət verməkdən həzz almaq" deməkdir.*
**Salyan** – *farsca "illik bağ, illik gəlir" deməkdir.*
**Samux** – *alban sözüdür, "meşəlik, ov yeri" deməkdir. Samux həm də farsca "üç çay" deməkdir.*
**Sancaq** – *türk sözüdür, "bölgə, mahal, inzibati ərazi" deməkdir.*
**Sanksiya** – *latınca "sanctio" sözündən olub, "ciddi qərar" deməkdir.*
**Satranc** – *ərəb sözüdür , "şahmat, şahmat oyunu" deməkdir.*
**Saziş** – *fars sözüdür, "qarşılıqlı razılıq", anlaşma, fikir birliyi, həmrəylik, müqavilə" deməkdir.*
**Seym** – *polyak sözüdür,"qanunverici orqan" anlamındadır. Məsələn, Polşa seymi və s.*
**Sədr** – *ərəb sözüdü, "ən yüksək vəzifə, başçı, rəis, idarə edən" deməkdir.*
**Səhih** – *ərəb sözüdür,"dəqiq, düzgün, doğru" deməkdir.*
**Səhm** – *ərəb sözüdür, "hissə, pay" deməkdir.*
**Səltənət** – *ərəb sözüdür, "sultanlıq, hökmdarlıq" deməkdir.*
**Səlim** – *ərəb sözüdür , "sağlam, eybsiz, nöqsansız" deməkdir.*
**Sərəncam** – *ərəb sözüdür,"hökm, ixtiyar, əmr, göstəriş, təmimnamə" deməkdir.*
**Səməd** – *ərəb sözüdür,"əbədi, daimi, əbədiyaşar, əbədi mövcud olan" deməkdir.*
**Sərbaz** – *fars sözüdür, "piyada əsgər" (İranda) deməkdir.*
**Situasiya** – *fransızca "situation", rusca "sutiasiya" sözündən olub,"vəziyyət, şərait" deməkdir.*
**Siyasi** – *ərəb sözüdür, "dövlətə,dövləti idarəyə aid" deməkdir. Soltanbud-farsca şəxs adı, bud "təpə", yəni Soltan təpəsi deməkdir.*
**Siyasət** – *ərəb sözüdür, "hiylə, fənd, biclik" deməkdir.*
**Solidarizm** – *fransız sözüdür, "həmrəylik, mənafeylərin ümumiliyi" deməkdir.*
**Subay** – *türk sözüdür , "zabit" deməkdir.*
**Status** – *latın sözüdür,"beynəlxalq hüquqda, yaxud vətəndaşların, hər hansı hüquqi şəxsin hüquqi vəziyyəti" deməkdir.*
**Statut** – *latınca "statium" sözündən olub , "qərara alıram" deməkdir.*
**Suveren** – *alman sözüsür,"istiqlaliyyətə, müstəqilliyə malik olmaq" deməkdir.*
**Suverenitet** – *(suverenlik) almanca "souveranitat", fransızca souverainete" sözündən olub, "ali hakimiyyət" deməkdir.*
**Süqut** – *ərəb sözüdür, "yıxılma", düşmə.enmə" deməkdir.*
**Sülalə** – *ərəb sözüdür, "soy, nəsil, övlad, xanədan" deməkdir.*

**Sülh** – *ərəbcə sələm, silm sözündən olub,"sizə sülh və əmin-amanlıq olsun!" deməkdir.*
**Seyid** – *ərəbcə "seyyidi" sözündən olub, "böyük, başçı, ağa" deməkdir.*

## -Ş-

**Şamaxı** – *ərəbcə "hündürlük" deməkdir.*
**Şeyx** – *ərəbcə "şaxə" sözündəndir,"qocalmaq" deməkdir.*
**Şəriət** – *ərəb sözüdür,"məqsədə doğru aparan düzgün yol, ilahi qanun" deməkdir. Şəriət həm də elmdir.*
**Şeyxülislam** – *ərəbcə "şeyx əl-islam" sözündən olub.müsəlmanların çox nüfuzlu və şərəfli ali dini rütbəsi ,ən mötəbər dini başçısıdır. Zaqafqaziyada şeyxülislam rütbəsi 1823-cü ildə təsis olunmuşdur.*
**Şəcərə** – *ərəb sözüdür ,"nəsil, budaq, nəsil ağacı" deməkdir.*
**Şəmkir** – *türk sözüdür. "Şəms", "Günəş", Kir", "tapınan", yəni Günəşə tapınanlar yurdu" deməkdir.*
**Şəmkür** – *ərəbcə "Kür qalası, Kür mayağı" deməkdir.*
**Şəmşir** – *fars sözüdür,"qılınc" deməkdir.*
**Şiə** – *ərəb sözüdür, hərfi mənası "tərəfdar" deməkdir.*
**Şura** – *ərəb sözüdür, "müzakirə, məşvərət, məsləhət yeri" deməkdir.*
**Şurta** – *ərəb sözüdür, "siyasi polis" deməkdir.*

## -T-

**Tabur** – *türk sözüdür ,"batalyon" (hərbi hissə) deməkdir.*
**Tabor** – *türk sözüdür ,"üç bölükdən ibarət hərbi qurumdur".*
**Takım** – *türk sözüdür, "bölüm, qisim" deməkdir.*
**Taqım** – *türk sözüdür,"üç manqadan ibarət hərbi qurum (vzvod) deməkdir.*
**Tahir** – *ərəb sözüdür, "pak ,təmiz" deməkdir.*
**Teqmen** – *türk sözüdür ,"leytenant (hərbi rütbə)" deməkdir.*
**Teokratiya** – *yunan sözüdür,"hakimiyyətin ruhanilərdən,din xadimlərinin əlində olduğu dövlət idarəçilik üsulu" deməkdir.*
**Təkamül** – *ərəb sözüdür, "tədrici inkişafla kamilliyə çatma, mükəlləşmə" deməkdir.*
**Təmərküzləşmə** – *ərəb sözüdür, "mərkəzləşmə, mərkəzləşdirmə" deməkdir.*
**Tənzimat** – *ərəb sözüdür, "islahat, islahetmə, dirçəlmə" deməkdir.*
**Təsis** – *ərəb sözüdü, "əsasını qoyma ,yaratma" deməkdir.*
**Təsnifat** – *ərəb sözüdür, "siniflərə ayırma" deməkdir.*



**Təşəkkül** – *ərəb sözüdür,"təşkilolunma, formalaşma, müəyyən bir şəkilə düşmə" deməkdir.*
**Tbilisi** – *gürcü sözüdür, "isti ,isti yer ,isti qalar yer" deməkdir.*
**Tiflis** – *ərəb sözüdür, "isti, isti yer, isti qalar yer" deməkdir.*
**Tiryək** – *fars sözüdür, "yetişməyən xaş-xaşın qüvvətli narkotik maddə olan qurudulmuş şirəsi"dir.*
**Total** – *fransız sözüdür, "ümumi", bütöv, tam" deməkdir.*
**Trafik** – *türk sözüdür ,"küçə" deməkdir.*
**Tranzit** – *latınca "transistus" sözündən olub,"keçid, birbaşa" deməkdir.*
**Treninq** – *ingilis sözüdür, "təlim" deməkdir.*
**Törə** – *türk sözüdür ,"qanun" deməkdir.*
**Turnir** – *alman sözüdür ,"yarış" deməkdir.*

## -U-

**Ultimatum** - *latın sözüdür, "qəti, qeyd-şərtsiz tələbdir".*
**Uryadnik** - *rus terminidir, çar Dusiyasında qəza polisinin aşağı rütbəli polis məmuru idi. Uryadniklik 1878-ci ildə təsis olunmuş və 1917-ci ilədək fəaliyyət göstərmişdi.-*

## -Ü-

**Üsyan** – *ərəb sözüdür,"kütləvi silahlı çıxış","baş qaldırma","üzə durma" deməkdir.*

## -V-

**Vali** – *ərəbcə "valiyyə" sözündəndir,"vilayət hakimi, canişin, qubernator, idarə etmək" deməkdir. Türklər valiyə (qubernatora) ilbaşı deyirlər.*
**Vəhdət** – *ərəb sözüdür, "əlaqə", "birlik" deməkdir.*
**Vəkil** – *ərəb sözüdür, Allahın 99 gözəl adından biridir.*
**Vəliəhd** – *ərəb sözüdür, "şahzadə", "varis" deməkdir.*
**Vəzifə** – *ərəb sözüdür ,"yerinə yetirilməsi məcburi olan iş" deməkdir.*

## -Y-

**Yarbay** – *türk sözüdür, "podpolkovnik (polkovnik-leytenant) hərbi rütbəsidir.*
**Yasa** – *türk sözüdür ,"qanun" deməkdir.*

**Yasavul** – *monqol sözüdür ,"qanun, qayda, fərmanı, qanunu həyata keçirən deməkdir". Yasavul orta əsrlərdə saraylarda mərasim və məclisləri mühafizə edən məmur idi. Çar rusiyasında əsasən kənd yerlərində polis nəfəri vəzifəsini görən şəxsiydi. Kazak qoşununda yasavul kapitan çininə uyğun gələn zabit rütbəsi idi.*
**Yefretor** – *alman sözüdür ,"süravi əsgərə verilən hərbi rütbədir.*
**Yusif** – *ərəb sözüdür, "Günəş, fövqəladə gözəllik və sədaqət timsalı"dır. Məsələn, Yusif Peyğəmbər.*
**Yunker** – *alman sözüdür, "çar Rusiyasında zabit hazırlayan hərbi məktəbin müdavimidir.*
**Yüzbaşı** – *türk sözüdür, "rotmistr, kapitan" hərbi rütbəsinə deyilir.*

## -Z-

**Zahid** – *ərəb sözüdür,"tərki dünya", "guşənişə çəkilmiş", "ibadətlə məşğul olan", "asket" deməkdir.*
**Zatən** – *ərəb sözüdür, "əslində" deməkdir.*
**Zira** – *ərəb sözüdür, "çünki" deməkdir.*
**Zülfüqar** – *ərəb sözüdür, "qılınc" deməkdir. (Zülfüqar dedikdə, ilk növbədə Həzrəti Əlinin məşhur ikiağızlı qılıncı başa düşülür).*



# İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏRİN, ƏDƏBİYYATIN TƏSNİFATI VƏ SİYAHISI

*Arxiv materialları*


Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, fond 1.
Yenə orada, fond 19.
Yenə orada, fond 77, siy.1, iş 43 (32).
Yenə orada, 188.
Yenə orada, fond 276.
Yenə orada, fond 277.
Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi (ARMAİ),fond 51.
ARMAİ, fond 104.
ARMAİ, fond 649.
ARMAİ, fond 894.
ARMAİ, fond 970.
Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA), fond 267, siy.1,iş 2.
ARDA, fond 77, siy.1.iş 14 (Şuşa Qəza Polis İdarəsinin fondu).
ARDA, fond 379, siy.46, iş 25.
Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA), Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər nazirliyinin (DİN) fondu - fond 894, siy. 2, iş 140.
ARDA, fond 894, siy . 2, iş 78.
ARDA, fond 894, siy. 2, 141.
ARDA, fond 894, siy.7, iş 21.
ARDA, fond 1046, siy. 2, iş 14.
ARDA, fond 1046, siy. 3, 1ş 29(v.).
Mərkəzi Dövlət Tarix Arxivi (MDTA), fond 276 siy.9, 1ş 14 (v.13).
MDTA, fond 277, siy.2, 1ş 40 (v.27).
MDTA, fond, 970 , siy.1, iş 163 (v.15).
Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin (AR DİN) Arxivi, fond 4.
Azərbaycan Respublikası DİN-in Məlumat-İnformasiya Bürosu. Fəhlə-Kəndli Milisiinin fondu, siy. 204, iş.1.
AMEA A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, neqativ fondu, nömrə-5718.

*Sənədlər və statistika nəşrləri*

Azərbaycan Cümhuriyyəti hökumətinin əmr və sərəncamları. 1919, nömrə 1.
Azərbaycan Cümhuriyyəti İstiqlalının birinci sənaye dövriyyəsi. Bakı, 1919.
Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). Birinci cild. Bakı, 1998.
Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). İkinci cild. Bakı, 2005.
Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası. İki cilddə. Birinci cild. Bakı, 2004, 440 səh
Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası. İki cilddə. İkinci cild. Bakı, 2005, 472 səh.
Azərbaycan Xalq Cümhuriyyəti-90. (1918-1920). Biblioqrafiya. Bakı, 2008, 266 səh.
Azərbaycan Respublikasının Ünvan Təqvimi (rusca). Bakı, 1917.
Azərbaycan Respublikasının Ünvan Təqvimi (Azərbaycanca və rusca). Bakı, 1920, 264 səh.
Azərbaycan Demokratik Respublikası (1918-1920). Qanunvericilik aktları (Sənədlər külliyyatı). (Rusca). Bakı, 1998.
"Azərbaycan Polisi Gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 may 1998-ci il tarixli Fərmanı. Bakı, 1998.
Daşnaklar (Polis departamentinin mateiallarından) (rusca). Bakı, 1990, 40 səh.
Fətəli xan Xoyski. Həyat və fəaliyyəti (Sənədlər və materiallar). (Azərbaycanca və rusca). Bakı, 1998, 151 səh.
"Fətəli xan Xoyskinin anadan olmasının 120 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev . Bakı şəhəri, 18 dekabr 1995-ci il ."Azərbaycan" qəzeti, 19 dekabr 1993-ci il .
Eldar İsmayılov. Xoy xanları. Nəsil şəcərəsi və tərcümeyi-hallarına aid sənədlər. Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri (ATŞC-nin Xəbərləri). 4-cü buraxılış. Bakı, 2003 (rus dilində)(səh.35-58).
Fətəli xan Xoyskinin doğum haqqında şəhadətnaməsi. ATŞC-nin Xəbərləri, 5-ci buraxılış. Bakı, 2004 (rus dilində)(cəh.77).
General-mayor Sadıq bəy Ağabəyzadənin xidməti fəaliyyəti haqqında Rusiya Dövlət-Hərbi Tarix Arxivi Agentliyinin Azərbaycan Respublikası DİN Polis Akademiyasının dosenti, polis polkovniki Tahir Behbudovun adına göndərilmiş 19 sentyabr 2011-ci il tarixli, 2981 nömrəli məktub.



Nəsib Nəsibzasdə. Azərbaycan Demokratik Respublikası. Məqalələr və sənədlər. Bakı, 1990, səh.112.
SU Azerb. SSR. 1920. Nömrə 7.
Süleymanov Mehman . Nuru paşa (Sənədli oçerklər). Bakı, 2008,216 səh.
Şəmistan Nəzirli. Qarxunlu Əşrəf bəy (Sənədli povest). Bakı, 1998, 180 səh
Zaqafqaziya Seymi.Stenoqrafik hesabat. Birinci sessiya.Üçüncü iclas. 15 fevral 1918-ci il.

*Dövrü mətbuat*
*Qəzetlər*

"Azərbaycan " qəzeti (rusca), 28 may 1918-ci il.
"Azərbaycan" qəzeti (rusca), 24 sentyabr 1918-ci il.
"Azərbaycan" qəzeti (rusca), 25 sentyabr 1918-ci il.
"Azərbaycan" qəzeti (rusca), 3 oktyabr 1918-ci il.
"Azərbaycan" qəzeti rusca). 11 oktyabr 1918-ci il.
"Azərbaycan" qəzeti (rusca), 13 oktyabr 1918-ci il.
"Azərbaycan" qəzeti, 7-11 oktyabr 1918-ci il.
"Azərbaycan" qəzeti, 22 noyabr 1918-ci il.
"Azərbaycan" qəzeti, 23 noyabr 1918-ci il.
"Azərbaycan" qəzeti, 10 dekabr 1918-ci il.
"Azərbaycan" qəzeti (rusca), 21 yanvar 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 22 fevral 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 23 fevral 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 4 mart 1919-cu il.
"Azərbaycan qəzeti (rusca), 28 mart 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 2 aprel 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 5 aprel 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 25 aprel 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 30 aprel 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca) , 16 may 1919-cu il.
"Azərbaycan" qəzeti(rusca), 28 may 1919-cu il.
"Azərbaycan" qəzeti, 28 may 1919-cu il (Nəsib bəy Yusifbəyli. Azərbaycan vətəndaşlarına hökumətin müraciəti. Azərbaycan Demokratik Respublikasının bir illiyi münasibətilə).
"Azərbaycan" qəzeti (rusca), 3 iyun 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 4 iyun 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 11 iyun 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 22 iyun 1919-cu il.

"Azərbaycan" qəzeti (rusca), 26 iyun 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 12 iyul 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 12 avqust 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 30 avqust 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 11 oktyabr 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 13 oktyabr 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 14 oktyabr 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 18 oktyabr 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 19 oktyabr 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 8 noyabr 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 12 noyabr 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 19 noyabr 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 27 noyabr 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 2 dekabr 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 10 dekabr 1919-cu il.
"Azərbaycan" qəzeti (rusca), 24 dekabr 1919-cu il.
"Azərbaycan" qəzeti, 20 fevral 1990-cı il.
"Azərbaycan" qəzeti, 7 dekabr 1990-cı il.
"Azərbaycan" qəzeti, 1 mart 1991-ciil.
"Azərbaycan" qəzeti, 28 dekabr 1991-ci il (Firudun Əsədzadə. Karyagin kimdir?).
"Azərbaycan" qəzeti, 27 may 1992-ci il (Firdovsiyə Əhmədova. Cahangir bəy Kazımbəyli).
"Azərbaycan" qəzeti, 7 iyun 1992-ci il.
"Azərbaycan" qəzeti, 27 may 1993-cü il (Cəmil Həsənli. Azərbaycan Cümhuriyyəti).
"Azərbaycan" qəzeti, 26 mart avqust 1993-cü il.
"Azərbaycan " qəzeti, 28 may 1993-cü il (Babayeva S. Qarabağın general-qubernatoru Xosrov Sultanov).
"Azərbaycan" qəzeti, 3 iyun 1993-cü il.
"Azərbaycan" qəzeti, 7 iyul 1993-cü il (Maarif Teymur, Adil Aslani. Gəncə üsyanı haqqında xatirələr).
"Azərbaycan" qəzeti, 30 iyun 1993-cü il
"Azərbaycan" qəzeti, 27 may 1995-ci il (Əhməd İsayev. Gəncə üsyanının başçıları. Cahangir Kazımbəyov və Sarı Ələkbər...).
"Azərbaycan" qəzeti, 14 iyun 1996-cı il (Ataxan Paşayev. Azərbaycanda ilk təhlükəsizlik orqanının yaradılması haqqında...).
"Azərbaycan " qəzeti, 27 may 1997-ci il.
"Azərbaycan" qəzeti, 4 fevral 1997-ci il.
"Azərbaycan" qəzeti, 26 may 1997-ci il.



"Azərbaycan" qəzeti, 27 may 1997-ci il.
"Azərbaycan" qəzeti, 31 yanvar 1998-ci il.
"Azərbaycan" qəzeti, 26 may 1998-ci il.
"Azərbaycan qəzeti", 28 may 1998-ci il (Cümhuriyyətin Gəncə liderləri)..
"Azərbaycan" qəzeti, 5 fevral 2006-cı il.
"Azərbaycan" qəzeti, 1 iyul 2005-ci il.
"Azərbaycan" qəzeti, 20 iyul 2005-ci il (Ömər Faiq Nemanzadə haqqında)..
"Azərbaycan" qəzeti, 11 aprel 2007-ci il (Əhməd İsayev. Tariximizin qan yaddaşı. Əyyub bəy Xanbudaqov haqqında).
"Azərbaycan" qəzeti, 30 may 2008-ci il.
"Azərbaycan" qəzeti, 26 iyul 2012-ci il (İlk azərbaycanlı professor Məhəmməd ağa Şahtaxtinski haqqında).
"Azərbaycan müəllimi" qəzeti, 30 mart 2012-ci il.
"Ayna" qəzeti, 20 sentyabr 1997-ci il (Tofiq Bağırov. Gəncə -üsyanmı, qiyammı?)..
"Azadlıq" qəzeti, 30 may 2012-ci il.
"Azadlıq" qəzeti, 4 oktyabr 2012-ci il (Mir Cəfər Bağırovun silahdaşı Əli bəy Zizikski haqqında).
"Azadlıq" qəzeti, 13 noyabr 20012-ci il (Gəncə üsyanının görkəmli simalarından biri Sarı Ələkbər haqqında).
"Bakı xəbər" qəzeti, 4 sentyabr 2012-ci il (Aydın Quliyev. "Nemezis" bəlası).
"Bakinskiy raboçiy" qəzeti, 20 sentyabr 1922-ci il.
"Bakinskiy raboçiy" qəzeti, 30 aprel 1983-cü il.
"Bakinskiy raboçiy" qəzeti, 2 iyul 1989-cu il (Lev Polonski. General-leytenant Y.D . Sumbatov-Topurudze...).
"Baku" qəzeti, 23 mart 1917-ci il.
"525-ci qəzet", 31 dekabr 2010-cu il (Vilayət Quliyev. Nəsib bəy Yusifbəylinin həyat yoldaşı Şəfiqə xanım haqqında).
"Bizim əsr" qəzeti, 8 dekabr 2002-ci il (İltifat Əliyarlı. Oda erməni terrorunun qurbanı olub. Fətəli xan Xoyski.)
"Borba" qazeti, 30 iyun 1918-ci il.
"Elm" qəzeti, 5 noyabr 1992-ci il.
"Elm" qəzeti, 4 oktyabr 2002-ci il (Aygün Məmmədova. Fətəli xan Xoyskinin əsli-nəcabətinə dair faktlar).
"Ekspress" qəzeti, 4-6 dekabr 2012-ci il (Teyyub Qurban. Mir Cəfər Bağırovun məhkəməsi necə hazırlanmışdır).
"Ədalət" qəzeti, 3 may 1997-ci il.
"Ədalət" qəzeti, 30 aprel 2002-ci il.

"Ədalət" qəzeti, 1 may 2002-ci il.
"Ədalət" qəzeti, 2 may 2002-ci il.
"Ədalət" qəzeti, 3 may 2002-ci il (İltifat Əliyarlı. İstiqlal mücahidlərimiz. Cavad bəy Məlik-Yeqanov).
"Ədalət" qəzeti 2 iyul 2002-ci il (İltifat Əliyarlı. Azərbaycan polisinin qurucuları. General Sadıq bəy Ağabəyov).
"Ədalət" qəzeti, 3 iyul, 3 dekabr 2002-ci il (İltifat Əliyarlı. Məhəmməd Həsən Hacınskinin son aqibəti).
"Ədalət" qəzeti, 23 may 2012-ci il.
"Ədalət" qəzeti, 8 yanvar 2013-cü il.
"Ədəbiyyat" qəzeti, 5 noyabr 1993-cü il (Fətəli xan Xoyskinin böyük qardaşı Hüseynqulu xanın oğlu Zahid xan haqqında...).
"Gündəlik Bakı" qəzeti, 11 sentyabr 2012-ci il (Cəllad Andronik Ozanyan və "başqaları"...).
"Xalq qəzeti", 31 yanvar 1996-cı il.
"Xalq qəzeti", 25 sentyabr 1997-ci il (Fətəli xan Xoyskinin qardaşı oğlu Zahid xanın vəfatı münasibətilə...).
"Xalq qəzeti", 15 sentyabr 1998-ci il.
"Xalq qəzeti", 26 noyabr 2006-cı il (Şəmistan Nəzirli. Məmməd Kovxanın acı taleyi. 1937-ci ilin repressiya qurbanları.).
"Xalq qəzeti", 1 iyul 2012-ci il.
"İskra" qəzeti, 9 aprel 1920-ci il.
"İncəsənət" qəzeti, 28 sentyabr 1993-cü il (Mövsüm Əliyev. Nəsib bəy Yusifbəyli).
"İqtisadçı" qəzeti, 29 mart 2009-cu il (Fərzəliyev Yusif. Qarabağın general-qubernatoru. Xosrov bəy Sultanov ).
"İnşaatçı" qəzeti, 26 may 1990-cı il (Rauf Xuduyev. Cəmi 23 ay demokratiya (Azərbaycan Demokratik Respublikası).
"İstiqlal" qəzeti, 31 mart 1919-cu il.
"İzvestiya" qəzeti (rusca), 30 aprel 1920-ci il.
"Kaspi" qəzeti, 29 mart 1917-ci il.
"Kommunist" qəzeti (rusca), 22 may 1917-ci il.
"Kommunist" qəzeti, 18 mart 1989-cu il.
"Molot" qəzeti, 25 iyul 1919-cu il.
"Mübariz keşikdə" qəzeti, 5, 12 dekabr 1996-cı il (İltifat Əliyarlı. Repressiya qurbanları. Arxivlərdə yaşayan ömrün qırxbirinci ilində. İsrafil İbrahimov. 1-ci və 2-ci məqalə).
"Mübariz keşikdə" qəzeti, 13 fevral 1997-ci il.
"Mübariz keşikdə" qəzeti, 30 aprel 1998-ci il.
"Mübariz keşikdə" qəzetri, 14 may 1998-ci il.



"Mübariz keşikdə" qəzeti, 28 may 1998-ci il.
"Mübariz keşikdə" qəzeti. 9 iyul 1998-ci il.
"Mübariz keşikdə" qəzeti, 27 may 1999-cu il.
"Mübariz keşikdə" qəzeti, 3 iyun 1999-cu il.
"Mübariz keşikdə" qəzeti, 6 iyul 2000-ci il.
"Mübariz keşikdə" qəzeti, 7 may 2002-ci il.
"Mübariz keşikdə" qəzeti, 20 iyun 2002-ci il (İltifat Əliyarlı. Fətəli xan Xoyskinin xatirəsinə. Terror qurbanları.).
"Mübariz keşikdə" qəzeti, 10 noyabr 2005-ci il (General haqqında film çəkiləcək. Məhəmməd Sadıq bəy Ağabəyzadə kimdir?).
"Mübariz keşikdə" qəzeti, 31 may 2007-ci il (İltifat Əliyarlı. Daxili işlər naziri Mustafa bəy Vəkilovun mühacir həyatı).
"Mübariz keşikdə" qəzeti, 16 avqust 2007-ci il (İltifat Əliyarlı. İstiqlal mücahidlərimiz. Gəncə üsyanının başçılarl. Sarı Ələkbər).
"Mübariz keşikdə" qəzeti, 28 may 2008-ci il (Xalqın keşiyində, dövlətimizin müdafiəsində. Azərbaycan polisinin 90 illiyi münasibətilə)
"Mübariz keşikdə " qəzeti 5 iyun 2008-çi il.
"Mübariz keşikdə" qəzeti, 26 iyun 2008-ci il.
"Nabat" qəzeti,15 iyun 1919-cu il.
"Naşa vremya" qəzeti, 13 iyun 1919-cu il.
"Odlar yurdu" qəzeti, nömrə 13, iyul 1988-ci il (Mövsüm Əliyev. Nəsib bəy Yusifbəyli).
"Odlar yurdu" qəzeti, nömrə 1 (yanvar), 1989-cu il.
"Odlar yurdu" qəzeti nömrə 4, fevral 1989-cu il (Mövsüm Əliyev. Behbud ağa Cavanşir.).
"Odlar yurdu" qəzeti, nömrə 4, fevral 1989-cu il (Mövsüm Əlioğlu. Mustafa bəy Vəkilov).
"Odlar yurdu" qəzeti, 5-6 mart 1989-cu il.
"Odlar yurdu" qəzeti , -sentyabr-noyabr (nömerə 22), 1989-cu il.
"Odlar yurdu" qəzeti, 9 may 1991-ci il.
"Odlar yurdu" qəzeti, nömrə 10, may 1989-cu il (Mövsüm Əliyev. Məhəmməd Həsən Hacınski).
"Odlar yurdu" qəzeti. nömrə 17, sntyabr 1989-cu il (Mövsüm Əliyev. Fətəli xan Xoyski).
"Tarix" qəzeti ," Elm" qəzetinə əlavə, 8 dekabr 1990-cı il.
"Tarix" qəzeti, 7 sentyabr 1991-ci il (Azərbaycan Xalq Cümhuriyyətinin ilk sədri Fətəli xan Xoyski). (Birinci məqalə).
"Tarix" qəzeti, 21 sentyabr 1991-ci il (Azərbaycan Xalq Cümhuriyyətinin ilk sədri Fətəli xan Xoyski). (İkinci məqalə).

"Tarix" qəzeti, 12 oktyabr 1991-ci il (Ataxan Paşayev. Azərbaycan hökumətinin ikinci sədri Nəsib bəy Yusifbəyli).
"Tarix" qəzeti. "Elm" qəzetinə əlavə. Nömrə 5.Aprel 1992-ci il (Pərvin Darabadi. Onbirinci ordunun Bakı əməliyyatı (rusca).
"Panorama" qəzeti, 16, 17, 21, 22, 23, 24, 25 oktyabr 1997-ci il (Azərbaycan Demokratik Respublikasının daxili işlər naziri haqqında. Erməni terrorunun qurbanı Behbud xan Cavanşir).
"Panorama" qəzetri, 15 sentyabr 1998-ci il.
"Pravda" qəzeti, 19 mart 1925-ci il.
"Respublika" qəzeti, 27 may 1998-ci il.
"Respublika" qəzeti, 23 avqust 2001-ci il.
"Respublika" qəzeti , 12 dekabr 1999-cu il (Minaxanım Nuriyeva. Behbud xan Cavanşir).
"Respublika" qəzeti, 24 iyun 2004-cü il (Aydın Dadaşov. Məhəmməd Həsən Hacınskinin nəsli haqqında).
"Respublika" qəzeti, 5 sentyabr 2004-cü il (Seymur Şeydayev. Xalqa sədaqətlə xidmət yolunda. Əyyub bəy Xanbudaqovun 85 illiyi münasibətilə).
"Vışka" qəzeti, 29 dekabr 1987-ci il.
Yaddaşın bərpası. "Sərhəd" qəzetinin xüsusi buraxılışı. Nömrə 1. Bakı, 1999.
"Yeni müsavat" qəzeti, 24 avqust 1995-ci il qəzeti (Nəsiman Yaqublu. Azərbaycanın ilk Parlamenti...).
"Zarya Vostoka" qəzeti, 11 fevral 1930-cu il.
"Zarya Vostoka" qəzeti, 18 iyul 1935-ci il.
"Zerkalo" qəzeti (rusca), 31 mart, 7, 14, 21, 28 aprel, 5, 12, 19 may 2002-ci il (Vilayət Quliyev. Baş nazir Nəsib bəy Yusifbəylinin naməlum aqibəti...).
"Zəfər qalası" qəzeti, 7 sentyabr 2012-ci il (Şəmistan Nəzirli. İkinci Azərbaycan təyyarəçisi Teymur Mustafayev).

*Jurnallar*

"Azərbaycan" jurnalı, nömrə 5 (may), 1952-ci il (Ceyhun Hacıbəyli. Gəncə üsyanı.)
"Azərbaycan" jurnalı,nömrə 5, 1991 (Nigar Ağamalıyeva. İlk Azərbaycan Parlamenti).
Azərbaycan Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. Bakı, 1974 (Hüseyn Dəlili. Şahsevən tayfaları və onun Azərbaycanın siyasi həyatında mövqeyi ).



Azərbaycan Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası . Nömrə, 1,1989.
Azərbaycan polisi-90. 1918-2008. "Azərbaycan polisi " jurnalı. Nömrə 7 (iyul).Bakı, 2008, 51 səh.
Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri. İkinci buraxılış. Bakı, 2001.
Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri. Beşinci buraxılış. Bakı, 2004 (Mirzəzadə P.X. Maku və Naxçıvan xanlarının xaricdəki nəsilləri)(səh.48-54)..
Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri. Altıncı buraxılış. Bakı, 2007, 168 səh.
Azərbaycan Tarixi Şəcərə Cəmiyyətinin Xəbərləri. Yeddinci buraxılış. Bakı, 2010, 224 səh.
Azərbaycan Tarixi Səcərə Cəmiyyətinin Xəbərləri. Səkkizinci buraxılış. Bakı, 2012, 298 səh (Ə.Ş. Tahirzadə, O.Ə.Tahirli. İbrahim bəy Heydərov (Heydəroğlu).(səh.149-172)..
"Dirçəliş" jurnalı, nömrə 5, 1998 (Dilarə Seyidzadə, Asif Rüstəmli. Fətəli xan Xoyski. Vətənə və xalqa sədaqət nümunəsi).
"Dirçəliş" jurnalı. Nömrə 79. Bakı, 1991 (Zəkəriyyə Şirvani. Fətəli xan Xoyski.).
"Dirçəliş" jurnalı. Nömrə 56, 2002-ci il (Tahir Behbudov. Zirvədən uca ömür (General-mayor Sadıq bəy Ağabəyzadə).
"Hərbi bilik" jurnalı. Nömrə 4-5 1994. (Darabadi Pərvin. 1918-1920-ci illərdə Azərbaycanda baş verən hərbi-siyasi hadisələr).
"Xəzər" jurnalı. Nömrə 39, 1990-cı il.
"Qanunçuluq" jurnalı. Nömrə 6, 1998.
Milli Məclis. Analitik İnformasiya jurnalı. Parlament-90. Xüsusi buraxılış. Bakı, 2008, 100 səh.
"Müsavat" bülleteni. Nömrə 1(5), 1993.
"Pəncərə mədəniyyətə baxış" Nömrə 4. Bakı, 2008 (Aydın Dadaşov. Hacınski nəslinin rəvayəti).
Soy. Elmi-kütləvi dərgi. Nömrə 1 (yanvar). Bakı, 2003.
Soy. Elmi-kütləvi dərgi. Nömrə 2 (fevral). Bakı, 2003.
Soy. Elmi-kütləvi dərgi. Noyabr 2007.
Soy. Elmi-kütləvi dərgi. Nömrə 4 (aprel). Bakı, 2008.
Soy. Elmi-kütləvi dərgi. Nömrə 5 (may). Bakı, 2009.
Soy. Üelmi-kütləvi dərgi. Nömrə 6 (iyun). Bakı, 2009.
Soy. Elmi-kütləvi dərgi. Nömrə 8 (avqust). Bakı. 2009.
Soy. Elmi-kütləvi dərgi. Nömrə 9 (sentyabr). Bakı, 2009.
Soy. Elmi-kütləvi dərgi. Nömrə 2 (34). Fevral . Bakı, 2010.

*Ədəbiyyat*


Adil Ziyadxanlı. Azərbaycan. Bakı, 1993, 176 səh.
Adıgözəl Məmmədov. Baş tutmamış çevriliş. Bakı, 2007, 280 səh.
Ağababa Rzayev. Nəsrəddin Tusi: Həyatı, elmi, dünyagörüşü. Bakı, 1996, 267 səh.
Altay Göyüşov. Azərbaycanda ittihadçılıq. Bakı, 1997, 125 səh.
Айдын Балаев. Азербайджанское национально-демократическое движение. 1917-1920 гг. Баку, 1990, 96 səh.
Айдын Балаев. Азербайджанское национальное движение: От "Мусавата до Народного Фронт. Баку, 1992, 104 səh.
Aydın Dadaşov. Məhəmməd Həsən Hacınski. Bakı, 2004, 254 səh.
Aydın Hacıyev. Naxçıvan Qars və Araz-Türk Respublikasının tarixindən. Bakı, "Azərnəşr", Bakı, 1996., 124 səh.
Aygün Həşimova. Azərbaycan Demokratik Cümhuriyyətinin siyasi fəaliyyəti haqqında (XX əsrin birinci yarısında Azərbaycan mühacirəti. 30-cu illərin sonlarına qədər). Bakı, 1992, 168 səh.
Arif Mansurov. Tarixin ağ ləkələri və yenidənqurma. Bakı, 1990, 224 səh.
Aron Milman. XİX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanın siyasi quruluşu (İnzibati aparat və məhkəmə, müstəmləkə idarə formaları və üsulları). (Rusca). Bakı, 1966, 318 səh.
Anar Həsənov. Beynəlxalq terrorizm. Birinci hissə. Bakı, 2003.
Askerov Lev. Zapiski çekistov. Bakı, 1981.
Azərbaycan Demokratik Respublikası (Məqalələr toplusu). Bakı, 1992, 191 səh.
Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi. Bir günün təntənəsi. 2 iyul 2007-ci il.
Azərbaycan çekistləri. Bakı, 1983, 293 səh.
Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Bakı, 1964, 794 səh.
Azərbaycan polisi-90. 1918-2008. Şanlı tarix. Qəhrəmanlıq salnaməsi. Bakı, 2008, 250 səh.
Azərbaycan Sovet Ensiklopediyası (ASE). Onuncu cild. Bakı, 1987.
Azərbaycan tarixi. Üç cilddə. 3-cü cild. Birinci hissə. Bakı, 1973, 548 səh.
Azərbaycan tarixi 7 cilddə. İkinci cild. Bakı, 1998, 596 səh.
Azərbaycan tarixi.7 cilddə. Üçüncü cild. Bakı, 1999, 584 səh.
Azərbaycan tarixi 7 cilddə. Dördüncü cild. Bakı. 2000,508 səh.
Azərbaycan tarixi 7 cilddə. Büşinci cild. Bakı, 2001, 672 səh.
Azərbaycan tarixi 7 cilddə.Altıncı cild. Bakı, 2000, 568 səh.
Azərbaycan tarixi .7 cilddə. Yeddinci cild. Bakı, 2003, 676 səh.





Azərbaycan tarixi. 1-ci cild. Ali məktəblər üçün dərslik. Bakı, 2011, 720 səh.
Azərbaycan tarixi. 2-ci cild (XX əsr). Ali məktəblər üçün dərslik.Bakı, 2009, 560 səh.
Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1998, 328 səh.
Azərbaycan tarixi problemləri üzrə tədqiqatçıların Birinci Respublika elmi konfransının materialları. Bakı, 1991, 328 səh.
Azərbaycan tarixindən yüz şəxsiyyət. (Fətəli xan Xoyski və başqaları haqqında). Bakı, 2006, 267 səh.
Bağırov İbrahim. Kəngərli yurdunun generalları. Bakı, "Yazıçı", 1994, 56 səh.
Bakı polisi - 165. 1840-2005. Qısa tarixi və müasir dövrü. Bakı, 2005, 396 səh.
Bəxtiyar Nəcəfov. Azərbaycan Demokratik Respublikası. Xarici siyasət. Bakı, 1992, 83 səh.
Bəxtiyar Nəcəfov. Deportasiya. Bakı, 1998.
Cəfərli Məmməd. Azərbaycan Demokratik Respublikasının xüsusi xidmət orqanları. Bakı, 1997.
Cəlal Qasımov. Məhbus tərcümeyi-halı. Bakı, 2003.
Cəlal Qasımov,Xaqani Bağırov. Azərbaycan milli təhlükəsizlik orqanlarının tarixi. Azərbaycan təhlükəsizlik orqanlarının 90 illiyinə həsr olunur (rusca). Bakı, 2009, 512 səh.
Cəmil Həsənov. "Ağ ləkələr"in qara kölgəsi. Bakı, 1991, 200 səh.
Cəmil Həsənov. Azərbaycan beynəlxalq münasibətlər sistemində. 1918-1920. Bakı, 1993, 362 səh .
Cəmil Həsənli. Azərbaycan Cümhuriyyəti. Türkiyə yaradılandan Rusiya işğalına qədər. 1918-1920. Ankara, 1998.
Cəmil Həsənli. Azərbaycanda milli məsələ : siyasi rəhbərlik və ziyalılar 1954 -1959. Bakı, 2008, 544 səh.
Cəmil Həsənli. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti. (1918-1920-ci illər). Bakı, 2009, 576 səh.
C.Ə. Cəfərov, A.N. Qarayev, K.Ə. Səfərova. Avropa mənşəli sözlərin qısa lüğəti. Bakı, 1981, səh. 234.
Denstervil L.Ç. Britaniya imperializmi Bakıda və İranda. 1917-1918-ci illər. (Xatirələr). Tiflis, 1925.
Dilarə Seyidzadə. Azərbaycan deputatları Rusiyanın Dövlət Dumasında (rusca). Bakı, 139 səh.
E.E.Исмаилов. Генеология Талышинских-Талышхановых. Баку, 2001, 79 с.

Е.Е.Исмаилов. Фатали хан Хойский и его родословная. Генеалогический вестник. Выпуск 28. Санкт-Петербург. 2007, с. 69-77.
Elbrus Şahmar. Azərbaycan polisi tarixi (Birinci kitab). Bakı, 1997, 320 səh
Elbrus Şahmar. Daxili işlər orqanları generalları. Bakı, 1999, 504 səh.
Eynulla Fətullayev. Azərbaycan Demokratik Respublikası. Bakı, 1993.
Əhməd İsayev. Gəncə və gəncəlilər. Bakı, 1991, 352 səh.
Ədalət Tahirzadə, Həbibulla Manaflı. Unutdurulmuş azman - Əliabbas Qədimov. Bakı, "Apastroff", 2012, 204 səh.
Ənvər Çingizoğlu. Qacarlar və Qacar kəndi. Bakı, "Şuşa", 2008.
Ənvər Çingizoğlu. Behbudovlar. Bakı, 2008, 168 səh.
Ənvər Çingizoğlu. Şəmsəddil Sultanlığı. Bakı, 2012, "Mütərcim" nəşriyyatı, 208 səh.
Ənvər Çingizöglu, Surxay Əlibəyli. Qəlbin harayı. Bakı, "Şuşa" nəşriyyatı, 205 səh. 59-60.
Ənvər Çingizoğlu. Qoçəhmədli kəndi və qoçəhmədlilər. Bakı, "Mütərcim", 2012, 244 səh.
Ənvər Çingizoğlu. Xosrov bəy Sultanov (Tarixi-bioqrafik tədqiqat). Bakı, "Mütərcim", 2012, 104 səh.
Ənvər Çingizoğlu. Qarabağlı hüquqşünaslar (1822-1920). Bakı, "Mütərcim", 2012, 252 səh.
Ərəb və fars sözləri lüğəti. (Azərbaycanın klassik ədəbiyyatını oxumaq üçün). Bakı, 1985, 1026 səh.
Faiq Sümer. Oğuzlar. Bakı, 1992.
Fərman Tərtərli. Qəhrəman Tərtər. Bakı, 2000.
Firidun Əsədov, Sevil Kərimova. Çarizmi Azərbaycana gətirənlər. Bakı, 1993, 144 səh.
Göyüşov Altay. 1917-1920-ci illərdə Qafqaz dağlılarının azadlıq mübarizəsi. Bakı, 2000.
Гаджибаба Садых оглы Азимов. Великий октябрь в Азербайджане. Баку, 1987, 324 с.
Georgi Zapletin. Azərbaycan polisinin tarixi. 1900-1933 (Azərbaycanca və rusca).Bakı, 1999, 304 səh.
Qəm leysanı (Cəbrayıl şəhidləri). Bakı, 1999, 452 səh.
Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Bakı, 2000.
Gəncə. Tarixi oçerk. Bakı, 1994, 152 səh.
Qılman İlkin. Bakı və bakılılar. Bakı, "Zaman" nəşriyyatı, 1999, 388 səh.
Qılman İlkin (Musayev). Türk ordusu Bakıda (Xatirələr). Bakı, 2003, 46 səh.
Qısa siyası lüğət. Bakı, 1967, 266 səh.



Heydər Əliyev və Azərbaycanın daxili işlər orqanları. Bakı, 2003, 370 səh.
Heydər Əliyev və Azərbaycanın Xüsusi Xidmət orqanları: çlxışlar və nitqlər. Bakı, 2002.
Həsən Həsənov. Ləyaqətli şəxsiyyət (Mir Cəfər Bağırov haqqında avtobioqrafik memuar). Bakı, 2004.
Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 276 səh.
Hüquq ensiklopedik lüğəti. Bakı, 1991, 544 səh.
Həvva Məmədova. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət:erməni terrorizminin güclənməsi (1918-1920). Bakı, "Nağıl evi", 2006, 150 səh.
Xaləddin İbrahimli. Azərbaycan mühacirəti tarixi. Bakı, 2012, 400 səh.
Xanlar Bayramov. Gəncə üsyanı. "Ləman Nəşriyyat-Poliqrafiya" MMC. Bakı, 2010, 290 səh..
İbrahim bəy Heydərov. Dağıstan: zaman, talelər. Mahaç-Qala, 1999.
İbrahimli Xaləddin. Azərbaycan siyasi mühacirəti (1920-1991). Bakı, "Elm" nəşriyyatı, 1996, 308 səh.
İbrahim Zeynalov. İzahlı tarixi terminlər lüğəti. Bakı, "Azərnəşr", 2006, 284 səh.
Xəyyam İsmayılov. Azərbaycanın dövlət və hüquq tarixi. Bakı, 2006, 719 səh.
İlkin Qılman. Bakı milyonçuları. Bakı, 1998.
İ.M. Əliyarlı, T.R. Behbudov. Müstəqil Azərbaycan polisinin yaranması və fəaliyyəti (1918-1920-ci illər). Bakı, 1998, 160 səh.
İ.M.Əliyarlı, T.R. Behbudov. Azərbaycan daxili işlər orqanlarının tarixi. Ensiklopedik soraq kitabı. Xronoloji toplu. 1840-2003-cü illər. Bakı, 2003, 248 səh.
İltifat Əliyarlı, Tahir Behbudov. Azərbaycanın daxili işlər nazirləri. Bakı, 2008, 535 səh.
İltifat Əliyarlı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə rabitənin inkişafı. Bakı, 2009, 124 səh.
İslam. Qısa məlumat kitabı. Bakı, 1989, 157 səh.
İsmayıl Məmmədov. Azərbaycan tarixi. (Ali məktəblər üçün dərslik). Bakı. 2003.
İ.Şaxdin. "Daşnaksütyun" Qafqazda rus ağqvardiyaçılarının və ingilis komandanlığının xidmətində.Tiflis, 1931.
Kərim Dünyamalı. Bir soyun taleyi. Bakı, 2004.
Kərim Dünyamalı. Qana boyanmış illər. Bakı, "Mütərcim", 1999.
Kərim Dünyamalı. Yaddaşlarda qorunan tarix. Arxivlərin lal sükütu nədən xəbər verir. Bakı, "Mütərcim", 2006, 200 səh.

Qasımov Cəlal. Əksinqilabla Mübarizə Təşkilatı və siyasi repressiya. Bakı, 1997.
Qasım Hacıyev, Ənvər Çingizoğlu. Qarabağlı hərbiçilər: Çar və Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabitləri. Bakı, "Təknur" nəşriyyatı, 2011, 320 səh.
Qafqazda sovet totalizarizmi (1929-1930-cu illər). Bakı, 1998.
Qəhrəman Qəhrəmanov. Biz qayıdacağıq. Bakı, 2010, 149 səh.
Qoca Elşad. Azərbaycanın təhlükəsizlik və xüsusi xidmət orqanları (1918-1920). Bakı, 2008.
Lətif Şükürov. Cümhuriyyət hökuməti repressiya məngənəsində. Bakı, "Şirvannəşr", 2000, 296 səh.
Мамед Казиев. Нариман Нариманов (жизнь и деятельность). Баку, 1970, 187 с.
Manaf Süleymanov. Eşitdiklərim, oxuduqlarım, gördüklərim. Bakı, 1987, 1989, 320 səh.
Məcid Katibli. Çingiz İldırım. Bakı, 1964, 114 səh.
Məcid Katibli. M.Ə. Rəsulzadə. Bioqrafik oçerk . Bakı, 1986, 128 səh.
Məhəmməd Məmmədov. Muxtar Respublikanın 80 illik yubileyi. Bakı, 2000, 74 səh.
Məmməd Əmin Rəsulzadsə. Əsrimizin Səyavuşu. Bakı, 1991, səh. 12.
M.Ə. Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, 116 səh.
Midhət Qafarov, Vaqif Abışov, Hikmət Eyvazov. Azərbaycan Respublikasının hüquq-mühafizə orqanları. Bakı, 2006.
Mir Cəfər Bağırovun məhkəməsi (Arxiv materialları). Bakı, 1993, 120 səh.
Министерство Внутренних Дел: Страницы истории. 1802-2008. Санкт-Петербург. 2002.
Mirzə Bala Məmmədzadə. Milli Azərbaycan hərəkatı. Bakı, 1992.
M.Qocayev. Azərbaycanda şəhər və rayonlar. Bakı, 2002.
Mirzə Davud Hüseynov. "Müsavat" partiyası keçmişdə və indi (rusca). Bakı, 1927.
Möhbəddin Səməd. Toğrul Nərimanbəyov. Bakı, 1984, 600 səh.
Musa Qasımlı. Avropa və Amerika ölkələrinin müasir tarixi. Birinci hissə. 1918-1945-ci illər. Bakı, 2003, 364 səh.
Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı, 1996.
Mustafa Quliyev. Azərbaycanda oktyabrın düşmənləri (rusca). Bakı, 1927.
MTN. Tarixi-hüquqi mənbələr (1991-2004). Bakı, 2005.



Михайлов Й.Л. Експансия Британского империализма в Азербайджанс (1918-1920). Дис. канд. ист.наук. Баку, 1985.
Nağı bəy Şeyxzamanlı. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı, 1997, 176 səh.
Naxçıvan Ensiklopediyası. Bakı, 2002 .
Нагдалиев Фархад. Ханы Нахичеванские в Российской Империи. Новый Аргумент. Москва, 2006, 432 səh.
Nazim Tapdıqoğlu (Vəlişov). Qaçaq Xanalı.(Roman). Bakı, "Təhsil" nəşriyyatı, 2 005, 134 səh.
Nazim Tapdıqoğlu (Vəlişov). Füzuli rayonu. Toponimləri, tarixi abidələri, şəhidləri, görkəmli şəxsiyyətləri və ziyalıları (Ensiklopedik məlumat kitabı). "Zərdabi LTD MMC". Bakı, 2009, 640 səh.
Nazim Vəlişov. Sultan bəy. Bakı, "Yazıçı", 2011,196 səh.
N.Nəbiyev. Coğrafi adlar. Bakı, 1982.
Nasir Nəcmi. Abbas Mirzə və 19-cu əsr Rusiya-İran-Azərbaycan münasibətləri. Bakı, "Yazıçı", 1993, 128 səh.
Nəriman Nərimanov. Möhtərəm Nəsib bəy cənabları (N.Nərimanovun Nəsib bəyə məktubu). N. Nərimanov. Məqalələr, nitqlər. Bakı, 1971.
Nəriman Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair. İ.V. Stalinə məktub. Bakı, 1992 ,80 səh.
Nəsiman Yaqublu. Məmmədəmin Rəsulzadə. Bakı, 1991, 308 səh.
Nəzər Heydərov. Zəngəzur dağlarında. Bakı, 1989.
Nəzirli Şəmistan. General Cavad bəy Şıxlinski. Bakı, 1995.
Nigar Ağamalıyeva, Rauf Xudiyev. Azərbaycan Respublikası. Siyasi tariximizdən səhifələr. 1918-1920-ci illər.(Rusca)., Bakı, 1994.
Н.К.Байбаков. От Сталина до Ельцина. Москва, 1998.
Nizami Məhərrəmov. Getsin gəlməsin (Repressiya qurbanları...). Bakı, 1992, 144 səh.
Osman Mirzəyev. Ağ ləkələr silinir. Bakı, 1991,198 səh.
Раевский А. Английская интервенция и мусаватское правительство. Баку, 1927.
Paşayev Ataxan. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001.
Rafael Hüseynov. Rəfibəylilər. Bakı, 1996.
Rafael Hüseynov. Yurdun adındakı can. Bakı, 2010, 904 səh.
Ramin Məmmədov. Şəfibəy Rüstəmbəyli haqqında. Qəbələ: İnsanlar, talelər, ziyalılar. Bakı, 1998, 320 səh.
Ramiz Əhmədov. Mir Cəfər Bağırov. Bakı, 2002, 520 səh.
Rusca-Azərbaycanca qısa hərbi lüğət. Bakı, 1975, 128 səh.
Sabir İbrahimov. General Əli ağa Şıxlinski (Həyat və fəaliyyəti). (Rusca). Bakı, 1975, 138 səh.

Садых Зейналоглы. Кровавая память истории. Баку 2001.
Садых Зейналоглы. Их лишили родины. Баку 2006.
Салников В.П. Министрерство Внутренних Дел: 1802-2002. Исторические очерки в томах. Санкт-Петербург, 2002.
Сергей Берия. Лаврентий Берия. Москва, 1994.
Səid Sadıqov. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı, 1995, 144 səh.
Səməd bəy Ağaoğlu. Babamın arkadaşları. İstanbul,1957.
Sovet hakimiyyəti uğrunda. Xatirələr məcmuəsi .Bakı, 1967, 259 səh.
Советская милиция. История и современность. 1917-1987. Москва, 1987. 336 с.
Süleyman Əliyarlı.Birinci Dünya müharibəsi dövründə neft inhisarları (rusca). Bakı, 1974, 231 səh.
Süleymanov Manaf. Ağa Musa Nağıyev. Bakı, 1994.
Süleymanov Manaf. Hacı Züynalabdin Tağıyev. Bakı, 1996.
Süleymanov Mehman. Azərbaycan ordusu (1918-1920). Bakı,1 998, 488 səh.
Seyfəddin Qəniyev. Şamaxı soyqrımı. Bakı, 2003.
Şəfiqə Məmmədova. Anaların fəryadı . Bakı, "Gənclik", 2006, 508 səh.
Səmədxan Beyləqanlı. Beyləqanım oğuz yurdum. Bakı, 1994.
Şəmistan Nəzirli. Daşsalahlı Məmməd Koxa. Bakı, 1977.
Şəmistan Nəzirli. Arxivlərin sirri açılır. Bakı, "Elm", 1999.
Şəmistan Nəzirli. Azərbaycan generalları. Bakı, 1991, 208 səh.
Şəmistan Nəzirli. Cümhuriyyət generalları. Bakı, 1995, 212 səh.
Şəmistan Nəzirli. Qarabağ döyüşçüləri. Bakı, 2000, 480 səh.
Şəmistan Nəzirli. General Əli ağa Şıxlınski və sılahdaşları. Hərb tariximizdən araşdırmalar. Bakı, 2012, 496 səh..
Şəmistan Nəzirli. Tam Atilleriya genaralı Səməd bəy Mehmandarov. Bakı 1997, 120 səh.
Şikar Qasımov. Əsirlikdə qlan Laçın. Bakı, "Elm" nəşriyyatı, 2012, 205 səh.
Şikar Qasımov. Xalq qəhrəmanı Sultan bəy. Bakı, "Elm", 2011, 385 səh.
Tahir Behbudov. Azərbaycan daxili işlər orqanları sisteminin formalaşması və fəaliyyəti (1980-ci illərin ortalarınadək).(Rusca). Bakı, 1995, 35 səh.
Tahir Behbudov. İngilis polisi Bakıda. 1918-1920.(Rusca). Bakı, 2003, 138 səh.
Т.Р.Бехбудов. История Бакинской полиции 1910-1914. Баку, 2009.
Таир Бехбудов. Азербайджанская полиция: история, теория, практика. Баку, 2012, 336 с.



Talıb Musayev. XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr. Bakı, 1999
Teyyub Nəsirov. Azərbaycanda hakimiyyət uğrunda mübarizə (1917-1918-ci illər). Bakı, 1993.
Teyyub Qurban. Düşməndən güclü şəxsiyyət (2-ci kitab). Bakı, 2011, 508 səh. (8 səh.foto).
Tofiq Əhmədov. Elimizin-obamızın adları. Bakı, "Gənclik", 1984.
Tofiq Köçərli. Qarabağ:yalan və həqiqət. Bakı, 1998.
Tofiq Köçərli. Qarabağ. Bakı, 2002.
Tofiq Yusif. "Mən"sizləşmə fəlakəti. Tərtərli Behbud Cavanşir. Bakı, "Nurlan", 2009.
Utkan Qocatürk.Atatürk. Bakı, 1991, 210 səh.
Vahid Quliyev, Şirzad Babayev. Azərbaycanın qədim və müasir şəhərləri haqqında məlumat. Bakı, 2003, 100 səh.
Vasif Quliyev. Mənim babam kim olub?. Bakı, "Şuşa " nəşriyyatı. 1991.
Vəliyev Məhəmməd Həsən (Baharlı). Azərbaycan, Bakı, 1993, 192 səh.
Vəsmə İsmayılqızı. Beyləqan. Ensiklopedik toplu. Birinci cild. Bakı, 2010, 680 səh.
Vidadi İsayev. Yevlax. Sənədlərdə və yaddaşlarda. Bakı, 2001, 452 səh.
Vilayət Quliyev. Ağaoğlular. Bakı, 1998, 40 səh
Yəhya Yusif Canıyar. Turan Mübarizi. İki cilddə. 1-ci cild. Bakı, 2011, 400 səh.
Yüz böyük türk. Bakı, 1991, 128 səh. .
Ziya Bünyadov. Dinlər, təriqətlər, məzhəblər (Arayış kitabı). Bakı, 1997, 288 səh.
Ziya Bünyadov, Mövsüm Əliyev. Fətəli xan Xoyski. Bakı, 1997, 41 səh.
Ziya Bünyadov. Qırmızı terror. Bakı, 1993, 331 səh.
Zülfəli İbrahimov. V.İ. Lenin və sosialist inqilabının qələbəsi. Bakı, 1970, 528 səh.

## MİNNƏTDARLIQ

Kitabdakı bir sıra şəkilləri, materialları və məlumatları təqdim etməklə köməklərini əsirgəməmiş BDU-nun Politologiya kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru, əməkdar müəllim, istefada olan polis polkovniki Tahir Behbudova, Bakı Asiya Universitetinin professoru Ədalət Tahirzadəyə və AzTV-nin böyük redaktoru, tədqiqatçı-jurnalist Ənvər Çingizoğluna dərin minnətdarlığımı bildirirəm.

## OXUCULARIN NƏZƏRİNƏ!

Kitabla bağlı əlavə məlumat almaq istəyənlər aşağıdakı
əlaqə telefonuna zəng edə bilərlər: 050 672-33 40.



**İltifat Şahsevən (Əliyarlı)**

**Azərbaycan Cümhuriyyətinin daxili işlər nazirləri və silahdaşları**

*(İstiqlal fədailəri)*

*(1918-20-ci illər)*

Bakı – Mütərcim – 2017

*Kitab «Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzində
səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 08.06.2017.
Format: 60x90 1/16. Qarnitur: Times.
Həcmi: 29, 75 ç.v. Tiraj: 250. Sifariş № 176.

MÜTƏRCİM

TƏRCÜMƏ
VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Az 1014, Bakı, Rəsul Rza küç., 125/139b
Tel./faks 596 21 44, (055) 715 63 99
e-mail: mutarjim@mail.ru
www.mutercim.az